AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

ALMAN DİLİNİN FONETİKASI, QRAMMATİKASI VƏ TARİXİ KAFEDRASI,
EKSPERİMENTAL FONETİKA VƏ TƏTBİQİ DİLÇİLİK LABORATORİYASI

DİLÇİLİK ENSİKLOPEDİYASI

II cild

(dərs vəsaiti)

Azərbaycan Respublikası təhsil nazirinin 07 aprel 2005-ci il tarixli 222 saylı əmri ilə təsdiq edilmişdir.

Bakı – MÜTƏRCİM – 2008

filologiya elmləri doktoru, prof. **Fəxrəddin Yadigar oğlu Veysəllinin**
müəllifliyi və redaktəsilə hazırlanıb

Məsləhətçilər:
əməkdar elm xadimi, filologiya elmləri doktoru,
AMEA-nın müxbir üzvü, prof. **K.M.Abdullayev,**
prof. **B.B.İsmayılov,**
filologiya elmləri doktoru, prof. **M.M.Musaoğlu**

Rəyçilər:
filologiya elmləri doktoru **F.H.Zeynalov,**
filologiya elmləri doktoru **A.Y.Məmmədov**

Məsul katib:
filologiya elmləri namizədi **C.M.Babayev**

Dilçilik ensiklopediyası. II cild (dərs vəsaiti) prof.F.Veysəllinin redaktəsi ilə. – Bakı: Mütərcim, 2008. – 528 səh.

$D\frac{4306020000-50}{026}22-08$

© Mütərcim, 2008
© ADU, 2008

ÖN SÖZ

Bizim "Dilçilik ensiklopediya"sı ilə bağlı ümidlərimiz özünü doğrultdu. Onun birinci cildi (Bakı, 2006) oxucular və mütəxəssislər tərəfindən çox maraqla qarşılandı.16.02.2007-ci il tarixdə ADU-nun iclas zalında Respublikamızın elm və təhsil ictimaiyyətinin fəal iştirakı ilə onun təqdimatı keçirildi. Təqdimatda ADU-nun rektoru prof.S.İ.Seyidov, AR MEA-nın müxbir üzvü T.İ.Hacıyev, professorlar H.İsaxanlı, A.Q.Ələkbərli, M.Qazıyeva, dosentlər Ç.Qurbanlı, Q.Bayramov və başqaları çıxış edərək bu nəşrin ölkə həyatında qeyri-adi bir hadisə olduğunu xüsusi vurğuladılar və onunla bağlı öz təklif və rəylərini söylədilər. Biz də öz çıxışımızda bütün çıxış edənlərə və iştirakçılara öz minnətdarlığımızı bildirdik və kitabın ikinci cildini hazırlayıb tezliklə çapını həyata keçirməyi onlara vəd etdik.

Budur, ikinci cild sizin əlinizdədir, əziz oxucular. Vəd elədiyimiz kimi, ensiklopediyanın bu cildində də dünya dilçiliyində söz sahibi olan alimlərin ad göstəricilərini və özək sözləri, habelə ensiklopediyada adları çəkilən dillərin siyahısı, mühüm mənbə və qaynaqları da verməyə nail olduq. Bu cildə О-dan Я-ya qədərki hərflər əhatə olunub. Onlar aşağıdakı kimi bölüşdürülmüşdü: О, П, Р,С, Э hərflərilə başlayan sözləri f. e. n C.Babayev, Ф, Х, Ц, Ч, Ю hərflərilə başlayan sözləri Z.Əliyeva, Т, У, Ш, Щ hərflərilə başlayan sözləri Z.Əsgərova, Я hərfilə başlayan sözləri isə E.Əliyeva düzmüş, onların alman, ingilis və fransız dillərində ekvivalentlərinin tapılıb yerinə qoyulmasına köməklik göstərmişlər. Bundan sonra onların Azərbaycan dilində açılışı verilmişdir. Əməkdaşımız M.Seyidrzayev terminlərin alman qarşılığının dəqiqləşdirilməsində yaxından iştirak etmişdir. Ensiklopediyada «Ad göstəricilərini», «Özək sözləri» «Dillərin siyahısı»-nı C.Babayev, E.Əliyeva və S.Cumayeva hazırlamışlar. Bu cildin əlyazmasını oxuyub fikir və mülahizələrini söyləmiş f.e.d., prof. A.Məmmədova, f.e.d., prof. İ.Qasımova, dos. R.Cabbarova xüsusi təşəkkürümüzü bildirmək istərdik.

Ensiklopediyanın hər iki cildində adı çəkilən alimlərin, işlənən özək sözlərin və dillərin sonda siyahısı verilir. Hər üç halda onların birinci cilddəki səhifələri göstərilir, ikinci cilddəki səhifələrdən əvvəl II rəqəmi verilir. Bu da o deməkdir ki, bu rəqəmdən sonra gələn səhifə nömrələri yalnız ikinci cildə aiddir.

«Dilçilik ensiklopediyası»-nı diqqətlə oxuyub öz tənqidi münasibətini «Azərbaycanda Xarici Dillər» jurnalının 3-cü sayında(Bakı, 2007, s. 81-84) bildirmiş f.e.d., prof. H.K.Quliyevə səmimi təşəkkürümüzü bildirmək istəyirik.

Ensiklopediyanın ərsəyə gəlməsində öz mənəvi yardımını əsirgəməmiş dos. Q.Bayramova və b/m S.İsazadəyə öz minnətdarlığımızı bildiririk.

İnanırıq ki, «Dilçilik ensiklopediyası» iki cilddə nəşr olunaraq oxucular a təqdim olunandan sonra o, dilçiliyi özünə ixtisas seçmiş insanların tələbatını az da olsa ödəyə biləcəkdir. «Dilçilik ensiklopediyası»nın gələcək nəşrində nöqsanların aradan qaldırılmasında yardımçı ola biləcək təklif, rəy və iradları qəbul etməyə hazır olduğumuzu bildirmək istəyirik.

«Dilçilik ensiklopediyası»-nın hər iki cildini ADU maliyyələşdirmişdir. Bunun üçün onun rəhbərliyinə öz təşəkkürümüzü bildiririk.

Hörmətlə: *filologiya elmləri doktoru, prof.* **F.Y.Veysəlli,**
fveysalov@hotmail.com

ENSİKLOPEDİYADA İSTİFADƏ OLUNAN QISALTMALAR

azərb. - *azərbaycanca*
Azərb. d. - *Azərbaycan dilində*
alm. – *almanca*
alm. d. – *alman dilində*
a. - *agens*
a. – *adstrat*
AEA - *Azərbaycan Elmlər Akademiyası*
aksent. – *aksentologiya*
bolq. d. – *bolqar dilində*
b. e. ə. – *bizim eradan əvvəl*
dd. – *doktorluq dissertasiyası*
f. - *femininum*
fr. – *fransızca*
fr. d. - *fransız dilində*
f – *fel*
GDG - *German dilçiliyinə giriş*
q. i. d. – *qədim ingilis dili*
x – *xəbər*
XMT – *Xəbər, mübtəda, tamamlıq*
ing. - *ingiliscə*
ing. d. - *ingilis dilində*
ital. d. – *italyan dilində*
lat. – *latınca*
məs. - *məsələn*
m. - *maskulinum*
müq. et. - *müqayisə et*
M. - *Moskva*
m. – *mübtəda*
m. i. d. – *müasir ingilis dili*
nd – *namizədlik dissertasiyası*
o. a. d. – *orta alman dili*
rus d. - *rus dilində*
rus. - *rusca*
rum. d. – *rumın dilində*
s. - *səhifə.*
SDƏ - *Struktur dilciliyin əsasları*
t – *tamamlıq*

və i. – *və ilaxir*
və s. – *və sair*
y. a. d. – *yeni alman dili*

¿...Ꞟ - *sual bildirən cümlələrdə qoyulur*
/...// - *bitkinlik intonasiyası ilə deyilən cümlənin transkripsiya işarəsidir*

¡...¡ - *nida cümlələrində qoyulur*

← . - *irəliyə işarə*


→. - *sonrakı səhifəyə işarə*
*. – *alman dilində söz başında gələn cingiltili samitlərin yanında qoyulur və onların yarımcingiltili tələffüz olunduğunu bildirir.*

DİLÇİLİK ENSİKLOPEDİYASI

(Dilçilik terminlərinin rus dilində sıralanması, alman, ingilis və fransız dillərində ekvivalenti və Azərbaycan dilində şərhi)

– O –

ОБЕРТОН – alm. Oberton (m), ing. overtone /'əuvətəun/əuvə'təun/, harmonic sound /'hɑ:mənık saund/, fr. ton harmonique, azərb. – oberton (parsial ton). – Əlavə, nisbətən yüksək ton. Simin bütövlükdə titrəməsi əsas tonu, onun hissələrinin titrəməsi isə parsial (hissə, ayrı) tonu verir. Obertonlar səsə müəyyən rəng, əlavə çalar verir ki, buna da fonetikada tembr deyilir.




Şəkil: simin titrəməsi: 1. Simin bütövlükdə titrəməsi; 2. Simin 2/1 hissəsinin titrəməsi; 3. Simin 3/1 hissəsinin titrəməsi.

Fərz edək ki, simin bütövlükdə titrəməsi 100 hs-ə bərabərdir. Simi iki yerə bölüb onun hər birinin tezliyini müəyyən etsək, onda hər bir hissənin titrəmə tezliyi bütövün titrəməsindən 2 dəfə çox olacaqdır. Deməli, simi neçə yerə bölsək, onun hər birinin titrəmə tezliyi bir o qədər yüksək olacaqdır. F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası, Bakı, 1980, s. 25.

ОБЕРТОНАЛЬНЫЙ – alm. mitklingend, ing. harmonic /'hɑ:mənık/, fr. harmonique, azərb. obertonal. - Səsin əsas tonuna xüsusi çalarlıq verən ton. Bax: Обертон ←.

ОБИХОДНЫЙ ЯЗЫК – alm. umgangssprachlich, ing. every-day language /evrıdeı 'læŋgwıʤ/, colloquial /kə'ləukwıəl 'læŋgwıʤ/ fr. la langue usuelle courante (familière), azərb. adi danışıq dili. - Gündəlik fəaliyyətdə ünsiyyət zamanı işlətdiyimiz danışıq dili. Danışıq dili ümumxalq dili ilə ədəbi dil arasında aralıq vəziyyəti təşkil edir.



ədəbi danışıq üslubu
anlaşıqlı danışıq üslubu
adi danışıq üslubu

ümumxalq danışıq üslubu

F.Yadigar (Veysəlli). GDG, s. 88.

ОБИХОДНАЯ ЛЕКСИКА – alm. ing. everyday vocabulary /evrideı vəʊ'kæbjʊlərı/, colloquial vocabulary /kə'ləʊkwıəl vəʊ'kæbjʊlərı/, fr. lexique courante, azərb. danışıq leksikası. - Gündəlik həyatda işlənən zəruri əşya və hadisələrin adlarını bildirən leksika. Məs.: Azərb. d. /otaq/, /yataq/, /qaşıq/, /ev/ və s.

Ю.С.Маслов. Göstərilən əsəri, s. 104-143.

ОБЛАСТНОЙ – alm. regional, ing. dialectal (dialectical) /ˌdaıə'lektəl/ 'dʌıə'lɛktık(ə)l/, regional /'rı:ʤənəl/, fr. régional, de la région azərb. bölgəyə aid olan. - Müəyyən əraziyə aid olan, dildə müəyyən ərazidə yayılmış sözlər, yerli, qeyri-ədəbi, nümunəvi olmayan, standarta uyğun gəlməyən. Məs.: Yardımlı rayonunda yerli əhalinin danışığında işlədilən /şum etmək/ əvəzinə /boraşim/, /şum/ əvəzinə /şoxum/və s. sözləri.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 147-148.

ОБЛАСТЬ АРТИКУЛЯЦИИ – alm . Artikulationsbasis (f), ing. region of articulation /'rı:ʤən əv ɑ:ˌtıkjʊ'leıʃən/, fr. lieu (domaine) d'articulation, azərb. tələffüz sahəsi. – Dildə səslərin əmələ gəldiyi yer, sahə. Burada fəal üzvlərin – dilin, səs tellərinin, damaq pərdəsinin, dodaqların hərəkətləri mühüm əhəmiyyət kəsb edir.

Л.Р.Зиндер. Göstərilən əsəri.

ОБОБЩАЮЩИЙ АРТИКЛЬ - alm. verallgemeinernder, generalisierender Artikel (m), ing. generalizing article /'ʤenərəlaızıŋ 'ɑ:tıkl/, fr. article généralisant, azərb. ümumiləşdirici artikl. - Müəyyən bir sinfə (klassa) aid olan, predmetləri ümumi üzv kimi göstərən artikl. Məs.: alm. d. /Der Hund ist ein Tier// (İt bir heyvandır) və ya /Die Rose ist eine Blume// (Qızıl gül bir güldür) cümlələrində /die Rose/ və /der Hund/ konkret qızıl gülü və iti deyil, bütün /gül/ və /itlərin/ təmsilçiləridir. /Der Mensch ist sterblich// (İnsan ölümə məhkumdur). Hər üç halda isimləri cəmdə də işlətmək olar. Belə hallarda ümumiləşmiş artikldən danışmaq olar.

Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, s. 84.

ОБОБЩЕННОЕ ПОДЛЕЖАЩЕЕ – alm. verallgemeinerndes Subjekt (n), ing. generalizing subject /'ʤenərəlaızıŋ sʌbʤıkt/, fr. sujet généralisé, azərb. ümumiləşmiş mübtəda.

Bax: Подлежащее→.

ОБОБЩЕННО-ЛИЧНОЕ ПРЕДЛОЖЕНИЕ – alm. verallgemeinernd-persönlicher Satz (m), ing. generalized-personal sentence /'ʤenərəlaızd 'pə:sənəl sentəns/, fr. proposition personnelle généralisante, azərb. ümumi şəxsli cümlə. – Xəbəri müəyyən şəxs və zamanda ifadə olunan təktərkibli cümlə. Formal cəhətdən mübtədası olmayan, ancaq istənilən şəxsi nəzərdə tutan cümlə. Hərəkətin müəyyən və qeyri-müəyyən şəxsə deyil, bütün şəxslərə aid olduğunu bildirən mübtədasız təktərkibli cümlə tipi. Ümumi şəxsli cümlələrin xəbərləri qeyri-qəti gələcək və ya indiki zaman bildirən felin ikinci şəxsin təki və üçüncü şəxsin cəmi ilə, ya da əmr şəklinin birinci və ikinci şəxs təki ilə ifadə olunur. Məs.: Azərb. d. /Könlü balıq istəyən, ayağını suya salar// və ya /Tələsən təndirə düşər//.
A.A.Реформатский. Göstərilən əsəri, s. 337.

ОБОЗНАЧАЕМОЕ – alm. Bezeichnete (n), ing. denotatum /di:nəu'teıtəm/, signified /'sıgnıfaıd/, fr. signifié, azərb. işarələnən. - Dil vahidlərinin daxili semantik tərəfi. Danışıq aktında işarələnən xarici aləmin hər hansı əşya, proses və hadisələri haqqında məlumata deyilir. Məs.: Azərb. d. /qala/ dörd fonemin ardıcıl düzümü olaraq işarələyən olduqda onun işarələnməsi bağın, həyətin daşdan hörülmüş divarları olur. Dilə işarələr sistemi kimi yanaşan F. de Sössür işarəni ikitərəfli vəhdətdə götürür və onu kağız parçası ilə müqayisə edərək yazır ki, kağızın iki tərəfi bir-birindən ayrılmaz olduğu kimi, işarənin də tərəflərini bir-birindən ayırıb götürmək olmaz. -
F.Yadigar (Veysəlli). GDG, s. 37-42.

ОБОЗНАЧАЮЩЕЕ - alm. Bezeichnende (n), ing. signifying /'sıgnıfaıŋ/, significant /sıgnıfıkənt/ fr. signifiant, azərb. işarələyən. – Dildəki vahidlərin ifadə planı. Məs.: Azərb. d. /qala/ divarları daşdan hörülmüş müdafiə məqsədli tikili.
F.Yadigar (Veysəlli). GDG. s. 37-42.

ОБОЗНАЧЕНИЕ – alm. Denotation (f), ing. denotation /ˌdi:'nəu'teıʃən/, designation /ˌdezıg'neıʃən/, fr. désignation, signification, azərb. işarətmə, adlandırma. - Sözlərin adlandırma funksiyasında işlədilməsi. Məs.: Azərb. d. /daş/, /ağac/, /öküz/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 273.

ОБОЛОЧКА – alm. Lauthülle (f), ing. husk /hʌsk/, envelope /'envələup/, fr. enveloppe, azərb. qabıq, örtük. - Dil vahidinin xarici (formal) cəhəti, səs tərəfi.
Bax: Означающее ←.

ОБОЛОЧКА ЗВУКОВАЯ – alm. Lauthülle (f), ing. sound envelope /saund 'envələup/, fr. enveloppe sonore, azərb. səs örtüyü, səs qabığı. – Dil vahidlərinin substansiyası.
Bax: Означающее ←.

ОБОРОТ – alm. Wendung (f), ing. phrase /freɪz/, construction /kən'strʌkʃən/, fr. tour, circulation, azərb. tərkib. - Dilin qrammatik qanunları əsasında əmələ gələn sabit birləşmələr. **Bu** tərkiblərin ümumi mənası onları təşkil edən ayrı-ayrı komponent**lərin** cəmi deyil. Məs.: Azərb. d /möhkəm iradəli insan/ tamam yeni **bir** məna verir. Azərb. d. /kiməsə torba tikmək// ifadəsində söhbət kiməsə **torba** tikilməsindən getmir. Kimsənisə aldatmaqdan söhbət gedir. Alm. **d.** /Auf der Bärenhaut liegen// hərfi mənası ayı dərisi üzərində uzan**maq** deməkdir, əslində isə burada söhbət tənbəllik etməkdən gedir. Amerikan **dilçiliyində** buna fraza da deyirlər. Burada fraza iki və daha artıq **kiçik** sərbəst formalardan ibarət olan sərbəst forma adlanır. Məs.: alm. d. /**recht** gern/ (çox məmuniyyətlə), /wirklich sehr energisch/ (həqiqətən **çox enerjili**) və s.
R.Conrad. Göstərilən əsəri, s. 200-201.

ОБОРОТ ДЕЕПРИЧАСТНЫЙ – alm. Partizipialgruppe (f), Partizipialkonstruktion (f), ing. adverbial-participial phrase /ædvɜ:'bɪəl ˌpɑ:tɪ'sɪpɪəl freɪz/, fr. tournure gérondif, azərb. feli bağlama tərkibi. - Feli bağlamadan əvvəl gələrək onunla qrammatik **əlaqədə** olan sözlərin feli bağlama ilə birlikdə əmələ gətirdiyi konstruksiya. Məs.: Azərb. d. /Əlindəki işi qurtardığından günorta yeməyini də özü hazırlamaq istədi//, /Angekommen in Baku wollte er **dort** das Kunstmuseum besuchen// (Bakıya çatan kimi incəsənət muzeyinə getmək istədi).
R.Conrad. Göstərilən əsəri, s. 193.

ОБОРОТ ПРИЧАСТНЫЙ – alm. Partizipialgruppe (f), Partizipialkonstruktion (f), ing. participial construction /ˌpɑ:tɪ'sɪpɪəl kən'strʌkʃən/, fr. tournure participialle, azərb. feli sifət tərkibi. – **Feli** sifətdən əvvəl gəlib, onunla tabelik əlaqəsi saxlayan sözlər feli sifət **tərkibini** əmələ gətirir. Feli sifət tərkibinin əsas sözü feli sifətdir. Məs.: **Azərb.** d. /Qoca hələ də qapının yanında dayanıb, bir az bundan əvvəl **eşitdiklərini** yadına salmağa çalışırdı//.
M.Hüseynzadə. Göstərilən əsəri, s. 235-237.

ОБОСОБЛЕНИЕ – alm. Absonderung (f), ing. isolation /ˌaɪsəʊ'leɪʃən/, fr. isolation, isolement, azərb. xüsusiləşmə. – **Bu və** ya digər üzvdən fasilə, vurğu və intonasiya ilə ayrılan söz və ya **tərkib.** Xüsusiləşmələr asanlıqla cümləyə çevrilə bilirlər. Məs.: rus d. /Усталые и измученные охотники легли спать//
А.А.Реформатский. Göstərilən əsəri, s. 35.

ОБОСОБЛЕННЫЙ – alm. abgesondert, ing. isolated /'aɪsəleɪtɪd/, fr. isolé, azərb. xüsusiləşmiş. - Cümlə daxilində **bu və** ya digər cümlə üzvünün xüsusiləşməsi. Məs.: Azərb. d. /Hər ikisi **istirahətsiz** – gecə-gündüz yorulmadan çalışırdılar, lakin bir şeyə nail ola **bilmədilər**//
О.С.Ахманова. Göstərilən əsər, s. 279.

ОБРАЗНЫЙ – alm. bildhaft, ing. image-bearing /'ımıʤ beərı:ŋ/, fr. imagé, azərb. ifadəli, obrazlı. - İfadəlilik bildirən, zəngin ifadəliliyə malik olan. Məs.: Azərb. d. /O sürünə-sürünə irəliləyirdi//.
R.Conrad. Göstərilən əsəri, s. 53.

ОБРАЗНОЕ ЗНАЧЕНИЕ – alm. bildhafte Bedeutung (f), ing. figurative meaning /'fıgjurətıv/'fıgərətıv 'mi:nıŋ/, fr. signification imagé, azərb. ifadəli məna. -- Sözün məcazi səciyyə daşıyan mənası. Məs.: Azərb. d. /Vicdan susanda/, /Ay dənizdə çimir/, /Məftillər ulayırdı/ və s.
R.Conrad. Göstərilən əsəri, s. 53.

ОБРАЗОВАНИЕ ВИДОВОЕ СТУПЕНЧАТОЕ – alm. graduelle Aspektbildung (f), ing. aspect formation by degrees /'æspekt fɔ:'meıʃən baı dı'gri:s/, fr. d'aspect formation étagé, azərb. pilləli növün əmələ gəlməsi. - Bitmiş tərz fellərindən bitməmiş tərz fellərin ikinci formasının ardıcıllıqla düzəlməsi. Məs.: rus d. /селить – вселить – вселять/.
О.С.Ахманова. Göstərilən əsəri, s. 275.

ОБРАЗОВАНИЯ ВИДОВОГО ВТОРАЯ СТУПЕНЬ – alm. Aspektbildung zweiter Stufe (f), ing. second degree of aspect formation /'sekənd dı'gri: əv 'æspekt fɔ:'meıʃən/, fr. d'aspect formation deuxième degré, azərb. növ düzəltmənin ikinci pilləsi. Önşəkilçili bitmiş tərz fellərindən bitməmiş tərzə aid olan fellərin düzəldilməsi. Məs. rus d. /выиграть-выигрывать/, /просеять-просеивать/.
О.С.Ахманова. Göstərilən əsəri, s. 275.

ОБРАЗОВАНИЯ ВИДОВОГО ТРЕТЬЯ СТУПЕНЬ – alm. Aspektbildung dritter Stufe (f), ing. third degree of aspect formation /θə:d dı'gri: əv 'æspekt fɔ:'meıʃən/, fr. d'aspect formation troisième degré, azərb. növ düzəltmənin üçüncü mərhələsi. - Önşəkilçili bitməmiş tərz fellərindən ikinci (əlavə) önşəkilçi artırmaqla bitmiş tərzin düzəldilməsi. Məs.: rus d. /прикалывать - поприкалывать/, /присыпать – напрысывать/.
О.С.Ахманова. Göstərilən əsəri, s. 275.

ОБРАЗОВАНИЕ „ЗВУКА" – alm. Lautbildung (f), ing. articulation sound /ɑ:ˌtıkjʊ'leıʃən 'saʊnd/, fr. formation son, articulation son, azərb. səsin əmələ gəlməsi - Müəyyən səsin yaranması üçün lazım olan tələffüz üzvlərinin mövqe və hərəkəti. Hər bir səsin tələffüzü üç əsas mərhələdən ibarətdir: başlanğıc, orta və son mərhələ.
М.И.Матусевич. Введение в общую фонетику. М., 1957.

ОБРАТИМОСТЬ – alm. Reversivität (f), ing. reversibility /rı'vɜ:səbılıtı/, convertibility /kən,vɜ:tə'bılıtı/, fr. convertibilité, réversibilité, azərb. çevrilməklik (dönərlik). – Məna ziddiyyətlərinin semantik əlaqəsi. Bu dönərlik proses bildirən ifadələrlə məhdudlaşir. İki ifadənin (daxil olmaq və tərk etmək) o zaman dönərlik əlaqəsi olur ki, hər iki ifa-

dədə hər hansı bir element başlanğıc vəziyyətdən son vəziyyətə dəyişikliyi bildirsin və birinci söyləmin başlanğıcı ikinci ifadənin son vəziyyətinə və birincinin son vəziyyəti ikincinin başlanğıc mərhələsinə uyğun gəlir. Əksər hallarda bu əlaqə prefikslərin əvəzlənməsi ilə baş verir. Məs.: alm. d. auf- və zu- /aufmachen/ (açmaq), /zumachen/ (bağlamaq) və s.
D.A.Cruse. Reversives. «Linguistics», 1979, 17, s. 957-961.

ОБРАТИМЫЙ – Bax: Обратимость ←.

ОБРАТНОЕ РАЗЛОЖЕНИЕ – alm. Dekompositium (m), ing. decomposition /di:ˌkɒmpəˈzɪʃən/, fr. decomposition, azərb. tərsinə parçalanma. - İki və daha artıq tərkibdən ibarət sözlərin adı. Belə sözlər bir qayda olaraq 3 əsas morfemdən ibarət olur. Belə tərkiblər alman dilində daha çox işlənir. Müq. et: /Gift+gas+katastrophe/ (zəhərli qaz faciəsi). /Bundes+wasser+straßen+gesetz/ (federal su yolları qanunu) və s.
J.Grimm. Deutsche Grammatik. 3-cü kitab. Von der Wortbildung. Göttingen, 1826, 2-ci nəşri 1878, s. 902.

ОБРАТНЫЙ – alm. umgekehrt, entgegengesetzt, ing. inverse /ˌɪnˈvɜːs/, fr. inverse, de retour, azərb. tərsinə. – 1) Tələffüz zamanı nəfəsalmada əmələ gələn səslər. Belə səslər paralinqvistik funksiya daşıyır. Bunlara dilçilikdə inqressiv, inspirator, şnalts səslər də deyirlər; 2) Cümlədə xəbərlə başlayan söz sırası.
H. Bußmann. Göstərilən əsəri, s. 338.

ОБРАТНЫЙ ПОРЯДОК СЛОВ (ИНВЕРСИЯ) – alm. Inversion (f), ing. inversion /ɪnˈvɜːʃən/, fr. inversion ordre, inverse des mots, azərb. sözlərin əks düzümü (inversiya). – Cümlədə xəbər birinci yerdə gəlirsə, buna əks söz sırası deyirlər. Məs.: alm d. ¿Spielte er gern Klavier? (O həvəslə piano çalırdı?), Azərb. d. /Əsdi xəzan yeli, payız yetişdi// (N.Gəncəvi).
W. Admoni. Der deutsche Sprachbau. München, 1982, s. 308.

ОБРАЩЕНИЕ – alm. Anrede (f), ing. address /əˈdres/, form of address /fɔːm əv əˈdres/, fr. apostrophe, allocution, azərb. xitab. - İsimlərin, əvəzliklərin və isimləşmiş sifətlərin və ya onlara ekvivalent söz birləşmələrinin müraciət edilən şəxsə və əşyalara yönəlik işlədilməsi. Adətən, xitab sintaktik cəhətdən seqmentüstü vasitələrlə tərtiblənir. Alman dilində başqa dillərdə olan ikinci şəxs tək və cəm formalarında müraciətdən başqa bir də 3-cü şəxsin cəmində hörmət mənasında işlədilən müraciət forması fərqləndirilir.
Müq. et:

	II şəxs		III şəxs
	təkdə	cəmdə	cəmdə
alm. d.	/geh/, /schreibe/, (get) (yaz)	/geht/, /schreibt/, (gedin) (yazın)	/gehen Sie/ (Siz gedin) /Schreiben Sie/ (Siz yazın).

rus. d.	/иди/ (get)	/идите/ (gedin).
ing. d.	/go/ (get)	/go/ (gedin).
Azərb. d.	/get/, /yaz/	/gedin/, /gediniz/.

Şəxslərə müraciətdə rəsmi hörmət formalarından istifadə edilir.
Müq. et:
alm. d. /Eure Hoheit/ (Ey ucadan uca!).
ing. d. /You Highness/ (Siz ucadan uca!).
Azərb. d. /Zati aliləri/, /Əlahəzrət!/ və s.
rus d. /Ваше превосходительство!/
Kişilərə müraciətdə /bəy, cənab, kişi, oğlan, igid, cəngavər və s., qadınlara müraciətdə isə /xanım, gözəl, sarışın/ və s. sözlərindən istifadə olunur.
O.C.Ахманова. Göstərilən əsəri, s. 276.

ОБСКО-УГОРСКИЕ ЯЗЫКИ – alm. Ob-Ugorsprachen (pl.), ing. Ob-Ugrian languages /ɔb'u:grıən 'læŋgwıʤız/, fr. langues ob-ougoriennes, azərb. ob-uqor dilləri. – Uqor dillərindən biridir. Coğrafi baxımdan Ob çayı hövzəsində yayılmışdır. Bunlar əsasən mansi və xantı dilləridir. Bu dillərdə təqribən 20 minə qədər əhali danışır.
Е.И.Ромбандеева. Мансийский язык. М., 1973.

ОБСТАНОВКА РЕЧИ, «КОНТЕКСТ» - alm. Sprechsituation (f), ing. çontext of situation /'kɒntekst əv ˌsıtju'eıʃən/, fr. situation de discours, de contexte, azərb. danışıq məqamı (kontekst). - Müəyyən danışıq aktının baş verdiyi şərait. Ünsiyyətin baş verdiyi şərait. Adətən, ifadənin mənasına öz təsirini göstərir. Məs.: insan həyəcanlı olduqda deyə bilər: /Mən sizə dedim, axı//. Eyni şeyi insan sakit halda da ifadə edə bilər: /Mən sizə dedim// və s.
H. Bußmann. Göstərilən əsəri, s. 726.

ОБСТОЯТЕЛЬСТВЕННО-ОПРЕДЕЛИТЕЛЬНЫЙ – alm. adverbial-attributiv, ing. adverbial-attributive /əd'vɜ:bıəl ə'trıbjʊtıv/, fr. circonstanciel-déterminatif, azərb. zərfi-təyini. – Məs.: rus d. /беседка в саду/; alm. d. /Das Haus am Fluß// (çayın sahilindəki ev) və s.
H.Bußmann. Göstərilən əsəri, s. 276.

ОБСТОЯТЕЛЬСТВЕННЫЙ – alm. adverbial, ing. adverbial /əd'vɜ:bıəl/, circumstantial /ˌsɜ:kəm'stænʃəl/, fr. circonstanciel, azərb. zərfi. - Zərfə aid olan, zərfə xas olan, zərflə bağlı olan. Məs.: /Yaxşı hazırlıqla rəqibi üstələmək olar// və s.
R.Conrad. Göstərilən əsəri, s. 22-23.

ОБСТОЯТЕЛЬСТВО – alm. Adverbialbestimmung (f), ing. adverbial modifier /əd'vɜ:bıəl 'mɒdıˌfaıə/, adjunct /'æʤʌŋkt/, fr. complément circonstanciel, azərb. zərflik. – Hərəkət və əlamət mənalı sözləri izah edən iş və ya hərəkətin hansı şəraitdə baş verdiyini göstərən ikinci dərəcəli cümlə üzvü. Zərfliyin morfoloji ifadə vasitəsi zərfdir. Bundan əlavə,

ismin məkan hallarında (qoşma ilə və qoşmasız) işlənən vahidlər, feli bağlamalar, məsdərlər və zərf mənalı frazeoloji vahidlər zərflik funksiyasında çıxış edə bilirlər.

Məs.: /Dünən hava çox soyuq idi// (zərf)

/Yaxşı hazırlıqla rəqibi udmaq olar// (1-ci növ təyini söz birləşməsi qoşma ilə)

/Bax: Yolun əsl yiyəsi gəlir// (yiyəlik halda, isimlə)

/O məni aparmağa gəlib/ (məsdər tərkibilə)

/Elə ki hava qaranlıqlaşdı, körpüsalanlar meşəyə çəkildilər// (budaq cümləsi ilə).

R.Conrad. Göstərilən əsəri, s. 23.

ОБСТОЯТЕЛЬСТВО ВРЕМЕНИ – alm. Adverbialbestimmung der Zeit (f), ing. adverbial modifier of time /əd'vɜ:bıəl 'mɒdı,faıə əv taım/, fr. complément circonstanciel du temps, azərb. zaman zərfliyi. – İş və hərəkətin icra zamanını, bu icranın davam etdiyi müddəti bildirən zərflik. Zaman zərfliyi zaman zərfləri, zaman anlayışı bildirən isimlər, birinci və ikinci növ təyini söz birləşmələri, feli bağlama tərkibləri və s. ilə ifadə olunur. Məs.: alm. d. /Morgen, morgen, nicht nur heute. Sagen alle faulen Leute// (Sabah, sabah, ancaq bu gün yox, deyir bütün tənbəl adamlar).

R.Conrad. Göstərilən əsəri, s. 23.

ОБСТОЯТЕЛЬСТВО МЕРЫ – alm. Adverbialbestimmung des Masses und Grades (f), ing. adverbial measure /əd'vɜ:bıəl 'meʒə/, fr. circonstance de mesure, azərb. miqdar, kəmiyyət (ölçü) zərfliyi. - İşin miqdarını və ölçüsünü bildirən zərflik. Bu zaman görülən işin miqdarı, ölçüsü ifadə edilir. Məs.: Azərb. d. /Onlar tapşırıqları 100 % yerinə yetirmişdilər//; rus d. /Тебя, дорогой, 8 век я слушать готов//.

Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, s. 189.

ОБСТОЯТЕЛЬСТВО МЕСТА – alm. Adverbialbestimmung des Ortes (f), ing. adverbial place /əd'vɜ:bıəl pleıs/, fr. complément circonstanciel de lieu, azərb. yer zərfliyi. – İş və hərəkətin icra olunduğu yeri, hərəkətin istiqamətini və yönünü bildirən zərflik. Yer zərflikləri zərf, isim, təyini söz birləşmələri və feli sifət tərkiblərilə ifadə olunur. Məs.: Azərb. d. /Onun adı hər yerdə (Moskvada, öz qonşuları arasında) çox məşhurdur//; alm. d. /Nahe bei diesem Platze steht ein Haus// (Bu yerin yaxınlığında bir ev var).

Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, s. 230.

ОБСТОЯТЕЛЬСТВО ОБРАЗА ДЕЙСТВИЯ – alm. Adverbialbestimmung der Art und Weise (f), ing. adverbial modifier of manner (action) /əd'vɜ:bıəl 'mɒdı,faıə əv'mænə/'ækʃən/, fr. complément circonstanciel de maniére, azərb. tərzi-hərəkət zərfliyi. – İşin və hərəkətin necə və hansı şəraitdə icra olunduğunu bildirən zərfliklər. Tərzi-hərəkət

zərfliyi, adətən, tərzi-hərəkət zərfləri, feli bağlama, feli bağlama tərkibləri, feli sifət, isim və digər sözlərdən düzələn tərkiblərlə ifadə edilir. Məs.: Azərb. d. /Birdən (qəfildən, gözlənilmədən) qapı açıldı və Çimnaz deyinə-deyinə içəri girdi//. Alman. d II.Pauldan (1846-1921) bu yana predikativ təyinlər də (Predikatives Attribut) tərzi-hərəkət zərfliyi hesab edilir. Müq. et: /Betrübt ging er davon// (O buradan məyus getdi) və ya /Die Zusendung erfolgt frei und unentgeldlich// (Bağlama sərbəst və pulsuz çatacaq).

Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, s. 281-282.

ОБСТОЯТЕЛЬСТВО ПРИЧИНЫ – alm. Adverbialbestimmung des Grundes (f), ing. adverbial modifier of cause /əd'vɜ:bıəl 'mɒdıfaıə əv kɔ:z/, fr. complément circonstanciel de cause, azərb. səbəb zərfliyi. – Səbəb zərflikləri hərəkətin icrasının və ya əlamətin meydana çıxmasının səbəbini bildirir və nə üçün? nədən ötrü?, niyə?, nə səbəbə? suallarından birinə cavab verir. Məs.: Azərb. d. /Qorxudan onun bədəni tir-tir əsirdi//.

Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, s. 189.

ОБСТОЯТЕЛЬСТВО СТЕПЕНИ – Bax: Обстоятельство меры ←.

ОБСТОЯТЕЛЬСТВО УСЛОВИЯ – alm. Adverbialbestimmung der Bedingung (f), ing. adverbial modifier of conditions /əd'vɜ:bıəl 'mɒdıfaıə əv kən'dıʃəns/, fr. complément circonstanciel de condition, azərb. şərt zərfliyi. – İş, hal və hərəkətin icra şərtini bildirən zərfliklər. Məs.: rus d. /При большом желании, напрягая силы, человек средних способностей может добиться чего угодно//.

О.С.Ахманова. Göstərilən əsəri, s. 277.

ОБСТОЯТЕЛЬСТВО ЦЕЛИ - alm. Adverbialbestimmung des Zieles (f), ing. adverbial modifier of purpose /əd'vɜ:bıəl 'mɒdıfaıə əv 'pɜ:pəs/, fr. complément circonstanciel de but, azərb. məqsəd zərfliyi. - İş, hal və hərəkətin icra məqsədini bildirən zərfliklər. Bunlar sözönülər və qoşmalarla düzələn konstruksiyalarla və məsdər tərkibilə ifadə oluna bilər. Məs.: Azərb. d. /Mən sənə görə bu işdən imtina etdim// və ya /Mən səndən işləmək xahiş etmişdim, oturmaq yox//.

Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, s. 189.

ОБСУЖДАЮЩИЙ ВОПРОС (ДЕЛИБЕРАТИВНЫЙ) – alm. zweifelnde Frage (f), ing. deliberative question /dı'lıbərətıv 'kwestʃən/, fr. question dilibérative, azərb. mühakimə edən sual. – Ritorik tərzdə subyektin özünə yönəltdiyi sual. Məs.: Azərb. d. ʕİndi mən nə edimƆ, ʕKimə zəng edimƆ, ʕKimi tapımƆ .

О.С.Ахманова. Göstərilən əsəri, s. 84.

ОБУСЛОВЛЕННЫЙ – alm. bedingt, ing. conditional /kən'dɪʃənəl/, conditioned /kən'dɪʃənd/, fr. conditionné,-e, azərb. şərtlənmiş – Mövqedən, əhatədən, tutduğu yerdən asılı olan, mövqe ilə şərtlənən. Dildə fonem dəyişiklikləri və ya vurğunun yerinin dəyişməsi müəyyən şərtlər daxilində baş verir.

Bax: Обусловленное изменение →.

ОБУСЛОВЛЕННОЕ ИЗМЕНЕНИЕ – alm. bedingter (kombinatorischer) Lautwandel (m), ing. conditioned sound change /kən'dɪʃənd 'saʊnd tʃeɪndʒ/, fr. changement phonétique, conditionné azərb. şərtləndirilmiş dəyişmə. – Xüsusi mövcud fonetik şəraitdən irəli gələn, dildə müəyyən vahidin tutduğu mövqe ilə şərtlənən dəyişmələr. Məs.: Azərb. d. /duza/ /Filankəs duza gedir// və (duzu), /Duzu ver mənə// sözlərində [z→] və [z°] bir fonemin müxtəlif variantlarıdır. Onlardan birincisi dilin geri çəkilməsi [z→], ikincisi isə dodaqlanan [z°] tələffüzü onlardan sonra gələn /a/ və /u/ saitlərinin təsiri və keyfiyyətilə bağlıdır. Eyni mövqedə digər samitlər də həmin əlaməti əldə edirlər.

Müq. et: /qoşa/ # /quşu/; /qoza/ # /qozu/
/kosa/ # /kosu/; /dola/ # /dolu/ və s.

Deməli, burada söhbət allofonemlərin əvəzlənməsindən gedir və onu göstərmək üçün /~/ işarəsindən istifadə edilir.

F.Veysəlli. SDƏ. s. 103-121; Ю.С.Маслов. Göstərilən əsər, s. 74.

ОБУСЛОВЛЕННОЕ УДАРЕНИЕ – alm. gebundener Akzent (m), ing. conditioned stress /kən'dɪʃənd stres/, fr. accent conditionné, azərb. asılı, şərtləndirilmiş vurğu. – Müəyyən fonetik, morfoloji və ya funksional şəraitdən asılı olan vurğu. Məs.: alm. d. /'dɔkto.r/ sözündə vurğu birinci hecaya düşür, ancaq söz forması dəyişəndə vurğu ikinci hecaya keçir və bu hecadakı yarımuzun sait uzun tələffüz olunur: /dɔk'to:rən/.

F.Vejsalov (Vejsälli). Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 194.

ОБЩАЯ ФОНЕТИКА – alm. allgemeine Phonetik (f), ing. general phonetics /'dʒenərəl fəʊ'netɪks/, fr. phonetique générale, azərb. ümumi fonetika. – Danışıq cihazının səs imkanlarını və müxtəlif dillərdə onlardan istifadə qaydalarını tədqiq edən dilçilik şöbəsi. Buraya səslərin əmələ gəlməsinin ümumi prinsipləri, onların akustik əlamətləri və eşidilib dərk olunması xüsusiyyətlərinin öyrənilməsi daxildir. Eyni zamanda dil səslərinin söyləmlərdə və cümlələrdə iştirakını təmin edən seqmentüstü əlamətlərin öyrənilməsi də buraya daxildir.

Л.Р.Зиндер. Общая фонетика. М., 1979.

ОБЩАЯ ФОНОЛОГИЯ – alm. allgemeine Phonologie (f), ing. general phonology /'dʒenərəl fəʊ'nɔlədʒɪ/, fr. phonologie générale, azərb. ümumi fonologiya. – Dil səslərinin semioloji xüsusiyyətlərini ümumi

tərzdə, yəni ayrı-ayrı dillərin konkret fonoloji sisteminə varmadan mücərrəd şəkildə öyrənən dilcilik şöbəsi. Ümumi fonologiya fonemlərin sistem münasibətlərində qarşılaşma və kontrast yaratma xüsusiyyətlərini, onların fonotaktikasını, özündən yuxarı vahidlərdə reallaşmasında vurğu, prosodiya və intonasiya vasitələrini tədqiq edir.
F.Vejsälli. Einführung in die Phonologie. Baku, 2004.

ОБЩИЙ ВОПРОС – alm. allgemeine Frage (f), ing. general question /'ʤenərəl 'kwestʃən/, fr. question générale, azərb. ümumi sual. – Söyləmin əsas mənasının inkarını (rədd) və ya təsdiqini təklif edən sual növü.
Bax: Вопрос ←.

ОБЩИЙ ЗАЛОГ – alm. allgemeiner Aspekt (m), ing. general voice /'ʤenərəl vɔɪs/, reflexivum tantum /rɪ'fleksɪvum 'tæntəm/, fr. voix commune, azərb. ümumi tərz.
Bax: Залог ←.

ОБЩИЙ ЗАМЕСТИТЕЛЬ ФОНЕМЫ – alm. allgemeiner Phonemvertreter (m), ing. collective substitute /kə'lektɪv 'sʌbstɪtju:t/, phoneme substitute /'fəʊni:m 'sʌbstɪtju:t/, fr. suppléant commun du phonème, azərb. fonemin ümumi əvəzləyicisi. – Moskva fonoloji məktəbində bir neçə «güclü» (əsas) fonemin zəif mövqedə fərqləndirmə funksiyasına malik olmayan variantı. Məs.: rus d. /o/ vurğudan əvvəlki mövqedə yumşaq samitdən sonra, vurğudan sonrakı hecada yumşaq samitdən əvvəlki mövqedə ümumi fonemin əvəzləyicisi kimi çıxış edir.
Müq. et: /pʌtak/, /nʌr'ezat'/ sözlərində. Şerba məktəbinə görə isə, bu sözlərdə eyni fonemin variant əvəzlənmələrindən söhbət gedir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 222-224; Ю.С.Маслов. Göstərilən əsəri, s. 68-78.

ОБЩЕУПОТРЕБИТЕЛЬНЫЙ – alm. allgemeingebräuchlich, ing. commonly used /'kɔmə'nlɪ jusd/, in general usage /ɪn 'ʤenərəl 'ju:zɪʤ/, fr. d'un usage général, généralement usité, usuel, azərb. ümumişlək. – Geniş yayılmış. ümumişlək, danışıq aktında heç bir məhdudiyyət bilmədən işlənən sözlər. Məs.: Azərb. d. /daş/, /divar/, /ağac/ və s.
A.A.Реформатский. Göstərilən əsəri, s. 116.

ОБЩЕФОНЕТИЧЕСКИЙ – alm. allgemeinphonetisch, ing. generalphonetic /'ʤenərəl fəʊ'netɪk/, fr. de phonétique générale, azərb. ümumi fonetik.
Bax: Общая фонетика ←.

ОБЩИЙ – alm. allgemein, universal, ing. universal /'ju:nɪ'və:səl/, general /'ʤenərəl/, fr. commun, général, azərb. ümumi. – Hərtərəfli (universal) araşdırılan hadisənin əsas qanunauyğunluqlarının öyrənilməsi. Belə araşdırmalarda müəyyən dilin konkret faktları ötəri səciyyə daşıyır.

Məs.: dillərdə sait və samitlərin olması mövcud dillər üçün ümumi (universal) əlamətdir.

Bax: Общая фонетика ←.

ОБЩАЯ ЛИНГВИСТИКА – alm. allgemeine Sprachwissenschaft (f), ing. general linguistics /'ʤenərəl lɪŋ'gwɪstɪks/, fr. linguistique générale, azərb. ümumi dilçilik. - Dil haqqında ümumi nəzəri elm. Müxtəlif dillərin və müxtəlif dil qruplarının ümumi xüsusiyyətlərini araşdırmaq məqsədi güdən dilçilik şöbəsi. Antik dövrdən hazırkı dövrə qədər dilin yaranması, dildəki dəyişiklər, onun ümumi struktur və sistem özəlliklərini öyrənən elm. Ümumi dilçilik elə bir təsvir modeli işləyib hazırlayır ki, onun bütün dillərə tətbiqi mümkün olsun. Buna misal olaraq İ.A.Boduen de Kurtene, F. de Sössür, N.Xomski və s. dilçilərin ümumi görüşlərinin konseptual əhəmiyyətə malik olduğunu demək olar. Ümumi dilçilik dilçiliyin digər elmlərlə əlaqəsini, dilin fəlsəfi problemlərini, dilin tədqiqi metodlarını işləyib hazırlayır.

E.Koseriu. Ümumi dilçiliyə giriş. Alman dilindən tərcüməsinin, giriş məqalənin və qeydlərin müəllifi f. e. d. prof. F.Yadigardır (Veysəllidir). BSU, «Mütərcim», 2006; E.Coseriu. Geschichte der Sprachphilosophie. Tübingen, 2003.

ОБЩАЯ СЕМАНТИКА – alm. allgemeine Semantik (f), ing. general semantics /'ʤenərəl sɪ'mæntɪks/, fr. sémantique général, azərb. ümumi məna (semantika). – Ümumi dilçilikdə daha çox çağdaş ideoloji istiqamətdə inkişaf edən cərəyanlardan biri. Bu cərəyan insanın dil «zorakılığından» xilas olması aspektində danışan, dil və gerçəklik arasındakı münasibətlərini öyrənir. Materialist istiqamətli inkişaf nəzəriyyəsindən fərqli olaraq bu cərəyan güman edir ki, insan dilin verilmiş strukturu ilə obyektiv reallığı dərk etmək iqtidarında deyil, çünki təcrübənin dildə ifadəsi həmişə artıq müəyyən abstraksiyalar və simvollarla irəlicədən mümkündür (Sepir-Uorf nəzəriyyəsi, məzmun qrammatikası). Buna görə də pedaqoji aspektdə manipulyasiya və yanlışlıqları dil vasitəsilə duymaq vacibdir, yəni dilin reallığı əks etdirməsini açıb göstərmək lazımdır.

G.Schwarz. Wort und Wirklichkeit. Beiträge zur allgemeinen Semantik. Darmstadt, 1968.

ОБЩЕЛИНГВИСТИЧЕСКИЙ – alm. allgemeinlinguistisch, ing. general linguistic /'ʤenərəl lɪŋ'gwɪstɪks/, fr. de linguistique-généralle, azərb. ümumdilçilik. – Linqvistik təzahürləri, qanunauyğunluqları və s. dilin ümumi xüsusiyyətləri kimi təsvir edən, şərh edən.

N.Chomsky. Cartesian Linguistics. N-York, 1966.

ОБЩЕЛИТЕРАТУРНЫЙ – alm. allgemeinliterarisch, ing. comman literary language /'kɒmən 'lɪtərərɪ 'læŋgwɪʤ/, fr. de littéraire-généralle, azərb. ümumədəbi. – Normaya uyğunlaşdırılmış, standart, düzgün, nümunəvi dil normalarına uyğun gələn.

F.Veysəlli. SDƏ. s. 74-79.

ОБЩЕНАРОДНЫЙ – alm. gemeinsprachlich, ing. common to the whole people /'kɒmən tu: ðə: həʊl 'pi:pl/, of all the people /əv ɔ:l ðə: 'pi:pl/, national /'næʃənəl/, common /'kɒmən/, general /'ʤenərəl/, fr. national-e, azərb. ümumxalq səciyyəli. – Gündəlik danışıq dilində işlənən, heç bir üslubi və ya işlənmə məhdudluğu olmayan, hamıya aydın olan dil vahidləri. Məs.: Azərb. d. gündəlik ərzaq məhsullarının, il, gün, ay və s. adları. Müq. et: /ət/, /duz/, /qənd/, /səhər/, /axşam/ və s.
D.Clement. Linguistisches Grundwissen. Eine Einführung für zukünftige Deutschlehrer. Opladen, 1996, s. 17-51.

ОБЩЕНИЕ РЕЧЕВОЕ – alm. (Sprech) Redeakt (m), ing. speech communication /'spɪ:ʧ kə,mju:nɪ'keɪʃən/, fr. relation de la parole, azərb. danışıq ünsiyyəti. – F. de Sössürün dixotomiyasında buna uyğun gələn «parole»-dur. Son zamanlar buna almanca «Turn», ingiliscə «Turnus» deyirlər. Ing. d. /To make turns/ (ünsiyyət prosesində yerini dəyişmək). İngilis dilçiliyində geniş yayılan bu termin hər bir danışanı göstərmək üçün diskurs təhlilində tətbiq olunur. Formal kriteriyası fasilədir, bir də danışanın dəyişə biləcəyi sintaktik vahiddir. Funksional kriteriya kimi «turn» ən azı bir parçadan ibarətdir. Mətn təhlilində bu «turn» prosesin elə məhsulu kimi götürülür ki, onun uzunluğu və strukturu interaktiv yolla müəyyənləşir. İdeal şəkildə bu elə üçtərəfli vahiddir ki, onun birinci tərəfi əvvəldə gələnə, üçüncüsü isə sonra gələnə münasibətdə bərpa edilir. Məs.: alm. d. /ja/ B hissəsində ʕJa, ist das nicht zu teuerʖ (Hə, bu baha deyil?). Suallara cavab kimi A hissəsində belə olacaq /Nimm doch'n Taxi// (Taksi tut da).
H.Bußmann. Göstərilən əsəri, s. 311.

ОБЩЕОТРИЦАТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ – alm. allgemeinnegativer Satz (m), ing. negative sentence proper /'negətɪv 'sentəns 'prɒpə/, general-negation sentence /'ʤenərəl 'negeɪʃən 'sentəns/, fr. proposition généralle négatif,-ve, azərb. ümuminkar cümlə. – Xəbəri inkarda olan cümlə. Belə cümlələrdə mübtədaya məxsus əlamət inkar edilir. Məs.: Azərb. d. /O, kitab oxumur//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 260.

ОБУСЛОВЛЕННЫЙ ВОПРОС – alm. indirekte Frage (f), ing. conditional question /kən'dɪʃənəl 'kwestʃən/, dependent question /dɪ'pendənt 'kwestʃən/, indirect question /ˌɪndɪ'rekt 'kwestʃən/, fr. question directe, azərb. şərtlənmiş sual, vasitəli sual. – Vasitəli nitqdə verilən sual. Məs.: Azərb. d. ʕO demişdi gələcəkʖ /Deməmişdi axı//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 260.

ОБЩЕВОЗВРАТНЫЙ ЗАЛОГ – alm. allgemein reflexiver Aspekt (m), ing. general-reflexive voice /'ʤenərəl-rɪ'fleksɪv vɔɪs/, fr. voix réfléchie générale, azərb. ümumi qayıdış növü. – Subyektdə qapanmış hərəkətin (subyektin) icrasının daxilində baş verən dəyişmələrə aid olduğunu göstərən kateqorial növ forması. Məs.: rus d. (ся) və alm. d. /sich/ forması ilə düzələn qayıdış növ. Müq. et: rus d. /радоваться/; alm. d. /sich freuen/ (sevinmək).
O.C.Ахманова. Göstərilən əsəri, s. 153.

ОБЩЕЕ ЗНАЧЕНИЕ – alm. allgemeine Bedeutung (f), Grundbedeutung (f), ing. general meaning /'ʤenərəl 'mi:nɪŋ/, common meaning /'kɒmən 'mi:nɪŋ/, fr. signification générale, azərb. ümumi məna. – Sözün ilkin, müstəqim mənası. Məs.: alm. d. /Pferd/ sözünün əsas mənası at (heyvan), ikincisi idman alətini, üçüncüsü isə şahmat oyununda fiquru bildirir.
D.Clemente. Göstərilən əsəri, s. 123.

ОБЩЕЕ ЛИЦО – alm. allgemeine Person (f), ing. common person /'kɒmən pə:sn/, fr. personne générale, azərb. ümumi şəxs. – Konkret şəxsə deyil, ümumi şəkildə hər hansı bir şəxsə yönələn. Bu cür formalara atalar sözlərində və zərbi məsəllərdə daha çox rast gəlinir. Məs.: Azərb. d. /Nə əkərsən, onu da biçərsən// və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 344.

ОБЩЕЕ ЧИСЛО – alm. allgemeine Zahl (f), (Numerus) (m), ing. common number /'kɒmən 'nʌmbə/, fr. nombre commun, azərb. ümumi say. – Tək və cəm hallardan doğan məhdudiyyətdən qaçmaq məqsədilə müxtəlif ümumi say bildirən sözlərin işlədilməsi. Məs. Azərb. d. /az/, /çox/, /xeyli/, /kalan/, /qədərincə/ və s.
M.Hüseynzadə. Göstərilən əsər, s. 105-119.

ОБЩИЙ РОД – alm. allgemeines Geschlecht (n), ing. common gender /'kɒmən 'ʤendə/, fr. genre commun, azərb. ümumi cins. – İşlədilməsindən asılı olaraq həm qadın, həm də kişi cinsinə aid olan şəxslərlə uzlaşa bilən cins mənası. Məs.: fr. d. /le ministre/ (kişi nazir), ancaq /la ministre/ (qadın nazir). Ancaq kişi cinsi hər iki cinsi bildirə bilir.
P.H.Matthews. Göstərilən əsəri, s. 61.

ОБЩИЙ ЧЛЕН ФОНЕМНЫХ РЯДОВ – alm. allgemeines Glied der Phonemreihen (n), ing. common member set of phonemes /'kɒmən 'membə 'set əv fəʊ'ni:mɪs/, fr. membre commun de la rangée de phonéme, azərb. fonem cərgələrinin ümumi üzvü. - Moskva fonoloji məktəbinə görə güclü fonem həm söz formasını, həm də morfemi fərqləndirir. Zəif fonem isə morfemləri fərqləndirə bilmir. Məs.: /k/ fonemi /кот/ sözündə güclü fonem kimi bu sözü /том/, /рот/ və s. sözlərindən fərqləndirir. Ancaq /рок/ sözündə /k/ zəif fonemdir, çünki o, həmin sözü /por/ və /рот/ sözlərindən fərqləndirsə də, həmin sözün /pora/ və ya /рока/

sözlərindəki kök morfemləri fərqləndirməyə imkan vermir. Fonemin morfemdən asılı olduğunu nəzərə alaraq MFM-i «fonem sırası» kimi morfem tərkibindəki ən kiçik səs vahidlərini «hiperfonem» adlandırır (N.S.Trubeskoy buna «arxifonem» deyir). Məs.: rus d. /хот/ sözündəki /t/ /d-t/ fonem sırasının üzvüdür, özü də /d/ əsas üzvdür, çünki söz forması dəyişəndə /d/ fərqləndirmək funksiyasını bərpa edir. Müq. et: /хот → хода/ və s. LFM-in nümayəndələri bunu canlı fonem əvəzlənməsi adlandırırlar.

Л.Р.Зиндер. Общая фонетика. М., 1979, s 59; Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 75.

ОБЩИЙ ЯЗЫК – alm. Gemeinsprache (f), ing. common language /'kɒmən 'læŋgwɪʤ/, fr. langue commune, azərb. ümumi dil. – 1. Ölkədə milli dilin ən yüksək inkişaf etmiş yazılı və şifahi forması, dövlət dili hüququ qazanmış dil; 2. Bir xalqın ümumişlək dili.

R.Conrad. Göstərilən əsəri, s. 90.

ОБЪЕДИНЯЮЩЕЕ УДАРЕНИЕ – alm. verbindende Betonung (f), ing. unity-stress /'ju:nɪtɪ stres/, unifying stress /'ju:nɪfʌɪ:nŋ stres/, fr. accent unifiant, azərb. birləşdirici vurğu. – Müəyyən sintaktik bütövün birliyini təmin edən. Adətən bu bütövü vurğulu söz adlandırırlar. Məs.: rus d. /под окно́м/, alm. d. /in der Schúle/ (məktəbdə). Vurğu ilə bütövləşən və daxilində fasilə mümkün olmayan parçanı vurğulu (aksent) söz adlandırırlar.

Ю.С. Маслов. Göstərilən əsəri, s. 93.

ОБЪЕКТ – alm. Objekt (n), ing. object /'ɒbʤɪkt/, fr. objet, objectif, azərb. obyekt. – Nominativ dillərdə müxtəlif sintaktik funksiya yerinə yetirən, dildən asılı olaraq morfoloji göstəricisi olan və ya mübtədadan sonrakı mövqe tutması ilə səciyyələnən. Feldə ifadə olunan hərəkətin şəxsini və ya istiqamətini bildirən cümlə üzvünün ümumi adı. Tamamlığın sayı və növü cümlədəki felin valentliyindən asılıdır. Adətən, vasitəli, vasitəsiz, sözönülü (qoşmalı) tamamlıq fərqləndirilir. Tamamlıq yerində söz birləşmələri, məsdər tərkibləri və budaq cümlələri də çıxış edə bilərlər.

Müq. et: Azərb. d. /Əhməd almanı yedi// cümləsində vasitəsiz tamamlıq məchul formada cümlənin mübtədası olur. Müq. et: /Alma Əhməd tərəfindən yeyildi// Ancaq alm. d. /Hans half ihr// (Hans qıza kömək etdi) cümləsində bu cür əməliyyat mümkün deyildir.

/Kimin ki, ürəyi doludur, onun sözü tükənməz// tamamlıq budaq cümləsi vasitəsilə ifadə olunub.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 266; H.Bußmann. Göstərilən əsəri, s. 541.

ОБЪЕКТ ВНУТРЕННИЙ – alm. inneres Objekt (n), ing. inner object /'ɪnə 'ɒbʤɪkt/, fr. object intérieur, (interne), azərb. daxili tamamlıq. –

Öz əsas funksiyasında olan təsirlik hal, tabe olduğu fellə eyni kökdən olan təsirlik hal. Məs.: Azərb. d. /su sulamaq/, /quş quşlamaq/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 266.

ОБЪЕКТ ДЕЙСТВИЯ – alm. Objekt der Handlung (n), ing. object of action /'ɒbdʒɪkt əv 'ækʃən/, fr. objet d'action, azərb. hərəkət obyekti. – Feli hərəkətin yönəlmiş olduğu əşya və ya predmetin ifadəsi. Məs.: Azərb. d. /Ana uşağı çarpayıya qoydu//.
O.C.Ахманова. Göstərilən əsəri, s. 279.

ОБЪЕКТИВАЦИЯ ИНФИНИТИВА – alm. Objektivierung des Infinitivs (f), ing. objectivation of infinitive /'əbdʒektɪveɪʃən əv ɪn'fɪnɪtɪv/, fr. objectivation de l'infinitif, azərb. məsdərin obyektivləşməsi. – Məsdərin tamamlıq funksiyasında çıxış etməsi. Məs.: rus d. /Я хочу учиться//. Azərb. d. /Mən oxumaq istəyirəm// və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 280.

ОБЪЕКТИВНЫЙ АНАЛИЗ – alm. objektive Analyse (f), ing. objective analysis /əb'dʒektɪv ə'nælɪsɪs/ə'nælәsɪs/, fr. analyse objectivale, azərb. obyektiv təhlil. – Dilin sistem və struktur xüsusiyyətlərini danışıq aktı əsasında müəyyənləşdirməyə xidmət edən təhlil növü. Son zamanlar qarşılıqlı-müqayisə üsulu dillərin tipoloji bölgüsünü obyektiv təhlil nəticələri əsasında müəyyənləşdirməyə nail olmuşdur. Sintaktik səviyyədə verilmiş cümlələrin struktur təsvirlərini verən qaydalar sistemi geniş yayılmışdır. Struktur sxemində aşağıdan yuxarı cümlənin ifadə elementləri üçün kateqoriya simvolları müəyyən edilir, sonra isə onlar addım-addım üst kateqoriyalarda birləşdirilir. Bu əməliyat S-ə gətirib çıxarırsa, deməli, cümlə normaldır. Yuxarıdan aşağı yol isə S-dən başlayır və son elementlərə qədər tərkibləri müəyyənləşdirir. Birincisi dərketmə qrammatikası, söyləm strukturu üzrə təhlil isə törəmə qrammatikası adlanır.
F.Veysəlli. N. Xomskinin dilçilik görüşləri. Struktur dilçiliyin əsasları. Studia Philologica. II. Bakı, 2008, s. 274-288.

ОБЪЕКТИВНЫЙ ПОРЯДОК СЛОВ – alm. objektive Wortfolge (-reihe) (f), ing. objective word order /əb'dʒektɪv wɜ:d 'ɔ:də/, fr. ordre objectif des mots, azərb. obyektiv söz sırası. – Müəyyən dildə nisbətən geniş yayılmış, normaya müvafiq gələn, cümlə daxilində sözlərin dil daşıyıcıları tərəfindən qəbul olunmuş qaydada düzülməsi. Azərbaycan dilində cümlə tərkibində mübtəda adətən xəbərdən əvvəldə gəlir. Məs.: Azərb. d. /Salman dərhal bu təklifə səs verdi//.
H.Bußmann. Göstərilən əsəri, s. 859.

ОГЛАГОЛИВАНИЕ - alm. Verbalisierung (f), ing. verbalization /ˌvɜ:bəlaɪ'zeɪʃən/, fr. verbalization, azərb. felləşmə. – Başqa nitq hissələrinin fel cərgəsinə keçməsi, felləşməsi. Məs.: Azərb. d. /Yaşamaq necə də gözəldir//, /baş+la+maq/, /növbə+ləş+mək/ və s.

ОГЛАСОВКА - alm. Ablaut (m), ing. vocalism /'vəʊkəlɪzəm/, fr. vocalisme, azərb. səsləşmə. – Saitin keyfiyyətcə **dəyişərək** morfoloji funksiya yerinə yetirməsi. Məs.: ing. d. /drive/-/drove/-/**driven**/.
P.H.Matthews. Göstərilən əsəri, s. 2.

ОГЛУШЕНИЕ - alm. Stimmloswerden (n), **Verlust des** Stimmtons (m), ing. devoicing /dɪ'vɔɪsɪŋ/, unvoicing devocalization /ʌn'vɔɪsɪŋ diː'vəʊkəlaɪ'zeɪʃən/, fr. assourdissement, dévocalisation, azərb. **karlaşma**. – 1. Mövqedən asılı olaraq cingiltili samitlərin karlaşması. **Məs.**: alm. d. söz başında cingiltili samitlər karlaşır. Müq. et: /'ze:ən/ **(görmək)**, ancaq /gə'ze:ən/ (həmin felin partisip II forması). Azərbaycan **dilində** söz sonunda cingiltili samitlər karlaşır. Məs.: /od̥/ sözündə /d/ **cingiltili** samiti tam karlaşır. Elə bu səbəbdən də Azərbaycan dilində səs **tellərinin** iştirakına görə samitlərin kar/cingiltili əlamətə görə yox, güclü **(fortis)** və zəif (lenis) olmasına görə гаршылашмасыны təklif edənlər də **vardır**;
2. Cingiltili samitlərin müvafiq kar samitlərlə **əvəzlənməsi**. Məs.: alm. d. bütün cingiltili samitlər söz sonunda kar **qarşılığı ilə** əvəzlənirlər. Müq. et: «Rad», /Ra:t/ (çarx, təkər), ancaq /Ra:**dəs**/ **(təkərin)**, «Tag» /ta:k/ (gün), ancaq /ta:gəs/ (günün) və s.
F.Yadigar (Veysəlli). Fonetika və fonolgiya **məsələləri**. Bakı, 1993.; F.Veysəlov (Veysälli). Lehrbuch der deutschen **Phonetik**. Baku, 1989.

ОГРАНИЧЕНИЕ СИНТАКСИЧЕСКОЕ - alm. syntaktische Beschränkung (f), ing. syntactic(al) constraint **(limitation)** /sɪn'tæktɪk(əl) kən'streɪnt/,lɪmɪ'teɪʃən/, fr. (restriction), **limitation** syntaxique (de syntaxe), azərb. sintaktik məhdudiyyət. - Hər **hansı** bir söyləmin və ya ifadənin işlənməsində müşahidə olunan **məhdudiyyət**. Azərbaycan dilində ibarələr, zərbi-məsələlər, atalar sözləri yalnız **indiki** zamanda işlənə bilirlər. Məs. Azərb. d. /Halva, halva deməklə **ağız şirin** olmaz//.
O.C.Ахманова. Göstərilən əsəri, s. 410.

ОГРАНИЧЕННОЕ ЧИСЛО - alm. **beschränkter** Numerus (m), ing. limited number /lɪmɪtɪd nʌmbə/, fr. nombre **limité**, azərb. məhdud say. – Bəzi dillərdə sayların işlənməsində müəyyən **məhdudiyyətlər** olur. Məs.: rus d. 1-dən 4-ə qədər miqdar saylarından **sonra isim** təkdə yiyəlik halında işlənir. Müq. et: /три руки/, /четыре стуля/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 516.

ОГРАНИЧИВАЮЩЕЕ ПРИЛАГАТЕЛЬНОЕ - alm. beschränkendes Adjektiv (n), ing. limiting adjective /'lɪmɪtɪŋ 'ædʒɪktɪv/, fr. adjectif limitatif, azərb. məhdudlaşdırıcı sifət. – Bəzi **sifətlər yalnız** bir qism isimlərlə işlənə bilirlər. Məs.: rus d. /всеобщая амнистия, плакучая ива/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 358.

ОГРАНИЧИТЕЛЬНЫЙ - alm. Beschränkende, ing. limiting /'lımıtıŋ/, restrictive /rıs'trıktıv/, fr. restrictif, limitatif, azərb. məhdudlaşdırıcı. – Alman dilində /h/ və /ŋ/ fonemləri məhdudlaşdırıcı funksiyada işlənirlər. Onlardan birincisi heca və morfem sonunda, /ŋ/ isə heca və morfem əvvəlində gələ bilmirlər. Müq. et: alm. d. /'ha:n/ (xoruz), /ˌgə'zaŋ/ (nəğmə) və s. F.Vejsalov (Vejsälli). Lehrbuch der deutschen Phonetik. Baku, 1989.

ОГУБЛЕНИЕ - alm. Lippenrundung (f), Labialität (f), ing. (lip-) rounding /lıp raʊndıŋ/, labialization /ˌleıbıəlaı'zeıʃən/, fr. labialisation, azərb. dodaqlanma.

Bax: Лабиализация ←.

ОГУБЛЕННЫЙ - alm. labialisiert, ing. round(ed) labialized /raʊnd(ıd) leıbıəlaı'zıd/, fr. labialisé,-e, azərb. dodaqlanmış.

Bax: Лабиализованный ←.

ОДИНАРНЫЙ СОГЛАСНЫЙ - alm. Einzelkonsonant (m), ing. single consonant /'sıŋgl 'kɒnsənənt/, fr. consonne qui n'est pas double, azərb. tək samit.

Bax: Согласный →.

ОДИНОЧНАЯ ФОНЕМА - alm. Einzelphonem (n), ing. single phoneme /'sıŋgl 'fəʊni:m/, fr. phonème isolé, azərb. tək fonem.

Bax: Фонема →.

ОДНОВЕРШИННАЯ ИНТОНАЦИЯ - alm. eingipfelige Intonation (f), ing. unimodal intonation /ju:nı'məʊdəl ıntə'neıʃən/, fr. intonation á un sommet, azərb. təkzirvəli intonasiya.

Bax: Акут ←.

ОДНОВРЕМЕННОСТЬ - alm. Gleichzeitigkeit (f), ing. synchronism /'sıŋkrənızm/, simultaneity /ˌsıməltə'ni:ıtı/, fr. simultanéité, azərb. eynizamanlıq. – Mürəkkəb cümlələrdə bir neçə hərəkətin eyni zamanda baş verməsi, yəni budaq cümlədəki hərəkətin baş vermə anı baş cümlədəki hərəkətlə üst-üstə düşür. Məs.: alm. d. /Als ich in Baku ankam, schneite es// (O vaxt ki, mən Bakıya gəlmişdim, onda qar yağırdı).

H.Bußmann. Göstərilən əsəri, s. 284.

ОДНОЗНАЧНОСТЬ - alm. Bedeutungsgleichheit (f), ing. monosemy /mɒnəʊsi:mı/mə'nɒsımı/, fr. monodromie univocité, azərb. eynimənalılıq. – Eyni məna daşıyan sözlər. Bunlara mütləq sinonimlər də deyirlər, çünki onlar eyni mövqedə bir-birinin yerində işlənə bilirlər. Bu cür eyni mənalılıq o zaman baş verir ki, sözlərdən biri ya alınma, ya da dialekt sözü olsun. Məs.: alm. d. /Sonnabend/ (şənbə), /Samstag/ (şənbə, dialekt söz). /Abendstern/ # /Morgenstern/ (axşam və ya səhər ulduzu) eyni

dilxarici reallığı bildirsə də, eyni coğrafi məfhumu bildirmədiyindən müxtəlif sözlər kimi götürülür.
D.Clemente. Göstərilən əsəri, s. 24.

ОДНОЗНАЧНЫЙ - alm. bedeutungsgleich, ing. monosemantic /ˌmɒnə(ʊ)sɪ'mæntɪk/, monosemy /'mɒnəʊsi:mi, mə'nɒsımı/, fr. univoque, azərb. eyni mənalı.
Bax: Однозначность ←.

ОДНОЗНАЧНЫЕ СЛОВА - alm. gleichbedeutende Wörter (Pl.), ing. monosemic word /'mɒnəʊsi:mik/mə'nɒsımık wɜ:d/, having a single meaning /hævıŋ ə'sıŋgl 'mı:nıŋ/, monosemantic /'mɒnəʊsı'mæntik/, fr. mot synonyme, mot à un chiffre, azərb. eyni mənalı sözlər.
Bax: Однозначность ←.

ОСНОВНОЕ УДАРЕНИЕ – alm. Hauptbetonung (f), ing. primary (main, principal) stress /'praɪmərɪ meɪn'/ prɪnsɪpəl stres/, fr. accent fondamental, azərb. əsas vurğu (baş vurğu). - İki və daha artıq tərkibdən ibarət olan sözlərdə onlardan birinin nisbətən yüksək tonla, güclü və daha çox zaman sərf olunması ilə deyilməsi.
F.Veysalov (Vejsälli). Lehrbuch der deutschen Phonetik. Bakı, 1989, s. 194.

ОСНОВНОЙ ВАРИАНТ – alm. Grundvariante (f), ing. principal (main, basic) variant /'prɪnsəpəl /meɪn 'beɪsɪk/'veərɪənt/, fr. variante fondamentale, azərb. əsas variant. - Fonetik əhatədən ən az asılı olan, müstəqil variant. Bu, adətən ayrıca söz və ya morfem kimi işlənən fonemdir. Məs.: Azərb. d. /o/; alm. d. /t/; ing. d. /æ/ və s.
F.J.Veysälli. Einführung in die Phonologie. Bakı, 2004.

ОСНОВНОЙ ВИД ФОНЕМЫ – alm. Grundart des Phonems (f), ing. main variant of a phoneme /meɪn'vɛərɪənt əv ə 'fəʊni:m/, fr. aspect fondamental du phonème, azərb. fonemin əsas növü. - Fonemin ən çox müstəqil olan, mövqedən (əhatədən) ən az asılı olan variantı. L.V.Şerba 1937-ci ildə fonemi sadəlik naminə belə adlandırırdı. Sonralar bu tərifə görə L.V.Şerba müəyyən hücumlara məruz qaldı. Ancaq o, bunu texniki priyom (fənd) kimi işlədirdi. Əslində fonemin bütün variantları bərabərhüquqludur, yalnız statik baxımdan bir fonem o birindən üstün ola bilər. F.Veysəlli. SDƏ, s. 191-197.

ОСНОВНОЙ ЛЕКСИЧЕСКИЙ ФОНД – alm. lexischer Grundwortschatz (m), ing. basic word stock, vocabulary /'beɪsɪk wɜ:d stɒk/ vəʊ'kæbjʊlərɪ/, fr. fonds fondamental du lexique, azərb. əsas lüğət fondu. – Dilin lüğət tərkibinin ən sabit, ümumxalq səciyyəli hissəsi. Dilin əsas lüğət fondu gerçək aləmə məxsus əşya, hərəkət və proseslərin ümumişlək adlarını əhatə edir. Dilin əsas lüğət fonduna daxil olan vahidlərin başlıca xüsusiyyəti onların sabit və uzun ömürlü olmalarıdır. Məs.: Azərb. d. /dağ/, /dərə/, /el/, /vətən/, çörək/, /su/, /ana/, /ata/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 107-108.

ОСНОВНОЙ СЛОВАРНЫЙ ФОНД – alm. Grundwortschatz (m), ing. basic word stock /'beɪsɪk wɜ:d stɒk/, fr. fonds fondamental lexicographique, azərb. əsas lüğət fondu.
Bax: Основной словарный фонд ←.

ОСНОВНОЙ ТОН ГЛАСНОГО – alm. Hauptton des Vokals (m), ing. (fundamental) basic tone of vowel /'fʌndə'məntəl/beɪsɪk təʊn əv 'vaʊəl/, fr. ton fondamental de la voyelle, azərb. saitin əsas tonu.- Saitlərin akustik əsasını təşkil edən, onların yaxşı eşidilməsinə imkan verən və dəyişməz qalan səs tonu. Səs tellərinin bütövlükdə titrəməsindən alınan ton.
Bax: Основной тон →.

ОСНОВНЫЕ ГЛАСНЫЕ – alm. Kardinalvokale (Pl.), ing. cardinal vowels /'kɑ:dənəl 'vaʊəls/, fr. voyelles fondamentales, voyelles cardinales, azərb. əsas (kardinal) saitlər.
Bax: Кардинальные гласные ←.

ОСНОВНЫЕ ЧАСТИ РЕЧИ - Bax: Части речи →.

ОСТРОТА - alm. Akuität (f), ing. acuteness /ə'kju:tnes/, sharpness /ʃɑ:(r)pnəs/, acuity /ə'kju:ɪtɪ/, fr. acuité, azərb. kəskinlik. – Kəskin, akutla tələffüz olunan saitlər. Məs.: ispan dilində. /i/, /e/, /a/, /o/, /u/ saitləri.
O.C.Ахманова. Göstərilən əsəri, s. 298.

ОТВЕРДЕНИЕ - Bax: Веляризация ←.

ОТВЛЕЧЕННОЕ ЗНАЧЕНИЕ - alm. abstrakte Bedeutung (f), ing. abstract, figurative meaning /'æbstrækt/'fıgərətıv,-gju-'mi:nıŋ/, fr. (sens), acception abstraite, azərb. mücərrəd məna.
Bax: Значение абстрактное ←.

ОТВЛЕЧЕННЫЕ СУЩЕСТВИТЕЛЬНЫЕ - alm. abstrakte Substantive (Pl.), ing. abstract nouns (substantives) /'æbstrækt naʊns /'sʌbstəntıvıs/, fr. substantifs abstraits, azərb. mücərrəd isimlər.
Bax: Существительные →.

ОТГЛАГОЛЬНЫЕ - alm. deverbal, ing. verbal /'vɜ:bəl/, deverbative /di:'vɜ:bətıv/, fr. verbal, déverbatif, azərb. feli. – Fel kökündən əmələ gələn sözlər. Məs.: Azərb. d. /qaz/ (felin əmr forması) → /qaz+ma/ (isim).
O.C.Ахманова. Göstərilən əsəri, s. 298.

ОТДЕЛЬНОСТЬ СЛОВА – alm. Einzelnheit des Wortes (f), ing. separability of a word /ˌsepərə'bılıtı əv ə 'wɜ:d/, fr. séparation du mot, azərb. sözün ayrılığı. – Məs.: Azərb. d. /daş/, /buz/; alm. d. /Hahn/ (xoruz); ing. d. /ship/ (gəmi) və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 249.

ОТДЕЛЯЕМЫЙ – alm. isolierbar, trennbar, ing. separable /'sepərəbl/, fr. isolable, azərb. ayrıla bilən. - Morfoloji cəhətdən ayrıla bilən. Məs.: Azərb. d. /dağ-lı/, /od-lu/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 299.

ОТКРЫТОСТЬ – alm. Öffnung (f), ing. openness /'əʊpənnıs/, fr. ouverture, azərb. açıqlıq. – Çənənin aşağı düşməsi dərəcəsindən asılı olaraq saitlərin fərqləndirilməsi. Məs.: Azərb. d. /ı/ ən qapalı, /a/ isə ən açıq saitdir.
F.Veysəlli. SDƏ. s. 129-141.

ОТКРЫТЫЙ – alm. offen, ing. open /'əʊpən/, fr. ouvert,-e, azərb. açıq. - 1. Səsin əmələ gəlməsində alt çənənin aşağı düşməsi nəticəsində dilin neytral və ya ağız boşluğunda uzanıb qalması ilə yaranan səs. Məs.: Azərb. d. /a/ saiti.
F.Veysəlli. SDƏ. s. 129-141.

ОТКРЫТЫЙ ГЛАСНЫЙ – alm. offener Vokal (m), ing. open vowel /'əʊpən 'vaʊəl/, fr. voyelle ouverte, azərb. açıq sait. - Tələffüzü zamanı alt çənənin aşağı düşməsilə yaranan saitlər: Məs.: /a/ və s.
F.Veysəlli. SDƏ. s. 129-141.

ОТКРЫТЫЙ СЛОГ – alm. offene Silbe (f), ing. open syllable /'əʊpən sıləbəl/, fr. syllabe ouverte, azərb. açıq heca. - Sonu saitlə bitən heca. Məs.: Azərb. d. /a-na/, /a-ta/, /a-ra-ba/, /pi-ya-lə/ və s.
Ə.Dəmirçizadə. Göstərilən əsəri, s. 100-114.

ОТМЕЧЕННОСТЬ - alm. Merkmalhaftigkeit (f), ing. well-formedness /wel-'fɔ:mdnes/, markednees /mɑ:ktnıs/, grammaticality /grə'mætıkəlıtı/, fr. marque, azərb. nişanlılıq. – 1) Qarşılaşmanın bir üzvünün o birisindən fərqlənməsini təmin edən əlamət. Məs.: Azərb. d. /ɣ/ # /i/ qarşılaşmasında /ɣ/ dodaqlı, /i/ isə dodaqsız olması ilə fərqlənir; 2) Söz birləşmələrinin və cümlələrin qrammatik cəhətdən düzgünlüyü. Məs.: Azərb. d. /Onlar oynayırlar//, ancaq /Onlardan yağış yağdırır// düzgün deyildir.
F.Veysəlli. SDƏ.

ОТМЕЧЕННЫЙ – alm. markiert, ing. well-formed /wel-'fɔ:md/, marked /mɑ:kt/, grammatical /grə'mætıkəl/, registered /'redʒıstəd/, fr. marqué,-e, azərb. nişanlanmış. - Müəyyən dilin qrammatik qaydalarına müvafiq tərzdə nizamlanmış ünsürlərin müəyyən dil üçün səciyyəvi olan qanunauyğun tərzdə birləşməsi, habelə transformasiyanın (keçidin) əsası və digər linqvistik eksperimentin müxtəlif növləri üçün istifadəyə yararlı sayılan. Məs.: ing. d. /John/ loves Marie/ (Jon Mariyanı sevir), ancaq */John do love Marie//. Uyğun gəlməyən ifadə əvvəldə ulduzcuqla göstərilir /*/.
F.Veysəlli. SDƏ.

ОТМИРАЮЩИЕ ЯВЛЕНИЯ – alm. gestorbene Erscheinungen (Pl.), ing. moribund phenomena /'mərıbʌnd fı'nɒmınə/, fr. phénomène en disparition, azərb. ölməkdə olan hadisələr, təzahürlər. - Yaşlı nəslin danışığında rast gəlinən, lakin gənc nəslin böyük əksəriyyətinin danışığında təsadüf edilməyən dil hadisələri. Məs.: orta alman dilində /federlesen/ (yaltaqlanmaq) var idi. Hərfi mənası ünlü adamların paltarlarının uçan qanadlarını götürmək demək idi. Hazırda bu söz işlənmir.
D.Clement. Göstərilən əsəri, s. 25.

ОТНОСИТЕЛЬНАЯ ХРОНОЛОГИЯ – alm. relative Chronologie (f), ing. relative chronology /'relətıv krə'nɒlədʒı/, fr. chronologie relative, azərb. nisbi xronologiya. - Müqayisəli-tarixi dilçilikdə bu və ya digər dilə xas olan hadisənin qədimliyini müqayisə olunan dillərə əsasən təyin edilməsi. Məs.: /afterwelt/ sözü ing. d. /after/ (sonra) və s. sözləri müqayisədə açıqlana bilər.
D.Clement. Göstərilən əsəri, s. 26.

ОТНОСИТЕЛЬНО-БЕЗЛИЧНЫЕ ПРЕДЛОЖЕНИЯ – alm. relativ-unpersönliche Sätze (Pl.), ing. relative-impersonal sentences /'relətıv ım'pə:sənəl 'sentəns/, fr. propositions impersonnelles relatives, azərb. nisbi şəxssiz cümlələr. - Ümumi şəxsli və qeyri-müəyyən şəxsli cümlələrin ümumi adı. Məs.: Azərb. d. /Nə əkərsən, onu da biçərsən//, /Palaza bürün, ellə sürün//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 207.

ОТНОСИТЕЛЬНО-БЕССУБЪЕКТНЫЕ ПРЕДЛОЖЕНИЯ – alm. relativ-subjektlose Sätze (Pl.), ing. relative-impersonal sentences

/ˈrelətɪv-ɪmˈpəːsənəl sentəns/, fr. propositions impersonnelles-relatives, azərb. nisbi şəxsli cümlələr.

Bax: Относительно-безличные предложения ←.

ОТНОСИТЕЛЬНО-ВОПРОСИТЕЛЬНОЕ МЕСТОИМЕНИЕ – alm. interrogativ-relatives Pronomen (n), ing. interrogative-relative pronoun /ˌɪntəˈrɒgətɪvˈrelətɪv ˈprəʊnaʊn/, fr. pronom relative-interrogative, azərb. nisbi sual əvəzliyi.

Bax: Местоимение вопросительно-относительное ←.

ОТНОСИТЕЛЬНО-ВОПРОСИТЕЛЬНОЕ ПОДЧИНЕНИЕ – alm. indirekt-interrogative Unterordnung (f), ing. relative-interrogative subordination /ˈrelətɪv-ɪntəˈrɒgətɪv səˌbɔːdɪˈneɪʃən/, fr. subordination relative-interrogative, azərb. nisbi sual tabeliliyi. – Prosodik vasitələrlə (intonasiya, ritm və s.) ifadə olunan və vasitəli nitqdə işlənən tabelilik. Məs.: Azərb. d. /Əməlli-başlı soruş, gör gələn kimdir, nə karədir//.

O.C.Ахманова. Göstərilən əsəri, s. 331.

ОТНОСИТЕЛЬНОЕ ВРЕМЯ – alm. relative Zeit (f), ing. relative tense /ˈrelətɪv tenz/, fr. temps relatif, azərb. nisbi vaxt (zaman). - Danışıq anına deyil, cümlədə digər zaman formasına əsasən müəyyənləşdirilən zaman forması; Mütləq zamanın əksi. Məs.: Azərb. d. /İşçilər bildirdilər ki, tikinti - quraşdırma işləri qaydasında gedir//. Bu cümlədə /gedir/ indiki zaman fomasındadır. Ancaq bu cümlədəki xəbərin keçmiş zaman formasında əks etdirdiyi zamana əsaslanır.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 109.

ОТНОСИТЕЛЬНОЕ ПРИДАТОЧНОЕ – alm. Relativsatz (m), ing. relative subordinate /ˈrelətɪv səˈbɔːdɪnɪt/, relative dependent clause /ˈrelətɪv dɪˈpendənt klɔːz/, fr. subordonnée relative, azərb. nisbi budaq (cümlə). – Nisbi əvəzliklər və nisbi zərflərlə qurulan cümlələr. Məs.: Azərb. d. /Kim riskə gedir, o da udur//.

H.Bußmann. Göstərilən əsəri, s. 643.

ОТНОСИТЕЛЬНОЕ СЛОВО – Bax: Союзный →.

ОТНОСИТЕЛЬНОЕ ДОПОЛНЕНИЕ – Bax: Дополнение ←.


ОТНОСИТЕЛЬНЫЙ – alm. relativ, ing. relative /ˈrelətɪv/, fr. relatif, azərb. nisbi. – 1. Dil sisteminin digər ünsürlərilə və ya söyləmin digər hissəsilə əlaqədar olan. Məs.: cümlədə mübtəda xəbərlə zamana, şəxsə və kəmiyyətə görə uzlaşır; 2. Natamam, qismən; 3. Mürəkkəb cümlənin tərkibinə daxil olan cümlələr arasında elə bir əlaqədir ki, bu zaman budaq cümlənin baş cümlədən asılılığı bağlayıcı vasitəsilə ifadə olunur. Məs.: Azərb. d. /O bilirdi ki, Əhməd axşam işə çıxmayacaq//.

O.C.Ахманова. Göstərilən əsəri, s. 300.

ОТНОСИТЕЛЬНЫЙ АНТЕЦЕДЕНТ – Bax: Союзный →.
ОТНОСИТЕЛЬНАЯ АТТРАКЦИЯ - Bax: Аттракция ←.
ОТНОСИТЕЛЬНОЕ МЕСТОИМЕНИЕ - Bax: Местоимение ←.
ОТНОСИТЕЛЬНОЕ ОПРЕДЕЛЕНИЕ - Bax: Определение →.
ОТНОШЕНИЕ – alm. Beziehung (f), Relation (f), ing. relation /rɪ'leɪʃən/, fr. rapport, relation, azərb. əlaqə, münasibət. – Dildə əlaqələr iki cür olur: a) sintaqmatik. Məs.: Azərb. d. /Atam mənə top aldı//; b) paradiqmatik və ya danışıqda işlənən o sıradan olub, lakin indi işlənməyənlər arsındakı münasibətlər.

Məs.: Azərb. d. /Mən kitab oxuyuram//
/Sən dəftər oxuyursan//

F.Yadigar (Veysəlli). GDG. s. 39.
ОТНОШЕНИЕ СЕМАНТИЧЕСКОЕ – alm. semantische Beziehung (f), semantische Relation (f), ing. semantic relation /sɪ'mæntɪk, rɪ'leɪʃən/, fr. (rapports) relation sémantique, azərb. semantik münasibət. – Təbii dillərdə söyləm, söz və cümlələrin bütün əlaqələrinin ümumidəşdirici adı. Bu da cümlədəki ayrı-ayrı elementlər arasındakı sintaqmatik, yəni mübtəda ilə xəbər arasındakı uzlaşmaya bənzər əlaqədir. Məs.: alm. d. /die Sonne schneit// (Günəş yağır), /Der Fels flucht// (Qala qaçır) cümlələrində sözlər mənaca tutmur (kompatibillik, seçim məhdudiyyəti). Və ya paradiqmatik əvəzlənmə. Məs.: alm. d. //Morgen ist Sonnabend// (Sabah şənbə günüdür), /Sonnabend/ əvəzinə /Samstag/ işlənə bilər, onlar sinonimlərdir.
H.Bußmann. Göstərilən əsəri, s. 676.
ОТНОСИТЕЛЬНЫЙ ДЕЙКСИС – Bax: Анафора ←.
ОТНОШЕНИЕ СТРУКТУРНОЕ – alm. strukturelle Relation (f), ing. structural relation /'strʌktʃərəl rɪ'leɪʃən/, fr. relation structurale, azərb. struktur əlaqə. - 1. Cümlənin elementləri arasındakı qarşılıqlı struktur əlaqə. Bu hierarxik struktur əlaqə əsasında təşkil olunur. Bu o deməkdir ki, ən aşağı səviyyənin vahidi yuxarı səviyyələrin tərkibində reallaşır və ən yuxarı səviyyənin vahidi ən azı bir aşağı səviyyə vahidindən ibarət olmalıdır. Müq. et: /Gələn kimdir? Cümləsində /o/ kimi cavab versək, onda biz burada həm fonem, həm morfem, həm leksem, həm də cümlə işlətmiş oluruq. Belə hallar nadirdir. Cümlə, adətən, bir neçə sözdən, söz ən azı bir morfemdən və s. ibarət olur. Bu əlaqələri ağac şəklində daha aydın vermək olur. Məs.: alm. d. /Der Lehrer schreibt einen Brief// (Müəllim məktub yazır) cümləsi belə əks olunur:



F.Veysəlli. Struktur dilçiliyin əsasları. Studia Philologica. II. Bakı, 2008.

ОТОЖДЕСТВЛЕНИЕ-РАЗЛИЧЕНИЕ – alm. Identifikation-Differenzierung (f), ing. identification-differentiation /aɪˌdentɪfɪ'keɪʃən ˌdɪfə renʃɪ'eɪʃən/, fr. identification-distinction, azərb. eyniləşdirmə-fərqləndirmə. - Deskriptiv dilçiliyin əsas metodu. Semioloji müxtəlifliyi semioloji «eynililikdən» ayırmaq üçün deskriptivlərin işləyib hazırladıqları metodika. Dil vahidlərinin fərqləndirilməsi üçün onlar akustik cəhətdən müxtəlif olmalıdır. Akustik cəhətdən fərqli olmayan heç vaxt müxtəlif ola bilməz. Omonimiya və polisemiya yalnız müxtəlif kontekstlər daxilində mümkündür. Məs.: alm. d. /Pferd/ 1) heyvan; 2) şahmatda fiqur mənasında bu söz eyni kontekst daxilində gələ bilməz.

Л.Р.Зиндер. Общая фонетика. М., 1979.

ОТОМАНГСКИЕ ЯЗЫКИ - alm. Otomang-Sprachen (Pl.), ing. Otomi languages /əʊtəʊ'mi: 'læŋgwɪʤɪz/, fr. langues otomangues, azərb. otomanqan dilləri. – Hindu dilləri ailəsinə məxsus dillər qrupu. Otomanqan dillərinin əksəriyyəti Oaxaka ştatında cəmlənmişdir. Bu dillərdə ümumilikdə 1,3 milyon insan danışır. Otomanqan dilləri əsasən aşağıdakı qruplara bölünür: otopamey (pame, çiçimekxonas, otomi, masua), popolok (popolok, iskatek, asatek, çono); miştek (miştek, kuikatek, trik və s.); çoroteq (manq), sapotek (sapotek, çatino). Otomanqan dilləri morfoloji quruluşuna görə flektiv dillərə aid edilirlər.

R.E. Longacre. Proto-Mixtecan. Bloomington, 1957; H.H. Hess. The syntactic structure of the Mezquital Otomi. The Hague – P., 1968.

ОТРАЖЕНИЕ – alm. Reflektion (f), ing. reflection /rɪ'flekʃən/, fr. réflexion, azərb. inikas, əks etmə. - Eyni invariant vahidin başqa dildə (dialektdə) şəkli dəyişdirilmiş tərzdə və ya həmin dildə başqa vaxtda təkrarlanması. Məs.: /o/ burun saitinin indiki slavyan dillərində əks olunması.

O.C.Ахманова. Göstərilən əsəri, s. 302.

ОТРИЦАНИЕ – alm. Verneinung (f), Negation (f), ing. negative /'negətıv/, negation /nı'geıʃən/, fr. négation, azərb. inkar. – Cümlənin və ya cümlə üzvlərindən birinin inkar edilməsi. Çağdaş Azərbaycan dilində inkarlığın aşağıdakı ifadə vasitələri vardır: 1) /–ma/, /- mə/ inkarlıq şəkilçilərinin artırılması ilə. Müq. et: Azərb. d. /gəlmə/, /dinmə/, /danışma/, /dinməmək/ və s., 2) /nə/ ədatının vasitəsi ilə. Məs.: Azərb. d.

/Səhər–səhər girdim bağa/
Nə bağ bildi, nə də bağban//,

/Nə sülh, nə müharibə// və s; 3) inkarlıq ifadə edən /xeyr/, /yox/, /deyil/ sözləri vasitəsilə. Məs.: Azərb. d. /Bizə lazım deyildir//, /Yox, mən belə işlərə qarışmıram//, 4) intonasiyanın köməyi ilə. Məs.: Azərb. d. /İşində ol, gedərəm!// və s., 5) inkar əvəzliyilə. Məs.: /Heç kəs bilmir//. Alman dilində cümlədə yalnız bir inkar vasitəsi işlənə bilər.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 118.

ОТРИЦАНИЕ АБСОЛЮТНОЕ - alm. absolute Negation (f), ing. absolute negation /'æbsəlu:t nı'geıʃən/, fr. négation absolue, azərb. mütləq inkar. – Bütövlükdə söyləmin məzmununa aid olan inkar. Məs.: Azərb. d. /Xeyr, mənim sabah öz işim var//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 119.

ОТРИЦАНИЕ ЛОГИЧЕСКОЕ - alm. logische Negation (f), ing. logical negation /'lɒʤıkəl nı'geıʃən/, fr. négation logique, azərb. məntiqi inkar. - Məntiqi–riyazi səciyyəli inkar. Məntiqi inkar əsas mahiyyəti təkrarlanan iki inkarın bir–birini qarşılıqlı şəkildə inkar etməsindən ibarətdir ki, bunun da nəticəsində inkar təsdiq mənası qazanır. Məs.: Azərb. d. /O, bu işlərə qoşulmaya bilməzdi//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 118.

ОТРИЦАНИЕ МНОГОКРАТНОЕ - alm. vielfache Negation (f), ing. multiple negation /'mʌltıpəl nı'geıʃən/, fr. négation itérative, azərb çoxdəfəli inkar. - Söyləmin iki və daha artıq, bəzən isə bütün üzvlərində təkrarlanan inkar. Məs.: Azərb. d. /Guya heç kəsin heç nədən heç vaxt heç bir xəbəri olmayıb//; alm. d. /weder...noch /Er ist weder groβ, noch klein// (O nə böyükdür, nə də kiçik).
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 118.

ОТРИЦАНИЕ ПРОСТОЕ - alm. einfache Negation (f), ing. simple negation /sımpl nı'geıʃən/, fr. négation simple, azərb. sadə inkar. – Söyləm daxilində bir dəfə ifadə edilən inkar. Məs.: Azərb. d. /Maşın işləmir//, /Mən dərsə getməyəcəm//; alm. d. /Ich lese kein Buch// (Mən heç bir kitab oxumuram); ing. d. inkarı düzəltmək üçün /to do/ köməkçi felindən və /not/ hissəciyindən istifadə olunur. Müq. et: /I don't (do not) read a book// (Mən kitab oxumuram).
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 118.

ОТРИЦАНИЕ СИНТАКСИЧЕСКОЕ - alm. syntaktische Negation (f), ing. syntactic(al) negation /sɪn'tæktɪk(əl) nɪ'geɪʃən/, fr. négation syntaxique, azərb. sintaktik inkar. – Söyləmdə prosodik vasitələrlə, intonasiya və ritorik suallarla ifadə olunan inkar. Məs.: Azərb. d. ¿Sən istəyirsən mən belə yağışlı havada sizə gəlim؟.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 118.

ОТРИЦАНИЕ СЛОВЕСНОЕ - alm. Wortnegation (f), ing. word-negation /wɜ:d nɪ'geɪʃən/, fr. négation oralle, azərb. sözlə inkar. – Söyləmdə leksik vasitələrin köməyilə ifadə olunan inkar. Məs.: Azərb. d. /Bu sözdən o küsən deyil//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 118.

ОТРИЦАНИЯ ОБЩЕГО СЛОВА - alm allgemeine Wortnegation (f), ing. common word-negation /'kɒmən wɜ:d nɪ'geɪʃən/, fr. négation du terme commun, azərb. ümumi inkar sözü. – Azərbaycan dilində /yox/ və /xeyr/ sözlərinin (digər dillərdə isə onun ekvivalentləri) vasitəsilə ifadə olunan inkar. Müq. et: Azərb. d. /Xeyir, mən razı deyiləm//; ing. d. /No//, alm.d. /nein/; fr. d. /non//; rus d. /Нет// və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 118.

ОТРИЦАТЕЛЬНЫЙ – alm. negativ, ing. negative /'negətɪv/, fr. négatif,-ve, azərb. inkarlıq bildirən.
Bax: Отрицание ←.

ОТРИЦАТЕЛЬНАЯ МОРФЕМА – alm. Negationsmorphem (n), ing. zero, negative morpheme /'zɪərəʊ 'negətɪv 'mɔ:fi:m/, fr. morphème négatif, azərb. inkar morfem. – Qrammatk şəkilçi kimi inkarın ifadəsinə xidmət edən morfem. Məs.: Azərb. d. /ma-mə, maz-məz/ bu qəbildən olan morfemlərdir. Müq. et: Azərb. d. /alma/, /gəlməz/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 118.

ОТРИЦАТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ – alm. Negativsatz (m), ing. negative sentence /'negətɪv sentəns/, fr. proposition négatif, azərb. inkar cümlə. - Xəbəri inkar formasında işlənən cümlə. Məs.: Azərb. d. /Gələn ayın axırında burada olmayacağam//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 118.

ОТРИЦАТЕЛЬНЫЕ СЛОВА - alm. Negationswörter (Pl.), ing. negative words /'negətɪv wɜ:dz/, fr. mots négatifs, azərb. inkar sözlər. – Azərb. d. /yox/, /xeyr/ sözləri və /heç/, /heç də/ inkar ədatları; alm. d. /nein/, /nicht/; ing. d. /no/; rus d. /нет/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 118.

ОТСТУП – alm. Absatz (m), Abglitt (m), Lautabsatz (m), ing. off-glide /ɒf glaɪd/, final glide /'faɪnəl glaɪd/, fr. détente, azərb. çəkilmə (səsin üçüncü fazası). – Dildə müəyyən səsin tələffüzünün üçüncü (sonuncu)

mərhələsi, tələffüz üzvlərinin əvvəlki (sükunət) vəziyyətinə qayıtması. Alman dilində iki cür abzats var: zəif (los) və qüvvətli (**starker**). Birinci halda samit özündən sonra gələn saitə onun sönmə **anında** qoşulur. Məs.: alm. d. /'ʃta:t/ (dövlət). İkinci halda isə samit saitin **tən** ortasından kəsərək ona qoşulur. Məs.: /ʃtat/ (şəhər).
F.Veysəlov (Vejsəlli). Alman dilinin fonetikası. Bakı, 1980, **s.** 133.

ОТСТУПАЮЩЕЕ УДАРЕНИЕ – alm., ing. recessive **stress** /rɪ'sesɪv stres/, fr. détente de l'accent, azərb. çəkilən vurğu. – **Alınma** sözlərdə dilin daxili qanunlarına fonetik, aksent) müvafiq olaraq **vurğunun** son hecadan ilk hecaya keçməsi. Məs.: latın dilində */literatu'ra/*, ingilis dilində */li'terature/* kimi verilir.
O.C.Ахманова. Göstərilən əsəri, s. 304.

ОТСУБСТАНТИВНЫЙ – alm. denominativ, ing. **substantive** /'sʌbstəntɪv/, denominative /dɪ'nɒmɪnətɪv/, fr. dénominatif, **azərb.** ismi. – İsmə aid olan, ismdən düzəlmiş. Məs.: Azərb. d. /sulu/, /**duzlu**/, /qızılı/, /gümüşü/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 304.

ОТСЫЛОЧНЫЙ – alm. verwiesen, ing. reference word /'refrəns wɜ:d/, fr. indiqué,-e, cité,-e, azərb. işarə edilən. - Bir mənbədə **və** ya lüğətdə digər sözə işarə. Məs.: rus d. /отсылать/ sözünün qarşısında /отослать/ verilir, bu da o deməkdir ki, sözün mənasının açılışı **və ya** başqa cür verilməsini bilmək üçün /отослать/ sözünə baxmaq lazımdır.
O.C.Ахманова. Göstərilən əsəri, s. 304.

ОТТЕНОК ФОНЕМЫ – alm. Phonemschattierung (f), **ing.** allophone /'æləfəʊn/, fr. nuance du phonème, azərb. fonemin **çaları**, variantı, allofonu.
Bax: Аллофон ←, вариант ←.

ОТЧЕСТВО – alm. Vatersname (m), Patronymikon (m), **ing.** patronymic (name) /ˌpætrə'nɪmɪk neɪm/, fr. patronyme, patronymique, azərb. ata adı. – Öz mənşəyinə görə ata adından törənmiş adlar. Məs.: Azərb. d. /Dəmirçioğlu/, /Həsənoğlu/; alm. d. /Mendelsson/; rus d. /-ович, -евич/ ilə düzəlir. Müq. et: /Иван Иванович/, /Александр Александрович/ və s.
R.Conrad. Göstərilən əsəri, s. 294.

ОТЫМЕННЫЙ – alm. denominal, ing. denominative /dɪ'nɒmɪnətɪv/, fr. dénominatif, azərb. ismi. – İsimdən düzəlmiş törəmə **əsasa** malik olan söz. Məs.: Azərb. d. /kədərli-kədərlənmək-kədərsiz/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 304.

ОТЫМЕННЫЙ ГЛАГОЛ - alm. denominales Verb (n), ing. denominative verb /dɪ'nɒmɪnətɪv vɜ:b/, fr. verbe dénominatif, **azərb.** ismi fel. -

İsimlərə (adlara) sözdüzəldici şəkilçilərin artırılması ilə düzələn fellər. Məs.: Azərb. d. /ağıl-ağıllanmaq/, /diş-dişləmək/ və s.
О.С.Ахманова. Göstərilən əsəri, s. 305.

ОТЫМЕННОЕ ПРИЛАГАТЕЛЬНОЕ - alm. demoninales Adjektiv (n), ing. denominative adjectiv /dɪ'nɒmɪnətɪv ædʒɪktɪv/ fr. adjectif dénominatif, azərb. ismi sifət. - Ad bildirən sözlərə sözdüzəldici şəkilçilərin artırılması ilə düzələn sifətlər. Məs.: Azərb. d. /duz-duzlu/, /söz-sözlü/, /gül-güllü/, /su-susuz/ və s.
О.С.Ахманова. Göstərilən əsəri, s. 305.

ОФИЦИАЛЬНЫЙ – alm. offiziell, ing. official /ə'fɪʃəl/, formal /'fɔ:məl/, fr. officiel, azərb. rəsmi. – Rəsmi sənədlərə, işgüzar kağızlara aid olan üslub. Məs.: Azərb. d. /Nəzərinizə çatdırıram ki, .../.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 227.

ОЦЕНКА – alm. Schätzung (f), ing. evaluation /ɪˌvælju'eɪʃən/, valuation /ˌvælju'eɪʃən/, fr. évaluation, azərb. qiymət. - Üslubi konnotasiyanın əsas hissələrindən biri kimi danışanın mühakiməsi, fikir obyektinə münasibəti (rəğbəti, nifrəti, arzuları, xeyir-duası və s.). Məs.: Azərb. d. /Soyuqdan qızcığazın zərif əlləri donmuşdu//.
О.С.Ахманова. Göstərilən əsəri, s. 305.

ОШИБОЧНОЕ ЧТЕНИЕ – alm. Verlesen (n), ing. misreading /mɪsrɪ:dɪŋ/, fr. mélecture, azərb. səhv (yanlış) oxuma. - Mətnin düzgün dərk olunmasını əngəlləyən yanlış oxuma. Məs.: Azərb. d. /kitabın 10-cu səhifəsində deyildiyi kimi/ əvəzinə /kitaba 15 səhifəyə de ki.../ və s.
О.С.Ахманова. Göstərilən əsəri, s. 305.

- П -

ПАДАЮЩИЙ ТОН - alm. Fallton (m), ing. falling tone /fɔ:lıŋ 'təun/, fr. filant, descendant ton, azərb. enən ton.- 1) Nəqli cümlənin sonuna doğru intonasiyanın əsas komponentlərindən olan əsas tonun aşağı düşməsi ifadənin bitməsini göstərir. Məs.:/↘/. Tonal dil sayılan Çinin mandarin dilində tonun müxtəlif hərəkəti söz formalarını fərqləndirməyə xidmət edir.

Aşağıdakı nümunələr bunu aydın göstərir:

ma — (səviyyə tonu) (ana)

ma ∪ (qalxan ton) (çətənə)

ma ↗ (ardıcıl ton) (həşir, dar ağacı)

ma ◠ (enən ton) (deyingən adam)

D.Jones. The Phoneme, it's Nature and Use. Cambridge, 1949, s. 16.

ПАДАЮЩИЙ - alm. fallend, ing. falling /'fɔ:lıŋ/, descending /dı'sendıŋ/, fr. décroissant, descendant, incident, azərb. enən. - Müəyyən bir səsin tələffüzünün son mərhələsində əzələ gərginliyinin tədricən zəifləməsi nəticəsində tonun aşağı düşməsi.

H.Bußmann. Göstərilən əsəri, s. 184.

ПАДАЮЩИЙ ДИФТОНГ - alm. fallender Diphthong (m), ing. falling diphthong /'fɔ:lıŋ 'dıfθɒŋ/, fr. diphthonque descendante, azərb. enən diftonq. - Tərkibindəki komponentlərdən birincisi vurğulu, gərgin, heca nüvəsini əmələ gətirən, ikincisi isə vurğusuz, zəif, heca nüvəsi əmələ gətirməyən diftonqdur. Məs.: alm. d. /a o/, /a e/, /ɔ ø/ diftonqları. Müq. et: «Maus» /'ma os/ (siçan), «Eis» /ˊˊa es/ (dondurma), «heute» /ˊhɔ øtə/ - (bu gün) sözlərində.

F.Veysalov (Veysəlli). Lehrbuch der deutschen Phonetik. Baku, 1989.

ПАДЕЖ - alm. Kasus (m), Fall (m), ing. case /keıs/, fr. cas, azərb. hal. - Cümlədə sintaktik funksiyanın göstərilməsinə xidmət edir, ismə məxsus kateqoriyadan biri olub, onun idarə və uzlaşma əlaqəsində iştirak edən sözlərlə əlaqəsini əks etdirir. Hal sistemi müxtəlif dillərdə müxtəlif cür ifadə olunur. Nominativ dillər sayılan hind-Avropa dillərində Nom., Gen., Dat., Akk., Abl., Vokativ, İnstrumental və Vokativ hallarını fərqləndirirlər. Erqativ dillərdə → Nom. və Akk. əvəzinə erqativ və absolutiv hallarını fərqləndirirlər. Fin-uqor dillərində partitiv, elativ, illativ, inessiv və s. halları vardır. Məlum olduğu kimi, hind-Avropa dillərində yuxarıda göstərilən 8 haldan Vokativ, İnstrumental, Ablativ, qismən də Genitiv və Dativ sözönülü birləşmələrilə əvəz edilib. Fonem dəyişməsi

nəticəsində formaca üst-üstə düşən halları sinkretizm adlandırırlar. Flektiv dillərdə hal göstəriciləri polifunksional morfemlər olur. Məs.: alm. d. dativ halının şəkilçisi /e/ həm cəm şəkilçisi, həm də düzəltmə isimlərin yaranmasında iştirak edir. Qeyri-flektiv dillərdə isə (ing. və fr. d.) sintaktik funksiyalar əsasən söz sırası və cümlə strukturu ilə ifadə olunur, ona görə də bu dillərdə hallar sıxışdırılıb və sintaktik funksiyaları söz sırası öz üzərinə götürür. Türk dillərində hər halın öz göstəricisi var, o cümlədən, Azərbaycan dilində ismin 6 halı var.
H.Bußmann. Göstərilən əsəri, s. 367.

ПАДЕЖ КОСВЕННЫЙ - alm. abhängiger Kasus (m), ing. oblique case /ə'bli:k keıs/, fr. cas indirect, oblique, azərb. vasitəli hal. - Adlıq haldan başqa yerdə qalan bütün hallar. Sintaktik əlaqələri müstəqil tərzdə deyil, asılı şəkildə bildirən və buna görə adlıq hala qarşı qoyulan digər halların ümumi adı. Bu halları adlıq haldan fərqləndirən əsas cəhət ondan ibarətdir ki, cümlədə adlıq halda olan sözlər sintaktik cəhətdən digər sözlərdən asılı deyildir, halbuki yiyəlik, yönlük, təsirlik, yerlik və çıxışlıq halları cümlə və ya söz birləşməsi tərkibində digər sözlərdən sintaktik asılılığı ilə seçilirlər. Məs.: Azərb. d. /kimin kitabı/, /kimi görürsən/, /kimə baxırsan/, /kimdə qaldı/, /kimdən aldın/, /kim gedirdi/ və s.
Bax: Падеж ←.

ПАДЕЖНАЯ ГРАММАТИКА (ГРАММАТИКА ПАДЕЖЕЙ) – alm. Kasusgrammatik (f), funktionale Grammatik (f), ing. case grammar /keıs 'græmə/, fr. grammaire casuel, azərb. hal qrammatikası. – Cümlənin sintaktik strukturu və semantikasını mərkəzi təsvir vasitəsi kimi alt qatdakı halı (semantik/tematik), universal nəzəriyyələrin ümumiləşmiş adı. Alt qat halı cümlədə felin təsirilə situasiyanı öz üzərinə götürməsilə semantik rolları oynayan müxtəlif «iştirakçılar». Onların sayı və semantik əhəmiyyəti hal qramatikasında daim nəzərdən keçirilən ziddiyyətli mövzudur. Rollara görə bu sahədə iki istiqamət var: funksional qrammatika və ya leksik hal modeli kimi adlandırılan və inkişaf etdirilən qrammatika. Burada əsas hal rolları bunlardır: a) agens hərəkətin icrasının canlı səbəbkarı. Məs.: Azərb. d. /Cəmil qapını açır// cümləsində /Cəmil/; b) instrumental hərəkətin cansız səbəbkarı. Məs.: Azərb. d. /Külək qapını açdı//. Obyektin və ya işin nə ilə, nəyin vasitəsilə görülməsi. Məs.: Azərb. d. /Cəmil qapını açarla açdı//; c) obyektiv (əvvəlki tədqiqatlarda neytral hal, sonralar isə pasient və ya məqsəd kimi göstərilirdi): cansız və ya bilavasitə hərəkətin aid olduğu obyekt. Məs.: Azərb. d. /Cəmil qapını açdı//-da /qapını/ və s.; ç) dativ (həmçinin resipiyent→benefakt, eksperienser (təcrübəçi), vəziyyətin və ya hərəkətin aid olduğu canlı iştirakçının rolu (pasienslə müqayisədə). Məs.: Azərb. d. /Cəmil oğluna qapını açdı// və ya almanca /Mir graut's// (Mənə vahiməli gəlir); d) lokativ, hərəkətin icra yeri. Burada əsasən fellərin növünə dair rollar müəyyənləşir. Məs.: Azərb. d. /Cəmilin qorxusu var// (Djhämil hat Angst)

cümləsində hərəkətin agensinə vəziyyətin daşıyıcısı rolu ayrılır; e) lokativ fərziyyəsi, burada mövqe və hərəkət bildirən az qism feldən söhbət gedir, bu rollar abstrakt hərəkətin üzərinə keçir ki, bunlar da sahiblik mənası bildirən fellərdir. Buraya səbəb, məqsəd, mövzu və lokativ rollar aiddir. Bu rollar sistemində agens səbəbə bağlı olur, halbuki pasiens, eksperiensə və temaya arqument kimi çıxış edir. Məs.: alm. d. /Die Tür ist dort//. Məqsəd isə həm dativi (müraciət olunanı) əhatə edir. Məs.: Azərb. d. /Cəmil oğluna siqareti buraxmağı vəd etdi// cümləsində /oğluna/ həm də məqsədin və istiqamətin yerini bildirir. Məs.: Azərb. d. /Cəmil Moskvaya oxumağa gedir//. Qeyd edək ki, təkcə hal kateqoriyası deyil, həm də sözlər arasında əlaqə məsələsi müvafiq nəzəri yanaşmadan asılıdır. Hal felin və digər valent daşıyıcılarının (isim, sifət) semantik valentliyini müəyyən edir. Sintaktik qaydalar üçün çıxış bazası kimi felin hal çərçivəsilə müəyyənləşən hal strukturları yaranır. Bu onunla müəyyənləşə bilər ki, hər alt halı cümlədə bir dəfə gəlir. Reallaşma qaydaları alt halın sintaktik funksiyaları (mübtəda və xəbər) olur ki, sintaktik funksiyalar alt halı zəminində müəyyən edilə bilərlər. Əgər hal çərçivəsində agens çıxış edirsə, o, aktiv cümlədə subyekt olur. Bütövlükdə rolların bölgüsü hierarxik qanun kimi tamamlığın seçimi, felin valentliyi, passiv və qaydasız fellər üçün universal fenomen təsiri bağışlayır və universal qrammatikanın təsvirini xatırladır.
H.Bußmann. Göstərilən əsəri, s. 368-370.

ПАДЕЖ МЕСТНЫЙ - alm. Lokativ (m), ing. locative /ˈlokətɪv/, local case /ˈləʊkəl keɪs/, fr. cas locatif, azərb. yerlik hal. - Predmetin yerləşdiyi yeri (məkanı) bildirən hal forması. Məs.: rus d. /в школе/; Azərb. d. /məktəbdə/. İng. və alm. d. bu qrammatik məna sözönülərilə verilir. Məs.: alm. d. /in der Schule/; ing. d. /at the school/ və s.
Bax: Падеж ←.

ПАДЕЖ ПРЕДЛОЖНЫЙ - alm. Präpositiv (m), ing. prepositional case /ˌprepəˈzɪʃənəl keɪs/, fr. cas prépositif, azərb. qoşmalı hal. – Slavyan və german dilləri üçün səciyyəvi olub, sözönülərilə işlənən hal forması. Məs.: rus d. /Книга на столе/, /в один день/, /на западе/; alm. d. /im Haus/; ing. d. /at the home/. Belə sözönülər sözə müxtəlif məna (izah, vaxt, zaman) çaları verir.
P.H.Matthews. Göstərilən əsəri, s. 292.

ПАДЕЖ ПРЯМОЙ - alm. direkter Kasus (m), ing. direct case /drekt keɪs/, fr. cas direct, azərb. vasitəsiz hal. - Adlıq hal. Digər hallardan fərqli olaraq bu hal iş, hal, hərəkətin icraçısını, subyekti bildirən haldır. Məs.: Azərb. d. /Həsən müəllimdir/, /Cəmil lüğət yazır//, /alma şirindir/ və s.
H.Bußmann. Göstərilən əsəri, s. 368-370.

ПАДЕЖ БЕСПРЕДЛОЖНЫЙ - alm. präpositionalloser Kasus (m), ing. non-preposition case /ˈnɒnˌprepəˈzɪʃən keɪs/, fr. cas non-prépositif,

azərb. qoşmasız hal. - Qoşmasız işlənən hal forması. Buraya adətən Azərb. alm., və rus d. adlıq halı və qoşma işlənmədiyi digər «qoşmasız hallar» aid edilirlər. Məs.: rus d. /Я читаю книгу//; alm. d. /Er schreibt einen Brief// (O məktub yazır).

R.Conrad. Göstərilən əsəri, s. 125.

ПАДЕЖ ГРАММАТИЧЕСКИЙ - alm. grammatischer Kasus (m), ing. grammatical case /ˈgrəˈmætıkəl keıs/, fr. cas grammatical, azərb. qrammatik hal. - Başqa sözlərlə əlaqəyə girmək üçün ismin işləndiyi hal. Məs.: Azərb. d. /həkimin andı/, /həkimə inam/, /həkimi tənqid edənlər/, /həkimdə müsbət cəhətlər var/, /həkimdən ötrü/; alm. d. /Eid des Arztes/ (həkimin andı), /Treue dem Arzt/ (Həkimə inam), /Die Kritiker des Arztes/ (Həkimin tənqidçiləri), /Es gibt beim Arzt positive Eigenschaften/ (Həkimdə müsbət cəhətlər var) və s.

R.Conrad. Göstərilən əsəri, s. 126.

ПАДЕЖ ПРОСТОЙ - alm. einfacher Kasus (m), ing. simple case /ˈsımpl keıs/, fr. cas simple, azərb. sadə hal. - Qoşmasız, öz qrammatik münasibətini müstəqim tərzdə ifadə edən hal forması. Məs.: Azərb. d. /Bakı Azərbaycanın paytaxtıdır//; alm. d. /Baku ist Hauptstadt Asärbaıdshans//; ing. d. /Baku is the capital of Azerbaijan// və s.

R.Conrad. Göstərilən əsəri, s. 126.

ПАДЕЖНАЯ ТЕОРИЯ – alm. Kasuslehre (f), ing. theory of case /ˈθıərı əv keıs/, fr. théorie casuelle, azərb. hal nəzəriyyəsi. – İdarə anlayışına söykənən hal nəzəriyyəsi müxtəlif leksik kateqoriyaların strukturlarında konkret halı nəzərdə tutur. Hal nəzəriyyəsinin leksemdən asılı olan halları. Məs.: Azərb. d. /kömək etmək/ – kimə, nəyə; alm. d. /gedenken/ (yad etmək) müəyyən qrammatik funksiya daşımasından, yəni mövqedən asılı olaraq genetiv halını tələb edir. Məs.: alm. d. /Ottos Buch/ (Ottonun kitabı).

H.Bußmann. Göstərilən əsəri, s. 368-370.

ПАДЕНИЕ - alm. Schwund (m), Ausfall (m), ing. falling /ˈfɔ:lıŋ/, disappearance /ˌdısəˈpıərəns/, loss /lɒs/, fr. chute, azərb. düşmə. – 1) Danışıq aktında səsin və ya səslərin itməsi, düşməsi, yox olması. Məs.: rus d. /Александр Александрович/ əvəzinə /Сан Саныч/; Azərb d. /alıram/ əvəzinə /allam/ və s; 2) Dilin inkişafı prosesində səsin düşməsi nəticəsində müəyyən kateqorial formaların dəyişməsi. Məs. XI-XII əsrlərdə rus d. vurğusuz [ъ] və [ь] – saitlərinin düşməsi nəticəsində samit fonemlər sistemi yeni qarşılaşmalar əldə etdi, onlar «sərt» - «yumşaq» əlamətlərinə görə korrelyativ qarşılaşmalar yaratdı. Məs.: /gol/, /gol+ь/, /гол/- /голь/

А.А.Реформатский. Göstərilən əsəri, s. 45, 483.

ПАЗИГРАФИЯ - alm. Pasigraphie (f), ing. pasigraphy /pæsigrəfi/ pə'sıgrəfi/, fr. pasigraphie, azərb. paziqrafiya. – Bu elə bir yazı sistemidir

ki, mənalar bir qrafik işarə (ideoqram) ilə verilir, yəni mürəkkəb ümumi mənalar vahid sintetik işarələrin vasitəsilə ifadə olunur. Bu cür konvensional ideoqramlar (yollardakı işarələr) təkcə bir dillə məhdudlaşmır, başqa cür desək, dövlət sərhədləri ilə məhdudlaşmır və heç bir milli dilin vasitələrinə əsaslanmır. Bu cür yazı formasına məntiqdə və formal dildə rast gəlinir.

Bax: Идеография, пиктография ←.

ПАЛАЙСКИЙ ЯЗЫК – alm. Palaisch (n), ing. Palaic language /pə'leɪɪk/pælaɪ 'læŋgwɪdʒ/, fr. langue palay, azərb. palay dili. – Ölü xettluviya dillərindən biridir. II minilliyin I yarısında Xett çarlığı dövründə Pala vilayətində yayılmışdır.

А.Каменхубер. Очерки палайской грамматики. «Древние языки Малой Азии». М., 1980.

ПАЛАТАЛИЗАЦИЯ - alm. Palatalisierung (f), Erweichung (f), ing. palatalization /ˌpælətəlaɪ'zeɪʃən/, fr. mouillement, palatalisation, azərb. palatallaşma (yumşaqlaşma). - Palatallaşma səsin səciyyəvi ton və küyünü kəskin şəkildə yüksəldən, dilin orta hissəsinin sərt damağa doğru qalxmasından ibarət tələffüz məxrəcidir. Yazıda palatallaşma samitin üzərinə sağdan qoyulan diakritik işarə ilə bildirilir. Azərbaycan dilində ön sıra saitlərindən əvvəl bütün samitlər palatallaşır. Palatallaşma dilortası samitlərdən savayı yerdə qalan samitləri əhatə edən ən çox yayılmış tələffüz növüdür. Başqa sözlə desək, dilortası samitlərdən başqa bütün samitlər palatallaşmaya məruz qala bilirlər. Samitlərin əsas tələffüzünə əlavə olaraq dilin orta hissəsinin sərt damağa doğru yaxınlaşması. Məs.: Azərb. d. /t'ikə/; alm. d. /t'i:r/ və s.

Л.Р.Зиндер. Göstərilən əsəri, s. 132.

ПАЛАТАЛИЗОВАННЫЙ (ЗВУК)- alm. palatalisierter (Laut), ing. palatalized sound /'pælətəlaɪzd 'saʊnd/, fr. son mouillé, azərb. palatallaşmış, yumşalmış səs.


Bax: Палатализация ←.

ПАЛАТАЛЬНЫЙ (ЗВУК)- alm. palatal, ing. palatal (sound) /'pælətl/ 'pælət(ə)l/'saʊnd/, fr. palatal, azərb. palatal, yumşaq (səs). - Dilin orta hissəsinin sərt damağa doğru qalxması nəticəsində samitlərin spesifik [-i] şəkilli çalarlıq qazanması. Şerba məktəbinə görə, alm. d. /ç/ (ich) /ɪç/ (mən) və italyan dilində isə /ɲ/ /baɲo:/ «bagno» - (çimmə) samitləri palatal samitlərdir. Rus d. «yumşaqlıq» fərqləndirici əlamət kimi «sərt» əlamətə qarşı qoyulur. Rus d. /ʦ/ fonemindən başqa hər bir sərt samitin yumşaq qarşılığı var. Lakin /ʧ/ samiti yeganə yumşaq samitdir ki, onun sərt qarşılığı yoxdur. Moskva fonoloji məktəbinin nümayəndələri /k'/, /g'/, /x'/ samitlərini müstəqil fonem kimi qəbul etmirlər.

F.Y.Veysəlli. SDƏ. s. 199-205.


ПАЛАТО-АЛЬВЕОЛЯРНЫЙ - alm. palatoalveolar, ing. palato-alveolar /ˈpælətəʊ ˌælvɪˈəʊlə/, fr. palato-alvéolaire, azərb. palato-alveol. – Klassik fonetikada qeyri-fəal üzv kimi damaq-yuvaq deməkdir. A.A.Реформатский. Göstərilən əsəri, s.177.

ПАЛАТОГРАММА – alm. Palatogramm (n), Gaumenbild (n), ing. palatogram /ˈpælətɔːgræm/ˈpælətəʊgræm/, fr. palatogramme, azərb. palatoqram. - Tələffüz prosesində dilin ağız boşluğuna yerləşdirilmiş səthi boyanmış süni damaqla onun toxunduğu nöqtənin təsvirini əks etdirən şəkil. Bu şəkil dilin hansı hissəsinin fəal olduğunu və damağın (sərt və ya yumşaq) hansı hissəsinə toxunduğunu aydın göstərir.



Azərbaycan dilində samitlərinin palatoqramları.

/ʃ/, /ʒ/, /b], /g/ və /k/



Azərbaycan dilində samitlərin palatoqramları.

/t/, /d/, /k/, /h/, /ĸ/ və /g/

Palatoqramların şəklinin çəkilməsini palatoqrafiya adlandırırlar. Onların şəklini çəkmək üçün informant kimi çıxış edən adamın ağzına yerləşən nazik selluloiddən dəşik-dəşik lövhəcik hazırlanır. Təcrübədən öncə bu süni lövhəciyin üstünə talk və ya pudra səpilir və informantın ağzına yerləşdirilir. Tədqiq olunan səsin tələffüzü zamanı lövhəcikdəki maddələr dilin kürəyində izlər buraxır. Həmin izlərin şəkli çəkilir və səsin tələffüzündə dilin hər hansı bir hissəsinin fəallığı müəyyənləşdirilir. Bu metod ötən əsrin ortalarına qədər dilçilikdə geniş tətbiq olunurdu. F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 128-129.

ПАЛЕОАЗИАТСКИЕ ЯЗЫКИ – alm. paläoasiatische Sprachen (Pl.), ing. Paleo-Asiatic languages /ˌpɑlɪəʊeɪʃɪˈatɪk,eɪʒ,-peɪ/ˌpælɪˈɔ eɪʃɪˈætɪk ˈlæŋgwɪʤɪz/, fr. langues paleoasiatiques, azərb. Paleoasiya dilləri. –

Genetik cəhətdən əlaqələri olmayan çukot-kamçatka, eskimos-aleut, yenisey, yukagir-çuvan və təcrid edilmiş nivx dillərini əhatə edən şərti dil birliyi.

П.Я.Скорик. Палеоазиатские языки. «Советское языкознание за 50 лет». М., 1967.

ПАЛЕОГРАФИЧЕСКИЙ - alm. paleographisch, ing. paleographic /ˌpælɪˈɔgrəfɪk/ˌpeɪlˈɔgræfɪk/, fr. paléographique, azərb. paleoqrafik. - Paleoqrafiyaya aid olan.

Bax: Палеография →.

ПАЛЕОГРАФИЯ - alm. Paleographie (f), ing. pal(a)eography /ˌpælɪˈɔgrəfɪ/ˌpeɪlɪˈɔgrəfɪ/, fr. paléographie, azərb. paleoqrafiya. - Qədim yazılı abidələrin yazılma yerini, tarixini, zamanını öyrənən tarixi-filoloji elm sahəsi. Paleoqrafiya öz növbəsində üç fəslə bölünür: epiqrafika - ağac lövhələrdə, daş və metal səthlərindəki əlyazmaları öyrənir; sfraqistika – möhürlərdəki yazıları öyrənir; numizmatika - sikkə üzərindəki yazıları oxumaqla məşğul olur.

F.Veysəlli. SDƏ. s. 64-91.

ПАЛАТУМ – alm. Palatum (m), ing. Palatum /ˈpælətm/, fr. palatum, azərb. palatum. – Ağız boşluğunda sərt sümük örtüyü.

H.Bußmann. Göstərilən əsəri, s. 554.

ПАЛАТОЛАЛИЯ - alm. Palatolalie (f), ing. palatolalie /ˈpælətəˈleɪlɪə/, fr. palatolalie, azərb. palatolaliya. – Damağın xəstələnməsi, cızılması nəticəsində səs tembrinin dəyişməsi (palatofoniya) və burunlaşması (rinolaliya).

H.Bußmann. Göstərilən əsəri, s. 554.

ПАЛИАЛИЯ - alm. Palialie (f), ing. palialie /pɑlɪˈleɪlɪə/, fr. palialie, azərb. palialiya. – Neyrolinqvistikada sözlərin daim qeyri-ixtiyari təkrarına əsaslanan dil pozuntusu.

H.Bußmann. Göstərilən əsəri, s. 554.

ПАЛЕОНТОЛОГИЯ ЛИНГВИСТИЧЕСКАЯ - alm. linguistische Paleonthologie (f), ing. linguistic pal(a)eontology /lɪŋˈgwɪstɪk ˌpælɪɔnˈtɒlədʒɪ/, fr. paléontologie linguistique, azərb. linqvistik paleontologiya. – Müəyyən bir dilin ilkin daşıyıcılarının lüğət tərkibinə və digər xüsusiyyətlərinə istinad edərək onların düşüncə tərzini, həyat şəraitini və yayılma ərazisini müəyyən etməyi qarşısına məqsəd qoyan dilçilik şöbəsi.

В.М.Алпатов. История лингвистических учений. М., 2001, s. 111-113

ПАЛИНДРОМ - alm. Palindrom (n), ing. palindrome /ˈpælɪndrəʊm/, fr. palindrome, azərb. palindrom. - Sağdan sola, soldan sağa oxunuşu eyni məna ifadə edən söz, söyləm, şer parçası. Məs.: Azərb. d. /Bikə tut əkib/, /qabaq/, /Əzizə/, /şabaş/ və s.

H.Bußmann. Göstərilən əsəri, s. 554.

ПАЛИ ЯЗЫКИ – alm. Pali-Sprachen (Pl.), ing. Pali languages /pali ˈlæŋgwɪʤɪz/, fr. langues palies, azərb. pali dilləri.

Bax: Бирманские языки ←.

ПАМИРСКИЕ ЯЗЫКИ – alm. Pamir-Sprachen (Pl.), ing. Pamirs languages /pəˈmɪə(z) 'læŋgwɪʤɪz/, fr. langues pamiriennes, azərb. pamir dilləri. – Əsasən Pamir vadisində (Tacikistan Respublikasında) və Pakistanın, Əfqanıstanın, Hindistanın ona qonşu olan ərazilərində yayılmış dilləri əhatə edir. Vaxanq, işkaşim, sanqliç, zebak, şuqnan, oroşor və s. dillər Pamir dillərinə aiddir. Bu dillərdən əksəriyyəti yazısız dillərdir.

В.С.Соколова. Очерки по фонетике иранских языков. М.-Л., 1953.

ПАМПАНГАНСКИЙ ЯЗЫК – alm. Pampangan (n), ing. Pampangan language /pɒmˈpɒŋg(ə)n 'læŋgwɪʤ/, Also, gɑ/-gə/gɒ/-gəʊ/, fr. langues pampangannes, azərb. pampanqan dili. – Filippin dillərindən biridir. Filippin Respublikasında Pampanqa əyalətində, həmçinin Tarlak, Bataan və Sambles əyalətlərinin qonşu şəhərlərində yayılmışdır. İki milyona qədər əhali pampanqan dilində danışır. Yazısı latın əlifbası əsasındadır.

M.L.Forman. Kapamrangan grammar notes. Honolulu, 1971.

ПАНГАСИНАНСКИЙ ЯЗЫК – alm. Pangasinan (n), ing. Pangasinan language /ˌpɑ:ngɑ:sɪˈnɑ:n 'læŋgwɪʤ/, fr. langue pangasinane, azərb. panqasinan dili. – Filippin dilləri qrupuna aid dillərdən biridir. Filippində Panqasinan və Luson adasında yerləşən Tarlak əyalətinin həmsərhəd ərazisində yayılmışdır. 1,3 milyona qədər daşıyıcısı məlumdur.

R.A.Benton. Pangasinan reference grammar. Honolulu, 1971.

ПАНДЖАБИ – alm. Pangabi (n), ing. Panjabi language /pʌnˈʤɑ:bɪ, pʊn 'læŋgwɪʤ/, fr. langue panjabe, azərb. pəncab dili. – Hindistanda dillərdən biridir. Hindistanın Pəncab vilayətində (həmin vilayətin rəsmi dövlət dilidir) və Pakistanda yayılmışdır. Hindistanda 20 milyon, Pakistanda isə 50 milyon əhali bu dildə danışır.

Н.И.Толстая. Язык пенджаби. М., 1960.

ПАНО ЯЗЫКИ – alm. Pano-Sprachen (Pl.), ing. Pano languages /ˈpænɔ,– ˈpʊnəʊ'læŋgwɪʤɪz/, fr. langues panoiennes, azərb. pano dilləri. - Pano-takana dilləri Cənubi Amerikanın hindi dillərinə aiddir. Əsasən Peru, Boliviya və Braziliyada yayılmışdır. 50-ə qədər dili özündə birləşdirən Pano dillərində danışanların ümumi sayı təqribən 100 mindən yuxarıdır. Əsas dilləri çakobo, kaşibo, amauaka, kapanaua, çaninaua, marinaua, pano və s-dir.

A.M. d'Ans. Materiales para el estudio doe grupo lingüistico pano. Lima, 1970.

ПАНО-ТАКАНА ЯЗЫКИ – alm. Pano-Takana-Sprachen (Pl.), ing. Pano-Tacana languages /ˈpʊnəʊ ˈtɑkənə 'læŋgwɪʤɪz/, Also, pan-/pʌn, pʊn/, fr. langue panno-takana, azərb. pano-takana dilləri. – Cənubi Amerikada

yayılmış ən böyük dil ailəsi. Peru, Boliviya, Braziliyada yayılmışdır. 40-a qədər dili özündə birləşdirir. Pano-takana dilləri ailəsi iki yarımailəyə bölünür: pano və takana. Təqribən 120 minə qədər əhali bu dillərdə danışır.
M.R.Key. Comparative Tacanan phonology. The Hague. Paris, 1968.

ПАНХРОНИЧЕСКИЙ - alm. panchronisch, ing. panchronic /pan'krɔnık/, fr. panchronique, azərb. panxronik, zamandan xaric. - Panxroniyaya aid olan.
Bax: Панхрония →.

ПАНХРОНИЯ - alm. Panchronie (f), ing. panchronistic approach /pan'krɔnıstık ə'prəʊʧ/, fr. panchronie, azərb. panxroniya. – Dil hadisələrinin bütün zamanlara, zamandanxaric, fövqəlzaman, universal, ümumilikdə insan dilinə xas olduğunu iddia edən yanaşma.
B.M.Алпатов. История лингвистических учений. M., 2001, s. 151-153.

ПАПУАССКИЕ ЯЗЫКИ – alm. Papua-Sprachen (f), ing. Papua languages /'papjʊə, pɑ:-, 'pʊə 'læŋgwıʤız/, fr. langues papouassiennes, azərb. papuas dilləri. – Yeni Qvineyanın və Sakit okeanın bəzi adalarında yayılmış dillərin ümumi adı. Bəzi mülahizələrə görə, papuas dilləri təqribən 750-1000-ə qədər dilləri özündə birləşdirir. Bu dillərdə təqribən 3 milyondan yuxarı əhali danışır. Papuas dilləri aqlütinativ dillərə aiddir. Fonoloji sistemi zəngin samitlər yarımsisteminə malikdir. Saitlər yarımsistemi, əksinə, zəif inkişaf etmişdir və sait uzanmaları fonoloji mahiyyət daşıyır. Cümlə daxilində söz sırası MTX.
П.И.Пучков. Население Океании. M., 1967; Н.А.Бутинов. Папуасы Новой Гвинеи. M., 1974.

ПАРА ВИДОВАЯ - alm. Aspektpaar (n), ing. aspectual pair /ə'spɛktʊəl /'æspekʧuəl peə/, fr. couple d'aspect, azərb. növ cütlüyü. – Dildə felin müxtəlif növlərdə işlənməsindən ibarət qarşılaşma. Əsasən slavyan dilləri üçün səciyyəvidir. Rus d. felin bitmiş və bitməmiş növləri fərqləndirilir. Müq. et: rus d. /записать/ – /записывать/, /засыпать/ - /заснуть/ və s.
A.A.Реформатский. Göstərilən əsəri, s. 255-287.

ПАРА КОРРЕЛЯТИВНАЯ - alm. Korrelationspaar (n), ing. correlated (correlative) pair /'kɒ'rəleıtıd/'kə'relətıv peə/, correlated (correlative) phonemes /'kɒrəleıtıd/'kə'relətıv/'fəʊni:ms/, fr. paire corrélative, couple de corrélation, phonèmes corrélatifs, azərb. korrelyativ cütlük. - İkili (bilaterial) qarşılaşmanın xüsusi (privat) proporsional üzvü kimi çıxış edən iki fonem. Privativ oppozisiyalar elə oppozisiyalardır ki, bunlarda üzvlərdən biri əlamətin olması, digəri isə həmin əlamətin olmaması ilə fərqlənir. Məs.: Azərb. d. «cingiltili» – «kar», «burun» - «ağız», «dodaq» - «qeyri-dodaq» və s. samitləri: /b/ - /p/, /g/ - /k/, /m/ - /b/, /i/ - /ü/, /ı/ - /u/ və s.
N.S.Trubeskoy. Göstərilən əsəri, s. 94.

ПАРА МИНИМАЛЬНАЯ - alm. Minimalpaar (n), ing. minimal (contrastive) pairs /'mınıməl 'kɒntrɑ:stıv peəs/, fr. paire minimale, azərb. minimal cüt. – Qarşılaşdırılan sözlərin maddi qabığında bir sait və ya samit fərqinə əsaslanan cütlüklər. Məs.: Azərb. d. /at/ - /it/, /ot/ - /od/, /dağ/ - /tağ/ və s. Praqa Fonoloji məktəbi və ondan sonra digər fonoloji məktəblər fonemlərin məna fərqləndirmə xüsusiyyətlərini əsas götürərək minimal cütlərdən bir üsul kimi istifadə edirdilər. Əslində bu metoddan dilçilikdə ilk dəfə İ.A.Boduen de Kurtene istifadə etmişdir.
F.Y.Veysəlli. SDƏ. s. 181-190.

ПАРА ОМОНИМИЧЕСКАЯ - alm. Homonympaar (n), ing. homonymic pairs /'hɒmənımık peəs/, fr. paires homonymes, azərb. omonim cüt. – Öz aralarında omonimik münasibətdə olan söz cütlükləri. Məs.: Azərb. d. /sağ/ - /sağ/, /top/ - /top/, /kök/ - /kök/; rus d. /бор/ (iynəyarpaqlı meşə) - /бор/ (kimyəvi element); alm. d. /Tau/ (şeh) - /Tau/ (kəndir).
R.Conrad. Göstərilən əsəri, s. 107.

ПАРА СЕМАНТИЧЕСКАЯ - alm. semantisches Paar (n), ing. semantic pairs /sı'mæntık peəs/, fr. paires sémantiques, azərb. semantik cüt. – Dildə bir qayda olaraq bir-birinə qarşı əks semantik münasibətlərdə olan söz cütləri. Məs.: Azərb. d. /yaxşı/ - /pis/, /təzə/ - /köhnə/, /böyük/ - /kiçik/; rus d. /хороший/ - /плохой/, /добрый/ - /злой/, /старый/ - /новый/.
Bax: Амбигвитность ←.

ПАРАГОГА - alm. Paragoge (m), ing. paragoge /'pærəgɒg/, fr. paragogue, azərb. paraqoqa. - Tələffüzün asanlaşdırılması üçün sözün sonunda təzahür edən səs artımı, epenteza. Məs.: Azərb. d. /kəsr/ – /kəsir/, /nəsl/ - /nəsil/, /vəsl/ -/vəsil/, /seyr/ - /seyir/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 310.

ПАРАГОГИЧЕСКИЙ - alm. paragogisch, ing. paragogic /'pærəgɒgık/, fr. paragogique, azərb. paraqoqik. – Tələffüz aktında sözdən sözə keçidi asanlaşdırmaq məqsədilə işlədilən fonetik üsul. Məs.: Azərb. d. /Piyalələr rəfdədir/ əvəzinə /piyalələr irəfdədir/.
Bax: Парагога ←.

ПАРАГРАММАТИЗМ – alm. Paragrammatismus (m), ing. paragrammatism /'pærəgræmətısm/, agrammatism /ə'grəmətızm/ fr. paragramatisme, azərb. paraqramatizm. – Neyrolinqvistikada mənimsənilmiş dil yayınması, morfoloji və ya sintaktik səhvlər nəticəsində sintaktik əlaqənin pozulması. Məs.: Azərb. d. /Mənim siz bir sual var//. Əslində bu Vernike mərkəzinin xəsarət alması ilə bağlıdır. Sonralar isə bu Broka mərkəzinin xəsarət alması ilə yaranan aqramatizmlə əlaqələndirildi. Ancaq faktiki olaraq paraqramatizmi aqramatizmdən ayırmaq o qədər də asan deyildir.
H.Bußmann. Göstərilən əsəri, s. 554.

ПАРАДИГМА - alm. Paradigma (n), ing. paradigm /'pærədaım/, fr. paradigme, azərb. paradiqm. - 1. Söz formalarının bir-birinə qarşı duran müəyyən çoxluğu, yəni söz formaları bir bütöv daxilində qarşılıqlı münasibətdə olurlar, bu formalar şəkilçi dəyişmələri ilə bütövdə yeni məna kəsb edir. Məs.: Azərb. d. (hallar, felin təsriflənən formaları və s.); 2. Paradiqmatik yerləşmə. Müəyyən leksik vahidin şaquli vəziyyətdə sözdəyişmə formalarının əvəzlənən məcmusu, müəyyən leksemi tərtib edən söz formalarının əvəzlənən məcmusu. Məs.: Azərb. d. /kitab-kitabın-kitabı/ və s.
H.Bußmann. Göstərilən əsəri, s. 554.

ПАРАДИГМАТИКА - alm. Paradigmatik (f), ing. paradigmatics /ˌpærədɪg'mætɪks/, fr. paradigmatique, azərb. paradiqmatika. - Dil vahidlərinə dil sisteminin şaquli vəziyyətdə bir-birini əvəz edə bilən elementləri kimi yanaşma. Məs.: alm. d. /Bier/ (pivə) və /Tier/ (heyvan) sözlərində anlautda /b/ və /t/ paradiqmatik cəhətdən əvəzlənən klassın üzvləridir. Eynilə /axşam/-/səhər/-/bugün/ və s. eyni cümlədə bir-birini əvəzetmə münasibətindədirlər. Məs.: Biz /O, axşam (səhər, bugün) gəlir deyə bilərik/. Bu əlaqələri F. de Sössür assosiativ, L. Hyelmslev isə paradiqmatik adlandırırdı. Bununla da minimal cütlər metodu əsaslandırılırdı. Sintaqmatikada isə bu vahidlər ziddiyyət əlaqəsindədir.
F.Yadigar (Veysəlli). GDG. s. 38.

ПАРАДИГМАТИЧЕСКИЙ - alm. paradigmatisch, ing. paradigmatic /ˌpærədɪg'mætɪk/, fr. paradigmatique, azərb. paradiqmatik. – Paradiqmatik xüsusiyyətə malik olan.
Bax: Парадигматика ←.

ПАРАДОКСИЯ - Bax: Семантическая антиномия →.

ПАРАЗИТИЧЕСКИЙ - alm. Einschub-, ing. parasite sound /'pærəsaıt saʊnd/, parasitic /ˌpærə'sıtık/, fr. parasite, azərb. parazitik. - Sözün ilkin formasında olmayan, yalnız müəyyən morfoloji və fonetik şəraitin təsiri nəticəsində təzahür edən səs, habelə bir heca daxilində çətin tələffüz olunan saitlərin tələffüzünü asanlaşdırmaq məqsədilə iki hecaya bölünməsi. Məs.: Azərb. d. /heyf-heyif/, /nəsl-nəsil/, /stəkan-istəkan/, /şpris-işpris/; rus d. /мысл-мысыл/, /ветр-ветер/ və s.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 71.

ПАРАЛАЛИЯ – alm. Paralalie (f), ing. paralalia /pærə'leliə,-pɑ/, fr. paralalie, azərb. paralaliya. – Dislaliyanın xüsusi forması. Bu zaman bir səs sistematik olaraq başqa səslə əvəz edilir. Məs.: Azərb. d. /gəlmək/ sözündə /l/ bir qayda olaraq /r/ sonor samitilə əvəzlənir və /gərmək/ kimi tələffüz olunur.
H.Bußmann. Göstərilən əsəri, s. 556.

ПАРАЛИНГВИСТИКА - alm. Paralinguistik (f), ing. paralinguistics /ˌpærəlɪŋ'gwɪstɪks,-pa/, fr. paralinguistique, azərb. paralinqvistika. - Səsli ünsiyyəti müşayiət edən və informasiyanın (məlumatın) ötürülməsində yardımçı rol oynayan sözsüz (nonverbal) vasitələri öyrənən elm sahəsi (jestlər, mimika, əl-qol hərəkətləri) və s. Paralinqvistk informasiyalar danışıq prossesində izafi deyildirlər və ünsiyyət zamanı fəal şəkildə istifadə olunurlar. Buraya fonasiyada nəfəsvermə, mızıldama, öskürmə, eyni zamanda intonasiya və prosodiya da daxildir.
H.Bußmann. Göstərilən əsəri, s. 557.

ПАРАЛЕКСЕМА – alm. Paralexem (n), ing. Paralexem /'pærəleksəm, -pɑ/, fr. paralèxeme, azərb. paraleksem. – Mürəkkəb sözlərin sadələrdən fərqlənməsi. Məs.: fr. d. /arc-en-siel/ (göy qurşağı), /etoile/ (ulduz).
H.Bußmann. Göstərilən əsəri, s. 557.

ПАРАЛЛЕЛИЗМ - alm. Parallelismus (m), ing. parallelism /'pærəlelɪzəm/, fr. parallélisme, azərb. paralellik. - Yanaşı gələn sintaktik vahidlərin eyni və ya bənzər quruluşa malik olması. Məs.: Azərb. d. /Xalqın dilini də, tarixini də bu balalar qoruyub saxlayacaqlar/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 331.

ПАРАЛЛЕЛИЗМ ЗНАЧЕНИЙ - alm. semantischer Parallelismus (m), Bedeutungsparallelismus (m), ing. semantic parallelism /sɪ'mæntɪk 'pærəlelɪzəm/, fr. parallélisme de sens, azərb. məna paralelliyi. - Sözün həm həqiqi, həm də məcazi - metaforik mənada işlədilməsindən yaranan paralelizm. Məs.: Azərb. d. /O, beləcə yaşadı, beləcə öldü, beləcə də xatirələrdə qalacaq//.
O.C.Ахманова. Göstərilən əsəri, s. 331.

ПАРАЛЛЕЛИЗМ СИНОНИМИЧЕСКИЙ - alm. synonymischer Parallelismus (m), ing. synonymical parallelism /sɪ'nɒnɪmɪkəl 'pærəlelɪzəm/, fr. parallélisme synonymique, azərb. sinonimik paralellik. - Müxtəlif sintaktik quruluşa malik olan vahidlərin semantik (məna) uyğunluğundan yaranan sinonimliyi. Məs.: Azərb. d. /yaşılbaşlı-başı yaşıl olan/, /qaragözlü-gözü qara olan/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 331.

ПАРАЛЛЕЛЬНАЯ КОНСТРУКЦИЯ - alm. Parallelkonstruktion (f), ing. parallel construction /'pærəlel kən'strʌkʃən/, fr. construction parallèle, azərb. paralel konstruksiya. – Eyni qrammatik formada çıxış edən iki və ya daha çox sözün daxil olduğu sintaktik birləşmə. Məs.: ing. d. /Hill and sisters met me// (Hil və bacısı məni qarşıladılar); Azərb. d. /Həsən və bacısı mənə məktub yazırdılar/. Bu cümlədə paralel birləşmələr tabesizlik əlaqəsi əsasında qurulub.
Bax: Конструкция ←.

ПАРАЛЛЕЛЬНОЕ СОПОДЧИНЕНИЕ - alm. Parallelsubordination (f), ing. parallel collateral subordination /ˈpærəlel kɔˈlætərəl səˌbɔːdɪˈneɪʃən/, fr. subordination parallèle, azərb. paralel tabelilik. - Cümlənin həmcins üzvlərinin bərabər tabeliliyi və ya həmcins budaq cümlələrinin tabeliliyi ilə (əsasən təkrarlanan bağlayıcıların bir və ya bir neçə dəfə buraxılması) yaranan tərkib. Məs.: ing. d. /As you sow, so shall you read// (Nə əkərsən, onu biçərsən). Burada (as - so), (nə - onu) paralel elementlərdir.
Bax: Соподчинение ←.

ПАРАЛЛЕЛЬНОЕ ЧЕРЕДОВАНИЕ - alm. Parallelwechsel (m), ing. parallel gradation (alternation) /ˈpærəlel ˈgrəˈdeɪʃən/,ɔːltəˈneɪʃən/, fr. alternance parallèle alternance, azərb. paralel əvəzlənmə. - Müştərək, ümumi üzvü olmayan, paralel və ya bütün vəziyyətlərdə sıraları bir-birilə kəsişməyən mövqe əvəzlənmələri. Məs.: rus d. /r/ - /смот[p]/ – смот[pˀ]y/; /l/ - /смыс[л]/ - /смыс[лˀ]y/ sözlərində [rᴼ], [r] və [lᴼ], [l] paralel əvəzlənən cərgələr əmələ gətirir. Şerba fonoloji məktəbi bunları mövqe və kombinator variantlar adlandırır.
Bax: Чередование ←.

ПАРАНТЕЗА - alm. Paranthese (f), ing. parenthesis /pəˈrenθɪsɪs/, fr. parenthèse, azərb. parantez. - Cümlənin tərkibinə daxil edilən kiçik vahidlər. Adətən belə vahidlərin tərkibinə daxil olduğu cümlə ilə heç bir qrammatik əlaqəsi olmur. Ara sözlərin və ara cümlələrin ümumi adı. Məs.: Azərb. d. /Biz, ola bilsin ki, onlara çata bilməyək//, /Mən, təəssüf ki, bu dəfə də yanılmışdım//; ing. d. /John, let's face it, is too young// (Jon, etiraf edək ki, çox cavandır). Bu cür ara vahidlər aid olduqları cümlələrlə yalnız intonasiya ilə bağlanırlar.
O.C.Ахманова. Göstərilən əsəri, s. 331.

ПАРАМЕТР – alm. Paramater (m), ing. parameter /pəˈræmɪtəʳ/, fr. paramètre, azərb. parametr. – 1. Generativ qrammatikada mənası yalnız ayrı-ayrı dillərdə müəyyənləşdirilə bilən universal qrammatika qaydalarının və ya qayda məhdudiyyətlərində parametrlər. Parametrlərin, yəni parametrlər üçün dəyərlərin müəyyən edilməsi, daxil edilməsi fərdi dillərə şamil edilir ki, o da universal qrammatikaya uyğun gəlir. Bu da universal qrammatikanın nişansız dəyər kimi verilə bilməsi deməkdir. O, dilöyrənmə prosesində xarici təsir altında dəyişə bilər. Parametrlər, bir tərəfdən, özək qrammatikası prinsiplərini daha çevik ifadə etməyə, (çünki o, bəzi incəlikləri açıq saxlayır), digər tərəfdən, ayrı-ayrı dil vahidlərinin qeyd olunması haqda dilöyrənmə mexanizmləri və nəzəriyyələrilə bağlı müəyyən proqnozlar verməyə imkan yaradır. Məs.: ing. d. /They are coming// (Onlar gəlirlər) əvəzinə /Are coming/ demək olmaz. Deməli, subyektin olmaması ing. d. üçün yolverilməzdir, ancaq başqa dildə bu parametr işlənməyə bilər; 2. Akustik əlamətin konkret bir tərəfi. Məs.: intonasiyanın melodik və ya zaman komponenti.
H.Bußmann. Göstərilən əsəri, s. 557.

ПАРАПЛАЗМ - alm. Paraplasmus (m), ing. paraplasm /pæ'rɑ:plasm/, paraplastic form /pæ'rɑ:plæstık fɔ:m/, fr. paraplasme, azərb. paraplazm. - 1.) Sözdəyişmə formalarının analoji bərabərləşdirilməsi, tarazlaşdırılması; 2.) Sözdüzəldici modellərin (ülgülərin) çarpazlaşdırılması (kontaminasiyası). Məs.: Azərb. d. /gölməçə/, /dərəçə/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 311.

ПАРАПТИКСИС - alm. Epenthese (f), ing. epenthesis /ɛ'pɛnθısıs/, fr. épenthése, azərb. epenteza. – Dierezanın əksinə olaraq müəyyən birləşmələrdə səslərin əlavəsi. Məs.: Azərb. d. /rəna-irəna/, /əmr-əmir/, /stol-ustol/, /stul-ustul/. Bu müasir dilçilikdə səviyyələrin qarışdırılması hesab edildiyindən qəbul olunmur.
Bax: Эпентеза →.

ПАРАСИЛЛАБИЧЕСКИЙ - alm. parasyllabisch, ing. parasyllabic /parə'sılæbık/, fr. parasyllablique, azərb. parasillabik (bərabər hecalı). - Sözün paradiqminin bütün formalarında bərabər sayda hecaya malik olması.
H.Bußmann. Göstərilən əsəri, s. 560.

ПАРАСИНТЕЗ - alm. Parasynthesise (f), ing. parasynthesis /parə'sinθısıs/, fr. parasynthès, fausse composition, azərb. parasintez. - Mürəkkəb sözün komponentlərindən birində şəkilçilərin düşməsi. Məs.: ing. d. /red – lipped/ = /red-lip/ (qırmızıdodaq); 2. Fr. d. həm prefiks, həm də suffikslə düzələn söz.
O.C.Ахманова. Göstərilən əsəri, s. 311.

ПАРАСИНТЕТИЧЕСКИЙ - alm. parasynthetisch, ing. parasynthetic /parə'sınθetık/, fr. parasynthétique, azərb. parasintetik. – Parasintezə aid olan.
Bax: Парасинтез ←.

ПАРАСИНТЕТИЧЕСКОЕ СЛОВООБРАЗОВАНИЕ - alm. parasynthetische Wortbildung (f), Ableitungskompositum (n), ing. parasynthetic frase (word-formation) /parə'sınθetık freıs/wə:d fɔ:'meıʃən/, fr. formation parasynthétique des mots, azərb. parasintetik sözdüzəltmə. – Tərkib hissələri mürəkkəb törəmə bazasında (əsas) və sözdüzəldici suffikslərdən ibarət olan söz. Məs.: rus d. /мин-о-носец/, /побед-о-носный/.
Bax: Словообразование →.

ПАРАТАКСИС - alm. Parataxe (f), Beiordnung (f), ing. parataxis /ˌpærə'tæksıs/, fr. parataxe, azərb. tabəsiz, parataksis. - Sintaktik vahidlərin bir-birilə yanaşı işlədilməsindən ibarət birləşmə; cümlələrdə komponentlərin birinin digərindən asılılığının (tabeliliyin) qrammatik-formal vasitələrlə əks olunmaması. Tarixən koordinasiya kimi dəyərləndirilərək hipotaksisə qarşı qoyulur. Məs.: Azərb. d. /Mən yorğunam//,

/Mən acam//; ing. d. /I am tired//, /I am hungry//; /Mən yorğunam və mən acam//, /I am tired and I am hungry//.
H.Bußmann. Göstərilən əsəri, s. 560.

ПАРАТАКСИЧЕСКИЙ - alm. parataktisch, ing. paratactic /pærə'tæktık/, fr. parataxéique, azərb. parataktik. - Parataksisə aid olan.
Bax: Паратаксис ←.

ПАРАФАЗА – alm. Paraphasien (Pl.), ing. paraphase /'pærəfeız/, fr. paraphase, azərb. parafaza. – Neyrolinqvistikada afatiklərin və dil xətaları olan uşaqların danışıq fəaliyyətinin göstəricisi. Ənənəvi olaraq parafazanın aşağıdakı növləri fərqləndirilir: a) fonematik parafaza – samitlərdən biri və ya bir qrupu tələffüz olunmur. Məs.: Azərb. d. /stol/ əvəzinə /tol/; qonşuluqda və ya məsafəcə aralı yerləşən səslərin təsiri. Məs.: alm. d. /Glockensignal/ əvəzinə /Gnockelsignal/; b) semantik və ya verbal parafaza. Sözün səhvən seçilərək işlənməsi. Məs.: Azərb. d. /banan/ əvəzinə /kolbasa/ və s.
H.Bußmann. Göstərilən əsəri, s. 560.

ПАРАФРАЗА - alm. Paraphrase (f), ing. paraphrase /'pærəfreız/, periphrasis /pə'rıfrəsi:ız/, fr. paraphrase, azərb. parafraz. - 1. Ünsiyyət niyyətinin izahı və şərhi üçün dil ifadəsi. Məs.: Azərb. d. /Odlar yurdu/ /Azərbaycan/ əvəzinə. /Gənclik şəhəri/ /Sumqayıt/ əvəzinə; 2. Cümlələr arasında sinonimik münasibətlərin evristik anlayışı (dilçilikdə) və ifadəsi (məntiqdə). Məs.: Azərb. d. /Cəmil Ayseldən böyükdür//. Bu eyni zamanda o deməkdir ki, /Aysel Cəmildən kiçikdir//. Deməli, birinci cümlə ikincini, ikinci cümlə isə birincini ehtiva edir. Generativ qrammatikada parafraz semantik əlaqələrin şərhi üsuludur. Başqa sözlə, eyni mənalı müxtəlif üst qat strukturları bir ümumi alt qat strukturunun papafraz klassları kimi götürülür ki, onlara da müxtəlif (mənaca neytral) transformasiyalar tətbiq edilir. Struktur (sintaktik). Məs.: Azərb. d. /Onlar bu qiymətli kağızı pulsuz alıblar// və ya /Pulsuz aldılar onlar bu qiymətli kağızı//; Leksik. Məs.: Azərb. d. /Cavan oğlan/ və ya /Subay kişi/; Deyktik. Məs.: Azərb. d. /Cəmil Sumqayıtda yaşayır// və ya /O, orada yaşayır//; Praqmatik. Məs.: Azərb. d. /Zəhmət olmasa, qapını bağlayın// və ya /yel çəkir/ arasında fərq qoyulmalıdır.
H.Bußmann. Göstərilən əsəri, s. 559.

ПАРАХРОНИЧЕСКИЙ - alm. parachronisch, ing. parachronistic /pə'rækrənıs'tık/, fr. parachronique, azərb. paraxronik, tarixin yanında. - İstənilən dil vahidinin (bütöv sistem elementi kimi) müəyyən zaman ərzində keçdiyi yol, dil sisteminin tarixi inkişafı.
Bax: Диахронический ←.

ПАРАЯЗЫК - alm. Parasprache (f), ing. paralanguage /'pærə'læŋgwıdʒ/, fr. paralingue, azərb. paradil (vasitəçi dil). - Müəyyən dildə danışıq aktını səciyyələndirən, dilin hər hansı bir vahidinin danışıq aktında reallaşması üçün ümumi və əsas səs təzahürlərinin məcmusunu yaradan, lakin

özlüyündə differensial (fərqləndirici) fonoloji qarşılaşma sisteminə daxil olmayan sözsüz ünsiyyət.
O.C.Ахманова. Göstərilən əsəri, s. 312.

ПАРЕМИЯ - alm. Parämie (f), ing. paroemia /pə'ri:mıə/, fr. parémie, azərb. paremiya. – Dilçilikdə atalar sözlərinin qədim adı.
H.Bußmann. Göstərilən əsəri, s. 560.

ПАРЕХЕЗА - alm. Parechese (f), ing. parechesis /pɑrə'kısi:z/, fr. paréchèse, azərb. parexeza. - (yalançı oxşarlıq). Bircə səsə və ya hecaların (yerdəyişməsinə) görə fərqlənən sözlər. Məs.: Azərb. d. /Dədəm öldü/ ya /vəlvələdən, ya zəlzələdən//.
O.C.Ахманова. Göstərilən əsəri, s. 312.

ПАРНАЯ ФОНЕМА - alm. paariges Phonem (n), ing. paired phoneme /peəd fəʊni:m/, fr. phonème apparié, phonème de couple, azərb. fonem cütlüyü. - Korrelyativ cütlüyə daxil olan iki fonem (hər hansı bir fərqləndirici əlamətinə görə müvafiq cütlük əmələ gətirən). Məs.: alm., ing., fr. və Azərb. d. cingiltilik/karlıq əlamətinə görə samit fonemlərin əksəriyyəti fonem cütlüyü əmələ gətirir. Məs.: Azərb. d.

cingiltili	b	v	d	z	ʒ	ʤ	ɦ	g	ɣ	–	m	n	l	r	j
kar	p	f	t	s	ʃ	ʧ	k	ĸ	x	h	-	-	-	-	-

Göründüyü kimi, Azərb. d. 24 samitdən 9-nun cütlüyü vardır, yalnız 6 samit fonemin müvafiq cütlüyü yoxdur və cədvəldə bu boşluq ştrixlə verilir.
F.Veysəlli. SDƏ. s. 127.

ПАРНОЕ ПРОТИВОПОСТАВЛЕНИЕ - alm. binäre Opposition (f), ing. binary opposition /'baınərı ˌɒpə'zıʃən/, fr. opposition binare, azərb. ikili qarşılaşma. - Dil vahidlərində eyni ünsürün və ya keyfiyyətin olub-olmamasına əsaslanan qarşılaşma. Burada A-dır, A-deyildir məntiqi prinsip əsasdır. Məs.: Azərb. d. kar və cingiltili samitlər. İkili qarşılaşma N.S.Trubeskoyun oppozisiyalar tipologiyasında xüsusi yer tutur. İkili qarşılaşma elə qarşılaşmalardır ki, onların üzvləri yalnız bir əlamətin olub-olmaması ilə fərqlənir. Məs.: Azərb. d. kar/cingiltili samitlər; 2. Onomastikada bir ümumi leksemi və analoji təyinləri olan, bir-birilə əlaqədar obyektlərin fərqləndirilməsinə xidmət edən qarşılaşma.
N.S.Trubeskoy. Göstərilən əsəri, s. 93-108.

ПАРНЫЕ СЛОВА - alm. paarige Wörter (Pl.), ing. alliterating words /ə'lıtəreıtıŋ wɜ:dz/, fr. mot couples, azərb. cüt sözlər. – Mənaca birbirinə yaxın sözlərin yanaşı gəlməsi ilə düzələn sözlər. Məs.: Azərb. d.: /ah-nalə/, /çək-çevir/, /gəl-get/, /az-çox/, /iş-güc/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 312.

ПАРНЫЙ ПРЕДЛОГ - alm. paarige Präposition (f), ing. compound, paired preposition /'kɒmpaʊnd/peəd ˌprepə'zıʃən/, fr. préposition double, azərb. qoşa sözönü. - İki sadə sözönünün yanaşı və ya məsafədə gəlməsi. Məs.: rus d. /из-за/, /из-под/; alm. d. /bis zu/, /bis auf/.
Bax: Предлог →.

ПАРОДИЯ - alm. Parodie (f), ing. parody /'pærədı/, fr. parodie, azərb. parodiya. - Hər hansı bir fərdin və ya bədii əsərin üslubunu yamsılama.
O.C.Ахманова. Göstərilən əsəri, s. 313.

ПАРОКСИТОН - Paroxyton (m), ing. paroxytone /pə'rɔksıtəʊn/, fr. paroxyton, azərb. paroksiton. - Axırdan əvvəlki hecasında qüvvətli vurğusu olan söz. Məs.: yunan dilində /analo'gia/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 313.

ПАРОНИМИЧЕСКАЯ АТТРАКЦИЯ - alm. paronymische Attraktion (f), ing. paronymic attraction /ˈpærənımık ə'trækʃən/, fr. attraction poronymique, azərb. paronimik attraksiya. - Paronimlərdən birinin digərinin əvəzinə işlədilməsi.
Bax: Парономия ←.

ПАРОНИМЫ – alm. Paronymie (f), ing. paronyms /ˈpæ'rənəms/, fr. paronymes, azərb. paronimlər - 1) Müxtəlif dillərdə fonetik cəhətdən oxşar iki ifadə. Məs.: alm. d. /Sommer/ və ing. d. /summer/; 2) Sözdüzəltmədə eyni kökdən düzələn sözləri bildirmək üçün işlənən köhnəlmiş ifadə. Məs.: alm. d. /lesen/ (oxumaq), /Leser/ (oxucu), /Lesung/ (qiraət), /lesbar/ (oxunaqlı).
O.C.Ахманова. Göstərilən əsəri, s. 313.

ПАРОНОМАЗИЯ - alm. Paronomasie (f), ing. paronomasia /ˌpærənə'meızıə/, fr. paronomase, azərb. parnomaziya. - Səslənməsinə, səs tərkibinə görə oxşar, ancaq etimoloji və semantik cəhətdən fərqli sözlərin işlədilməsindən ibarət ritorik fiqur. Məs.: Azərb. d. /şütümək yox, yüyürmək //; alm. d. /nicht rasen-reisen//; ing. d. /Is life worth living?// /that depends upon the liver// (Yaşamağa dəyərmi? Bu qara ciyərdən asılıdır).
O.C.Ахманова. Göstərilən əsəri, s. 313.

ПАРСЕР – Bax: Парсинг →.

ПАРСИНГ - alm. Parsing (n), ing. parsing /pɑ:'zıŋ/, fr. parsingue, azərb. parsinq, (qrammatik cəhətdən bölmək). – Hər hansı bir cümlənin

və ya söyləmin müəyyən bir dilin qaydalarına uyğun gəldiyini yoxlamaq üçün maşında təhlil. Əgər bu cür yoxlama ifadənin düzgünlüyünü təsdiq edirsə, onda onun sintaktik (semantik) şərhi verilir (söyləm strukturu ağac şəklində verilir). Bu zaman qrammatik formalizm (konsepsiya) müxtəlif cür ola bilər: ya yuxarıdan aşağı (ing. d. /top down/) cümlə qovuşuğunda son simvollara qədər (ing. d. /bottom up/) və ya son simvoldan cümləyə doğru. Digər tərəfdən, qaydanın parsinqi son nöqtəsinə qədər davam edə bilər (ing. d. «depth-first») və ya hər yerdə bütün imkanları yoxlaya bilər («breath-first»), özü də bu hissələr üzrə bölmə strategiyasının müsbət və mənfi tərəfləri var. Təbii dillərə tətbiq edəndə burada ən böyük çətinlik yaradan leksik və struktur çoxmənalılıqdır. Sintaktik təhlillər üçün kompüter proqramını parsinq adlandırırlar.
H.Bußmann. Göstərilən əsəri, s. 561.

ПАРТИКЛЬ - alm. Partikel (f), ing. particle /'pɑ:tıkəl/, fr. particle, adjoint-e, assistant-e, azərb. köməkçi sözlər, dəyişməyən nitq hissələri, funksional, formal sözlər. – Dəyişməyən söz qrupları. Buraya ənənəvi olaraq ədatlar, modal sözlər və s. daxil edilirlər. Deməli, morfoloji cəhətdən dəyişməyən, cümlə üzvü ola bilməyən, aid olduqları sözlərin mənalarına müxtəlif çalarlıqlar verən söz qruplarına ədatlar deyilir. Semantikasına görə onlar alm. d. aşağıdakı qruplara bölünür: a) ölçü (nur, sogar, auch), b) modal /ja, freilich, allerdings/ (yalnız, hətta, həmçinin); c) inkar /kein, nicht/ (heç, yox); ç) cavab /ja, nein/ (hə, yox); e) müqayisə /wie, als/ (necə, elə bil) və s. ədatlardır. Bəzən bir ədat bir neçə funksiyada çıxış edə bilər.
H.Bußmann. Göstərilən əsəri, s. 561.

ПАРТИТИВНЫЙ - alm. partitiv, ing, partitive /'pa:tıtıv/, fr. partitif, azərb. partitiv. - Kəmiyyət-bölüşdürücü mənasına malik olan. Məs.: fr. d. /lire des livres/.
H.Bußmann. Göstərilən əsəri, s. 562.

ПАРТИТИВНЫЙ АРТИКЛЬ- alm. Teilungsartikel (m), ing. partitive article /'pa:tıtıv 'ɑ:tıkəl/, fr. article partitif, azərb. partitiv artikl. - İsimlə işarələnən əşyanın bütövlükdə əhatə olunduğunu yox, yalnız ayrı-ayrı hissələr şəklində ifadəsini göstərən artikl. Məs.: fr. d. /Donnez – moi le roun//, /Donnez-moi du rain le came//; /Vouyon, du calme//; rus d. /стаканчик чаю/, /кусок сахара/:
O.C.Ахманова. Göstərilən əsəri, s. 313.

ПАРТИЦИП – alm. Partizip (n), ing. particip /pɑ:'tısıp/, fr. participe, azərb. feli sifət (partisip). – Felin təsrif olunmayan forması. Alm. d. prezens partisip (I) və perfekt partisip (II) fərqləndirilir. Məs.: alm. d. /lesend/ (oxuyan), /gelesen/ (oxunmuş). Partisip I prosesin davam etməsini, Partisip II isə onun sonunu bildirir. Məs.: alm. d. /eine gelingende Forschung// (baş tutan tədqiqat), /eine gelungene Forschung// (baş

tutmuş tədqiqat). Grammatik forma olaraq Partisip II mürəkkəb zaman formalarının (Perfekt, Pluskvamperfekt, Futurum II) /Er hat gelesen/ (O, oxudu), /Er hatte gelesen/ (O,oxumuşdu), /Er wird gelesen haben/ (O, oxumuş olar) və passivin düzəlməsində /Der Brief wird gelesen/ (məktub oxunur) iştirak edir. İsmi əlamətləri: Partisip dərəcələnə, hallana bilir /die gelungenste Forschung, der gelungensten Forschung/, cümlədə təyin və predikativ olur. Mürəkkəb söz düzəldir. Məs.: alm. d. /ausschlaggebend/ (həlledici) və s.
H.Bußmann. Göstərilən əsəri, s. 563.

ПАРТИЦИПИАЛЬНАЯ КОНСТРУКЦИЯ – alm. Partizipialkonstruktion (f), ing. participials constructions /ˌpɑːrtɪˈsɪpɪəls **kənˈstrʌkʃəns**/, fr. construction participe, azərb. partisipial konstruksiyalar. – Cümlə əhəmiyyətli tamamlıq və zərflik kimi çıxış edən formanın düzəltdiyi konstruksiya. Məs.: alm. d. /Durch mehrfältige Versuche enttäuscht, kehrte er zurück// (O, bir neçə cəhdlə ruhdan düşərək evə qayıtdı). Onlar Azərbaycan dilinə feli bağlama kimi tərcümə olunurlar.
H.Bußmann. Göstərilən əsəri, s. 563.

ПАРТИЦИПИАНТ – alm. Partizipiant (m), ing. Participant /pɑːtɪsɪpənt/, fr. participiante, azərb. partisipiant.
Bax: Дополнение ←.

ПАРФЯНСКИЙ ЯЗЫК – alm. Parthisch (n), ing. Parthian language /ˈpɑːθjən ˈlæŋgwɪdʒ/, fr. langue parthienne, azərb. parfyan dili. - İran dillərinə aid dil hesab olunur (ölü dildir).
B.C.Расторгуева, E.K.Молчанова. Парфянский язык. «Основы иранского языкознания», M., 1981.

ПАССИВ - alm. Passiv (n), ing. passive /ˈpæsɪv/, fr. passif, azərb. məchul növ. – Felin növü. Semantik baxımdan passiv hərəkətin obyektinin qrammatik mübtədaya çevrilməsi deməkdir. Məs.: Azərb. d. /O, məktub yazır//, ancaq /məktub yazılır//. Azərb. d. feln məchul növü morfoloji göstəriciyə malikdir: (ıl)[4]. Ancaq german dillərində passiv analitik yolla əmələ gəlir. Məs.: alm. d. /Er schreibt Brief// (O, məktub yazır) (aktiv), ancaq /Der Brief wird geschrieben// (Məktub yazılır). Ona görə də passiv Azərb. d. morfoloji, alm. d. isə sintaktik kateqoriyadır. Alm. d. proses və vəziyyət passivi fərqləndirilir. Proses passivi. Məs.: alm. d. /Das Buch wird gelesen// (kitab oxunur). Buna adətən /werden/ (olmaq), /bekommen/, /erhalten/, /kriegen/ (almaq) felləri yardımçı olur. Vəziyyət passivi: /Die Tür ist geöffnet// (qapı açıqdır) və s.
İ.Kərimov. Alman dilində passiv konstruksiyalar və onların Azərbaycan dilində ifadə vasitələri. ND. Bakı, 2005.

ПАССИВНЫЕ ОРГАНЫ РЕЧИ - alm. passive Sprechorgane (Pl.), ing. passive organs of speech /ˈpæsɪv ˈɔːgənz əv ˈspiːtʃ/, fr. organes du discours passif, azərb. qeyri-fəal tələffüz üzvləri. - Müəyyən səsin

tələffüzündə hərəkətdə olmayan tələffüz üzvləri, yalnız fəal üzv (dodaq, dil, damaq pərdəsi) onlara toxunaraq və ya yaxınlaşaraq nov və ya kipləşmə əmələ gətirir.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ПАССИВНЫЕ СЛОВА - alm. passive Wörter (Pl.), ing. passive words /'pæsɪv wɜ:dz/, fr. mots passifs, azərb. qeyri-fəal sözlər. - Eyni dil daşıyıcılarının başa düşdükləri, lakin öz danışıqlarında işlətmədikləri söz və ya ifadələr. Danışıq aktında az və ya heç işlədilməyən sözlər qrupu. Məs.: Azərb. d. /xiffətini çəmək/ – /fikrini, dərdini çəkmək/. Hər bir dil daşıyıcısının qeyri-fəal söz ehtiyatı fəal söz ehtiyatından qat-qat çoxdur.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 214.

ПАССИВНЫЙ - alm. passiv, ing. passive /'pæsɪv/, fr. passif, azərb. passiv – 1) Məchul növə aid olan, formal və məzmunca məchul növü səciyyələndirən, məchul növ paradiqminə aid olan; 2) Mübtədası işin icraçısını deyil, xəbərlə ifadə olunmuş hərəkətin obyektini bildirən, məchul növ formasına malik olan.
H.Bußmann. Göstərilən əsəri, s. 564.

ПАТОИС – alm. Patois (m), ing. patois /pætwɑ:/pætwɑ:z/, fr. patois, azərb. patois. – Dialektin primitiv, sırf sosial münasibətlərlə məhdudlaşan ifadəsi, mənanın zəifləməsini göstərən dialekt ifadəsi.
H.Bußmann. Göstərilən əsəri, s. 564.

ПАТОЛИНГВИСТИКА – alm. Patolinguistik (f), ing. patolinguistics /'pætɔ,-pə'tɒ'lɪŋgwɪstɪks/, patho /pə'θɒ/, pathology /pə'θɒlədʒɪ/, fr. patolinguistique, azərb. patodilçilik. – Dil pozuntularının diaqnostikası və müalicəsilə məşğul olan elm sahəsi. Dil pozuntusu deyəndə mütəmadi və ya təsadüfən yayınmalar nəzərdə tutulur. Bu başqa elm sahələrilə sıx əməkdaşlıq tələb edən bir sahədir. Adətən termin kimi bunun əvəzinə klinik linqvistika, neyrolinqvistika, loqopediya işlənir.
H.Bußmann. Göstərilən əsəri, s. 563.

ПАТРОНИМ - alm. Patronym (n), ing. patronymic /pætrə'nɪmɪk/, fr. patronyme, patronymique, azərb. patronim. - Atanın adından törənmiş şəxsi ad. Məs.: Azərb. d. /Dəmirçioğlu/, /Şatırçıoğlu/, /Koroğlu/, /Həsənoğlu/; ing. d. /Peterson, Johnson/; alm. d. /Heinrich Peters Sohn/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 215.

ПАУЗА - alm. Pause (f), ing. pause /pɔ:z/, fr. pause, azərb. fasilə (pauza). - Müxtəlif səbəblərlə əlaqədar və müxtəlif məqsədlərlə danışıq aktının müvəqqəti kəsilməsi, danışığa ara verilməsi. Dildə funksiyası sintaqmları və məna qruplarını ayırmaq, sonda gələrsə fikrin bitməsini bildirməkdir. Fasilə 3 cür olur: fakültativ, kiçik (/), böyük (//). Məs.: Azərb. d. /Axşamdan başlayan dartışma/ səhərə yaxın, başa çatdı//.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 173-186.

ПАУЗА ВИРТУАЛЬНАЯ - alm. virtuelle Pause (f), ing. potential pause /pə'tenʃəl pɔ:z/, fr. pause virtuelle, azərb. virtual fasilə. - Danışıq zəncirində xətti şəkildə yerləşmiş iki dil vahidinin ayrılmasına xidmət edən potensial /izhar olunmamış/ fasilə. Məs.: Azərb. d. /Ana/ Vətən çağırır məni// və ya /Ana vətən/ çağırır məni// və s. Alm. d. /Hans/ sagte Karl/ wird nie Kanzler sein// (Hans, Karl dedi, heç vaxt kansler olmayacaq) və ya /Hans sagte /Karl wird nie Kanzler sein// (Hans dedi, Karl heç vaxt kansler olmayacaq) və s.
F.Vejsälli. Einfürung in die Phonologie. Baku, 2004.

ПАУЗА НОРМАЛЬНАЯ - alm. normale Pause (f), ing. normal pause /'nɔ:məl pɔ:z/, fr. pause normale, azərb. normal fasilə. - Sintaqmlar arasında edilən fasilə, bunun yeganə funksiyası semantik-struktur və fonetik bütövləri bir-birindən ayırmaqdır. Məs.: Azərb. d. /Mənim böyük əmim / iki il bundan öncə / vətəni tərk edərək /Türkiyəyə köçüb gedib//.
Л.Р.Зиндер. Общая фонетика. М., 1979.


ПАУЗА ПОДЧИНИТЕЛЬНАЯ - alm. subordinierende Pause (f), ing. subordinating pause /səbɔ:'dıneıtıŋ pɔ:z/, fr. pause subordonnantes, azərb. tabelilik fasiləsi. - Tabeli sintaktik münasibət ifadə edən fasilə. Tabeli mürəkkəb cümlələrin tərəflərini bir-birindən ayırmağa xidmət edir. Məs.: /Cəmil dedi ki / buna bizim gücümüz çatmaz// və ya /Mircəmil isə dedi ki / bir az çalışsaq, öhdəsindən gələ bilərik//.
Л.Р.Зиндер. Göstərilən əsəri.

ПАУЗА ПРЕДУПРЕДИТЕЛЬНАЯ - alm. weiterweisende Pause (f), ing. anticipate pause /æn'tısıpeıt pɔ:z/, fr. pause préventive, azərb. xəbərdaredici fasilə. – Söhbətin davam edəcəyi haqqında xəbərdarlıq məqsədilə işlədilən fasilə. Belə halda yazıda iki nöqtə qoyulur. Məs.: Azərb. d. /Mən sizə birmənalı şəkildə deyirəm: / o, olduqca istedadlıdır//.
Л.Р.Зиндер. Göstərilən əsəri.

ПАУЗА РАЗДЕЛИТЕЛЬНАЯ - alm. Trennungspause (f), ing. disjunctive pause /dıs'dʒʌŋktıv pɔ:z/, dividing pause /dı'vaıdıŋ pɔ:z/, fr. pause disjonctive, azərb. bölüşdürücü fasilə. – Semantik-sintaktik və fonetik vahidləri və sintaqmları bir-birindən ayıran sintaktik fasilə.
Bax: Пауза нормальная ←.

ПАУЗА СОЕДИНИТЕЛЬНАЯ - alm. kopulative Pause (f), Verbindungspause (f), ing. connective pause /kə'nektıv pɔ:z/, linking pause /lıŋkıŋ pɔ:z/, fr. pause conjonctive, azərb. birləşdirici fasilə. – Funksiyasına görə birləşdirici, bir növ sadalayıcı fasilə. Məs.: Azərb. d. /Bütün keçmişləri/, olmuşları/, ömrü boyu başına gələn işləri saf-çürük edib/, qismən də olsa sakitləşdi//.
Л.Р.Зиндер. Göstərilən əsəri.

ПАЦИЕНС - alm. Patiens (m), ing. patient /'peɪʃənt/, fr. patient, azərb. pasiens. – İş, hal və təsirinə məruz qalan, agensə (hərəkətin mənbəinə) qarşı qoyulan. Nominativ dillərdə (hind-Avropa və türk dilləri) pasiens bilavasitə vasitəli tamamlıqla ifadə olunur. Məs.: Azərb. d.



H.Bußmann. Göstərilən əsəri, s. 565.

ПЕЙОРАТИВНЫЙ - alm. pejorativ, ing. pejorative /pədʒɔrətiv;-dʒɔ:v/, deteriorative /dɪ'tɪərɪəreɪtɪv/, fr. pejoratif, azərb. peyorativ (latın dilində malus-un müqayisə dərəcəsi). - Mənfi ekspressiv-emosional çalarlığa malik olan. Sözə mənfi, xoşagəlməz çalarlıq verən. Bu cür mənfi məna çalarlıqlarını neologizm (Məs.: italyan dilində /Spaghettis/ /gastarbeiter/ deməkdir) və ya mənaca dəyişmələrlə ifadə etmək mümkündür. Məs.: alm. d. /Dirne/ əvvəllər «bakirə qadın» demək idi. Alm. d. peyorativə xidmət edən şəkilçilər: /-isch/ - /kindisch/ (uşaqsayağı), /-ler/- /Protestler/ (etirazçı), /-ling/ –/Mischling/ (qarışıq) və s.
H.Bußmann. Göstərilən əsəri, s. 566.

ПЕНСИЛЬВАНСКИЙ ЯЗЫК – alm. Pennsylvania-Sprache (f), ing. Pennsylvania language /ˌpensɪl'veɪnjə 'læŋgwɪdʒ/, fr. langue pennsylvanienne, azərb. pensilvan dili. – Amerikanın şimalında 700 minə qədər adamın danışdığı orta alman dialektinə söykənən dil. Bu dildə danışanlar XVIII əsrdə Almaniyanın Raynland və Pfals əyalətlərindən Filadelfiaya gedənlərdir. Məişətdə, mədəniyyətdə, poeziyada yazılı və şifahi formada işlənir. Amerikan mənbələrində «Dutsch» kimi adlandırılan bu ad «Deutsch» (Alman dili)-nin dəyişmiş formasıdır, onun ingiliscə «dutsh» (holland, flamand) dili ilə heç bir əlaqəsi yoxdur.
H.Bußmann. Göstərilən əsəri, s. 566.

ПЕНУЛЬТИМ - alm. Pänultima (n), ing. penultimate /pɪ'nʌltɪmɪt/, fr. pénultième, azərb. sondan əvvəlki vurğulu heca (penultim). – Polyak dilində axırdan əvvəlki heca vurğulu olur. Məs.: polyak dilində /Polskégo/. Digər fonemik proseslərə və vurğuya nisbətdə xüsusi vəziyyət kimi ayrılan axırdan əvvəlki heca.
О.С.Ахманова. Göstərilən əsəri, s. 315.

ПЕНУТИАНСКИЕ ЯЗЫКИ – alm. Penuti-Sprachen (Pl.), ing. Penutian languages /pə'nu:ʃən,-'nu:tɪən 'læŋgwɪdʒɪz/, fr. langues pentuanes, azərb. penutian dilləri. – Şimali Amerikanın hindi dilləri ailəsi. Bu dillərdə danışanların ümumi sayı 11 minə qədərdir. Aqlütinativ dillərə aiddir. Sözdüzəltmədə və sözdəyişmədə suffikslər və sözün əsasında

daxili əvəzlənmələr mühüm yer tutur. Çoxşaxəli hal **sisteminə** malikdir. Yazısız dillərdir.
C.F.Voegelin. North American Indian languages **still spoken** and their generetic relationship, "Language, culture and **personality**", Manasha (Wisconsin), 1941.

ПЕРВИЧНЫЙ - alm. primär, ing. primary /'praɪmərɪ/, fr. primaire, azərb. ilkin. – İlkin, tərkib hissələrinə parçalanmayan, **köklə** üst-ustə düşən, şəkilçi və tematik formantları olmayan. Məs.: **Azərb. d. /əl/**, /ayaq/, /dağ/, /dərə/, /kök/, /qol/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 315.
ПЕРВИЧНОЕ СЛОВО - alm. Wurzelwort (n), **ing. primary** word /'praɪmərɪ wɜ:d/, fr. mot racine, azərb. ilkin söz. - **Əsası kök**ə bərabər olan, söz tərkibinə görə affikslərə bölünməsi **mümkün olmayan** söz. Müəyyən dilin leksik tərkibinin ilkin sözləri. Məs.: **Azərb. d. /daş/**, /söz/, /od/, /tor/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 315.

ПЕРВОЕ ЛИЦО - alm. erste Person (f), ing. first **person /fɜ:st** 'pɜ:sən/, fr. première personne, azərb. birinci şəxs.- Danışan **şəxsi bildirən** kateqorial şəxs forması. Məs.: Azərb. d. /Mən oxuyuram/, /Mən **gəlirəm/. İ**ng. d. I şəxsin öz şəxs və ya xəbər şəkilçisi yoxdur. Məs.: ing. d. **/I came/, /I** read/ və s.
M.Hüseynzadə. Müasir Azərbaycan dili. Bakı, 1973, **s. 133.**
ПЕРВОЕ СПРЯЖЕНИЕ - alm. erste Konjugation **(f),** ing. first conjugation /fɜ:st ˌkɒndʒʊ'geɪʃən/, fr. conjugaison **première**, azərb. birinci təsriflənmə. - Rus d. fel paradiqminin iki **əsas növ**ündən biri. Müasir rus d. felin iki əsas təsriflənmə növü **mövcuddur**. Birinci təsriflənmə aşağıdakı şəkilçilərlə səciyyələnir.
Müq. et:

I şəxs təkdə /-ю/	I şəxs cəmdə /– ем/
II şəxs təkdə /-ешь/	II şəxs cəmdə /–ете/
III şəxs təkdə /-ет/	III şəxs cəmdə /-ут, -ют/.

Bax: Спряжение →.
ПЕРВОНАЧАЛЬНОЕ ЗНАЧЕНИЕ - alm. ursprüngliche Bedeutung (f), ing. original meaning /ə'rɪdʒɪnəl 'mi:nɪŋ/, fr. **sens primitif**, azərb. ilkin məna. - İstənilən sözün əşyavi hissəsinin **ibtidai mənası**, sözün etimonu. Məs.: Azərb. d. /taxta/, /dəmir/ və s.
Bax: Значение ←.

ПЕРВООБРАЗНЫЙ - alm. ursprünglich, ing. **primary** /'praɪmərɪ/, primitive /'prɪmɪtɪv/, fr. primitif, primordial, azərb. **ilkinşəkilli**. - Dilin əvvəlki dövrlərinə aid olan.
O.C.Ахманова. Göstərilən əsəri, s. 316.

ПЕРЕВОД - alm. Übersetzung (f), Translation (f), ing. translation /trænz'leɪʃən/træns'leɪʃən/, fr. traduction, azərb. **tərcümə**. - 1. İki və daha artıq dilin vahidləri arasında müvafiq semantik uyğunluğun olmasını ortaya çıxartmaq üçün tutuşdurma; 2. Müəyyən bir dildəki mətnin məzmununun digər dilin vasitələrilə ifadə olunması prosesi və ya nəticəsi. Tərcüməşünaslıqda mənbə dil və obyekt dil terminlərindən istifadə olunur. Hansı dildən tərcümə edilirsə o, mənbə dil adlanır, hansı dilə tərcümə olunursa, ona obyekt dil deyilir. Dilçilik tərcümənin bir neçə növünü fərqləndirir; 3. Xarici dillərin tədrisində danışmaq, eşitmək, oxumaq və yazmaqla yanaşı biliklərin mənimsənilməsi üçün məşqlər və yoxlama vasitəsi. Didaktik baxımdan burada xarici dilə və ana dilinə tərcümələr fərqləndirilməlidir. Eyni zamanda maşınla və maşına söykənən tərcümə tərcüməşünaslığın aktual problemlərindəndir. Bu gün tərcüməşünaslığın bir neçə problemi var: a) tərcümələrin tipologiyası: bədii, sahə ədəbiyyatımn tərcüməsi, insan və maşın tərcüməsi, filoloji tərcümə və s; b) ekvivalentli (mədəni, tarixi və linqvistik). Formaca tərcümə yazılı və şifahi olur. Eyni zamanda tərcümə ardıcıl, sinxron və şərhli olur. Azərbaycan dilinə tərcümələr: bədii ədəbiyyatın tərcüməsi: Ç.Qurbanlı. «Əli və Nino». Bakı, 2006; sahə ədəbiyyatı F.Veysəlli: «Ümumi dilçiliyə giriş». Bakı, 2006.

O.C.Ахманова. Göstərilən əsəri, s. 316-317.

ПЕРЕВОД ДОСЛОВНЫЙ - alm. wörtliche Übersetzung (f), ing. literal, verbal translation /'lɪtərəl 'vɜ:bəl træns'leɪʃən/, fr. traduction littérale, traduction mot à mot, azərb. hərfi tərcümə. - Tərcümə prosesində mənbə dildəki konstruksiyanı saxlamaq şərtilə mənbə dildəki sözlərin yerinə onların obyekt dilə məxsus ekvivalentlərini tapıb qoymaqdan ibarət tərcümə üsulu.

Bax: Перевод ←.

ПЕРЕВОД ИНТЕРЛИНГВИСТИЧЕСКИЙ - alm. interlinguistische Übersetzung (f), ing. interlinguistic translation /ɪntəlɪŋ'gwɪstɪk træns'leɪʃən/trænz'leɪʃən/, fr. traduction interlinguistique, azərb. dildaxili tərcümə. – Dildəki mətnin şərhlərlə açılması. Məs.: Azərb. d. /üz/ sözü /sifət/, /çöhrə/, /sima/, /bəniz/ sözlərilə tərcümə olunur.

Bax: Перевод ←.

ПЕРЕВОД ИНТРАЛИНГВИСТИЧЕСКИЙ - alm. intralinguistische, aussersprachliche Übersetzung (f), ing. intralinguistic translation /ɪntrəlɪŋ'gwɪstɪk træns'leɪʃən/, fr. traduction intralinguistique, azərb. dildaxili tərcümə. - Müəyyən bir dildəki mətn parçasının, kitabın, əsərin həmin dildə şərhi.

Bax: Перевод ←.

ПЕРЕВОД МАШИННЫЙ – alm. maschinelle Übersetzung (f), ing. machine translation /mə'ʃi:n træns'leıʃən/, fr. traduction à la machine, azərb. maşınla tərcümə. - 1. Verilmiş proqram əsasında elektron maşınların müəyyən mətnləri avtomatik tərcümə etməsi; 2. Maşınla tərcümənin nəzəriyyəsilə məşğul olan elm sahəsi.
Bax: Перевод ←.

ПЕРЕВОД СВОБОДНЫЙ – alm. freie Übersetzung (f), ing. free translation /fri: træns'leıʃən/, fr. traduction libre, azərb. sərbəst tərcümə. – Tərcümə zamanı mənbə dilə məxsus mətnin mənasının tam dəqiqliyi və ekspressiv-emosional rəngarəngliyini verməyə meyl etməyən, tərcümə olunan dildə (obyekt dildə) əsas məzmunun verilməsilə kifayətlənən tərcümə növü.
Bax: Перевод ←.

ПЕРЕВОДНОЙ СЛОВАРЬ – alm. zweisprachliches Wörterbuch (n), ing. bilingual (translation) dictionary /baı'lıŋwəl /træns'leıʃən 'dıkʃənərı/, fr. vocabulaire de traduction, azərb. tərcümə lüğəti. - İki və daha artıq dilin söz tərkibinin planlı tərzdə qarşılaşdırma prinsipi üzrə tərtiblənən lüğət. İzahlı lüğətdən fərqli olaraq, tərcümə lüğətlərində sözlərin və ifadələrin mənasının başqa dilə tərcüməsi verilir. Tərcümə lüğətləri əsasən ikidilli, bəzən isə çoxdilli olur. Məs.: Azərb. d. /kitab/; rus d. /книга/; alm. d. /Buch/; ing. d. /book/; fr. d. /livre/.
O.Musayev. Azərbaycanca-ingiliscə lüğət. Bakı, 1998.

ПЕРЕГЛАСОВКА (ПЕРЕДВИЖКА) - alm. Umlaut (m), ing. Umlaut /'umlaut/, mutation /mju'teıʃən/, fr. inflexion vokalique, azərb. səsin dəyişməsi. – Səsin keyfiyyətcə dəyişməsi, irəli çəkilməsi. Y.Qrimm german dillərində arxa sıra saitlərinin ön sıra saitlərinə keçməsini umlaut adlandırırdı. Məs.: alm. d. /Bruder/ (qardaş) – /Brüder/ (qardaşlar), /Ofen/ (soba) - /Öfen/ (sobalar). Alman dilində umlautla yanaşı (daxili fleksiya) sözə şəkilçi də əlavə edilir. Məs.: /Wolf/ (canavar) - /Wölfe/ (canavarlar), /Gast/ (qonaq) - /Gäste/ (qonaqlar). Müasir ing. d. /foot/ (ayaq) - /feet/ (ayaqlar), /tooth/ (diş) - /ti:θ/, /mouse/ (siçan) – /mice/ (siçanlar). İngilis dilində çox az hallarda daxili fleksiya ilə yanaşı şəkilçi də iştirak edir. Məs.: /child/ (uşaq) - /children/ (uşaqlar), /ox/ (öküz) - /oxen/ (oküzlər), /brother/ (qardaş) - /brethren/ (qardaşlar).
F.Yadigar (Veysəlli). GDG. s. 29-33.

ПЕРЕГРИНИЗМ - alm. Peregrinismus (m), ing. peregrinism /'perıgrınızm/, fr. pérégrinisme, azərb. pereqrinizm. - Əcnəbi dildən alınmış ifadələrə (atalar sözləri, zərbi məsələlər) məxsus xüsusiyyətlər. Məs.: rus d. /Цыплят по осени считают// – /Cücəni payızda sayarlar//.
O.C.Ахманова. Göstərilən əsəri, s. 317.

ПЕРЕДВИЖЕНИЕ (ПЕРВОЕ) ЗВУКОВ - alm. erste Lautverschiebung (f), ing. Grimms law /'grımz lɔ:/, mutation /mju:'teıʃən/, sound shift

/saʊnd ʃift/, fr. mutation (primaire) des sons, azərb. səslərin (ilkin) yerdəyişməsi. – Bunu adətən birinci və ya german səsdəyişməsi də adlandırırlar. German dillərinin başqa hind-Avropa dillərindən fərqlənməsini göstərən sistematik səs dəyişmələri. 1822-ci ildə Y. Qrimm müqayisəli tədqiqatları ümumiləşdirərək qədim şimal yunan və latın dilləri arasındakı fərqləri sistematik səs dəyişmələri adlandırdı, özü də o, sanskriti səhvən hind-Avropa dillərinin davamı kimi götürürdü. Əslində birinci səs dəyişməsi üç samitin dəyişməsi prosesini əhatə edirdi: a) /p/, /t/, /k/ kar kipləşən–partlayışlı samitlər /f/, /s/ və /x/ samitlərinə keçdi.

hind-Avropa d.	latın d.	ing. d.
pətēr	pater	father (ata)
treyes	trēs	three (üç)
kintom	centum	hundred (yüz)

Cingiltili /b/, /d/, /g/ fonemləri kar, kipləşən-partlayışlılara çevrildi. Məs.:

latın d.	ing. d.	alm. d.
decem	ten (on)	Knie (diz)
genu		

Nəfəsli /bh/, /dh/, /gh/ samitləri /ƀ/, /đ/, /ǥ/ novlularına çevrildilər, sonralar isə /b/, /d/, /g/ samitlərinə keçdilər:

qədim hind d.	got d.
Bharati (o daşıyır)	bairan
madiya	midjis (orta)
ghostis	Gast (yeni alm. d.) (qonaq)

Bu dəyişmələrin tarixi miladdan 1200-1000 il əvvəl başlanıb, 500-300-cü ildə isə başa çatıb. Son dövrlər hind-Avropa dillərinin tipoloji real bərpası bir sıra yeni mülahizələrin əmələ gəlməsinə səbəb olub. Ənənəvi olaraq səs dəyişmələrinin yer aldığı dillər kimi nəzərdən keçirilən dillər bu dəyişikliklərin olmadığı dillərə nisbətən hind-Avropa konsonantizminə daha yaxın hesab edilir.
Cingiltili /b/, /d/, /g/ müvafiq kar kipləşən-partlayışlılara keçdi.

qədim sakson	Bavariya dialekti
beran	← peran (doğmaq)
bindan	pintan (bağlamaq)
giban	kepan (vermək)

Novlu /θ/ cingiltili /d/-ya çevrilir. İng. d. /brother-Bruder/ (qardaş). Bu dəyişmə prosesi V-VIII əsrlərdə başlayıb və başa çatıb. Əsasən cənubda ardıcıl olub. Son dövrlərin tədqiqatları göstərir ki, aşağı və yuxarı alman dillərinin müştərək deyil, müstəqil inkişaf yolu olmuşdur. Yəni alman ədəbi dili aşağı alman dilinin sonrakı inkişafı kimi götürülə bilməz.
F.Yadigar (Veysəlli). GDG. s. 29-32; T.V.Gamkrelidze und V.V.Ivanov. Sprachtypologie und die Rekonstruktion der gemeingermanischen Schlüsse. In: Phonetica, 1973, s. 150-156;

ПЕРЕДВИЖЕНИЕ (ВТОРОЕ) СОГЛАСНЫХ - alm. zweite Lautverschiebung (f), ing. consonant shift /kɒnsənənt ʃɪft/, mutation /mjuːˈteɪʃən/, old high German consonant shift /əˈʊld haɪ ˈdʒɜːmən kɒnsənənt ʃɪft/, fr. mutation (secondaire) de consonnes, azərb. samitlərin (ikinci) yerdəyişməsi. – 2-ci və ya alman samit dəyiməsi nəticəsində qədim alman dilinin digər german dillərindən və dialektlərindən ayrılması başa çatdı. Ulu german dillərindəki /p/, /t/, /k/ kipləşən-partlayışlı kar samitlər afrikatlara çevrildilər. Məs.:

Ulu german dili	ing. d.	alm. d.
to	to	zu
hert	heart	Herz (ürək)
qədim sakson		
pennig	Pfennig (xırda pul)	
Korn	Kchorn	

Ancaq inlaut və auslautda onlar saitlərdən sonra novlulara çevrildilər. Məs.:

Ulu german dili	ing. d.	alm. d.
letan	let	lassen (buraxmaq)
fat	vat	Faß (çəllək)

F.Yadigar (Veysəlli). GDG. s. 29-32.

ПЕРЕДНЕНЁБНЫЙ - alm. Vordergaumenlaut (m), ing. prepalatal /ˈprɪpælətəl/prɛˈpɑlət(ə)l/, fr. prépalatal, azərb. ön damaq səsi. - Tələffüzü zamanı dilin ucunun damağın ön tərəfinə doğru qalxması nəticəsində yaranan səslər. Məs.: Azərb. d. ön sıra saitlər –/i/, /ö/, /ə/, /ü/, dilönü samitləri /d/, /z/, /t/ və s. Əslində isə belə təsnifat klassik fonetikanın qeyri-fəal üzvləri səhvən təsnifata cəlb etməsinin nəticəsidir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 167-169.

ПЕРЕДНЕЯЗЫЧНЫЙ - alm. Vorderzungenlaut (m), ing. point /pɔɪnt/, blade /bleɪd/, front /frʌnt/, coronal /ˈkɒrənəl/, pre-dental /ˈprɪ ˈdentl/, fr. coronal, azərb. dilönü - Dilin ön hissəsinin fəal iştirakı ilə yaranan səslər.

Bu səslərin əmələ gəlməsində dilin ön hissəsi aşağı endikdə və dorsal səslər əmələ gəlir, yuxarı qalxdıqda isə apikal səslər əmələ gəlir. Məs.: dilönü samitlər: /d/, /t/, /s/, /z/, /n/, /l/.
F.Yadigar (Veysəlli). GDG., s. 183.

ПЕРЕДНЕЯЗЫЧНЫЕ СОГЛАСНЫЕ – alm. Vorderzungenkonsonanten (Pl.), ing. pre-dental consonants /'prɪ-dentəl 'kɒnsənənts/, fr. consonne prélingualle, azərb. dilönü samitlər.
Bax: Переднеязычный ←.

ПЕРЕДНИЙ - alm. vorder, ing. front /frʌnt/, fronted /frʌntɪd/, fr. antérieur, azərb. ön. - Ağız boşluğunun ön hissəsində yaranan səslər. Məs.: Azərb. d. incə saitlər: /e/, /ə/, /ö/, /ü/, /i/ və s.
F.Yadigar (Veysəlli). GDG. s. 182.

ПЕРЕДНИЙ РЯД – alm. vordere Reihe (f), ing. forward zone /'fɔ:wəd zəʊn/, fr. ligne antérieurre, azərb. ön sıra. – Ağız boşluğunun ön hissəsində yaranan saitlər. Məs.: Azərb. d. /i/, /ü/, /ö/, /ə/.
F.Yadigar (Veysəlli). GDG. s. 192.

ПЕРЕЖИТАЯ РЕЧЬ (МОНОЛОГ ВНУТРЕННИЙ) - alm. innere Rede (f), ing. inner monologue /'ɪnə 'mɒnəlɒg/, experienced speech /ɪks'pɪərɪənst spi:tʃ/, fr. style indirect libre, monologue intérieur, azərb. daxili monoloq. - Bədii əsərlərdə personajların daxili hiss və həyəcanlarını təsvir etmək üçün istifadə edilən xüsusi üslubi çalarlı nitq. Adətən bu zaman danışıq aktında baş vermiş hadisələrin təsviri deyil, danışanın daxili psixoloji-emosional vəziyyəti öz ifadəsini tapır.
Bax: Монолог ←.

ПЕРЕМЕЩЕНИЕ УДАРЕНИЯ - alm. Verschiebung der Betonung (f), ing. shifting of stress /'ʃɪftɪŋ əv stres/, contrastiv stress /'kɒntræstɪv stres/, fr. déplacement de l'accent, azərb. vurğunun yerdəyişməsi. – Vurğunun müxtəlif cümlə üzvlərinin üzərinə düşməsilə cümlənin aktual üzvlənməsində dəyişiklik yaranması. Məs.: Azərb. d. /Atam g'əldi/ cümləsində vurğu xəbərin üzərinə düşdükdə o, rema olur, atanın gəlməsi faktı nəzərə çarpdırılır. /'Atam gəldi/ (birinci tərəfə vurğu düşdükdə o, rema, ikinci tərəf isə tema olur). Yəni gözlədiyimiz adamlar çox idi, onlardan yalnız atanın gəlməsi vurğu ilə ifadə olunur; 2) Sözlər formasını dəyişəndə vurğu da yerini dəyişir. Məs.: rus d. /рука'/, ancaq /ру'ки/; alm. d. /'dɔktor/, /dɔk'to:rən/.
F.Veysälov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 194.

ПЕРЕНЕСЕНИЕ - alm. Hyperthese (f), ing. transference /'trænsfərəns/, contagion /kən'teɪdʒən/, condensation /ˌkɒnden'seɪʃən/, fr. translation, azərb. köçürülmə, keçirilmə. – Sözlərdə semantik dəyişiklik, söz birləş-

məsinin üzvləri arasında semantik funksiyanın bölüşdürülməsi, assosiativ və ya sintaqmatik cərgədə təmasda olan dil vahidlərinin qarşılıqlı təsiri nəticəsində söz birləşməsinə aid elementlərdən birinin yeni məna kəsb etməsi. Məs.: lat. d. /-ulus/ suffiksi kiçiltmə nəticəsində /bibulus/ (içki həvəskarı) şəklini almışdır.
O.C.Ахманова. Göstərilən əsəri, s. 319.

ПЕРЕНЕСЕННОЕ ПРИЛАГАТЕЛЬНОЕ - alm. Adjektivübertragung (f), ing. condensed adjective /kən'densd 'ædʒıktıv/, fr. adjectif translmis, azərb. sifətin köçürülməsi. - Perifrastik (iki və daha çox ünsürdən ibarət) təyini əvəz edən sifət. Məs.: rus d. /зарубежные нефтяные компании/, /компании из зарубежных стран/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 319.

ПЕРЕНЕСЕННЫЙ ЭПИТЕТ - alm. Enallage (f), ing. enallage /ı'nalədʒı/, transference epithet /'tænsfərəns 'epıθet/, fr. épithète transmis, (enallage), azərb. köçürülmə epitet (enallaqa). - Epitetin (bədii, obrazlı təyin) ifadə edən sözün üzərinə köçürülməsindən ibarət ritorik fiqur. Danışıqda təyini sifətin semantik cəhətdən dolayısı ilə mənsubiyyət bildirməsi. Məs.: Azərb. d. /Altı mərtəbəli evin sahibi/; alm. d. /Der fünfstöckige Hausbesitzer/.
R.Conrad. Göstərilən əsəri, s. 72.

ПЕРЕНОС - alm. Silbentrennung (f), ing. division into syllables /dı'vıʒən 'ıntʊ, -ə sıləblıs/, fr. translation, azərb. keçirmə. - Sətrin sonunda sözlərin hecalara bölünərək təzə sətrə keçirilməsi. Bu zaman heca sərhədi iki samit, sait və samit və ya əksinə iki sait arasından keçə bilər. Məs.: Azərb. d. /bara-ma/, /ki-tab/, /sək-kiz/ və s.
R.Conrad. Göstərilən əsəri, s. 236.

ПЕРЕНОС ЗНАЧЕНИЯ - alm. Metapher (f), ing. metaphor /'metəfə/, fr. métaphore, azərb. mənanın köçürülməsi. - Sözün, ifadənin bildirdikləri əşya və hadisələrin hər hansı bir cəhətdən oxşarlığına, bənzəyişinə əsasən məcazi mənada işlədilməsi. Məs.: Azərb. d. /adamın gözü/, ancaq /bulağın gözü/ və s. Cümlə şəklində. Məs.: Azərb. d. /yağış yağır/ əvəzinə /Göylər ağlayır/.
R.Conrad. Göstərilən əsəri, s. 166.

ПЕРЕРАЗЛОЖЕНИЕ - alm. Metanalyse (f), Deglutination (f), ing. metanalyse /met'ænəlaız/, fr. métanalyse, fausse coupure, azərb. parçalanma. - Söz, söz birləşmələrinin tərkibində elə bir morfem sərhədlərinin yerdəyişməsidir ki, bunun nəticəsində vahid morfem iki morfem ardıcıllığına çevrilə bilər və ya iki və daha artıq morfem ardıcıllığı sadələşmə (bəsitləşmə) əsasında vahid morfemdə birləşə bilər. Məs.: rus d. sonda saitlərin dəyişməsi nəticəsində /жена-ми/, /жен-ами/. Müasir rus d. /мыло/, /шило/, /рыло/ sözləri /мил/, /шил/ və /рыл/ köklərindən və /o/

fleksiyasından ibarətdir. Ancaq etimoloji cəhətdən onlar üçmorfemli olub: /мы/, /ши/, /ры/ kök morfemlər, /dl hərəkətin alətini bildirən şəkilçi, /o/ isə fleksiyadır. Beləliklə, bu sözlər /мыдло/, /шидло/, /рыдло/ kimi işlənir. Bu şəkilçi qərbi slavyan dillərində (məs.: polyak dilində /Шидловский/) bu gün də vardır.
A.A.Реформатский. Göstərilən əsəri, s. 275-276.

ПЕРЕСТАНОВКА - alm. Umstellung (f), ing. metathesis /mɪ'tæθəsɪs/, fr. déplacement, transposition, azərb. yerdəyişmə. – Adətən sözün bir dildən başqa dilə keçdiyi zaman, alınma sözlərin mənimsənilməsi prosesində rast gəlinir. Məs.: a) rus d. /футляр/; Azərb. d. /futlyar/; alm. d. /Futteral/; b) rus d. /тарелка/, isveç d. /talrik/, alm. d. /Teller/; c) uşaqların dilində /lampa/ əvəzinə /rampa/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 320.

ПЕРЕХОД - alm. Übergang (m), ing. transition /træn'zɪʃən, træn'sɪʒən/, fr. transition, azərb. keçid. – 1) Tələffüz zamanı bir səsin məxrəcindən qonşu səsin məxrəcinə keçir və bununla da sait diftonqoid təsəvvürü yaradır. Məs.: rus d. /t°ok/; 2) Əcnəbilər rus dilini öyrənərkən bu keçidə fikir vermirlər, ona görə də onların tələffüzü aksent tələffüz kimi qəbul edilir. Məs.: /t°ot/ əvəzinə /tot/ və s; 3) Müəyyən bir nitq hissəsinə məxsus sözlərin digər nitq hissəsinə məxsus keyfiyyətlər kəsb etməsi. Məs.: Azərb. d. sifətin ismə keçməsi. Məs.: /Qırmızı alma/ (sifət) - /Qırmızılar təslim olmaq istəmirdilər/ (mübtəda).
O.C.Ахманова. Göstərilən əsəri, s. 320.

ПЕРЕХОД ОТКРЫТЫЙ – alm. offener Übergang (m), ing. open transition /'əʊpən træn'zɪʃən, træn'sɪʒən/, fr. transition ouverte, azərb. açıq keçid. - Danışıq zəncirində (kontinuum) bir-birinin ardınca gələn səslərin bitişdiyi yerdə fasilənin mövcudluğu. Məs.: müasir ing. d. London tələffüzündə samitdən sonra bir kiçik fasilə yaranır. Məs.: [tə't-ən-hæn] və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 320.

ПЕРЕХОДНОСТЬ - alm. Transitivität (f), ing. transitivity /ˌtrænsɪ'tɪvɪtɪ, ˌtrænzɪ'tɪvɪtɪ/, fr. transitivité, azərb. təsirlilik. – Vasitəsiz tamamlıq tələb edən fellərin qrammatik xüsusiyyəti. Məs.: alm. d. /lesen/ (oxumaq), /geben/ (vermək) və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 279.

ПЕРЕХОДНОСТЬ КОСВЕННАЯ – alm. indirekte Transitivität (f), ing. indirect transitivity /ɪndɪ'rekt ˌtrænsɪ'tɪvɪtɪ, ˌtrænzɪ'tɪvɪtɪ/, fr. transitivité indirecte, azərb. vasitəli təsirlilik. - Təsirsiz fellərin vasitəli tamamlığı idarə etməsi. Məs.: Azərb. d. /qorxmaq/ (kimdən, nədən), /baxmaq/ (kimə, nəyə); ing. d. /to wait for somebody/; alm. d. /warten auf jemanden/ (kimisə gözləmək) və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 279.

ПЕРЕХОДНОСТЬ ПРЯМАЯ – alm. direkte Transitivität (f), ing. direct transitivity /drekt/daɪ'rekt ˌtrænsɪ'tɪvɪtɪ, ˌtrænzɪ'tɪvɪtɪ/, fr. transitivité directe, azərb. vasitəsiz təsirlik. - Təsirli fellərlə ifadə edilən təsirlilik. Məs.: Azərb. d. /görmək/, /bilmək/, /tanımaq/ (kimi, nəyi).
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 279.

ПЕРЕХОДНЫЙ – alm. transitiv, ing. transitive /ˌtrænsɪtɪv, ˌtrænzɪtɪv/, fr. transitif, azərb. təsirli. - Təsirlilik kateqoriyası ifadə edən, təsirli olan. Məs.: Azərb. d. /bilmək/ (nəyi), /görmək/ (kimi).
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 279.

ПЕРЕХОДНЫЙ ЗВУК – Übergangslaut (m), Gleitlaut (m), ing. glide, transitive sound /glaɪd, trænsɪtɪv, trænzɪtɪv 'saʊnd/, fr. phonème de transition, azərb. ara, keçid səs. – Danışıq prosesində bir səsin tələffüzündən digərinə keçərkən yaranan yarımçıq, natamam (keyfiyyətcə bütöv olmayan) səs. Alman alimi E.Sivers (1850-1932) səslərin tələffüzünü tədqiq edərkən onların iki növünü fərqləndirir: dayaq (Stellungslaute) və keçid (Übergangslaute). Lakin sonrakı tədqiqatlar göstərdi ki, danışıq aktında bu cür səsləri fərqləndirmək əsassızdır. Əslində danışıq prosesində söhbət koartikulyasiyadan gedə bilər, yəni danışıq aktında səslər bir-birinə qarışır və onların qarşılıqlı təsiri o qədər güclü olur ki, onlardan birini digərindən ayırmaq qeyri-mümkündür.
E.Sievers. Grundzüge der Phonetik. Berlin, 1901; P.Menzerath und A. de Lacerda. Koartikulation, Steuerung und Lautabgrenzung. Bonn-Berlin, 1934; Ф.Я.Вейсалов. Вариативность гласных фонем в современном немецком языке (теоретические проблемы и экспериментальные данные). ДД., Л., 1980.


ПЕРЕЧИСЛИТЕЛЬНАЯ ИНТОНАЦИЯ - alm. weiterweisende (aufzählende) Intonation (f), ing. enumerative intonation /ɪ'nju:mərətɪv ɪntə'neɪʃən/, fr. intonation énumérée, azərb. sadalayıcı intonasiya. - Sadalama zamanı istifadə olunan, bitməmiş (yekunlaşmamış) intonasiya növü. Bu intonasiya növünü dilçilikdə proqrediyent intonasiya da adlandırırlar. Məs.: Azərb. d. /Dəstə düşərgəyə çatdı/, uşaqlar çadırları qurmağa/, odun yığmağa/, axşama tədarük görməyə/, öz əşyalarını sahmanlamağa başladılar//; rus d. /Лес рубят/, щепки летят//. Burada tabelilik əlaqəsi var, ancaq /Лес рубят/, щепки летят// cümləsi tabeli budaq cümləsi olarsa, onda burada tabelilik əlaqəsi ifadə olunacaqdır.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

ПЕРЕЧИСЛИТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ – alm. aufzählender Satz (m), ing. enumerative sentence /ɪ'nju:mərətɪv 'sentəns/, fr. phase enumérée, azərb. sadalayıcı cümlə. - Sıralanmış həmcins cümlələrdən ibarət bağlayıcısız və ya bağlayıcılı mürəkkəb cümlə. Məs.: Azərb. d. /Hava soyuq idi. Günəş buludların arxasından qorxa-qorxa boylanırdı.

Zəif əsən şimal küləyi qoz ağacının saralmış yarpaqlarını sanki qoparmağa çalışırdı// (tabesiz), ancaq /Yağış yağdı, külək yatdı// (tabeli).
P.H.Matthews. Göstərilən əsəri, s. 337.

ПЕРИОД - alm. Periode (f), ing. period /'pɪərɪəd/, fr. période, azərb. dövr. – 1) Tam, bitkin və tarazlaşdırılmış tərzdə qoşulan, nisbətən kiçik hissələri özündə birləşdirən mürəkkəb sintaktik bütöv; 2) Səs tellərinin sükunət nöqtəsindən başlayaraq hərəkət etməsi, ən yüksək səviyyəyə qalxaraq yenidən əvvəlki vəziyyətə qayıtması bir dövr adlanır.

Məs.:



W. Admoni. Der deutsche Sprachbau. München, 1982, s. 52, 61; F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

ПЕРИОД АКЦЕНТНЫЙ - alm. Akzentperiode (f), ing. stress group /stres gru:p/, accent period /'æksənt 'pɪərɪəd / fr. période accent, azərb. aksent dövrü. – Bir vurğu ilə deyilən mürəkkəb sintaktik vahid. Məs.: Azərb. d. /Səhərin gözü yenicə açılmışdı ki, .../.
O.C.Ахманова. Göstərilən əsəri, s. 321.

ПЕРИОДИЧЕСКИЙ – alm. periodisch, ing. periodic(al) /ˌpɪərɪ'ɒdɪk(əl)/, fr. périodique, azərb. dövri, periodik. – Mütəmadi olaraq eyni ritmik qəlibdə təkrarlanan tərkiblər, sintaqmlar. Məs.: Azərb. d. /Yaxşı bizi yaman günə saldılar// (M.Şəhriyar).
Bax: Синтагма →.

ПЕРИСПОМЕН – alm. Perispomenon (n), ing. perispomenon /pɛrɪ'spəʊmɪnən/, fr. périspomène, azərb. perispomen - Son hecası qalxıb-enən tonla deyilən söz. Məs.: /philo ◠/ (mən sevirəm).
O.C.Ахманова. Göstərilən əsəri, 321.

ПЕРИФЕРИЙНЫЙ ЯЗЫК - alm. peripherische Sprache (f), ing. peripheral language /pɛrɪ'fɪərɪəl/pə'rɪfərəl 'læŋgwɪʤ/, fr. langue régionale, périférique, azərb. periferik dil. - Erkən çağlardan öz dil qrupundan ayrılmış və başqa dillərlə əlaqədə olmaması nəticəsində fərdi dil qrupuna məxsus yabançı ünsürlərə, xüsusiyyətlərə malik olan dil. Əslindən, öz kökündən uzaqlaşmış dil. Məs.: XVIII əsrdə Almaniyanın Raynland Pfals əyalətindən köçüb Şimali Amerikada məskunlaşan 700 min adamın danışdığı german dillərindən biri olan pensilvaniya dili.
H.Bußmann. Göstərilən əsəri, s. 566.

ПЕРИФРАСТИЧЕСКИЙ - alm. periphrastisch, ing. periphrastic /ˌperɪ'fræstɪk/, fr. périphrastique, azərb. perifrastik. – Latın qrammatikasında iki və daha artıq ünsürlərdən ibarət olan tərkib, eyni mənanın nisbətən geniş tərzdə verilməsi. Məs.: Azərb. d. /Danışan dillər din-

məz oldu// «susdu» əvəzinə; alm. d. /Mozart/ əvəzinə /Komponist der Zauberflöte/ (Cadugər fleytanın bəstəkarı).
H.Bußmann. Göstərilən əsəri, s. 569.

ПЕРЛОКУЦИЯ – alm. Perlokution (f), ing. perlocutionary /pə:lə'kju:ʃənərı/, fr. perlocution, azərb. danışıqla tamamlanan hərəkət. – Danışıq aktı nəzəriyyəsində danışıq hərəkətinin bir hissəsi, danışanın öz söyləmələrilə bilərəkdən nəzərə çarpdırmaq istədiyi səbəb faktorları. İllokutiv aktın başa çatması ilə dinləyicidə səbəb təsiri yaratmaq. Məs.: Azərb. d. /kimisə inandırmaq, mat qoymaq, sakitləşdirmək/ və s.
H.Bußmann. Göstərilən əsəri, s. 570.

ПЕРМАНСИВ - alm. Permansiv (n), ing. permansive /pə'mənsıv/, fr. permansif, azərb. permansiv. – 1) Semit dillərində hərəkətin daimiliyini göstərən tərz; 2) Hazırkı vəziyyəti əvvələr icra olunmuş hərəkətin nəticəsi kimi təsvir edən kateqorial hal forması. Məs.: Azərb. d. /Qoca dərədən lal axan sulara baxmaqdan doymurdu//.
O.C.Ахманова. Göstərilən əsəri, 321.

ПЕРМИССИВ – alm. Permissiv (n), ing. permissive /pə'mısıv/, fr. permissif, azərb. permissıv- Lütf, iltifat ifadə etmək üçün vasitəli formanın işlədilməsi. Məs.: Azərb. d. /İcazə verin, Sizi evə dəvət edim//.
O.C.Ахманова. Göstərilən əsəri, s. 321.

ПЕРМСКИЕ ЯЗЫКИ – alm. Perm-Sprachen (Pl.), ing. Perm languages /'pə:m læŋgwıʤız/, fr. langues permiennes, azərb. perm dilləri. – Finuqor dilləri ailəsinə aid dillər. Komi-zıryan, komi-permyak və udmurt dilləri perm dillərinə daxildirlər. Bu dillər əsasən Komi, Udmurt, Komizıryan vilayətlərində yayılmışdır. Perm dillərinin fonoloji sistemləri 7 sait və 26 samit fonemdən ibarətdir. Morfoloji sistemləri də eyni tiplidir: udmurt dilində 15, komi-zıryan dilində 16, komi-permyak dilində isə 17 hal forması mövcuddur. Bu hallardan 14–ü perm dillərinin hamısı üçün ümumidir.
В.И.Лытkин, Т.И.Теплящина. Пермские языки. «Основы финно-угорских языков». М., 1976.

ПЕРМУТАЦИЯ - alm. Permutation (f), ing. permutation /pə:mjʊ'teıʃən/, fr. permutation, azərb. permutasiya. – 1) Danışıqda ünsürlərin bir-birini qarşılıqlı tərzdə əvəz etməsi, ünsürlərin qarşılıqlı sintaqmatik əvəzetmələri. Məs.: Azərb. d. /Axşam mən idmana gedəcəyəm//, /Mən idmana axşam gedəcəyəm// və s; 2) Generativ transformasional qrammatikada iki mərhələli mürəkkəb formal əməliyyat. Bu zaman bir element silinir və başqa bir yerə əlavə edilir. Məs.: alm. d. /Der alte Mann/ → /er/ və s.
H.Bußmann. Göstərilən əsəri, s. 570.

ПЕРСИДСКИЙ ЯЗЫК – alm. Persisch (n), ing. Persian language /'pə:ʒən,- 'pə:ʃən 'læŋgwıʤ/, fr. le persan, langue persane, azərb. fars dili. – İranda ən çox yayılmış dillərdən biridir. Əsasən İran İslam-

Respublikasında, həmçinin Əfqanıstan, Pakistan, İraq və Hindisitan ərazisində yayılmışdır və təqribən 22 milyondan yuxarı daşıyıcısı vardır. Fonoloji sistemi 6 sait-monoftonq, 2 diftonq və 22 samit fonemdən təşkil olunmuşdur. Fars dilində fellər şəxs, zaman, növ və şəkillərə malikdirlər. Bu dildə bütün fellər vahid təsriflənmə tipinə malikdirlər və quruluşca sadə və mürəkkəbə bölünürlər. Tamamlığın xüsusi göstəricisi vardır. Cümlə daxilində söz sırası MTX-dır.

Ю.А.Рубинчик. Современный персидский язык. М., 1960.

ПЕРСОНАЛИЗАЦИЯ – alm. Personifizierung (f), ing. personification /pəˌsɒnɪfɪ'keɪʃən/, fr. personnification, azərb. canlandırma, şəxsləndirmə. - Cansız əşyalara canlılara xas olan xüsusiyyətlərin (nitq qabiliyyəti, canlı bəşərə xas olan ünsiyyətə girə bilmək xüsusiyyəti) aid edilməsi. Məs.: Azərb. d. /Yarpaqlar pıçıldaşır//, /Külək ulayır//, /Gedirəm, əl edir boz biçənəklər// (M.Araz) və s.

O.C.Ахманова. Göstərilən əsəri, s. 322.

ПЕРТИНЕНТНЫЙ – alm. pertinent, ing. pertinent /'pɜ:tɪnənt/, relevant /'relɪvənt/, fr. pertinent,-e azərb. pertinent. - Dil vahidlərini fərqləndirməyə xidmət edən. Relevantlığın eyni. Müəyyən dildə dil vahidlərinin intellektual mənalarını fərqləndirə bilən səs qarşılaşmaları (fonoloji, distinktiv, relevant). Məs.: Azərb. d. /ot/–/it/, /don/–/din/ qarşılaşmaları. Bax: Релевантный →.

ПЕРФЕКТ - alm. Perfekt (um) (n), ing. perfect /'pɜ:fɪkt/pə'fɛkt/, fr. parfait, azərb. perfekt (tamamlanmış indiki zaman). - Hind-Avropa dillərində danışıq məqamına qədər baş vermiş, lakin nəticəsi indiki zamanda da özünü göstərən zaman forması. Alm. və ing. d. mürəkkəb zaman formasıdır. Alm. d. /hat/ist+Partisip II/ (Verb) ilə düzəlir. Məs.: /Sie hat im Sommer Examen gemacht, nun wartet sie auf eine Antwort// (O, yayda imtahan verib, indi nəticəsini gözləyir). Mürəkkəb cümlələrdə baş cümlədə prezens olmaqla budaq cümlədə işlənərək nisbi zaman mənasını bildirir. Məs.: /Er sagte, /er sei krank gewesen/ (O, deyir ki, xəstə olub). Baş cümlədə perfekt işlənəndə isə o eyni zamanlılıq ifadə edir.

W. Admoni.. Göstərilən əsəri, s. 185.

ПЕРФЕКТИВАЦИЯ – alm. Perfektivierung (f), ing. perfectivation /pə'fektɪveɪʃən/, fr. perfectivation, azərb. perfektləşmə. - Eyni feli əsasdan bitmiş zaman formasının düzəldilməsi, slavyan dillərində müntəzəm olaraq ön şəkilçilərinin artırılması ilə düzəldilir. Məs.: rus d. /читать – прочитать - зачитать//.

O.C.Ахманова. Göstərilən əsəri, s. 322.

ПЕРФЕКТИВНЫЙ - alm. perfektiv, ing. perfective /pə'fektɪv/, fr. perfaictif, azərb. perfektiv. – Felin bitmiş növü. Məs.: Azərb. d. /Uşaq səylə dərslərinə hazırlaşdı/.

O.C.Ахманова. Göstərilən əsəri, s. 322.


ПЕРФЕКТНОЕ ЗНАЧЕНИЕ - alm. perfektive Bedeutung (f), ing. perfective meaning /pə'fektıv 'mi:nıŋ/, fr. sens perfectif, azərb. - perfekt məna - İş və hərəkətin bitdiyini, sona çatdığını, hüdudunu göstərən fel. Məs.: Azərb. d. /Qış bitdi//, /Yaz gəldi//, /Qonaqlar gəlib çıxdı// və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 322.

ПЕРФЕКТНОЕ ПРИЧАСТИЕ – alm. perfektives Partizip (n), ing. perfect participle /pə'fekt ˌpɑ:tısıpəl/, fr. participe perfectif, azərb. keçmiş zaman feli sifəti. – Danışıq məqamından əvvəl icra olunmuş iş və hərəkət mənası daşıyan feli sifət. Məs.: azərb. d. /Bunlar çoxdan həll olunmuş məsələlərdir//.
O.C.Ахманова. Göstərilən əsəri, s. 322.

ПЕРФОРМАНС – alm. Performanz (n), ing. performance /pə'fɔ:məns/, fr. performance, azərb. dilin tətbiqi (performans). – N.Xomskinin dil nəzəriyyəsində ideal dil daşıyıcısının (danışan/eşidən) dil bilgisi, səriştəsi əsasında dilin konkret təzahürü. Bu termin F. de Sössürün «parole» anlayışı ilə müəyyən mənada üst-üstə düşür.
F.Yadigar (Veysəlli). GDG., s. 173.

ПЕРФОРМАТИВНОЕ ВЫСКАЗЫВАНИЕ – alm. performative Aüßerung (f), ing. performative utterances /pə'fɔ:mətıv 'ʌtərəns/, fr. énoncé performatif, azərb. performativ söyləm. – Danışıq aktı nəzəriyyəsində müəyyən hərəkətlərin tamamlandığını bildirən söyləmlərin adı. Bunlar nəyisə təsvir edən və ya təsdiq edən söyləmlərə qarşı qoyulur. Sonralar bu iki söyləm tipləri lokusion və illokusion aspektlər kimi göstərildi. Eyni zamanda implisit və eksplisit performativ söyləmləri fərqləndirilir. Məs.: Azərb. d. /Sən yanılırsan// implisit söyləmini eksplisit formada belə deyərik /Mən inandırıram (təsdiq edirəm) ki, sən yanılırsan//. Eksplisit söyləmdə /bununla/, /beləliklə/ və s. kimi leksik illokusion indikatorlar çıxış edir.
Дж.Л.Остин. Перформативы-констативы. Философия языка. M., 2004, s. 23-35.

ПЕРФОРМАТИВНЫЙ АНАЛИЗ – alm. performative Analyse (f), ing. performative analysis /pə'fɔ:mətıv ə'næləsıs/, fr. analyse performative, azərb. performativ təhlil. – Nəqli cümlələri müşahidə edərək yalnız matriks cümləsi kimi bir performativ cümlədən ibarət olan (bu da mübtədadan ⇐I şəxs + performativ fel + vasitəsiz tamamlıq ⇒ II şəxs) bunlar da silinmə qaydası ilə uzaqlaşdırıla bilər, cümlə kimi alt qatdakı strukturdan düzəltmək olar.



H.Bußmann. Göstərilən əsəri, s. 568.

ПЕРФОРМАТИВНАЯ АНТИНОМИЯ - alm. performative Antinomie (f), ing. performative antinomy /pə'fɔ:mətɪv æn'tɪnəmɪ,-anti'nəʊmɪ/, fr. antinomie performative, azərb. performativ antinomiya, ziddiyyət. – Ziddiyyətli xoşbəxtlik şərtləri əsasında baş tutmayan danışıq aktı. Məs.: Azərb. d. /Siz bu tələblərə əməl etməyin!//. Bu «tələblərə» danışıq aktında vurğulanan əsas məsələdirsə, onda onun baş tutmaması fikri vurğulanır.

H.Bußmann. Göstərilən əsəri, s. 569.

ПЕРФОРМАТИВНЫЕ ГЛАГОЛЫ – alm. performative Verben (Pl.), ing. performative verb /pə'fɔ:mətɪv vɜ:b/, fr. verbes performatifs, azərb. performativ fellər. – /Vəd vermək/, /əmr vermək/, /xaç suyuna salmaq/ kimi semantik-paradiqmatik fellər ekspressiv-perfomativ söyləmlərdə hərəkətin baş tutmasını bildirirlər. /Şər atmaq/, /dilə tutmaq/, /ruhdan salmaq/ kimi fellər isə perlokutiv fellərdir. Onları fərqləndirmək üçün (bununla, beləliklə) kimi sözlərdən istifadə olunur.

H.Bußmann. Göstərilən əsəri, s. 569.

ПЕРЦЕПТИВНАЯ ФУНКЦИЯ - alm. perzeptive Funktion (f), ing. perceptive function /pə'septɪv fʌŋkʃən/, fr. fonction perceptive, azərb. dərketmə funksiyası. - Danışıq səslərini dərketmə funksiyası, dil vahidlərinin dərk edilməsi funksiyası.

Bax: Моторная теория ←.

ПИДЖИН-ИНГЛИШ – alm. Pidgin-Englisch (n), ing. Pidgin English (languages) /ˌpɪdʒɪn 'ɪŋglɪʃ,'læŋgwɪdʒɪz/, fr. Pidgin-english, azərb. pidgin-inqliş. – İngilis /buisiness/ (biznes, iş, ticarət) sözünün təlaffüz variantın-


dan əmələ gəldiyi ehtimal olunur. Ünsiyyət prosesində ehtiyacdan doğan qarışılıqlı dil. Fərqli dillərdə danışanların qarşılıqlı anlaşma əldə olunması üçün öz ana dillərindəki strukturları və sözləri sadələşdirərək işlətmələri. Bu cür ünsiyyətdən tədricən funksional qarışıq dil yaranır. Adətən bu qarışmada aparıcı dillər üstünlük təşkil edir. Linqvistik baxımdan bu söz ehtiyatının sadələşməsi, təsvir və metaforiyaya meyllik deməkdir.

Bax: Креольский язык ←.


ПИКТОГРАММА - alm. Piktogramm (n), ing. pictogram /ˈpɪktəgræm/ ˈpɪktə(ʊ)grəm/, fr. pictogramme, azərb. piktoqram. - 1. Piktoqram termini latın dilindəki «pictum» (çəkilmiş) və yunan dilindəki «grafo» (yazıram) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Piktoqramlar predmet və gerçək təzahürləri əyani şəkildə əks etdirən sxematik təsvirlərdən ibarət yazı növüdür. Uçaq limanlarında, olimpiada oyunlarında və s. geniş tətbiq olunur.

Bax: Идеография ←.


ПИКТОГРАФИЯ - alm. Piktographie (f), ing. pictography /ˈpɪkˈtɒgrəfɪ/, fr. pictographie, azərb. piktoqrafiya. - Piktoqrafiyada hər bir şəkil real, müstəqil məna bildirir ki, bu cəhət həmin yazı növünün əsas xüsusiyyətidir. Piktoqrafiya fikri şəkillərlə ifadə etmək üçündür. Piktoqrafik yazılarda informasiyanın məzmunu sözlü dilə istinad etmədən verilir. Buna misal Azərbaycanda Qobustan qayaüstü şəkillərini, Alyaska eskimoslarının istifadə etdikləri yazı sistemlərini göstərmək olar.



Eskimosun uğurlu ov haqqında piktoqrafik hekayəsi



Hindu tayfalarının Birləşmiş Ştatların Konqresinə müraciəti



Nsibidi piktoqramları

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 216.

ПИКТСКИЙ ЯЗЫК – alm. Piktisch (n), ing. Pict language /pɪkt ˈlæŋgwɪʤ/, fr. langue picte, azərb. pikt dili. - Şimali Şotlandiyada (Kalendoliya və Şotland adalarında) məskunlaşmış tayfaların dilinin şərti adı.

K.Jakobson. The Pictish language. «The problem of the Picts». New York, 1956.

ПИЛИПИНО - alm. Pilipino (n), ing. Pilipino /pılı'pi:nəʊ,ˌpılə'pi:nəʊ/, fr. pilipino, azərb. pilipino. – Əsasən Filippin arxipelaqının bəzi adalarında yaylımışdır. 13 milyondan yuxarı əhali bu dildə danışır. 1973-cü ildə Filippin Respublikasında ingilis dililə bərabər rəsmi dövlət dili elan olunmuşdur. Manil, bataan, palanan, bulakan, batanqas və s. dialektlərə bölünür. Fonoloji sistemi 5 sait və 16 samit fonemdən təşkil olunmuşdur. Sintaktik baxımdan passiv konstruksiyalar aktiv konstruksiyalara nisbətən üstünlük təşkil edir. Cümlə daxilində söz sırası mühüm əhəmiyyət daşımır.
М.Крус, Л.И.Шкарбан. Тагальский язык. М., 1966.

ПИСЬМЕННОСТЬ - alm. Schrift (f), ing. writing /'raıtıŋ/, fr. écriture, azərb. yazı. - 1. Danışığı yazıda əks etdirmək üçün istifadə edilən qrafik işarələr sistemi; 2. Hər hansı bir əsrə və ya xalqa məxsus olan yazılı abidələrin məcmusu. İnsan dili ta qədimdən şifahi formada mövcud olub. İlk yazı nümunələri 7000 ilə yaxın tarixə malikdir. Özü də müxtəlif yazı materialları kimi ağacdan, sümükdən, palma yarpaqlarından, dəridən, kağızdan, tekstildən və s. istifadə olunub. Təlim məqsədilə mum çəkilmiş lövhəni ilk dəfə ertusklar tətbiq etmişlər. Bununla bağlı H.Haarman yazır: «Həmçinin etrusklar da qurğuşun lövhələrdən yazı vasitəsi kimi istifadə edirdilər; özü də qızıldan düzəlmiş əşyalarda etrusk dilində müxtəlif yazılar (təxminən xristianlıqdan 5000 il öncə) pirgidən qızıl məşhur yazı məlumdur». Əslində yazı heç vaxt sırf texniki məsələ olmayıb. O təkcə informasiyanın saxlanılması vasitəsi deyil, eyni zamanda görmə yaradıcılığının və estetik dəyərlərin daşıyıcısıdır.

Toxuculuq materiallarından xalça üzərində ən böyük mətn 1100-cü ildə Fransanın şimalında Bayö (Bayeux) şəhərində normanların 1066-cı ildə İngiltərəyə çıxmasını və bununla da hazırlıqları əks etdirən mətndir. Xalçaya toxunulmuş mətn ayrı-ayrı səhnələri əks etdirən şəkillərə verilmiş həsirlərdən ibarətdir. Məs.: latınca yazılıb «hic exeunt saballi» (burada atlar gəmidən götürülüb aparılır)».

Yazı texnologiyası həmişə cəmiyyətin siyasi elitasının və peşəkar yazarlarının nəzarəti altında olub. Yazı müəyyən xərc tələb etdiyindən o, cəmiyyətin imkanlı adamları ilə məhdudlaşıb. Yalnız kitab çapı bu işin geniş yayılmasına səbəb oldu. Maarifçilik dövründə oxumaq və öyrənmək istəyi informasiya axınını genişləndirdi. Məktəblər isə yazını bir qrup adamın inhisarından çıxarmaqda misilsiz rol oynadı.

Yazı düz xətt boyunca düzülmüş olanda o, sırf fonetik prinsipə əsaslanır. Dilin hər bir foneminin yazıda öz işarəsi – qrafemi olur. Belə yazı ideal sayıla bilər. Belə olduqda yazı texnikasını sadələşdirmiş oluruq. Amhar yazısında 182 ayrıca simvol var. Özü də hər samitin 7 yazılış variantı var. Bu isə son dərəcə çətinlik yaradan bir yazıdır. O yerdə ki, minimal fonoloji dəyərlər işarələrdən çoxdur, onda ya calaq prinsipindən, ya şriftlərdən, ya da diakritik işarələrdən istifadə olunur. Məs.: bizim hazırki əlifbamızda dilimizin /ə/ saitini göstərən işarə yoxdur. Biz

latın qrafikasına qayıdanda təklif edirdik ki, qrafikada simmetriyanı gözləmək üçün /a/-nın üstündə iki nöqtə bizim /ə/ saitini asanlıqla ifadə edə bilər. Bunun əvəzində isə biz latın əlifbasında olmayan işarə götürməli olduq. Bu da calaq əlifbaya bir nümunədir.
F.Y.Veysəlli. SDƏ. s. 64-85; Haarman. Weltgeschichte der Spachen München, 2006.

ПИСЬМЕННЫЙ - alm. schriftlich, ing. written /'rıtn/, fr. écrit, graphique, azərb. yazılı. - Yazıya aid olan, yazı vasitəsilə ifadə edilən.
F.Y.Veysəlli. SDƏ. s. 64-85.

ПИСЬМЕННАЯ РЕЧЬ – alm. schriftliche Rede (f), ing. written speech /'rıtn spːtʃ/, fr. discours écrit, azərb. yazılı nitq. - Yazıda əks etdirilən, yazılı formada olan dil.
Bax: Письменный ←.

ПИСЬМЕННЫЙ ЯЗЫК – alm. schriftliche Sprache (f), ing. written language /'rıtn 'læŋgwıʤ/, fr. langue écrite, azərb. yazılı dil. - Yazıya, yazılı ənənəyə malik olan dil. Yazılı dil üçün səciyyəvi olan söz və ifadələrin işlədilməsi xüsusiyyətinə malik olan yazı növü.
Azərbaycanda az bir müddətdə 3 dəfə əlifba dəyişikliyi baş verdi: I – 1922-yə qədər, 1922-dən 1933-ə və 1939-a qədər; II – 1940-1958 və 1958-1992 və III- 1992-ci ildən indiyə kimi.
F.Y.Veysəlli. SDƏ. s. 80.

ПИСЬМО - alm. Schreiben (n), ing. writing /'raıtıŋ/, fr. écriture, azərb. yazı. - Gözlə görünən (vizual) qrafik işarələr sisteminin köməyilə səsli (şifahi) dilə nisbətdə yardımçı olan ünsiyyət vasitəsi. Yazı bir ünsiyyət vasitəsi kimi dilin zaman və məkanca təsir dairəsinin genişlənməsinə imkan yaratmışdır.
F.Y.Veysəlli. SDƏ. s. 64-85.

ПИСЬМО АКРОФОНИЧЕСКОЕ – alm. akrophonisches Schreiben (n), ing. acrophonetic writing /'əkrɒfəu'netık 'raıtıŋ/, fr. écriture acrophonique, azərb. akrofonik yazı. - Sözlərin başlanğıc səslərini təsvir edən hərflərdən tərtib olunmuş yazı.
A.A.Реформатский. Göstərilən əsəri, s. 347-385.

ПЛАВНЫЙ - alm. Liquida (f), ing. liquid /'lıkwıd/, fr. liquide, azərb. süzülən. - /l/ sonor samiti. /l/ samitinin tələffüzü zamanı dilin yanları üst azı dişlərin yuvaqlarına (alveol) doğru qalxır. Üst yan dişlərlə dilin yanları arasında əmələ gəlmiş novdan hava axını süzülərək bayıra çıxır ki, bu zaman /l/ səsi yaranır. Məhz buna görə də /l/-nı əmələ gəlmə üsuluna görə süzülən səs adlandırırlar. Bu səsin tələffüzündə səs telləri mütəmadi olaraq titrəyir. Bunun nəticəsidir ki, ton küyə üstün gəlir. Dodaqlar tədricən yana çəkilir, dilçək yuxarı qalxıb burun boşluğunun ağzını tutur.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 105.

ПЛАВНЫЙ СОГЛАСНЫЙ – alm. Liquidkonsonant (m), ing. consonant liquid /'kɒnsənənt 'lıkwıd/, fr. consonne liquide, azərb. süzlən samit. - Bu samit çex dilində heca nüvəsini təşkil edir. Məs.: /vḷk/ (canavar). Alm. d. isə vurğusuz hecalarda [ə] zəif saitinin düşməsilə heca nüvəsi funksiyasını öz üzərinə götürür. Məs.: alm. d. /ta:fəl/ → /ta:fḷ/ (lövhə) və s. Bu dildə həmin samit hər yerdə yumşaq, Azərb. d. isə qalın samitlərlə qonşuluqda qalın, incə samitlərlə qonşuluqda isə incə tələffüz olunur. Müq. et: alm. d. /alt/ (qoca), /balt/ (tezliklə), /'bilt/ (şəkil); Azərb. d. /l→al→/, /←l'ə'←l/. Müasir rus d. isə sərt /l/ və yumşaq /l'/ fonoloji qarşılaşma əmələ gətirir. Məs.: /рол'/, /сол'/, ancaq /болт/ və s.
Bax: Плавный ←.

ПЛАН I (УРОВЕНЬ) - alm. Niveau (n), ing. level /'levəl/, fr. niveau, taux, azərb. plan. – Dilin vahidləri yuxarı səviyyədən (yəni cümlədən) aşağı səviyyənin vahidlərinə: sintaqm, leksem, morfem və fonemə doğru ardıcıl üzvlənməsilə (seqmentasiya) məşğul olan elmi tədqiqat növü.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 216.

ПЛАН II – alm. Plan (m), ing. level /'levəl/level, plane /plæn/, fr. plan, azərb. plan. - Dil sistemini ikili baxımdan araşdıran üsul, baxış. Məs.: Danimarka qlossematikasında ifadə planı və məzmun planı.
Bax: План I ←.

ПЛАН III – alm. Standpunkt (m), ing. . level /'levəl/, plane /plæn/, fr. plan, azərb. nöqteyi-nəzər. - Dil sistemində işarələrin iki tərəfindən biri: işarələyən və işarələnən.
Bax: План I ←.


ПЛАН АССОЦИАТИВНЫЙ – alm. assoziativer Plan (m), ing. associative level, plan /ə'səuʃıətıv 'levəl/plæn/, fr. plan associatif, azərb. assosiativ plan. - Dil vahidlərinin bir-birilə qarşılaşma əlaqəsi, realizə olunmuş vahidin mücərrəd (abstrakt) vahidlərlə qarşılaşması. Məs.: Azərb. d. /Duz qida məhsuludur// cümləsində /duz/-u bu cümlədə iştirak etməyən, dilin leksik fondunda onunla bir klassda duran /düyü/, /un/, /istiot/ və s. leksemlərlə qarşılaşmada olması. Ona görə də onların hər biri /duz/ sözünün yerində işlənə bilər.
Bax: План I ←.

ПЛАН ЛОГИКО-ГРАММАТИЧЕСКИЙ – alm. logisch-grammatischer Plan (m), ing. logical-grammatical level (plane) /'lɒʤıkəl-grə'mætıkəl 'levəl/plæn/, fr. plan logique-grammatical, azərb. məntiqi-qrammatik plan. - İfadə olunan fikrin məntiqi və qrammatik qurluşunun gerçəkliyə uyğunluğu və həmin dilin qrammatik qaydaları əsasında tərtib olunması.
Bax: План I ←.

ПЛАСТ - alm. Schicht (f), ing. leve /'leıə/, layer /'leıə/, fr. couche, azərb. lay. – Dil strukturunun bir layı, səviyyəsi. Məs.: fonoloji, morfoloji və s. R.Conrad. Göstərilən əsəri, s. 69.

ПЛАСТ ЛЕКСИКО-СТИЛИСТИЧЕСКИЙ - alm. lexikalisch-stilistische Schicht (f), ing. lexical-stylistic subsystem /leksıkəl staı'lıstık 'sʌb'sıstım/, fr. couche lexico-stilistique, azərb. leksik-üslubi lay. - Dilin lüğət tərkibində öz üslubi xüsusiyyətləri ilə seçilən, fərqlənən sözlər. О.С.Ахманова. Göstərilən əsəri, s. 325.

ПЛЕКСУС – alm. Plexus (m), ing. plexus /'pleksəs/, fr. plexus, azərb. pleksus. – L.Tenyerin asılılıq qrammatikasında sintaktik proses. Məs.: Azərb. d. /Cəmil və Lətafət oxuyur və rəqs edirlər//.



Burada bir bütöv daxilində sintaktik əlaqələr kəsişib.
H.Bußmann. Göstərilən əsəri, s. 589.

ПЛЕМЕННОЕ НАРЕЧИЕ - alm. Stammdialekt (m), ing. tribal dialect /'traıbəl daıəlekt/, fr. dialecte de tribu, azərb. tayfa ləhcəsi. – Etnik azlıqların ləhcəsi, tayfa dialekti.
О.С.Ахманова. Göstərilən əsəri, s. 325.

ПЛЕОНАЗМ - alm. Pleonasmus (m), ing. pleonasm /'plıənæzəm/, fr. pléonasme, azərb. pleonazm. – Deyilən sözə və ya ifadəyə əlavə edilən, xidmət edən ritorik fiqur. Məs.: Azərb. d. /Mən onu gördüm, öz gözlərimlə//. Bəzən bu semantik reduntantlıq kimi taftologiya təsiri bağışlayır. Məs.: Azərb. d. /qadın kimi qadın/ və s.
О.С.Ахманова. Gösçtərilən əsəri, s. 325.

ПЛЕРЕМА - alm. Plerem (n), ing. plereme /'plıəri:m/, fr. plereme, azərb. plerem. – 1. Qlossematikada məzmun səviyyəsinin ən kiçik vahidi olub, fonoloji əlamətlərlə birgə (kenemlərlə ←) qlossem kimi təsnif olunur. Pleremlər komponent təhlilin semantik əlamətlərinə uyğun gəlir; 2. Morfemin eyni. Belədə pleremi monem, onun məzmununu isə semem kimi dəyərləndirirlər.
H.Bußmann. Göstərilən əsəri, s. 589.

ПЛЕРЕМАТИКА - alm. Plerematik (f), ing. plerematics /'plıəri:mætıks/, fr. plerematique, azərb. plerematika. – Qlossematikada dilin məzmun planını öyrənən bölmə. Dilçilikdə son dövrlərdə morfologiyanın sinonimi kimi götürülür.
H.Bußmann. Göstərilən əsəri, s. 589.

ПЛОЗИЯ - alm. Plosion (f), ing. plosion /'pləʊʒən/, fr. plosion, azərb. ploziya. – Kipləşən-partlayışlı samitlərin tələffüz məxrəci. Burada əvvəlcə kipləşmə, sonra isə hava axınının təzyiqi nəticəsində kipləşmə partlayışa keçir. Məs.: Azərb. d. /k/, /p/, /t/ və s.
F.Veysəlli. SDƏ. s. 127-129.

ПЛОСКОЩЕЛЕВОЙ – alm. Rundengelaut (m), ing. slit fricative /slɪt 'frɪkətɪv/, fr., azərb. yastınovlu. - Tələffüzü zamanı geniş yastı nov əmələ gəlməsi nəticəsində yaranan novlu samit. Məs.: /ʃ/.
A.A.Реформатский. Göstərilən əsəri, s. 173-176.

ПЛЮРАЛИА ТАНТУМ – alm. Pluraliatantum (n), ing. Plurale tantum /plʊˌreɪlɪ 'tantəm/, fr. pluralia tantum, azərb. plüralia tantum. – Yalnız cəm formasında işlənən isimlər. Məs.: alm. d. /Geschwister/ (bacı-qardaş), zamanın bir hissəsi, bayramlar və s. Məs.: /Ostern/ (Pasxa bayramı), insan davranışı /Ränke/ (incitmək). Coğrafi adlar /Alpen/ (Alp dağları) və s.
R.Conrad. Göstərilən əsəri, s. 203.

ПЛЮСКВАМПЕРФЕКТ – alm. Plusquamperfekt (n), ing. Plusquamperfect /'plʌskwam 'pə:fɪkt/, past perfect /pɑ:st'pə:fɪkt/ fr. plus-que-parfait, azərb. tam bitmiş (pluskvamperfekt). - Alman dilində keçmiş zaman forması, war/hatte köməkçi feli və əsas felin partisip II ilə düzəlir. Sadə cümlədə hərəkətin bitməsinin son həddini bildirir. Məs.: alm. d. /Der Sportler hatte sein Ziel endlich erreicht// (İdmançı son məqsədinə nail oldu).- Mürəkkəb cümlələrdə isə nisbi zaman bildirir. Keçmişdə baş verən hərəkətə münasibətdə irəli zamanlılığı ifadə edir. Məs.: alm. d. /Als wir ihn endlich erreichten/ war der Bus schon abgefahren// (Biz, nəhayət, ona çatanda avtobus artıq yola düşmüşdü).
R.Conrad. Göstərilən əsəri, s. 203.

ПОБОЧНОЕ ЗНАЧЕНИЕ - alm. Nebenbedeutung (f), ing. accessory meaning /'ək'sesərɪ mi:nɪŋ/, fr. sens accessorie, azərb. əlavə məna. - Əsas (nominativ) mənaya əlavə edilən məna. Məs.: Azərb. d. /qızmar günəş altında/ ifadəsinin əsas mənası /isti/, əlavə mənası isə /həddindən artıq isti/ deməkdir.
Bax: Значение ←.


ПОБОЧНОЕ УДАРЕНИЕ – alm. Nebenbetonung (f), ing. accessory stress /'ək'sesərɪ stres/, fr. accent accessoire, azərb. əlavə vurğu. - Əsasən çoxhecalı mürəkkəb sözlərdə əsas vurğuyla bərabər fəaliyyət göstərən vurğu. Əlavə vurğu əsas vurğuya nisbətən zəif olması ilə səciyyələnir. Məs.: Azərb. d. /dəmiryolçu/ sözündə birinci komponentin ikinci hecası əlavə vurğu daşıyır.
F.Vejsalov (Veysəlli). Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 194.

ПОБОЧНЫЕ ВАРИАНТЫ – alm. Nebenvarianten (Pl.), ing. subsidiary variant /səb'sıdıərı 'veərıənt/, fr. variantes accessoires (harmonique), azərb. əlavə (yardımçı) variantlar. - Əsas variantdan başqa bütün variantlar. L.V.Şerba məktəbinə görə, bütün variantlar bərabərhüquqludur. Ancaq statistik mənada variantlardan biri daha çox işlək olduğundan, habelə müstəqil işlənə bildiyi üçün onu əsas variant adlandıra bilərik.

Bax: Вариант ←.

ПОБОЧНЫЙ СЛОГ – alm. Nebensilbe (f), ing. weakly stressed syllable /'wi:klı stresd 'sıləbl/, accessory syllable /'ək'sesərı 'sıləbl/ fr. syllabe accessoires (harmonique), azərb. əlavə heca. - Əlavə vurğu daşıyan heca.

ПОБОЧНЫЙ ТОН – alm. Oberton (m), Nebenton (m), ing. obertone /'əuvətəun/, fr. ton harmonique, azərb. yüksək ton. - Daha yüksək ton, səs tellərinin bütövlükdə titrəməsindən əsas ton, ayrı-ayrı hissələrinin titrəməsidən isə yüksək ton alınır.



Səs tellərinin bir neçə yerə bölünməsi bir o qədər də yüksək ton olması deməkdir. Məs.: şərti olaraq iki yerə bölünmüş səs tellərinin bütövlükdə titrəməsi 200 hs-dirsə, onun ½-nin titrəməi 2 dəfə, yəni 400 hs, ¼-nin titrəməsi isə 4 dəfə, yəni 800 hs və s. olacaqdır.

F.Vejsalov (Veysəlli). Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 194.

ПОБУДИТЕЛЬНЫЙ – alm. anregend, ing. hortatory /'hɔ:tət(ə)rı/, hortative /'hɔ:tətıv/ stimulating /'stımjʊleıtıŋ/, fr. moteur, azərb. sövqedici, vadaredici, təhrikedici. - Danışanın müəyyən bir işin icrasına təkid, təklif, xahiş, məsləhət, nəsihət və çağrışı ilə ifadə olunan cümlələr. Belə cümlələrdə ifadə olunan fikir intonasiya, bəzən də fellərin mənası ilə müəyyən edilir. Əmr cümlələrinin qrammatik tərtib vasitələri əsasən bunlardır: əmr intonasiyası; əmr formasında çıxış edən xəbər, məsdər, şərt forması və vacib forması əmr intonasiyası ilə birləşərək cümləyə əmr çalarlığı verən xüsusi ədatlar (hissəciklər). Məs.: Azərb. d. /Diqqət!/, /Azad!/; ing. d. /Attantion!/; alm. d. /Achtung!/; rus d. /Внимание! Внимание!/.

A.Axundov. Azərbaycan dilinin fonetikası. Bakı, 1984, s. 302-310.

ПОБУДИТЕЛЬНАЯ ИНТОНАЦИЯ – alm. imperative Intonation (f), ing. imperative intonation /ım'perətıv ˌıntə'neıʃən/, fr. intonation motif, azərb. əmr intonasiyası. - Əmr cümlələrinin reallaşdığı intonasiya konturu. Əslində dilin intonasiya sistemində əmr cümləsinin ayrıca

intonasiya qəlibi yoxdur. Bu cümlələrdə bir qayda olaraq terminal intonasiya konturu reallaşır.
Bax: Побудительный ←.

ПОВЕЛИТЕЛЬНЫЙ – alm. Heischeform (f), ing. imperative form /ɪm'perətɪv fɔ:m/, fr. impérieux, impératif, azərb. əmr forması. – Dinləyicini qəti tərzdə işin icrasına təhrik edən. Məs.: Azərb. d. /Əllər yuxarı!//, /İrəli!/ Yoldaşlar/ yalnız irəli!//.
Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, s. 231-232.

ПОВЕСТВОВАНИЕ АВТОРСКОЕ – alm. Autorenrede (f), ing. author's speech /'ɔ:θə's spi:tʃ/, fr. narration d'auteur, récit, azərb. müəllifin nəqli. - Müəllifin öz dili ilə nəql etdiyi parçalar.
Məs.: F.Veysəlli «Fonetika və fonologiya məsələləri» (Bakı, 1993, s. 5) əsərinə ön sözdə oxucularına müraciət edərək yazır: «Açığını deyim ki, çoxdan başımda bir fikir dolanırdı ki, elə bir kitab yazılsın ki, burada doğma dilimizin fonetik qurumu aydın və anlaşıqlı bir dildə şərh olunsun. Yalnız belə olduqda bu elm özünə çoxlu tərəfdar tapar...»//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 176.

ПОВЕСТВОВАТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ – alm. Aussagesatz (m), ing. declarative sentənce /dɪ'klærətɪv 'sentəns/, narrative sentence /'nærətɪv 'sentəns/, clause of statement /klɔ:z əv 'seɪtmənt/, fr. proposition narrative, azərb. nəqli cümlə. - Müəyyən bir işin icrası haqqında verilən məlumatın qrammatik tərzi. Bu məlumat təsdiq və ya inkar formasında ola bilər. Nəqli cümlələrdə fərqləndirici əlamət onların bitkinlik (terminal) intonasiyası ilə deyilməsidir. Alm. d. nəqli cümlələrində xəbərin dəyişən hissəsi ikinci yerdə, Azərb. d. isə sonda gəlir. Rus d. isə söz sırası nisbətən sərbəstdir. Məs.: alm. d. /Draußen ist es kalt// (Bayırda soyuqdur); Azərb. d. /Xöşbəxtliyi əyilərək qazanmaq, mənliyi itirmək deməkdir// (Əflatun); rus d. /Я читаю книгу//.
Ф.Я.Вейсалов. Завершающая интонация в современном немецком языке. КД., Л., 1970.

ПОВТОР – alm. Verdoppelung (f), Reduplikation (f), ing. repetition /ˌrepɪ'tɪʃən/, reduplication /rɪˌdju:plɪ'keɪʃən/, fr. redoublement, azərb. təkrar. – 1) Kökün, əsasın və ya bütöv bir sözün səs tərkibinin dəyişdirilmədən (bəzən cüzi dəyişikliklərlə) tam və ya qismən təkrarlanması nəticəsində yeni sözlərin və frazeoloji vahidlərin yaranması. Məs.: Malayziya dilində təkrar cəm formasına xidmət edir. Müq. et: /orange/ (adam), /orange orange/ (adamlar); ing. d. /ping-pong/ (stolüstü tennis), /sing-song/ (monoton səslənmə); fr. d. /chari-vari/ (pişiklərin oynaşması); Azərb. d. /kitab-mitab/; 2) Mənanın gücləndirilməsi üçün səslərin, sözlərin və ifadələrin məlum ardıcıllıqla təkrarından ibarət danışıq fiquru. Məs.: Azərb. d. /top-top/, /tez-tez/, /addım-addım/; rus d. /вот-вот/, /еле-еле/ və s.
А.А.Реформатский. Göstərilən əsəri, s. 287-289.

ПОГЛОЩЕНИЕ – alm. Absorption (f), ing. absorption /əb'sɔ:pʃən/, fr. absorption, azərb. səs udulması. – Klassik fonetikada qonşu səslərin təsiri nəticəsində digər səsin düşməsi. Məs.: alm. d. /'Li:bn 'heiß't "le:bn/ >vnt 'le:bn heiß't >li:bn// (Sevmək yaşamaqdır, yaşamaq isə sevmək).
O.C.Ахманова. Göstərilən əsəri, s. 328.

ПОГОВОРКА – alm. Redewendung (f), Idiom (n), ing. saying /'seiŋ/, fr. proverbe, dicton, azərb. məsəl (zərbi-məsəl). - Atalar sözlərindən fərqli olaraq, qrammatik bitkinliyi olmayan, ancaq intonasiya ilə fikrin tamlığını ifadə edən obrazlı, məcazi ifadə. Məs.: Azərb. d. /Nə ətdir/, nə balıq//, /Nə əldən qoyur/, nə yardan doyur//; alm. d. //Jemanden auf die Palme bringen// (kimisə əsəbləşdirmək).
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 162.

ПОГРАНИЧНЫЕ СИГНАЛЫ – alm. Grenzsignale (Pl.), ing. signales border marks /'sıgnəlıs 'bɔ:də mɑ:ks/, fr. signaux des frontières, azərb. sərhəd siqnalları. - Sintaqmatik cərgədə (sırada) dil vahidlərini bir-birindən ayıran (sərhədləyən) vasitə. Azərb. d. bunu sözlərin son hecasına düşən vurğu həyata keçirir, çünki Azərbaycan türkcəsində vurğu həmişə axırıncı hecanın üzərinə düşür. Məs.: /ata'm/, /atamda'n/, /Atamda'n məktu'b aldı'm/ cümləsində üç sözün olması onların söz sərhəddini müəyyənləşdirməyə əsas verir. Alm. d. bu funksiyanı «knaklaut» yerinə yetirir. /Ich erinnere mich an dich// (mən səni xatırlayıram); ing. d. bunu morfem sərhədi yerinə yetirir. Məs.: /an aim/ (məqsəd), ancaq /a name/ (ad) və s.
N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Ön söz» və «Qeydlər» prof. F.Yadigarındır (Veysəlli). Bakı, 2001.

ПОДВИЖНОЕ УДАРЕНИЕ – alm. bewegliche Betonung (f), ing. movable stress /'mu:vəbəl stres/, mobile /'məʊbaıl/, fr. accent mobile, azərb. mütəhərrik, hərəki vurğu. – Sözün yalnız bir hecası və ya bir morfemilə bağlı olmayan, yəni sözdə yerini dəyişən vurğu. Vurğunun bu növü rus dili üçün daha səciyyəvidir. Məs.: alm. d. /me· lo· 'di:/, /me· 'lo: diʃ/, /la·bo·'rant/, /la·´bo: R /; rus d. /рука'/, /р'ука/ və s.
F.Vejsalov (Veysälli). Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 194-205.

ПОДВИЖНОСТЬ – alm. Beweglichkeit (f), ing. mobility /məʊ'bılıtı/, motion /'məʊʃən/, fr. mobilité, motion, azərb. hərəkətlilik, mütəhərriklik. - Müəyyən bir dildə kişi cinsinə məxsus olan isimlərdən qadın cinsinin düzəldilməsindən ibarət olan morfemlərin mövcudluğu. Məs.: fr. d. /prince-princesse/; Azərb. d. /Rəfiq-Rəfiqə/, /Adil-Adilə/; alm. d. /Lehrer-Lehrerin/ (müəllim-müəllimə); ing. d. bu analitik yolla düzəlir. Məs.: /girl-friend/ (qız dost), /boy friend/ (oğlan dost) və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 329.

ПОДГОВОР – alm. Unterdialekt (m), ing. subdialect /sʌb'daɪəlekt/, fr. accent, azərb. ləhcə, yarımdialekt. - Hər hansı bir dialektin tərkibinə daxil olan şivələrdən biri. Bu şivələrin, yarımdialektlərin məcmusu müəyyən bir dialekti əmələ gətirir.
O.C.Ахманова. Göstərilən əsəri, s. 329.

ПОДГРУППА – alm. Untergruppe (f), ing. sub-group /'sʌbgru:p/, fr. sous-groupe, azərb. yarımqrup. - Dil qruplarının parçalanmasından doğan kiçik qruplar. Məs.: hind-Avropa dilləri ailəsində german dilləri qrupunda alman dili yarımqrupu.
F.Yadigar (Veysəlli). GDG.

ПОДДЕРЖИВАЕМЫЙ СОГЛАСНЫЙ – alm. gestützter Konsonant (m), ing. supported consonant /sə'pɔ:tɪd 'kɒnsənənt/, fr. consonne appuyée, azərb. davamlı samit. - Digər samitlərlə birləşmədə onun davamlılığını daha da artıran, yəni daha az fonetik dəyişmələrə məruz qalan samit. Məs.: rus d. /t/ samiti /st/ birləşməsində. Müq. et: /'stol/ , /stʌlo'vʌjъ/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 329.

ПОДЛЕЖАЩЕЕ – alm. Subjekt (n), ing. subject /sʌbʤɪkt/, fr. sujet, azərb. mübtəda. – Cümlələrin xəbəri tərəfindən müəyyən olunan, qrammatik cəhətdən cümlənin digər üzvlərindən asılı olmayan və cüttərkibli cümlənin baş üzvü funksiyasında çıxış edən, nominativ dillərdə adlıq halda işlənən söz, bir qayda olaraq, cümlənin əvvəlində gəlib, hər cür şəxs, əşya, hadisə, iş və keyfiyyət haqqında ümumiləşmiş anlayış ifadə edir. Mübtəda isimlə bərabər əvəzlik, substantivləşən sifət, feli sifət, məsdər, say, təyini və sabit söz birləşmələri ilə də ifadə olunur. Mübtəda tamamlıq konstruksiyalarından fərqli olaraq, cümlənin xəbərilə şəxsə, cinsə və kəmiyyətə görə uzlaşır. Məs.: rus d. /Я читаю/, /Я читал/, /Она читала/, /Мы читали/. Dildə bəzən mübtədanın xəbərlə kəmiyyətə görə uzlaşması pozulur. Bu, mübtədanın cansız əşyaları və heyvanları bildirən sözlərlə ifadə olunduqda müşahidə edilir. Məs.: Azərb. d. /Atlar, öküzlər kotana güc vurur/ gah yeriyir, gah yıxılır, gah durur//. Onun semantik funksiyası cümlədə ifadə olunan iş, hal və hərəkətin icraçısı, aqensi olmasıdır. Passiv konstruksiyalarda mübtəda tamamlıq rolunda çıxış edir. Ona görə də belə hallarda qrammatik mübtəda formal olaraq bilavasitə iş görənlə (agenslə) üst-üstə düşməyir. Məs.: alm. d. /Er schreibt einen Brief// (O məktub yazır), /Der Brief wird von ihm geschrieben// (Məktub onun tərəfindən yazılır).
H.Bußmann. Göstərilən əsəri, s. 748.

ПОДЛЕЖАЩЕЕ ВЫРАЖЕННОЕ – alm. ausgedrücktes Subjekt (n), ing. overt subject /'əʊvə:t 'sʌbʤɪkt/, fr. sujet exprimé, azərb. ifadə olunan mübtəda. - Məs.: Azərb. d. /Sən danışırsan// cümləsində mübtəda

«sən» əvəzliyilə ifadə olunub. Ancaq /sözdür də danışırsan// cümləsində mübtəda ayrılıqda ifadə olunmayıb, o, feldə şəxs sonluğu ilə ifadə olunub.
H.Bußmann. Göstərilən əsəri, s. 748.

ПОДЛЕЖАЩЕЕ ГРАММАТИЧЕСКОЕ – alm. grammatisches Subjekt (n), ing. grammatical subject /grə'mætıkəl 'sʌbʤıkt/, fr. sujet grammatical, azərb. qrammatik mübtəda. – Alm. və ing. d. qeyri-müəyyən «es» və «man» əvəzlikləri cümlənin qrammatik mübtədası rolunda çıxış edirlər. Məs.: ing. d. /It rains// (yağır); alm. d. /Es regnet// (yağır), /Man baut ein neues Haus// (Təzə bir ev tikirlər) və s.
R.Conrad. Göstərilən əsəri, s. 257.

ПОДЛЕЖАЩЕЕ ЗНАМЕНАТЕЛЬНОЕ – alm. selbständiges Subjekt (n), ing. of full meaning subject /ɔv fʊl mın:ıŋ 'sʌbʤıkt/, autonomous subject /ɔ:'tɒnəməs sʌbʤıkt/, fr. sujet significatif, azərb. müstəqil mübtəda. – Məs.: Azərb. d. /Müəllim yazır/ şagirdlər isə kitab oxuyurdular// cümləsində «müəllim» və «şagirdlər» müstəqil mübtədalardır.
H.Bußmann. Göstərilən əsəri, s. 748.

ПОДЛЕЖАЩЕЕ ЛОГИЧЕСКОЕ – alm. logisches Subjekt (n), ing. logical subject /lɒʤıkəl sʌbʤıkt/, fr. sujet logique, azərb məntiqi mübtəda. - Hərəkətin icraçısının qrammatik mübtəda rolunda çıxış etməsi. Məs.: Azərb. d. /Az sonra hərbi geyimli və əli silahlı bir gənc otağa daxil oldu// cümləsində /hərbi geyimli/ və /əli silahlı bir gənc/ məntiqi mübtədadır. Ancaq alm. d. /Es gefält mir// (xoşuma gəlir); rus d. /Мне холодно// (mənə soyuqdur) cümlələrində formal mübtəda aqens ilə üst-üstə düşmür.
R.Conrad. Göstərilən əsəri, s. 237.

ПОДЛЕЖАЩЕЕ МЕСТОИМЕННОЕ – alm. pronominales Subjekt (n), ing. pronominal subject /prəʊ'nɒmınəl 'sʌbʤıkt/, fr. sujet pronominal, azərb. əvəzliklə ifadə olunmuş mübtəda. - Məs.: Azərb. d. /Siz həmişə dərslərdə eyni məsələlərdən danışırsınız//.
Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, s. 243-245.

ПОДЛЕЖАЩЕЕ РЕАЛЬНОЕ – alm. reales Subjekt (n), ing. real subject /rıəl 'sʌbʤıkt/, fr. sujet actuel (réel), azərb. real mübtəda. – Söyləmdə işin icraçısına (aqensə) işarə edən və qrammatik göstəricisi olmayan söz. Məs.: rus d. təbiət hadisələri. Müq. et: /Темнеет/, /Светает/ və s. Belə hallarda xəbər 3-cü şəxsin təkində gəlir. Azərb. d. isə bu adətən 2-ci şəxsdə olur, idiom və frazemlərdə işlənir. Məs.: /Nə tökərsən aşına/ o da çıxar qaşığına// və s.
Л.Р.Зиндер, Т.В.Строева. Современный русский язык. М., 1957, s. 243-245.

ПОДЛЕЖАЩЕЕ СЛИТНОЕ – alm. zusammengezogenes Subjekt (n), ing. fused subject /fju:zd 'sʌbʤıkt/, fr. sujet liée, azərb. bitişik mübtəda.

– Xəbər və xəbərlər qarşısında iki və daha artıq mübtədanın işlənməsi. Məs.: Azərb. d. /Kağızlar və sənədlər sahibinə vaxtında çatdırıldı//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 173.

ПОДЛЕЖАЩЕГО ГРУППА – alm. Subjektgruppe (f), ing. group of the subject /gru:p əv ðə ˈsʌbʤɪkt/, fr. groupe de sujet, azərb. mübtəda qrupu. - Mübtədadan və ondan asılı olan ikinci dərəcəli cümlə üzvlərindən ibarət sintaktik vahid. Məs.: Azərb. d. /Qoca ev sahibəsi qapını açıb, onları içəri buraxdı//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 173.

ПОДЛЕЖАЩНОЕ ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ – alm. Subjektsatz (m), ing. The subject subordinate clause /ðə ˈsʌbʤɪkt səˈbɔ:dɪnɪt klɔ:z/, fr. proposition subordonnée de sujet, azərb. mübtəda budaq cümləsi. – Alm. d. /dass/, /ob/, /wer/, /wie/; Azərb. d. isə /ki/, /kim/, /necə/ və s. bağlayıcılarla baş cümləyə bağlanır. Məs.: Azərb. d. /Aydın oldu ki, Cəmil və onun qrupu lüğət hazırlaya bilmir//; alm. d. /Dabei wurde es klar, dass Dshämil und seine Gruppe kein Wörterbuch zusammenstellen können//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 173.

ПОДНАРЕЧИЕ – alm. Untermundart (f), ing. subdialect /sʌbˈdaɪəlekt/, fr. patois, dialecte, azərb. şivə. - Dialektin parçalanmasının dərəcəsi, dialekt və ləhcə arasında duran.
О.С.Ахманова. Göstərilən əsəri, s. 330.

ПОДРОД НЕОДУШЕВЛЁННЫЙ – alm. leblose Unterart (f), ing. inanimate sub-gender /ɪnˈænɪmeɪt sʌbʤendə/, fr. sous-genre inanimé, azərb. cansız əşyalrı bildirən isimlər qrupu. - Slavyan dillərində cansız əşyaları bildirən isimlərin leksik-qrammatik səciyyəsi.
О.С.Ахманова. Göstərilən əsəri, s. 330.

ПОДРОД ОДУШЕВЛЁННЫЙ – alm. Lebewesenunterart (f), ing. animate sub-gender /ænɪmeɪt sʌbʤendə/, fr. sous-genre animé, azərb. canlı əşyaları bildirən isimlər qrupu. - Slavyan dillərində canlı varlıqları təsvir edən isimlərin leksik-qrammatik səciyyəsi.
О.С.Ахманова. Göstərilən əsəri, s. 331.

ПОДСИСТЕМА – alm. Subsystem (n), ing. subsystem /sʌbˈsɪstɪm/, fr. sous-système, azərb. yarımsistem. - Dilin ümumi sisteminin qanunauyğun tərzdə təşkil olunmuş hissəsi. Məs.: Azərbaycan dilinin saitlər və samitlər yarımsistemi.
F.Veysəlli. SDƏ.

ПОДТЕКСТ – alm. impliziter Sinn (m), ing. covert /ˈkʌvət/, implied /ɪmˈplaɪd/, sense /sens/, implication /ˌɪmplɪˈkeɪʃən/, fr. non-dit, sous-texte, azərb. mətnaltı məna. - Mətndə daxili, fərz edilən, nəzərdə

tutulan, sözlə ifadə olunmayan, gizlənmiş məna. Məs.: Azərb. d. /Qarabağ, Qarabağı yağı düşmənlərdən ancaq onu sevənlər azad edəcək// Burada Qarabağı sevməyənlərə eyham nəzərə çarpılır.
O.C.Ахманова. Göstərilən əsəri, s. 331.

ПОДУДАРНОЕ ОКОНЧАНИЕ – alm. betonte Endung (f), ing. stressed ending /stresd ˈendɪŋ/, fr. terminaison accentuée, azərb. vurğulu şəkilçi. - Söz və ya söz formaları tərkibində üzərinə vurğu düşən şəkilçi. Məs.: alm d. /-ier, -ei, -ent, -ant/ və s. şəkilçiləri həmişə vurğu altında olur. Müq. et: /studieren/ (oxumaq), /Student/ (tələbə).
F.Vejsalov (Veysälli). Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 194-205.

ПОДЧИНЕНИЕ – alm. Unterordnung (f), Hypotaxe (f), ing. Hypotaxis /hɪpəˈtæksɪs/, subordination /səˌbɔ:dɪˈneɪʃən/ fr. subordination, hypotaxe, azərb. tabelilik. – Baş cümlə ilə budaq cümlə arasındakı əlaqə. Bu əlaqələr tabeli bağlayıcılarla və intonasiya ilə baş tutur. Məs.: Azərb. d. /çünki/, /ki/, /elə/, /belə ki/ və s. Dillərin əksəriyyətində əsasən baş cümlə əvvəldə, budaq cümlə isə sonda gəlir. Məs.: Azərb. d. /O dedi ki, xəstə olduğuna görə gəlməyəcək//; alm. d. /Er sagte, dass er nicht kommen wird//; rus d. /Он сказал, что не придет//.
H.Bußmann. Göstərilən əsəri, s. 318.

ПОДЧИНЕНИЕ ВЗАИМНОЕ – alm. reziproke, gegenseitige Subordination (f), ing. mutual subordination /ˈmju:tjʊəl/ˈmju:tʃʊəl səˌbɔ:dɪˈneɪʃən/, hypotaxis /hɪpəˈtæksɪs/, fr. subordination réciproque, azərb. qarşılıqlı tabeli. – Məs.: Azərb. d. /O oxuyur, çünki müğənnidir//; alm. d. /Er singt, weil er Sänger ist//.
H.Bußmann. Göstərilən əsəri, s. 748.

ПОДЧИНЕНИЕ КОСВЕННО-ВОПРОСИТЕЛЬНОЕ – alm. indirekt-interrogative Subordination (f), ing. indirect-interrogative subordination /ˌɪndɪˈrekt ˌɪntəˈrɒgətɪv səˌbɔ:dɪˈneɪʃ(ə)n/, fr. subordination interrogative indirecte, azərb. bilavasitə – sual tabeliliyi. – Əsasən prosodik vasitələrlə ifadə olunur. Məs.: Azərb. d. /Hə soruş, gələn kimdir, haradan gəlir// və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 331.

ПОДЧИНЕНИЕ НЕПОЛНОЕ – alm. unvollständige, nicht volle Subordination (f), ing. incomplete subordination (full) /ˌɪnkəmˈpli:t səˌbɔ:dɪˈneɪʃən /ful/, fr. subordination imparfaite, azərb. yarımçıq tabelilik. – Kompozitlərdə (mürəkkəb yanaşmalarda) təsadüf olunur. Məs.: azərb. d. /şair-yazıçı/, /dilçi-filoloq/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 331.

ПОДЧИНЕНИЕ ПОЛНОЕ – alm. volle Subordination (f), ing. full subordination /ful səˌbɔ:dɪˈneɪʃən/, fr. subordination compléte, azərb.

tam tabelilik. – Birləşmədə bir sözün digərindən tam asılı olması. Məs.: Azərb. d. /kəl arabası/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 331.

ПОДЧИНЁННЫЙ – alm. abhängig, ing. dependent /dı'pendənt/, subordinate /səbɔ:dıneıt/, fr. subordonné,-e, azərb. asılı, tabe.
Bax: Подчинение ←.

ПОДЧИНИТЕЛЬНЫЙ – alm. unterordnend, subordinierend, ing. subordinating /səbɔ:dıneıtıŋ/, fr. subordonnant, azərb. asılı, tabe.
Bax: Подчинение ←.

ПОДЪЁМ – alm. Hebung (f), ing. rising /'raızıŋ/, rise /raıs/, fr. hausse, essor, azərb. yüksəliş. - Saitin açıq və qapalılığını səciyyələndirən və onların dilin şaquli istiqamətdə hərəkətinə görə təsnifatının əsasını təşkil edən artikulyator əlamət.

1.Yuxarı yüksəlişli saitlər: alm. d. /i:, ɪ, y:, Y, u:, ʊ, o:/;
ing. d. /i:, ɪ, e:, ɛ, u:, ʊ/ ;
daç. d. / i:, ɪ, y:, ü/;
Azərb. d. /i, ü, æ/.

2. Orta yüksəlişli saitlər: alm. d. /e:, ɛ , ɛ , ø , œ, e/;
ing. d. /a, o, ɛ , ʌ /;
daç. d. /e:, ɛ , ɛ , ø , œ, ɔ:/;
Azərb. d. /e, ɵ, ı, u/.

3. Aşağı yüksəlişli saitlər: alm. d. //a:, a/;
ing. d. / æ, a/;
daç. d. /a, ɑ/;
Azərb. d. /a/.

Əslində bu təsnifatda yüksəlişi dəqiq müəyyənləşdirmək o qədər də asan deyil, çünki müəyyən fərddə və məqamda sait başqa yüksəlişə keçə bilər və ya çox yaxınlaşa bilər. Burada hər şey nisbi götürülür və dəqiq məlumdur ki, bu dillərin hər birində /i:/ ən yuxarıda, /a/ isə ən aşağıda əmələ gələn saitdir. O birilər bu iki sait arasında bir az yuxarı, bir az aşağı prinsipini nəzərə almaqla düzəlir. Yuxarı yüksəlişli saitlərdə dilin kürəyi öndən sərt damağa doğru qalxır, aşağı yüksəlişdə isə dil ağız boşluğunda neytral vəziyyətdə uzanıb qalır.
F.Yadigar (Veysəlli). GDG. s. 191.

ПОДЪЁМ ВЕРХНИЙ – alm. hohe Hebung (f), ing. high rise /haı 'raız/, fr. essor supérieur, azərb. yuxarı yüksəliş. – Dil kürəyinin ön hissəsinin yuxarı qalxması nəticəsində əmələ gələn qapalı saitlər. Məs.: Azərb. d. /i/, /ü/.
Bax: Подъем ←.

ПОДЪЁМ НЕВЕРХНИЙ – alm. nicht hohe Hebung (f), ing. non-high rise /ˈnɔn haɪ ˈraɪz/, fr. essor inférieur, azərb. aşağı yüksəliş.

Bax: Подъем ←.

ПОДЪЁМ НИЖНИЙ – alm. tiefe Hebung (f), ing. lower rise /ˈləʊə ˈraɪz/, fr. essor moyen, azərb. aşağı yüksəliş. – Tələffüz zamanı dilin ağız boşluğunda neytral vəziyyətdə uzanması zamanı əmələ gələn saitlər. Məs.: Azərb. d. /a/, /o/ saitləri.

Bax: Подъем ←.

ПОДЪЁМ СРЕДНИЙ – alm. mittlere Hebung (f), ing. middle rise /mɪdl ˈraɪz/, fressor neutre., azərb. orta yüksəliş. – Açıq saitlərlə müqayisədə dilin nisbətən yuxarı qalxması nəticəsində yaranan sait. Məs.: Azərb. d. /e/ saiti buna misal ola bilər.

Bax: Подъем ←.

ПОЗИЦИОННЫЙ – alm. positionsbedingt, ing. position /pəˈzɪʃən/, fr. de position, azərb. mövqedən asılı olan. – Əhatədən, mövqedən asılı olan, mövqe ilə şərtlənən. Məs.: Azərb. d. /t/ fonemi /u/, /ü/, /o/ və /ö/ dodaq saitlərindən əvvəl gəldikdə dodaqlanmaya məruz qalır. Bu çalarlığı transkripsiyada [t°] kimi göstərirlər.

F.Veysəlli. SDƏ. s. 143-149.

ПОЗИЦИОННОЕ ИЗМЕНЕНИЕ – alm. Positionsveränderung (f), -wandel (m), ing. Positional mobility /pəˈzɪʃənəl məʊˈbɪlɪtɪ/, position of changes /pəˈzɪʃən əv ʧeɪnʤɪz/, fr. modification de position, azərb. mövqe dəyişmələri. – Fonemlərin bilavasitə fonetik şəraitdən asılı olaraq dəyişməsi (qonşu fonemlərin təsiri, sözün əvvəlində, ortasında və ya sonunda gəlməsindən asılı olaraq dəyişməsi). Məs.: Azərb. d. söz sonunda cingiltili samitlər karlaşır, bu mövqedə samitlərin fərqləndirilməsi onların tələffüz gücünə əsaslanır. Müq. et: /od/ # /ot/ və s.

F.Veysəlli. SDƏ. s. 121-127.

ПОЗИЦИОННОЕ ЧЕРЕДОВАНИЕ – alm. Positionswechsel (m), ing. positional gradation, alternation /pəˈzɪʃənəl grəˈdeɪʃən/,ɔ:ltəˈneɪʃən/, fr. alternance de position, azərb. mövqe əvəzlənmələri. - Fonetik mövqedən asılı olan əvəzlənmələr. Fonetik əvəzlənmə fonemlərin danışıq aktında qarşılıqlı təsirindən və ya fonemlərin işlənmə mövqeyindən asılı olur. Məs.: Azərb. d. söz sonunda /n/ samitindən sonra /d/ samiti /t/ samiti ilə əvəzlənir. Müq. et: «kənd»-/kənt/; rus d. isə kar samitlərdən əvvəl cingiltili samitlər kar samitlərlə əvəzlənir. Müq. et: /з другом/, ancaq /с кАтом/, /xot/- /xoda/ və s.

F.Veysəlli. Alman dilinin fonetikası. Bakı, 1980, s. 118-127.

ПОЗИЦИЯ – alm. Stellung (f), Position (f), ing. position /pə'zɪʃən/, fr. position, azərb. mövqe. – Fonemin işlənmə şəraiti, canlı danışıqda realizə olunduğu fonetik şərait. Məs.: rus və alm. d. söz sonunda cingiltili samitlər karla əvəzlənir. Müq. et: «хлеба»-/хлеп/, «города»-/горот/; alm. d. «Bande»- /bant/ (cild) və s. Azərb. d. dodaq saitlərilə qonşuluqda samitlər dodaqlanır. Məs.: Azərb. d. /t°ü t°ün/.
Birinci halda söhbət fonem əvəzlənməsindən, ikinci halda isə allofon əvəzlənməsindən gedir.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 54-122.

ПОЗИЦИЯ МАКСИМАЛЬНОЙ ДИФФЕРЕНЦИАЦИИ – alm. Stellung der maximalen Unterscheidung (f), ing. position of maximum differentiation /pə'zɪʃən əv 'mæksɪməm ˌdɪfərenʃɪ'eɪʃən/, fr. position de la différentiation maximale, azərb. maksimum fərqləndirici mövqe. – Dildə fonemlərin maksimum fərqləndiyi mövqe. Məs.: rus d. vurğulu mövqedə fonemlərin maksimum fərqlənməsi müşahidə olunur. Rus d. vurğulu mövqedə 6 sait fonem fərqləndirilir. Azərb. d. isə maksimum fərqlənmə samitlər üçün vurğulu saitdən əvvəlki mövqe, saitlər üçün isə vurğulu mövqe hesab olunur.
F.Veysəlli. SDƏ.

ПОЗИЦИЯ НЕЙТРАЛИЗАЦИИ – alm. Aufhebungsstellung (f), ing. position of neutralization /pə'zɪʃən əv ˌnju:trəlaɪ'zeɪʃən/, fr. position de neutralisation, azərb. neytrallaşma mövqeyi. - Dil haqqında olan elmdə neytrallaşma müəyyən şəraitlərdə bu və ya digər qarşılaşmanın işlədilməməsi, «aradan qalxması» kimi başa düşülür.

N.S.Trubeskoy və onun ardıcılları bu kimi halları zəif mövqedə müəyyən əlamətə görə qarşılaşmanın neytrallaşması adlandırırlar. Neytrallaşma mövqeyində reallaşan səsi N.S.Trubeskoy arxifonem, Moskva fonoloji məktəbi isə hiperfonem adlandırır. L.V.Şerba məktəbinin nümayəndələri isə belə hallarda fonem əvəzlənmələrindən danışırlar. Məs.: /t'a:k/ (gün)- /'ta:gə/ (günlər), /'za:qən/ (demək) - /z'a:kt/ (o dedi) və s.
Ю.С.Маслов. Введение в языкознание. М., 1987, s. 59; N.S.Trubeskoy. Göstərilən əsəri, s. 99; F.Yadigar (Veysəlli). GDG. s. 252.
Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Ön söz» və «Qeydlər» prof. F.Yadigarındır (Veysəlli).

ПОЗИЦИЯ РЕЛЕВАНТНОСТИ – alm. Relevanzstellung (f), ing. position of relevance /pə'zɪʃən əv rɪ'lɪvəns/, fr. position de pertinence, azərb. relevant mövqe. – Müəyyən fonoloji qarşılaşmanın baş verdiyi (təzahür etdiyi) mövqe.
Bax: Позиция максимальной дифференциации ←.

ПОЗИЦИЯ СЛАБАЯ – alm. schwache Position (f), ing. weak position /'wi:k pə'zɪʃən/, fr. position faible, azərb. zəif mövqe. – Moskva fonoloji məktəbinə görə, fonemin öz fərqləndirici funksiyalarını icra etməsi üçün qeyri-münbit şərait. Məs.: rus d. «сома» /cʌма/ - «сама» /cʌма/. Moskva fonoloji məktəbinin görkəmli nümayəndəsi A.A.Reformatski (1900-1978) fonemin mövqe ilə bağlı məna fərqləndirmək xüsusiyyətini əsas götürərək güclü və zəif mövqelər fərqləndirir (əslində bunu bütün fonoloqlar qeyd edirlər. Məs.: L.V.Şerba mövqedən asılı olmayan səsi tipik (əsas) variant, daha doğrusu, fonemin özü adlandırırdı –F.V). Saitlər vurğulu vəziyyətdə, samitlər isə vurğulu saitlər qarşısında güclü mövqedə çıxış edirlər. Özü də bunlar həm dərketmə (perseptiv), həm də məna fərqləndirmə (siqnifikativ) cəhətdən güclü və zəif olur:

a) perseptiv güclü mövqedə fonem öz əsas cildində çıxış edir, mövqedən asılı olmur. Məs.: /mal/-/mil/ sözlərində guya söz başında samitin sonunda gələn saitin keyfiyyətinə elə bir təsiri yoxdur. Saitlər vurğulu vəziyyətdə, samitlər isə vurğulu saitlər qarşısında güclü mövqedə çıxış edirlər. Bunun üçün A.A.Reformatski eliminasiya metodundan istifadə edir: /al/ - /il/. Deməli, /a/ və /i/ ayrılıqda fonemdirlər;

b) perseptiv zəif mövqedə fonem morfemdən asılı olur, ona görə də, çalarlıq və ya variasiya şəklində çıxış edir. Məs.: /mal/ – /mıl/. Anlautdakı samitləri atmaqla guya biz rus dilində olmayan /æ/ və /i/ saitlərini yaradırıq ki, bunlar da müvafiq olaraq /a/ və /i/ sait fonemlərinin variasiyalarıdır. Buradan da /i/ saitinin ayrılıqda fonem olmaması ideyası guya təsdiqlənir. Əvvəla, L.A.Verbiskayanın tədqiqatları sübut etdi ki, rus dili daşıyıcıları real olaraq 6 deyil, 18 sait variantı (etalon) fərqləndirirlər: [a], ['a], [a'], ['a']; [o], [o'], ['o], ['o']; [u], [ʉ], [u'], ['u']; [e], [e'], ['e], ['e']; [i], [ɪ]. İkincisi, eliminasiya saitin və samitin olub-olmamasını deyil, sözün olub-olmamasını müəyyənləşdirə bilər. Üçüncüsü, fonem tərkibinin müəyyənləşdirilməsində bütün söz ehtiyatı təhlilə cəlb edilməli, istisnalar olmamalıdır. Dördüncüsü, bu metod fonemin danışıq aktından ayrılmasında mexaniki qarşılaşma metodundan başqa bir şey deyildir;

c) siqnifikativ güclü mövqedə fonem fərqlənməklə bərabər, həm də məna fərqləndirir. Məs.: rus d. /mat/ - /mat'/;

ç) siqnifikativ zəif mövqedə isə sait və samit eyni səsləndikləri üçün nə fərqlənir, nə də fərqləndirir.

Beləliklə, fonem qarşılaşması neytrallaşır (Müq. et: N.S.Trubeskoyun korrelativ qarşılaşma üzvlərinin neytrallaşaraq «arxifonem» kimi çıxış etməsi fikrini) və s; söz sonunda kar və cingiltili samitlər keyfiyyətcə üst-üstə düşür, yəni karlaşırlar. Müq. et: rus d. /лук/ «лук» – /луг бы/. Oppozisiya üzvlərinin üçüncü bir səsdə realizə olunması da mümkündür. /a/ və /o/ perseptiv və siqnifikativ güclü mövqedə müstəqil fonemlər kimi çıxış edirlər. Məs.: rus d. /там/ - /том/. Amma söz əvvəlində və ilk vurğusuz mövqedə [ʌ], ikinci vurğusuz mövqedə [ъ], üçüncü vurğusuz və

vurğudan sonrakı mövqelərdə də [ь] kimi tələffüz olunur. Məs.: rus d. /вʌда/, /въдʌвос/, /въдъной/, amma /ръзгъвʌръвʌй/ və s.
Л.А.Вербицкая. Русская орфоэпия. Л., 1976; А.А.Реформатский. Göstərilən əsəri.; Л.Р.Зиндер. Общая фонетика. М. 1979; F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ПОКАЗАТЕЛЬ – alm. Merkmal (n), ing. marker /ma:kə/, fr. indice, azərb. göstərici (əlamət). - Müəyyən kateqorial mənsubiyyətin açıq ifadəsi.
О.С.Ахманова. Göstərilən əsəri, s. 333.

ПОКАЗАТЕЛЬ КЛАССНЫЙ – alm. Klassenaffix (n), ing. class-formative /klɑ:s ˈfɔ:mətɪv/, class-indicator /klɑ:s-ˈɪndɪkeɪtə/, classifier /ˈklæsɪfaɪə(r)/, fr. classificateur, azərb. klass, sinif göstəricisi. – Məs.: alm. d. /heit/, /igkeit/, /schaft/, /ung/ şəkilçiləri qadın cinsli isimlərin göstəricisidir.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 139.

ПОКАЗАТЕЛЬ НУЛЕВОЙ – alm. Nullbezeichnung (f), ing. zero marker /ˈzɪərəʊ ˈmɑ:kə/, fr. nul indice (coefficient, zero), azərb. sıfır göstərici. – Söz və söz formalarında sinfi (qrupa) göstəricilərinin (affikslərin) olmaması. Məs.: rus d. /бел #/, /бело/, /бела/, /белы/. Əslində bu misallarda sıfır morfem göstəricisi həmin sözün kişi cinsinə məxsus olduğunu göstərir və digər morfem göstəricilərinə qarşı qoyulur.
Bax: Морфема нулевая ←.

ПОЛЕ – alm. Feld (n), ing. field /fi:ld/, fr. champ, azərb. sahə. – 1) İnsan həyatının və insan təcrübəsinin müəyyən sahəsi ilə əlaqədar dil vahidlərinin (sözlərin, ifadələrin) qarşılaşması; 2) Dildə konkret faktların öyrənilməsi üçün metodik yanaşma. Məs.: hər hansı bir dialektin struktur xüsusiyyətləri sahə tədqiqatları sahəsində mümkün olur. Müəyyən informantlardan müsahibə götürülüb lentə yazılır və transkripsiya edilərək tədqiq olunur.
О.С.Ахманова. Göstərilən əsəri, s. 334.

ПОЛЕ АССОЦИАТИВНОЕ – alm. semantisches Feld (n), ing. semantic field /ˈsɪmæntɪk fi:ld/, fr. champ d'association, azərb. assosiativ sahə. – Müəyyən söz və ya ifadələrlə bu və ya digər formada bağlı olan assosiativ əlaqələrin məcmusu.
О.С.Ахманова. Göstərilən əsəri, s. 334.

ПОЛИНЕЗИЙСКИЕ ЯЗЫКИ – alm. polynesische Sprachen (Pl.), ing. Polynesian languages /ˌpɒlɪˈni:zjən ˈlæŋgwɪʤɪz/, fr. langues polynésiennes, azərb. polinez dilləri. – Polineziyada (əsasən yerli əhalinin dili), Melaneziya və Mikroneziyada yayılmışdır. 880 minə qədər əhali bu dillərdə danışır. Samoa, tuvalu, futuna, atollı, nukuria, pileni, anuta və s. polinez dillərinə aiddir. Fonoloji sistemi 5 sait və 13 samit fonemdən təşkil olunmuşdur. Qrammatk cəhətdən analitik dillərdən hesab olunur.
Крупа В. Полинезийские языки. М., 1975.

ПОЛИПТОТ – alm. Polyptoton (Pl.), ing. polyptoton /ˈpɒlɪptətəʊn/, fr. polyptoton, azərb. poliptot (ritorik fiqur). – Eyni cümlə daxilində bu və ya digər sözün müxtəlif hallarda işlədilməsi. Məs.: Azərb. d. /İnsan insana dost və qardaşdır//; alm. d. /die Welt ist tief und tiefer als der Tag gedacht hat// (Nietsche), /Dünya dərindir və günün düşündüyündən də dərin//.
О.С.Ахманова. Göstərilən əsəri, s. 334.

ПОЛИСЕМАЗИЯ – alm. Polysemasie (f), ing. Polysemasi /pɒlɪsɪ(:)məsɪ/, fr. polysémasie, azərb. polisemaziya. – Flektiv dillərdə morfemlərin bir neçə məna komponentinin olması. Məs.: alm. d. /sprang/ (tullantı), /springen/ (tullanmaq) felindəndir, felin 3-cü şəxsin təki, preteritum, xəbər şəklini bildirir .
О.С.Ахманова. Göstərilən əsəri, s. 334.

ПОЛИСЕМИЯ – alm. Polysemie (f), ing. polysemia /ˈpɒlɪsɪ(:)mɪə/, polysemy /pəˈlɪsɪmɪ/, fr. polysémie, azərb. çoxmənalılıq. - Bu və ya digər sözdə bir-birilə daxilən əlaqəli olan bir neçə mənanın mövcudluğu, çoxmənalılıq. Məs.: Azərb. d. /ayaq/ – (insanın ayağı), /masanın ayağı/; /burun/ – (insanın burnu), (gəminin burunu) (ön hissəsi) və s.

Çoxmənalılıqda söhbət adın və ya əlamətin başqa şeyə və ya hadisəyə keçməsindən gedir. Məs.: «gəminin burnu» «insan burununun»dan keçmədir. Burada söhbət həmişə eyni kökdən gedə bilər. Ancaq omonimlərdə müxtəlif mənalar etimoloji baxımdan müxtəlif köklərlə bağlıdır. Məs.: rus d. /брак/ (evlilik), ancaq /брак/ alm. d. /Brack/ sözündəndir və mənası «zay məhsul» deməkdir. Bəzən polisemiyanı omonimiyadan fərqləndirmək olmur.
H.Bußman. Göstərilən əsəri, s. 593.

ПОЛИСИЛЛАБ – alm. mehrsilbiges Wort (n), Polysyllabum (n), ing. polysyllable /ˌpɒlɪˈsɪləbəl/, fr. polysyllabe, azərb. çoxhecalı. - Tərkibində iki və daha artıq heca olan sözlər. Məs.: Azərb. d. /ba-la-ca-lar/, /quş-lar/ və s.
R.Conrad. Göstərilən əsəri, s. 204.

ПОЛИСИНДЕТОН – alm. Polysyndeton (m), ing. polysyndeton /pɒlɪˈsɪndɪtən/, fr. polysyndèton, azərb. polisindeton. – Bir neçə dəfə təkrar edilən ritorik fiqur. Məs.: Azərb. d. /Atlar, öküzlər kotana güc vurur, gah yeriyir, gah yıxılır, gah durur//.
R.Conrad. Göstərilən əsəri, s. 204.

ПОЛИСИНТЕЗ - alm. Polysynthese (f), ing. polysynthesis /pɒlɪˈsɪnθɪsɪs/, fr. polysynthèse, azərb. polisintez. – Bəzi Amerika dillərində konkret tərkib hissələri olan morfemlərdən yaranan mürəkkəb sözlər. Məs.: onondaje dilində /ar akwan ohsahnin ony, oʔ/ (Biz evlər alırıq), /-hinino/ - fel kökü (almaq), /avwa/ (biz) mübtəda, /-n ohsa/ tamamlıq

(ev). /–ny/, /o'/ – isə şəkilçiləridir. Bunlar yalnız mürəkkəb sözlərin tərkib hissələri kimi işlənir.
H.Bußmann. Göstərilən əsəri, s. 593.

ПОЛИСИНТЕТИЧЕСКИЕ ЯЗЫКИ – Bax: Инкорпорирующие языки ←.

ПОЛИТОНИЗМ – alm. Polytonismus (m), ing. polytonism /ˌpɒlɪtəʊˈnɪzm/, fr. polytonisme, azərb. çoxtonluq. – Müəyyən dilin fonoloji sistemində relevant əlamət kimi bir saitdə və ya sözdə melodik korrelasiyanın mövcudluğu.
R.Conrad. Göstərilən əsəri, s. 204.

ПОЛИТОНИЧЕСКИЙ ЯЗЫК – alm. polytonische Sprache (f), ing. polytonic language /ˌpɒlɪtəʊˈnɪk ˈlæŋgwɪʤ/, fr. langue polytonique, azərb. politonik dil. – Çoxtonluqla (politoniklik) səciyyələnən dil. Belə dillərdə heca danışıq prosesində özünün heca və səs tərkibini dəyişməyir. Məs.: Çin, Birma və Vyetnam, Afrikada bantu, Amerikada hindilərin dilləri buna misal ola bilər.
R.Conrad. Göstərilən əsəri, s. 204.

ПОЛИТОНИЧЕСКОЕ УДАРЕНИЕ – alm. polytonische Betonung (f), ing. polytonic stress /ˌpɒlɪtəʊˈnɪk stres/, fr. accent polytonique, azərb. politonik vurğu. – Müstəqil fonoloji səciyyə daşıyan vurğu, söz və ya söz formalarının fərqləndirilməsinə xidmət edən vurğu. Məs.: Çin dilinin kantonez dialektində /ˋsaŋ/ (ziyan vurmaq), /ˈsoeŋ/ (fotoqraf), /ˉsoeŋ/ (baş nazir), /ˏsoeŋ/ (tuman), /ˎ/ (qalxmaq), /_soeŋ/ (üzərində, üstündə).
D.Jones. The Phoneme, it's Nature and Use. Cambridge, 1949, s. 16.

ПОЛИФОНИЯ – alm. Polyphonie (f), ing. polyphony /pəˈlɪfənɪ/, fr. polyphonie, azərb. polifoniya. – Bir neçə fonemi və ya onların birləşmələrini ifadə etmək üçün eyni bir qrafemdən istifadə etmək. Məs.: alm. d. /ch/: /ç/ və /x/. Müq. et: /tüchtig/ (səyli), ancaq /Tochter/ (qız) və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 335.

ПОЛИФТОНГ – alm. Polyphthong (m), ing. polyphthong /pəˈlɪfθɔŋ/, fr. polyphthongue, azərb. poliftonq. – Bir neçə səsin bir heca daxilində birləşməsi. Məs.: ing. d. «fire» «faɪə» «od, atəş», «our» /auə/ «bizim» sözlərində /aiə/, /auə/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 335.

ПОЛНАЯ АССИМИЛЯЦИЯ – alm. volle Assimilation (f), ing. full, total assimilation /fʊl/ˈtəʊtəl əˌsɪmɪˈleɪʃən/, fr. assimilation totale, azərb. tam uyuşma. – Klassik fonetikada iki müxtəlif səsin tam uyuşması, eyni səsə çevrilməsi. Məs.: Azərb. d. /inanma-inamma/, /yanma-yamma/, /sönməz-sömməz/, /qanmaz-qammaz/ və s. Burada müxtəlif dil layları qarışdırılır və yazı əsas götürülür.
Bax: Ассимиляция ←.

ПОЛНАЯ ФОРМА – alm. volle Form (f), ing. full form /fʊl fɔ:m/, fr. forme totale, azərb. tam forma. – Sözün ədəbi dilin tələffüz normalarına uyğun deyilişi. İmla yazdırarkən bu üsuldan istifadə olunur. Məs.: Azərb. d. /başlayırlar/, ancaq adi danışıqda bu belə deyilməlidir /başlıyıllar/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 335.

ПОЛНОГЛАСИЕ – alm. Vollaut (m), Pleophonie (f), ing. pleophony /pli:' ɒfənɪ/, fr. vocalisme, totale, azərb. tamsaitlilik. – Cənubi slavyan dillərində əski slavyan dilindəki /–ра-/, /-ла-/, /-ре-/, /-ле-/ səs birləşmələrinə müvafiq gələn samitlər arasında fışıltılı samitlərdən sonra /–оро-/, /-оло-/, /-ере-/, /-ело-/ səs birləşmələrinin movcudluğu. Məs.: /город/ – /град/, /золото/ – /злато/, /берег/ – /брег/, /молочный/ – /млечный/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 336.

ПОЛНОЕ ОКРУЖЕНИЕ – alm. volle Umgebung (f), ing. full environment /fʊl ɪn'vaɪrənmənt/, fr. plein environnement, azərb. tam əhatə. – Dil vahidlərinin sözdə, söyləmdə və cümlədə işləndiyi mövqe, onların fərqləndirici və semantik-sintaktik xüsusiyyətlərinin tam mənada təzahür etməsinə zəmin yaradan fonetik şərait.
Bax: Окружение ←.

ПОЛНОЕ ПИСЬМО – alm. Vollschrift (f), ing. full, simple writing /fʊl/'sɪmpl 'raɪtɪŋ/, fr. lettre pleine, azərb. tam yazı. – Yazıda bütün seqment vahidləri xüsusi qrafik işarələrlə verən yazı növü.
O.C.Ахманова. Göstərilən əsəri, s. 336.

ПОЛНОЕ ПРЕДЛОЖЕНИЕ – alm. vollständiger Satz (m), ing. (complete) full sentence /kəm'pli:t/fʊl 'sentəns/, fr. proposition pleine, azərb. tam cümlə. – Əsas məzmununun kontekstdən və danışıq şəraitindən asılı olmayaraq başa düşülməsi üçün bütün cümlə üzvlərinin olması. Məs.: Azərb. d. /Gələn ayın əvvəlində bizim sinfin şagirdləri müsabiqədə iştirak etmək üçün Bakıya gedəcəklər//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 337.

ПОЛНЫЕ ОМОНИМЫ – alm. Vollhomonyme (Pl.), ing. full, total homonyms /fʊl/'təʊtl hə'mɒnɪms/'hɒmənɪms/, fr. homonymes pleins, azərb. tam omonimlər. – Mənaca fərqlənməsinə baxmayaraq, morfem tərkiblərinə görə tam üst-üstə düşən omonimlər. Məs.: Azərb. d. /top/ (silah növü) – /top/ (idman ləvazimatı).
Bax: Омонимы ←.

ПОЛНЫЕ СИНОНИМЫ – alm. Vollsynonyme (Pl.), ing. total synonyms /'təʊtl 'sɪnənɪms/, fr. synonymes pleins, azərb. tam sinonimlər. – Mənasına və səslənməsinə görə tam üst–üstə düşən sinonimlər. Məs.: Azərb. d. /dilçilik/ - /dilşünaslıq/; alm. d. /Sprachwissenschaft/ - /Linguistik/; Azərb. d. /yel/ (külək), yel (xəstəlik adı) və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 206.

ПОЛНЫЕ СЛОВА – alm. vollständige Wörter (Pl.), ing. full words /fʊl wɜ:dz/, fr. mots pleins, azərb. tam (əsil) sözlər. – Müstəqim leksik mənaya malik olan və cümlə üzvü funksiyasında çıxış edən sözlər. Əsas nitq hissələrinə aid olan sözlər belə sözlərdəndir.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 249.

ПОЛНЫЕ ПРИЛАГАТЕЛЬНЫЕ – alm. Volladjektive (Pl.), ing. full adjective /fʊl ædʒɪktɪv/, fr. adjectifs pleins, azərb. tam sifətlər. – Əlamət və keyfiyyət bildirən, cümlədə təyin rolunda çıxış edən və dərəcələnən sözlər tam sifətlər hesab olunur. Məs.: Azərb. d. /qırmızı/, /yaşıl/.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 249.

ПОЛНЫЙ ВОПРОС – alm. Vollfrage (f), ing. full question /fʊl 'kwestʃən/, fr. question pleine, azərb. tam sual. – Müəyyən cavab almaq üçün tam cümlə halında verilən sual. Məs.: Azərb. d. ¿Sən bu gün kinoya gedəcəksən?
Bax: Вопрос ←.

ПОЛНЫЙ ГЛАГОЛ – alm. Vollverb (n), ing. full verb /fʊl vɜ:b/, fr. verbe plein, azərb. tam fel. – Fellərin semantik-struktur əlamətlərə görə müstəqil leksik mənaya malik olan və cümlə üzvü yerində (adətən xəbər) çıxış edən fel. Buraya köməkçi fellərdən başqa bütün fellər aiddir.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 301.

ПОЛНЫЙ СТИЛЬ ПРОИЗНОШЕНИЯ – alm. voller Aussprachestil (m), ing. full style of pronunciation /fʊl staɪl əv prəˌnʌnsɪ'eɪʃən/, fr. style plein de prononciation, azərb. tam tələffüz üslubu. – Şerba fonoloji məktəbi danışıq aktını səciyyələndirərkən tam və danışıq üslublarını fərqləndirir. Tam üslub aramla, çoxlu fasilə, aydın tələffüz, qismən az reduksiya əlamətlərinə malikdir.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 55.

ПОЛНЫЙ СТИЛЬ РЕЧИ – alm. voller Aussprachestil (m), ing. full style of speech /fʊl staɪl əv ˌspi:tʃ/, fr. style plein du discour, azərb. tam danışıq üslubu. – Məs.: Azərb. d. /İcazə verin/ konsertimizə başlayaq//.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 55.

ПОЛОВЕЦКИЙ ЯЗЫК - alm. Polovisisch (Kumanisch) (n), ing. Polovtsy language /pə'lɒvtsɪ 'læŋgwɪdʒ/, fr. langue Polovets, azərb. qıpçaq dili. – XIII-XIV əsrlərdə cənubi rus çöllərində məskunlaşmış türk mənşəli qıpçaq tayfalarının dili. Hal-hazırda bu dil ölü dillərdən hesab olunur. Avropalılar onları «kumanlar», «hun», ruslar isə «poloveslər» adlandırmışlar. Qıpçaq dili haqqında ətraflı məlumatlar yazılı abidələrdə, əsasən də 1294-cü ildə italyan və alman monaxları tərəfindən tərtib olunmuş 2994 sözdən ibarət latın-fars-qıpçaq lüğətində qorunub saxlanmışdır.
Т.И.Грунин. Документы на половецком языке XVI в. М., 1967.

ПОЛОЖЕНИЕ – alm. Stellung (f), Position (f), ing. position /pə'zɪʃən/, fr. situation, position, azərb. vəziyyət, mövqe. – Hər hansı bir dil vahidinin işləndiyi yer. Danışıq aktındakı yerindən asılı olaraq yanaşı gələn və məsafəcə aralı olan vahidlər fərqləndirilir. Vurğuya münasibətdə isə vurğulu və vurğusuz mövqelər var. Struktur baxımdan isə əvvəldə, ortada və sonda gələn vahidləri fərqləndirmək lazımdır.
F.Veysəlli. SDƏ. s. 229-316.

ПОЛОЖЕНИЕ ПОСТПОЗИТИВНОЕ– alm. Nachfeld (n), ing. postpositional /ˌpəʊstpə'zɪʃənəl/, fr. position postpositionele, azərb. ön (özək sonu). – Normal olaraq xəbərdən əvvəl gələn, tema rolunda çıxış edən hissə.



F.Veysəlli. SDƏ. s. 313.

ПОЛОЖЕНИЕ СИЛЬНОЕ – alm. starke Position (f), ing. strong position /strɒŋ pə'zɪʃən/, fr. position vigoureuse, azərb. güclü mövqe.
Bax: Позиция ←.

ПОЛОЖЕНИЕ СЛАБОЕ – alm. schwache Position (f), ing. weak position /'wi:k pə'zɪʃən/, fr. position faible, azərb. zəif mövqe.
Bax: Позиция ←.

ПОЛОЖЕНИЕ ПОКОЯ – alm. Ruhelage (f), ing. position of rest (quiet) /pə'zɪʃən əv rest/'kwaɪət/, fr. position d'indifférence, azərb. sükunət vəziyyəti. – Tələffüz üzvlərinin danışığa başlamazdan əvvəlki vəziyyəti.
F.Veysəlov (Veysəlli) Alman dilinin fonetikası. Bakı, 1980, s. 15-21.

ПОЛОЖИТЕЛЬНАЯ СТЕПЕНЬ – alm. Grundstufe (f) positive Steigerungsstufe (f), ing. positive degree /'pɒzɪtɪv dɪ'gri:/, fr. degré positif, azərb. adi dərəcə. – Azərb. d. sifətin dərəcələrindən biri. Bu dərəcənin özünəməxsus heç bir morfoloji əlaməti yoxdur. Bu dərəcə sifətin digər dərəcələri (azaltma, çoxaltma, şiddətləndirmə və üstünlük) üçün meyar hesab olunur. Məs.: Azərb. d. /maraqlı kitab/, /qırmızı alma/, /güclü adam/, /sərin külək/ və s.
Bax: Прилагательное →.

ПОЛУГЛАСНЫЙ – alm. Semivokal (m), Halbvokal (m), ing. semi-vowel /'semɪ 'vaʊəl/, fr. semi-voyelle, azərb. yarımsait. – Tələffüz məxrəcinə malik olsalar da, bu cür saitlər heca nüvəsi düzəldə bilmirlər, yəni özlərini samit kimi aparırlar. Məs.: /j/ ing. d. /yelɛʊ/ (yellow) (sarı); /ɥ/ fr. d. /ɥit/ /huit/ (səkkiz) sözündə. İng. d. /w/ samiti də belə səslərdəndir.
P.H.Matthews. Göstərilən əsəri, s. 337.

ПОЛУГОЛОС – alm. Murmellaut (m), ing. vocal murmur /ˈvəʊkəl ˈmɜːmə/, fr. semi-voix, azərb. yarımsəs, mızıltılı səs. – İstənilən fonasiya ilə düzələn mızıltılı səs.
P.H.Matthews. Göstərilən əsəri, s. 337.

ПОЛУДОЛГИЙ ГЛАСНЫЙ – alm. halblanger Vokal (m), ing. semi-long (half-long) vowel /ˈsemi lɒŋ/hɑːf lɒŋ/ˈvaʊəl/, fr. semi-voyelle long, azərb. yarımuzun sait. – Azərb. d. alınma sözlərdə vurğulu hecadan əvvəlki hecada tələffüz olunan sait. Məs.: Azərb. d. /a•dil/, /a•rif/. Alman dilində vurğusuz açıq hecada sait yarımuzun deyilir. Məs.: /vo•ˈkaːl/.
F.Veysəlli. SDƏ. s. 141-143.

ПОЛУЗВОНКИЙ – alm. halbstimmhaft, ing. half-voiced /ˌhɑːf vɔɪst/, semi-resonant /ˈsemɪ ˈrezənənt/, medium /ˈmiːdɪəm/, fr. semi-sonore, azərb. yarımcingiltili. – Səs tellərinin titrəməsi getdikcə zəifləyir, cingiltili samit yarımcingiltili tələffüz olunur. Məs.: alm. d. sözbaşında cingiltili samitlər yarımcingiltili tələffüz olunur. Müq. et: /ˌʌzi:bən/ (yeddi), /ˌʌge:bən/ (vermək). Azərb. d. isə söz sonunda müşahidə olunur. Məs.: /oḍ/ «od», /qanaḍ/ «qanad».
F.Veysəlli. SDƏ. s. 141-143.

ПОЛЬСКИЙ ЯЗЫК – alm. Polnisch (n), ing. Polish language /ˈpəʊlɪʃ ˈlæŋgwɪʤ/, fr. le polonais, langue polonaise, azərb. polyak dili. – Qərbi slavyan dillərindən biridir. Əsasən Polşada yayılmışdır. Bu dildə 45 milyona qədər əhali danışır. Polyak dili böyük polyak, kiçik polyak, mazovetsk, silez və kaşub dialektlərinə bölünür. Polyak dilində vurğu sabitdir və adətən axırdan əvvəlki hecaya düşür. Ədəbi dili böyük polyak, kiçik polyak, mazovetsk dialektləri əsasında formalaşmışdır.
Т.Лер-Сплавинский. Польский язык. М., 1954., Я.В.Мацюсович. Морфологический строй польского языка. Л., 1975.

ПОЛЯРИЗАЦИЯ – alm. Polarität (f), ing. polarization /ˌpəʊləraɪ ˈzeɪʃən/, fr. polarisation, azərb. qütbləşmə. – 1) Dilin lüğət tərkibinin semantik qruplaşdırılması. Məs.: sinonim, antonim sözlər; 2) Ziddiyyət təşkil edən antonim sözlər. Məs.: /alçaq/ - /hündür/, /uzun/ - /qısa/.
H.Bußmann. Göstərilən əsəri, s. 591.

НӨРОЖДАЮЩАЯ ГРАММАТИКА – alm. generative Grammatik (f), ing. generative grammar /ˈʤenərətɪv ˌgræmə/, fr. grammaire générative, azərb. törəmə qrammatikası. – 1) Cümlələrin düzəlməsi qaydalarına söykənən qrammatik modelin ümumi adı. Bu mənada onu törəmə qrammatikası da adlandırırlar; 2) N.Xomskinin generativ transformasiya qrammatikasını göstərmək üçün sinonim.
F.Veysəlli. N.Xomskinin dilçilik görüşləri. «Dil və ədəbiyyat», Bakı, 2006, s. 16-26.

ПОРОЖДАЮЩАЯ МОДЕЛЬ – alm. generatives Modell (n), ing. generative model /'ʤenərətıv 'mɒdl/, fr. modèle génératif, azərb. törəmə model. – Adətən bunu Generalized Phrase Structure Grammar (GPSG) (ümumiləşdirici söyləm struktur qrammatikası) adlandırırlar və məqsədi formal məhdudlaşdırıcı qrammatikanı transformasional qrammatikaya qarşı qoymaqdır. Burada söhbət transformasiyasız yeganə təmsilçilik səviyyəsilə kifayətlənməkdən gedir. Sintaktik təzahür elə bir söyləm struktur ağacıdır ki, onun axırıncılardan əvvəlki budaqları Qismən spesifik əlamət strukturları şəklində sintaktik kateqoriyalardır. Bunlar elə qaydalar və şərtlərdir ki, cümlənin komponentlərinin qrammatik cəhətdən düzgün qurulmasını, bununla da onun qrammatikliyini təmin edirlər. Bu zaman əlamətlərin təsviri onların müəyyən variativliyini nəzərə almaqla verilir. Transformasional qrammatikada təsvir olunan sintaktik qanunauyğunluqların çoxu GPSG-də metaqaydalar şəklində çıxış edir ki, bunlar da söyləm struktur qaydalarından başqa söyləm struktur qaydalarını düzəltməyə imkan verir. Məs.: məchul növ məlum növdən düzəlir. Sintaktik strukturda hər bir kateqoriya əlamətlərin birləşməsi məhdudiyyətləri (ing. d. Feature Cooccurence Restrictions) və standart əlamət xüsusiyyətlərilə (ing. d. Feature Specification Defaults) məhdudlaşmalıdır, yəni cümlələrin əlamətlərlə birləşməsi şərtləri altında düzgünlüyü ortaya qoyulur. Əlamətlərin ötürülməsi 3 şərtin olmasını tələb edir:
a) əsas əlamət şərti (ind. d. Head Feature Convention - HFC). Məs.: kəmiyyət və cins əlamətləri ana tərkibdən baş tərkibə ötürülür; b) ayaq əlamət prinsipi (ing. d. Foot Feature Principle - FFP), ətraflara gedən bütün əlamətlərin qəbulunu təmin edir; c) nəzarət-idarə prinsipi (ing. d. Control Agremment Principle - CAP) bu da semantik əlamətlərə nəzarət zəminində konstitutiyentlərin idarəsini nizamlayır. Adi söyləm struktur qrammatikasından fərqli olaraq burada bilavasitə dominantlıq və xətti iştirak müxtəlif qayda növləri ilə təsvir olunur. Leksikon seçilir və qaydalar vasitəsilə söyləmə daxil edilir. Burada metaqaydalar əlamətlərin ötürülməsini təmin edir. Ağacda hər bir tərkibin mənası bilavasitə konstitutiyentlərin mənası ilə semantik əks olunur. GPSG bir çox dillərin təsvirində geniş tətbiq olnur.
H.Bußmann. Göstərilən əsəri, s. 268.

ПОРОЖДАЮЩАЯ СИЛА – alm. generative Kapazität (f), ing. generative power (force) /'ʤenərətıv 'paʊə/fɔ:s/, fr. force génératives, azərb. törədici qüvvə (güc). – Müəyyən, verilmiş mürəkkəb strukturun gücünü və işləkliyini əks etdirən qrammatik əlamət. Daha böyük gücə malik qrammatikalar struktur baxımdan daha mürəkkəb dilləri törədə bilərlər, nəinki kiçik gücə malik qrammatikalar. Məs.: N.Xomskinin sonu olan çox vəziyyətli qrammatikaları (Finite State Grammars) təbii dillərin təsviri üçün az törəmə gücünə malikdir. Yəni bu cür qrammatikalar bir təbii dilin bütün cümlələr çoxluğunu düzəltmək iqtidarında deyil. Qrammati-

kaların «güclü» və «zəif» generativliyini fərqləndirmək müxtəlif adekvatlıq səviyyələrilə bağlıdır. Qrammatika yalnız o zaman kifayət qədər törətmə gücünə malik olur ki, o, adekvatdır. Artıq müşahidədə adekvatlıq səviyyəsində, yəni zəif törəmə gücü olanda kontekstdən azad qrammatikalar klassı daha az gücə malikdir, nəinki kontekstlə bağlı qrammatikalar klassı, yəni elə dillər vardır ki, onlar kontekstlə bağlı qrammatika tərəfindən törədilə bilərlər (əksinə, kontekstdən azad qrammatika tərəfindən törədilə bilən dil həmçinin kontekstlə bağlı qrammatika tərəfindən törədilə bilər). N.Xomskinin hierarxiyasında qrammatikaların tipologiyası belədir: son vəziyyət qrammatikası kontekstdən azad qrammatika, kontekstə bağlı qrammatika və qeyri-məhdud törəmə qrammatikası.
H.Bußmann. Göstərilən əsəri, s. 268.

ПОРТУГАЛЬСКИЙ ЯЗЫК – alm. Portugiesisch (n), ing. Portugal /'pɔ:tjʊgəl, 'pɔ:tʃʊsəl/, Also (earlier) Portingale, Portuguese language /ˌpɔ:tju'gi:z 'læŋgwɪʤ/, fr. le portugaîs, langue portugaise, azərb. portugəz dili. – Roman dillərindən biridir. Əsasən Portuqaliyada, həmçinin Afrikanın bəzi ölkələrində, Braziliyada, Asiyada (Çin Xalq Respublikasının Aomın şəhəri) və s. yayılmışdır. Portuqaliya Respublikasının, Braziliya Federativ Respublikasının, Anqola Xalq Respublikasının, Mozambik Respublikasının rəsmi dövlət dilidir. Bütövlükdə portugəz dilində 150 milyon əhali danışır. Ərazi baxımından 3 dialektə bölünür: cənubi, mərkəzi və şimali.
Н.Б.Никонов. Грамматика португальского языка. M., 1985.

ПОРЯДКОВОЕ ПРИЛАГАТЕЛЬНОЕ – alm. Ordinaladjektiv (n), ing. ordinal adjectives /'ɔ:dɪnəl 'æʤɪktɪvs/, fr. adjectifs ordinalux, azərb. sıra sifəti. – Sıra mənasında işlənən sifətlər. Məs.: Azərb. d. /birinci/, /ikinci/, /onuncu/; rus d. /первый/, /второй/, /третий/, /четвертый/ və s.
Bax: Числительное →.

ПОРЯДКОВОЕ ЧИСЛИТЕЛЬНОЕ – alm. Ordinalzahlwort (n), ing. ordinal number/numeral /'ɔ:dɪnəl 'nʌmbə/'nju:mərəl/, fr. adjectifs numéraux ordinaux, azərb. sıra sayı. – Miqdar saylarından düzələn sıra sayları. Alm., ing. və rus d. birinci və ikinci sıra sayları eyni kökdən deyil, başqa kökdən düzəlir. Məs.: /der erste/, /der zweite/; ing. d. /the first/, /second/; rus d. /первый/, /второй/. Azərb. d. (-inci)[4] şəkilçisinin köməyilə yaranır. Məs.: /birinci/, /ikinci/, /üçüncü/. və s.
Bax: Числительное →.

ПОРЯДОК – alm. Ordnung (f), Stelle (f), ing. (proper) order /'prɒpə /'ɔ:də/, fr. ordre, azərb. sıra. – Mürəkkəb formaların tərkiblərinin ardıcıllığı, mürəkkəb və düzəltmə sözlərin, söz birləşmələrinin və cümlələrin hissələrinin xətti ardıcıllıqla yerləşməsi.
O.C.Ахманова. Göstərilən əsəri, s. 341.

ПОРЯДОК СИНТАКСИЧЕСКИЙ – alm. syntaktische Stelle (f), ing. syntactic(al) order /sɪn'tæktɪkəl 'ɔ:də/, fr. ordre syntaxique, azərb. sintaktik qayda (düzüm). – Bu cümlənin düzəlməsində sintaktik əlaqələr deməkdir: uzlaşma, idarə, yanaşma. Məs.: Azərb. d. /Qoşa çinar//, /Onlar yazırlar//, /Mən onu gözləyirəm//.
O.C.Ахманова. Göstərilən əsəri, s. 340.

ПОРЯДОК СЛОВ – alm. Wortfolge (f), ing. word-order /wɜ:d 'ɔ:də/, fr. ordre des mots, azərb. söz sırası. – Dilçilikdə bir qayda olaraq düzgün və əks söz sırası fərqləndirilir. Azərb. d. düzgün söz sırası mübtədanın xəbərdən əvvəl gəlməsidir. Əks söz sırası xəbərin birinci yerdə gəlməsidir. Məs.: Azərb. d. /Biz oxumağa gedirik//.
Şerdə və canlı danışıqda xəbər birinci yerdə gələ bilər. Müq. et:

/Çıxır dağ döşünə körpə quzular/
/Tərlanın səsini əks edir sular//

S.Vurğun.

O.Musayev. İngilis və Azərbaycan dillərində söz sırası. Bakı, 1962.

ПОРЯДОК СЛОВ ИНВЕРСНЫЙ – alm. indirekte Wortreihe (f), ing. word-order inversion /wɜ:d 'ɔ:də ɪn'vɜ:ʃən/, fr. ordre des mots inverses, azərb. əks söz sırası. – Cümlədə tamamlıq və ya başqa üzvlər xəbərdən qabağa keçərsə, buna inversiv söz sırası deyilir.
Bax: Порядок слов ←.

ПОРЯДОК СЛОВ ТВЁРДЫЙ – alm. feste Wortstellung (f), ing. rigid word-order /'rɪʤɪd wɜ:d 'ɔ:də/, fr. ordre dure des mots, azərb. sabit söz sırası. - Alm. d. xəbərin təsrif olunan hissəsi nəqli cümlədə ikinci yerdə gəlir, Azərb. d. isə cümlədə sonda gəlir. Buna sabit söz sırası deyirlər. Məs.: alm. d. /Er liest ein Buch// (O bir kitab oxuyur).
R.Conrad. Göstərilən əsəri, s. 300.

ПОСЛЕДОВАТЕЛЬНОСТЬ – alm. Reihenfolge (f), ing. sequence /'si:kwəns/, consequence /'kɒnsɪkwəns/, fr. succession, azərb. ardıcıllıq. – Bir qayda olaraq təyin edən təyin olunan sözdən əvvəl gəlir. Bu ardıcıllıq əksər dillər üçün səciyyəvidir. Məs.: ing. d. /a young girl/, alm. d. /das schöne Mädchen/, rus d. /хороший человек/, Azərb. d. /yaxşı adam/ və s.
H.Bußmann. Göstərilən əsəri, s. 859-861.

ПОСЛЕЛОГ – alm. Postposition (f), ing. postposition /'pəʊstpə'zɪʃən/, fr. postposition, azərb. qoşma. – Türk dillərinə xas olan əlamət. Bu dillərdə qoşma aid olduğu sözdən sonra gəlir. Məs.: Azərb. d. /Cəmil üçün/. /Cəmilə görə/ və s. Ancaq son dövrlərdə alm. d. bu xeyli geniş yayılmışdır. Məs.: alm. d. /ihm zufoge/ (ona görə), /Meiner Meinung nach/ (mənim fikrimə görə) və s.
A.A.Реформатский. Göstərilən əsəri, s. 529.

ПОСЛЕУДАРНЫЙ – alm. nachbetont, nachtonig, ing. post-tonic /pəʊst ˈtɒnɪk/, fr. postaccentué, azərb. vurğudan sonrakı. - Məs.: alm. d. /ˈleːrər/ (müəllim); ing. d. /ˈsduːdəu/ (yalançı); rus d. /мˈукa/ (əzab); Azərb. d. /ˈopĕră/.
F.Veysəlli. SDƏ. s. 312.

ПОСЛОВИЦА – alm. Sprichwort (n), ing. proverb /ˈprɒvəːb/, saying /ˈseɪŋ/, fr. proverbe, azərb. atalar sözü. – Ümumi mənası tərkibinə daxil olan sözlərin mənasının məcmusu deyil, bütövlükdə konkret bir məna daşıyan ifadələr. Məs.: Azərb. d. /Az yatanla, tez duran, heç vaxt uduzmaz//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 29.

ПОСТОЯННОЕ УДАРЕНИЕ – alm. gebundene Betonung (f), ing. fixed stress or accent /fɪksd stres ɔːr ˈæksənt/, constant, permanent stress /ˈkɒnstənt/ˈpəːmənənt stres/, fr. accent permanent, azərb. sabit vurğu. – Sözdə həmişə eyni heca üzərinə düşən vurğunu sabit vurğu adlandırırlar. Polyak dilində vurğu həmişə axırıncıdan əvvəlki hecanın üzərinə düşür. Məs.: /polskeˈgo/.
F.Vejsalov (Vejsälli). Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 194-205.

ПОСТПОЗИЦИЯ – alm. Nachstellung (P), ing. postposition /ˈpəʊstpəˈzɪʃən/, fr. postposition, azərb. mövqesonu. – Hər hansı bir dil vahidindən sonrakı mövqe. Azərbaycan dilində qoşmalar qoşulduğu sözlərdən sonra gəlir. Məs.: rus d. metroda vaqonlarda yazılır: /мecтo для дeтeй/ (uşaqlar üçün yer). İng. d. /-s/ həmişə postpozisiyada gəlir. Müq. et: /my friend's daughter/ (dostumun qızı).
H.Matthews. Göstərilən əsəri, s. 289.

ПОСТФИКС – alm. Postfix (n), Suffix (n), ing. postfix /ˈpəʊstfɪks/, fr. postfixe, azərb. postfiks, şəkilçi. – Söz sonuna bağlanan şəkilçi. Prefiks (önşəkilçi) sözünün qarşılığı kimi ilk dəfə dilçiliyə İ.A.Boden de Kurtene (1845-1929) tərəfindən gətirilmişdir. Aqlütinativ dillər üçün səciyyəvidir. Ancaq hind-Avropa dillərində də rast gəlinir. Postfikslər funksiyasına görə iki cür olur: sözdüzəldici və sözdəyişdirici. Alm. d. /beraten/→/Berater/ (müşavir → məsləhətçi); /lesen/→/ich lese/ (mən oxuyuram). Azərb. d. /çi/ sözdüzəldici şəkilçi, /-am, -əm/ isə şəxs şəkilçisidir.
R.Conrad. Göstərilən əsəri, s. 205.

ПОТЕНЦИАЛИЕ – alm. Potentialis (m), ing. potentialıs /pəˈtenʃəlɪs/, fr. potentialité, azərb. potensiallıq. – Felin şəkli. Qafqaz dillərində, habelə Azərb. d. hərəkətin mümkün və ya güman edildiyini bildirən şərt

və ya arzu şəkli. Alm. d. bunun ifadəsi konyuktivdə olur. Məs.: alm. d. /Ich möchte kommen// (Mən gəlmək istərdim).
R.Conrad. Göstərilən əsəri, s. 205.

ПОТЕНЦИАЛЬНЫЙ – alm. potentiell, ing. potential /pə'tenʃəl/, virtual /'vɜ:tʃʊəl/'vɜ:tjuəl/, fr. potentiel, azərb. potensial. – Bilavasitə ifadə olunmasa da mövcudluğu hər zaman bərpa edilə bilən. Məs.: Azərb. d. /Məktəbdə oxuyan şagird// tərkibində /oxuyan/ feli sifətində xəbərin əlamətləri (zaman, şəxs, kəmiyyət) potensial şəkildə ifadə olunub. Bunlar istənilən zaman bərpa oluna bilər. İng. d. /Do you think/ deyiləndə potensial olaraq /that/ gəlir. Elə Azərb. d. də /Sən düşünürsən/ deyəndə /ki,/ bağlayıcısının gəlməsi mümkündür.
P.H.Matthews. Göstərilən əsəri, s. 289.

ПОТЕНЦИАЛЬНОЕ ЛЕКСИЧЕСКОЕ ЗНАЧЕНИЕ – alm. potentielle lexikalische Bedeutung (f), ing. potential lexical meaning /pə'tenʃəl 'leksıkəl 'mi:nıŋ/, fr. signification lexicale potentielle, azərb. potensial leksik məna. – Söz konkret mətndə işlənərkən konkret məna verir. Ancaq onun başqa mənalarda işlənməsi də mümkündür. Məs.: Azərb. d. /Onun yaxşı bağı var// cümləsindəki /bağ/ sözü /qaytan/ mənasında da işlənə bilər.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 219.

ПОТЕНЦИАЛЬНОЕ СЛОВО – alm. potentielles Wort (n), ing. potential word /pə'tenʃəl wɜ:d/, fr. mot potentiel, azərb. potensial söz. – Dildəki hər hansı bir söz bu gün lüğətə daxil edilməyə bilər, ancaq o nə zamansa aktiv söz kimi işlənə bilər. Məs.: rus d. /шуршать/ (səs eləmək) sözü 1940-cı ilə qədər lüğətə daxil edilməyib.
A.A.Реформатский. Göstərilən əsəri, s. 138.

ПОТОК РЕЧЕВОЙ – alm. Redestrom (m), ing. spoken chain /'spəʊkən tʃeın/, stream speech /stri:m spi:tʃ/, fr. torrent de la parole, azərb. danışıq axını. – Dil vahidlərinin reallaşma yeri. Danışıq aktında yalnız dilin sistemində olan vahidlər öz əksini tapır. Şərbа məktəbində dil, danışıq aktı və dil materialı (danışılanla eşidilənin məcmusu) fərqləndirilir.
F.Veysəlli. SDƏ. s. 103-121.

ПОЯСНЕНИЕ – alm. Interpretation (f), ing. interpretation /ınˌtɜ:prı'teıʃən/ explication /ˌekspli'keıʃən/, fr. explication, éclaircissement, azərb. izah, şərh. – Mətnin izahı, şərhi. Mətnin semantik və linqvistik baxımdan təhlili.
R.Conrad. Göstərilən əsəri, s. 270.

ПОЯСНИТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ – alm. explikativer Satz (m), ing. explicative sentence /'eksplıkətıv 'sentəns/, explanatory sentence /ıks'plænətərı 'sentəns/ fr. proposition explicative, azərb. izahedici cümlə. –

Hər hansı bir cümlədə söylənmiş fikri daha geniş açan və şərh edən əlavə cümlə. Məs.: Azərb. d. /Cəmilin hərəkətini, mən eksperimental tədqiqatlarla məşğul olan Cəmili nəzərdə tuturam, birmənalı şəkildə başa düşmək çətindir//. Burada /Mən... nəzərdə tuturam/ cümləsi izahedici funksiya daşıyır.
О.С.Ахманова. Göstərilən əsəri, s. 343.

ПРАВИЛО – alm. Regel (f), ing. rule /ru:l/, fr. règle, azərb. qayda. – Dilçilikdə dil davranışının təsviri, şərhi və nizamlanması üçün əsas anlayış. Onu bəzən norma, universal hərəkət qaydaları, formal təlimatlar və s. kimi başa düşürlər. Dilçiliyə tətbiqdə aşağıdakı tipləri fərqləndirirlər: a) ənənəvi qrammatikada normativ qrammatik hərəkətlərin, qanunauyğunluqların və istisnaların verilmiş nümunələr əsasında təsviri; b) bəzən də dil daşıyıcısının intuisiyasına müraciət olunur; c) deskriptiv dilçilikdə təcrübədə yer alan, müşahidə olunan dil davranışının statik konsepsiya baxımından qaydalar şəklində izahı; ç) ənənəvi və deskriptiv dilçilikdən fərqli olaraq, generativ transformasional qrammatikada dil səriştələrinin (competence) açılması üçün formal əməliyyatlarla həyata keçirilən törəmə prosesinin dinamik anlayışı: söyləm struktur qaydaları – qayıdış qaydaları – transformasiya; d) dili qaydalarla idarə olunan hərəkət kimi başa düşən semantik və praqmatik təhlil vasitəsi. Bu zaman konstitutiv (qurucu) və requlativ qaydalar fərqləndirilir.
H.Bußmann. Göstərilən əsəri, s. 635.

ПРАВИЛЬНОСТЬ – alm. Sprachrichtigkeit (f), ing. regularity /ˌregjʊ'lærɪtɪ/, grammaticality /grə'mætɪkəlɪtɪ/, fr. justesse, correction, sincérité, azərb. düzgünlük. – Qrammatik cəhətdən düzgün qurulmuş cümlə. Məs.: Azərb. d. /Mən kitab oxuyuram// cümləsi qrammatik cəhətdən düzgündür, ancaq /Mənə kitab oxuyuram// səhvdir. Bunu bildirmək üçün yazıda cümlənin qarşısında /*/ diakritik işarəsi qoyulur.
О.С.Ахманова. Göstərilən əsəri, s. 344.

ПРАВОПИСАНИЕ – alm. Rechtschreibung (f), ing. orthography /ɔ:'θɒgrəfɪ/, spelling /'spelɪŋ/, fr. orthographe, azərb. yazı qaydaları. – Dilin sistemli və vahid qaydalar əsasında qrafemlər və digər işarələrlə verilməsi. Yazı qaydaları bütün dillərdə üç əsas prinsipə əsaslanır: a) fonetik. Bu zaman hər bir fonemə bir yazı işarəsi, qrafem seçilir. Bu ümumi prinsip nəzəri cəhətdən bütün dillər üçün məqbuldur. Ancaq praktik olaraq buna hər yerdə əməl olunmur. Məs.: alm. d. «s» qrafemi həm cingiltili /z/, həm kar /s/, söz başında həm /ʃ/ («sp», «st» birləşməsində), həm də «sch» qrafem birləşməsinin tərkib hissəsi kimi çıxış edir. Müq. et: «sehen» - /'ze:ən/ (görmək), «essen» /'ɛsən/ (yemək), «stehen» /'ʃte:ən/ (durmaq), «sprechen» /'ʃpʀɛçən/ (danışmaq), «Schule» /'ʃu:le/ (məktəb). Azərb. d. orfoqrafiyasında bu prinsip aparıcıdır. Müq. et: /at/, /it/, /ot/, /ət/ və s.; b) morfoloji prinsip. Bu yazı prinsipində morfem eyniyyəti gözlənilir. Məs.: rus d. /ход/ və /ходовой/ sözləri /хот/ və /хʌдʌвой/ kimi

tələffüz olunsa da, onlar morfem eyniliyinə görə hər yerdə eyni cür yazılır; c) tarixi-ənənəvi prinsip. Alm. d. /ie/ yazılır /i:/ kimi tələffüz olunur. Monoftonqlaşma nəticəsində /ie/ uzun /i:/-yə çevrilsə də, tarixən yazı forması saxlanılmışdır; ç) omonimlik prinsipi. Bu prinsip omonim sözlərin müxtəlif cür yazılmasına xidmət edir. Məs.: alm. d. /Weise/ (müdrik), /Waise/ (yetim), /Lid/ (bəbək), /Lied/ (nəğmə), /malen/ (şəkil çəkmək), /mahlen/ (üyütmək), ancaq /Stiel/ (üslub), /stiel/, «stehlen» felindən (oğurlamaq), «Rat», /Ra't/ (şura); d) iqtisadi prinsip. Bu da qənaət məqsədilə edilir. Məs.: «Schifffahrt» →/Schiffahrt/; e) estetik prinsip. Alm. d. «j, u, ch, sch, ng, w, ß» qrafemlərinin və qrafem birləşmələrinin qoşa yazılışı yoxdur; f) praqmatik məqsədlə Du/Sie əvəzlikləri müraciət formasında böyük hərflə yazılır, halbuki qrammatik qaydalara görə ancaq isimlər və xüsusi adlar böyük yazılır. Yazı sahəsində islahatlar dilçilik, pedaqoji, təhsil və iqtisadi amillərə əsaslanmalıdır. Azərbaycanda son orfoqrafiya qaydaları AR NK-nin 5 avqust 2004-cü il tarixdə 108 nömrəli qərarı ilə təsdiq olunub. Almaniyada isə 1996-cı ilin avqustunda yeni qaydalar sisteminə keçməsilə bağlı qərar qəbul olunmuşdur.

H.Bußmann. Göstərilən əsəri, s. 628-630; Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili (fonetika, orfoqrafiya və orfoepiya). Bakı, 1972; F.Veysəlli. SDƏ. s. 295-298.

ПРАГМАЛИНГВИСТИКА – alm. Pragmalinguistik (f), ing. pragmalinguistics /'prægməlɪŋ'gwɪstɪks/, fr. pragmalinguistique, azərb. praqmalinqvistik. - a) mətn dilçiliyinin praqmatik yönümlü tədqiqat aspektini bildirir, praqmatikanın sinonimidir; b) dildə ünsiyyət prosesində dil işarələrini və onların birləşməsini təsvir edir və onları açmağa çalışır. Bu baxımdan praqmalinqvistika psixo və sosiolinqvistikaya aiddir, linqvistik praqmatika isə sintaksisə və semantikaya aid olunur.

H.Bußmann. Göstərilən əsəri, s. 605.

ПРАГМАТИКА – alm. Pragmatik (f), ing. pragmatics /præg'mætɪks/, fr. pragmatique, azərb. praqmatika. – Müxtəlif linqvistik, fəlsəfi və sosial elmi ənənələrdən yaranan təbii dil ifadələrilə onların spesifik tətbiq məqamları arasındakı əlaqələri öyrənən elm sahəsi. Praqmatika anlayışı semiotikadan götürülüb. Semiotkada praqmatika işarə ilə ondan istifadə edən (insan) arasındakı münasibəti açıqlayan modeldir. Dilçilikdə praqmatika bir tərəfdən semantika, digər tərəfdən isə geniş mənada sosiolinqvistik məsələlərdən nəzəri baxımdan sərhədlənir. Fonoloji səviyyədə onu müəyyən etmək çətindir. Amerika dilçiliyində isə əsasən sosiolinqvistik aspektdə işıqlandırılır. Xüsusilə onu semantikadan ayırmaq çox çətindir. Semantika propozisiya və cümlələrin gerçəklik şərtlərinə uyğunluğunu öyrənirsə, praqmatika dildə söyləmlərin funksiyasını və bununla ifadə olunan propozisiyaları, onları spesifik məqamda işlənməsindən asılı olaraq tədqiq edir. Məs.: deyksis problemlərinin praqmatikaya və ya semantikaya aidliyini müəyyənləşdirmək çətindir. Söyləmlərin

kontekstlərdə şəraitlə bağlılığı vasitələri kimi deyktik vasitələr praqmatikaya aiddirlər, ancaq onlar cümlələrin gerçəklik şərtləri kimi müəyyənləşməsi faktorları olaraq semantikaya aiddir. 70-ci illərdən başlayaraq praqmatika danışıq aktı nəzəriyyəsi ilə üst-üstə düşdüyündən son dövrlərdə istisnasız olaraq konverzasiya təhlilinin tədqiqi ilə məşğul olur, praqmatik və semantik vasitələrin qarşılıqlı əlaqələrini öyrənir.
Ch.W. Morris. Foundations of the Theory of Sings. Chikago, 1938 (alm.: Grundlagen der Zeichentheorie. München, 1972); S.C.Levinson. Pragmatics. Cambridge, 1983.

ПРАЖСКАЯ ШКОЛА – alm. die Prager Schule (f), ing. Prague school /prɑ:g sku:l/, fr. école de Prague, azərb. Praqa məktəbi. – Praqa dilçilik dərnəyinin əsasında yaranmış dilçilik məktəbi. Ötən əsrin iyirminci illərinin axırında formalaşıb və 1929-cu ildən İkinci Dünya müharibəsinədək «Travaux du Cercle Linguistic de Prague» jurnalını çapdan buraxıb. Bu məktəbin yaradılmasında çex dilçisi V.Matezius (1882-1945), üç rus mühaciri R.Yakobson (1896-1982), N.S.Trubeskoy (1889-1938) və S.O.Karsevski (1899-1945) xüsusi rol oynamışlar. Onlar dil vahidlərini funksional baxımdan öyrənirdilər.
Пражский лингвистический кружок. M. 1967; H.Bußmann. Göstərilən əsəri, s. 604-605; F.Veysəlli. SDƏ. s. 204-214.

ПРАФОРМА – alm. Praform (f), ing. Proto-form /ˈprəʊtə(ʊ) fɔ:m/, Praform /pra:fɔ:m/, fr. praforme, azərb. ilkin forma (praforma). – Dildə sonradan əmələ gələn söz və ifadələrin ilkin forması. Tarixi-müqayisəli metod vasitəsilə dilçilər tərəfindən genetik cəhətdən qohum dillərin ilkin (ulu) formalarını bərpa etmək istəmişlər. A.Şlayxer (1821-1868) ən qədim formaları bərpa edərək ulu german dilində «Qoyun və atlar» adlı təmsili də yazmışdı.
А.А.Реформатский. Göstərilən əsəri, s. 379-399; F.Veysəlli. SDƏ. s. 33.

ПРАЯЗЫК – alm. Ursprache (f), Grundsprache (f), ing. Proto-language /ˈprəʊtəˈlæŋgwɪʤ/, parent language /ˈpeər(ə)nt ˈlæŋgwɪʤ/, fr. langue-mère, azərb. ulu dil (pradil). – Genetik cəhətdən qohum dillərin ən qədim ümumi əsasını təşkil edən, müqayisəli-tarixi metod vasitəsilə bərpa edilə bilən ulu dil.
Bax: Праформа ←.

ПРЕВЕРБАЦИЯ – alm. Präverbation (f), ing. preverbation /pri:vəˈbeɪʃən/, fr. préverbation, azərb. preverbasiya. – Sözönüləri (prefikslər) vasitəsilə bir fel kökündən yeni leksik vahidin yaranması. Məs.: rus d. /читать-прочитать/, /писать-выписать, написать/; ing. d. /make - remake/ (etmək-yenidən etmək); alm. d. /lassen - einlassen/ (buraxmaq – içəri buraxmaq) və s.
О.С.Ахманова. Göstərilən əsəri, s. 344.

ПРЕВОСХОДНАЯ СТЕПЕНЬ – alm. Superlativ (m), ing. superlative degree /sju:'pə:lətıv dı'gri:/, fr. superlatif, azərb. sifətin şiddətləndirmə dərəcəsi. – Sifətin şiddətləndirmə dərəcəsində keyfiyyətin, rəngin, əlamətin və sairənin adi dərəcədən bir neçə qat çox olduğunu göstərir. Məs.: Müasir Azərb. d. bu dərəcəni ifadə etmək üçün /ən/, /çox/, /lap/, /olduqca/ sözlərindən istifadə olunur. Müq. et: /qəşəng/ → /ən qəşəng/, /pis/→/çox pis/, /yaxşı/ → /olduqca yaxşı/ və s. Sifətin təkrarından da şiddətləndirmə dərəcəsi əmələ gəlir. Məs.: /sarı/ → /sarı-sarı/ → /sapsarı/, /yaşıl/ → /yaşıl-yaşıl/ → /yamyaşıl/. Alman və ingilis dilində sifətin şiddətləndirmə dərəcəsi /-st/ şəkilçisi ilə düzəlir. Məs.: /Der schönst+e Tag/ (ən gözəl gün); ing. d. /The best day/ və s.
F.Yadigar (Veysəlli). GDG. s. 286-291.

ПРЕДИКАТ – alm. Prädikat (n), ing. predicate /'predıkeıt/, fr. prédicat, azərb. xəbər. – Ənənəvi dilçilikdə fellə ifadə olunmuş cümlə üzvü, mübtəda ilə birlikdə nəqli cümlənin əsas formasını təşkil edir. Xəbərlə mübtədaya aid hərəkəti, hal və vəziyyəti bildirir. O, quruluşuna görə sadə və mürəkkəb olur, köməkçi fel və ya predikativlə ifadə olunur. Məs.: Azərb. d. /O oxuyur//, /O oxumaq istəyir//, /O müəllim+dir// və s. Alm. d. /ist...gekommen, wollte...helfen/ cümlənin çərçivə konstruksiyasını yaradır. İng., alm. və Azərb. d. xəbər şəxsə və kəmiyyətə görə mübtəda ilə uzlaşır. Rus d. isə o keçmiş zamanda cinsə görə uzlaşır. Məs.: ing. d. /He asks//, /They ask//; alm. d. /Er fragt//, /Sie fragen//; rus d. /Она читала//, /Они читают//. Alm. d. felin təsrif olunan hissəsi nəqli cəmlələrdə ikinci yerdə, Azərb. d. isə sonda gəlir. Alm. d. tabeli budaq cümlələrində xəbərin təsrif olunan hissəsi cümlələrin sonunda gəlir. Məs.: /Er schreibt einen Aufsatz// (O, inşa yazır), /Er sagte, dass er krank ist// (o dedi ki, xəstədir).
Kommunikativ baxımdan xəbər həmişə cümlədə yenini - remanı ifadə edir. Generativ transformasional qrammatikada verbal söyləm təkcə feli deyil, həm də feldən asılı olan bütün elementləri (obyektləri) əhatə edir.
H.Bußmann. Göstərilən əsəri, s. 595-596.

ПРЕДИКАТ ИМПЛИЦИТНЫЙ – alm. implizites Prädikat (n), ing. implicit predicate /ım'plısıt 'predıkeıt/, fr. prédicat implicite, azərb. ifadə olunmayan, gizli xəbər. – Əsasən nominativ cümlələrdə işlənir. Məs.: Azərb. d. /Səhər//, /Gecədən düşmüş şeh//; rus d. /Ну//, /Да// və s.
Bax: Предикат ←.

ПРЕДИКАТ ПСИХОЛОГИЧЕСКИЙ – alm. psychologisches Prädikat (n), ing. psychological predicate /saıkə'lɒʤıkəl 'predıkeıt/, fr. prédicat psychologique, azərb. psixoloji xəbər. – Formal məntiqdə məntiqi predikat. Məs.: bu ifadələr məntiqi predikatdır: a) /x yatır/, /x gəncdir/, /x ateist idi/, /x sakitləşdirirdi/, /x susuzdur/; b) /x y-dən cavandır/, /x y-i sevir/, /x y-lə z-in arasında nifaq salır/, /x y-ə (z-lə) işarə edir/. Arqumentlərə əsasən

boş yerlərə uyğun olaraq: a) biryerli (öz arqumentlərinin əlamətlərini bildirir); b) çoxyerlidir (onlar arqumentlər arasındakı əlaqələri bildirir). Generativ semantika məhz xəbərin bu tərifinə əsaslanır.
Bax: Предикат ←.

ПРЕДИКАТИВ – alm. Prädikativ (n), ing. predicative /prɪ'dɪkətɪv/ predicate noun /'predɪkeɪt naʊn/, fr. prédicatif, azərb. predikativ. – Alm. d. /sein/, /werden/, /bleiben/, /scheinen/, /heißen/ köməkçi fellərinin köməyilə isim, sifət və s. xəbər yerində çıxış edirlər. Məs.: /Er ist mein Freund// (o, mənim dostumdur) cümləsində /mein Freund// predikativdir, adlıq halındadır. /Sie heisst ihn einen Verräter// (O, onu xain adlandırır) cümləsində predikativ akuzativ halındadır; predikativ sifətlə ifadə oluna bilər: /Es wird dunkel// (qaranlıqlaşır); o, həmçinin xəbər budaq cümləsilə ifadə olunur: /Womit wir nicht gerechnet haben, war, dass er uns so leichtfertig im Stich lassen würde// (Hesablamadığımız bir şey vardısa, o da o idi ki; o, bizi asanlıqla darda qoya bilərdi).
H.Bußmann. Göstərilən əsəri, s. 597.

ПРЕДИКАТИВНЫЙ – alm. prädikativ, ing. predicative /prɪ'dɪkətɪv/, fr. prédicatif, azərb. predikativ. - Predikativə aid olan.
Bax: Предикат ←.

ПРЕДИКАЦИЯ – alm. Prädikation (f), ing. predication /ˌpredɪ'keɪʃən/, fr. prédication, azərb. predikasiya. – 1) Predikasiya əlamətlərin obyektlərə aid edilməsini və nəticəsini bildirir. Predikasiya vasitəsilə əşyalar kəmiyyət, keyfiyyət, məkan və zaman baxımından dəqiqləşdirilir, ya da onların başqa əşyalara münasibəti bildirilir. Bu əlaqələr xəbərdə öz ifadəsini tapır; 2) Danışıq aktı nəzəriyyəsində referenslə birlikdə danışığın tamamlanmasının tərkib hissəsi kimi çıxış edir. Danışan referens aktı ilə real aləmin obyekt və olaylarına münasibət bildirirsə, predikasiya aktı ilə o, bu referentlərə müəyyən əlamətləri şamil edir; 3) Subyektlə predikat (dilçilikdə), müvafiq olaraq formal məntiqdə arqument və predikat arasındakı əlaqə; 4) Tema və rema arasındakı topik və predikasiya (ing. d. topic və comment). Bu cümlənin tema və remaya bölünməsi deməkdir.
H.Bußmann. Göstərilən əsəri, s. 794-796.

ПРЕДЛИНГВИСТИКА – alm. Vorgeschichte der Sprachwissenschaft (f), ing. prelinguistics /pri:lɪŋ'gwɪstiks/, fr. prélinguistique, azərb. dilçilikdən əvvəlki dilçilik. – Dilçiliyin meydana gəlməsinə qədər olan dövr 3 elm sahəsinin yaranması ilə səciyyələnir:
I. Qrammatika. Bu da tarixən 4 dövrü əhatə edir: a) Sokratdan əvvəlki dövr (e. ə. 600-400). Bu dövr elmdə adla şey arasındakı əlaqələrin öyrənilməsilə məşhurdur; b) klassik fəlsəfə dövrü (e. ə. 400-300) – adla məfhum arasındakı əlaqənin öyrənilməsi; c) klassik fəlsəfədən sonrakı dövr (e. ə. 300-200). «Phyzis» və «thezisin» mənşələrinin araşdırılması;

ç) söz mənalarının açılmasında analogiya və anomaliyanın rolu və sözlər arasındakı əlaqələrin öyrənilməsi.
II. Roma dövrü (e. ə. 100-0). Ritorika dövrü. Latın dilində mətnlərin tərtibi prinsiplərinin öyrənilməsi;
III. Roma dövrü (e. ə. 100 – e. s. 200). Ritorika dövrü. Natiqlər, ritoriklər və dövlət xadimləri latın dilindən siyasi mübarizə vasitəsi kimi istifadə edirdilər.
F.Y.Veysəlli. SDƏ. s. 46-47.

ПРЕДЛОГ – alm. Präposition (f), ing. preposition /ˌprepəˈzɪʃən/, fr. préposition, azərb. sözönü. – Dəyişməyən, cümlə üzvü ola bilməyən, avtosemantik mənası olmayan söz qrupu. Bəzi hallarda zərf mənşəli sözlər öz müstəqim mənalarını saxlayırlar. Məs.: alm d. /durch, während/ və s. Ancaq sözönüləri həmişə aid olduqları sözün müəyyən halda olmasını tələb edir. Məs.: alm. d. Akk. halını tələb edən sözönüləri: /ohne, dürch, für/, Dat. halını tələb edən sözönüləri /aus, bei, von/ və s; Gen. halını tələb edən sözönüləri /während, außerhalb/ və s. Qeyd edək ki, sözönü termini şərtidir, çünki ümumilikdə bu qəbildən olan sözləri bildirmək üçün aşağıdakı terminləri işlədirlər: a) sözönü: alm. d. /in der Stadt/ (şəhərdə); rus d. /в городе/; ing. d. /in the city/; b) qoşma: Azərb. d. /pəncərəyə tərəf/ və s. Qoşmalar türk dillərində geniş yayılıb.; c) sirkompozisiya: alm. d. /um der Ehre willen/ (sənət naminə); ç) ambipozisiya: alm. d. /der Ehre wegen, wegen der Ehre/ (qeyrətə görə). Bir sıra dillərdə əsas nitq hissələrindən sözönülərin yaranması adi haldır. Məs.: alm. d. /angesicht/ (sifət, sima) → /angesichts/ (rəğmən), /weit/ (uzaq) → /unweit/ (uzaq olmayan) → /entsprechen/ (uyğun gəlmək) → /entsprechend/ (uyğun gələn) və s.
H.Bußmann. Göstərilən əsəri, s. 794-796.

ПРЕДЛОЖЕНИЕ – alm. Satz (m), ing. sentence /ˈsentəns/, clause /klɔ:z/ fr. proposition, azərb. cümlə. – Dilin ən kiçik elementlərindən düzələrək, nisbi məna bitkinliyinə, qrammatik struktura malik və intonasiya qəlibi ilə reallaşan vahid. Tarixən cümləyə saysız-hesabsız təriflər verilib. Ancaq onları iki böyük qrupda ümumiləşdirmək olar: 1) struktur dilçilikdə, xüsusən, amerikan dilçiliyində L.Blumfildlə verilən və formal aspektdən yanaşılan tərif. Bu tərifə görə, cümlə ən böyük müstəqil sintaktik formadır ki, bu da qrammatik konstruksiya kimi daha böyük sintaktik formaya daxil olur. Sintaktik təhlil zamanı cümlə tərkib hissələrinə, birləşmələr sözlərə, sözlər morfemlərə, morfemlər fonemlərə bölünürlər. Əks istiqamət – sintez cümlə əmələ gətirir. Generativ qrammatikada cümlə çıxış nöqtəsi kimi götürülür /S/. S isə yeni cümlələrin əmələ gəlməsinə aparan qaydaların tətbiqilə əldə edilir. Bu iki yanaşmada dildanışıq qarşılaşması özünü aydın şəkildə büruzə verir. Əslində danışıq aktında S-in sərhədini müəyyənləşdirmək asan olmur. Bütövlükdə cüm-

ləyə bu aspektlərdən yanaşılır: a) formal yanaşma. Bu zaman xəbərin təsrif olunan hissəsinin yeri əsas götürülür. Alm. d-də bu baxımdan cümlələr 3 yerə bölünür: 1) Xəbərin dəyişən hissəsinin öndə gəlməsi (buraya sual və əmr cümlələri aiddir); 2) Xəbərin dəyişən hissəsinin ikinci yerdə gəlməsi (buraya nəqli cümlələr aiddir); 3) Xəbərin dəyişən hissəsinin sonda gəlməsi (buraya bütün tabeli budaq cümlələri aiddir). Ənənəvi dilçilikdə bunlara ön, nüvə və gərginlik cümlələri deyirlər; b) praqmativ-kommunikativ yanaşma. Bu zaman xəbərin şəkli və yeri əsas götürülür. Burada 4 növ cümlə fərqləndirilir: a) əmr, nəqli, sual və arzu cümlələri; c) bütövlük və tamlıq baxımından yanaşma: sadə, geniş, mürəkkəb cümlələr. Sadə cümlələrdə bir xəbər, genişdə xəbər zərflik və təyinlə genişlənir, mürəkkəblərdə isə iki xəbər olur; ç) asılılıq baxımından cümlə baş və budaq cümlələrə bölünür; d) bir-birinə bağlılığına görə cümlələr tabesiz və tabeli olur. Axırıncılar da öz növbəsində sindedik (bağlayıcılı) və asindedik (bağlayıcısız) olurlar.

J.Ries. Was ist ein Satz? Prag, 1931; E.Seidel. Geschichte und Kritik der wichtigsten Satzdefinitionen. Jena, 1935.

ПРЕДЛОЖНЫЙ – alm. präpositional, ing. pre-positional /ˌprepəˈzɪʃənəl/, fr. prépositf, azərb. sözönülü. – Sözönülülərlə işlənən.

P.H.Matthews. Göstərilən əsəri, s. 794-796.

ПРЕДУДАРНЫЙ – alm. vorbetont, ing. pretonic /prɛˈtɒnɪk/ ˈpri:təʊnɪk/, fr. prétonique, azərb. vurğudan əvvəlki. – Azərb. d. birhecalı isimlər şəkilçi qəbul edəndə kökün hecası buna misal ola bilər. Məs.: /baş/→/başˈı/, /at/→/atˈı/ və s. Alm. d. /be, ge, er, ver, zer, ent, emp, miss/ və s. vurğulu kökdən qabaq gələndə buna misal ola bilər. Məs.: /Bezˈug/ (aidiyyat, örtük), Verˈlag (nəşriyyat), geˈlacht/ /lachen/ (gülmək) felinin partisip II forması.

F.Veysalov (Veysəlli). Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 195-205.

ПРЕДШЕСТВОВАНИЕ – alm. Vorzeitigkeit (f), ing. precedence /ˈpresɪdəns/, anteriority /ˌæntɪərɪˈɒrɪtɪ/, fr. antériorité, azərb. əvvəl gəlmə, qabaqlama. – Hadisənin danışıq məqamından əvvəldə baş verdiyini bildirən kateqorial forma. Alm. d. baş cümlədəki hərəkət budaq cümlələrindən əvvəl baş verdiyini bildirən zaman əlaqəsi. Məs.: /Als ich ihn anrief, hatte er den Brief erhalten/ (Mən ona zəng edəndə o, artıq məktubu almışdı). Cümlə Azərb. d. feli bağlama tərkibilə tərcümə olunur.

H.Bußmann. Göstərilən əsəri, s. 842.

ПРЕДШЕСТВУЮЩЕЕ ВРЕМЯ – alm. Vorzeitigkeit (f), ing. preceding time /prɪˈsi:dɪŋ taɪm/, antecedent /ˌæntɪˈsi:dənt/, fr. antécédent, azərb. qabaqlayıcı zaman.

Bax: Предшествование →.

ПРЕЗЕНС – alm. Präsens (n), ing. presence /'prezəns/, the present tens /ðiːˈprezənt tenz/, fr. présent, azərb. indiki zaman. – 1. Hazırda bir dəfə və ya təkrar baş verən hərəkətin göstəricisi, sərhədsiz, zamandan kənar atalar sözlərində, resept və riyazi hesablamalarda geniş işlənir. Məs.: Azərb. d. /Halva, halva deməklə ağız şirin olmaz//, /Gündə 3 dəfə yeməkdən əvvəl qəbul edin//, /3 x 3 = 9// və s; 2. Keçmişdə baş verib, ancaq indi də mənasını saxlayan söyləmlərdə işlənir. Məs.: /Peyğəmbərimiz deyir ki, ...//. Tarixi hadisəni indiləşdirən hallarda buna prezens historicum (tarixi prezens) deyirlər. Məs.: /Yuxudan dururam, görürəm ki, başımın üstündə bir adam dayanıb//. Gələcəyin ifadəsi üçün. Məs.: Azərb. d. /O, sabah qatarla gəlir// və s. İng. d. indiki zamanın bir göstəricisi var, o da 3-cü şəxsin təkidir /-s/. Alm., rus və Azərb. d. hər şəxsin öz göstəricisi var.
H.Bußmann. Göstərilən əsəri, s. 600.

ПРЕЗЕНТНЫЙ – alm. präsent, ing. present (stem) /'prezənt/stem/, fr. présent, azərb. indiki, hazırki. – İndiki zamana aid olan.
Bax: Презентный ←.

ПРЕЛОМЛЕНИЕ – alm. Brechung (f), ing. breaking, vowel fracture /'breɪkɪŋ/'vaʊəl 'frækʧə/, fr. réfraction, aspect, interprétation, azərb. saitin sınması. – Alm. d. bəzi qüvvətli fellərdə 2-ci və 3-cü şəxsin təkində (indiki zamanda) fel kökündəki /e/ saiti /i/ saitinə keçir. Buna saitin sınması deyilir. Məs.: alm. d. /du sprichst, er, sie, es – spricht/ (sən danışırsan, o danışır).

ПРЕПОЗИЦИЯ – alm. Präposition (f), ing. preposition /ˌprepəˈzɪʃən/, fr. préposition, azərb. ön mövqe.
Bax: Предлоги ←.

ПРЕСУППОЗИЦИЯ - alm. Präsupposition (f), ing. presupposition /ˌpriːsʌpəˈzɪʃən/, fr. presupposition, azərb. presuppozisiya. – Dildə ifadə və söyləmlərin məlum (gizli) danışıqqabağı fikri bildirməsi. Ötən əsrin 70-ci illərində analitik dil fəlsəfəsindən dilçiliyə gətirilmiş məfhumdur. Məsələnin mürəkkəbliyi bəzən adekvat tərcümənin qeyri–mümkünlüyü və məntiqlə dilçilik arasında münasibətlərin qaranlıq qalmasında və ya təbii dillərin təhlilində onların bərabər şəkildə götürülməsindədir. Məntiqdə ona belə bir tərif verilir: S_1 S_2–ni o zaman öncədən görür ki, (presuppozisiya edir ki,) S_1 implisit olaraq S_2–ni və qeyri S_1 S_2–ni ehtiva edir. Məs.: /Almaniyanın bugünkü kralı dazbaşdır// müvafiq olaraq /dazbaş deyildir/. Bu misaldan müxtəlif presuppozisiyalar hasil olur: a) presuppozisiyalar və ehtimallardır ki, söyləmin gerçəklik dəyərində olması üçün onlar yerinə yetirilməlidir; b) presuppozisiyalar inkarlıqda dəyişməz qalırlar; c) presuppozisiyalar assertionlara (deklorativ söyləmlərə) şamil edilirlər. Tədqiqatın maraqları öncə mövcudluq, müvafiq olaraq subyekt ifadələrinin təkliyi ehtimallarına (yuxarıdakı misalda Almaniya-

nın kralı) şamil edilir ki, burada da təhlil xüsusi adlara və göstəricilərə şamil edilir. Bəzən köhnə qrammatikalarda bir sıra terminlərdən istifadə olunurdu (emfatik struktur, subordinasiya və s.). Burada sual doğuran məsələlər də vardır: presuppozisiya cümlələr, söyləmlər, danışan/dinləyən arasındakı məntiqi-semantik gerçəkliyə münasibətdən, kontekstdən asılıdırmı, dil-danışıq şərtləri, praqmatik və s. şərtlərlə bağlıdırmı, danışıq aktından asılıdırmı? Burada hər şey presuppozisiyanı bir və ya bir neçə linqvistik təsvir səviyyəsində açmaqdan asılıdır: a) əgər sintaktik konstruksiyaya əsaslandırılmış presuppozisiya fokus, topikalizasiya və ya subordinasiyadan asılı olarsa, onda çətinlik yaranar; b) əgər semantik-leksik əsaslanan presuppozisiyadırsa, onda hansı inherent məna əlamətləri və ya seçim məhdudiyyətləri nəzərə alınmalıdır; c) praqmatik əsaslandırılan presuppozisiyadırsa, onda sırf linqvistik təsvir tələb olunur. Aşağıdakı dil göstəriciləri presuppozisiyalar üçün təminat verməkdə şübhəli görünür, yəni onlar bütün göstərilən kontekstlərdə eyni presuppozisiyalar aşkar etməkdə konstantdırlar: definit nominal frazalar → faktiv predikat → kvantifikasiya → bağlayıcılar → ədatlar → cümlələrin tema-rema üzvlənməsi, subordinasiya → subkateqorizasiya → seçim məhdudiyyətləri və s. Presuppozisiyaların tədqiqi imperativ – generativ semantika, məntiq və dilçilik, dilçilik və praqmatika, linqvistik və ensiklopedik məsələlərin, habelə mətn – koherensiya və mətn konsTituyentlərinin tədqiqində mühüm rol oynayır. Bəzən isə ondan sui-istifadə edən manipulyativ dil tətbiqi yaranır. Məs.: hakim müttəhimə deyəndə /Siz öz xanımınızı döyməkdən nə vaxt əl çəkəcəksiniz// və s.
H.Bußmann. Göstərilən əsəri, s. 600-603; F.Veysəlli. Dil. Bakı, 2007, s. 271-278.

ПРЕТЕРИТ – alm. Präteritum (n), ing. preterite /'pretərıt/, fr. prétérit, azərb. preterit. – Keçmişdə baş verən hərəkəti ifadə edən zaman forması: 1. Danışıq anına qədər bitmiş hərəkəti ifadə edən zaman forması. Bu zaman formasını epik təsvir zamanı kimi səciyyələndirirlər. Alman dialektlərində öz funksiyasını güclü şəkildə perfektə güzəştə gedib; 2. Perfekt, inperfekt və pluskvamperfekt zaman formalarının köhnəlmiş adı.
H.Bußmann. Göstərilən əsəri, s. 604.

ПРЕФИКС – alm. Präfix (n), ing. prefix /'pri:fıks/, fr. préfixe, azərb. önşəkilçi . – Önşəkilçiləri (prefikslər) bir qayda olaraq isim, sifət (məs.: alm. d. /un-/, /ur-/, /Unfall/ (qəza), /unbekannt/ (naməlum), /uralt/ (çox qədim); ing. d. un-, im- /unproduktive/ (qeyri-məhsuldar), /impossible/ (qeyri-mümkün) və s.) və fellərə artırılır (məs.: alm. d. be-, ge-; /bekommen/ (almaq), /gedenken/ (xatırlamaq); ing. d. be-, in-; /bethink/ (götür qoy etmək), /inflect/ (içəriyə əymək) və s.
Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, s. 212-214.

ПРЕФИКСАЦИЯ – alm. Präfigierung (f), ing. prefixion /pri:fıkʃən/, prefixal /'pri:fıksəl/, fr. préfixation, azərb. önşəkilçiləşmə. – Önşəkilçilərlə (prefiksləşmə) düzələn proses. Prefiksləşmə suffiksləşmə və qoşulma ilə birlikdə sözdüzəltmədə fəal iştirak edir.

Bax: Префикс →.

ПРЕФИКСОИД – alm. Halbpräfix (n), Präfixoid (n), ing.prefixoid /'pri:fıksɒıd/, fr. préfixoïde, azərb. prefiksoid. – Sözdüzəldən elementlər. Məs.: alm. d. /Hauptsadt/ (paytaxt), /hochwertig/ (yüksək qiymətli) sözlərində /stadt/, /wertig/ sözlərinin əvəlində işlənən /Haupt/ (əsas, baş) və /hoch/ (yüksək, uca) sözləri öz əsas mənasından uzaqlaşaraq yeni mənalı sözlər əmələ gətirib. Bu qoşulma (kompozision) və affiksləşmə arasında bir sahədir.

H.Bußmann. Göstərilən əsəri, s. 599.

ПРИВАТИВНОЕ ПРОТИВОПОСТАВЛЕНИЕ – alm. privative Gegenüberstellung (f), ing. privative opposition /'prıvətıv ˌɒpə'zıʃən/, fr. opposition privative, azərb. xüsusi (privativ) qarşılaşma. – Fonoloji oppozisiyaların tipologiyasını işləyib hazırlamış N.S.Trubeskoy qarşılaşmaların üzvləri arasındakı münasibətləri əsas götürərək üç qarşılaşma növündən danışır: privativ, dərəcəli və ekvipolent.

«Privativ qarşılaşmalar elə oppozisiylardır ki, bunlarda üzvlərdən biri əlamətin olması, digəri isə olmaması ilə fərqlənir. Məs.: «cingiltili»-«kar», «burun»-«ağız», «dodaq»-«qeyri-dodaq» və s. Əlaməti olan üzvə «nişanlı» (markalanmış), olmayan üzvə isə «nişansız» (markalanmamış) üzv deyilir. Oppozisiyanın bu növü fonologiya üçün son dərəcə vacibdir».

N.S.Trubeskoy. Göstərilən əsəri, s. 94.

ПРИВАТИВНЫЙ – alm. Privativum (n), ing. privative /'prıvətıv/, fr. privatif, azərb. xüsusi, privativ.

Bax: Привативное противопоставление ←.

ПРИВЕТСТВИЕ – alm. Begrüssung (f), ing. greeting /'grı:tıŋ/, fr. salut, salutation, allocution à l'occasion de, azərb. salamlaşma. – Salamlaşma formaları müxtəlif dillərdə müxtəlif cürdür. Məs.: rus d. /Привет/, /Здравствуйте/; alm. d. /Hello/, /Guten Tag/; Azərb. d. /Salam/, /Axşamınız xeyir/ və s.

O.C.Ахманова. Göstərilən əsəri, s. 352.

ПРИДАТОЧНОЕ ВРЕМЕНИ – alm. Temporalsatz (m), ing. The adverbial clause of time /'ðə əd'vɜ:bıəl klɔ:z əv taım/, fr. temps subordonné, azərb. zaman budaq cümləsi. – Zaman budaq cümlələri baş cümlədəki hal-hərəkətin və ya hökmün zamanını bildirir və zaman zərflərinin suallarına cavab verir. Məs.: Azərb. d. /Bu o vaxtlar idi ki, hamı can deyib, can eşidirdi//; alm. d. /während, solange, bis, seit/ bağlayıcıları ilə

bağlanır. /Ich las, während er schlief// (O yatırdı, mən oxuyurdum), (O vaxt ki, o yatırdı, mən oxuyurdum).
Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli budaq cümlələr. Bakı, 1974, s. 252-268.

ПРИДАТОЧНОЕ ПРЕДЛОЖЕНИЕ – alm. Nebensatz (m), ing. subordinate clause /sə'bɔ:dınıt klɔ:z/, fr. proposition subordonnée, azərb. budaq cümlə. – Baş cümlədən asılı olan, cümlənin tərkibində baş (əsas) cümləyə semantik, struktur və qrammatik cəhətdən tabe olan cümlə. Üzvlənməsinə görə əksər dillərdə asılı, tabeli cümlələrin aşağıdakı növləri fərqləndirilir.
Funksional baxımdan:
1. Mübtəda budaq cümləsi.
2. Xəbər budaq cümləsi.
3. Tamamlıq budaq cümləsi
4. Təyin budaq cümləsi.
5. Zərflik budaq cümlələri.
Üzv cümlədə cümlə üzvlərinin cümlə şəklində genişlənmiş növləri:
1. Belədə baş cümlədəki hər hansı bir üzvün açılmasına xidmət edən üzv cümlə. Məs.: Azərb. d. /O elə sürətlə danışır ki, elə bil dilotu yeyib//. Ancaq üzv cümlə bütövlükdə baş cümləyə yönəlir. Məs.: Azərb. d. /O, sabah gələcək ki, hamı buna ürəkdən sevinəcək//.
2. Asılılıq dərəcəsinə görə: 1-ci, 2-ci və s. dərəcəli budaq cümlələri fərqləndirilir. Məs.: Azərb. d. /O bilirdi ki, Cəmil istedadlı oğlandır, çünki onun istedadlı olması dəfələrlə sübut olunmuşdur//.
3. Formal əlamətlərə görə, bağlayıcılı və bağlayıcısız budaq cümlələri olur. Məs.: /Gəldi ki, gəlmədi, gəlməsəydi, gələrdi//, /Əgər qonaq gəlməsəydi, Cəmil mütləq gələrdi// və s.
Alm. d. şərt budaq cümlələrində felin təsriflənən hissəsi cümlənin ya əvvəlində, ya konyuktivdə, ya da indikativdə gələrək 1-ci yeri tutur. Məs.: /Hätte er gewußt, wäre er nicht gekommen/ (Bilsəydi gəlməzdi) (şərt). /Hat er auch Recht, glaubt ihm doch keiner// (O haqlı olsa da, ona heç kim inanmır) (güzəşt); /Die Hauptsache ist, er bleibt gesund/ (Əsas məslə odur ki, o sağlamdır) (mübtəda), vasitəsiz nitqdə tamamlıq kimi /Er dachte, er hätte kein Geld mehr/ (O fikirləşdi ki, onun daha pulu yoxdur). Alm. d. bir qayda olaraq budaq cümlələrdə xəbərin təsrif olunan hissəsi sonda gəlir.
4. Semantik aspektdən yanaşanda zaman, səbəb, modal, şərt, təyin və s. cümlələrini fərqləndirirlər.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 263; Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı, 1974.

ПРИДАТОЧНОЕ ДОПОЛНИТЕЛЬНОЕ – alm. Objektsatz (m), ing. The object subordinate clause /'ðə əb'ʤıkt sə'bɔ:dıneıt klɔ:z/, fr. subordonnée complétive, azərb. tamamlıq budaq cümləsi. - Tamamlıq budaq

cümlələri baş cümlənin xəbərlərini tamamlamağa xidmət edir və cümlə şəklində tamamlıq funksiyasını yerinə yetirir. Məs.: Azərb. d. /Bütün bunlar ondan irəli gəlir ki, sən heç kəsin fikrini qəbul etmirsən//, /Mən başa düşdüm ki, artıq gecdir//. Formal olaraq tamamlıq budaq cümləsi nisbi (/Kimin kisəsi doludursa, ağzı açıq olar//), sual əvəzliyi ilə düzələn (/Bilirsən, göydə nə qədər ulduz var//), şərt (/Özündən soruşur ki, düz hərəkət edib//), bağlayıcısız (/ Arzu edirəm, Moskvada olaydım//) olur.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 263; Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı, 1974, s. 193-225.

ПРИДАТОЧНОЕ ОБСТОЯТЕЛЬСТВЕННОЕ – alm. Adverbialsatz (m), ing. adverbial subordinate clause /əd'və:bıəl sə'bɔ:dıneıt klɔ:z/, fr. subordonnée circonstancielle, azərb. zərflik budaq cümləsi. – Zərflik budaq cümlələri baş cümlədəki hal-hərəkətin və ya hökmün zamanını, məkanını, icra tərzini, səbəbini, nəticəsini, məqsədini, miqdarını, dərəcəsini, şərtini və s. bildirir və müvafiq suallara cavab verir. Məs.: Azərb. d. /Evə təzəcə çatmışdım ki, həyətdən məni səslədilər// zaman budaq cümləsi və s. Semantik baxımdan zaman, yer, modal, səbəb, nəticə, dərəcə, şərt, güzəşt və s. budaq cümlələri fərqləndirilir.
Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli budaq cümlələr. Bakı, 1974, s. 274-337.

ПРИДАТОЧНОЕ ОПРЕДЕЛИТЕЛЬНОЕ – alm. Attributsatz (m), ing. The attrubutive clause /'ðə ə'trıbjʊtıv klɔ:z/, fr. subordonnée déterminative, azərb. təyin budaq cümləsi. – Təyin budaq cümləsi baş cümlədəki mübtədaya və ya tamamlığa aid olur və onların yanında işlənməyən təyinin əvəzində işlənir. Məs.: Azərb. d. /Bunu o adama de ki, əlində ixtiyar olsun//, /Vay o adamın halına ki, kimisə özündən ağıllı saymır//. Əksər hallarda baş cümlədə /o, bu, elə, belə/ və s. korrelyatları iştirak edir.
Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli budaq cümlələr. Bakı, 1974, s. 225-259.

ПРИДАТОЧНОЕ ПОДЛЕЖАЩНОЕ – alm. Subjektsatz (m), ing. The subject subordinate clause /'ðə 'sʌbʤıkt sə'bɔ:dıneıt klɔ:z/, fr. subordonnée sujet, azərb. mübtəda budaq cümləsi. – Mübtəda budaq cümləsi baş cümlədə buraxılmış və ya korrelyatla ifadə olunmuş mübtəda əvəzinə işlənir və onu budaq cümlə şəklində ifadə edir. Məs.: Azərb. d. /Nə arzulayırdımsa, hamısı həyata keçdi//, /Elə arif adamlar var ki, sözü o dəqiqə başa düşürlər//; alm. d. /Dabei wurde es klar, dass er nicht kommen wird// (Aydın oldu ki, o gəlməyəcək); rus d. /Стало ясно, что он не придет//.
Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli budaq cümlələr. Bakı, 1974, s. 160-182.

ПРИДАТОЧНОЕ МЕРЫ ИЛИ СТЕПЕНИ – alm. Mass und Gradsatz (m), ing. subordinate clause of measure or degree /sə'bɔ:dınıt klɔ:z əv

ˈmeʒə ɔ: dɪˈgrɪ:/, fr. subordonnée **de degré** ou de mesure, azərb. kəmiyyət və dərəcə budaq cümləsi. - **Kəmiyyət** budaq cümləsi baş cümlədəki hərəkətin və ya əlamətin kəmiyyətini bildirir və «nə qədər?» sualına cavab verir. Dərəcə budaq cümləsi **baş cümlədəki** hərəkətin və əlamətin dərəcəsini bildirir və nə dərəcədə? **nə dərəcəyə?** suallarına cavab verir. Məs.: Azərb. d. /Adam nə qədər yaxşılıq **eləsə**, bir o qədər də yaxşılıq görər//, /Bu fədakarlıq sizi elə dərəcəyə **qaldırar** ki, hamı sizə qibtə edər//.
Ə.Abdullayev. Müasir Azərbaycan **dilində** tabeli budaq cümlələr. Bakı, 1974, s. 304-306.

ПРИДАТОЧНОЕ МЕСТА – alm. **Lokalsatz** (m), ing. The adverbial clause of place /ˈðɪ ədˈvɜ:bɪəl klɔ:z **əv pleɪs**/, fr. subordonnée de lieu, azərb. yer budaq cümləsi. - Tabeli **mürəkkəb** cümlələrin tərkibində yer budaq cümləsi baş cümlədən əvvəl **gəlib**, ondakı hal-hərəkətin yerini, məkanını bildirir və xəbərin **suallarına** cavab verir. Məs.: Azərb. d. /Niyyətin hara, mənzilin ora//, /Mən **harada** yaşasam da, harada olsam da, vətənim Azərbaycandır//. Alm. d. **(wo**, woher, wohin) sual sözlərilə bağlanır. Məs.: alm. d. /Er segelte, **wohin** ihn der Wind trieb// (O ora avar çəkirdi, haraya ki, onu külək **aparırdı**).
Ə.Abdullayev. Müasir Azərbaycan **dilində** tabeli budaq cümlələr. Bakı, 1974, s. 268-306.

ПРИДАТОЧНОЕ ОБРАЗА ДЕЙСТВИЯ – alm. Modalsatz (m), ing. subordinate clause of manner /səˈbɔ:dɪnɪt klɔ:z əv ˈmænə/, fr. subordonné circonstancielle de manière, **azərb.** tərzi-hərəkət budaq cümləsi. – Tərzi-hərəkət budaq cümləsi **baş cümlədəki** hərəkətin icra tərzini, üsulunu, vasitəsini bildirir. Məs.: **Azərb.** d. /Şəlalədən su elə tökülürdü ki, adamı valeh edirdi//; alm. d. /Er **schonte** ihn sehr, indem er alles allein auf sich nahm// (O, onu elə **onunla** qoruyurdu ki, hər şeyi öz üzərinə götürürdü).
Ə.Abdullayev. Müasir Azərbaycan **dilində** tabeli budaq cümlələr. Bakı, 1974, s. 293-304.

ПРИДАТОЧНОЕ ПРИЧИННОЕ – **alm.** Kausalsatz (m), ing. The adverbial clause of cause /ˈðɪ ədˈvɜ:bɪəl klɔ:z əv ˈkɔ:z/, fr. subordonnée de causae, azərb. **səbəb** budaq cümləsi. – Səbəb budaq cümləsi baş cümlədə ifadə olunan hərəkətin **səbəbini bildirir** və niyə? nə üçün? nə səbəbə? nəyə görə? suallarına cavab verir. **Məs.**: Azərb. d. /Sən xöşbəxtsən ki, sənin belə dostun var//. Alm. d. **səbəb budaq** cümləsi baş cümləyə (da, weil) bağlayıcıları ilə bağlanır. Məs.: /Er kommt nicht, weil er krank ist// (O gəlmir, çünki xəstədir).
Л.Р.Зиндер, Т.В.Строева. Göstərilən **əsəri**, s. 323-326.

ПРИДАТОЧНОЕ СКАЗУЕМНОЕ – **alm.** Prädikatsatz (m), ing. the predicate subordinate clause /ˈðə **ˈpredɪkeɪt** səˈbɔ:dɪnɪt klɔ:z/, fr. subordonné prédicat, azərb. xəbər budaq **cümləsi**. – Tabeli mürəkkəb cümlənin

tərkibində xəbər budaq cümləsi baş cümlədə korrelyatla ifadə olunan xəbərləri açmağa xidmət edir. Belə cümlələrdə baş cümlənin xəbəri, adətən, /o, bu, elə, belə/ korrelyatları ilə ifadə olunur və baş cümlə xəbərin suallarını tələb edir. Məs.: Azərb. d. /Arzum budur ki, torpaqlarımızı düşmən əsirliyindən xilas edək//, /Məni təəccübləndirən odur ki, qardaşım bu işi məndən niyə gizlədib//; alm. d. /Er ist und bleibt, wie er immer war// (O, qalır və olacaq, necə ki, o, həmişə belədir).
Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli budaq cümlələr. Bakı, 1974, s. 182-193.

ПРИДАТОЧНОЕ СЛЕДСТВИЯ – alm. Konsekutivsatz (m), Folgesatz (m), ing. the adverbial clause of result /ˈðɪ ədˈvɜ:bɪəl klɔ:z əv rɪˈzʌlt/, fr. subordonnée de conséquence, azərb. nəticə budaq cümləsi. – Nəticə budaq cümləsi baş cümlədən doğan nəticəni bildirir. Baş cümlədə ifadə olunan hal, hərəkət və ya hökm səbəb, budaq cümləsi isə onun nəticəsi kimi ortaya çıxır. Məs.: Azərb. d. /Mənə elə cavab verdi ki, deyəcəklərim də yadımdan çıxdı//; rus d. / Он ответил мне так, что я все забыла//.
Л.Р.Зиндер, Т.В.Строева. Göstərilən əsəri, s. 323-326.

ПРИДАТОЧНОЕ СОПОСТАВИТЕЛЬНОЕ – alm. Komparativsatz (m), Vegleichssatz (m), ing. the adverbial clause of comparison /ðɪ ədˈvɜ:bɪəl klɔ:z əv kəmˈpærɪzən/, comparative clause /kəmˈpærətɪv klɔ:z/, fr. subordonné comparative, azərb. qarşılaşdırma budaq cümləsi. – Müqayisə budaq cümləli tabeli mürəkkəb cümlələrdə baş və budaq cümlənin məzmunu bir-biri ilə müqayisə edilir. Belə cümlələrdə adətən budaq cümlə baş cümlədən əvvəl gəlir. Məs.: Azərb. d. /Müəllim onun səsində, davranışında yorğunluq hiss etsə də, fikrindən dönüb yumşalmadı//; alm. d. müqayisə budaq cümlələri baş cümləyə (so, wie, wenn, als, ob, als wenn) bağlayıcıları ilə bağlanır. Məs.: /Er sang so, als ob er Vogel war// (O, elə oxuyurdu ki, sanki quş idi).
Л.Р.Зиндер, Т.В.Строева. Göstərilən əsəri, s. 334-337.

ПРИДАТОЧНОЕ ЦЕЛИ – alm. Finalsatz (m), ing. the adverbial clause of purpose /ðɪ ədˈvɜ:bɪəl klɔ:z əv ˈpɜ:pəs/, fr. subordonné de buf, azərb. məqsəd budaq cümləsi. – Məqsəd budaq cümləsi baş cümlədə ifadə olunan hadisənin icra məqsədini ifadə edir və nə məqsədlə? nə üçün? nədən ötrü? suallarına cavab verir. Məs.: Azərb. d. /Gəlmişəm ki, açıq danışaq//, /Tezdən yola çıxaq ki, gün qızmamışdan şəhərə çata bilək//.
Л.Р.Зиндер, Т.В.Строева. Göstərilən əsəri, s. 327.

ПРИДАТОЧНОЕ УСЛОВНОЕ – alm. Konditionalsatz (m), Bedingungssatz (m), ing. The adverbial clause of condition /ðɪ ədˈvɜ:bɪəl klɔ:z əv kənˈdɪʃən/, fr. subordonnée de condition, azərb. şərt budaq cümləsi. – Şərt budaq cümləsi baş cümlədə ifadə olunan fikri müəyyən şərtlə bağlayır. Bu səbəbdən də şərt budaq cümləsi baş cümlənin bir

üzvünə deyil, bütövlükdə məzmuna aid olur. Şərt budaq cümləsi /-sa/, /-sə/ şərt şəkilçisi vasitəsilə yaranır. Şərt budaq cümləsinin baş cümləyə bağlanmasında /–sa/, /-sə/ şərt şəkilçisindən başqa /əgər/, /hərgah/ bağlayıcıları da iştirak edir. Məs.: Azərb. d. /Səhər işdən tez çıxsa, qoy məni gözləsin//, /Əgər onda mərhəmət vardısa, niyə əvvəldən kömək eləmirdi//.
Л.Р.Зиндер, Т.В.Строева. Göstərilən əsəri, s. 327.

ПРИДАТОЧНОЕ УСТУПИТЕЛЬНОЕ – alm. Konzessivsatz (m), ing. The adverbial clause of concession /ðɪ əd'vɜ:bɪəl klɔ:z əv kən'seʃən/, fr. subordonné concessive, azərb. güzəşt budaq cümləsi. – Güzəşt budaq cümləsində ifadə olunan fikir ya baş cümlədəki fikrə qarşı qoyulur, ya da ona güzəştə gedir. Güzəşt budaq cümlələrinin xəbərləri şərt şəkilçisi və /da/də/ bağlayıcıları ilə işlənir və baş cümləyə həmin vasitələrlə bağlanır. Məs.: Azərb. d. /Zeynəb bacısını bu fikirdən dəfələrlə daşındırmaq istəsə də, onunla açıq söhbət etməyə cəsarət etməmişdi//.
Л.Р.Зиндер, Т.В.Строева. Göstərilən əsəri, s. 330.

ПРИДЫХАТЕЛЬНЫЙ – alm. gehaucht, aspiriert, ing. aspirate /'æspɪrɪt/, fr. aspiré, azərb. nəfəsli. – Alm. və ing. d. kipləşən-partlayışlı /p/, /t/, /k/ samitləri vurğulu saitdən əvvəl və mütləq sonluqda nəfəsli tələffüz olunurlar. Müq. et: alm. d. /tʰatʰ/ (əməl); ing. d. /kʰætʰ/ (pişik) və s.
F.Veysəlli. SDƏ. s. 152-159.

ПРИЗВУК – alm. Beiklang (m), ing. compilimentary sound /kɒmplɪ'mentərɪ 'saʊnd/, fr. son complémentaire, azərb. yarıdımçı səs, keçici səs. – Danışıq prosesində bir səsin tələffüzünə başqa tələffüzün qəfildən qoşulması ilə yaranan əlavə səs. Alm. d. saitlərin söz və ya morfem başlanğıcında səs tellərinin ani kipləşib açılması nəticəsində yaranan knaklaut (şaqqıltılı səs). Müq. et: /'ˀa: bənt/ (axşam), /'ˀa: nən/ (yad etmək) və s.
О.С.Ахманова. Göstərilən əsəri, s. 355.

ПРИЗНАК – alm. Merkmal (n), ing. mark /mɑ:k/, sign /saɪn/, fr. marque, indice azərb. əlamət. – Müəyyən kateqorial mənsubiyyətin açıq ifadəsi. Alm., ing., rus, fr. və Azərb. d. «cingiltilik» bu cür əlamətdir.
F.Veysəlli. SDƏ. s. 156-158.

ПРИЗНАК КОНСТИТУТИВНЫЙ – alm. konstitutives Merkmal (n), ing. constituent mark or feature /kən'stɪtjʊənt mɑ:k ɔ: 'fi:tʃə/, constitutive mark /'kən'stɪtjʊtɪv mɑ:k/, fr. marque constitutif, azərb. konstitutiv əlamət. – Hər hansı bir fonemin və ya dil vahidinin iç əlaməti, qurum əlaməti. Məs.: Azərb. d. /p/ fonemində dodaq, kar, kipləşən-partlayış əlamətləri onun konstitutiv əlamətləridir.
F.Veysəlli. SDƏ. s. 156-158.

ПРИЗНАК КОРРЕЛЯТИВНЫЙ – alm. Korrelationsmerkmal (n), ing. (feature) sign of correlation /'fi:tʃə/saɪn əv ˌkɒrə'leɪʃən/, fr. signe de correlation, azərb. cütlük (korrelativ) əlaməti. – Fonoloji cütlüyün əsası

kimi xidmət edən fərqləndirici əlamət. Fonem cütlərinin və ya sıralarının eyni distinktiv əlamətlərlə fərqlənməsi. Məs.: Azərb. d. səs tellərinin iştirakna görə /p/, /t/, /k/ və /b/, /d/, /q/ samitlərinin fərqlənməsi cingiltilik/karlıq əlamətlərinə söykənir.
F.Veysəlli. SDƏ. s. 162.

ПРИЗНАК РАЗЛИЧИТЕЛЬНЫЙ – alm. Unterscheidungsmerkmal (n), ing. distinctive feature /dɪs'tɪŋktɪv 'fi:tʃə/, fr. signes distinctifs, azərb. fərqləndirici əlamət. – Müəyyən bir dildə ən azı iki sözü və ya söz formasını fərqləndirə bilən fonetik əlamət. Məs.: Azərb. d. /dağ/ # /tağ/ sözləri cingiltili/kar əlamətlərilə fərqlənir.
F.Veysəlli. SDƏ. s. 156-158.

ПРИКЛАДНАЯ ЛИНГВИСТИКА – alm. angewandte Linguistik (f), ing. applied linguistics /ə'plaɪd lɪŋ'gwɪstɪks/, fr. linguistique appliquée, azərb. tətbiqi dilçilik. – Bir sıra fənlərarası dilçilik sahələrini birləşdirən tədqiqatların ümumi adı: etnolinqvistika, kontrastiv dilçilik, leksikoqrafiya, kompüter dilçiliyi, patolinqvistika, maşınla tərcümə, avtomatik informasiya axtarışları, sosiolinqvistika, dil didaktikası, dilin mənimsənilməsi, onun planlaşdırılması, dilin psixolgiyası və psixolinqvistika kimi nəzəri dilçilikdən fərqlənir. Tətbiqi dilçilik, adından bəlli olduğu kimi, problemin həm praktik, həm də nəzəri tərəfini öyrənir. Burada əksər hallarda dilçiliyin tətbiqindən danışılmalıdır. Linqvistik anlayışlırın açılması, fikir, mülahizə və konsepsiyaların şərhi, linqvistik terminlər lüğətlərinin tətbiqi, əlifbaların yaradılması da tətbiqi dilçiliyin sahələri hesab olunur. İndi Almaniyada GAL (Gesellschaft für Angewandte Linguistik) (Tətbiqi Dilçilik Cəmiyyəti 1968-ci ildə yaranıb) və dünya dilçilərinin Beynəlxalq Tətbiqi Dilçilik Assosasiyası (1971-ci ildən) fəaliyyət göstərir.
H.Bußmann. Göstərilən əsəri, s. 599.

ПРИКРЫТЫЙ СЛОГ – alm. gedeckte Silbe (f), ing. covered syllable /'kʌvəd sɪləbəl/, fr. syllable dissimiulée, azərb. örtülü heca. – Samitlə başlayan heca. Məs.: Azərb. d. /ba-la-ca/ sözündə bütün hecalar örtülü hecalardır.
F.Veysəlli. SDƏ. s. 169-172.

ПРИЛАГАТЕЛЬНОЕ – alm. Adjektiv (n), ing. adjective /'ædʒɪktɪv/, fr. adjectif, azərb. sifət. - Sifət əşyanın əlamət və keyfiyyətini bildirən əsas söz qrupudur. Sintaktik baxımdan o ya addan əvvəl gəlir (atributiv funksiya), köməkçi fellə ifadə olunur (predikativ funksiya) və qismən valentlik bildirir. Müq. et: Azərb. d. /hündür hasar/, alm. d. /der hohe Zaun/, /hasar hündürdür/ /Der Zaun ist hoch/, /əqidəsinə sadiq qalmaq/ /der Überzeugung sicher sein/ və s. Bir sıra dillərdə sifət dərəcələnir. İng. və Azərb. d. fərqli olaraq alm. və rus d. təyin rolunda çıxış edən sifətlər təyin etdikləri sözlə birlikdə cinsə, kəmiyyətə və hala görə uzlaşır. Müq. et: alm. d. /das neue Buch/ (новая книга), /die schöne Frau/ (красивая

женщина), /der weise Mann/ (мудрый мужчина); /die neuen Bücher, die schönen Frauen, die weisen Männer/ (новые книги, красивые женщины, мудрые мужчины). Alm. d. sifətlər qüvvətli (pronominal) və zəif (nominal) hallanmaya görə fərqlənirlər. Müq. et:

	qüvvətli hallanma	zəif hallanma
təkdə:	neues Buch	das neue / ein neues Buch
orta cins	neuen Buches	des neuen / eines neuen Buches
	neuem Buch	dem neuen / einem neuen Buch
	neues Buch	das neue / ein neues Buch
kişi cins	neuer Mantel	der neue / ein neuer Mantel
	neuen Mantels	des neuen / eines neuen Mantels
	neuem Mantel	dem neuen / einem neuen Mantel
	neuen Mantel	den neuen / einen neuen Mantel
qadın cinsi	schöne Frau	die schöne / eine schöne Frau
	schöner Frau	der schönen / einer schönen Frau
	schöner Frau	der schönen / einer schönen Frau
	schöne Frau	die schöne / eine schöne Frau

Cəmdə:

neue Bücher (Mäntel, Tafeln)
neuer Bücher (Mäntel, Tafeln)
neuen Büchern (Mänteln, Tafeln)
neue Bücher (Mäntel, Tafeln)

die neuen Bücher (Mäntel, Tafeln)
der neuen Bücher (Mäntel, Tafeln)
den neuen Büchern (Mänteln, Tafeln)
die neuen Bücher (Mäntel, Tafeln)

Elə sifətlər var ki, həm təyin, həm də predikativ rolunda çıxış edir. Məs.: /qırmızı/, /böyük/, /kiçik/. Elələri də var ki, ancaq təyin rolunda çıxış edir. Məs.: /sabiq prezident/; /prezident sabiqdir/ (olmaz). Elələri də var ki, ancaq predikativ rolunda çıxış edir. Məs.: alm. d. /Die Regierung ist Schulde/ (hökumət günahkardır), ancaq /die schulde Regierung/ (günahkar hökumət) demək olmaz. Sifətlə zərf arasında müəyyən semantik oxşarlıq var. Bu bəzən özünü aydın göstərir, onda hər ikisi öz rolunda çıxış edir. Məs.: /yazı oxunaqlıdır/ və /oxunaqlı yazı/. Bu əlamət aydın və ya gizli şəkildə ifadə olunursa (məs.: böyük, kiçik) və s., onda nisbi sifətlərdən danışırıq. Bu əlamət bir qayda olaraq, aidiyyət bildirən sifətlərdə özünü göstərir. Məs.: alm. d. /Schulisch/ (məktəbli) və s.
H.Glinz. Grammatiken im Vergleich. Tübingen, 1994.

ПРИЛОЖЕНИЕ – alm. Apposition (f), ing. apposition /ˌæpəˈzɪʃən/, fr. apposition, azərb. əlavə. – Cümlədə **özündən** əvvəlki üzvün daha aydın, daha dəqiq ifadə olunmasına xidmət **edir**. Onlar hansı üzvə aid olursa, həmin üzvün də vəzifəsini daşıyır, **yəni mübtədanın** yanında əlavə mübtəda, xəbərin yanında əlavə xəbər və **s. kimi** işlənir. Məs.: Azərb. d. /O, öz fikirlərini adətən dostuyla - Həsənlə **bölüşərdi**//, /Qışın oğlan çağında, yəni yanvarın ortalarında, havalar **mülayim** keçirdi//.
A.A.Реформатский. Göstərilən əsəri, **s. 354**.

ПРИМЫКАНИЕ – alm. Anschließung (f), ing. parataxis /ˈpɑrətaksɪs,-ˈtɑksɪːz/, contiguity /ˌkɒntɪˈgjuːɪtɪ/, fr. **parataxe**, azərb. yanaşma. – Yanaşma əlaqəsinin heç bir qrammatik **vasitəsi** yoxdur. Yanaşma əlaqəsi əsasında yaranmış birləşmələrdə tabe **olan** tərəfi yanaşan, tabe edən tərəfi isə yanaşılan söz adlandırırlar. **Məs.: Azərb.** d. /dəmir qapı/, /taxta pilləkən/, /qırmızı alma/, /boz buludlar/, /xeyli adam/, /beş nəfər/. Alm. və ing. d. yanaşma daha çox cümlə **səviyyəsində** çıxış edir. Bu zaman əlaqə bağlayıcılı (sindedik) və bağlayıcısız (asindedik) olur. Məs.: ing. d. /I am tired// (mən yorğunam), /I am **hungry**// (mən acam) və /I am tired and I am hungry//.
A.A.Реформатский. Göstərilən əsəri, **s. 354**.

ПРИМЫКАЮЩИЙ – alm. beiordnend, ing. adjoining /əˈdʒɔɪnɪŋ/, paratactic /pɑrəˈtɑktɪk/, parataxis /ˈ**parə**taksɪs/, fr. adhérent, adjacent, azərb. yanaşılan. - Yanaşma əlaqəsi **əsasında** yaranmış birləşmələrdə yanaşılan (əsas) tərəf. Məs.: Azərb. d. /**dəmir** qapı/, /beş nəfər/ birləşmələrində /qapı/ və /nəfər/ sözləri yanaşılan **tərəflərdir**.
Bax: Примыкание ←.

ПРИНЦИП БИНАРНЫЙ – alm. binäres Prinsip (n), ing. binary principle /baɪnərɪ ˈprɪnsɪpəl/, fr. principe binaire, azərb. ikili (binar) prinsip. – İkili qarşılaşma prinsipi. Buna dilçilikdə dixotomik prinsip də deyirlər.
Bax: Классификация акустическая ←.

ПРИНЦИП ВОСХОДЯЩЕЙ ЗВУЧНОСТИ – alm. Prinzip der steigenden Sonorität (f), ing. principle of increasing sonority /ˈprɪnsɪpəl əv ɪnˈkriːsɪŋ səˈnɒrɪtɪ/, fr. principe de sonorité ascendant, azərb. Yüksələn səslilik prinsipi. – Dilçilikdə ilk **dəfə** danimarkalı dilçi O.Yespersen (1860-1943) tərəfindən irəli sürülmüşdür. Bu nəzəriyyəyə görə, heca kəsişməsi maksimum səsliliklə (sonorluq) və minimum səslilik qovuşuğunda baş verir. Bu prinsip dil **səslərinin** minimumdan maksimuma doğru artmasını əsas götürərək onları 10 qrupa bölür:
1. /p/, /t/, /k/ - kipləşən-partlayışlı kar samitlər;
2. /f/, /s/, /ʃ/, /ç/, /x/, /pf/, /ʦ/, /ʧ/ - novlu kar samitlər;
3. /b/, /d/, /g/ - kipləşən-pratlayışlı cingiltili samitlər;

4. /v/, /q/, /j/ - novlu cingiltili samitlər;
5. /m/, /n/, /ŋ/ - kipləşən-partlayışlı sonorlar;
6. /l/ - dilyanı, süzülən samit;
7. /R/ (r) – dilçək-dilönü titrək samit;
8. /i:/, /ɪ/, /y:/, /y / - ön sıra saitləri;
9. /e:/, /ɛ/, /ə/, /ø:/, /œ/ - orta sıra saitləri;
10. /u:/, /ʊ/, /o:/, /ɔ/, /a/ - arxa sıra saitləri.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 131.

ПРИНЦИП ДИХОТОМИЧЕСКИЙ – alm. dichotomisches Prinzip (n), ing. dichotomic principle /dʌɪkɒ'tɒmik 'prɪnsɪpəl/, fr. principe dichotomique, azərb. Dixotomik (ikili) prinsip.

Bax: Принцип бинарный ←.

ПРИНЦИП ИММАНЕНТНОСТИ – alm. immanentes Prinzip (n), ing. principle of immanence /'prɪnsɪpəl əv 'ɪmənəns/, fr. principe d'immanence, azərb. immanentlik prinsipi. – Dil strukturunun daxili xüsusiyyətlərini nəzərə alan, daim onu sosiyyələndirən prinsip. Bu zaman psixolji, sosioloji, fizioloji və digər amillər nəzərə alınmır.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 116.

ПРИНЦИП РЕЛЕВАНТНОСТИ – alm. Relevanzprinzip (n), ing. principle of relevance /'prɪnsɪpəl əv 'relɪvəns/, fr. principe de pertinence, azərb. relevantlıq prinsipi. – Bu prinsip dil vahidlərinin həm maddi, həm də semantik cəhətdən fərqləndirilməsinə xidmət edir.

Bax: Релевантность →.

ПРИСОЕДИНЕНИЕ – alm. Verknüpfung (f), ing. linking /'lɪŋkɪŋ/, annexation /ˌænek'seɪʃən/, fr. annexion, azərb. birləşmə. – İki dil vahidinin düz xətt boyunca birləşməsi. Qrammatik cəhətdən birləşmə sintaktik baxımdan 3 əlaqə əsasında mümkündür: uzlaşma, idarə və yanaşma. Fonoloji və morfoloji səviyyədə birləşmələr distribusiya qanunu ilə nizamlanır. Fel, bir qayda olaraq, birləşməni bildirən «+» və ya (-) simvolları ilə işarə edilir. Bir birləşmədən ən azı iki elementdən (məs.: NP+VP) ibarət olur. Generativ transformasional qrammatikada birləşmə bazis hissədə əlavə qaydaları ilə düzəlir. Generativ fonologiyada əlamətlərin avtomatik müəyyənləşməsi qaydası (ing. d. linking).

H.Bußmann. Göstərilən əsəri, s. 832.

ПРИСТУП – alm. Anglitt (m), Einsatz (m) ing. onglide /ɒnglaɪd/, fr. début, tension, azərb. başlanğıc. – Saitin tələffüzünə başlamazdan əvvəl kipləşən səs telləri qəfildən bir-birindən aralanarkən şaqqıltıya bənzər səs eşidilir (knaklaut). Knaklaut transkripsiyada belə göstərilir: [ʔ.]. Alm. d. onun funksiyası söz və morfemlərin başlanğıcını göstərməkdir. İng. d. buna */glottal stop/* deyirlər. Məs.: /Die 'ˀarbae̯t/ (iş).

F.Veysalov (Veysälli). Einführung in die Phonologie. Baku, 2004.

ПРИСТУП СИЛЬНЫЙ – alm. fester Einsatz (m), ing. rough glide /rʌf glaıd/, fr. attaque dure, azərb. sərt başlanğıc.

Bax: Приступ ←.

ПРИСТУП СЛАБЫЙ – alm. leiser Einsatz (m), ing. soft gilde /sɒft glaıd/, fr. attaque douce, azərb. yumşaq başlanğıc. – Sərt başlanğıcla deyilən səslərdən başqa yerdə qalan bütün fonemlər yumşaq başlanğıcla tələffüz olunurlar.

H.Bußmann. Göstərilən əsəri, s. 84-85.

ПРИТЯЖАТЕЛЬНЫЙ – alm. possesiv, ing. possessive /pə'zesıv/, fr. possesif, azərb. yiyəlik. – Mənsubiyyət və ya yiyəlik bildirən əlaqə. Azərb. d. yiyəlik əvəzliklərilə yanaşı (mənim, sənin, onun və s.) bir mənsubiyyət şəkilçisi də var. Müq. et: /atamın kitabı/. Bu nümunədə /m/ və /ı/ mənsubiyyət bildirən şəkilçilərdir.

R.Conrad. Göstərilən əsəri, s. 204.

ПРИЧАСТИЕ – alm. Partizip (n), ing. participle /'pa:tsıpəl/, fr. participe, azərb. feli sifət. - Feli sifət felə və sifətə xas xüsusiyyətləri özündə birləşdirən və feldən düzələn formadır. Feli sifət əşyanın hərəkətlə bağlı əlamətini bildirir. Feli sifət fellərə xüsusi şəkilçilər artırmaqla düzəlir: Azərb. d. isimlərdən və ya isimləşən sözlərdən əvvəl mövqe tutub, onların əlamətini bildirir, təyin olunan sözlə yanaşma əlaqəsi əsasında birləşib zamana, şəxsə və kəmiyyətə görə dəyişmir; növ, təsirlilik, inkarlıq şəkilçilərindən sonra gəlir. Məs.: Azərb. d. /yazılan məktub/, /yazılmış məktub/, /deyilən söz/, /işləyən cihaz/, /dağılan tifaq/ və s. Feli sifət indiki və keçmiş zamana aid ola bilər. Məs.: Azərb. d. /yazan oğlan/, ancaq /yazmış oğlan/. Hind-Avropa dillərində, məs.: alm. d. infinitiv forma kimi prezens partisip (I) və preterit partisip (II) fərqləndirirlər. Müq. et: /lesen-lesend/ (P.I) və /gelesen/ (P.II). Partisip I hərəkətin prosesini, Partisip II isə onun nəticəsini bildirir. Bundan başqa, Partisip II mürəkkəb zaman formalarının (Perfekt, Plusquamperfekt və Futurum II) və passivin düzəlməsində iştirak edir.

Məs.: Aktiv Perfekt: /Ich habe gelesen// (Mən oxudum), /Ich bin gelaufen// (Mən qaçdım).

Plusquamperfekt: /Ich hatte gelesen// (Mən oxumuşdum), /Ich war gelaufen// (Mən qaçmışdım).

Futurum II: /Ich werde gelesen haben// (Mən oxumuş olacağam), /Ich werde gelaufen sein// (Mən qaçmış olacağam).

Passiv:

/Das Buch ist gelesen worden// (Kitab oxunub)

/Das Buch war gelesen worden// (Kitab oxunulub)

Partisipin ad əlamətləri: a) dərəcələnir. Müq. et: /die treffendste/gelungenste Formulierung/ (ən yaxşı baş tutmuş, nail olunmuş ifadə); b) antonim düzəldir. Müq. et: /vergnügt/ (ləzzətli) /missvergnügt/ (ləzzətsiz);

c) mürəkkəb formalar düzəldir. Müq. et: /ausschlaggebend/ (kifayət qədər); ç) həm təyin, həm də predikativ kimi çıxış edir. Müq. et: /eine hochbegabte Lehrerin// (yüksək qabiliyyətli müəllimə), /Sie ist hochbegabt// (qadın yüksək qabiliyyətlidir) və s.
H.Bußmann. Göstərilən əsəri, s. 563.

ПРИЧАСТИЕ ВОЗВРАТНОЕ – alm. reflexives Partizip (n), ing. reflexive participle /rɪ'fleksɪv 'pa:tsɪpəl/, fr. participe réfléchi, azərb. qayıdış feli sifəti. - Felin qayıdış formasından düzələn feli sifət. Məs.: Azərb. d. /yuyunan qızcığaz/, /daranan saç/; alm. d. /die sich veränderte Formulierung/ (dəyişilmiş ifadə) və s.
А.А.Реформатский. Göstərilən əsəri, s. 281, 300, 319, 334.

ПРИЧАСТИЕ КРАТКОЕ – alm. Kurzform des Partizips (f), ing. short-form participle /ʃɔ:t fɔ:m 'pa:tsɪpəl/, fr. participe bref, azərb. qısa feli sifət. - Rus d. sifətə aid şəkilçilərlə işlənib və predikativ funksiyası yerinə yetirən feli sifət forması. Məs.: rus d. /выплачен – выплачена – выплачено - выплачены/.
А.А.Реформатский. Göstərilən əsəri, s. 281.

ПРИЧАСТИЕ НАСТОЯЩЕГО ВРЕМЕНИ – alm. Präsens-Partizip (n), ing. the present participle tense /ðɪ: prezənt 'pa:tsɪpəl tens/, fr. participe présent, azərb. indiki zaman feli sifəti. - İş və hərəkətin danışıq anında baş verdiyini bildirən feli sifət. Məs.: Azərb. d. /yanan ocaq/, /közərən ocaq/, /axan su/, /gülən körpə/ və s.

Бах: Причастие ←.

ПРИЧАСТИЕ ОБОСОБЛЕННОЕ – alm. parenthetisches Partizip (n), ing. participle attribute /'pɑ:tɪsɪpəl ə'trɪbju:t/, parenthetic attribute /ˌpærən'θetɪk ə'trɪbju:t/, fr. participe particulier, azərb. xüsusiləşmiş feli sifət. – Feli sifətlə ifadə olunmuş xüsusiləşmiş təyin. Məs.: Azərb. d. /Qoca, o dünya görmüş kişi, belə məsələlərdə heç kəsin köməyinə ehtiyac duymazdı//.
О.С.Ахманова. Göstərilən əsəri, s. 363.

ПРОДЛЕНИЕ – alm. Dehnung (f), Verlängerung (f), ing. lengthening /'leŋθəni:nɪŋ/, fr. allongement, azərb. uzanma. – German dillərinin tarixində mühüm rol oynayan sait uzanması. Aşağıdakı növləri məlumdur: a) cingiltili samitlər, xüsusən də sonorlar qarşısında saitlər uzanır. Məs.: /e:Rdə/ ← «ƐRdə»; b) açıq hecalarda saitlər uzun tələffüz olunur. Məs.: orta dövr alman dilində /'zagən/ - yeni dövr alman dilində /'ˌza:gən/. Bunun əksinə olaraq saitlər aşağıdakı hallarda qısa tələffüz olunur. Müq. et: a) qapalı hecalarda orta dövr alman dilində /dahte/ → yeni dövr alman dilində /daxtə/.
R.Conrad. Göstərilən əsəri, s. 5-9.

ПРОДУКТИВНЫЙ – alm. produktiv, ing. productive /prə'dʌktıv/, fr. productif, azərb. məhsuldar. – Dildə daha çox söz yaranmasında iştirak edən şəkilçilər məhsuldar şəkilçilər adlanır. Məs.: alm. d. /-er/, /-ung/ şəkilçiləri məhsuldardır. Müq. et: /Lehrer/ (müəllim), /Übung/ (çalışmaq); ing. d. /-able/ məhsuldar şəkilçidir. Müq. et: /vacuumable/ (boşluqlu).
P.H.Mattews. Göstərilən əsəri, s. 297.

ПРОИЗВОДЯЩАЯ ОСНОВА – alm. Stammform (f), ing. underlying stem /ˌʌndə'laıŋ stem/, fr. thème producteur, azərb. törədici əsas.- Azərb. d. /dəmirçi/ sözündə /dəmir/ əsasdır, /dəmirçilik/ sözündə isə /dəmirçi/ əsasdır.
R.Conrad. Göstərilən əsəri, s. 252.

ПРОИЗВОДЯЩЕЕ СЛОВО – alm. Grundwort (n), ing. underlying word / /ˌʌndə'laıŋ wɜ:d/, fr. mot producteur, azərb. törədici söz. – Mürəkkəb sözdə ikinci yerdə gələn söz. Məs.: Azərb. d. /quşəppəyi/ sözündə ikinci yerdə gələn söz (əppək) ismin bütün xüsusiyyətlərini özündə cəmləşdirir. Alm. d. /Tischlampe/ sözündə /Tisch/ təyinedici söz, /Bestimmungswort/, ikinci yerdə gələn /Lampe/ isə əsas (Grundwort) sözdür.
R.Conrad. Göstərilən əsəri, s. 252.

ПРОИЗНОШЕНИЕ – alm. Aussprache (f), ing. pronunciation /prəˌnʌnsı'eıʃən/, fr. prononciation, azərb. tələffüz. - Ədəbi tələffüz, dialektlərin və digər bölgə, icma (ləhcə, şivə) və s. danışıq formalarının fövqündə duran tələffüzdür. Əsasən danışıq aktına əsaslanmalı, rəvan, axıcı və səlist olmalıdır. Adətən tələffüz norması qurumlar tərəfindən işlənib hazırlanır. Almaniyada bu 1898-ci ildə çapdan çıxan, T.Zibsin (1870-1941) adı ilə bağlı olan orfofonik lüğətdə öz əksini tapıb. İngilis dilində isə bunu Standard Pronuncation və ya Received Pronuncation adlandırırlar. Bunun əsasını D.Jones (1881-1967) qoymuşdur.
Th. Siebs. Deutsche Aussprache. Reine und gemäßigte Hochlautung. Berlin, 1969; D.Jones. The Pronunciation of English. Cambridge, 1988.

ПРОКЛИЗА – alm. Proklise (f), ing. proclisis /prəʊ'klısıs/, fr. proclise, azərb. prokliza. – Vurğulu sözdən əvvəl gələn sözün vurğulu sözlə birgə tələffüzü. Vurğulu sözdən əvvəl gələn vurğusuz sözlər. Transkripsiyada /‿/ qövs işarəsilə vurğulu sözə birləşdirilir. Məs.: alm. d. /in der Schule// (məktəbdə).
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 45-46.

ПРОКЛИТИКА – alm. Proklitik (f), ing. proclitic /prəʊ'klıtık/, fr. proclitique, azərb. proklitika. - Vurğulu sözdən əvvəlki mövqedə gəlib tələffüzcə ona tabe olan, vurğu daşımayan söz. Məs.: rus d. /под Москвой/, /над морем/, /за Родину/ və s.
A.A.Реформатский. Göstərilən əsəri, s. 191.

ПРОНОМИНАЛИЗАЦИЯ – alm. Pronominalisierung (f), ing. pronominalization /prəʊˈnɒmɪnəlɪzeɪʃən/, fr. pronom personnel, azərb. səxs əvəzlikləri.

Bax: Местоимение личное ←.

ПРОПИСНАЯ БУКВА – alm. Großbuchstahe (m), Anfangsbuchstabe (m), ing. capital letter /ˈkæpɪtl ˈletə/, fr. majuscule, azərb. böyük yazılan hərf, baş hərf. – Cumlənin başlanğıcında gələn birinci hərf həmişə böyük yazılır. Alm. d. bütün isimlər hər yerdə böyük hərflə yazılır. Xüsusi adlar da həmişə böyük hərflə yazılır.

Duden. Die deutsche Rechtschreibung. Bd. 1, Mannheim, 1996, 890 s.

ПРОСОДЕМА – alm. Prosodem (n), ing. prosodeme /ˈprɒsədɪm/, fr. prosodème, azərb. prosodem. – «Pros» yunanca əlavə, bundan başqa, «odē»- oxuma və «–em» şəkilçisindən düzələrək seqment vahidlərin (fonem və fonem ardıcıllıqlarının) üzərinə sərilib onları intonasiya və vurğu baxımından təşkil edən ən kiçik hissə. Mor və ya hecada reallaşan prosodik əlamət.

R.Conrad. Göstərilən əsəri, s. 212.

ПРОСОДИЯ – alm. Prosodie (f), ing. prosody /ˈprɒsədɪ/, fr. prosodie, azərb. prosodiya. – Prosodik vahidlərin (səsin tonunu, intensivliyini və zamanını) məcmusunu öyrənən dilçilik şöbəsi. Prosodiya ritmi, səsin sürətini, fasiləni və s. əhatə edir.

R.Conrad. Göstərilən əsəri, s. 212.

ПРОСОДИЧЕСКАЯ ШКОЛА – alm. prosodische Schule (f), ing. prosodic(al) school /ˈprɒsədɪk(ə)l sku:l/, fr. école prosodique, azərb. prosodik məktəbi. – Prosodiya məktəbini ingilis dilçisi J.R.Firs (1890-1960) yaratmışdır. O, belə iddia edirdi ki, dil sosial prosesin tərkib hissəsi kimi götürülməlidir. Ona abstraksiya səviyyələrinin müxtəlif spektrindən yanaşılmalıdır. Prosodiya ilə bağlı fikirlərini J.Firs ötən əsrin 40-cı illərindən inkişaf etdirməyə başlayıb. Bu məktəb iki mühüm məsələyə önəm verir. Biri polisistem prinsipdir ki, burada hecanın və ya digər strukturun bir yerində kontrastlar sistemi digərindən asılı olaraq formalaşır. Məs.: CVC (samit+sait+samit) strukturunda bir sistem «C»-də, o birisi isə ikincidə fəaliyyət göstərir. Digəri isə prosdiyanın strukturunda bir-birini izləyən nöqtələr arasındakı asılılığa görə oynadığı roldan ibarətdir. Məs.: VC strukturunda sadə prosodik kontrast uzun sait və sonra gələn cingiltili samitin bir qismində (məs.: /ag/ «lag» (geridə qalmaq) sözündə və qısa sait və sonra gələn kar samitdə (məs.: /-ask/ «lask» (çatışmazlıq) sözündə reallaşır. Təhlilin son mərhələsində xətti struktur reallaşmanın aspekti kimi götürülür. Lakin prosodik məktəbin ideyaları J.Firsin ölümündən sonrä inkişaf etmədi.

H.Mattews. Göstərilən əsəri, s. 130, 301.

ПРОСТЫЕ ОМОНИМЫ – alm. einfache Homonyme (Pl.), ing. simple homonyms /sımpl hɒməunımz/, fr. homonymes simples, azərb. sadə omonimlər. – Səslənməsinə (ifadə planına) görə üst-üstə düşən, müxtəlif məna bildirən sadə omonim sözlər. Məs.: Azərb. d. /top/ (silah növü) – /top/ (idman aləti).
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 205.

ПРОСТАЯ ОСНОВА – alm. einfacher Stamm (m), ing. simple stem /sımpəl stem/, fr. thème simple, azərb. sadə əsas. – Dilin müasir durumunda kök və şəkilçi morfemlərə bölünə bilməyən əsas. Məs.: Azərb. d. /şəhər/, /kənd/, /od/, /ot/, /buz/ və s.
R.Conrad. Göstərilən əsəri, 252.

ПРОСТОЕ СЛОВО – alm. einfaches Wort (n), ing. simple word /sımpəl wɜ:d/, fr. mot simple, azərb. sadə söz. – Tərkibində sözdüzəldici şəkilçilər olmayan və ya dilin müasir durumu baxımından kök və şəkilçilərə ayrıla bilməyən sözlər. Məs.: Azərb. d. /daş/, /baş/, /yol/, /kol/, /əl/, /ayaq/ və s.
Bax: Простая основа ←.

ПРОСТОЕ ГЛАГОЛЬНОЕ СКАЗУЕМОЕ – alm. einfaches verbales Prädikat (n), ing. simple verbal predicate /sımpəl 'vɜ:bəl 'predıkeıt/, fr. prédicat verbal simple, azərb. sadə feli xəbər. – Feli xəbər kəmiyyətə və şəxsə görə ingilis, alman və Azərbaycan dillərində uzlaşır. Məs.: Azərb. d. /Qonaqlar sabah gələcəklər//, /Dərslər payızda başlanacaq//. Ancaq rus dilində xəbər mübtəda ilə keçmiş zamanda cinsə görə də uzlaşır. Müq. et: Azərb. d. /O oxuyur//; alm d. /Er liest//; ing. d. /He reads/, ancaq rus dilində /Он читает/, /Она читает/, /Она читала/, /Он читал/, /Они читали/ və s.
H.Bußmann. Göstərilən əsəri, s. 595.

ПРОСТОЕ ИМЕННОЕ СКАЗУЕМОЕ – alm. einfaches nominales Prädikat (n), ing. simple nominal predicate /simpl 'nɒ:mınəl/'nɒmınl 'predıkeıt/, fr. prédicat nominal simple, azərb. sadə ismi xəbər. – Sadə isim, sifət, say, əvəzlik və zərflə ifadə olunmuş xəbər. Məs.: Azərb. d. /Bu nə qəşəng yaylıqdır//. /Köləlik insana yaraşmayan xüsusiyyətdir//. Rus d. heç bir köməkçi fel və ya qrammatik vasitə olmadan yalnız intonasiya ismi xəbərin göstəricisi ola bilir. Müq. et: /Он учитель/, /Мы работники/. Azərb. d. isə xəbər şəkilçiləri bunlardır: /-yır/⁴, /-dı/⁴, /-imiş/⁴. Alm. və ing. d. bu köməkçi fel vasitəsilə ifadə olunur. Alm. d. /sein/, /werden/ (olmaq), /bleiben/ (qalmaq), /scheinen/ (görünmək), /heißen/ (adlanmaq); ing. d. /to be/ (olmaq), /may/, /could/ (modal fellər), /have/ (malik olmaq) kimi köməkçi fellərdir.
Müq. et: /Er ist Lehrer/ (O müəllimdir); /He could have done it/ (O bunu soyuqqanlıqla etdi) və s.
Bax: Предикат ←.

ПРОСТОРЕЧИЕ – alm. Umgangssprache (f), ing. colloquialism /kə'ləukwɪəˌlɪsəm/, popular language /'pɒpjulə 'læŋgwɪʤ/, fr. langage populaire, azərb. adi danışıq, sadə danışıq. - Ədəbi dilin normalarına uyğun gəlməyən geniş işlək sözlər, ifadələr və tərkiblərlə zəngin olan, gündəlik həyatda istifadə olunan və dialektlərin fövqündə duran danışıq forması. E.Koseriu (1921-2002) dil konsepsiyasında dilin diatopik üzvlənməsinin bir qolu. Bu danışıq tərzi ədəbi dillə dialekt arasında olan, bölgə çalarlıqlarından və dialektlərdən azad danışıq tərzi. İngilis dilində bunu kollokvial (collocvial) danışıq adlandırırlar.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 7.

ПРОТАЗИС – alm. Protasis (f), ing. protasis /'prəʊtəsɪs/, fr. protase, azərb. protazis. – Psixoloji dilçilikdə ritorik fərqləndirmə üçün gərginlik yaradan (protazis) və gərginliyin açılması (apodozis) mərhələləri birbirindən fərqləndirilir. Struktur baxımdan protazis tabelilik, apodozis isə tabesizliyə uyğun gəlir. Məs.: Azərb. d. /Gələcəkdə elə etmək lazımdır ki, universitet elmi kadrlar hazırlamaqla məşğul olsun// cümləsində birinci hissə protazisdir.
H.Bußmann. Göstərilən əsəri, s. 618.

ПРОТЕЗА – alm. Prothese (f), ing. prothesis /'prɔθɪsɪs/, fr. protèse, azərb. proteza, səs artımı. – Klassik fonetikada tələffüzü asanlaşdırmaq məqsədilə sözün əvvəlinə artırılan səs. Məs.: Azərb. d. /Rza/ əvəzinə /irza/, /rəng/ əvəzinə /irəng/, /stəkan/ əvəzinə /istəkan/. Latın dilindəki /st, sp, sk/ samit birləşmələri fransız və ispan dillərinə keçəndə onların arasına /e/ saiti əlavə edilir.
Müq. et: latın dilində: /spiritus/, /stella/, /schola/; ispan dilində: /espiritus/, /estella/, /etoile/, /ekole/ (ruh, ulduz, məktəb).
O.C.Ахманова. Göstərilən əsəri, s. 51.

ПРОТИВИТЕЛЬНЫЙ – alm. adversativ, gegenüberstellend, ing. adversative /əd'vɜ:sətɪv/, fr. adversatif, contradictif azərb. qarşılaşdırma, ziddiyyət. – Qarşılaşdırma bildirən, qarşılaşdırma mənasına malik olan, cümlə üzvlərinin, yaxud da bütöv cümlələrin sintaktik birləşməsində istifadə olunan qarşılaşma. Məs.: Azərb. d. /Həsən gəncdir, lakin təcrübəlidir//. Qarşılaşma tabeli budaq cümləsində budaq cümlədə ifadə olunan fikir baş cümlədəki fikrə qarşı qoyulur. Məs.: alm. d. /Während zwei von Geiseln freigesprochen wurden, erhielten die anderen Zwei hohe Strafen// (Girovlardan ikisi azad edildi, digər ikisi yüksək miqdarda cərimə olundu).
H.Bußmann. Göstərilən əsəri, s. 51.

ПРОТИВОПОСТАВЛЕНИЕ БИНАРНОЕ – alm. binäre Opposition (f), ing. binary opposition /'baɪnərɪ ɒpə'zɪʃən/, fr. opposition binaire, azərb. ikili (binar) qarşılaşma. – Dil vahidlərində eyni elementin, keyfiy-

yətin və əlamətin olub-olmamasına əsaslanan qarşılaşma növü. İkili qarşılaşmada /A-dır/ və /A deyildir/ prinsipi əsas götürülür. Dilçilikdə ikili qarşılaşdırma R.Yakobson və onun həmkarları tərəfindən konsepsiya halında işlənib hazırlanmışdır. Bu təsnif fərqləndirici əlamətlərin ikili (dixotomik və ya binar) prinsipinə əsaslanır. Onlar ümumiyyətlə 12 fərqləndirici əlamətin mövcudluğu prinsipini irəli sürərək qeyd edirdilər ki, elə dil ola bilər ki, orada bu əlamətlərin heç də hamısı iştirak etməsin. Məs.: Azərb. d. saitlərin qalın (açıqlıq) və incəliyə (qapalılıq) görə qarşılaşması».

F.Yadigar (Veysəlli). Fonetika və fonoloiya məsələləri. Bakı, 1993, s. 166; F.Veysəlli, SDƏ, s. 165-166.

ПРОТИВОПОСТАВЛЕНИЕ ГРАДУАЛЬНОЕ – alm. graduelle Opposition (f), ing. gradual opposition /ˈgrædjʊəl ɒpəˈzɪʃən/, fr. opposition graduelle, azərb. dərəcəli qarşılaşma. – Dərəcəli qarşılaşmalar o qarşılaşmalara deyilir ki, onların üzvləri eyni əlamətin müxtəlif dərəcəsilə səciyyələnir. Məs.: çənənin müxtəlif açıqlığı ilə tələffüz olunan və ya tonun yüksəkliyi ilə deyilən iki sait arasındakı oppozisiya. Məs.: alm. d. /u-o, ü-ö, i-e/.

N.S. Trubeskoy. Göstərilən əsəri s. 94.

ПРОТИВОПОСТАВЛЕНИЕ ИЗОЛИРОВАННОЕ – alm. isolierte Opposition (f), ing. isolated opposition /ˈaɪsəleɪtɪd ɒpəˈzɪʃən/, fr. opposition isolée, azərb. təcrid edilmiş qarşılaşma. – Üzvləri arasındakı münasibət sistemin başqa üzvləri arasında təkrarlanmayan oppozisiya. Məs.: alm. d. /p/ və /ʃ/ oppozisiyası təcrid edilmiş oppozisiyadır, çünki alman dilinin fonoloji sistemində elə bir fonem cütü yoxdur ki, onun üzvləri arasındakı münasibət /p/ və /ʃ/ arasındakı münasibətin eyni olsun.

Bax: Противопоставление градуальное ←.

ПРОТИВОПОСТАВЛЕНИЕ ПРИВАТИВНОЕ – alm. privative Opposition (f), ing. privative opposition /ˈprɪvətɪv ɒpəˈzɪʃən/, fr. opposition privative, azərb. privativ qarşılaşma. - Privativ qarşılaşma elə qarşılaşmadır ki, bu üzvlərdən biri əlamətin olması, digəri isə olmaması ilə fərqlənir. Məs.: «cingiltili» - «kar», «burun»- «ağız», «dodaq» - «qeyri-dodaq» və s. əlaməti olan üzvə «nişanlı», olmayan üzvə isə «nişansız» üzv deyilir. Oppozisiyanın bu üzvü fonologiya üçün son dərəcədə vacibdir.

Bax: Противопоставление бинарное ←.

ПРОТИВОПОСТАВЛЕНИЕ ПРОПОРЦИОНАЛЬНОЕ – alm. proportionale Opposition (f), ing. proportional opposition /prəˈpɔːʃənəl ˌɒpəˈzɪʃən/, fr. opposition proportionnelle, azərb. proporsional qarşılaşma. - Proporsional qarşılaşma elə qarşılaşmadır ki, onun üzvləri arasındakı münasibət sistemin digər üzvləri arasındakı münasibətlərlə eyni olması ilə səciyyələnir. Məs.: /p/ - /b/ qarşılaşması proporsionaldır, çünki

/p/ və /b/ arasındakı münasibət /t/ və /d/ və ya /k/ və /g/ arasındakı münasibətin eynidir.

Bax: Противопоставление изолированное ←.

ПРОТИВОПОСТАВЛЕНИЕ ЭКВИВАЛЕНТНОЕ – alm. äquivalente Opposition (f), ing. equivalent opposition /ɪ'kwɪvələnt ˌɒpə'zɪʃən/, fr. opposition d'équivalence, azərb. ekvivalent qarşılaşma. - Ekvivalent qarşılaşmalar elə qarşılaşmalara deyilir ki, onların hər iki üzvü məntiqi cəhətdən eyni hüquqludur, bu o deməkdir ki, nə eyni əlamətin eyni dərəcəsidir, nə də həmin əlamətin təsdiqi və inkarıdır. Məs,: alm. d. /p-t/, /f-k/ və s. Ekvivalent oppozisiyalar dildə ən çox işlənir.

Bax: Противопоставление градуальное ←.

ПРОФЕССИОНАЛИЗМ – alm. Berufslexika (f), Profesionalismus (m), ing. professionalism /prə'feʃənəlɪzəm/, fr. terme de métiers, azərb. peşə bildirən sözlər (professionalizmi). – Sənət, peşə və ixtisasla bağlı yaranan ifadə və söyləmlər. Məs.: rus d. /играть первую скрипку/ (birinci skripkada çalmaq), /тянуть волынку/ (oğruların dilində).

A.Ə.Əbdürrəhmanov. Azərbaycan dilində sənət və peşə adları. Bakı, 1998.

ПРОШЕДШЕЕ ВРЕМЯ – alm. Vergangenheit (f), ing. past tense /pɑ:st tens/, fr. passé composé, azərb. keçmiş zaman. - Danışıq zamanına nisbətdə keçmiş zamanda icra olunmuş və ya olunmamış iş və hərəkəti bildirən felin zaman forması. Məs.: Azərb. d. /Zəng vuruldu, dərs başlandı//, /Dənizkənarı parkda gəzməkdən əldən düşmüşdüm//.

Bax: Имперфект ←.

ПРОШЕДШЕЕ НЕСОВЕРШЕННОЕ – alm. imperfektive (unvollendete) Vergangenheit (f), ing. past imperfective /pɑ:st ɪm'pɜ:fɪktɪv/, fr. passé imperfectif, imparfait, azərb. bitməmiş keçmiş tərz. – İş və hərəkətin bitmədiyini, son həddini göstərməyən tərz. Məs.: Azərb. d. /Uşaqlar tədbirə hazırlığı davam etdirməkdə idilər//. Rus dilində bitməmiş hərəkət bütün zamanlarda müvafiq olaraq bitmiş zamana qarşı qoyulur. Bu zaman onları fərqləndirən qrammatik vasitələr müxtəlif ola bilər.

Müq. et:

bitməmiş	bitmiş	qrammatik vasitələr
делал	сделал	prefiks
толкал	толкнул	suffiks
собирал	собрал	daxili fleksiya
достигал	достиг	daxili fleksiya
насыпа'л	нас'ыпал	vurğu
брал	взял	suppletivizm

A.A.Реформатский. Göstərilən əsəri, s. 255.

ПРУССКИЙ ЯЗЫК – alm. Prussisch (n), ing. Prussian language /prʌʃən 'læŋgwɪʤ/, fr. le prussien, la langue prussienne, azərb. prus dili. - Baltika dillərindən biridir. Bəzən onu alman dilinin prussiya ləhcəsindən fərqləndirməkdən ötrü qədim prus dili adlandırırdılar. Prus dili cənub-şərqi Pribaltikada işlənmişdir. XVIII əsrin əvvələrində Prus dili ölü dilə çevrilmiş və onun daşıyıcıları alman dilindən istifadə etməyə başlamışlar. Fonoloji sistemi üçün uzun və qısa saitlərin qarşılaşmalrı səciyyəvidir, samitlər sistemi bəsitdir, vurğu sərbəstdir və s.
R.Trautmann Die altpreussischen Sprachdenkmäler. Gotteburg, 1910.

ПРЯМАЯ РЕЧЬ – alm. direkte Rede (f), ing. direct speech /dɪ'rekt spi:ʧ/, fr. discours direct, azərb. vasitəsiz nitq. – Başqasına məxsus nitqin olduğu kimi, sözbəsöz verilməsi. Vasitəsiz nitq müəllif sözündən əvvəl, ortada, sonda müstəqil cümlə şəklində gəlir. Məs.: V. fon Humboldt demişdir: «Dil xalqın ruhudur».
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 42.

ПРЯМОЕ ДОПОЛНЕНИЕ – alm. direktes Objekt (n), ing. direct object / dɪ'rekt 'ɒbʤɪkt/, fr. complément d'objet direct, azərb. vasitəsiz tamamlıq. – Vasitəsiz tamamlıq hərəkətlə bilavasitə bağlı olub, hərəkətin təsirinə məruz qalan obyekti ifadə edir. Vasitəsiz tamamlıq müəyyənlik bildirdikdə kimi?, nəyi?, haranı? suallarından birinə, qeyri-müəyyənlik bildirdikdə isə yalnız nə? sualına cavab verir. Məs.: Azərb. d. /Bağban ağacı suladı//, /Uşaq kitabı götürdü//, /Uşaq kitab aldı//. Bu cür tamamlıq məchul növdə qrammatik mübtədaya çevrilir. Məs.: Azərb. d. /Ağac bağban tərəfindən sulandı//. Əksər hallarda bu cür tamamlıq təsirlik halında ifadə olunur.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 39.

ПРЯМОЕ ЗАИМСТВОВАНИЕ – alm. direkte Entlehnung (f), ing. direct borrowing /dɪ'rekt 'bɒrəʊɪŋ/, direct loan word, adoption /dɪ'rekt /daɪ'rekt/ ləʊn wɜ:d/ə'dɒpʃən/, fr. emprunt direct, azərb. birbaşa sözalma. – Sözün mənbə dildən digər dilə ikinci dilin vasitəsi ilə deyil, birbaşa keçməsi. Məs.: Azərb. d. /reyxstag/, /bundestag/ sözləri alm. d. rus dilinə birbaşa keçmişdir.
R.Conrad. Göstərilən əsəri, s. 74.

ПРЯМОЕ ЗНАЧЕНИЕ – alm. direkte Bedeutung (f), ing. denotativ meaning /dɪ'nəʊtətɪv 'mi:nɪŋ/, direct sense/meaning /dɪ'rekt/daɪ'rekt /sens/'mi:nɪŋ/, fr. sens propre, azərb. həqiqi, müstəqim məna. - Sözün məcazi (obrazlı, ritorik) mənasından fərqli olaraq, əsl, həqiqi mənası, sözə əlavə edilən emosional-ekspressiv çalarlardan uzaq mənası. Məs.: Azərb. d. /daş bina/ ifadəsində /daş/ sözünün əsil mənası təbii, çansız bərk cisimdən tikilmiş bina bildirirsə, /daş qəlbli/ ifadəsində isə həmin söz məcazi mənada işlənmişdir.
R.Conrad. Göstərilən əsəri, s. 49.

ПРЯМОЕ УПРАВЛЕНИЕ – alm. direkte Rektion (f), ing. direct government /dı'rekt /daı'rekt/ 'gʌvənmənt/'gʌvəmənt/, fr. régime propre, azərb. vasitəsiz idarə. – Qoşmalardan istifadə olunmayan idarə növü. Məs.: Azərb. d. /Mən onu tanıyıram//, /Kitab tələbənin əlindədir//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 111.

ПРЯМОЕ ФОНОЛОГИЧЕСКОЕ ПРОТИВОПОСТАВЛЕНИЕ – alm. direkte phonologische Gegenüberstellung (f), ing. direct phonological opposition /dı'rekt/daı'rekt/ ˌfəunə'lɒdʒıkəl ˌɒpə'zıʃən/, fr. opposition phonologique directe, azərb. vasitəsiz fonoloji qarşılaşma. – Qarşılıqlı şəkildə əvəzlənən fonemlərin fonoloji qarşılaşmasından yaranan qarşılaşma. Məs.: /p/ # /b/ qarşılaşması və s.
Bax: Противопоставление ←.

ПРЯМОЙ ВОПРОС – alm. allgemeine Frage (f), Satzfrage (f), ing. direct question /dı'rekt 'kwestʃən/, fr. question directe, azərb. vasitəsiz sual. – Sözün əsl mənasında sual, dinləyiciyə cavab (məlumat) almaq məqsədilə ünvanlanan sual. Azərbaycanlı tədqiqatçı C.Axundov (1932) bu sual növünü əvəzliksiz sual növü adlandırır. Onun intonasiya və /mi/[4] şəkilçisi ilə əmələ gəlməsini xüsusi qeyd edir. Ümumi dilçilik ədəbiyyatında bunu ümumi sual cümlələri adlandırırlar. Məs.: Azərb. d. /Sən, bu işləri vaxtında təhvil verə biləcəksən//? /Bəli//.
C.Axundov. Azərbaycan dilində sual cümlələri (eksperimental-fonetik tədqiq). Bakı. 1998, s. 67.

ПРЯМОЙ ОБЪЕКТ – alm. direktes Objekt (n), ing. direct object /dı'rekt/daı'rekt/ 'ɒbdʒıkt/, fr. objet directe, azərb. vasitəsiz tamamlıq (obyekt).
Bax: Прямое дополнение ←.

ПРЯМОЙ ПОРЯДОК СЛОВ – alm. gerade Wortreihe (f), ing. normal word-order /'nɔ:məl wɜ:d 'ɔ:də/, fr. ordre direct des mots, azərb. adi, düzgün söz sırası. – İnversiyanın əksinə olaraq cümlədə sözlərin adi (normal) düzümü. Azərbaycan dilində cümlədə mübtəda xəbərdən əvvəl gəlir. Müq. et: /Uşaqların sevinci yerə-göyə sığmırdı//. Alm. d. nəqli cümlələrdə felin təsrif olunan hissəsi ikinci yerdə, Azərb. d. cümlənin sonunda gəlir. Müq. et: /Er spielt Schach/ (O şahmat oynayır).
R.Conrad. Göstərilən əsəri, s. 299.

ПСИХОЛИНГВИСТИКА - alm. Psycholinguistik (f), ing. Psycholinguistics /'saıkəulıŋ'gwıstıks/, fr. psycholinguistique, azərb. psixolinqvistika. - Danışıq prosesini, danışıq fəaliyyətini dilin mənimsənilməsi və qavranılması prosesini öyrənən elm sahəsi. Burada iki mühüm aspekt fərqləndirilir: a) uşaqlarda dilin formalaşması; b) dil fəaliyyətinin psixoloji mexanizminin təcrübələr və s. yolu ilə öyrənilməsi. Burada qram-

matika avtonom koqnitiv sistem kimi götürülür. Eyni zamanda dildə ünsiyyət fərdlərarası proses kimi araşdırılır.
P.H.Matthews. Oxford Concise Dictionary of Linguistics. Oxford, 1977, s. 303; Психолингвистика в очерках и извлечениях. Хрестоматия. M., 2003.

ПСИХОЛОГИЧЕСКОЕ ПОДЛЕЖАЩЕЕ – alm. psychologisches Subjekt (n), ing. Psychological subject /ˌsaɪkəˈlɒdʒɪkəl sʌbdʒɪkt/, fr. sujet psychologique, azərb. psixoloji mübtəda. - Qrammatik ifadəsindən asılı olmayaraq şüurda birinci əmələ gələn və psixoloji əhəmiyyətinə görə daha mühüm hesab edilən aktiv üzv. Məs.: Azərb. d. /Çıxır dağ döşünə körpə quzular// – cümləsində */çıxır/* psixoloji mübtədadır. Danışıq prosesində birinci səslənən */çıxır/* sözünü eşidirik, dərk edirik və şüurumuzda */çıxmaq/* anlayışı haqqında təsəvvür yaranır. Cümlənin üzvlənməsini psixoloji mübtədaya və psixoloji xəbərə bölən ilk dəfə H.Paul (1846-1921) olmuşdur.
F.Yadigar. (Veysəlli). GDG. s. 301.

ПСИХОЛОГИЧЕСКОЕ СКАЗУЕМОЕ – alm. psychologisches Prädikat (n), ing. psychological predicate /ˌsaɪkəˈlɒdʒɪkəl ˈpredɪkeɪt/, fr. prédicat psychologique, azərb. psixoloji xəbər. – Qrammatik ifadəsindən asılı olmayaraq şüurda ikinci yerdə gələn təsəvvür. Məs.: Azərb. d. /Sığındım eşqinə bir pay görmədim// – cümləsində /bir pay görmədim/ psixoloji xəbərdir. Bu cümlənin birinci hissəsi isə psixoloji mübtədadır.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 222.

ПСИХОЛОГИЯ ЯЗЫКА – alm. Sprachpsychologie (f), ing. Psychology of language /saɪˈkɒlədʒɪ əv ˈlæŋgwɪdʒ/, fr. psychologie de la langue, azərb. dilin psixologiyası. – Dilin inkişafını, funksiyasını və daxili tərəfini öyrənən psixolinqvistika bölməsi.
Bax: Психолингвистика ←.

ПСИХОФОНЕТИКА – alm. Psychophonetik (f), ing. psychophonetics /saɪˈkəʊfəˈnetɪks/, fr. psychophonétique, azərb. psixofonetika. – Səsli dillə onun psixi korrelyatları arasındakı əlaqələri öyrənən fənlərarası tədqiqat sahəsi. Bu tədqiqatların nəticələrilə psixoatriya, fonotriya və loqopediya maraqlanır.
И.А.Бодуэн де Куртенэ. Избранные труды по общему языкознанию. M., 1963. т. 1-2.

ПУНКТАЦИЯ – alm. Rechtschreihung (f), ing. punctuation /ˌpʌŋktʧuˈeɪʃən/, fr. ponctuation, azərb. punktasiya. - 1. Durğu işarələrindən istifadə qaydaları və bu qaydaların məcmusu; 2. Mətn daxilində durğu işarələrinin işlədilməsi qaydaları.
Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. Bakı, 1972, s. 254-307.

ПУРИЗМ – alm. Purismus (m), ing. purism /'pjʊərɪzəm/, fr. purisme, azərb. purizm. – (Latın dilində «purus» - «təmiz, saf» deməkdir). Dilin lüğət tərkibinə yad mənşəli (əcnəbi) söz və ya ifadələrin keçməsinə qarşı şüurlu surətdə mübarizənin aparılması, dilin əcnəbi ünsürlərdən təmizlənməsi, dilin təmizliyinin qorunması. Əslində purizim xalqların öz dillərinin saflığını, ictimai-siyasi müstəqilliyini və mədəniyyətitnin qorunması işində vacib məqamlarındandır. Məs.: bu gün həyatımızda bəzən /sədd/ sözü əvəzinə /baraj/, /yetərsay/ əvəzinə /kvorum/ kimi əcnəbi dildəki ifadələri zorla bizə sırımağa çalışırlar. Müq. et: /qolu Arif vurdu/ əvəzinə /qol Arifdən gəldi/; /top tora dəydi/, /toxundu/ əvəzinə /top tora qovuşdu/ və s.
P.H.Matthews. Göstərilən əsəri, s. 304.

ПУШТУ – alm. Puschtu-Sprache (f), ing. Pushtoo, Pushtu /'pʌʃtu:/, Afghan /'æfgæn/, fr. pushtu, pochtu, azərb. puştu. – İran dilləri ailəsinə mənsub olan dillərdən biri. Əsasən Əfqanıstan və Pakistanda yayılmışdır. Puştu dilində 25 milyona qədər əhali danışır. Əfqanıstanda ədəbi dil kimi fəaliyyət göstərən iki dildən (dari dililə bərabər) biridir. Çoxsaylı ləhcə və şivələri əsasən iki dialektdə birləşir: şərqi və ya pişəvər-Cəlalabad və qərbi və ya Qəndəhar dialekti.
Е.Э.Бертельс. Строй языка пушту. Л., 1936., Н.А.Дворянков. Язык пушту. М., 1960.

-P-

РАВНОВЕСНЫЙ ДИФТОНГ – alm. gleichwertiger Diphthong (m), ing. equilibrium diphthong /ˌi:kwɪ'lɪbrɪəm 'dɪfθɔŋ/, fr. diphtongue équipondérant, azərb. bərabərtərəfli diftonq.

Bax: Дифтонг истинный ←.

РАВНОЗНАЧНЫЕ СЛОВА – alm. gleichbedeutende Wörter (Pl.), ing. equivalent words /ɪ'kwɪvələnt wɜ:dz/, fr. mots équivalents, azərb. eynimənalı sözlər.

Bax: Синонимы →.

РАВНОКОНЕЧНОСТЬ - alm. Homogleichendlichkeit (f), ing. homoeoteleuton /hɔˌmi:ətɪ'lju:tən/, fr. homéotéleute, azərb. eynisonluluq. – Söz və sintaqmın sonunda səslənmənin üst-üstə düşməsi. Adətən nəsr əsərlərində bundan qaçmağa çalışırlar, ondan yalnız xüsusi üslubi fənd kimi istifadə olunur. Məs.: Azərb. d. /Köhnə qonşular alatoranlıqda, xoruzun ilk banı, hamıdan xəlvəti Tükəzbanı yuxudan oyadıb şəhərə yola düşdülər//.

O.C.Ахманова. Göstərilən əsəri, s. 375.

РАВНОМЕРНОЕ УДАРЕНИЕ – alm. gleichmäßige Betonung (f), ing. even stress /'i:vən 'stres/, equal stress /'i:kwəl 'stres/, fr. accent a mesure égalle, azərb. bərabərmeyarlı, bərabərdərəcəli vurğu. – Müasir ing. d. vurğunun xüsusi növüdür ki, mürəkkəb sözlərdə sözün söyləmdəki yerindən asılı olaraq bu və ya digər hecanın üzərinə düşməsi. Məs.: ing. d. /Chinése: he is Chi'nese/ (o, çinlidir), lakin /a Chinése cup/ (çin fincanı).

O.C.Ахманова. Göstərilən əsəri, s. 375.

РАЗВЕРТЫВАНИЕ – alm. Unterbreitung (f), ing. expansion /ɪks'pænʃən/, development /dɪ'veləpmənt/, fr. déploiement, déroulement, azərb. genişlənmə. – Sadə cümlələrin və ya quruluşların ikincidərəcəli üzvlər vasitəsilə genişlənməsi. Müq. et: Azərb. d. /Uşaq danışır/ → /Soyuqdan donmuş uşaq dili topuq vura-vura danışırdı/ və s.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 145.

РАЗГОВОРНЫЙ – alm. umgangssprachlich, ing. colloquial /kə'ləʊkwɪəl/, fr. familier-iére, langagier,- iére, azərb. adi danışıqla bağlı, adi danışığa aid olan.

Bax: Разговорный язык→.

РАЗГОВОРНЫЙ СТИЛЬ ЯЗЫКА – alm. umgangssprachlicher Stil (m), ing. spoken language style /'spəʊkən 'læŋgwɪdʒ staɪl/, colloquial style of language /kə'ləʊkwɪəl staɪl əv 'læŋgwɪdʒ/, fr. style de la langue

parlée, azərb. dilin danışıq üslubu. – Qeyri-rəsmi, gündəlik məişətdə, ailədə və s. istifadə olunan danışıq üslubu. Danışıq dili adətən kitab dilinə qarşı qoyulur. Danışıq dilinin səciyəvi xüsusiyyətləri aşağıdakılardır: a) danışıq aktı hazırlıqsız baş verir; b) danışıq aktı qeyri-rəsmi baş verir; c) danışanlar söhbətdə bilavasitə iştirak edir.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 63.

РАЗЛИЧИЕ НЕЗАВИСИМОЕ - alm. unabhängiger Unterschied (m), ing. independent difference /ˌɪndɪ'pendənt 'dɪfərəns/, fr. distinction indépendant, azərb. müstəqil fərqlənmə.
Bax: Фонологическое различие →.

РАЗЛОЖЕНИЕ - alm. Zerlegung (f), Gliederung (f), ing. distraction /dɪ'strækʃən/, decomposition /ˌdi:kɔmpəˌzɪʃən/, fr. décomposition, dissolutionte, azərb. parçalanma, bölünmə. – Mürəkkəb və ya düzəltmə sözün iki və daha artıq morfemdən tərtib olunduğu kimi dərk olunması. Məs.: /süd-gölü/, /diş-kirəsi/, /çörək-ağacı/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 113.

РАПАНУИ – alm. Rapanui (n), ing. Rapanui /ˌræpə'nu:/, fr. langue rapanuie, azərb. rapanui. – Polinez dillərindən biridir. Pasxi adasında yayılmışdır. Bu dildə 1000-ə qədər əhali danışır. Pasxi adasında dövlət dili kimi fəaliyyət göstərən ispan dilinin güclü təsirinə məruz qalmışdır.
И.К.Федорова. Мифы, предания и легенды о Пасхи. М., 1978.

РАСПОЛОЖЕНИЕ - alm. Anordnung (f), ing. arrangement /ə'reɪndʒmənt/, fr. disposition, arrangement, azərb. yerləşmə, düzülüş. – Sintaqmatik səviyyədə dil vahidlərinin müəyyən ardıcıllıqla düzülməsi. Fonoloji səviyyədə fonemlərin düzülüş qaydalarını fonotaktika, morfoloji səviyyədə morfemlərin düzülüş qaydalarını öyrənən sahəyə morfematika deyirlər. Leksematika sözlərin və söz birləşmələrinin, sintaqmatika isə söyləm və cümlələrin düzülüşünü öyrənir. Amerikan strukturalizmində dilin ən kiçik qrammatik formal elementini taqmem adlandırırlar ki, bu da müasir taksemə qarşı qoyulur. Taksonomik strukturalizmin tənqidinə cavab olaraq K.L.Payk relevant əlamətlər tərəfini emik (fonemik) və səs tərəfini etik (fonetik) səviyyələri adlandırmaqla cümlədə doldurulan yerlə (Füllstellen, slotts, məs.: mübtədanın və ya xəbərin yeri) dolduran element (Füllelemente, fillers, məs.: isim, əvəzlik, infinitiv və digər nitq hissələri) arasındakı əlaqəni taqmem adlandırır. Əslində bu, forma ilə funksiya arasındakı əlaqənin öyrənilməsi deməkdir. Məs.: Azərb. d. /Cəmil dilləri sevir// cümləsində bu əlaqələri belə göstərmək olar:

M + T + X
I + I + X
M : I + T + I + X : F.

F.Veysəlli. SDƏ, s. 256; P.H.Matthews. Göstərilən əsəri, s. 371-372.

РАСПРЕДЕЛЕНИЕ (ДИСТРИБУЦИЯ) - alm. Verteilung (f), Distribution (f), ing. distribution /ˌdɪstrɪ'bju:ʃən/, fr. distribution, répartition, azərb. distribusiya. – Hər bir dil vahidinin dildə rast gəlinən bütün fonetik və morfoloji əhatəsinin məcmusu onun distribusiyası adlanır. Məs.: alm. d. /Der Tisch ist rund// (masa dəyirmidir), /Der Baum ist rund (klein, gross)// (Ağac yumrudur (balacadır, böyükdür) və s. Burada /der/ adlardan, özü də kişi cinsində olan isimlərdən əvvəl gəlir. Onu (ein, mein, dein, sein) və s. kimi determinatlar eyni vəziyyətdə əvəz edə bilərlər. Bu yolla biz sözlərin distribusiyasını müəyyənləşdirə bilirik.
F. Yadigar (Veysəlli). GDG. s. 251; F.Veysəlli. SDƏ. s. 159.

РАСПРОСТРАНЕНИЕ - alm. Erweiterung (f), ing. extension /ɪks'tenʃən/, fr. diffusion, élargissement, azərb. genişlənmə. – 1) Morfoloji vahidin xətti uzunluğunun onun tərkibinə affikslərin daxil edilməsi ilə genişləndirilməsi. Məs.: Azərb. d. /dəmir-dəmirçi-dəmirçidən/; 2) Cümlə tərkibi vəsitəsilə genişlənir. Məs.; Azərb. d. /Dünyaya yaraşıq verən, azadlıq gətirən, məhəbbəti ölməz dastana çevirən insan odur//.
O.C.Ахманова. Göstərilən əsəri, s. 379.


РАСПРОСТРАНЕННЫЙ - alm. erweitert, ing. expanded /ɪks'pændɪd/, fr. répandu,-e, azərb. genişləndirilmiş. - Tərkibində əsas cümlə üzvlərindən, yəni mübtəda və xəbərdən başqa ikinci dərəcəli cümlə üzvləri (feli bağlama və feli sifət tərkibləri, həmcins üzvlər və s.) olan cümlə. Məs.: Azərb. d. /Ayaqyalın, qarasaçlı, utancaq qız yenə qapı dalında görünməz oldu//.
Bax: Распространение ←.

РАСПРОСТРАНЕННОЕ ПРЕДЛОЖЕНИЕ - alm. erweiterter Satz (m), ing. expanded sentence /ɪks'pændɪd 'sentəns/, fr. proposition développée, azərb. genişləndirmiş cümlə. - Tərkibində əsas üzvlərdən başqa ikinci dərəcəli üzvlərin olduğu cümlə. Məs.: Azərb. d. /Dünəndən bəri arası kəsmədən yağan leysan yağış evlərin zirzəmisini ağzına qədər su ilə doldurmuşdu//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 145.

РАССЛОЕНИЕ - alm. Schichtung (f), ing. stratification /strætɪfɪ'keɪʃən/, fr. stratification, différenciation, azərb. laylanma (üslublara ayrılma). – 1) Bədii əsərlərin dilində müxtəlif üslubların yaranması (təzahürü); 2) Dil strukturunun səviyyələrə və ya laylara bölünməsi: fonoloji, morfoloji, leksik, sintaktik, mətn və s. səviyyələri.
E.Benveniste. Probleme der allgemeinen Sprachwissenschaft. München, 1974, s. 135-150.

РАСТВОР - alm. Öffnungsgrad (m), ing. opening /'əʊpənɪŋ/, aperture /'æpətʃə/'æpətjuə/, fr. aperture, azərb. ağzın açılması. - Tələffüz zamanı alt çənənin aşağı düşməsi dərəcəsi, dodaqların yanlara çəkilmə dərəcəsi.

/a/ saitində çənə ən çox aşağı düşür, /i/ saitində isə çənənin açılış dərəcəsi, demək olar ki, sıfra bərabərdir. F.Veysəlli öz tədqiqatlarının nəticələrinə əsaslanaraq alman dili saitlərini çənənin açılma dərəcəsinə görə aşağıdakı sxemdə verir:



F.Y.Veysəlli. SDƏ. s.182.

РАСТВОРА СВОЙСТВА СТЕПЕНИ - alm. Öffnungsgradeigenschaft (f), ing. classification a degree of aperture, opening /ˌklæsɪfɪˈkeɪʃən əv dɪˈgrɪ: əv ˈæpətʧəˈæpətjuəˈəupənɪŋ/, fr. particularités du degré d'aperture, azərb. açılma dərəcəsinin xüsusiyyətləri. - Açılma dərəcəsi dildə sait fonemlərin artikulyator əlamətlərə görə təsnifinin əsasında duran əsas xüsusiyyətdir, çünki saitlər məhz açılma dərəcəsinə görə müxtəlif tembrə malikdir. Alt çənənin aşağı düşüb-qalxması əlamətinə görə saitlər açıq və qapalı ola bilirlər. Azərb. d. eyni keyfiyyətli iki sait bir-birindən bu əlamətə görə fərqlənmir. Ancaq /i, u, ü, e, ö, ı, o, æ, a/ düzümündə biz ən qapalı /i/ saitindən başlayıb ən açıq /a/ saitinə doğru getmiş oluruq.
F.Yadigar (Veysəlli). GDG. s. 231.

РАСТЯЖЕНИЕ - alm. Dehnung (f), ing. lengthening /ˈleŋθənɪŋ/, fr. allongement, distension, azərb. uzanma, uzadılma. - Müəyyən bir səsin uzunluq ölçüsünün artırılmasıdır ki, o da bəzi fonetik məqamla bağlıdır.

Məs.: alm. d. /la·bo·rant/ sözündə /o·/ yarımuzundur. Ancaq /la·'bo:r/ (laboratoriya) sözündə /o:/ uzundur, çünki vurğu altına düşür.
F.Vejsalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 203.

РАСТЯЖЕНИЕ ГЛАСНОГО «ОСНОВЫ» - alm. Dehnung des Stammvokals (f), ing. Lengthening of stem-vowel /'leŋθənıŋ əv stem 'vaʊəl/, fr. distension de la voyelle «thème», azərb. əsasın saitinin uzadılması. – Söz kökündə sait dəyişərək yeni fonoloji dəyər kəsb edir. Məs.: orta alman dilindən yeni alman dilinə keçid zamanı söz kökündəki qısa saitlər açıq vurğulu hecada uzandılar. Müq. et: /săgən/ → /sa:gen/ (demək), /trăgən/→ /tra:gen/ (daşımaq) və s.
R.Conrad. Göstərilən əsəri, s. 59.

РАСЧЛЕНЕННОСТЬ - alm. Gegliedertheit (f), ing. articulation, being articulated /ɑ:'tıkjʊ'leıʃən/'bi:ıŋ ɑ:'tıkjʊleıtıd/, fr. démembrement, articulation, azərb. üzvlənmə, tərkib hissələrinə parçalanma. - Tərkib hissələrinə parçalana bilən. Məs.: ing. d. /hi a:sk:s/ (O soruşur) formasında /s/ morfoloji sərhəddin köməyi ilə kökdən ayrıla bilir.
F.Veysälli. Einführung in die Phonologie. Baku, 2004, s. 82-83.

РАСЧЛЕНЁННЫЙ - alm. gegliedert, ing. articulated /ɑ:'tıkjʊleıtıd/, fr. articulé,-e, démentré,-e, azərb. üzvlənmiş, bölünmüş, parçalanmış.
Bax: Расчлененность ←.

РАСШИРЕНИЕ (АМПЛИФИКАЦИЯ) - alm. Amplifikation (f), ing. amplification /æmplıfı'keıʃən/, fr. extension, amplification, azərb. genişlənmə, ümumiləşmə (amplifikasiya). – 1) Hiperbolik müqayisələrdə təsirliliyi gücləndirmək məqsədilə sinonimlərin ekspressivliyinin artması istiqamətində düzülməsindən ibarət üsul. Məs.: Azərb. d. /Babək qorxmaz, cəsarətli, igid sərkərdə idi//; alm. d. /Die Teller und Gläser, alles war sauber// (Boşqablar, stəkanlar, hər şey təmiz idi); 2. Bir dilə məxsus söz və ifadənin (mətnin) digər dilə tərcümə edərkən onun həcminin genişlənməsi. Məs.: rus d. /пересадить/ - (çıxarıb başqa yerdə əkmək), /переборщить/ – (şitini-şorunu çıxartmaq, həddini aşmaq).
R.Conrad. Göstərilən əsəri, s. 32.


РАСШИРЕНИЕ ЗНАЧЕНИЯ - alm. Bedeutungserweiterung (f), ing. semantic extension /sı'mæntık ıks'tenʃən/, fr. extension du sens, azərb. mənanın genişlənməsi. - Tarixi zaman kəsiyində və ya danışıq kontekstində sözün məna tutumunun (semantikasının) genişlənməsi. Mənanın genişlənməsi əksər hallarda hər iki predmetin yerinə yetirdiyi funksiyanın adının dəyişməsi zəminində baş verir. Məs.: orta alman dilində /Vertec/ (sınmağa hazır). Əvvəlcə /fährtig/ – (yəni getməyə hazır), yeni alman dilində /fertig/ – (hazır) və ya latın dilində /adripare/ – (sahilə

çatmaq); fr. d. /arriver/ ümumi mənada (gəlib çatmaq); ing. d. /to arrive/ (gəlib çatmaq).
F.Yadigar (Veysəlli). GDG. s. 165.

РАСШИРЕНИЕ МОРФЕМЫ - alm. exkursive Formverbreitung (f), ing. morphologic(al) (morpheme) extension /mɔ:fə'lɒʤık(əl)/'mɔ:fi:m/ ıks'tenʃən/, fr. extension du morphème, azərb. morfemin genişlənməsi. - Müəyyən morfemin xətti uzunluğunun ona əlavə edilən morfemlərin hesabına genişlənməsi. Məs.: ing. d. /children/ sözündə - /en/ əvəzinə - /ren/ işlədilməsi.
P.H.Matthews. Göstərilən əsəri, s. 123.

РАСШИРЕННАЯ МЕТАФОРА - alm. erweiterte Metapher (f), ing. expanded metaphor /ıks'pændıd metəfə,-fɔ:/, fr. métaphore élargie, azərb. genişlənmiş metafor. - Daxilən əlaqəli və bir-birini qarşılıqlı şəkildə tamamlayan metaforlar cərgəsi. Məs.: Azərb. d. /səbəb/, /əsas/, /zəmin/, /motiv/ və s.
R.Conrad. Göstərilən əsəri, s. 166.

РАСЩЕПЛЕНИЕ ФОНЕМЫ - alm. Phonemzersplitterung (f), ing. splitting of phoneme /'splıtıŋ əv 'fəuni:m/, fr. désagrégation du phonème, azərb. fonemin parçalanması (fonemin hissələrə parçalanması). - Fonemin müəyyən variantını ilkin şərtləndirən mövqeyin (şəraitin) aradan çıxması nəticəsində onun bu və ya digər variantının fonoloji keyfiyyət kəsb etməsi. Dilçilikdə bu hadisə adətən divergensiya adlanır və konvergensiyaya qarşı qoyulur. Məs.: alm. d.



F.Veysəlli. SDƏ. s. 16.

РАСЩЕПЛЕННОЕ СКАЗУЕМОЕ - alm. zersplittertes Prädikat (n), ing. split predicate /splıt 'predıkeıt/, fr. prédicat désagrégé, azərb. parçalanmış xəbər, bölünmüş xəbər. - Cümlədə xəbərin felə sinonim olan (bərabər tutulan) feli-ismi birləşmə ilə ifadə olunması. Məs.: Azərb. d. /arzu etmək/ – /arzulamaq/, /təəccüb etmək/ – /təəccüblənmək/, /sirdaş olmaq/ – /sirdaşlaşmaq/, /məhbusa cəza vermək/ - /məhbusu cəzalandırmaq/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 415.

РАСЩЕПЛЕННЫЙ ИНФИНИТИВ - alm. gegliederter Infinitiv (m), ing. split infinitive /splıt ın'fınıtıv/, fr. infinitif désagrégé, azərb. parçalanmış məsdər (infinitiv). – İng. d. /to/ məsdər göstəricisi ilə felin arasında yerləşən zərf. Müq. et: /to completely forget/ (tamam unutmaq).
O.C.Ахманова. Göstərilən əsəri, s. 183.

РАЦИОНАЛЬНАЯ ГРАММАТИКА - alm. rationale Grammatik (f), ing. Port Royal grammar /pɔ:t ˈrɔɪəl ɡræmə/, Por Royal /pɔ: ˈrɔɪəl/, rational grammar /ˈræʃənəl ɡræmə/, fr. grammaire rationnelle, azərb. məntiqi (rasional) qrammatika. – XVIII əsrdə Rene Dekartın (1596-1650), latınca Renatus Cartesius (buradan da Kartezik və Kartezian sifətləri yaranmışdır) və G.V.Laybnisin (1646-1716) insanın idrakının yeganə mənbəyini əql hesab edən fəlsəfi görüşlərinə əsaslanan qrammatikadır. Rasional düşüncə tərzinin əsas prinsiplərindən çıxış edən N.Xomski (1928) Kartezian dilçilik bağlarını rasionalizm ənənəsində görür. N.Xomski dili anadangəlmə, onu insanın səciyyəvi fəaliyyəti kimi götürür, dilin tətbiqinin yaradıcı olmasını, onda alt və üst qatların fərqlənməsini əsas götürür. Beləliklə, empirik-biheyviorik yanaşmanı qəbul etməyən N.Xomski rasionalizmə söykənərək özünün generativ-transformasional qrammatikasını yaradır. Aristotelə gedib çıxan bu fəlsəfi baxış dillərin hamısının bir məntiqi əsasda kökləndiyini güman edir. 1660-cı ildə K.Lanslo (1615-1695) və A.Arnonun (1612-1694) tərtib etdiyi „Universal və rasional qrammatika" («Grammar generale it rasionel») kitabı Por Royal abbatlığında yarandığından həmin kitab sonralar dilçilik tarixinə Por Royal qrammatikası kimi daxil olub.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 13; H.Bußmann. Göstərilən əsəri, s. 627.

РЕАЛИЗАЦИЯ - alm. Realisierung (f), Realisation (f), ing. realization /ˌrɪəlaɪˈzeɪʃən/, manifestation /ˌmænɪfeˈsteɪʃən/, fr. réalisation, azərb. reallaşma, realizə edilmə. - Emik («em» - dilin struktur vahidinin) səciyyəli vahidlərin etik (fonetik) səciyyə kəsb etməsi, «em»-ın danışıqda variantlar şəkilində təzahürü. Məs.: rus d. / a / fonemi danışıqda müxtəlif variantlarda [a] (ona), [aˈ] (мать), [ˈa] (мят), [ˈaˈ] (мять) variantlarında reallaşıb.
Л.А.Вербицкая. Русская орфоэпия. Л., 1976.

РЕАЛИЗАЦИЯ ФОНЕМЫ - alm. Phonemrealisation (f), ing. manifestation of a phoneme /ˌmanɪfeˈsteɪʃən əv ə ˈfəʊni:m/, realization of a phoneme /rɪəlaɪˈzeɪʃən əv ə ˈfəʊni:m/, fr. réalisation du phonème, azərb. fonemin işlənməsi (reallaşması). - Fonemin konkret danışıq məqamında müəyyən əhatədə təzahürü. Məs.: rus d. vurğudan əvvəlki və sonrakı hecada /a/ fonemi /^/ kimi realizə olunur. Müq. et: rus d. /báb^/, /v^dá/.
Л.А.Вербицкая. Русская орфоэпия. Л., 1976.

РЕАЛИИ - alm. Realien (Pl.), ing. realias /ˈrɪælɪəs/, fr. réalias, azərb. realilər. – Dildə xalqın tarixi, coğrafi, siyasi və mədəni əlaqələrinin əks olunması. Məs.: Azərb. d. toy məclislərilə bağlı xeyli söz və ifadələr vardır. Müq. et: /deyikli/, /elçi/, /xələt/, /yengə/ və s.; 2) Hər hansı bir xalqın maddi-mədəni abidələri, onların bu xalqın dilində yozumu. Məs.: Azərbaycanın Bakı şəhərində /Atəşgah/ abidəsi mövcuddur. Bu abidənin dili-

mizdə yozumu spesifikdir, indusların gəlişilə bağlı olsa da, onda zərdüştlüyün izləri aydın görünür.
O.C.Ахманова. Göstərilən əsəri, s. 381.

РЕАЛЬНАЯ КЛАССИФИКАЦИЯ (КЛАССИФИКАЦИЯ ГЕНЕАЛОГИЧЕСКАЯ) - alm. reale Klassifikation (f), ing. genetic or genological classification /dʒə'netık ɔ: ˌdʒi:nıə'lɒdʒıkəl ˌklæsıfı'keıʃən/, real classification /rıəl ˌklæsıfı'keıʃən/, fr. classification réelle, classification généalogique, azərb. real təsnifat (genealoji təsnifat). - Ümumiyyətlə, dünya dilləri dilçilikdə iki cür təsnif olunur: tipoloji və genealoji. Tipoloji təsnifin əsasında dillərin qrammatik quruluşu durur. Buna görə də tipoloji təsnifə həm qohum, həm də qohum olmayan dillər daxildirsə, genealoji təsnifdə yalnız qohum dillər nəzərə alınır. Genealoji təsnifdə dillər öz mənşəyinə, qohumluğuna əsasən qruplaşdırılır. Belə qrupların ən böyüyü dil ailəsi hesab olunur. Dil qrupları da öz növbəsində yarımqruplara ayırılır. Dillərin qohumluğu bioloji hadisə olmayıb, tarixi-ictimai hadisədir. Dillərin qohumluğu onların fonetik cəhətdən (əsas lüğət fondu və qrammatik quruluşca) qohum olması deməkdir. Dillərin qohumluğu onların eyni kökdən olmasını göstərir. Məs.: hind-Avropa dilləri ailəsi, türk dilləri ailəsi, fin-uqor dilləri ailəsi və s. Türk dilləri ailəsi bulqar, oğuz, qıpçaq, qarluq yarımqruplarına parçalanır. Oğuz yarımqrupuna isə Azərbaycan, türkmən, Türkiyə türkcəsi, qaqauz və s. dilləri daxildirlər.
Ф.Кепрюль-заде. Развитие литературного языка тюркских народов. Краткое изложение доклада, прочитанного на турецком языке. Стенографический отчет I Всесоюзного тюркологического съезда (26 февраля – 5 марта 1926). Баку, 1926, s. 325-326.

РЕГРЕССИВНОЕ ПРОИЗНОШЕНИЕ - alm. umgekehrte Sprechweise (f), ing. regressive pronunciation /rı'gresıv prəˌnʌnsı'eıʃən/, fr. prononciation régressive, azərb. regressiv tələffüz. - Orfoqrafik ənənənin təsiri nəticəsində itmiş, işlədilməyən səslərin tələffüzdə yenidən bərpası. Məs.: fr. d. ours [u:r s] (ayı).
O.C.Ахманова. Göstərilən əsəri, s. 366.

РЕГРЕССИВНЫЙ - alm. regressiv, ing. regressive /rı'gresıv/, back /bæk/, fr. régressif,-ve, azərb. reqressiv, geriyə uyuşma. - Sözün, söyləmin və s. sonrakı üzvündən əvvəlkinə istiqamətlənmiş fonetik hadisə, geriyə uyuşma. Məs.: Azərb. d. /üç/ - /üş şahı/, /yan/ – /yammır/, /dön/ – /dömmür/, /qon/ – /qommur/.
A.Axundov. Azərbaycan dilinin fonetikası. Bakı, 1984.

РЕДЕРИВАЦИЯ (ОБРАТНОЕ СЛОВООБРАЗОВАНИЕ) - alm. Rückbildung (f), ing. back-formation /bæk fɔ:'meıʃən/, fr. rédérivation régressive, azərb. əksinə (tərsinə) sözdüzəltmə. - Əsasın düzəltmə sözün

tərkibindən ayrılması və onun **müvafiq** nitq hissəsinin paradiqmına daxil edilməsi. Məs.: rus d. /вход/ < /входить/, /призыв/ < /призывать/; Azərb. d. /dəmir/ < /dəmirçi/, /məktəb/ < /məktəbli/ və s.
H.Bußmann. Göstərilən əsəri, s. 627.

РЕДУКЦИЯ - alm. Reduktion (f), ing. reduction /rɪ'dʌkʃən/, fr. réduction, azərb. reduksiya (**zəifləmə**). – 1) Danışıq üzvlərindəki əzələ gərginliyinin zəifləməsi nəticəsində səslərdə təzahür edən keyfiyyət və kəmiyyət dəyişmələri. Azərb. d. **vurğulu** hecadan əvvəlki vurğusuz hecada işlənən bütün qapalı saitlər **güclü** reduksiyaya uğrayır. Müq. et: /sinif/ – /sinfin/, /ağız/ – /ağzın/, /burun/ – /burnun/. Reduksiya hadisəsi rus d. daha geniş yayılmışdır. Bu əsasən **vurğusuz** hecalarda saitlərin zəifləməsi nəticəsində yaranır. Məs.: /мал/, /малыш/, /малыши/ ([mal], [mʌlɪʃ], [mъlɪšы]); 2) Cümlə təhlilində **cümlələrin** maksimum minimal struktura çevrilməsi. Məs.: Azərb. d. /O, Moskvaya gedir ki, orada təhsilini davam etdirsin/ → /O, Moskvaya təhsilini davam etdirməyə gedir/.
H.Bußmann, Göstərilən əsəri, s. 631.

РЕДУПЛИКАЦИЯ - alm. Reduplikation (f), ing. reduplication /rɪˌdju:plɪ'keɪʃən/, fr. gemination, réduplication, azərb. qoşalaşma, reduplikasiya, təkrar. - Eyni dil **vahidinin** eynilə və ya qismən dəyişdirilməsilə təkrarı: 1) Fonetik təkrar: **sözün** birinci hecasının və ya bütövlükdə iki dəfə təkrarı ilə yaranan **yeni** söz. Məs.: Azərb. d. /xal-xal/, /tərtər/. Bu zaman təkrar əsasən **məlumatı** gücləndirmək vasitəsi kimi çıxış edir. Məs.: Azərb. d. /tez-tez/, /oyum-oyum/; rus d. /чуть-чуть/, /давным-давно/ və s. Fonetik **təkrarlarda** təqlidi sözlər xüsusi yer tutur. Müq. et: Azərb. d. /kiş-kiş/, /ham-ham/; rus d. /кря-кря/ (ördək); ing. d. /tick-tick/; 2) Morfoloji təkrar: **hind**-Avropa dillərində felin birinci hecasının təkrarı ilə zaman formasını düzəltmək olur. Məs.: qot d. preteritum /haitan/ (adlanıram), /haitrait/ (mən adlanıram), latın dilində /tanga/ (toxunuram), /tetiqi/ (toxundum) formasında düzəlir və ya Malayziya dilində sözün təkrarı **cəm** formasının düzəlməsinə xidmət edir. Müq. et: /orang/ (adam), ancaq /orang-orang/ (adamlar); 3) Ritmik təkrar. Məs.: Azərb. d. /hətərən-pətərən/, /həlləm-qəlləm/; 4) Sintaktik təkrar. Məs.: Azərb. d. /Ağıl yaşda deyil, başdadır, başda/ və s.
M.İ.Adilov və b. Göstərilən **əsəri**, s. 272-273; H. Bußmann. Göstərilən əsəri, s. 632;

РЕДУЦИРОВАННЫЙ - alm. reduziert, ing. reduced /rɪ'dju:st/, weak /wi:k/, fr. réduit,-e, azərb. **qısalmış**, reduksiya olunmuş. - Reduksiya nəticəsində nisbətən qısa və **ya aydın** tələffüz olunmayan səslər. Məs.: Azərb. d. /birinci/ → /brinci/; **rus** d. /a/ saiti yerindən və mövqeyindən asılı olaraq [ʌ, ъ, ь] kimi **zəifləmiş** variantlarda çıxış edir; Müq. et:

/gʌvʌrit/ və s. Azərb. d. də saitlərin reduksiya hadisəsi geniş yayılıb. Müq. et: /dərə/ - /dəriyə/, /özgə/ - /özgiyə/ və s.
A.A.Реформатский. Göstərilən əsəri, s. 278.

РЕДУЦИРОВАННЫЙ СИЛЬНЫЙ - alm. stark reduziert, ing. Reduction of a strong vowel /rɪ'dʌkʃən əv ə strɒŋ vaʊəl/, fr. soumis,-e à la réduction forte, azərb. güclü reduksiyaya uğramış. – Səsin keyfiyyət və kəmiyyət baxımından vurğusuz hecada reduksiyaya uğramasıdır ki, bu halda səs bəzən danışıq zəncirindən düşmə həddinə çatır. Məs.: Azərb. d. /pişik/ sözünün birinci hecasındakı sait maksimum reduksiyaya məruz qalır. Müq. et: [pʲ ʃik].
F.Veysəlli. SDƏ.

РЕДУЦИРОВАННЫЙ СЛАБЫЙ - alm. schwach reduziert, ing. reduction of a weak vowel /rɪ'dʌkʃən əv ə wi:k vaʊəl/, fr. soumis,-e à la réduction faible, azərb. zəif reduksiyaya uğramış. – Səsin danışıqda vurğusuz hecada keyfiyyət və kəmiyyət baxımından reduksiyaya uğraması, lakin güclü reduksiyadan fərqli olaraq, zəif reduksiya zamanı səs özünə xas olan tembirini qoruyub saxlayır. Məs.: Azərb. d. /ı/ fonemi /qızıl/, /qızı/ sözlərinin ilk vurğusuz hecalarında, /i/ fonemi isə /biləк/, /bilet/ və s. sözlərində qismən reduksiyaya uğrayır.
Ə.Əfəndizadə. Orfoqrafiya, orfoepiya lüğəti. Bakı, 1989, s. 140-142.

РЕДУЦИРОВАННАЯ ФОРМА - alm. Allegroform (f), Schnellsprechform (f), ing. (short), reduced form /ʃɔ:t/rɪ'dju:st fɔ:m/, fr. forme réduite, azərb. reduksiyaya uğramış forma. - Sözün sürətli danışıq prossesində ortaya çıxan ixtisarlaşmış forması. Məs.: Azərb. d. /karandaş/ əvəzinə [kʲrandaş], /bıçaq/ əvəzinə [pʲtʂax] və s; alm d. /ˈ„gu:tən_ˊ ˊta:k/ əvəzinə /ˌ ta:k/.

РЕЗКИЙ (ЯРКИЙ) - alm. scharf, ing. acute /ə'kju:t/, strident /'straɪdənt/, fr. brusque, azərb. kəskin. - Samitləri səciyyələndirən ikinci əlamət. Bu əlamət fərqləndirici əlamətlərin ikili (dixotomik və ya binar) sistemində (aydın–qeyri-aydın) əlamətin qarşılaşmasından yaranır. «Bu əlamətlərə novlu, kipləşən və sürüşkən fonemlərdə rast gəlmək olur. Kəskin samitlər qeyri-kəskinlərdən əlavə maneənin olması ilə fərqlənir. Bundan əlavə birincilərin tələffüzündə kəskin küy yaranır.

kəskin	qeyri-kəskin
| f |, | v |, | č |, | ž |	| b |, | p |, | m |,
| s |, | ş |, | z |, | x |	| t |, | d |, | n |, | g | ··
| r |, | h |, | ʏ |, | z |	| k' |, | k |
	| h |

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 116.

РЕЗОНАТОР - alm. Resonator (m), ing. resonator /'rezəneɪtə/, fr. résonnateur, azərb. rezonator. – Öz-özlüyündə səs mənbəyinə malik olmayan, yalnız rezonans nəticəsində səslənən cismə rezonator deyilir. Rezonatorda tonun yüksəkliyi rezonatorun həcmindən, ağız boşluğunun böyük və kiçikliyindən asılıdır. Rezonator nə qədər böyük olarsa, səs o qədər alçaq olar və ya əksinə.
F.Yadigar (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 26.

РЕЗОНАТОРНЫЙ ТОН (ОБЕРТОН) – alm. Oberton (m), ing. resonator tone (overtone) /'rezəneɪtə təʊn/'əʊvətəʊn/, fr. ton résonnateur, azərb. rezonator tonu (obertonun eyni). - Əlavə, nisbətən yüksək tondur, xirtdəküstü boşluqda (ağız, burun və udlaq boşluqları) səsin güclənməsi və ya çalara düşməsi. Buna tembr də deyirlər. Səsin mənbəyi və rezonatorun bir-birinə qarşılıqlı təsiri nəticəsində fərqli struktura malik yeni səs çaları yaranır ki, buna müasir akustikada formant deyirlər. Müasir akustikada formanta dair iki nəzəriyyə mövcuddur. Alman alimi Helmholts göstərir ki, saitin formantı xirtdəküstü boşluqda yaranır. Özü də xirtdəkdə yaranan səs tellərinin ehtizaza gəlməsi mürəkkəb titrəyişlər verir. Orada həm əsas ton, həm də obertonlar vardır. Xirtdəküstü boşluqdakı rezonatordan keçən bu titrəyişlər onun konfiqurasiyasından asılı olaraq güclənir və müvafiq saitin tembrinini və ya formantını əmələ gətirir.
F.Yadigar (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 26.

РЕЗУЛЬТАТИВНЫЙ - alm. resultativ, ing. resultative /rɪ'zʌltətɪv/, resulting /rɪzʌltɪŋ/, resultant /rɪ'zʌltənt/, fr. résultatif,-ve, azərb. nəticəli, sonu olan. – Felin qeyri-durativ, müvafiq olaraq perfektiv tərzini bildirən, yəni iş və hərəkətin həddini, nəticəsini bildirən. Məs.: alm. d. /verbrennen/ (alışıb yanmaq), /zerbrechen/ (çilik-çilik etmək) və s. Rezultativ felləri ondan tanımaq olur ki, onların imperfiktiv variantı perfektiv variantını ehtiva etmir. Müq. et: alm. d. /Er aß an einem Apfel, als ich hereinkam// (mən içəri girəndə o, alma yeyirdi). Bu cümlənin /Er hat einen Apfel gegessen// kimi yermək olmaz. Ancaq qeyri-rezultativ feldə bu mümkündür. Məs.: alm. d. /Er hat getanzt, als ich hereinkam// (mən içəri girəndə o rəqs edirdi) və s.
V.P.Nedjakov. Typology of resultative constructions. Amsterdam, 1988.

РЕКОМПОЗИЦИЯ - alm. Rekomposition (f), ing. recomposition /ri:kɒmpəzɪʃən/, fr. récomposition, azərb. rekompozisiya. - Mürəkkəb və ya düzəltmə sözün elementlərindən birinin ilkin formasının bərpası. Məs.: lat. d. /reclaudo→ recludo/.
R.Konrad. Göstərilən əsəri.

РЕКОНСТРУКЦИЯ - alm. Rekonstruktion (f), ing. reconstruction /ˌri:kən'strʌkʃən/, fr. réconstruction, azərb. bərpaetmə, rekonsrtuksiya. - Tarixi-müqayisəli dilçiliyin əsas tədqiqat metodudur. Bu metodun əsas

mahiyyəti yazılı abidələrin, canlı danışığın planlı şəkildə müqayisə yolu ilə öyrənilməsi nəticəsində yazıyaqədərki dövrdə dil faktlarını və ya dilin ilkin formalarını bərpa etməkdən ibarətdir. Dilçilik iki cür bərpadan istifadə edir: 1) dildaxili; 2) dilxarici. Birinciyə bariz nümunə 1879-ci ildə F. de Sossürün daxili struktur təhlil nəticəsində bərpa etdiyi hind-Avropa dillərində larinqalların sonralar kəşf olunmuş ölü het dilində izlərinin tapılması ola bilər. O, sübut etdi ki, /ə̯/ diftonqların heca düzəltməyən elementi ola bilər, ancaq heca düzəldən elementin reduksiyası nəticəsində heca düzəldənə çevrilə bilər. Deməli, bir sait müxtəlif dillərdə müxtəlif ola bilər. İkincisi isə bir neçə qohum dildə müxtəlif hadisələrin müqayisə nəticəsində əldə edilən rekonstrkusiyadır. Məs.: birinci fonem dəyişikliyi və ya K.Verner (1846-1896) qanunu məhz bu cür rekonstruksiyalar sahəsində aşkar edilmişdir.

H.Penzl. Methoden der germanischen Linguistik. Tübingen, 1972.

РЕКОНСТРУКЦИЯ ВНУТРЕННЯЯ - alm. innere Rekonstruktion (f), ing. internal reconstruction /ɪn'tɜ:nl ˌri:kən'strʌkʃən/, fr. Réconstruction intérieure, azərb. daxili rekonstruksiya.

Bax: Реконструкция ←.

РЕКОНСТРУКЦИЯ ТЕКСТА - alm. Rekonstruktion des Textes (f), ing. reconstruction of the text /'ri:kən'strʌkʃən əv ðə tekst/, fr. réconstruction du texte, azərb. mətnin bərpası. – Mətnin çatışmayan, xarab olmuş hissələrinin onun qalan hissələrinin dilin daxili xüsusiyyətlərinin elmi-linqvistik təhlili əsasında bərpa edilməsi.

M.Heinemann, W.Heinemann. Grundlagen der Textlinguistik: Interaktion – Text – Diskurs. Tübingen, 2002; А.А.Реформатский. Göstərilən əsəri, s. 398-401.

РЕКУРСИЯ - alm. Rekursion (f), ing. recursion /rɪ'kɜ:ʃən/, voiceless off-glide /'vɔɪslɪs ɒf-glaɪd/, off-glide /ɒf glaɪd/, fr. detente, azərb. tələffüzün üçüncü mərhələsi, rekursiya. – Klassik fonetikada dil səsləri üç fazadan ibarət proses kimi nəzərdən keçirilir: ekskursiya (başlanğıc), orta (zirvə) və rekursiya (sönmə). Səsin tələffüzündə danışıq üzvlərinin sükunət və ya başlanğıcdan əvvəlki vəziyyətinə (mövqeyinə) qayıtması rekursiya adlanır. Bir fazadan digərinə keçərkən danışıq axınında baş verən akustik və artikulyator dəyişmələri həmin fazaların bir-birinə təsiri kimi izah etmək olar. Səsin tələffüzündə fazalar arasında aydın sərhəd mövcud deyildir.

F.Veysalov. Lehrbuch der deutschen Phonetik. Baku, 1989.

РЕЛЕВАНТНОСТЬ - alm. Relevanz (f), ing. relevance /'relɪvəns/, fr. pertinence, azərb. relevantlıq. - Dil vahidlərinin fərqləndirməsinə xidmət edən və bununla da ünsiyyətdə tanınmanı təmin edən əlamət. Məs.: Azərb. d. /dağ/ və /yağ/ sözləri ona görə fərqli sözlər kimi tanınaraq dərk edilir ki,

onların birinci samiti dilönü-dilortası və kipləşən-partlayışlı-novlu əlamətlərilə fərqlənirlər. Bu əlamətləri relevantlıq kimi göstərmək olar.
F.Yadigar (Veysəlli). GDG. s. 68.

РЕЛЕВАНТНОСТЬ АБСТРАКТНАЯ - alm. abstrakte Relevanz (f), ing. abstract relevance /æb'strækt 'relıvənz/, fr. pertinence abstractive, azərb. mücərrəd relevantlıq. - Fərqləndirmə funksiyasını yerinə yetirən, bütünlüklə dil sisteminin hər bir səviyyəsində çıxış edən differensial əlamət. Məs.: rus d. sərtlik-yumşaqlıq təkcə fonem kimi deyil, həm də morfem və söz səviyyəsində hər zaman fərqləndirici funksiyada çıxış edir. Müq. et: rus d. /l/ # /l'/, /t/ # /t'/, /qol/, ancaq /qol'/ və s.
A.A.Реформатский. Göstərilən əsəri, s. 220.

РЕЛЕВАНТНОСТЬ ПОЗИЦИИ - alm. Relevanzstellung (f), ing. Relevance of position /relıvənz əv pə'zıʃən/, fr. position de pertinence, azərb. mövqenin relevantlığı. - Fonoloji qarşılaşmanın təzahür etdiyi mövqe. Məs.: rus d. /сот-вот-нот-рот/ və s. sözlərində sözbaşı /с/, /в/, /н/, /р/ fonemləri üçün relevant mövqedir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 220.

РЕЛЕВАНТНЫЙ - alm. relevant ing. relevant /'relıvənt/, fr. pertinent,-e, azərb. relevant. - Fonemin fərqləndirici əlamətlərini sərf-nəzər edən N.S.Trubeskoy onun iki növünü fərqləndirir. Fərqləndirmə məsələsində funksional mövqedən çıxış edən alim bu xüsusiyyətlərdən birini relevant, digərini isə qeyri-relevant adlandırır. N.S.Trubeskoyun təbirincə, söz və morfemin fərqləndirilməsində iştirak edən əlamətlər relevant, belə xüsusiyyətə malik olmayanlar isə qeyri-relevant əlamətlərdir. Qeyd edək ki, N.S.Trubeskoy fonemə relevant (fərqləndirici) əlamətlərin məcmusu, obrazlı dillə desək, «fərqləndirici əlamətlər dəsti» kimi baxırdı. Fonemin relevant əlaməti dil vahidlərini fərqləndirən və bununla da ünsiyyətdə mühüm vasitə kimi çıxış edən fonoloji keyfiyyətdir. Hər bir dil səsi bir tərəfdən onu müəyyən fonemin reallaşmasına gətirən fonoloji relevant əlamətlərin, digər tərəfdən, seçimi və işlənməsi bir sıra amillərlə şərtlənən fonoloji baxımdan irrelevant əlamətlərin toplusu kimi səciyyələnir. Məs.: alm. d. /g/ fonemi üçün aşağıdakı əlamətlər fonoloji baxımdan relevantdır: dilin kürəyilə damaq arasında damaq pərdəsinin qalxması nəticəsində tam kipləşmənin yaranması, dil əzələ gərginliyinin azalması və kipləşmənin nəfəssiz partlayışa keçməsi. Ancaq dodaqların və kipləşmə zamanı səs tellərinin vəziyyəti fonoloji baxımdan irrelevantdır.
N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Ön sōz» və «Qeydlər» prof. F.Yadigarındır (Veysəlli). Bakı, 2001, s. 48.

РЕЛИКТОВАЯ ФОРМА – alm. Reliktform (f), ing. relic form /'relık fɔ:m/, fr. forme vestige, azərb. qalıq (relikt) forma. - Dilin müasir mərhələsinin məhsuldar sözdüzəltmə modellərilə deyil, onun əvvəlki (keçmiş) durumunun qalığını təmsil edən qeyri-məhsuldar forma. Məs.: müasir rus d.

/-ей/, /- знь/, /-изн/ suffiksləri ilə düzələn /грамотей/, /жизнь/, /болезнь/, /белизна/, /новизна/, /отчизна/ sözləri bu qəbildəndirlər, çünki rus d-nin indiki mərhələsində sözdüzəltmədə bu suffikslərdən istifadə olunmur.
A.A.Реформатский. Göstərilən əsəri.

РЕЛЯТИВНО-АТРИБУТИВНЫЙ – alm. relativ-attributiv, ing. Relative-attributive /'relətıv ə'trıbjʊtıv/, fr. relativo-attributif, azərb. relativ-təyini (relativ-atributiv). - Əşyanı (predmeti) mütləq deyil, digər əşya (predmet) və ya əşyalarla (predmetlərlə) müqayisədə təyin (müəyyən) etmə. Məs.: Azərb. d. /Mənim qardaşım onunkundan iki dəfə cavandır/.
Y.Seyidov. Azərbaycan dilində söz birləşmələri. Bakı, 1992.

РЕЛЯТИВНО-ПРЕДИКАТИВНЫЙ – alm. relativ-prädikativ, ing. relative-predicative /'relətıv prı'dıkətıv/, fr. relativo-prédicatif, azərb. relativ-predikativ. - Əşyanı predikativlik funksiyasında təmsil edən nisbi əlamət. Məs.: ing. d. /The rose is red// (gül qırmızıdır); alm. d. /Er war alt// (o, qoca idi).
O.C.Ахманова. Göstərilən əsəri, s. 290.

РЕЛЯТИВНЫЙ – alm. relativ, ing. relative /'relətıv/, fr. relatif,-ve, azərb. relativ, nisbi. – Ünsiyyətdə qabaqca işlənmiş sözə aid olan. Məs.: Azərb. d. nisbi əvəzliklər. Müq. ei: alm. d. /das, der, die (cəmdə), welcher, welche (cəmdə), wer, was/. /Wer wagt, der gewinnt// (Risq edən udar).
R.Conrad. Göstərilən əsəri, s. 219.


РЕЛЯТИВНОЕ ВРЕМЯ – alm. relative Zeit (f), ing. relative tense /'relətıv tenz/, fr. temps relatif, azərb. nisbi zaman. - Danışıq anına əsasən deyil, cümlədə digər zaman formasına əsasən müəyyənləşdirilən zaman forması, „mütləq zamanın" əksi. Bu adətən iki hərəkət arasındakı münasibətdə üzə çıxır. Bir-birinin ardınca gələn hərəkətlər eyni vaxtda və ya müxtəlif vaxtda ola bilər. Bu da hərəkətin birinə nisbətdə ya əvvəl, ya da sonra ola bilər. Məs.: alm. d. /Er war gestern in dem Dorf, in dem er als Kind gelebt hatte//; (O, dünən o kənddə idi ki, orada uşaq ikən yaşayıb// cümləsindəki baş cümlədə hərəkət budaq cümləsindən sonra baş verib. Aydındır ki, onun uşaq ikən kənddə yaşaması sonradan onun kəndə baş çəkməsindən əvvəl vaqe olub.
R.Conrad. Göstərilən əsəri, s. 219.

РЕЛЯТИВНОЕ ОПРЕДЕЛЕНИЕ – alm. relatives Attribut (n), ing. relative attribute /'relətıv 'ətrıbjʊ:t/, fr. attribut relatif, azərb. nisbi təyin. - Müəyyən predmetin əlamətini eyni cinsə xas olan predmetə münasibət bildirən təyin. Adətən, əvəzlik və saylarla ifadə olunurlar. Məs.: Azərb. d. /bütün insanlar/; alm. d. /alle Leute/ (bütün adamlar).
O.C.Ахманова. Göstərilən əsəri, s. 291.

РЕЛЯТИВНОЕ ОТНОШЕНИЕ – alm. relative Beziehung (f), ing. relative reference /'relətıv 'refərəns/, fr. rapport relatif, (relations),

azərb. nisbi münasibət. – Əşya ilə onun əlamətləri arasındakı münasibət. Bu münasibət predmet və əşyaya xas deyil, lakin bu əlaməti göstərə bilir. Məs.: rus d. /мужества старика/ (qocanın cəsurluğu); Azərb. d. /zövqləri oxşayan musiqi/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 291.

РЕЛЯЦИОННАЯ ИЕРАРХИЯ – alm. Relationshierarchie (f), ing. relational hierarchy /rɪ'leɪʃənəl haɪərɑ:kɪ/, fr. hiérarchie relationnelle, azərb. relyasiya hierarxiyası. - Sintaqmatik əlaqələr hierarxiyası. Məs.: Azərb. d. /Qarşıdakı ikimərtəbəli qırmızı bina bu il tikilib//. Bü cümlədə /qarşıdakı/ həm /bina/ sözünü, həm də /ikimərtəbəli/ və /qırmızı/ sözlərini təyin edir. Bu əlaqələri əyani olaraq belə göstərmək olar:



A.A.Реформатский. Göstərilən əsəri, s. 329.

РЕЛЯЦИОННОЕ ЗНАЧЕНИЕ – alm. relationelle Bedeutung (f), ing. relational meaning /rɪ'leɪʃənəl 'mi:nɪŋ/, fr. signification relationnelle, azərb. nisbi məna. - Mücərrəd isimlərə xas olan ümumiləşdirici məna.
Bax: Значение ←.

РЕМА - alm. Rhema (n), ing. rheme /rɪ:m/, comment /'kɔment/, fr. rhème, azərb. rema. – 1) Cümlədə yeni məlumat, danışanın ünsiyyət məqamından, temadan çıxış edərək dinləyiciyə çatdırmaq istədiyi yeni və yaxud vacib məlumat; 2) Rema cümlədə temadan sonra gələndə onun yeni hissəsi kimi qəbul edilir. Daha dəqiq desək, bu məlumatla biz adətən irəlicədən tanış deyilik. Lakin bəzən danışanın praqmatik niyyətindən asılı olaraq artıq məlum informasiya da bəzi aktualizatorların köməyilə remaya çevrilir. Çox vaxt məlumat dinləyici üçün tamamilə yenidir və tematik elementlərin rematik elementlərə çevrilməsi mətnin proqressiyasına xidmət edir. Elə məlumatın yeni olması nöqteyi-nəzərindən çıxış edərək bəzi dilçilər remanı „yeni" adlandırırlar. Deməli, rema mətn daxilində olan informasiyanın əsas hissəsini təşkil edərək aktuallaşır, mətn daxilində vacib və aparıcı mənanı daşıyır. Temaya nisbətən remada dinləyici daha diqqətli olmalıdır. Çünki tema artıq məlumdur, azacıq diqqət yetirməklə söylənilən fikri aydın başa düşmək olur. Lakin bu söylədiklərimizi qeydsiz-şərtsiz remaya tətbiq etmək olmaz. Çünki rema dinləyici üçün yenidir və onun qavranılması temaya nisbətən daha çox diqqət tələb edir. K.Abdullayev (1950) hər bir cümlə üzvünün rema kimi işlənməsinə xüsusi nəzər salaraq qeyd edir ki, aktuallaşma zamanı remalaşmış üzv (mübtəda, tamamlıq, yer zərfliyi və s.) cümlənin mütləq sonunda olmalıdır. O yazır ki, mübtədanın yeri neytral söz sırasında əvvəldə olur. Ancaq o cümlənin sonunda yerləşəndə, neytral söz sırası

çərçivəsindən çıxır ki, bu da onun remalaşmasından xəbər verir. Məs.: Azərb. d. /At yenə şahə qalxdı, (tema) cilovu mənim əlimdən qoparıb yana səprildi, (tema) həmin saniyədə Cəbrayıl kişi ilə Tapdıq çatalaqlı yerə yuvarlandılar// (rema). Cümlənin bu cür üzvlənməsi ideyasını ilk dəfə dilçilikdə çex dilçisi V.Matezius (1882-1945) qaldırmışdır.
K.Abdullayev. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, 1998, s. 102-103; F.Yadigar (Veysəlli). GDG, s. 344.

РЕПЛИКА – alm. Replik (f), ing. replica /'replıkə/, fr. réplique azərb. replika. – Ünsiyyətdə danışanla dinləyənin söhbətə qarışması üçün istifadə etdiyi etiraz, cavab, əlavə söz və ifadə. Məs.: Azərb. d. /Mən ... siz əsas məsələdən danışın//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 225.

РЕПРИЗА - alm. Reprise (f), Wiederholung (f), ing. reprise /rı'prʌız /rı'pri:z/, fr. reprise, azərb. təkrar, repriz. - Səslərin, sözlərin və ifadələrin məlum ardıcıllıqla düzülməsindən ibarət danışıq fiquru. Məs.: Azərb. d. /Təsəvvür edirəm, siz o anda hansı hissləri yaşamısınız! Təsəvvür edirəm!.. Artıq sözə ehtiyac yoxdur! İndi hər şey mənə aydındır! İndi mən hər şeyi anladım!//, /Su sənəyi suda sınar//, /Qədd-qamət, səs-səmir, dil-dodaq, qol-qıç//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 225.

РЕСТРИКТИВНЫЙ – alm. restriktiv, ing. Restrictive /rı'strıktıv/, fr. restrictif,-ve, azərb. restriktiv. – İfadə və cümləyə bağlayıcılar (ancaq, yalnız, həm də), zərflər (ən azı, lap aşağısı) və təyin budaq cümlələri vasitəsilə məhdudlaşdırma çalarlığı verən semantik əlamət. Məs.: Azərb. d. /Mən bilirəm sən bacarıqlısan, ancaq bununla yanaşı fədakarlıq da tələb olunur//; alm. d. /Das Buch, das du suchst, liegt dort auf dem Tisch// (O kitabı ki, sən axtarırsan, o, orada, masanın üstündədir).
H.Bußmann. Göstərilən əsəri, s. 646.

РЕТОРОМАНСКИЕ ЯЗЫКИ – alm. rätoromanische Sprachen (Pl.), ing. Rotoromanic languages /rı'tɔ:rəu'mænık 'læŋgwıʤız/, fr. langues retoromanes, azərb. retoroman dilləri. – Roman dillərinin və dialektlərinin nisbətən arxaik qrupu: isveçrə (İsveçrə), tirol (İtaliya) və friul (İtaliya) retoroman dilləri. İsveçrə retoroman dili 1938-ci ildən federasiyanın dördüncü rəsmi dili elan olunmuşdur. Təqribən 20 minə qədər əhali bu dildə danışır. Tirol retoroman dili mərkəzi retoroman dili hesab edilir. 20 mindən yuxarı daşıyıcısı vardır. Şərqi retoroman dili adlandırılan friul dilinin 700 minə qədər daşıyıcısı vardır.
М.А.Бородина. Современный литературный ретороманский язык. Швейцария. Л., 1969.

РЕТРОСПЕКТИВНЫЙ – alm. retrospektiv, ing. retrospective /ˌretrə'spektıv/, fr. rétrospectif,-ve, azərb. retrospektiv. – Mətnin məna-

sını açmaq üçün geriyə qayıtma. Məs.: Azərb. d. /Dünən sən başqa şey deyirdin//.

И.Р.Гальперин. Текст как объект лингвистического исследования. М., 1980.

РЕТРОФЛЕКСИВНЫЙ - alm. retroflexsiv, kakuminal, ing. cacuminal retroflex /kæ'kju:mınəl retrə(ʊ)'fleks/, fr. rétroflectif,-ve, azərb. retrofleksiv. – Dilin ucunun yuxarıdan içəri qatlanması ilə tələffüz olunan səs. Məs.: İsveç dilində /ş, ɳ, d/. Müq. et: /fɔş/ (şəlalə). /laɳ/ (uşaq), /bu:d/ (stol); amerikan ingiliscəsində /ą/. Müq. et: /do ą / (qapı) və s.

H.Buβmann. Göstərilən əsəri, s. 646.

РЕФЕРЕНТ - alm. Referent (m), Berichterstatter (m), ing. referent /refərənt/, fr. rédacteur, azərb. referent. – Dildə ifadənin və ya sözün aid olduğu fikir predmeti; sözün şüurda əks etdiyi obyektiv gerçəklik ünsürü; müəyən dil faktı ilə sabit tərzdə bağlanmış olan məzmun. Bəzən bunu denotat adlandırırlar. Məs.: Azərb. d. /telefon/ → ☎ və s.

РЕФЕРЕНЦИЯ - alm. Referenz (f), ing. Reference /'refərəns/, fr. référence, azərb. referensiya. – 1) Ənənəvi qrammatikada referensiya dil vahidi ilə (söz, ad) gerçək aləmin predmet və ya əşyası arasındakı əlaqəni bildirən ifadə kimi başa düşülür.



2) Danışıq aktı nəzəriyyəsində danışanın ifadəsi mərkəzə çəkilir. Burada referensiya danışanın ətraf aləmə verbal və qeyri-verbal vasitələrlə mövqe bildirməsidir. Bəzi koqnitiv araşdırmalarda referensiya artıq ətraf aləmə deyil, proyeksiya olunan aləmə, yəni bizim şüurumuzdakı konseptual sistemə aid olmağı bildirir. Ancaq burada tam yekdillik yoxdur: təkcə əşyalar, şəxslər, referentlər kimi götürülməlidir, yoxsa hadisələr də belə nəzərdən keçirilməlidir.

H.Vater. Enführüng in die Referenzsemantik. Köln, 1986; G.Rickheit, H.Strohner. Grundlagen der kognitiven Sprachverarbeitung. München, 1993.

РЕФЕРЕНЦСЕМАНТИКА - alm. Referenzsemantik (f), ing. semantics reference /sı'mæntıks 'refərəns/, fr. sémantique référencielle, azərb. referens semantika. – Dil vasitələrilə ətraf aləmə aidliyin şərtlərini öyrənən dilxarici yönümlü elm sahəsi. Məzmuna yönələn semantika dil vahidlərinin dilxarici əlaqələrini öyrəndiyi halda (semantik əlaqələr), danışıq aktı nəzəriyyəsi çərçivəsində inkişaf edən referens semantikası danışanın ünsiyyət məqamında, əsasən deyktik ifadələr vasitəsilə məkan-zaman strukturuna aidliyini öyrənir. Məs.: Azərb. d. /mən – indi – burada - o/ və s.

R.Wimmer. Referenzsemantik: Untersuchungen zur Feststellung von Bezeichnungsfunktionen sprachlicher Ausdrücke am Beispiel des Deutschen. Tübingen, 1979.

РЕФЛЕКСИВНОСТЬ - alm. Reflexivität (f), ing. reflexivenss /rɪ'fleksɪvnɪs/, reflexivity /rɪ'fleksɪvɪtɪ/, fr. réflexivité, azərb. refleksivlik, hərəkətin iş görənin üzərinə qayıtması. – Subyektlə referent eyniliyi olanda bu qayıdışlıq müşahidə olunur. Əksər dillərdə qayıdış əvəzliyilə şəxs əvəzliyi üst-üstə düşür. Məs.: fr. d. /je me lare/ (mən yuyunuram), ancaq /il me lare/ (o məni yuyur). Bir çox dildə qayıdış əvəzliklə deyil, fel şəkilçilərilə ifadə olunur. Məs.: Azərb. d. /mən yuyunuram//. Bəzi dillərdə felin refleksivliyi kontekstdə aşkara çıxır. Məs.: ing. d. /to dress/ feli. Alm. d. refleksivlik bir tərəfdən «sich» qayıdış əvəzliyilə ifadə olunur. Məs.: alm. d. /sich erholen/ (istirahət etmək), /sich waschen/ (yuyunmaq). Digər tərəfdən, bəzi fellər /sich/ olmadan da işlənərək təsirli fel kimi çıxış edirlər. Məs.: /Sich waschen/, ancaq /Hemd waschen/ (köynək yumaq). Transformasiyon qrammatikada «cümlə üzvünə görə yoxlamalarla» birinci qrup fellərdə /sich/ heç bir cümlə üzvü olmaması bu fellərin sintaktik fərqini göstərməyə xidmət edir.

E.Genuishiene. The Typology of Reflexives. Berlin, 1988.

РЕФОНОЛОГИЗАЦИЯ - alm. Umphonologisierung (f), ing. rephonologization /ri:fəʊ'nɔlədʒɪzeɪʃən/, fr. réphonologisation, azərb. refonolojiləşmə. - Dilin fonem sistemində əsasən üç fonoloji dəyişmə mövcuddur. Bunlar sistemdə fonemlərin sayının azalmasına, fonemlər arasındakı qarşılıqlı münasibətlərin dəyişməsinə və, nəhayət, sistemdə fonemlərin miqdarının artıb-azalmasıyla müşayiət olunan dəyişmələrdir. Praqa Dilçilik məktəbinin linqvistik irsində belə dəyişmələri əksər hallarda defonolojiləşmə, refonolojiləşmə və fonolojiləşmə terminləri ilə adlandırırlar. Sistemdəki digər iki dəyişmədən fərqli olaraq refonolojiləşmə fonemlərin miqdarının artıb-azalmasına təsir etmir. Refonolojiləşmə sistemdə mövcud olan hər hansı bir fonoloji fərqin yeni fonoloji fərqə transformasıyasıdır, daha doğrusu, dildə əvvəlki fonoloji münasibətin yeni fonoloji münasibətlə əvəzlənməsidir. Məs.: orta alman dilində /u:/, /i:/ uzun saitləri müvafiq olaraq /ao/ və /ae/ diftonqlarına çevrildilər. Müq. et: /hu:s/ → /haos/ (ev), /tsi:t/ tsaet/ (vaxt) və s.

Л.Р.Зиндер, Т.В.Строева. Историческая фонетика немецкого языка. Л., 1985.

РЕЦЕССИВНОЕ УДАРЕНИЕ – alm. rezessive Betonung (f), ing. recessive stress or accent /rɪ'sesɪv 'stres ɔ: 'æksənt/, fr. accent recessif,-ve, azərb. resessiv vurğu. - Söz alan dilin aksentoloji (vurğu) qanununa müvafiq olaraq alınmalarda vurğunun sözün sonuncudan əvvəlki hecaya keçməsi. Məs.: Azərb. d. /monolóq-monóloq/, /dialóq-diáloq/.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 226.

РЕЧЕВОЙ – alm. sprecherisch, redlich, ing. speech /spɪ:tʃ/, vocal /'vəʊkəl/, fr. de la parole, langagier,-iére, azərb. danışığa aid olan, danışıqla bağlı olan.
O.C.Ахманова. Göstərilən əsəri, s. 385.

РЕЧЕВОЙ АКТ - alm. Sprechakt (m), ing. speech act /spi:tʃ ækt/, fr. acte de la parole, azərb. danışıq aktı. - Müəyyən ünsiyyət şəraitində məqsədyönlü səciyyə daşıyan nitq parçası, danışan və dinləyənin konkret ünsiyyət şəraitində eyni məna ilə əlaqələndirdikləri artikulyator-akustik ifadə forması olan ardıcıllıq. Danışıq aktı normal danışıq şəraitində danışığı, eyni zamanda eşidilməni və eşidilənin dərk olunmasını əhatə edən ikitərəfli prosesdir. Danışıq aktı nitq fəaliyyətinin təzahürüdür.
Bax: Теория речевого акта →.

РЕЧЕВОЙ АППАРАТ - alm. Sprechapparat (m), ing. vocal apparatus /'vəʊkəl ˌæpə'reɪtəs/, fr. organe de la parole, appareil phonatoire, azərb. danışıq cihazı. - Danışıq səslərini tələffüzü üçün insanda mövcud olan üzvlərin məcmusu danışıq cihazı adlanır: 1) Danışıq cihazı dar mənada xirtdəküstü boru olmaq etibarı ilə uç hissədən ibarətdir: ağız, burun və udlaq boşluqları. Bu boşluqlara rezonator və rezonans boşluqları da deyirlər; 2) Geniş mənada da danışıq cihazı üç yerə bölünür: «aşağı mərtəbə», yəni nəfəsalma və nəfəsvermə üzvləri: döş qəfəsi, diafraqma, ciyərlər, bronxlar və traxeya (nəfəs yolu); «orta mərtəbə», yəni qığırdaqlardan təşkil olunmuş xirtdək və orada yerləşən səs telləri; «üst mərtəbə», yəni xirtdəküstü boşluqlar: udlaq, ağız və burun.
Bax: Артикуляция ←.

РЕЧЕВАЯ ДЕЯТЕЛЬНОСТЬ - alm. Sprechtätigkeit (f), ing. discours speech /dɪs'kɔ:s spi:tʃ/, fr. activité langageiére, azərb. danışıq fəaliyyəti. – 1) Danışıq bir fəaliyyətdir, o, eyni vaxtda bir sıra elmlərin – dilçilik, psixologiya, fiziologiya, fizika və s-in. obyekti ola bilər; 2) Dil danışıq fəaliyyətinin prosesi və nəticəsi olaraq götürülə bilər. Dil və danışıq qarşılıqlı şəkildə bir-birini ehtiva edir. Eyni dildə danışmaq həm də danışınılanı dinləməyi tələb edir. Danışıq fərdidir, ötəridir, dil isə ictimaidir və daimidir. Danışan və dinləyən ideal dil daşıyıcılarıdır. Onlar dildə hər zaman hər yerdə bir-birilə ünsiyyətə girə bilərlər.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

РЕЧЕВОЕ ЗВЕНО - alm. Sprechkette (f), ing. link (in the spoken chain) /lɪŋk /ɪn ðə 'spəʊkən tʃeɪn/, fr. point de la parole, azərb. danışıq həlqəsi. – Danışıq aktının parçalanması, bu zaman məzmunca müxtəlif məna həlqələri, yəni cümlə, söz və morfem kimi mənalı vahidlər alınır. Digər tərəfdən, bu parçalanmada maddi varlığına, yəni fonetik təzahürünə görə də müxtəlif elementlər alınır: söyləm, sintaqm, heca, səs. Məs.:

Azərb. d. /Axşama yaxın/ qar yağmağa başladı//; /Axşam qaranlığı çökür /qaş qaralır//.
Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. Bakı, 1972, s. 98.

РЕЧЕВАЯ КУЛЬТУРА – alm. Sprechkultur (f), ing. speech culture /spi:tʃ kʌltʃə/, fr. culture de la parole, azərb. danışıq mədəniyyəti. – Danışıq mədəniyyəti hər hansı konkret bir dilin orfoepik, orfofonik, orfoqrafik, leksik, qrammatik, üslubi və s. normalarını müəyyənləşdirən nəzəri axtarışlar və təcrübi tədbirlər kompleksidən ibarət tətbiqi dilçilik sahəsidir. Eyni zamanda cəmiyyətin inkişafının müəyyən mərhələsində bir dil üçün müəyyən edilmiş orfoepiya, söz işlətmə və fonetik-qrammatik qaydalara yiyələnmə dərəcəsi, dil daşıyıcılarının öz danışıqlarında həmin normalara düzgün və nümunəvi əməl etməsinə nəzarət edir.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 113; A.Axundov. Dil mədəniyyəti. Bakı, 1974.

РЕЧЕВОЕ ОБЩЕНИЕ - alm. Sprechverkehr (m), ing. speech communication /spi:tʃ kəˌmju:nɪˈkeɪʃən/, fr. relation de la parole, azərb. danışıq ünsüyyəti. - Təbii dil vasitəsi ilə baş tutan ünsiyyət.
Bax: Речевая деятельность ←.

РЕЧЕВАЯ ХАРАКТЕРИСТИКА «ПЕРСОНАЖЕЙ» - alm. Sprechcharakteristik der Gestalten (f), ing. speech characteristics of characters /spɪ:tʃ ˌkærɪktəˈrɪstɪks əv ˈkærɪktəs/, fr. caractéristique de la parole des «personnages», azərb. personajların (surətlərin) danışığının səciyyəsi. - Bədii əsərlərdə obrazları səciyyələndirən söz, ifadə və deyimlərin təhlili.
B.Sowinski. Stilistik. Stiltheorien und Stilanalysen. Stutgart, 1999.

РЕЧЕВАЯ СИТУАЦИЯ – alm. Sprechsituation (f), ing. speech context /spi:tʃ ˈkɒntekst/, fr. situaton de la parole, azərb. danışıq şəraiti. - Ünsiyyətin baş verdiyi şərait, məqam (kontekst).
H.Glück, W.W. Sauer. Gegenwartsdeutsch. Stuttgart, 1997.

РЕЧЕВОЕ ЦЕЛОЕ – alm. Sprecheinheit (f), ing. structured unit of speech /ˈstrʌktʃəd ˈju:nɪt əv spi:tʃ/, fr. entier de la parole, azərb. danışıq bütövü. - Daxili bütövlüyə malik olan, struktur-semantik baxımdan vəhdət təşkil edən danışıq vahidi.
M.A.K.Halliday, A.McIntosh, P.Strevens. The Linguistic Sciences and Language Teaching. London, 1970.

РЕЧЕВАЯ ЦЕПЬ - alm. Redekette (f), ing. speech chain /spi:tʃ tʃeɪn/, fr. chaîne parlée, azərb. danışıq zənciri (danışıq axını). - Danışığın xətti zənciri, səslənmənin aramsız ardıcıllığı. O, eşidən tərəfindən üzvlərə bölünən və semantik cəhətdən müəyyən ardıcıllıqla düzülmüş vahidlər kimi dərk edilir. Zamanca bir-birinin ardınca gələn müxtəlif səslərin axını, zamanca biri digərini izləyən fonetik həlqələrdən təşkil olunmuş danışıq aktı.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

РЕЧЕНИЕ – alm. Phrasierung (n), ing. set phrase /set freɪz/, collocation /ˌkɒlə'keɪʃən/, fr. locution, azərb. söyləm, sintaqm və ya söz birləşməsi. - Fonetik, qrammatik və üslubi baxımdan daxili mütəşəkkilliyə (bütövlüyə) malik olan söz birləşmələri, söyləmlər. Məs.: Azərb. d. /işləməyən dişləməz/; alm. d. /İn der Schule/ (məktəbdə); ing. d. /at home/ (evdə) və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 385.

РЕЧЬ - alm. Rede (f), Sprechen (n), ing. speech /spi:tʃ/, discours /'dɪskɔ:s/, fr. parole, langage, dicours, azərb. danışıq. – Danışıq insanlar arasında ən vacib ünsiyyət vasitəsi olan dilin arasıkəsilməz səs axını şəklində reallaşmasıdır. „Dil" və „danışıq" anlayışlarının bir-birindən aydın şəkildə fərqləndirilməsi dilçilik tarixində ilk dəfə F. de Sössür tərəfindən irəli sürülmüşdür. F. de Sössür dili insan fəaliyyftinin norması adlandırır. Onun qənaətinə görə, dil (langue) anlayışı nitq fəaliyyəti (langage) anlayışına uyğun gəlmir. Dil, danışıq fəaliyyətinin tərkib hissəsidir. Dil bir tərəfdən danışıq bacarığının birbaşa tətbiqidirsə, digər tərəfdən o, səriştədir, kollektiv şəkildə əldə edilmiş, öyrənilmiş və mənimsənilmiş səriştənin ayrı-ayrı fərdlərin ifasında həyata keçirilməsini şərtləndirir. Danışıq aktının anlaşılması və bu prosesin baş tutması üçün dil səriştəsinin olması vacibdir, dilin öz kommunikativ funksiyasını həyata keçirməsi üçün onun bilavasitə tətbiqi lazımdır. Böyük alman alimi Q. fon der Qabelens (1840-1893) dil və danışıq münasibətlərini belə açırdı:

dil ⟷ danışıq (Rede) - konkret dildə tədqiqatlar.
dil ⟷ fərdi dil (Einzelsprache) – genealoji tarixi tədqiqatlar.
dil ⟷ dil səriştəsi (Sprachvermögen) – ümumi dilçiik tədqiqatları.

F.Yadigar (Veysəlli). GDG. s. 76; A.Axundov. Dilçiliyə giriş. Bakı, 1988, s. 80.

РЕЧЬ АВТОРСКАЯ - alm. Autorenrede (f), ing. author's speech /'ɔ:θəs spi:tʃ/, fr. parole d'auteur, azərb. müəllifin danışığı. - Bədii əsərdə müəllifin öz dililə oxuculara müraciəti. «Mən sizi gözləyirəm» - deyə Cəmil üzünü Zenfiraya tutub dilləndi//. Burada ikinci hissə müəllifin sözüdür.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 188.

РЕЧЬ БЫТОВАЯ - alm. Lebensrede (f), ing. spoken language /'spəʊkən 'læŋgwɪdʒ/, fr. parole de moeurs, azərb. məişət danışığı. – Dilin adi gündəlik (ev, ailə və dost-tanış əhatəsində) işlədilən danışıq forması. Məs.: Azərb. d. /Ağız, sən bilmirsən ki, mənə sataşanın axırı yaxşı olmaz//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 187-193.

РЕЧЬ ВНУТРЕННЯЯ – alm. innere Rede (f), ing. inner speech /'ɪnə spi:tʃ/, fr. langue intérieure, azərb. daxili (səssiz) nitq. - Danışanın səslərdə

təzahür etməyən danışığı, müəyyən bir problemi daxilən, səssiz götür-qoy etməsi.
O.C.Ахманова. Göstərilən əsəri, s. 386.

РЕЧЬ ДЕТСКАЯ – alm. Kindersprache (f), ing. baby talk /'beıbı tɔ:k/, fr. langue d'enfant, azərb. körpə (çağa) danışığı. - Körpələrin (çağaların) danışıq üzvlərinin təbii **hərəkətlərinin** nəticəsi olan danışıq əsasən qısa, qırıq-qırıq sözlər və ya söz-cümlə (holifrastik) şəklində olur.
Р.О.Якобсон. Детский язык, **афазия** и общие звуковые законы. Almancadan 1949-cu il nəşrindən tərcüməsi, «Şərhlər» və «Son söz» F.Veysəllinindir. Bakı, 1993; V.Veysəlova. Uşaq dilinin yaranması və formalaşması. ND., Bakı, 2001.

РЕЧЬ ДЕЛОВАЯ - alm. Geschäftssprache (f), ing. business speech /'bıznıs spi:ʧ/, fr. langue d'affaire, azərb. işgüzar danışıq. – Bu rəsmi yazışmalarda və şifahi danışıqlarda daha aydın nəzərə çarpır. Məs.: Azərb. d. yazışmada /Hörmətli cənab Müller/ nəzərinizə çatdırıram ki// və ya /Bununla bildirirəm ki, ...//; şifahi danışıqda /Şirkətimizin illik gəliri ... manatdır/ xahiş edirik ki, müqavilənin sərtlərini müəyyənləşdirəndə bu faktı nəzərə alasınız// və s.
M.İ.Adilov və s. Göstərilən əsəri, s. 127-128.

РЕЧЬ ДИАЛЕКТНАЯ - alm. dialektale Rede (f), mundartliche Rede (f), ing. spoken dialect /'spəukən 'daıəlekt/, dialectal speech /ˌdaıə'lektəl spi:ʧ/, fr. discours dialectal, azərb. dialekt danışığı. – Dilin dialektlərinə aid söz və ya ifadələrin dil daşıyıcıları tərəfindən işlədilməsi. Məs.: Azərb. d. /dümbül/ (bel) və s. Bəzən azərbaycanlılar gündəlik dil fəaliyyətlərində dialektdə danışır, vurğunu və intonasiyanı dialektlərdəki kimi işlədir. Məs.:
Şəki ləhcəsində /Ha, indi dilo ye:m/;
Cənub ləhcəsində /Kişi: yenə nə **iştu**/;
Qərb ləhcəsində /Gələjəm, ağrın aleym// və s.
F.Veysəlli. Dilimiz, qeyrətimiz, qayğılarımız. Bakı, 1997.

РЕЧЬ ИНТЕЛЛЕКТУАЛЬНАЯ – alm. intellektuelle Rede (f), ing. intellectual speech /ˌıntı'lekʧuəl/ˌıntı'lektjuəl spi:ʧ/, fr. parole İntellectuelle, azərb. intellektual danışıq. - Emosional danışıqdan fərqli olaraq məzmuna yönəlikli intellektual informasiyanın ötürülməsinə xidmət edən danışıq. Məs.: Azərb. d. /Türk xalqları tarixi boyu dörd əlifbadan istifadə ediblər: göytürk, uyğur, ərəb və latın//.
I Türkoloji qurultayın stenoqrafik hesbatı (26.02.26 – 5. 03. 26). Bakı, 1926.

РЕЧЬ КИНЕТИЧЕСКАЯ – alm. kinetische Rede (f), ing. kinetic speech /kınetık spi:ʧ/, fr. langue cinétique, azərb. jestlə danışıq. - Jestlər vasitəsilə ünsiyyətə girmək. Dilçilikdə bu vasitələri öyrənən bölməyə paralinqvistika deyilir.
F.Veysəlli. SDƏ.

РЕЧЬ КОСВЕННАЯ – alm. indirekte Rede (f), ing. indirect speech /ˌɪndɪˈrekt spi:tʃ/, fr. dicours indirect, azərb. vasitəli nitq. - Başqasına məxsus danışığın qismən dəyişiklərlə verilməsinə vasitəli nitq deyilir. Vasitəli nitq başqasının dediyinin yenidən verilməsi ehtiyacından irəli gəlir. Dildə bu, bir qayda olaraq, ya cümlənin tərkibində, ya da tabeli mürəkkəb cümlələr şəklində öz ifadəsini tapır. Bu zaman müəllifin sözləri baş cümlə, vasitəli nitq isə budaq cümlə kimi çıxış edir. Məs.: Azərb. d. /Nigar narazı tərzdə bildirdi ki, işdə möhkəm yorulduğundan tez yatmaq istəyir//; alm. d. /Hans, sagte Karl, wird nie Kanzler sein// (Hans, deyə Karl bildirdi, heç vaxt kansler olmayacaq) və s.

Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, s. 315.

РЕЧЬ ЛИТЕРАТУРНАЯ – alm. literarische Rede (f), ing. literary (standart) speech /ˈlɪtərərɪ, ˈstændəd/spi:tʃ/, fr. parole littéraire, azərb. ədəbi dil. - Normalaşdırılmış, müəyyən normaya müvafiq gələn danışıq tərzi, cəmiyyətin savadlı, xüsusən də ziyalı təbəqələrinin danışıqları ədəbi dilin bazasında yaranır və formalaşır. Ədəbi dil ümumxalq dilinin və dialektlərin fövqündə durur. Ancaq həmişə onlardan bəhrələnir. Bu gün auditoriyalarda, iclaslarda, elmi konfranslarda və rəsmi toplantılarda ədəbi dil işlənir. Aydın tələffüz, normaya uyğun vurğu və intonasiya, ümumişlək söz seçimi və qrammatik cəhətdən düzgün söz düzümü və struktur ardıcıllığı ədəbi dilin əsas əlamətləridir. Məs.: Azərb. d. /Sənin bu yerlərdən üz döndərməyə mənəvi haqqın yoxdur// və s.

F.Yadigar (Veysəlli). Danışıqda ədəbi dil norması haqqında. Türk lehceleri ve edebiyyat dergisi. Ankara, sayı 16, 1997, s. 13-18; F.Yadigar (Veysəlli). Dilimizin təmizliyini qoruyaq. Türk dünyası. Dil ve edebiyyat dergisi. 2003, sayı 16, s. 231-230.

РЕЧЬ МАЛАЯ ДЕТСКАЯ – alm. kleine kindliche Rede (f), ing. babbling /ˈbæblɪŋ/, fr. langage de l'enfant, azərb. cağa dili (nitqi). - Cağaların tələffüz üzvlərinin qeyri-iradi hərəkətləri nəticəsində yaranan danışıq. Məs.: uşaqların qığıltıları.

Bax: Речь детская ←.

РЕЧЬ МЕРНАЯ – alm. rhythmische Rede (f), ing. metric speech /ˈmetrɪk spi:tʃ/, fr. discours cadencé, azərb. vəznli danışıq. - Uzun və qısa hecaların bir-birini müntəzəm əvəzləməsi, danışıq sürətinin artıb azalmasındakı və tonun qalxıb enməsindəki ardıcıllıq, vurğulu və vurğusuz hecaların mütəmadi olaraq bir-birini əvəz etməsi.

Məs.: Azərb. d. /Heydər baba, mərd oğullar doğginan/
/Namərdlərin burunların ovginan/
/Gədiklərdə qurdları tut boğginan/
/Qoy quzular ayın-şayın otlasın/
/Qoyunların quyruqların qatlasın/

M.Şəhriyarın «Heydərbabaya salam» poemasından götürülmüş bu parçada /vv v – vv v – vv -/ müəyyən daxili bir ritm ifadə olunub.
A.Axundov. Şer sənəti və dil. Bakı, 1980.


РЕЧЬ ПИСЬМЕННАЯ – alm. schriftliche Rede (f), ing. written speech /'rıtn spi:tʃ/, fr. parole écrite, azərb. yazılı nitq. – Dilin yazılı forması. Yazıda ədəbi dilin normalarına daha ciddi riayət olunur. Normal vəziyyətdə hər bir insan gündəlik həyatında yazır, qeyd edir, bəziləri gündəlik yazır, təbriklər yazır, məqalə və kitab yazır və s.
H.Glück, W.W. Sanes. Gegenwartsdeutsch. Stutgart, 1997, s. 26-30.

РЕЧЬ ПРОФЕССИОНАЛЬНАЯ - alm. Berufssprache (f), ing. professional speech /prə'feʃənəl spi:tʃ/, fr. parole professionnelle, azərb. peşə dili. - Peşə dilinin lüğət tərkibinin əsas hissəsini terminlər və ifadələr təşkil edir. Peşə dilində ədəbi dildə az-az təsadüf olunan və, ümumiyyətlə, az işlənən və ya heç işlədilməyən sözlərə rast gəlmək olur. Peşə dilinin yaranmasının və formalaşmasının əsas səbəbi cəmiyyətin hər hansı bir əmək fəaliyyəti sahəsi üçün səciyyəvi cəhətləri özündə ehtiva etməsidir. Bu «dil» məxfi səciyyəli olduğundan ondakı söz və ya ifadələrin dəqiq və dürüst məzmununu yalnız həmən zümrənin üzvləri başa düşə bilirlər. Peşə dilindən müstəsna hallarda, özü də üslubi çalarlıq yaratmaq məqsədilə istifadə olunur. Peşə dilinə hərbçilərin, sənətkarların, əkinçilərin, musiqiçilərin və s. danışıqlarını misal göstərmək olar. Məs.: Azərb. d. tütünçülük, əkinçilik, bağçılıq və s. sahələrdə işlənən külli miqdarda söz və ifadə vardır.
N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1980.

РЕЧЬ ПРЯМАЯ – alm. direkte Rede (f), ing. direct speech /dı'rekt spi:tʃ/, fr. discours direct, azərb. vasitəsiz nitq. - Başqasının sözlərinin eynilə, onların qrammatik, leksik və fonetik cəhətlərini olduğu kimi və ya qismən dəyişdirməklə verilməsi. O, başqasının vasitəsiz fikir formasında verilmiş mülahizə və düşüncələridir. Vasitəsiz nitqin iştirak etdiyi cümlələrdə müstəqil fikir olmur. Vasitəsiz nitqi vasitəli nitqdən sintaktik baxımdan fərqləndirən əsas cəhət birincinin məna və intonasiya müstəqilliyini qoruya bilməsindən ibarətdir. Məs.: V. fon Humboldt yazır: „Dil fikri yaradan bir orqandır" (Die Sprache ist das bildende Organ des Gedankens).
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 42.

РЕЧЬ ОБИХОДНАЯ – alm. Alltagsrede (f), ing. colloquial speech /kə'ləukwıəl spi:tʃ/, fr. langue courante, azərb. məişət dili. – Hər bir dil daşıyıcısı heç bir hazırlığı olmadan ünsiyyətə girir və bu zaman o, adi danışıq formasından istifadə edir və əksər hallarda bu, dialoq formasında olur. Adətən dilin cəmiyyətdə işlənməsini üçbucaq şəklində verirlər: üçbucağın zirvəsi ədəbi dil: ing. d. /Queen's English, standard national language/ və ya /colloquial speech/; alm. d. /Hochsprache/; rus d. /литературный

язык/; tələffüzə yönəlik gündəlik danışıq dili; ing. d. /Receved Pronunciation/; alm. d. /Umgangssprache/; rus d. /обиходный язык/ və ümumxalq dili: ing. d. /colloquial english/, alm. d. /Gemeindeutsch/; rus d. /общий язык/, və dialekt: ing. d. /Cockney dialect/; alm. d. /Kockneydialekt/; rus d. /dialekt/ və s. Əyani olaraq bunu belə göstərmək olar:



F.Yadigar (Veysəlli). GDG. s. 88.

РЕЧЬ ОБРАЗНАЯ – alm. bildhafte Rede (f), ing. figurative speech /fɪgjurətɪv spi:ʧ/, fr. discours imagé, (pittoresque), azərb. ifadəli danışıq. – Danışıqda həmsöhbətə emosional təsir aşılayan məcazların bolluğu. Məs.: Azərb. d.

/Xəzan yeli yarpaqları tökəndə/
/Bulud dağdan enib kəndə çökəndə/
/Şeyxül-İslam gözəl səsin çəkəndə/
/Nisgilli söz ürəklərə dəyərdi/
/Ağaclar da Allaha baş əyərdi/.

M.Şəhriyar. «Heydərbabaya salam», Bakı, 1981, s. 20; M.İ.Adilov və b. Göstərilən əsəri, s. 103.

РЕЧЬ ОРАТОРСКАЯ – alm. rednerische Sprechweise (f), ing. declamatory speech /dɪ'klæmətərɪ spi:ʧ/, fr. discours d'oratoire, azərb. natiqin nitqi. - Geniş dinləyici auditoriyasına yönələn, xüsusi ifadə tərzi tələb edən, intonasiya və prosodiya cəhətdən rəvanlığı ilə səciyyələnən nitq. Məs.: Azərb. d. M.Ə.Rəsulzadənin parlament kürsüsündən Azərbaycanın müstəqilliyilə bağlı nitqi.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 187.

РЕЧЬ ОФИЦИАЛЬНАЯ – alm. offizielle Rede (f), ing. formal speech /'fɔ:məl spi:ʧ/, fr. discours officiel, azərb. rəsmi danışıq. – İclas və yığıncaqlarda, radio dalğalarında və televiziya kanallarında rəsmi çıxış. Məs.: ölkə prezidentinin vətəndaşlara müraciəti.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 187.

РЕЧЬ СВЯЗНАЯ – alm. zusammenhängende Rede (f), ing. connected speech /kə'nektɪd spi:ʧ/, discours /'dɪskɔ:s/ fr. discours connexe, azərb. rabitəli nitq. - Nisbətən böyük hissədən (parçadan) ibarət olan və az-çox bitkin, eyni zamanda bir xətt üzrə rabitəli nitq. Məs.: Azərb. d. /Əziz yoldaşlar, mən birmənalı şəkildə bildirirəm ki, biz hələ də problemin nə qədər ciddi olduğunu dərk etmirik. Belə olmasaydı .../

O.C.Ахманова. Göstərilən əsəri, s. 386.

РЕЧЬ ЧУЖАЯ – alm. fremde Rede (f), ing. foreign non-native speech /ˈfɒrɪn ˈnɒn-ˈneɪtɪv spi:ʧ/, fr. discours étranger, azərb. yad dildə danışıq. - Özgə, yad dildə tələffüz edilmiş nitq. Azərbaycanlıların rus, alm., ing. və s. dillərdə danışması buna misal ola bilər.
F.Yadigar (Veysəlli). Dilimiz, qeyrətimiz və qayğılarımız. Bakı, 1997.

РЕЧЬ ЦИТАТНАЯ – alm. Zitat (n), Zitieren (n), Rede (f), ing. quotational speech /kwəʊˈteɪʃənəl spi:ʧ/, fr. discours de citation, azərb. sitatlı nitq. - Müxtəlif bədii əsərlərdə, elmi mənbələrdə və ayrı-ayrı şəxslərin danışığında işlədilmiş ifadələrin eynilə hərfi mənada iqtibas edilməsi.
Məs.: M.Şəhriyarın «Doşablı xəşil» şerindən bir beyt buna misal ola bilər.

Türkün dili tək sevgili, ehsaslı dil olmaz,
Ayrı dilə qatsan ədəbiyyat əsil olmaz.
Öz ləfzini farsa, ərəbə qatmasa şair,
Şeri oxuyanlar, eşidənlər kəsil olmaz.

M.Şəhriyar. Göstərilən əsəri, s. 65.

РИКСМОЛ – alm. Ricksmol (n), ing. riksmal /ˈrɪ:ksmɔ:l/, fr. ricksmol, azərb. riksmol. - Danimarka ədəbi dilə əsaslanan norveç ədəbi dilinin bir növü. Bu yerli dialektlərə əsaslanan norveç ədəbi dili landsmola qarşı qoyulur.
О.С.Ахманова. Göstərilən əsəri, s. 388.

РИСУНОЧНОЕ ПИСЬМО - alm. Bildschrift (f), ing. picture-writing /ˈpɪkʧə ˈraɪtɪŋ/, pictorial writing /pɪkˈtɔ:rɪəl ˈraɪtɪŋ/, fr. écriture à icône, azərb. şəkli (piktoqrafik) yazı. – Bu yazıda şəkillər ideya və məfhumları əks etdirməyə xidmət edir. Yazının bu növündə əşya və hərəkətlə şəkil bir-birinə uyğun gəlir; yəni piktoqrafik yazı vasitəsilə əşya və hərəkətlər aydın şəkildə əks etdirilir. Bu səbəbdən də şəkli yazını müxtəlif dillərə mənsub xalqlar da eyni səviyyədə başa düşə bilirlər. Məs.: saatsaz dükanlarının qarşısına saat şəklinin, qəssab dükanlarının qarşısına öküz və ya qoç şəkillərinin yapışdırılması, məktəb və uşaq bağçalarının yerləşdiyi sahələrin yaxınlığında yol keçidlərində sürücüləri xəbərdar etmək məqsədilə uşaq və ya məktəb şəkillərinin qoyulması və s. bu qəbildəndir.
F.Veysəlli. SDƏ. s. 64-90.

РИТВАНСКИЙ ЯЗЫК – alm. Ritwan (n), ing. Ritwan language /ˈritwæn ˈlæŋgwɪʤ/, fr. langue ritvane, azərb. ritvan dili. – Şimali Amerikanın hindu dilləri ailəsi. Bu dillər ailəsi alhonkino-vakaş dillərini əhatə edir. Avropalıların işğalına qədər Kaliforniyanın Sakit okean sahillərində Humboldt boğazında (viyot) və Klamat çayının mənsəbində (yurok) yayılmışdır. Ritvan dillərinin fonetik sistemləri fərqlidirlər. Məs.: viyot dilinin saitlər yarımsistemində /i/, /e/, /a/, /u/, /o/, yurok dilində isə sadalanan saitlərdən başqa /ə/ saiti, həmçini uzun saitlər də mövcuddur.

Cümlə daxilində MXT söz sırası üstünlük təşkil edir. Sözdüzəltmənin müxtəlif növləri (prefiks, suffiks, reduplikasiya və s.) vardır.
E.Sapir. Wiyot and Yurok. Algonkin languages of California. «American Anchropologist», 1913, v. 15, № 4.

РИТМ – alm. Rhythmus (m), ing. Rhythm /'rıðəm/, fr. rythme, azərb. ritm. Bax: Речь мерная ←.

РИТМ БАРИТОНИЧЕСКИЙ – alm. barytonischer Rhythmus (m), ing. Barytonic rhythm /'bærıtɔunık 'rıðəm/, fr. rythme barytonique, azərb. baritonik ritm. - Söyləmdə fonetik əlamətlərin: intensivliyin, gərginliyin, uzanmanın əvvələ keçməsilə səciyyələnən ritm. Məs.: Azərb. d. /Yo'ldaşlar? bu il bizim üçün çətin il olub//.
O.C.Ахманова. Göstərilən əsəri, s. 388.

РИТМ ОКСИТОНИЧЕСКИЙ – alm. oxytonischer Rhythmus (m), ing. oxytonic rhythm /ɒksıtɔunık/ɒksı'tɒnık 'rıðəm/, fr. rythme ocsitonique, azərb. oksitonik ritm. – İntensivlik, gərginlik və uzunluq mərkəzinin söyləmin sonuncu hecası üzərinə keçməsilə səciyyələnən ritm. Məs.: Azərb. d. /Axşama bu işləri qurtar//. Radio və telekanallarda çox işlənir.
P.H.Mattews. Göstərilən əsəri, s. 261.

РИТМИКА – alm. Rhythmik (f), ing. rhythmics /'rıðmıks/, fr. rhythmique, azərb. ritmika. - Fonetikada danışığın mənaca eyni qəlibdə növbələşən taktlara və qruplara bölünməsi. Yəni ardıcıl düzülmüş səs axınında eyni qəlib təkrar olunur, deməli, nisbi eynilik burada əsas meyar sayılır. Ritmə həm şerdə, həm də nəsrdə rast gəlmək olur. Lirik ritmdə zaman daxilində parçaların ölçüsü və dinamik qabarmalar (iktlərin) vəziyyəti əsas götürülür. İktusdan iktusa müxtəlif cür olur. Burada vurğu və uzunluq əsas parametrlər kimi çıxış edir. Birinci qabarmadan qabaqkı takt hissələri auftakt (ön sahə) adlanır. Şer bütövlükdə taktların nizamlı düzülüşüdür. Alman dilində bu taktlar 2-16-ı arasında yerləşir. İki və daha artıq şeri period adlandırırlar. Ən böyük periodu misra adlandırırlar. Şerin quruluşu taktın strukturundan, sayından və misraların sıralanmasından asılıdır. Təbiidir ki, bu da hər bir dilin prosodik özəllikləri ilə bağlıdır. Ümumi şəkildə şerdə üç vəzn fərqləndiririr: ölçülü, tonik və heca vəzni vurğulu və ya vurğusuz, ya da əksinə. Azərb. d. fonetik qurumu və fonoloji sistemi heca vəznini seçir. Ancaq dilimizdə əruz vəznindən də, yəni ölçülü vəzndən də geniş istifadə olunur. Tonik vəznə isə dilimizdə rast gəlinmir, çünki dilimiz üçün sabit vurğulu və vurğusuz hecaların növbələşməsi səciyyəvi deyildir. Heca vəznində ölçü və bölgü əsasdır. Heca vəznində ölçü prinsipinin gözlənilməsinə bir nümunə:

/Çarpışmışıq, döyülmüşük,
Yerüstünü yer altına
Təzə-təzə dəyişmişdik/

C.Novruz. «Almaniyada səsim qaldı».

Burada ölçü ilə bərabər bölgü də əsas götürülür. Hecaların sayı saxlanılır, misraların sərhədi qafiyə ilə müəyyənləşir.
Ölçülü sərbəst vəznə nümunə kimi M.Müşfiqin «Oxu tar» şerini göstərmək olar.

Oxu tar, oxu tar,
Səni kim unudar!

Ancaq dilimizdə şer yaradıcılığında heca vəzni ana xətti təşkil edir.

Ömür də var, ölüm də var binadan (11),
Ya gec, ya tez sönməlidir hər yanan (11),
Soruşsalar Hüseyni bir zaman (11)
Deyin, dağlardadır dağlar şairi. (11)
(H.Arif).

Sərbəst şerə nümunə:

Düzlərindən axan çaylar –
Tökülər ürəyimə.
Gözlərimə düşər yollar –
Çəkilər ürəyimə.
O, çaylar da sənindir.
O, yollar da sənindir.
(İ.İsmayılzadə).

Əruz vəzninə nümunə:

Bir zaman göz yaşı içmiş dərələr,
Qayalar, zirvələr, meşələr,
İndi üç qardaşın ölmüş vətəni,
Anacaqlar, sevəcəklər bilirəm!
S.Vurğun. «Qafqaz»

Tonik vəzinə nümunə alman şeri

Im Walde ging ich, v – v – v
So für mich hin. – v – v
Und nichts zu suchen, v – v – – v
Das war mein Sinn. v – v –
J. W. von Göte

РИТМИКО-ИНТОНАЦИОННЫЙ – alm. rhythmisch-intonatorisch, ing. rhythmic intonational /'rıðmık ˌıntə'neıʃənəl/, fr. d'intonation rythmique, azərb. ritmik-intonasiyon.
Bax: Интонация ←.
РИТМИКО-СИНТАКТИЧЕСКИЙ - alm. rhytmisch-syntaktisch, ing. rhythmic syntactic(al) /'rıðmık sın'tæktıkəl/, fr. synthaxico rythmique, azərb. ritmik-sintaktik.
Bax: Синтаксис →.

РИТМИЧЕСКАЯ ГРУППА - alm. rhythmische Gruppe (f), ing. rhythmic(al) group /'rıðmık(əl) **gru:p**/, fr. groupe rythmique, azərb. Ritmik qrup. – Vurğusuz hecaların **vur**ğulu hecalar ətrafında birləşməsinə ritmik qrup deyilir. Məs.: alm. d. /In der Schule gibt es viele Schüler// (məktəbdə çoxlu şagird var) cümləsində 3 ritmik qrup var.

РИТМИЧЕСКАЯ ЕДИНИЦА - alm. rhythmische Einheit (f), ing. rhythmic(al) unit /'rıðmık(əl) 'ju:nıt/, fr. unité rythmique, azərb. ritmik vahid.

Bax: Ритмическая группа ←.

РИТМИЧЕСКИЙ ПРИНЦИП – alm. rhythmisches Prinzip (n), ing. rhythmic(al) principle /'rıðmık(əl) 'prınsıpəl/, fr. principe rythmique, azərb. ritmik prinsip.

Bax: Ритмика ←.

РИТМОМЕЛОДИКА – alm. rhythmisch-melodisch, ing. rhythmo-melodics /'rıðmou mı'lɒdıks/, fr. rythmo-mélodie, azərb. ritmik-melodik. – Müəyyən melodik və ritmik modellərə əsasən danışıq aktının bölünməsi. Məs.: ing. d. /I' ll do it but I' ll need some help// (mən onu eləyəcəyəm, ancaq mənim bəzi köməyə ehtiyacım var) cümləsində /I' ll do it/ (edəcəyəm) qalxan tonla deyilir, «it»-dən sonra melodiya konturu qırılır. Fasilə edilir, sonra düşən tonla cümlənin ikinci hissəsi tələffüz olunur.

P.H.Matthews. Göstərilən əsəri, s. 379.

РИТОРИКА – alm. Rhetorik (f), ing. rhetoric /'retɒrık/, fr. rhétorique, azərb. ritorika. - İfadəli danışıq nəzəriyyəsi, danışığın daha səmərəli, təravətli tərtibləmə üsullarını arayan nəzəriyyə. Natiqlik mədəniyyətini əhatə edən bu fənn latınca «trivium» (üçlük) adlanan üç fəndən (qrammatika, məntiq, dialektika) ibarətdir.

P.H.Matthews. Göstərilən əsəri, s. 321.

РИТОРИЧЕСКАЯ ФИГУРА – alm. rhetorische Figur (f), Wendung (f), ing. rhetorical figure /rı'tɒrıkəl 'fıgə/, fr. figure rhétorique, azərb. ritorik fiqur. – Danışığın təsirini qüvvətləndirməkdən ötrü işlədilən sintaktik vahidlər, xüsusi söz birləşmələri və nitq parçaları. Ritorik fiqurlara anafora, antiteza, bağlayıcısızlıq (asindeton), inversiya, paralelizm, ritorik sual, xitab, təkrar, yarımçılıq, ellipsis, epifora və s. daxildir.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 228.

РОВНОЕ УДАРЕНИЕ – alm. ruhige, gemessene Betonung (f), ing. level stress /'levl 'stres/, fr. accent régulier, azərb. müntəzəm, rəvan vurğu. - Məs.: alm. d. /deutsch-aserbaidshanisch/ (almanca-azərbaycanca), /fünf und fünf/ (beş üstə gəl beş) və s.

K.Kohler. Göstərilən əsəri, s. 117.

РОД – alm. Geschlecht (n), ing. gender /'ʤendə/, fr. genre, azərb. cins. – 1) Cins kateqoriyası xüsusi kateqoriyadır. Bu leksik-qrammatik kateqoriya müəyyən dildə bütün isimləri əhatə edir və o isimlərin uzlaşdıqları sözlərlə birləşmə şəklində təzahür edir; 2) Birləşməyə (əlaqəyə) girdikləri ismin cinsindən asılı olaraq müxtəlif formlarda təzahür edən sifətlərin qrammatik kateqoriyası. Alman, rus və s. dillərdə təkdə 3 qrammatik cins var. Müq. et: / Die rote Fahne// (красный флаг), /das grüne Feld/ (зеленое поле), /der schöne Wald/ (красивый лес). Azərb. və ing. d. cins yalnız canlılarda leksik yolla, bir də ingilis dilində 3-cü şəxsin təkində əks olunur. Müq. et: Azərb. d. /ana, ata/; ing. d. /sun, daughter/, /he, she, it/. Bəzi qərb dilçiləri (C.Layonz (1932) və s) dildə cinsin məntiqi və qeyri-məntiqi şəkildə büruzə verdiyini bildirirlər. Məs.: onlar rus dilində cins kateqoriyasının ifadə formasını qeyri-məntiqi adlandırırlar.
H.Glinz. Göstərilən əsəri.

РОД ЕСТЕСТВЕННЫЙ – alm. natürliches Geschlecht (n), ing. natural gender /'nætʃərəl 'ʤendə/, fr. genre naturel, azərb. təbii cins. - Bioloji cinslə cins kateqoriyası arasında nəzərdə tutulan uyğunluq. Məs.: alm. d. /die Frau/ (qadın), ancaq /das Mädchen/ (qız) (n), das Weib (qadın) (n) sözlərinin cinsi olsa da qrammatik göstəricisi ortadır.
A.A.Реформатский. Göstərilən əsəri, s. 250-251.

РОД ЖЕНСКИЙ – alm. weibliches Geschlecht (n), Femininum (n), ing. feminine gender /'femının 'ʤendə/, fr. genre féminin, azərb. qadın cinsi. - Xüsusi hallanma paradiqminə aid qadın cinsli isimlərin leksik-qrammatik səciyyəsi. Məs.: rus və alm. d. qadın cinsinin xüsusi göstəricisi və hallanması mövcuddur. Müq. et:

alm. d.	rus d.
Nom. die Freiheit(azadlıq)	им. школа
Gen. der Freiheit	род. школы
Dat. der Freiheit	дат. школе
Akk. die Freiheit	вин. школу
	тв. школой
	пред. о школе

A.A.Реформатский. Göstərilən əsəri, s. 250-251.

РОД МУЖСКОЙ – alm. männliches Geschlecht (n), Maskulinum (n), ing. masculine gender /'ma:skjulın 'ʤendə/, fr. genre masculin, azərb. kişi cinsi. - Xüsusi hallanma paradiqmi olan bir qrup kişi cinsinə aid isimlərin leksik-qrammatik xüsusiyyətləri. Alm. və rus d. kişi cinsli isimlərin öz hal paradiqmi və qrammatik göstəriciləri vardır.

Müq. et:

alm. d.	rus d.
Nom. der Lehrer (müəllim)	им. учитель
Gen. des Lehrers	род. учителя
Dat. dem Lehrer	дат. учителю
Akk. den Lehrer	вин. учителя
	тв. учителем
	пред. об учителе

А.А.Реформатский. Göstərilən əsəri.

РОД ОБЩИЙ – alm. allgemeines Ceschlecht (n), ing. common gender /'kɒmən 'ʤendə/, fr. genre commun, azərb. ümumi, ortaq cins. - Həm qadın, həm də kişi cinsinə məxsus olan isimlər. Məs,: alm. d. / der Tuch/ (mahud), /das Tuch/ (dəsmal) və s.

H.Glinz. Göstərilən əsəri.

РОД СРЕДНИЙ – alm. Neutrum (n), ing. neuter gender /'nju:tə 'ʤendə/, fr. genre neutre, azərb. orta cins. - Bir sıra isimlərin leksik-qrammatik xüsusiyyəti. Alm. və rus d. orta cinsli isimlərin öz qrammatik göstəricisi var. Rus dilində orta cinsə aid isimlər /o/, /e/, /ë/ saitləri ilə bitir. Məs.: alm. d. /das Feld/, rus d. (поле) və s.

А.А.Реформатский. Göstərilən əsəri.

РОДИТЕЛЬНЫЙ ПАДЕЖ – alm. Genitiv (m), ing. genitive case /'ʤenıtıv keıs/, fr. génitif, azərb. yiyəik hal. - Yiyəlik, aidlik, sahiblik; mənsubiyyət və s. bldirən isim halı. Azərb. d. bu halın morfoloji göstəriciləri (-ın)[4] şəkilçidir. Yiyəlik hal fellər tərəfindən idarə olunmur. Bu haldakı söz aid ismin təyini olduğu təyin funksiyasında çıxış edir. Məs.: Azərb. d. /bacımın əri/, alm. d. /das Haus meiner Sehwester/ (bacımın evi). Bu funksiyada yiyəlik halın işlənməsi bütün dünyada yayılıb. Alm. d. /gedenken/ feli Gen. halını tələb edir. İng. d. buna possesive marker deyirlər. Yiyəlik halın digər sintaktik funksiyaları:

alman dilində vasitəsiz tamamlıq rolunda çıxış edə bilər. Müq. et: /Hans ist sich seines Sieges bewußt// (Hans qələbəsini başa düşür).

Bu dildə o, zaman zərfliyi kimi də çıxış edə bilir. Müq. et: /Eines Tages ging er weg// (Bir gün o çıxıb getdi). O, alman dilində sözönlərilə də işlənə bilir. Müq. et: /wegen des Regens/ (yağışa görə), /dank meiner Hilfe/ (mənim köməyim sayəsində).

Yiyəlik halı aşağıdakı mənaları verə bilər:

a) genitivus-subjektivus (subyekt bildirən). Məs.: Azərb. d. (uşağın yatışı), alm. d. /Der Schlaf des Kindes/;

b) genitivus-objektivus (obyekt bildirən). Məs.: Azərb. d. /dərmanın paylanması/, alm. d. /die Verteilung der Medikamente/

c) genetivus-possesivus (mənsubiyyət bildirən). Məs.: Azərb. d. /müəllimin qələmi/; alm. d. /der Bleistift des Lehrers/;
ç) genetivus-partitivus (hissəni bildirən). Məs,: Azərb. d. /mülkümün yarısı/, alm. d. /die Hälfte des Vermögens/.
İtalyan və fransız dillərində yiyəlik halı demək olar ki, aradan çıxıb. Ancaq alman dilində bu gün də o genişl işlənir.
Azərbaycan dilində yiyəlik hal iki cür olur:
1) Müəyyən yiyəlik hal. Məs.: Azərb. d. /başımın ağrısı/, /adamın yaxşısı/ və s.
2) Qeyri-müəyyən yiyəlik halı. Məs.: Azərb. d. /el gücü, sel gücü/, /Xumar-xumar baxmaq göz qaydasıdır/, /Lalə tək qızarmaq üz qaydasıdır/ (M.P.Vaqif).
H.Bußmann. Göstərilən əsəri, s. 273, M.Hüseynzadə. Göstərilən əsəri, s. 57-59.

РОДИТЕЛЬНЫЙ ГЕОГРАФИЧЕСКИЙ – alm. geographischer Genitiv (m), ing. geographic(al) genitive /ʤɪəˈgræfɪk(əl) ˈʤenɪtɪv/, fr. génitif géographique, azərb. coğrafi-yiyəlik. - Coğrafi ad bildirən yiyəlik halın növü. Məs.: Azərb. d. /meşənin kənarı/ və ya meşə kənarı/, /Qafqazın dağları/ və ya /Qafqaz dağları/.
H.Bußmann. Göstərilən əsəri.

РОДИТЕЛЬНЫЙ ОПРЕДЕЛЕННЫЙ – alm. bestimmter Genitiv (m), ing. genitive of (case) definition /ˈʤenɪtɪv əv/keɪs/ˌdefɪˈnɪʃən/, fr. génétif déterminé, azərb. müəyyən yiyəlik hal.
Bax: Родительный падеж ←.

РОДИТЕЛЬНЫЙ ПРИНАДЛЕЖНОСТИ – alm. Zugehörigkeitsgenitiv (m), ing. possessive genitive /pəˈzesɪv ˈʤenɪtɪv/, fr. génétif déterminatif, azərb. mənsubiyyət bildirən yiyəlik hal.
Bax: Родительный падеж ←.

РОДНОЙ ЯЗЫК – alm. Muttersprache (f), ing. mother tongue /ˈmʌðə tʌŋ/, fr. langue maternelle, azərb. ana dili. - İnsanın körpə vaxtlarından onu əhatə edən, onunla təmasda olan ətraf aləmdən (qohumlarından, yaxınlarından) öyrəndiyi və mənimsədiyi dil. Burada motivləşmə və uyğunlaşma mühüm amildir. Dil səriştəsi anadangəlmə olsa da, onun formalaşması və tətbiqi mühitin təsirilə baş tutur. Amerikan psixolinqvistləri buna birinci dil «first language» deyirlər.
F.Veysəlli. SDƏ.

РОДОВОЙ – alm. Geschlechtswort (n), ing. generic /ˈʤəˈnerɪk/, fr. générique, azərb. eyni cinsə mənsub olan. - Müəyyən kateqoriyaya və sinfə aid olan əşyaları ümymi şəkildə göstərən termin. Məs.: alm. d. cinsləri bildirən /der, die, das/ artikilləri.
O.C.Ахманова. Göstərilən əsəri, s. 474.

РОДОСЛОВНОЕ ДЕРЕВО – alm. Stammbaum (m), ing. genealogical tree /ˌdʒi:nɪə'lɒdʒɪkəl tri:/, fr. arbre généalogique, azərb. şəcərə ağacı. – Mənşə ümumiliyi fərz edilən dil ailələrinin, qruplarının və ya qollarının ağacvari şəkildə əyani təsviri. Dilləri canlı orqanizmə bənzədən A.Şlayxer (1821-1868) onların qohumluğunu ağacvari təsvir edir. Bu zaman ümumi gövdə və hər bir qol tən yarıdan bölünür. Bu yolla o ulu (pra-) dil anlayışına gedib çıxır ki, bu da tarazlığa əsaslanırdı. A.Şlayxer güman edirdi ki, guya əvvəllər vahid ulu dil olmuş, səslərin və formaların çoxluğu isə sonralar yaranmışdır. O, öz bərpa metodundan istifadə edərək hind-Avropa dilində bir təmsil də tərtib etmişdi. Lakin sonrakı tədqiqatlar bu fikirləri alt-üst etdi.

A.Şlayxerin ulu dili bərpa etmək üçün istifadə etdiyi ağacvari təsnif:

Bax: Dilçilik ensiklopediyası. I cild. s. 193.

РОДСТВА ТЕРМИНЫ – alm. Stammbaumtermini (Pl.), ing. kinship terms /'kɪnʃɪp tɜ:mz/, fr. termes de parenté, azərb. qohumluq bildirən terminlər. – Öz aralarında bu və ya digər şəxslərlə qohumluq əlaqələri olan adamları adlandırmadan ibarət olan sözlər. Məs.: Azərb. d. /ulu baba/- /baba/-/ata/-/oğul/-/nəvə/-/nəticə/ və s.

O.C.Ахманова. Göstərilən əsəri, s. 474.

РОДСТВЕННОЕ ДОПОЛНЕНИЕ – alm. inneres Objekt (n), ing. inner object /'ɪnə 'ɒbdʒɪkt/, fr. objet interne, azərb. daxili tamamlıq. – Əsasən idarə edən fellə eyni kökdən yaranmış, leksik mənasına görə üst-üstə düşən və ona aid olan hərəkəti daha geniş tərzdə göstərən vasitəsiz tamamlıq rolunda çıxış edən isim. Məs.: Azərb. d. /ütüləmək/ → /ütü ütüləmək/ və s.

O.C.Ахманова. Göstərilən əsəri, s. 474.

РОДСТВО ‹ЯЗЫКОВ› - alm. Sprachverwandtschaft (f), ing. kinship relationship of languages /'kɪnʃɪp rɪ'leɪʃənʃɪp əv 'læŋgwɪdʒɪz/, fr. parenté des langues, azərb. dillərin qohumluğu. – Eyni mənşəli dillərin müxtəlif səviyyələrində müntəzəm uyğunluqlarin olmasını araşdırmaq, onların qohumluq əlaqələrini öyrənmək.

Bax: Родословное дерево ←.

РОМАНИСТИКА – alm. Romanistik (f), ing. Romance philology /rəʊ'mæns fɪ'lɒlədʒɪ/, fr. philologie, romane, azərb. romanşünaslıq. - Roman dilli xalqların maddi və mənəvi mədəniyyətlərini öyrənən filoloji fənlər kompleksi; roman dillərinin və dialektlərinin yaranması tarixini, inkişafını və müasir vəziyyətini öyrənən diliçilik şöbəsi.

М.В.Сергиевский. Введение в романское языкознание. M., 1952; Бурсье Э. Основы романского языкознания. M., 1952.

РОМАНСКИЕ ЯЗЫКИ – alm. romanische Sprachen (Pl.), ing. Romance /rəʊ'mæns/, Romanic languages /rəʊ'mænɪk 'læŋgwɪdʒɪz/, fr. langues romanes, azərb. roman dilləri. – Hind-Avropa dilləri ailəsinə daxil olan

dillər qrupu. Roman dilləri qrupuna aid olan dillərin sayı ilə bağlı vahid fikir yoxdur. Bu dillər qrupuna əsasən ispan, qalisiya, portugəz, katalanq, oksitan, fransız, italyan, sard, retoroman, rumın, moldav və XIX əsrin sonlarında ölü hesab olunan dalmatin dilləri aiddir. Roman dilləri flektiv dillərdir. Roman dilləri latın əlifbasından istifadə edir.

M.B.Сергиевский. Введение в романское языкознание. M., 1952; Бурсье Э. Основы романского языкознания. M., 1952.

РОН ЯЗЫКИ - alm. Ron-Sprachen (Pl.), ing. Ron languages /rəʊn ˈlæŋgwɪʤɪz/, fr. langues rones, azərb. ron dilləri. – Çad dilləri (qərbi Çad qrupu) yarımqrupu. Əsasən Nigeryada yayılmışdır. Bokkos, daffo-butura, şa, kulere, karfa, şahavu, fier dillərini əhatə edir. Fonoloji sistemi üçün imploziv samitlərin, saitlərin uzunluğuna və qısalığına görə qarşılaşması səciyyəvidir. Yazısız dillərdir.

H. Jungraithmayr. Die Ronsprache. Glückstadt, 1970.

РОНГА - alm. Ronga (n), ing. Ronga language /ˈrɒŋgə ˈlæŋgwɪʤ/, fr. langue ronga, azərb. ronqa. – Bantu dillərindən biri. Mozambikdə yayılmışdır. Bu dildə təqribən 1 milyondan yuxarı əhali danışır. Yazısı latın əlifbası əsasındadır.

P.Berthold. Elements de grammaire Ronga. Paris, 1920.

РОТАЦИЗМ – alm. Rhotazismus (m), ing. rhotacism /ˈrəʊtəsɪzəm/, fr. rhotacisme, azərb. rotasizm. - 1) Danışıq prosesində „r" səsinin düzgün tələffüz edilə bilməməsi; 2) Samitlərin, xüsusilələ /l/ samitinin /r/ kimi deyilməsi. Məs.: Azərb. d. /ala-bula boz keçi/ əvəzinə /ara-bura boz keçi/. Ulu german dillərində /z/ saimti qərbi german dillərində söz başında /r/-ya keçirdi. Məs.: qot d. /maiz/ (daha) /mēro/ (çox). Bunun qalıqlarına bu gün də rast gəlmək olur. Məs.: alm. /Verlust/ (itirmə) → /verlieren/ (itirmək); ing. d. /I was/ → /you were/ və s.

Bax: Закон Вернера ←.

РТОВЫЙ (НЕНОСОВОЙ) – alm. Mundlaut (m), Orallaut (m), ing. oral /ˈɔ:rəl/, fr. buccalle, azərb. ağız (qeyri-burun) səsləri. - Tələffüzü zamanı yumşaq damağın yuxarı qalxması ilə hava axınının ağızdan çıxması zamanı yaranan səslər. Ağız səsləri adətən burun səslərinə qarşı qoyulur. Məs.: Azərb. d. /m/ və /n/ samitlərindən başqa bütün samitlər ağız səsləridir. Fr. d. isə /ã/, /ɔ̃/ , /ẽ/ , /œ̃/ saitləri və /m/, /n/-dən başqa yerdə qalan səslər ağız səsləridir.

K.Kohler. Göstərilən əsəri; F.Veysəlli. SDƏ, s. 189-190.

РУАНДА - alm. Rwanda (n), ing. Rwanda /ru(:)ˈændə/, fr. langue Rwanda, azərb. ruanda. – Bantu dillərinə daxildir. Əsasən Ruanda Respublikasında, habelə Brundi, Zair, Uqanda, Tanzaniya respublikalarında qismən yayılmışdır və fransız dili ilə bərabər Ruandanın dövlət dillə-

rindən biridir. Bu dildə 10 milyona qədər əhali danışır. Yazısı 1922-ci ildən latın əlifbası əsasında tərtib olunmuşdur.
E.З.Дубнова. Язык руанда. M., 1979.

РУМЫНСКИЙ ЯЗЫК - alm. Rumänisch (m), ing. R(o)umanian /ruˈmeɪnɪən/, Romanian language /ruːˈmeɪnɪən ˈlæŋgwɪʤ/, fr. le roumain, langue roumaine, azərb. rumın dili. – Roman dillərinə aid dildir. Rumınıyanın rəsmi dövlət dilidir. Bu dildə təqribən 23 milyon əhali danışır. Rumın dilində banat, krişan, muntyan, moldav və maramureş dialektləri fərqləndirilir. Ədəbi dilinin XVII əsrdən formalaşmağa başladığı göstərilir. Yazısı latın əlifbası əsasındadır.
T.A.Репина. Румынский язык. M., 1968;

РУНЫ – alm. Runen (Pl.), ing. Runic /ruːnɪk/, fr. rune, azərb. runa. - Runik yazı işarəsi, runik yazıda istifadə olunan işarə.
Bax: Руническое письмо →.

РУНДИ - alm. Rundi (n), ing. rundi /ˈrʌndɪ/, fr. rundi, azərb. rundi. – Bantu dillərinə aiddir. Brundi Respublikasında (fransız dili ilə bərabər Brundi Respublikasının rəsmi dövlət dilidir), həmçinin Tanzaniya və Zair dövlətlərində də yayılmışdır. Ümumilikdə bu dildə 7 milyondan artıq əhali danışır. Tonlu dildir. Yazıda latın əlifbasından istifadə olunur.
P.Bagein. Petite grammaire kirundi. Usumbura, 1951.

РУНИЧЕСКОЕ ПИСЬМО – alm. Runenschrift (f), ing. Runic writing /ˈruːnɪk ˈraɪtɪŋ/, fr. runes, azərb. runik yazı. - İşarələri əsasən ağac lövhələri və daşlar üzərində həkk edilmiş qədim alman yazısı (II-III əsrlərdən orta əsrlərə qədər germanlar runik əlifbadan istifadə etmişlər, lakin sonralar o, latın əlifbasının yayılması nəticəsində sıradan çıxmışdır). Əvvəllər runik yazı işarələrindən sehrbazlıq, ovsunlamaq məqsədilə istifadə etmişlər. Run yazının işarələri əsasən metal, taxta və daşlardan hazırlanmışdır.

Qədim german tayfaları də run yazılarından istifadə etmişlər. K.Vaynhold (1856) sübut elədi ki, run yazıları Miladi təqviminin əvvəllərində İtaliyanın şimalında yaşamış türk mənşəli etrusklardan keçib, sonradan bütün germanlarda yayılıb. Qot dilində qune /runa – qaunen – to raund/ (təəccüblənmək) deməkdir. 24 işarədən ibarət olan bu yazı sistemi 1-ci 6 işarənin adı ilə (f, u,p, a, r, k) Fupark (ing. d.: fupork çünki a > o-ya keçir) adlanır. Run işarələri üç yerə bölnür: 1) f-w; 2) h-s; 3) t- o/d bunlara run ginsləri deyirlər. Əvvəllər bu şriftləri taxtadan kəsib hazırlayırdılar. Buradan da həkk etmək, içərisinə yazmaq, cızma-qara yazmaq (ing. d. to write; alm. d. reißen, ritzen) meydana gəlmişdir. Hətta Buch (ing. d. book) sözünün /der Buche/ fıstıq ağacından düzəldiyi güman edilir. Alm. d.: Buchsbabe (ing. d.: boc-staf) fıstıq ağacından düzəlmiş parça çubuq deməkdir.

Qeyd edək ki, ingilislərin 700-ci ildə işlətdiyi run yazı sistemi 28 işarə, sonralar 33-ə çatır, almanlarda isə mirovinglərin vaxtında (VI-VIII əsr) 30 işarədən ibarət idi.

Xristianlığın qəbulu və Roma kilsəsinin təsiri run yazı sistemini sıxışdırdı. Artıq 700-cü illərdə alman əyalətlərində run yazısı, demək olar ki, işlənmirdi.

F.Yadigar (Veysəlli). GDG, 117-118.

Runik yazı



РУСИСТИКА - alm. Russistik (f), ing. rusistika /rʌsɪstɪk/, Russian philology /'rʌʃən fɪ'lɒlədʒɪ/, fr. études russes, azərb. rusistika. – Geniş mənada rus dilini, ədəbiyyatını və folklorunu öyrənən filoloji sahə, dar mənada isə rus dilininin yaranmasını, inkişaf mərhələlərini və müasir vəziyyətini öyrənən dilçilik elmi. Rus diliçiliyinin təşəkkülü və bir elm kimi formalaşması M.V.Lomonosovun (1711-1765) adı ilə bağlıdır.

В.В.Виноградов. Русская наука о русском литературном языке. М., 1958.

РУССКИЙ АЛФАВИТ - alm. russisches Alphabet (n), ing. Russian alphabet /'rʌʃən 'ælfəbɪt/, fr. alphabet russe, azərb. rus əlifbası. – Müəyyən ardıcıllıqla düzülmüş, rus dilinin yazılı və çap formalarını düzləməsində istifadə olunan və soldan sağa yazılan qrafem işarələrinin məcmusu. Rus əlifbası 33 hərfdən ibarətdir. Əksər hərflərin yazılı forması çap formasından fərqlənir. /ЬІ,Ъ, Ь/ hərflərindən başqa yerdə qalanların hamısı ikili yazılış formasına malikdir.

Müasir rus əlifbası

Аа	[а]	Кк	[ка]	Хх	[хэ]
Бб	[бэ]	Лл	[эл]	Цц	[цэ]
Вв	[вэ]	Мм	[эм]	Чч	[чэ]
Гг	[гэ]	Нн	[эн]	Шш	[ша]
Дд	[дэ]	Оо	[о]	Щщ	[ща]
Ее	[е]	Пп	[пэ]	Ъъ	[твёрдый знак, стар ер]
Ёё	[ё]	Рр	[эр]	Ыы	[ы]
Жж	[жэ]	Сс	[эс]	Ьь	[мягкий знак, стар ерь]
Зз	[зэ]	Тт	[тэ]	Ээ	[э оборотное]
Ии	[и]	Уу	[у]	Юю	[ю]
Йй	[и краткое]	Фф	[эф]	Яя	[я]

ЛЭС s. 429.

РУССКИЙ ЯЗЫК - alm. Russisch (n), ing. Russian language /'rʌʃən 'læŋgwɪdʒ/, fr. le russe, langue russe, azərb. rus dili. – Şərqi slavyan dillərindən biri. Dünyada geniş yayılmış dillərdən hesab olunur və BMT-nin 6 rəsmi və işlək dillərindən biridir. Rus dilində 150 milyondan yuxarı əhali danışır. Fonoloji sistemi 6 sait və 35 samitdən ibarətdir. Flektiv dildir. Cümlə daxilində söz sırası MTX-dir. Mübtəda xəbərlə şəxsə, kəmiyyətə və cinsə görə uzlaşır. Yazısı kiril əlifbası əsasındadır.

А.А.Шахматов. Очерки современного русского литературного языка. М., 1941; В.В. Виноградов. Очерки по истории русского литературного языка XVII-XVIII вв. М., 1938.

РУТУЛЬСКИЙ ЯЗЫК - alm. Rutulisch (n), ing. Rutile language /ruti:l 'læŋgwɪʤ/, fr. langue rutule, azərb. rutul dili. – Ləzgi dillərinə aid dillərdən biridir. Dağıstanın Rutul rayonunda və Azərbaycanın Şəki rayonunun bəzi kəndlərində yayılmışdır. Bu dildə 15 minə yaxın adam danışır. Rutul dili muxad, şinaz, ixpek və xnov dialektlərinə bölünür. Fonoloji sistemində umlautlaşmış /aь/, /uь/, /oь/ və farinqallaşmış /aı/, /eı/, /oı/, /iı/, /uı/, /ıı/ saitlərinin olması səciyyəvi cəhətidir. Rutul dilində vurğu melodikdir və axırdan əvvəlki hecaya düşür.

Е.Ф.Джейранашвили. Рутульский язык. «Языки народов СССР», М., 1967.

РУЧНАЯ РЕЧЬ – alm. Handsprache (f), Gestensprache (f), ing. handplay /'hænd pleı/ fr. discour de la parole, azərb. jest dili, əl dili. - Əl-qol hərəkətlərinin köməyilə ünsiyyətə girmə. Aşağıdakı şəkil əl hərəkətlərinin ifadə etdiyi mənaları əyani əks etdirir.

V.Fromkina, R.Rodmann. An Introduction to Language. N.-York, 1993, s. 418.; Dilçilik ensiklopediyası. I, Bakı, 2006, s. 237.

РУЧНОЙ ЯЗЫК – alm. Handsprache (f), ing. hand configuration /hænd kən,fıgju'reıʃən/, fr. gesticulation, azərb. əl və hərəkət dili. – Müxtəlif bədən hərəkətlərindən istifadə etməklə ünsiyyətə girmək.

Bax: Ручная речь ←.

РЯД – alm. Reihe (f), ing. sequence /'si:kwəns/, series /'sıəri:z/, fr. rang, azərb. ardıcıllıq, sıra, cərgə. - İki və daha artıq seqment vahidlərin biribirinin ardınca düzülməsi. Məs.: Azərb. d. /beş nəfər/, /vətən həsrəti/, /Gəzməyə qərib ölkə/ ölməyə vətən yaxşı//.

O.İ.Musayev. Göstərilən əsəri.


РЯД СЛОВЕСНЫЙ - alm. Wortreihe (f), ing. coordinatıve word-combination /kəu'ɔ:dıneıtıv wə:d kɔmbı'neıʃən/, fr. rangée verballe, azərb. söz sırası. – Söz sırası, bir qayda olaraq, iki cür olur: Mübtəda xəbərdən əvvəl gələndə buna düzgün, birinci yerdə xəbər gəlirsə, buna əks söz sırası (inversiya) deyirlər.

Məs.: Azərb. d. /Biz axşam gəzməyi çox sevirik/ (düzgün)

Alm. d /Hast du Fieber?/ (qızdırman var?) (əks) və s.

РЯД ЗАДНИЙ - alm. hintere Reihe (f), ing. back zone /bæk zəun/, fr. rangée arrière, azərb. arxa sıra. - İng. d. dilin irəli-geri və yuxarı-aşağı hərəkətlərinə görə saitlər bu cür düzülürlər:

Sıra



V.Fromkin, R.Rodman. Göstərilən əsəri, s. 202; F.Yadigar (Veysəlli). GDG. s. 382.

РЯД ПЕРЕДНИЙ - alm. vordere Reihe (f), ing. forward zone /ˈfɔ:wəd zəʊn/, fr. rangée de devant, azərb. ön sıra. – Ön sıra saitlərinin və dilönü samitlərinin tələffüzündə dilin ön hissəsi (ucu) fəal olur. Lakin bu bölgü nisbidir. Konkret olaraq dəqiqliklə sıranın sərhəddini göstərmək çətindir. Ancaq bir şey var ki, bütün dillərdə /i/ saiti ən öndə yaranan, /a/ isə ən arxada əmələ gələn səsdir. Məs.: alm. d. /n/, /d/, /t/, /s/; ing. d. /t/, /d/, /n/; Azərb. d. /d/, /t/, /n/ dilin ön hissəsində yaranan samitlərdir.
F.Yadigar (Veysəlli). GDG. s. 185.

РЯД СРЕДНИЙ (РЯД СМЕШАННЫЙ) - alm. mittlere (gemischte) Reihe (f), ing. mid(dle) zone /ˈmɪd(l) zəʊn/, fr. ligne moyenne, azərb. orta sıra. – Orta sıra səslərinin tələffüzündə dilin orta hissəsi fəal olur, müxtəlif dillərdə müxtəlif yerlərdən sərt damağa toxunma müşahidə olunur. Məs.: alm. d. /j/, /ç/; ing. d. /j/; azərb. d. /j/, /h/ samitləri bu qəbildəndir.
F.Yadigar (Veysəlli). GDG, s. 185.

РЯД КОРРЕЛЯТИВНЫЙ - alm. korrelative Reihe (f), ing. correlative series /kəˈrelətɪv ˈsɪəri:z/, fr. ligne corrélatif,-ve, azərb. korrelyativ sıra. – Korrelativ sıra əmələ gətirən fonemlər yalnız bir əlamətə görə fərqlənir, digər əlamətlər isə üst-üstə düşür. Özü də qarşılaşma iki və ya daha artıq əlamət üzrə ola bilər: ikili korrelyatv sıralara misallar:
rus d. /p/-/b/, /t/-/d/ (kar və cingiltiliyə görə);

alm. d. /o:/- /ø:/ (arxa sıra/ön sıra)
Norveç dili /u/- /u'/-/ü/ (arxa/orta/ön sıra) və s.
Bəzi dillərdə korrelyasiyalar pilləli olur. Məs.: alm. d. /o:/-/u:/-/e:/-/y:/-/i:/ və s. Bu zaman kənar üzvlər birbaşa deyil, ortada gələn fonemlər vasitəsilə qarşılaşmanı təmin edir.
N.S.Trubeskoy. Fonologiyanın əsasları. Bakı, 2001, s. 43; A.A.Реформатский. Göstərilən əsəri, s. 220-223; F.Veysəlli. SDƏ, s. 163-164.

РЯД КОРРЕЛЯТИВНЫЙ МАРКИРОВАННЫЙ – alm. markierte korrelative Reihe (f), ing. marked correlative series /mɑ:kt kɒˈrelətɪv

ˈsɪəriːz/, fr. ligne corrélative marquée, azərb. nişanlı korrelativ sıra. – Hər hansı bir əlamətin (məs.: karlığın) olmasını nişanlı, olmamasını isə nişansız kimi göstərmək olar. Məs.: Azərb. d. /t/ və /d/ qarşılaşmasında /t/-da karlıq iştirak edir, bu həmin fonemin relevant əlamətidir, ancaq /d/-da bu yoxdur.
F.Veysəlli. SDG. s. 163-166.

РЯД КОРРЕЛЯТИВНЫЙ НЕМАРКИРОВАННЫЙ – alm. Unmarkierte korrelative Reihe (f), ing. unmarked correlative series /ˈʌnˈmɑːkt kɒˈrelətɪv ˈsɪəriːz/, fr. ligne corrélative non- marquée, azərb. nişanlanmamış korrelativ cərgə.
Bax: Ряд коррелятивный маркированный ←.

РЯД ЛОКАЛЬНЫЙ – alm. Lokalisierungsreihe (f), ing. localization series /ˈləʊkəlɪzeɪʃən ˈsɪəriːz/, fr. série localle, azərb. məxrəc əlaməti. – Samitlərin təsnifində tələffüz məxrəci həlledici rol oynayır. Məs.: /d/ dilönü, /k'/ dilortası, /g/ isə dilarxası samitlərdir.
F.Vejsälli. Einführung in die Phonologie. Baku, 2004.

РЯД ФОНЕМНЫЙ - alm. Phonemreihe (f), ing. phoneme series /ˈfəʊniːm ˈsɪəriːz/, fr. ligne de phonème, azərb. fonem cərgəsi (sırası).
Bax: Архифонема, гиперфонема ←.


РЯД ФОНЕМНОГО ЗНАКА - alm. Phonemzeichenreihe (f), ing. character (symbol, letter) in morphophonemic transcription /ˈkærɪktə/ ˈsɪmbəl/ˈletə/ɪn mɔːfəʊˈfəʊniːmɪk træns'krɪpʃən/, phonemic zone /fəʊˈniːmɪk zəʊn/, fr. ligne de phonème du signe, azərb. fonemin işarə sırası. – Danışıq aktında çıxış edən fonemlərin transkripsiyada xüsusi işarələrlə bir-birinin ardınca düzülməsi. Məs.: Azərb. d. /peʃijə vurğunlux/. Burada 15 işarə deyilən söyləmi ardıcıl şəkildə verməyə imkan yaradır ki, bu da onların diskretliyindən (özündən kiçik vahidlərə bölünməzliyindən) və xəttiliyindən irəli gəlir.
F.Yadigar (Veysəlli). GDG. s. 57-58.

– C –

СААМСКИЙ ЯЗЫК – alm. Saamisch (n), ing. Saam language /sa:m 'læŋgwɪdʒ/, fr. langue saam, azərb. saam dili. – Fin-uqor dillərindən biri. Pribaltika-fin dillərinə çox yaxındır. Norveçin şimal hissəsində (30 min), İsveçdə (17 min), Finlandiyada (5 min) və Rusiya Federasiyasının Kolsk yarımadasında (2 min) yayılmışdır. İki dialektə bölünür: qərb (Norveç, Finlandiya və İsveç) və şərq (Rusiya Federasiyası) ərazisində yayılmış dialektlər. Fonem sistemində saitlərin uzunluğu fonoloji mahiyyət daşıyır. Sintaktik cəhətdən sifət isimlə hal və kəmiyyətə görə uzlaşmır.
Г.К.Керт. Саамский язык. Фонетика, морфология, синтаксис. Л., 1971.

САБИР – alm. Sabir (n), ing. Sabir /sə'bɪə/, fr. sabir, azərb. sabir. – Lingua Franca – qədim dövrdə pičin dilli. Provensal və italyan dillərinə əsaslanan yunan, ispan, fransız, portəgəz, türk, fars və ərəb dili "ünsürlərilə" qarışmış dil. Venesiya və Genuya hökmranlığı dövründə Aralıq dənizinin şərqində işlənən qarışıq dil. Bu dil XIX əsrin axırlarına qədər ünsiyyət vasitəsi kimi işlənmişdir.
H.Bußmann. Göstərilən əsəri, s. 655.

САГИТТАЛЬНЫЙ ЗВУК - alm. Sagittallaut (m), ing. sagittal sound /'sædʒɪt(ə)l, a- 'saʊnd/, fr. son sagittal, azərb. azərb. saqittal səs. – Maneənin ağız boşluğunda dəf olunması ilə yaranan səs. /l/ və /r/ samitlərindən başqa digər samitlər saqittal səslərdir. Bir qayda olaraq, eksperimental fonetika danışıq cihazının tən ortadan bölünmüş şəklini verir ki, buna da saqittal rentgen şəkli deyirlər.



А.А.Реформатский. Göstərilən əsəri, s. 233-234.

САКСОНСКИЙ РОДИТЕЛЬНЫЙ – alm. Sächsischer Genitiv (m), ing. Saxon genitive (case) /'sæksn/'saks(ə)n ʤenɪtɪv/keɪs/, fr. génitif saxon, azərb. sakson yiyəlik halı. – İng. d. şəxslərə aid olan sintetik yiyəlik halı. Məs.: ing. d. /Mary's book/. Bu forma /The Haus of Mary/ (Mariyanın evi) kimi analitik formaya qarşı qoyulur.
H.Bußmann. Göstərilən əsəri, s. 655

САКСОНСКИЙ ДИАЛЕКТ – Bax: Немецкий язык ←.

САЛАРСКИЙ ЯЗЫК - alm. Salarisch (n), ing. Salary language /'saləri 'læŋgwɪʤ/, fr. langue salar, azərb. salar dili. – Türk dillərindən biridir. Əsasən Çinin Sinxua-Salar əyalətində yayılmışdır. Təqribən 25 minə qədər daşıyıcısı vardır. Müasir salar dili məişət səviyyəsində işlənir.
Э.Р.Тенищев. Строй саларского языка. М., 1976.

САЛИШСКИЕ ЯЗЫКИ - alm. Salisch (n), ing. Salish languages /'seɪlɪʃ 'læŋgwɪʤɪz/, fr. langues salishanes, azərb. saliş dilləri. – Hindi dilləri ailəsi. Kanada və Amerikanın Sakit okeanboyu yayılmış 20 dili (çexalis, skomiş, tilamuk, strayts, okanaqon, şusvop, bella kula, kalispel, tompson və s.) özündə birləşdirir. Saliş dilləri öz fonetik qurumuna görə Sakit okean dillərinə yaxındır. Samitlər sistemi zəngindir: xirtdək və boğaz samitlərilnin olmasıyla səciyyələnir. Saitlər sistemi nisbətən bəsitdir. /l/, /m/, /n/, /h/ sonantlarının olması saliş dilləri üçün səciyyəvi xüsusiyyətidir. Morfoloji baxımdan saliş dilləri aqlütinativ dildir.
A.N.Kuipers. The Salish language, pt 1-2, The Hague - Paris, 1967-69; H.Bußmann. Göstərilən əsəri, s. 656.

САМОАНСКИЙ ЯЗЫК - alm. Samoanisch (n), ing. Samoan languages /sə'məʊən 'læŋgwɪʤ/, fr. langue samoane, azərb. samoan dili. – Polinez dillərindən biridir. Qərbi Samoanın rəsmi dövlət dilidir (Şərqi Samoanda rəsmi statusa malik deyildir). 240 min əhali bu dildə danışır. Erqativ cümlə quruluşuna malikdir. Yazısı latın əlifbası (1834- cü ildən) əsasındadır.
В.Д.Аракин. Самоанский язык. М., 1973

САМОЕДСКИЕ ЯЗЫКИ - alm. Samojedische Sprachen (Pl.), ing. Samoyed languages /'saməjed 'læŋgwɪʤɪz/, fr. langues samoyèdes, azərb. samoyed dilləri. – Genetik baxımdan ural dillərinə yaxın olan dillər qrupu. Tundranın şimalında, Kanin yarımadasında və Mezen çayından Taymır yarımadasına qədər olan ərazidə yayılmışdır. Nenes, enes, nqanasan və s. canlı samoyed dillərindən hesab olunurlar. Bu dillərdə ümumilikdə 30 minə qədər əhali danışır. Samoyed dillərinin fonoloji sistemi 13-14 samit və 11-12 sait fonemdən təşkil olunmuşdur.
Н.М.Терещенко. Синтаксис самодийских языков. Л., 1973.

САМОСТОЯТЕЛЬНАЯ СТОРОНА ФОНЕМЫ – alm. selbständige Seite des Phonems (f), Selbständigkeit des Phonems (f), ing. non-

conditioned feature of phoneme /'nɒn kən'dɪʃənd 'fi:tʃəʳ əv 'fəʊni:m/, fr. partie principale du phonème, azərb. fonemin müstəqil cəhəti (tərəfi).
Bax: Автономность фонемы ←.

САМОСТОЯТЕЛЬНОЕ УДАРЕНИЕ - alm. unabhängige Betonung (f), ing. independent stress /ˌɪndɪ'pendənt stres/ fr. accent indépendant, azərb. müstəqil vurğu. – Sözdə və cümlədə digər morfemdən asılı olmayaraq müstəqil vurğu daşıyan morfem və ya söz. Məs.: alm. d. /-ei, -ie, -ieren, -ist, -ent, -ant, -log/ və s. suffikslər həmişə müstəqil vurğu daşıyırlar. Müq. et: /Bücher'ei (kitabxana), Philosoph'ie (fəlsəfə), korrig'ieren (düzəltmək), Stud'ent (tələbə), Aspir'ant (aspirant), Politol'oge (siyasətşünas)/ və s.
F.Veysalov (Veysəlli). Lehrbuch der deutschen Phonetik. Baku, 1980, s. 194-205.

САМОСТОЯТЕЛЬНЫЙ - alm. unabhängig, ing. independent /ˌɪndɪ'pendənt/, fr. indépendant,-e, azərb. müstəqil, asılı olmayan. – Digər dil vahidlərindən asılı olmayan, şərtləndirilməmiş, bilavasitə sintaktik tabelilik münasibətlərilə əlaqələndirilməmiş. Məs.: Azərb. d. nidalar: «bəli», «xeyr», «hə» və s.

САНГО - alm. Sango (n), ing. sango /'saŋgəʊ/, fr. sango, azərb. sanqo. – Adamaua dillərindən biridir. Əsasən Mərkəzi Afrika, Konqo, Zair, Kamerun, Çad respublikalarında yayılmışdır. 2,5 milyona qədər əhali bu dildə danışır. 1965-ci ildən Mərkəzi Afrika Respublikasının milli dili statusu almışdır. Sanqo kreol dil (mobae, yakoma və nqbandi dilləri əsasında) kimi yaranmış və inkişaf etmişdir. Yazısı latın əlifbası əsasındadır.
W.J.Samarin. A grammar of sango. The Hague – Paris., 1967.

САНДХИ - alm. Sandhi (n), ing. sandhi /'sandi:/, fr. sandhi, azərb. sandhi. – Sanskrit qrammatikasından götürülmüş iki söz və söz formalarından yaranmış sistematik fonoloji dəyişiklərdir. Bəzi hallarda isə dildə tarixi təzahürləri təsvir etmək üçün işlədilir. Sandhi termini dilçiliyə qədim hind qrammatikləri tərəfindən gətirilmişdir. Məs.: ing. d. qeyri-müəyyən artikl saitlə başlayan sözə qoşulanda /an/, samitlə başlayan sözə qoşulanda /a/ kimi çıxış edir. Müq. et: /a book/ (kitab), /an egg/ (yumurta); fr. d. /liaison/ (əlaqə), /mes parents/ (valideyn), /mes amis/ (dostlarım) buna misal olar bilər. Buna daxili sandhi (bir morfem çərçivəsində) deyirlər. Amma sandhi sözlərin sərhədində və ya mürəkkəb sözün komponentləri arasında olduqda ona xarici sandxi deyirlər.
H.Andersen. Sandhi phenomena in the language of Europe. Berlin, 1986.

САНСКРИТ - alm. Sanskrit (n), ing. Sanscrit /'sænskrɪt/, fr. langue sanskrite, azərb. sanskrit. – Qədim Hind dilinin müxtəlif formalarını bildirən ümumi ad. Bunlardan ən qədimi miladdan 1000 il öncə mövcud olan ritual mətnlərin tərtib edildiyi dini ayinlərin (vedlərin) dilidir ki, buna da Brahmanas və eradan əvvəl 400-cü illərdə Paninin qrammatikasın-

da hifs olunaraq saxlanılmasına rast gəlmək mümkündür. «Mahabharata» və «Ramayana» kimi böyük eposlar eradan qabaq II-I əsrlərdə meydana gəlmişdir. Sanskrit bu gün də Hindistanda alimlərin və ruhanilərin dili kimi işlənir. Bu dilin yazısı brahmi və devanagəri şriftlərindən istifadə edir. Morfologiyası zəngindir: 8 hal, 3 kəmiyyət və 3 cins fərqləndirilir. Zaman formaları rəngarəngdir. Söz sırası MTX modelinə tabedir.
W.Morgenrot. Lehrbuch des Sanskrit. Leipzig, 1990.

САНКТ-ПЕТЕРБУРГСКАЯ ШКОЛА – alm. Sankt-Petersburger Schule (f), ing. Saint-Petersburg school /seɪnt'pɪtəsbə:g sku:l/, fr. école de Saint Pétersbourg, azərb. Sankt-Peterburq məktəbi. – Bu məktəbin əsasını İ.A.Boduen de Kurtene qoymuş və sonralar L.V.Şerba həmin məktəbin nəzəri və praktik problemlərini işləyib hazırlamışdır. Dilçilik tarixinə bu məktəb iki ad altında daxil olmuşdur: Leninqrad fonoloji məktəbi və Sankt-Peterburq fonoloji məktəbi. Bu məktəb əsasən fonologiya sayəsində böyük uğurlar qazanmışdır. Bu məktəbin yetirmələri arasında Y.D.Polivanov (1890-1937), V.V.Vinoqradov (1898-1969), V.M.Jirmunskiy (1891-1938), L.V.Şerba (1880-1944), L.R.Zinder (1904-1995) və başqaları xüsusi yer tuturlar. Həmyerlimiz M.A.Kazımbəyi də (1802-1870) bu məktəbin nümayəndəsi hesab etmək olar. F.Veysəlli Sankt-Peterburq fonoloji məktəbinin əsas məziyyətlərini belə ümumiləşdirir:
1. Fonem potensiyada məna ilə bağlıdır. Onun sintaqmatik planda ayrılıb götürülməsi morfem sərhədi ilə müəyyənləşir. Potensiyada məna ilə bağlılıq onun müstəqil olmasını təmin edir. Hətta ayrılması mümkün olmadıqda belə qalıqlı bölüm prinsipilə ayrılması mümkün hesab edilir. Fonem sözləri və söz formalarını əmələ gətirmə (konstitutiv), tanıma və fərqləndirmə funksiyasını yerinə yetirir. Fonoloji səviyyə müstəqildir. İzomorfizm yoxdur.
2. Fonem tərkibinin müəyyənləşməsi üçün dildəki bütün sözlər götürülür. Fonem təhlili söz çərçivəsində aparılır.
3. Güclü mövqe fonemin bütün keyfiyyət əlamətlərini dolğun şəkildə üzə çıxarmağa imkan verir. Ancaq fonem öz müstəqilliyini bütün mövqelərdə qoruyub saxlayır.
4. Defonolojiləşməsi yoxdur.
5. Fonemin differensial əlamətləri onun sistemdəki qarşılaşmalarından hasil olur.
6. Fonem tərkibi tam tələffüz üslubunda müəyyənləşir.
7. Rus dilinin fonem tərkibi 6 saitdən /i, ɪ, u, e, o, a/ və 36 samitdən ibarət götürülür: /b, b', p, p', v, v', f, f', m, m', d, d', t, t', s, s', z, z', ʦ, ʧ, ʃ, ʃ', ʒ, n, n', l, l', r, r', j, k', g, g', x, x'/ cəmi 42.
F.Veysəlli. SDƏ. s. 202.

САПАРО ЯЗЫКИ - alm. Zaparo-Sprachen (Pl.), ing. Zapara languages /sapərə 'læŋgwɪʤɪz/, fr. langues Zaparos, azərb. saparo dilləri. – Cənubi Amerikanın hindi dilləri ailəsi. Əsasən Şərqi Ekvadorda və Peruda ya-

yılmışdır. Təqribən 50 minə qədər əhali bu dildə danışır. Fonem tərkibi 4 sait və 16 samitdən ibarətdir. Cümlə daxilində söz sırası MXT-dir.
C.Pekke. Structural summary of Zaparo. Oklahoma-Sity, 1962.

САРДСКИЙ ЯЗЫК (САРДИНСКИЙ ЯЗЫК) - alm. Sardisch (n), ing. Sardinian languages /sɑ:'dınjən 'læŋgwıʤız/, fr. langue sarda, azərb. sard (sardin) dili. – Bu arxaik roman dili nə qərbi, nə də şərqi roman dillərinə birmənalı aid edilə bilir. 1,5 milyona yaxın əhali bu dildə danışır. XI-XIV əsrlərə qədər Sardiniyanın rəsmi dili olmuşdur. Vahid ədəbi dili formalaşmamışdır, nisbətən geniş yayılmış dialektləri kampidan və şimali-loqudor hesab olunur. Yazısı latın əlifbası əsasındadır.
M.L.Wagner. La lingua sarda. Bern, 1951.

САРЫ-УЙГУРСКИЙ ЯЗЫК - alm. Sary-Ujgurisch (n), ing. Saryk-Uigur language /sa'ri:k wi:guə 'læŋgwıʤ/, fr. langue sarı-ouyghan, azərb. sarı uyğur dili. – Türk dilləri ailəsinə mənsub dildir. Çin xalq Respublikasının Hansu əyalətinin Minxua rayonunda yayılmışdır. 6 minə qədər daşıyıcısı məlumdur. Sarı-uyğurların XVIII əsrə qədər qədim uyğur əlifbasından istifadə etdikləri güman edilir. Lakin tibet təsirinin güclənməsindən sonra qədim uyğur yazısı tamamən unudulmuşdur. Bu gün sarı-uyğur dili məişət səviyyəsində işlənən dildir.
Э.Р.Тенищев. Строй сары-югурского языка. М., 1976.

САХАРСКИЕ ЯЗЫКИ – alm. Sahara-Sprachen (Pl.), ing. Sahara languages /sə'hɑ:rə 'læŋgwıʤız/, fr. langues shariennes, azərb. sahara dilləri. – Nigeriya və Çadda işlənən 6 dili özündə birləşdirən dil qrupu. Onlardan ən böyüyü Nigeriyada 4 milyondan artıq daşıyıcısı olan kanuri dilidir. Bu dillər tonal dillərdir. Zəngin sait yarımsisteminə (6-9 monoftonq və xeyli sayda diftonqlar) malikdir, cümlə daxilində söz sırası MTX-dir.
H.Bußmann. Göstərilən əsəri, s. 655.

СБЛИЖЕНИЕ ЯЗЫКОВ - alm. Affinität (f), ing. affinity /ə'fınıtı/, fr. rapprochement des langues, azərb. dillərin yaxınlaşması. - Genetik qohumluğu olmayan iki və daha artıq dildə oxşar təzahürlərin meydana gəlməsi. Bu təzahürlər adətən uzun illərin qarşılıqlı təsiri nəticəsində yaranır. Məs.: Balkanda dillərin (alban, rumın, bolqar, makedoniya, serb-xorvat, yeni yunan və s.) qarşılıqlı təsiri nəticəsində bu dillərdə formalaşan oxşar hadisələr. Müq. et: alban, rumın, bolqar, makedon, yeni yunan dillərində məsdərin olmaması, alban, bolqar, makedoniya və rumın dillərində aktivin postpozisiyada gəlməsi və s.
R.Conrad. Göstərilən əsəri, s. 241.

СВАНСКИЙ ЯЗЫК - alm. Svanisch (n), ing. Swan language /swɔn 'læŋgwıʤ/, fr. langue swane, azərb. svan dili. – Kartvel dillərindən biridir. Gürcüstanın Mesti və Lentex rayonlarında yayılmışdır. 40 minə yaxın əhali bu dildə danışır. Yazısız dildir.
В.П.Топурия. Сванский язык. Тбилиси, 1931.

СВЕРХДОЛГОТА - alm. Überlänge (f), ing. overlong /ˈəʊvəlɒŋ/, fr. ultralongueur, azərb. həddən artıq uzunluq. - Sadalama intonasiyası zamanı ortaya çıxan səs variantı. Məs.: Azərb. d. /i/ foneminin ən uzun variantı sadalama intonasiyası zamanı maksimum uzunluq həddinə çatır. Müq. et: /bi:r/, /iki:/, /bi:z/ və s.
F.Veysəlli. SDƏ. s. 141.

СВЕРХДОЛГИЙ – alm. überlang, ing. overshoot /ˈəʊvəˈʃu:t/, fr. ultralong,-gue, azərb. həddən artıq uzun.
Bax: Сверхдолгота ←.

СВЕРХКРАТКИЙ – alm. sehr kurz, ing. contracted weak vowel /ˈkɒntræktɪd ˈwi:k ˈvaʊəl/, fr. ultracourt,-e, azərb. ən qısa, güclü reduksiya olunmuş. - Səslərin kəmiyyətcə qısalması və bunun da nəticəsində keyfiyyətcə dəyişməsi. Çağdaş Azərbaycan dilində saitlər kar samitlərlə qonşuluqda və ya onların əhatəsində işləndikdə kəmiyyət və keyfiyyətcə dəyişikliyə uğrayırlar. Məs.: Azərb. d. /kükürd/, /tütün/, /bütün/ sözləri [kʏ kʏrt], [tʏ tʏn], [bʏ tʏn] kimi tələffüz olunurlar.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 83.

СВЕРХСЕГМЕНТНЫЙ – alm. suprasegment, ing. suprasegmental /ˌsju:prəˈseg'mentəl/, fr. suprasegmental,-e, azərb. xəttüstü, qeyri-xətti. – Xətti və ya seqment vahidlərin üstünə sərilən və onları bir bütövə çevirən ifadə vasitələri: tonun hərəkəti, intensivlik, zaman münasibətləri və fasilə adlanır. Bunların da içərisində vurğu, prosodiya və intonasiya mühüm rol oynayır. Məs.: Azərb. d. /O''' yazır/ (Sən yox), /O ya'''zır/ (oxumur). /O yazır'''/ (fikrin təsdiqi), ¿O yazırՆ (sual intonasiyası ilə), /O yazır!/ (nida intonasiyası ilə) və s.
F.Yadigar (Veysəlli). GDG. s. 258-265.

СВЕРХСИНТАКСИЧЕСКИЙ - alm. suprasyntaktisch, ing. suprasyntactics /ˈsju:prəsɪnˈtæktɪks/, fr. suprasyntaxtique, azərb. sintaksisin fövqündə duran. – Cümlə birləşmələrini və mətnin quruluş xüsusiyyətlərini öyrənən, mətndüzəldici vahidləri əhatə edən. Koheziya və koherensiya əlaqələrini əhatə edən.
Bax: Лингвистика текста ←.

СВЕРХСЛОЖНОЕ СЛОВО – alm. Kompositum (n), zusammengesetztes Wort (n), ing. secondary compound (derivative) /ˈsekəndərɪ ˈkɒmpaʊnd/dɪˈrɪvətɪv/, fr. mot surcomposé, azərb. mürəkkəb söz. – Tərkib hissələrindən biri və ya hər ikisi törəmə əsasdan ibarət olan mürəkkəb söz. Alm. d. bu tərkiblər geniş yayılıb. Bunun da iki növü fərqləndirilir: 1) leksem+kompozit. Müq. et: /Dampf+Schiffahrt/ (gəmi tərsanəsi); 2) kompozit+kompozit. Müq. et: /Rhein+dampfschiffahrt/ (Rayn gəmi tərsanəsi).
F.Yadigar (Veysəlli). GDG. s. 156.

СВЕРХФРАЗОВЫЙ – alm. suprasätzlich, ing. supraphrase /'sju:pəfreɪs/, utterance- length /'ʌtərəns 'leŋθ/, fr. supraphrase, azərb. frazadan böyük. - Cümlədən böyük sintaktik vahidlərə aid olan. Abzasın eyni.
Bax: Лингвистика текста ←.

СВЕТЛЫЕ ГЛАСНЫЕ – alm. Hellvokale (Pl.), ing. light vowels /laɪt 'vaʊəlz/, fr. voyelles claires, azərb. şəffaf saitlər (incə) saitlər. – Azərbaycan dilində /i, e, ə, ö, ü/ incə saitlərdir.
F.Veysəlli. SDƏ, s. 129-149.

СВИСТЯЩИЙ – alm. Sibiliant (m), ing. sibilants, whistling consonants /'sɪbɪlənts/'wɪstəlɪŋ 'wɪslɪŋ 'kɒnsənənts/, fr. consonnes sifflantes, azərb. fışıltılı samit (sibilyant). – Tələffüzü zamanı hava axınının dilin ön hissəsilə sərt damaq arasında yaranan dairəvi novcuqdan süzülərək bayıra çıxması ilə yaranan samitlər. Məs.: Azərb. d. /z/ və /s/ samitləri bu qəbildəndir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 481.

СВОБОДНАЯ АЛЬТЕРНАЦИЯ - alm. freie Alternation (f), ing. free gradation (alternation) /'fri: grədeɪʃən/'ɔ:ltə'neɪʃən/, fr. alternance libre, azərb. sərbəst əvəzlənmə.
Bax: Варифон ←.

СВОБОДНАЯ ФОНЕМА - alm. freies Phonem (n), ing. free phoneme /'fri: 'fəʊni:m/, fr. phonème libre, azərb. sərbəst, müstəqil fonem. – Müstəqil və ya fakültativ variantlarda çıxış edən fonem. Məs.: alm. d. /r/ fonemi [r], [ʀ], [^], [ʁ] və s. çalarlarında çıxış edir. Müq. et: alm. d. /Ra:t/, həm də /ra:t/ (şura), //fy:R/ (üçün), /e:^/ (o) və s.
F.J. Vejsalov (Vejsälli). Lehrbuch der deutschen phonetik. Bakı, 1989, s. 134.

СВОБОДНАЯ ФОРМА - alm. freie Form (f), ing. free form /'fri: 'fɔ:m/, fr. forme libre, azərb. müstəqil forma. – Müstəqil forma, sərbəst söz birləşməsi. Məs.: rus d. /железная скамья/ və /железный характер/ birləşmələrini götürüb müqayisə edək. Birncisi sərbəst söz birləşməsidir, doğurdan da oturacağın dəmirdən olduğunu bildirir, bütövün mənası komponentlərin mənalarından doğur, hər iki komponenti sinonimlə əvəz edə bilərik, hətta bu birləşməni başqa formada da işlədə bilərik /скамья железная/. Ancaq bu əməliyyatların heç birini ikincidə etmək olmaz. Ona görə də ikincisinə sabit birləşmə deyilir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 126-127.

СВОБОДНОЕ УДАРЕНИЕ – alm. freie Betonung (f), ing. free stress /'fri: 'stres/, fr. accent libre, azərb. sərbəst vurğu. – Sözün müxtəlif hecalarına (başlanğıc, orta, sonuncu) düşən vurğu növü. Rus d. vurğu sözün müxtəlif hecası üzərinə düşə bilir. Məs.: rus d. /ми'нус/, /тата́рин/,

/ropoдá/ sözlərində vurğu müvafiq olaraq birinci, ikinci və üçüncü hecalara düşür. German dillərində də vurğu müxtəlif heca üzərinə düşə bilir. Məs.: alm. d. /A'bend/ (a'xşam), /Melodie'/ (melodiya), /melo'disch/ (musiqili) və s. Ancaq rus d. vurğu tam sərbəstdir, german dillərində isə o, nisbətən sərbəstdir.
F.Yadigar (Veysəlli). GDG s. 262-263.

СВОБОДНОЕ УПРАВЛЕНИЕ - alm. freie Rektion (f), ing. easy (loose) government /ı:zı/'lu:z/'gʌvənmənt/, fr. régime libre, azərb. sərbəst (vasitəsiz) idarə. – Azərb. d. /mən bir gün görmədim/, /ölmədik, bu günü də gördük// cümlələrində birinci halda frazeoloji birləşmə olduğundan /gün/ qeyri-müəyyən təsirlik halında işlənib, ikinci halda isə /gün/ sözü müstəqim mənada işləndiyindən müəyyən təsirlik halında gəlib. Eynilə rus d. də /вижу собаку/ vasitəsiz, /гляжу на собаку/ vasitəli idarədir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 239.

СВОБОДНОЕ ЧЕРЕДОВАНИЕ - alm. freie Alternation (f), ing. free gradation (alternation) /'fri: grədeıʃən/ɔ:ltə'neıʃən/, fr. alternance libre, azərb. sərbəst, müstəqil əvəzlənmə.
Bax: Варифон ←.

СВОБОДНЫЙ ГЛАСНЫЙ – alm. freier Vokal (m), ing. free vowel /'fri: 'vauəl/, fr. voyelle libre, azərb. müstəqil sait. – Tək bir saitin morfem və ya söz kimi işlənməsi. Məs.: Azərb. d. /o/; rus d. /y/, /и/, /o/ və s.

СВОБОДНЫЙ ПЕРЕВОД – alm. freie Übersetzung (f), ing. free translation /'fri: trænz'leıʃən, træns'leıʃən/, fr. traduction libre, azərb. sərbəst tərcümə. - Mənbə dilin məna çalarlıqları və incəlikləri nəzərə alınmadan mətnin digər dildə ümumi məzmunun verilməsi. Etimon dillə tərcümə edilən dillər arasındakı formal və semantik fərqlərə riayət olunmayan, əcnəbi dildəki məzmununun tərcüməsi. Məs.: alman şairi Y.V.fon Qötenin məşhur «Faust» faciəsinin Azərbaycan dilinə Ə.Cəmilin tərcüməsində. Y.V.fon Qöte. Faust. Almancadan tərcüməsi, «Ön söz» Ə.Cəmilindir. Bakı, 1986.

СВЯЗАННОЕ УДАРЕНИЕ – alm. feste Betonung (f), ing. bound accent /baund 'æksənt/, free occurrence stress /fri: 'əkʌrəns stres/, fr. accent cohérent, azərb. sabit vurğu. - Sözün həmişə eyni hecası üzərinə düşən vurğu. Latın, çex, slovak dillərində vurğu əvvəlki, polyak dilində axırdan əvvəlki, Azərb. d. isə sözün və ya söz formasının sonuncu hecasının üzərinə düşür. Belə dillərdə vurğu delimitativ funksiya daşıyır, yəni sözün sərhədini bildirir. Məs.: Azərb. d. /kita'b/, /qələ'm/, /ana'/, /ata'/, /bacı'/ və s.
F.Yadigar (Veysəlli). GDG. s. 262.

СВЯЗАННЫЙ - alm. fest, gebunden, ing. bound /baund/, linked connected /liŋked kə'nektıd/, fr. cohérent, azərb. sabit.
Bax: Связанное ударение ←.

СВЯЗКА - alm. Kopula (f), ing. copula /'kɒpjʊlə/, fr. copule, azərb. bağlayıcı xəbər (kopula).
Bax: Связочно-именное сказуемое →.
СВЯЗОЧНО-ИМЕННОЕ СКАЗУЕМОЕ - alm. kopulative Prädikativverbindung (f), ing. compound nominal predicate /kɒmpaʊnd nɒmɪnl predɪkeɪt/, copulative-nominal predicate /'kɒpjʊlətɪv 'nɒmɪnl predɪkeɪt/, complex nominal predicate /'kɒmpleks 'nɒmɪnl predɪkeɪt/, fr. prédicat de ligament nominatif, azərb. ismi xəbərin bağlayıcı hissəsi. – Adətən bu funksiyada /sein/ (alm. d.); /to be/ (ing. d.); /есть/ (rus d.); fr. d. /est/ azərb. d. /dır/[4] xəbər şəkilçisi çıxış edir. Müq. et: /Er ist Lehrer// (O müəllimdir); ing. d. /He is a teacher//, rus d. /Он есть учитель//. fr.d. /il est professur// Ancaq rus d. /бывать, стать, становиться, является, казаться, выглядеть, хотеть, собираться, обещать, ходить, найти/ və s. felləri də infinitivlə birgə çıxış edərək bağlayıcı rolunu oynayırlar.
A.A.Реформатский. Göstərilən əsəri, s. 333-334.
СВЯЗОЧНО-СКАЗУЕМОЕ ПРЕДЛОЖЕНИЕ – alm. kopulativer Prädikativsatz (m), ing. copulative-predicative sentence /'kɒpjʊlətɪv prɪ'dɪkətɪv 'sentəns/, fr. proposition de ligament nominatve, azərb. bağlayıcılı xəbərli cümlə. – Məs.: Azərb. d. /O həkimdir//, /Mənim anam evdar qadın idi/; rus d. /Моя мать была домохозяйкой//.
A.A.Реформатский. Göstərilən əsəri, s. 333-334.
СВЯЗУЮЩИЙ – alm. verbindend, ing. connective /kə'nektɪv/, connector /kə'nektə/, fr. connectif-ve, azərb. bağlayan, birləşdirən. – Predikativləri (ismi xəbərlərin ad hissəsini) mübtəda ilə bağlayan, habelə tabeli və tabesiz budaq cümlələrini birləşdirən bağlayıcılar. Məs.: alm. d. /Er ist Student// (O tələbə+d+ir), /Er und ich - wir beide kommen// (O və mən, bizim hər ikimiz gəlirik), /Er sagte, dass er kommen wird// (O dedi ki, gələcək).
F.Yadigar (Veysəlli). GDG. s. 326-327.
СВЯЗУЮЩИЙ СОГЛАСНЫЙ – alm. Bindekonsonant (m), ing. linking, connective consonant /lɪŋkɪŋ/kə'nektɪv 'kɒnsənənt/, fr. consonne de liaison, azərb. birləşdirici samit. – 1) Saitlə başlayan sözdən əvvəl gələndə qabaqdakı sözün yazıdakı /r/ samiti səslənir. Məs.: ing. d. «clearing» /kliərɪŋ/ və ya «clear out» /kliər aʊt]; 2) Yazıda olmamasına baxmayaraq saitlə qurtaran söz saitlə başlayan sözdən əvvəl /r/ samiti qəbul edir. Müq. et: «Cola advertisement» /kəʊlər ədvə: tismənt] (Kola reklamı). Buna elmi ədəbiyyatda intrusive (daxil edilən) «r» deyirlər.
P.H.Matthews. Göstərilən əsəri, s. 210.
СВЯЗЬ - alm. Beziehung (f), ing. connection /kə'nekʃən/, interrelation /'ɪntərɪ'leɪʃən/, fr. liaison, azərb. əlaqə. – Müxtəlif dil səviyyələrindəki əlaqələr: sintaktik, leksik, fonetik və s.
Bax: Связка ←.

СВЯЗЬ АТРИБУТИВНАЯ – alm. attributive Beziehung (f), ing. attributive connection /ə'trıbjʊtıv kə'nekʃən/, fr. liaison attributive, azərb. təyini əlaqə. – Cümlədə bir tərəfdən predmet, proses, digər tərəfdən isə həmin predmet və proseslərin əlamətlərinə işarə edən sintaktik əlaqə növü. Məs.: Azərb. d. /oxuyan xanəndə/, /yaxşı oğlan/ və s.
Y.Seyidov. Azərbaycan dilində söz birləşmələri. Bakı, 1992.


СВЯЗЬ КОМПЛЕТИВНАЯ – alm. kompletive Beziehung (f), ing. completive connection (bound) /'kəm'pli:tıv kə'nekʃən/baʊnd/, fr. liaison compilétive, azərb. kompletiv (sərbəst) əlaqə. – Cümlədə sözlərin sərbəst bağlılığı, təyin, tamamlıq və zərflik kimi cümlə üzvlərinin sintaktik əlaqəsi. Məs.: Azərb. d. /bir qədər ucadan danışmaq/, /hamıdan tez oyanmaq/, /bağdan yuxarı/ və s.
Y.Seyidov. Göstərilən əsəri. s. 217-218.

СВЯЗЬ ПРЕДИКАТИВНАЯ – alm. prädikative Beziehung (f), ing. predicative connection (bound) /prı'dıkətıv kə'nekʃən/baʊnd/, fr. relation prédicative, azərb. predikativ əlaqə. – Cümlənin struktur əsası kimi mübtəda və xəbər arasındakı əlaqə. Məs.: Azərb. d. /O düşünür//.
Y.Seyidov. Göstərilən əsəri, s. 138.

СВЯЗЬ НЕПРЕДИКАТИВНАЯ – alm. unprädikative Beziehung (f), ing. non-predicative connection (bound) /nɒn-prı'dıkətıv kə'nekʃən/baʊnd/, fr. relation nonprédicative, azərb. qeyri-predikativ əlaqə. – Mübtəda və xəbər əlaqəsi olmayan, ona görə də cümlə əmələ gətirməyən söz birləşmələri arasındakı əlaqə qeyri-predikativ əlaqə adlanır. Məs.: Azərb. d. /evdə yaşayan/, /oğlan haqqında/ və s.
Y.Seyidov. Göstərilən əsəri, s. 138.

СВЯЗЬ ДВОЙНАЯ – alm. Doppelbeziehung (f), ing. double linking /dʌbl lıŋkıŋ/, fr. liaison double, azərb. ikili əlaqə. – 1) xəbərin iki ikinci dərəcəli üzvlə əlaqəsi.

Məs.: Azərb. d. /Atam səhər paltar almağa gedir//



2) iki predikativ arasındakı əlaqə. Məs.: Azərb. d. /O, şux qamətli, enlikürəkli idi//.



Y.Seyidov. Göstərilən əsəri, s. 138.

СВЯЗЬ ВНУТРИЯЗЫКОВАЯ – alm. innersprachliche Beziehung (f), ing. intralinguistic relationship /ın'trælıŋ'gwıstık rı'leıʃənʃıp/, fr. relation interlinguistique, azərb. dildaxili əlaqə. – Bir dildə olan paradiqmatik və sintaqmatik əlaqələr. Məs.: Azərb. d. /Yaz gəlir//, /Payız yetişdi//.
О.С.Ахманова. Göstərilən əsəri, s. 399.

СВЯЗЬ ЯЗЫКОВ ГЕНЕТИЧЕСКАЯ – alm. genetische Beziehung (f), ing. genetic affinity of between /dʒe'netık ə'fınıtı əv bı'twi:n/, fr. relation génétique des langue, azərb. dillərin gentetik əlaqəsi.

Bax: Генетическая связь ←.

СДВИГ – alm. Gleiten (n), ing. shift /ʃıft/, displacement /dıs'pleısmənt/, fr. déplacement, poussée, mutation progrès, glissement, azərb. qismən dəyişmə. – Dilin tarixində fonem sistemindəki dəyişiklik. German dillərinin tarixində iki cür belə dəyişiklik olub. 1-ci və ya german fonem əvəzlənməsi; 2-ci və ya alman fonem əvəzlənməsi.

1-ci və ya german fonem əvəzlənməsi:

latın dilində	qot dilində
p	f
b	p
f	v
t	th
d	t
t	d
c	h
g	k
h	g

2-ci və ya alman fonem əvəzlənməsi:

german dillərində	alman dilində
p	pf, ff
t	(t), z, zz, ss
k	(k) ch, hh, (c,x)
b/v	b (p)
d	(t)
g(j)	(k)

Bu dəyişikləri ilk dəfə Y.Qrimm müəyyənləşdirdiyinə görə onlar elmə Qrimm qanunu kimi daxil olub.

F.Yadigar (Veysəlli). GDG. s. 30-31.

СДВИГ ВРЕМЕН - alm. Zeitveränderung (f), ing. shifting of tense /ʃıftıŋ əv tenz/, fr. translation du temps, azərb. zaman dəyişikliyi. – Məs.: ing. d. /He said/ (o, dedi), /I am ill// (Mən xəstəyəm)//, ancaq /He said he was ill// (O dedi ki, xəstədir).

O.C.Ахманова. Göstərilən əsəri, s. 399.

СДВИГ ФОРМАНТ – alm. Formantveränderung (f), ing. shifting of formant /ʃıftıŋ əv 'fɔ:mənt/, fr. déplacement formant, azərb. formant dəyişikliyi. - Dodaq və dilarxası samitlərdən sonra gələndə saitlərin

başlanğıcında tezliyin aşağı düşməsi müşahidə olunur. Məs.: /pa/ və /p'a/ parçalarının spektrini müqayisə etdikdə ikinci parçada saitin əvvəlində /i/- şəkilli yarımsəs müşahidə olunur.




pa p'a

F.J. Vejsalov (Veysälli). Lehrbuch der deutschen Phonetik. Bakı, 1989, s. 155-159.

СЕВЕРОХАЛЬМАХЕРЬСКИЕ ЯЗЫКИ - alm. Nordchalmacherische Sprachen (Pl.), ing. Northhalmaher languages /nɔ:θ hɔ:mə 'læŋgwɪdʒɪz/, fr. langues halmageles nord, azərb. şimali halmager dilləri. – Papuas dilləri ailəsi. İndoneziyanın Halmager adasında yayılmışdır. Bu dillərdə danışanların ümumi sayı 365 minə qədərdir. Lolodo, tobelo, tobaru, paqu, kau, isam, qalela və s. dilləri şimali halmager dillərinə aiddir. Zəngin samit sisteminə və nisbətən zəif inkişaf etmiş saitlər (əksər papuas dillərində 5 sait və bəzi dillərdə (məs.: tobelo) uzunluq və qısalıq qarşılaşması mövcuddur) sisteminə malikdir.

М.А.Членов. Северохальмахерские языки – проблема внутренней классификации. М., 1984.

СЕГМЕНТ – alm. Segment (n), ing. segment /'segmənt/, fr. segment, azərb. parça (seqment). – Danışıq aktında sabit, təkrarlanarkən eyniliyini qoruyub saxlayan səs həlqəsi. Məs.: Azərb. d. /dağ/ sözünün akustik şəklində üç belə parça var:



d a ğ

dağ

F.Yadigar (Veysəlli). GDG. s. 387.

СЕГМЕНТАЦИЯ – alm. Segmentation (f), ing. segmentation /'segmen'teɪʃən/, fr. segmentation, azərb. üzvlənmə (seqmentləmə). – Azərbaycan dilində /ucal/ sözünün kökü /uc/, ondan /uca/ sifəti yaranmış, bundan da /ucalmaq/ felinin əsası düzəlmişdir. /l/ samiti bu sözdə morfoloji sərhədin köməyilə ayrılıb götürülə bilər. /l/ morfoloji bağlılığı ilə müstəqillik qazanır və bütün digər hallarda bu bağlılıq olmasa da o, öz müstəqilliyini qoruyub saxlaya bilir. Şerba məktəbində morfematizmin

mahiyyəti bundan ibarətdir. Dünya dilçiliyində üzvlənmə əsasən mexaniki qarşılaşma kriteriyasına əsaslanır. Danışıq aktının üzvlənməsi yalnız linqvistik kriteriyaya əsaslana bilər.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 54-75; F.Veysəlli. SDƏ, s. 103.

СЕГМЕНТНЫЙ – alm. segmentell, ing. segment /'segmənt/, segmental /'seg'mentl/, fr. à segment, azərb. seqment.

Bax: Сегмент ←.

СЕГМЕНТНЫЕ ЕДИНИЦЫ – alm. segmentelle Einheiten (Pl.), ing. units of segment /'ju:nıts əv 'segmənt/, fr. unités de segment, azərb. seqment vahidlər – Səs, fonem, morfem, leksem, onların birləşmələri və cümlələr seqment vahidlərdir. Onların danışıq aktından ayrılıb götürülməsi fonetik, qrammatik və semantik kriteriyalar əsasında mümkündür. Məs.: ing. d. /he ask:s me// (o, məndən soruşur) bir cümlədir. Burada /he, asks, me/ kimi üç leksem var, yəni onların hər biri ayrılıqda mənası olan sözlərdir. Ancaq /asks/ leksemi iki morfemə bölünür: /a: sk:s/. Deməli, morfem tərkibinə görə cümlədə 4 morfem var: /he, ask, s, me/. Bu morfemlər də ən azı bir seqmentdən ibarətdir: /s/ və ya iki-üç /h+e/, /a+s+k/, /m+e/. Onların cümlədə bir-birinin ardınca gəlməsi xaotik deyil, fonotaktik → fonetik → qrammatik → semantik → qanunlar əsasında mümkün olmuşdur.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 54-75.

СЕГМЕНТНАЯ ФОНЕТИКА – alm. segmentelle Phonetik (f), ing. segment phonetics /'segmənt fəu'netıks/, fr. phonétique de segmentation, azərb. seqment fonetika. – Superseqment fonetikadan fərqli olaraq yalnız seqment vahidləri və onların birləşmə xüsusiyyətlərini öyrənən sahə.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 54-75.

СЕЛЕКЦИЯ – alm. Selektion (f), ing. selection /sı'lekʃən/, fr. sélection, azərb. seçmə. – 1) Paradiqmatik səviyyədə dil vahidlərinin seçimi (eyni sintaktik mövqedə dil vahidlərinin bir-birini əvəz etməsi).
Məs.: Azərb. d. /Daş divar/
/Taxta divar/
/Yaş divar/ və s.
2) Sintaqmatik səviyyədə ardıcıllığın və sintaktik-semantik əlamətlərlə ifadə olunması. Məs.: alm. d. /sehen/ (görmək) feli mübtədanın [+canlı], tamamlığın isə [+köməkçi] olmasını tələb edir. Biz deyə bilmərik ki, /Günəş musiqini görür//; 3) Sintaqmatik səviyyədə iki funktiv arasındakı birtərəfli asılılıq. Qlossematikada buna determinasiya deyilir. Məs.: Azərb d. idarə əlaqəsi tamamlığın halını müəyyən edir. Müq. et: /Mən onu gözləyirəm//, alm. d. /Ich warte auf ihm// və s.
R.Conrad. Göstərilən əsəri, s. 233.

СЕЛЕКЦИОННОЕ ПРАВИЛО – alm. Selektionsregel (f), ing. selection, selective rule /sɪ'lekʃən /sɪ'lektɪv ru:l/, fr. règle de sélection, azərb. seçim qaydası.

Bax: Селекция ←.

СЕЛЕКЦИОННЫЙ ПРИЗНАК - Bax: Селекция ←.

СЕЛЕКЦИОННОЕ ОГРАНИЧЕНИЕ – alm. Selektionsbeschränkung (f), ing. selective limitation /sɪ'lektɪv ˌlɪ'mɪ'teɪʃən/, selection constraint /sɪ'lekʃən kən'streɪnt/, fr. restriction de sélection, limitation de sélection, azərb. seçim məhdudiyyəti. – N.Xomskinin qrammatika modelində (qeyri-kateqorial) semantik-sintaktik işlənmə məhdudiyyəti. Leksik elementlər arasındakı birgə işlənmə məhdudiyyəti qrammatik cəhətdən düzgün olmayan cümlələrin düzəlməsinə imkan vermir. Məs.: alm. d. /Der Stein denkt// (Daş düşünür) semantik baxımdan mümkün deyildir.

H.Buβmann. Göstərilən əsəri, s. 671.

СЕЛЬКУПСКИЙ ЯЗЫК - alm. Selkupisch (n), ing. Selkup language /sel'ku:p 'læŋgwɪdʒ/, fr. le selkoup, azərb. selkup dili. – Qərbi Sibirdə yayılmış dillərdən biridir. 2 minə qədər daşıycısı məlumdur. XIX əsrə qədər Ob və Yenisey çaylarının sahillərində məskunlaşmış evenklər, xantılar və ketlər arasında «linqva franka» («Lingua franca») rolunu oynamışdır. Zəngin saitlər (25 sait) və nisbətən zəif inkişaf etmiş samitlər (16 samit) sisteminə malikdir.

Г.Н.Прокофьев. Селькупская грамматика. Л., 1935.

СЕМА – alm. Sem (n), ing. seme /si:m/, fr. sème, azərb. sem. – Semlərin ən kiçik məna tərəfi. Məs.: Azərb. d. /Fəridə/ sözündə «qadınlıq» əlaməti.

R.Conrad. Göstərilən əsəri, s. 233.

СЕМАНТЕМА – alm. Semantem (n), ing. semanteme /sɪ'mænti:m/, fr. sémentème, azərb. semantem. – Fonologiyada fərqləndirici əlamətlər üzrə təsvir olduğu kimi, struktur semantika da dil vahidlərinin semantik təsvirində ən kiçik məna komponenti kimi semantemdən - semantik əlamətlərdən istifadə edir. Məs.: Azərb. d. /getmək/ feli [+hərəkətdə olmaq+yerdə+düz] əlamətlərin cəmi kimi götürülə bilər. Bundan fərqli olaraq /addımlamaq/ felinə isə [+yavaş+yavaş+qürurla] kimi əlamətləri əlavə etmək lazımdır. Burada adi sözlərdən istifadə edilir, ancaq onlar termin kimi götürülür və böyük mötərizələrdə plyus işarəsilə verilir. Semantik əlamətlərin statusu mübahisəlidir. Onlar gerçəkliyin bilavasitə fiziki əlamətləri deyil, insanların ətraf aləmi dil vasitəsilə əks etdirməyin psixi şərtləridir. Müq. et: /ölü/, [cəmdək[, [leş]. Onlar eyni reallığın ifadəsi olsalar da, aralarında müəyyən semantik fərq vardır ki, bu da dildə öz əksini müxtəlif şəkildə tapır. Məs.: biz deyə bilmərik ki, /Mən də cəmdəklərlə dost idim//, ancaq /Mən ölülərlə dost idim// deyə bilərik. Fonologiyadan fərqli olaraq biz semantik əlamətlərin hamı tərəfindən qəbul

edilmiş klasını müəyyənləşdirə bilmərik. Ona görə də müxtəlif dilçilik mənbələri semantik əlamət dedikdə müxtəlif terminlərdən istifadə edirlər: noen ←, plerem←, sem ← , fiqur → və s.
A.Norveen. Enflührung in die wissenshaftliche Betrachtung der Sprache. Halle, 1923.

СЕМАНТИКА – alm. Semantik (f), ing. semantics /sı'mæntıks/, fr. sémantique, azərb. semantika. – Dildəki morfem və sözlərin təhlili və təsvirilə məşğul olan dilçilik şöbəsi. Yanaşma bucağından asılı olaraq mənanın bu və ya digər tərəfi qabardıla bilər: 1) Ayrı-ayrı morfem və sözlərin daxili məna strukturu komponent təhlildə olduğu kimi məna postulatları və stereotipləri şəklində şərh olunur; 2) Məna əlaqələri sinonim və antonimlərin köməyilə açılır; 3) Cümlələrin ümumi mənasının ayrı-ayrı leksemlərin mənalarının, həmçinin onlar arasındakı qrammatik əlaqələrinin məcmusu kimi; 4) Dil vahidlərinin mənalarının ətraf aləmə münasibəti (referent semantikası). 1-ci və 2-ci aspektlər həm dilxarici, həm də sinxron cəhətdən öyrənilə bilər.

Sözlərin və bütövlükdə leksemlərin semantik baxımdan təsviri ötən əsrin 50-ci illərində geniş yayılmağa başladı: 1) dilin leksik vahidinin sintaktik aspektinə yönələn ümumi ad; 2) cümlənin semantik təhlilində əsas məfhum.

Transformasion qrammatikada cümlə semantikası daha dərindən öyrənilməyə başlandı. Generativ semantikada isə praqmatik aspekt danışıq aktı nəzəriyyəsi və presuppozisiya amillərini nəzərə almağa başladı. Gerçəkliyin və danışıq məqamının nəzərə alınması eyni zamanda semantik asılılıqda riyazi metodların tətbiqini də qaçılmaz edirdi. Artıq mətn dilçiliyilə yanaşı koqnitiv dilçilik də semantik tədqiqatların gündəminə gəlirdi. Söz sahəsinin tədqiqində aşağıdakı sahələr fərqləndirilir: semasiologiya → onomasiologiya → semiotikanın tərkib hissəsi olan semantika (sintaksis və praqmatikadan fərqli olaraq), sözün, konstruksiyanın, cümlənin, mətnin və s. semantikası.
H.Glinz. Gründbegriffe und Methoden inhaltbezogener Text - und Sprachanalyse. Düsseldorf, 1965; E.Nida. Componential analysis of meaning. An Introduction to semanitc structure. The Hague, 1975.

СЕМАНТИКА ГЕНЕРАТИВНАЯ – alm. generative Semantik (f), ing. generative semantics /'ʤenərətıv sı'mæntıks/, fr. sémantique générative, azərb. generativ semantika. – ABŞ-da generativ dilçiliyin tərkib hissəsi kimi klassik semantik tədqiqat modelinin tənqidi üzərində qurulan istiqamət. Məlumdur ki, N.Xomski anlamında transformasional qrammatikada sintaktik komponent mərkəzidir «generativ»-dir, semantik və fonoloji komponentlər isə yalnız interpretativ funksiyaya malikdirlər. Generativ semantikada isə cümlələrin düzəlməsində (generasiya) semantik komponent əsas götürülür, yəni semantik komponent «generativ»-dir. Bu nəzəriyyəyə əsasən cümlələrin semantik strukturları onlardan

asılı olmayaraq törəyən **semantik** komponentlərdən yaranır. Generativ semantika sintaktik alt **qat strukturlarının** olmasına və TQ–nin sintaktik komponentinə seçim **qaydalarının** cəlb olunmasına qarşı tutarlı dəlillər gətirir. Əlbət ki, bunlar **mahiyyət** etibarı ilə N.Xomskinin dilçilik görüşlərinə söykənir.

D.Wunderlich. Synta und Semantik in der Transformationsqrammatik. STZ, 1970, 36, s. 319-355.

СЕМАНТИКА ОБЩАЯ - alm. allgemeine Semantik (f), ing. general semantics /'ʤenərəl sɪ'mæntɪks/, fr. sémantique générale, azərb. ümumi semantika. – Dil **vahidlərinin** ümumi nəzəri məsələlərini öyrənən sahə. Söz və məfhum, söz **mənaları** arasındakı əlaqələr, mənanın dəyişməsi, onları doğuran səbəblərin **araşdırılması** kimi məsələlər də ümumi semantikanın obyektidir.

R.Conrad. Göstərilən əsəri, s. 234.

СЕМАНТИКА ФУНКЦИОНАЛЬНАЯ – alm. funktionelle Semantik (f), ing. functional semantics /'fʌŋkʃənəl sɪ'mæntɪks/, fr. sémantique fonctionnelle, azərb. funksional semantika. – Funksional semantika sözlərin bildirdikləri fiziki **müxtəlifliyin** funksiyaca üst-üstə düşməsini öyrənir. Məs.: Azərb. d. /ətək/: /dağın ətəyi/, /paltarın ətəyi/, /burun/: /insanın burnu/, /gəminin burnu/ və s.

O.C.Ахманова. Göstərilən əsəri, s. 400.

СЕМАНТИЧЕСКИЙ – alm. semantisch, ing. semantic /sɪ'mæntɪk/, fr. sémantique, azərb. semantik.

Bax: Семантика ←.

СЕМАНТИЧЕСКИЙ ДИФФЕРЕНЦИАЛ – alm. semantisches Differenzial (n), ing. semantic differential /sɪ'mæntɪk ˌdɪfə'renʃəl/, fr. différentielle sémantique, azərb. semantik dfferensial. – Dildəki ifadələrin konnotativ (emosional) məna komponentlərini müəyyənləşdirmək üçün ölçü metodu. Bu üsul antonim sifət cütlərindən hazırlanmış listə əsaslanır. Məs.: Azərb. d. /yaxşı-pis/, /xöşbəxt-bədbəxt/ və s. sözləri verilir və informantlardan tələb olunur ki, bu sifətləri semantik cəhətdən fərqləndirərək şkalalarda düzsünlər. Sintaqmlar sifətlərin bilavasitə bağlılığını təsdiq etdi. Burada üç məna amili özünü büruzə verir: 1) potensiya (güc-güclü /zəif/, sərt /yumşaq/, aktivlik /fəallıq: fəal/qeyri-fəal, həyəcanlanan /sakit/ və təkamül (qiymətləndirmə: şirin/turş, gözəl/çirkin və s). Bu rəylərin öyrənilməsində çox dəyərli üsuldur.

J.Şnaider, Ch. E.Osgood. Semantic differencial technique. A source book. Chicago, 1969.

СЕМАНТИЧЕСКАЯ ГРУППИРОВКА – alm. semantische Nischen (Pl.), ing. semantic grouping /sɪ'mæntɪk 'gru:pɪŋ/, fr. groupement sémantique, azərb. semantik qruplaşma. – Önşəkilçi və şəkilçilə düzələn sözlərin semantik qruplarda birləşməsini bildirən ümumi məfhum. Məs.:

alm. d. /ge/ önşəkilçisilə düzələn isimlər prosesin ümumiliyini bildirir. Müq. et: /Gepfeife/ (fit çalma), /Gesinge/ (xorla oxuma), /Gequatsche/ (birgə laqqırtı vurma) və s.
K.Bolinger. Kollektivsuffixe und Kollektivbegriff. Berlin, 1950.

СЕМАНТИЧЕСКАЯ НЕВЫДЕЛИМОСТЬ – alm. semantische Unzerlegbarkeit (f), ing. semantic indivisibility /sɪ'mæntɪk ˌɪndɪvɪzə'bɪlɪtɪ/, fr. indivisibilité sémantique, azərb. semantik bölünməzlik. – Məs.: Azərb. d. /kenquru/ sözü semantik cəhətdən tərkib hissələrinə bölünmür.
M.İ.Adilov. Göstərilən əsəri, s. 232.

СЕМАНТИЧЕСКОЕ ОТНОШЕНИЕ – alm. semantische Relation (f), ing. semantic relation /sɪ'mæntɪk rɪ'leɪʃən/, fr. relations sémantique, azərb. semantik münasibət. – Dildəki vahidlərin əlaqələri arasındakı münasibəti göstərmək üçün işlədilən ümumi ad. Bu cür əlaqələr ya mübtəda və xəbər və ya təyinlə tamamlıq arasındakı semantik əlaqələrdir (hər sözlə hər sözün əlaqələnə bilməməsi). Məs.: Azərb. d. /Dağ gərnəşir// (seçim məhdudiyyəti, birgə mövcud olmamaq, məna əlaqələrinin düz gəlməməsi və s.), ya da paradiqmatik. Məs.: /Sabah bazardır, şənbədir// və s. Ən mühüm semantik əlaqələr bunlardır: antonimlik ← hiperonomlik← hiposinonimlik ← inkomparativlik ← komplementarlıq ← konversiya ← parafraz və nəticə əlaqələri.
J.Lyons. Semantics. 2, Cambridge, 1977.

СЕМАНТИЧЕСКОЕ ПОЛЕ – alm. semantisches Feld (n), ing. semantic field /sɪ'mæntɪk fi:ld/, fr. champ sémantique, azərb. semantik sahə. – Bu termini leksik sahə adı altında dilçiliyə K.Bühler (1879-1963) gətirmişdir. Söz leksik sistemin üzvü olmaqla müəyyən leksik xüsusiyyətlər kəsb edir ki, buna sözün leksik dəyəri deyilir. Sözün leksik dəyərini müəyyən etmək üçün istifadə olunan sıraya leksik sahə deyilir. Leksik sahə nə gerçəkliyin eyni cinsli predmetlər, nə də eyni cinsli anlayışlar sahəsidir, o, paralellik əlaqələrilə birləşən (sinonimlər), kontrast (antonimlər) və müşayiət etmə (sözlərin metonimlik və sinekdoxa), ən əsası isə müxtəlif cür qarşılaşmalar əlaqələrilə birləşən sahədir. Konkret sözün danışıqda işlənməsidir ki, sahə isə onun dil sistemində mövcudluq sferasıdır. Müq. et: rus d. /лицо, лик, физономия, морда, харя, мурло, рыло, рожа, образина/ sözləri /sima, sifət/ leksik sahəsini əmələ gətirir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 151; J.Trier. Der deutsche Wortschatz im Sinbezirk des Verstandes und der Geschichte eines Sprachlichen Feldes. Bd. 1, Heidelberg, 1931.

СЕМАСИОГРАФИЯ – alm. Semasiographie (f), ing. semasiography /sɪˌmeɪzɪ'grəfɪ/, fr. semasiographie, azərb. semasioqrafiya. – Ayrı-ayrı ideya və fikirlərin bütöv şəkildə yazıda əks etdirilməsi cəhdi. Məs.: ideoqrafik və piktoqrafik yazı növləri.
O.C.Ахманова. Göstərilən əsəri, s. 401.

СЕМАСИОЛОГИЯ – alm. Semasiologie (f), ing. semasiology /sɪˌmeɪzɪˈɒlədʒɪ/, fr. sémasiologie, azərb. semasiologiya. - Semantikanın bir bölməsi kimi dildə mənaları, onların bir-birinə münasibətini (sahə nəzəriyyəsi), söz mənalarının inkişafını və dəyişməsini və bu dəyişmələrin səbəblərini öyrənir. Məs.: alm. d. /Marschale/ (ata baxan, mehtər) demək idi, müasir dildə isə /Marschall/ (m) kimi işlənərək yüksək hərbi rütbə bildirir.

F.Yadigar (Veysəlli). GDG. s. 160-165.

СЕМЕМА – Bax: Сема ←.


СЕМИОЛОГИЯ – alm. Semiologie (f), ing. semiology /si:mɪˈɒlədʒɪ/, fr. sémiologie, azərb. semiologiya. – Ümumilikdə işarə sistemlərilərinin ümumi cəhətləri ilə məşğul olan dilçilik bölməsi.

Bax: Семантика ←.

СЕМИОТИКА - alm. Semiotik (f), ing. semiotics /ˌsemɪˈɒtɪks/si:mɪˈɒtɪks/, fr. sémiotique, azərb. semiotika. – Ümumilikdə işarələrdən bəhs edən elm sahəsi. İşarə nəzəriyyəsi haqqında elm. Semiotika müxtəlif işarə sistemlərini öyrənir. Məs.: Morze əlifbası, yol hərəkəti qaydalarını nizamlayan işarələr, təbii və süni dillər və s. F. de Sössür dil işarələrinin təbiətini nəzərə almayaraq onları digər işarələrlə bir götürürdü. Ona görə də semiotikanı dilçiliyin tərkib hissəsi hesab edirdi. Lakin dil işarələrinin maddi tərəfi səsli olduğundan onlar spesifik işarələrdir, ona görə də dil semiotikadan fərqli olaraq linqvistikanın obyektidir. Semiotika 4 yerə bölünür: semantika ← sintaksis ← praqmatika və siqmatika.

F.Veysəlli. Dil. Bakı, 2007, s. 73-95.


СЕМИОТИЧЕСКИЙ ТРЕХУГОЛЬНИК – alm. Semiotisches Dreieck (n), ing. semiotic triangular /ˌsemɪˈɒtɪk, si,- traɪˈæŋjʊlə/, fr. triangle sémiotique, azərb. semiotik üçbucaq. – Simvol (işarələyən), fikir (məna) və referent (işarələnən) arasındakı əlaqələri göstərmək üçün istifadə edilən həndəsi üçbucaq. Burada əsas ideya odur ki, simvolla referent, dildəki işarə ilə gerçəkliyin, işarələnən hadisə, fakt və əşya arasında birbaşa əlaqə yoxdur. Dil işarələri yalnız anlam konsepsiyası vasitəsilə gerçəkliyə aid olur.



C.K.Ogden, J.A.Richards. The meaning of meaning. N.-York, 1923.

СЕМАТОЛОГИЯ – alm. Sematologie (f), ing. sematology /si:mə'tɒlədʒi/, fr. sématologie, azərb. sematologiya.
Bax: Семасиология ←.
СЕМИТСКИЕ ЯЗЫКИ – alm. Semitische Sprachen (Pl.), ing. Semitic languages /sɪ'mɪtɪk 'læŋgwɪdʒɪz/, fr. langues sémitiques, azərb. semit dilləri. – Nuhun oğlu Semin adından götrülüb. Afrika-Asiya dillərini birləşdirir. Ən qədim dili akkad dilidir (qədim Babilistanda b. e. ə. 2500-600-cı illərdə mövcud olmuşdur). Digər dilləri bunlardır: şimal-qərbi semit dilləri: (finikiya, uqarit, həbəş, aramey), cənub-qərbi dil (ərəb) və Həbəş dilləri (qrek, amxar). Həbəş və aramey dillərinin qohumluğu yəhudi və ərəb qrammatiklərinə artıq orta əsrlərdən bəlli idi. Avropada semitşünaslıq XVI əsrdən inkişaf etməyə başladı. Ərəb dilində K-t-b «yaz» ardıcıllığından /kitab/, /kitaba/ (o yazdı), /kattab/ (katib), /maktəb/ əmələ gətirmək olur. Samitlə zəngin dillərdir. Felin iki tərzi, müxtəlif təsrif modelləri vardır. Uzlaşma və 3 halı vardır.
H.Buβmann. Göstərilən əsəri, s. 681.
СЕМЬЯ ЯЗЫКОВ – alm. Sprachfamile (f), ing. family of languages /'fæmɪlɪ əv 'læŋgwɪdʒɪz/, fr. famille de langues, azərb. dillər ailəsi. - Mənşə ümumiliyinə əsaslanan dil ailələri. Dil ailələrini adətən əsas dilin, ana dilin (ulu dilin) parçalanması və parçalanmadan sonra əmələ gələn budaqların uzunmüddətli müstəqil inkişafı nəticəsində yaranan dillər təşkil edir. Müasir dilçilikdə 22-dən çox dil ailələsinin olduğu iddia edilir. Məs.: hind-Avropa dilləri ailəsi, Afrasiya dilləri ailəsi, türk dilləri ailəsi, monqol dilləri ailəsi və s.
F.Veysəlli. Dil. Bakı, 2007.
СЕРИЯ КОНТЕКСТНАЯ – alm. Kontextreihe (f), ing. contextual series /kɔn'tekstjuəl/kən'tekstʃuəl 'sɪəri:z/, fr. série contextuelle, azərb. kontekst silsilə. – Ünsiyyətdə sözlərin konkret düzümü. Məs.: Azərb. d. /Balıq suda üzür//, /Quş səmada uçur//, /Heyvanlar meşədə gəzir//. Bu cümlələr ümumi mücərrəd (məkan-hərəkət-canlı) mövcudluğun müəyyən kontekstdə reallaşmasıdır.
O.C.Ахманова. Göstərilən əsəri, s. 402.
СЕРИЯ ЛЕКСИЧЕСКАЯ – alm. lexikalische Reihe (f), ing. lexical set /'leksɪkəl set/, fr. série lexicale, azərb. leksik silsilə. – Oxşar və ya homogen əşyaların eyni qrupda birləşməsi. Məs.: Azərb. d. /ərzaq, ağac, gül/ və s. adları: /un, düyü, ət, yağ/; /palıd/, /cökə/, /söyüd/, /qızılgül/, /bənövşə/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 402.
СЕПИРА-УОРФА ГИПОТЕЗА – alm. Hypothese von Sepir-Uorf (f), ing. Sapir-Wharf hypothesis /səpɪə 'wɔ:f haɪ'pɒθɪsɪs/, fr. hypothèse de Sepir-Uorf, azərb. Sepir-Uorf fərziyyəsi. – Amerikanın görkəmli dilçisi E.Sepirin (1884-1939) insanların dilləri, onların təfəkküründü və dünyanı

qavramasını müəyyənləşdirilməsinə dair nəzəri fikirlərini B.Uorf (1897-1941) inkişaf etdirərək linqvistik nisbilik nəzəriyyəsini işləyib hazırlamışdır. A.Eynşteyn zaman, məkan və kütləni onların aid olduğu sistemə və onun xüsusi sürətinə nisbətdə müəyyən etdiyi kimi, insanın dərk etməsi də təbii dillərin semantik və struktur imkanlarına nisbətdə baş verir. Yəni insanın danışdığı dilin semantik strukturu onun yaşadığı dünyanın konsepsiyasını müəyyənləşdirir və ya məhdudlaşdırır. Qrammatik strukturuna və leksik tərkibinə görə hind-Avropa dillərindən fərqlənən Amerika hindilərinin dillərilə məşğul olan F.Boas (1858-1942) belə nəticəyə gəlir ki, çox müxtəlif qrammatikası olan dillərin daşıyıcıları bu qrammatikaların təsiri nəticəsində müxtəlif tipik müşahidələr aparır və zahirən oxşar müşahidələri fərqli şəkildə qiymətləndirirlər, yəni dünya haqqında müxtəlif təsəvvürlər əldə edirlər. 6000 insanın danışdığı hopi (şimali-şərqi Arizonada yaşayan Pueblo hindilərinin dili) dilini tədqiq edərək B.Uorf belə nəticəyə gəlir ki, bu dildə fiziki zaman anlayışı yoxdur. Linqvistik nisbilik və ya linqvistik determinizm adlanan bu fərziyyə V. fon Humboldtun «dil insanın dünyagörüşünü müəyyənləşdirir» fikrilə səsləşir. Ancaq mütəxəssislərin fikrincə, E.Sepir və B.Uorf birbaşa V. fon Humboldta və onun davamçılarından olan yeni romantiklərə (L.Vaysgerber (1899-1958) istinad etməsə də, «dil ətraf aləmi özünəməxsus şəkildə əks etdirir» ideyasına oxşarlıq açıq-aydın hiss olunur. Dil və təfəkkürün qarşılıqlı əlaqələri L.Vaysgerberdə belə verilir:



H.Delbrück. Neuere Untersuchungen zur Sapir-Whort-Hypothese. «Linguistics», 1975, t. 45, s. 5-46; F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 31-33.

СЕРБСКОХОРВАТСКИЙ ЯЗЫК – alm. Serbokroatisch (n), ing. Serbo-Croatian language /ˌsɜrboʊkrəʊˈeɪʃɪən ˈlæŋgwɪʤ/, fr. langue serbocroate, azərb. serb-xorvat dili. – Slavyan dillərinin şərq yarımqrupuna aid dildir. 15 milyon daşıyıcısı vardır. Xarakterik əlamətləri: uzun və qısa saitləri, qalxan və ya enən tonlar, mürəkkəb zaman və aspekt sistemi. Fərqli cəhətləri: serb dilində /e/, xorvat dilində /je/, /ije/. Müq. et: /ded/, /djed/ (baba) və s. Serb dilində /reka/, ancaq /rijeka/, ya da /reka/ (çay); xorvat dilində /krompir/ (kartofel), serb dilində /pozoriste/, xorvat dilində /kazaliste/ (teatr). Ən qədim abidəsi XII əsrə aiddir. Serb dili yazıda kiril, xorvat dili isə latın əlifbasından istifadə edir.

M.Partidje. Serbo-Kroat. Practical grammar and reader. Belgrad, 1972.

СЖАТЫЙ – alm. zusammengepreßt, kompakt, ing. compact (constricted) /ˈkɒmpækt/kənˈstrıktıd/, fr. comprimé, azərb. yığcam. – Spektrdə enerjinin yığcam şəkildə ifadəsi. Məs.: Azərb. d. /a/ kompakt, /i/-sə diffuz səsdir.
F.Veysəlli. SDƏ. I. s. 143.

СИБИЛЯНТ – alm. Sibiliant (m), Zischlaut (m), ing. whistling (sibilant) /ˈwıstəlıŋ/ ˈsıbılənt/, fr. sifflant, azərb. fışıltılı samit. - Məs.: Azərb. d. /s/, /z/, /ʃ/, /ʒ/ samitləri bu cür səslərdir.
R.Conrad. Göstərilən əsəri, s. 235.

СИГМАТИКА – alm. Sigmatik (f), ing. sigmatics /ˈsıgmætıks/, fr. sigmatisme, azərb. siqmatika. – Semiotikanın işarələyənlə işarələnən (gerçəkliyin obyekti) arasındakı münasibətləri öyrənən elm sahəsi. İşarə ilə gerçəkliyin şüurda inikası məsələlərini təsdiq edir.
Bax: Семиотика ←.

СИГНАЛ – alm. Signal (n), ing. signal /ˈsıgnəl/, fr. signal, azərb. siqnal. - Siqnal, məlumat verən səs, görmə və ya digər şərti işarələr. İşarənin digər növlərindən fərqli olaraq, o motivləşdirilmir, özu-özlüyündə müstəqil mənaya malik olmur: informasiya işarə situasiyasında olur; beləliklə, məna «işarədən» kənarda yerləşir. Məs.: /zəngin səsi/. O, məktəbdə dərsin başlandığını və ya bitdiyini, evdə və telefonda kiminsə müraciət etdiyini, teatr və kino zallarında isə tamaşaçıların içəri dəvət olunduğunu bildirir.
F.Veysəlli. SDƏ, I, s. 56-62.

СИГНАНС – alm. Signans (n), ing. signans /ˈsıgnanz/, fr. signance, azərb. siqnans. – İşarə ilə təhciz olunmuş, sözə çevrilmiş.
H.Bußmann. Göstərilən əsəri, s. 684.

СИГНАТИУМ – Bax: Сигнанс ←.

СИГНИФИКАТИВНАЯ ФУНКЦИЯ (ФОНЕМЫ) - alm. Unterscheidungsfunktion (f), ing. significative function of phoneme /sıgˈnıfıkətıv ˈfʌŋkʃən əv ˈfəuni:m/, fr. fonction significative du phonème, azərb. (fonemin) fərqləndirici funksiyası.
Bax: Функция →.

СИГНИФИКАТИВНО СИЛЬНЫЕ ПОЗИЦИИ ФОНЕМЫ - alm. signifikativ starke Position des Phonems (f), ing. significative strong position of phoneme /sıgˈnıfıkətıv ˈstrɒŋ pəˈzıʃən əv ˈfəuni:m/, fr. positions significatives faibles du phonème, azərb. fonemin siqnifikativ güclü mövqeləri.
Bax: Московская Фонологическая школа ←.

СИГНИФИКАТИВНО СЛАБЫЕ ПОЗИЦИИ ФОНЕМЫ - alm. Signifikativ schwache Position des Phonems (f), ing. significative weak position of phoneme /sıgˈnıfıkətıv wi:k pəˈzıʃən əv ˈfəuni:m/, fr. positions significatives fortes du phonème, azərb. fonemin siqnifikativ zəif mövqeyi.
Bax: Московская Фонологическая школа ←.

СИГНИФИКАТИВ – alm. signifikativ, ing. significativ /sɪg'nɪfɪkətɪv/, fr. significatif,-ve, azərb. fərqləndirici, siqnifikativ.
Bax: Дистинктив ←.

СИГНИФИКАЦИЯ – alm. Signifikation (f), ing. signification /sɪgˈnɪfɪkeɪʃən/, fr. signification, azərb. fərqləndirmə. – Dil vahidlərinin fərqləndirilməsi. Məs.: Azərb. d. /baş/, /daş/, /qaş/ və s. F.de Sössür hər bir dil işarəsində işarələyənlə (signifiant) işarələnəni (signifie) fərqləndirməyi vacib sayırdı. Məs.: Azərb. d. /ağac/ sözü /a+ğ+a+c/ işarələrindən və gerçəklikdə ağac predmeti (işarələnəni) fərqləndirmək olar. Bu da onun işarə nəzəriyyəsində ikitərəfli kimi götürülür.
F.Yadigar (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.


СИДАМСКИЕ ЯЗЫКИ – alm. Sidamo Sprachen (pl), ing. Sidamo languages /sɪˈdɑ:məʊ ˈlæŋgwɪʤɪz/, fr. langues sidamoises, azərb. sidam dilləri. – Kuşit dillərinin şərq qrupuna daxil olan dillər yarımqrupu. Əsasən Cənubi Həbəşistanda yayılmışdır. 850 minə qədər daşıyıcısı məlumdur. Silamo, darasa, hadia, kambatta, alaba, tambaro və s. dillər sidam dillərinə aiddirlər.
Moreno M. Manuale di Sidamo. Grammatica. Ezercizi. Testi. Glossario, Mil., 1940.

СИЛА ЗВУКА – alm. Lautstärke (f), ing. intensity of sound /ɪnˈtensɪtɪ əv saʊnd/, fr. intensité du son, azərb. səsin gücü. – Səsin gücü nəfəsvermənin təzyiqindən və xirtdəkdəki səs tellərinin gərginliyindən asılıdır. Fizikanın akustika bölməsində buna intensivlik deyirlər. Səs tellərinin titrəmə tezliyi və amplitudu, yəni titrəmədə səs dalğalarının ən yüksək nöqtəsindən ən aşağı nöqtəsinə qədər məsafə səsin gücü (intensivliyi) kimi başa düşülə bilər. Titrəmənin amplitudu nə qədər böyük olarsa, səsin gücü də bir o qədər böyük olar.
F. Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

СИЛЛАБАЦИЯ – alm. Silbentrennung (f), ing. syllabation /sɪləˈbeɪʃən/, syllabization /ˈsɪləbʌɪzeɪʃən/, fr. syllabation, azərb. hecaya bölmək, hecalamaq.
Bax: Слогоделение →.

СИЛЛАБЕМА – alm. Syllabem (n), ing. syllabema /sɪˈlabema/, fr. syllabéme, azərb. sillabem. – Dilin «em» səviyyəli vahidlərinə (fonem, morfem, leksem və s.) uyğun olaraq hecanı da fonoloji vahid kimi göstərmək üçün işlədilən termin. Ancaq heca sırf fonetik hadisə olduğundan onun dil sistemində qarşılıqlığı yoxdur. Onun yalnız modellər və ya sait+samit və əksinə şəklində təmsil olunduğunu demək düzgün olardı. Məs.: ing. d. «bunting» /bʌntɪŋ/ sözü ikihecalı sözdür və o, transkrip-

siyada belə göstərilə bilər.: /KVK:KVK/. [bʌn] hecasının strukturunu belə açmaq olar:



P.H.Mathews. Göstərilən əsəri, s. 366.

СИЛЛАБОГРАММА – alm. Syllabogramm (n), ing. syllabogram /sɪ'læbɔgræm/, fr. syllabogramme, azərb. hecalar üzrə yazma. – Danışıq aktının hecalara bölərək yazılması. Bu yazı sistemində hər heca bir qrafik işarə ilə göstərilir. Heca yazısına nümunə kimi Çin yazısından törənmiş yapon yazısını göstərmək olar. Hər iki yapon yazı sistemində (katakana, hiraqana) sözlər /sait+samit/ ardıcıllığından ibarət hecalardan düzəlir. Bu yazı sistemində sətirlər eyni saitlər, sütunlar isə eyni samitlər üzrə düzülür. Bundan başqa cingiltilik və dodaqlanma diakritik işarə ilə verilir.

K.Kohler. Einführung im die Phonetik des Deutschen. Berlin, 1995, s. 135-136.

СИЛОВОЕ УДАРЕНИЕ - alm. dynamische Betonung (f), ing. strong stress /'strɒŋ stres/, fr. accent d'intensité, azərb. dinamik (qüvvətli) vurğu.

Bax: Ударение →.

СИЛЬНАЯ ПОЗИЦИЯ – alm. starke Position (f), ing. strong pozition /'strɒŋ pə'zɪʃ(ə)n/, fr. position forte, azərb. güclü mövqe .

Bax: Позиция ←.

СИЛЬНОКОНЕЧНЫЙ СОГЛАСНЫЙ - alm. starkgleitender Konsonant (m), ing. strong-termination consonant /'strɒŋ ˌtɜ:mɪ'neɪʃən 'kɒnsənənt/, fr. consonne à position forte, azərb. sonu qüvvətli samit. – Heca sərhədinin yerinə görə samitlər üç yerə bölünür:

1) ikizirvəli. Müq. et: alm. d. /nɛnən/ (adlandırmaq), /'mʊtər/ (ana);

2) qüvvətli sonluq. Müq. et: alm. d. /'ba:dən/ (çimmək), /ja:gən/ (qovmaq);

3) qüvvətli başlanğıc. Müq. et: /'kan:tən/ (tanıyırdılar), /'zan:də/ (qumluqda).

Göründüyü kimi, birinci halda heca sərhədi samitin tən ortasından, ikinci halda samitdən əvvəl, üçüncü halda isə samitdən sonra keçir.

F. Veysəlov (Veysalli). Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s.192.

СИЛЬНОНАЧАЛЬНЫЙ СОГЛАСНЫЙ - alm. anfangsstarker Konsonant (m), ing. strong-beginning consonant /'strɒŋ bɪ'gɪnɪŋ 'kɒnsənənt/, fr. consonne au commencemen forte, azərb. qüvvətli başlanğıclı samit.

Bax: Сильноконечный согласный ←.

СИЛЬНОЦЕНТРАЛИЗУЮЩЕЕ УДАРЕНИЕ - alm. stark zentRalisierte Betonung (f), ing. strongly centralizing stress /ˈstrɒŋlɪ ˈsentrəlaɪzɪŋ stres/, fr. accen forte central, azərb. qüvvətli mərkəzləşdirici vurğu. – Sözün vurğu mərkəzinin aydınlığı. Söz vurğusu olan bütün dillərdə vurğulu heca akustik parametrlərinə görə (əsas tonun tezliyi, səsin gücü, intensivliyi və zaman göstəricisi) səciyyələndirilir. L.V.Şerbaya görə, ideal vəziyyətdə vurğulu heca ən yüksək, ən güclü və ən uzun olur.
Л.Р.Зиндер. Общая фонетика. М., 1979, s. 263.

СИЛЬНЫЙ ПРИСТУП – alm. fester Einsatz (m), ing. rough glide /rʌf glaɪd/, fr. un commencement vigoureux, azərb. sərt başlanğıc. – Artikulyator baxımdan bu, xirtdəkdə kipləşmiş səs tellərinin hava axınının güclü təsiri nəticəsində qəfildən aralanmasıyla yaranan səsdir. Buna alm. d. «knaklaut» (şaqqıltılı səs) deyirlər. Akustik baxımdan səsin spektrinin başlanğıcında yuxarı tezliklərdə qara sahə əmələ gəlir. Ossilloqramda isə partlayışı əks etdirən titrəmə müşahidə olunur. Knaklautun fonoloji dəyəri yoxdur, o, aid olduğu saitə xas olaraq söz və morfem başında müşahidə olunur. Morfoloji baxımdan isə o, sərhədləndirmə funksiyası yerinə yetirir. Məs.: alm. d. /ˀa: bənt/, /fɛrˀænigən/, /fɛRRæzən/ və s.
F. Veysəlov (Veysəlli). Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 83; K.Kohler. Einführung in die Phonetik des Deutschen. Berlin, 1995, s. 100-104.

СИМВОЛ – alm. Symbol (n), ing. symbol /ˈsɪmbəl/, fr. symbole, azərb. simvol, rəmz. - Simvolun məzmunu əyanidir, obrazlı surətdə motivləşdirilmişdir və məhz buna görə də müəyyən dərəcədə şəraitdən asılı deyildir. Buna misal dövlətlərin gerb və bayraqlarını göstərmək olar: 1) Semiotikada işarələr qrupu, işarələrlə işarələnənlər arasındakı əlaqə sırf şərtidir. Simvolun mənası dil və mədəni təşkilatlarla müəyyənləşir. Məs.: jestlər və ya obrazlı ifadələr (göyərçin sülh rəmzi kimi, tərəzi ədalət rəmzi kimi və s.); 2) Simvollar (riyaziyyat, kimya və digər elm sahələrində) formal təsvirlərdə işlənən işarələrdir. Məs.: TQ-da NP və VP müvafiq qrammatik kateqoriyaları bildirir. NP – noun phraze (ismi söyləm); VP – verbal phraze (feli söyləm).
H. Bußmann. Göstərilən əsəri, s. 759.

СИМВОЛ ФОНЕТИЧЕСКИЙ – alm. phonetisches Symbol (n), ing. phonetic(al) symbol /fəʊˈnetɪk(əl) ˈsɪmbəl/, fr. symbole phonétique, azərb. fonetik simvol (işarə). – Məs.: Beynəlxalq Fonetika Əlifbasında /~/ burunlaşmanı, /ᵒ/ dodaqlanmanı, /ʰ/ nəfəsliliyi göstərir.
F.Veysəlli. SDƏ, I, s. 329-330.

СИМВОЛИЧЕСКАЯ ФОНЕТИКА – alm. symbolische Phonetik (f), ing. symbolic(al) phonetics /sɪmˈbɒlɪk(əl) fəʊˈnetɪks/, fr. phonétique symbolique, azərb. simvollar fonetikası. – 1) Səslərlə məna arasında birbaşa əlaqənin olmasını iddia edən elm sahəsi. Bu da daha çox səs təqlidi

yolu ilə yaranan sözlərə aiddir. Belə sözlər çox azdır, həm də bu müşahidələrə əsasən səslərin məna ilə birbaşa əlaqəsini güman etmək düzgün olmazdı; 2) Dilin fonetik və fonoloji təsvirində istifadə olunan simvolların seçilməsini əsaslandıran sahə. Məs.: Beynəlxalq Fonetika Əlifbasında /ɣ/ dilarxası novlu samiti göstərmək üçün tətbiq edilir.
K.Kohler. Göstərilən əsəri, s. 61.

СИМВОЛИЧЕСКАЯ ФУНКЦИЯ - alm. symbolische Funktion (f), ing. symbolic(al) function /sɪm'bɒlɪk(əl) 'fʌŋkʃən/, fr. fonction symbolique, azərb. simvolik funksiya. – Aşağıdakı əhvalat simvolik funksiyanın mahiyyətini çox yaxşı açır. Yunan tarixçisi Heredot (e. ə. V əsr) yazır ki, skiflər müharibə apardıqları farslara heyvanlardan, quşlardan və beş oxdan ibarət bir bağlama göndərirlər. Bunun açması belə imiş: qurbağa kimi bataqlıqlardan tullanmağı, siçan kimi deşiklərə girməyi və quş kimi uçmağı öyrənməsəniz torpağımıza ayaq basan kimi bizim oxlarımıza tuş gələcəksiniz. Burada hər bir şey konkret simvolik məna daşıyır.
A.A.Реформатский. Göstərilən əsəri, s. 348.

СИМВОЛИЧЕСКОЕ ПИСЬМО – alm. symbolische Schrift (f), ing. symbolic(al) writing /sɪm'bɒlɪk(əl) raɪtɪŋ/, fr. lettre symbolique, azərb. simvolik (rəmzi) yazı. –Bu yazı növü daha çox piktoqrafik yazıya uyğun gəlir. Ancaq F. de Sössür və O.Yespersen ilk dəfə olaraq dilin fonetik quruluşunu xüsusi işarələrin köməyilə təsvir etmişlər. Məs.: /ß/ dilin ucunu, 0-dan 6-ya qədər rəqəmlər çənənin açılma dərəcəsini, /e/ isə dil ucunun üst diş yuvaqlarına toxunmasını bildirir. Bundan sonra isə /d/, /t/, /n/ samitlərini belə yazmaq olar. /t/ = ßoe, /d/=ßoe; /e/=ßoe.
F. de Saussure. Grundfragen der allgemeinen Sprachwissenschaft. Berlin, 1967, s. 50-53.

СИММЕТРИЯ – alm. Symmetrie (f), ing. symmetry /'sɪmɪtrɪ/, fr. symétrie, réitération, azərb. simmetriya. – X və Y arasındakı bərabərlik əlaqəsidir. Məs.: R (xy) →R (x,y) münasibətləri «evli olmaq» birləşməsində ikitərəfli bərabər əlaqələrdən xəbər verir, yəni X Y ilə və ya Y X–la evlidir. Ancaq XY-ın bacısıdır ifadəsində Y də X-ın bacısıdır o vaxt doğru olardı ki, həm X, həm də Y qadın cinsli olsun. Əgər R (xy) və R (yx) əlaqələri yoxdursa, onda bu assimmetrik əlaqə olacaqdır.
H.Buβmann. Göstərilən əsəri, s. 759.

СИНГАЛЬСКИЙ ЯЗЫК – alm. Sinhalisch (n), ing. Cingalese language /ˌsɪŋgə'li:z 'læŋgwɪʤ/, Sinhalese languag /sɪnhə'li:z 'læŋgwɪʤ/, fr. langue singalie, azərb. sinqal dili. – Hind dillərindən biri. Şri-Lanka Respublikasının rəsmi dövlət dilidir. 12 milyona qədər əhali bu dildə danışır.
B. B.Выхухолев. Сингальский язык. M., 1964.

СИНГАРМОНИЗМ – alm. Synharmonie (f), ing. vowel harmony /'vaʊəl 'hɑ:mənɪ/, vocalic harmony /vəʊ'kælɪk 'hɑ:mənɪ/, fr. harmonie vocali-

que, harmonisation, azərb. sinharmonizm (həmahənglik). – Bu dildə sözlərin birinci hecasındakı sait sonra gələn bütün səslərin incə/qalın və ya dodaqlanan/dodaqlanmayan, kökdə səslənməsini tələb edir. Buna da həmahənglik və ya sinharmonizm deyilir və saitlərin ahəngindən fərqlənir. Axırıncıda yalnız saitlər eyni ahəngdə bir-birini izləyir. Həmahənglikdə isə bütövlükdə söz eyni ahəngdə köklənir.
Məs.: Azərb. d. °/ü+zü+mü+zü/,
/adam+lar+dan/, /nadan+lar+dan/ və s.
F.Veysəlli. SDƏ, I, s. 26.

СИНГАРМОНИЧЕСКИЙ – alm. synharmonisch, ing. synharmonic /sınhɑ:'mɒnık/, fr. synharmonique, azərb. sinharmonik.
Bax: Сингармонизм ←.

СИНГУЛЯТИВ – alm. Singulativ (m), ing. singulative /'sıŋgjulətıv/, fr. singulatif,-ve, azərb. sinqulativ. – Təkliyin xüsusi ifadə forması. Təkdən fərqli olaraq sinqulativ kollektivlik formasına qarşı qoyulur.
H.Bußmann. Göstərilən əsəri, s. 686.

СИНГУЛАРИАТАНТУМ – alm. Singulariatantum (n), ing. singulare tantum /'sıŋgjuˌlɑ:reı 'tɑntəm/, fr. tentum, singulier, azərb. sinqularia tantum. – Yalnız tək halda işlənən isimlər. Məs.: Azərb. d. /ay/, /günəş/, /yer/; rus d. /студенчество/, /белизна/, /развитие/, /железо/, /сахар/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 516.

СИНДХИ – alm. Sindhi (n), ing. sindhi /'sındı/, fr. sindhi, azərb. sindhi.
Bax: Индейский язык ←.

СИНЕЗИС – alm. Sinäsis (n), ing. synesin /sınezın/, fr. synèse, azərb. sinezis. – Komponentlər arasında qrammatik deyil, məna əlaqələrinin ifadəsi. Məs.: ing. d. /All the family were there// (Bütün ailə burada idi). Qrammatik cəhətdən /family/ sözü təkdə olsa da, xəbər cəmdə işlənib, çünki ailə bir nəfərdən deyil, bir neçə nəfərdən ibarət olur.
O.C.Ахманова. Göstərilən əsəri, s. 405.

СИНЕКДОХА – alm. Synekdoche (f), ing. synecdoche /sı'nekdəkı/, fr. synecdoche, synecdoque, azərb. sinekdoxa. – Metaforanın bir növü kimi bütövün hissəsini və ya hissənin bütövü əvəz etməsi məqsədilə işlənir. Məs.: Vaşinqton Amerika əvəzinə (hissə), //Bütün dünya sizdən danışır//.
H.Bußmann. Göstərilən əsəri, s. 761.

СИНЕКДОХА ЛЕКСИЧЕСКАЯ – alm. lexikalische Synekdoche (f), ing. lexical synecdoche /'leksıkəl sı'nekdəkı/, fr. synecdoche lexicale, azərb. leksik sinekdoxa. - Sözün normal məna kəsb etməsi, ancaq müəyyən mənada sözdə şişirtmə qalır. Məs.: /Kreml bunu elə-belə buraxmaz// və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 405.

СИНЕКДОХА ПОЭТИЧЕСКАЯ – alm. poetische Synekdoche (f), ing. poetic(al) synecdoche /pəʊ'etık(ə)l sı'nekdəkı/, fr. synecdoche poétique, azərb. poetik sinekdoxa. – Poetik danışığa aid olan sinekdoxa növü. Məs.: Azərb. d.

/Bakının sayrışan ulduzlarından,
Salam gətirmişəm hüzurunuza mən//.
S.Vurğun.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 236-237.

СИНЕРЕЗИС – alm. Synärese (Synäresis, Synizese) (f), ing. syneresis /sı'nıərısıs/, weep /wi:p/, fr. synérèse, azərb. sinerezis. – Etimoloji cəhətdən müxtəlif hecalarda işlənmiş saitlərin birləşməsi. Vurğunun söz kökünə düşməsi səbəbindən hecalar arasındakı sait ixtisara düşür. Məs.: o. a. d. /getre(g)ede/→ y. a. d. /Getreide/ (taxıl) və s.

H.Bußmann. Göstərilən əsəri, s. 760.

СИНЕСТЕЗИЯ – alm. Synästhesie (f), ing. synesthesia /sınıs'θi:zıə/, fr. synesthésie, azərb. sinesteziya. – Müxtəlif hissetmə (iybilmə, görmə, eşitmə, dad bilmə, toxunma və s.) formalarının üst-üstə düşməsi prosesi. Bunun nəticəsində rəng eşidilir, ton isə görünmür. Məs.: yumşaq səs (lamisə), ilıq (istiliyin hiss edilməsi), kəskin (tam), qaranlıq (görmə). Bu da əsasən metafora kimi yayılıb.

H.Bußmann. Göstərilən əsəri, s. 760.

СИНАПСИЯ – alm. Synapsie (f), ing. synapse /'saınæps/, synapsis /'saınæpsıs/sı'nɑpsıs/, fr. synapsie, azərb. sinapsiya. – Fransız dilçisi E.Benvenistin (1902-1976) sintaktik cəhətdən bir-birinin dalınca gələn leksemlərin mənasını bildirmək üçün işlətdiyi termin. Bu zaman təyin edən söz təyin edilən sözdən qabağa keçir. Məs.: fr. d. /machine a condre/ (tikiş maşını), /arc – en - ciel/ (göy qövsü).

E.Benveniste. Göstərilən əsəri.

СИНЕРГЕТИЧЕСКАЯ ЛИНГВИСТИКА – alm. synergetische Linguistik (f), ing. synergistic linguistics /sınə'ʤıstık lıŋ'gwıstıks/, fr. linguistique synergéti, azərb. sinergetik dilçilik. – Bu elm sahəsi elə nəzəri modellərdən bəhs edir ki, onlar müəyyən strukturların spontan olaraq əmələ gəlməsi və inkişafı ilə məşğul olurlar. Son illərin tədqiqatları göstərir ki, kvantativ dilçilikdə qəbul olunmuş funksional-analitik modellər sinergetikanın fənlərarası çərçivəsində uğurlu ola bilər. Sinergetika özü nizamlanan və özü təşkil olunan fenomenləri təsadüflə zərurət arasında qarşılıqlı əlaqənin nəticəsi kimi şərh edir. Digər özü təşkil olunan sistemlər kimi dil də birgə və rəqabətdə olan proseslərin mövcud olması ilə ətraf aləmdən dilə təsir edən (psixoloji, bioloji, fiziki, sosioloji və s.) qüvvələrin köməyilə sistemin dinamikliyini təmin edir. Burada tabe-

etmə və təşkiletmə parametrləri mühüm rol oynayır. Sonuncular makroskopik vahidlər olmaqla mikroskopik mexanizmlərin davranışını müəyyən etsələr də, özləri bu səviyyədə təmsil olunmurlar. Modelləşmə zamanı tədqiqat obyektinin məlum və ya güman edilən mexanizm və proseslərdən çıxış edirlər və onu riyazi yolla ram edirlər. Proseslərlə onların fövqündə duran düzənlənən parametrlər arasındakı əlaqələrdən sistemin davranışı müəyyən edilir. Yeni strukturların yaranması imkanı (dildəki dəyişiklik, təkamül və s.) əhəmiyyətli dərəcədə təkamül mühərrikini yaradan funksiyalardan asılıdır. Sistemin mümkün vəziyyətləri sistemdəki əlaqələr əsasında meydana gəlir ki, onlar də çərçivə qaydaları və düzüm parametrlərilə məhdudlaşır. Yalnız uyğunlaşan modellər rəqabətdə üstüstə düşür.

C.Altmann. Synergetische Aspekte der Linguistik. «ZS», 5, 1986, s. 253-265.

СИНКОПА - alm. Synkope (f), Ausstoßung (f), ing. syncope /'sıŋkəpı/, syncopation /'sıŋkə'peıʃ(ə)n/, fr. syncope, azərb. sinkopa. – Söz daxilində vurğusuz saitin düşməsi. Məs.: o. a. d. /obest/→ y. a. d. /Obst/ (tərəvəz); Azərb. d. /pərişan/→/pərşan/ və s.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 237.

СИНКОПИРОВАННЫЙ – alm. synkopiert, ing. syncopated /'sıŋkəpeıtıd/, telescoped /'teleskəpeıtıd/, fr. syncopé,-e, azərb. sinkopaya məruz qalmış.

Bax: Синкопа ←.

СИНКРЕТИЗМ – alm. Synkretismus (m), ing. syncretism /'sıŋkrıtız(ə)m/, fr. syncrétisme, azərb. sinkretizm. – Dildə tarixi dəyişmə, müxtəlif formaların üst-üstə düşməsi. Məs.: rus d. /кости/ (sümük) sözü 5 hal üçün eyni şəkildə mövcuddur: adlıq, yiyəlik, yönlyk, təsirlik (təkdə və cəmdə). Bəzən bunu morfoloji neytrallaşma kimi izah edirlər.

F.Veysəlli. SDƏ, I, s. 173.

СИНОНИМИКА – alm. Synonymie (f), ing. study of synonyms /'stʌdı əv 'sınənımz/, synonymy /sı'nɒnımı/, fr. synonymie, azərb. sinonimika. – Müxtəlif cür adlandırmada məna eyniliyi və oxşarlıq məsələlərini öyrənən elm sahəsi. Ümumi şəkildə sinonimlərin aşağıdakı növləri fərqləndirilir: a) tam sinonimlər. Məs.: Azərb. d. /O, sabah gələcək// və /O sabah gəlir//; b) qismən sinonimlər. Leksik səviyyədə tam sinonimlərin bütün kontekstlərdə denotativ və konnotativ mənaları üst-üstə düşür. Amma məsələyə bir az dərindən yanaşanda məlum olur ki, bu qeyri-mümkündür. Məs.: Azərb. d. /ağcaqanad-ditdili-mığmığa-hünü/ cərgəsindəki sözlər heç cür sinonim ola bilməzlər. Ancaq konstruksiyalarda bu qismən ola bilər. Məs.: Azərb. d. /kağız üçün qovluq-kağız qovluğu/ və s. Qismən sinonimlər müəyyən kontekstdə sinonim kimi çıxış etsələr də, digər kontekstlərdə bu mümkün olmur. Məs.: alm. d. /einen Brief bekommen/

və ya /erhalten/ (məktub almaq); ancaq /Schmerzen erhalten/ (ağrı almaq) demək olmaz.

Leksik sinonimliyi göstərmək üçün eyni kontekst daxilində sinonim leksemlərin əvəzlənməsi, distribusiya və komponent təhlili metodlarından istifadə olunur. Bu zaman geniş yayılmış ekvivalentlik munasibəti köməyə gəlir. Məs.: A_1 və A_2 ifadələri eyni sintaktik vəziyyətdə o zaman sinonim olurlar ki, A_1 və A_2 və A_2 A_1 –i ehtiva edir. Geniş mənada qrammatik və frazeoloji sinonimlik fərqləndirilir. Məs.: Azərb. d. /gözlərini əbədi yummaq/ - /bu dünya ilə vidalaşmaq/ və s. Sinonimlər cərgə əmələ gətirir və bü cərgədə sinonimlərdən biri daha çox işlənmə tezliyinə malik olduğu üçün ona dominant deyilir. O biriləri isə üslubi çalarlıqla bağlı olur və ya dialekt, alınma və s. sözü ola bilir. Müq. et: Azərb. d. /dilçilik-dilşünaslıq-linqvistika-dil haqqında elm/ və s.

H.Buβmann. Göstərilən əsəri, s. 764; M.İ.Adilov və b. Göstərilən əsəri, s. 237.

СИНОНИМЫ – alm. Synonyme (Pl.), ing. synonyms /ˈsınənımz/, fr. synonymes, azərb. sinonimlər. – Mənaca bir-birinə eyni və ya yaxın olan, eyni və ya oxşar denotatı ifadə edən, lakin üslubca və məna çalarlığına görə fərqlənən sözlərə sinonimlər deyilir. Sinonimlərin əsas növləri bunlardır: a) qrammatik və ya sintaktik. Məs.: Azərb. d. /Sabah Bakıya gedəcəyəm- gedəsiyəm-getməyəcəm/; b) mütləq sinonimlər. Məs.: Azərb. d. /nəm/, /yaş/ və s.; c) nisbi sinolnimlər. Məs.: Azərb. d. /baş/, /təpə/. /Başından/təpəsindən basmaq/. /Baş işlətmək/, ancaq /təpə işlətmək/ mümkün deyildir; ç) üslubi sinonimlər. Məs.: Azərb. d. /qaçmaq/-/əkilmək/-aradan /çıxmaq/-/aradan sivişmək/ və s.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 238.

СИНОНИМЫ АБСОЛЮТНЫЕ – alm. absolute Synonyme (Pl.), ing. absolute synonyms /ˈæbsəlu:t ˈsınənımz/, fr. synonymes absolus, azərb. mütləq sinonimlər.

Bax: Синонимы ←.

СИНОНИМЫ ГРАММАТИЧЕСКИЕ – alm. grammatische Synonyme (Pl.), ing. grammatical synonyms /grəˈmætık(ə)l ˈsınənımz/, fr. synonymes grammaticaux, azərb. qrammatik sinonimlər.

Bax: Синонимы ←.

СИНОНИМЫ ОТНОСИТЕЛЬНЫЕ – alm. relative Synonyme (Pl.), ing. relative synonyms /ˈrelətıv ˈsınənımz/, fr. synonymes relatifs, azərb. nisbi sinonimlər.

Bax: Синонимы ←.

СИНОНИМЫ СИНТАКСИЧЕСКИЕ – alm. syntaktische Synonyme (Pl.), ing. syntactic(al) synonyms /sınˈtæktık(ə)l ˈsınənımz/, fr. synonymes syntaxiques, azərb. sintaktik sinonimlər.

Bax: Синонимы ←.


СИНОНИМЫ СТИЛИСТИЧЕСКИЕ – alm. stilistische Synonyme (Pl.), ing. stylistic synonyms /staɪ'lɪstɪk 'sɪnənɪms/, fr. synonymes stylistiques, azərb. üslubi sinonimlər. – Sinonimlər cərgəsində bir sinonimin o birilərinə nisbətən konkret mətndə və ya məqamda işlənməsi. Məs.: rus d. /смотреть-глядеть-глазеть-взирать/: birinci iki söz arasında konseptual fərq var. Ruslar /внимательно смотреть/ (diqqətlə baxmaq), ancaq /рассеянно глядеть/ (fikiri dağınıq halda baxmaq) deyirlər. Deməli, /смотреть/ üslubi baxımdan neytraldır, /глядеть/ isə poetikdir. Yuxarıdakı cərgədə axırıncı iki söz emosional və konnotativ çalarlıq bildirir. /глазеть/ (göz qoymaq) kobudluq mənasındadır, /взирать/ isə (seyr etmək) mənasında bir az da ironiya çalarlığı daşıyır.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 121.

СИНТАГМА – alm. Syntagma (n), ing. syntagma /sɪn'tægmə/, syntagm /sɪn'tægm/ fr. syntagme, azərb. sintaqm. – Söyləmin fonetik və qrammatik bütöv kimi gerçəkliyin obyektiv inikası olan semantik parçaya bölünməsindən alınan vahid. Məs.: Azərb. d. /Qoca/ atlı Azərə yaxınlaşıb/ nəsə dedi//, /Qoca atlı/ Azərə yaxınlaşıb/nəsə dedi//.
F.Veysəlov (Veysəlli). Azərbaycan və alman dillərində sintaqm. «Azərbaycan məktəbi», Bakı, 1980, № 1, s. 37-40; F.Aslanov. Müasir alman və Azərbaycan dillərində cümlələrin sintaqmatik üzvlənməsi prinsipləri. Bakı, 2005.

СИНТАГМАТИКА – alm. Syntagmatik (f), ing. syntagmatics /sɪntæg'mætɪks/, fr. syntagmatique, azərb. sintaqmatika. – 1) Struktur dilçilikdə dil sisteminin müxtəlif səviyyəli vahidləri arasındakı əlaqələrin məcmusu; 2) Sintaqmatik səviyyədə dil vahidlərinin düz xətt boyunca düzülməsi qaydaları. Məs.: Azərb. d. /O (təkdə) kitab (qeyri-müəyyən təsirlik hal) yazır// (təkdə).
F.Yadigar (Veysəlli). GDG. s. 38-39.

СИНТАКСИС – alm. Syntax (f), ing. syntax /'sɪntæks/, fr. syntaxe, azərb. sintaksis. – Cümlə toplusunu öyrənən elm sahəsi. Söz birləşmələrindən tutmuş iri sintaktik bütövlərə qədər konstruksiyaların qurum qaydalarını öyrənən qrammatika bölməsi. Sözlər müəyyən qaydalar və modellər əsasında birləşir, bu zaman sintaktik modellər abstrakt səciyyə daşıyır. Yəni onun konkret leksik tərkibi daima dəyişir və hər bir model öz konkret ifadəsini danışıq aktında tapır. Azərb. d. /hündür ağac/ və /Ağac sındı// birləşmə qaydaları əsasında (birincidə 1-ci növ təyini söz birləşməsi, ikincidə isə mübtəda ilə xəbər əlaqələri əsasında) qurulmuş və danışığa daxil olmaqla əlaqələrin n-sayda birləşmə və konstruksiyalarda tətbiqini araşdırır. Son dövrlərdə sintaksis formal əlaqələrdən daha çox semantik aspekti və cümlə konstruksiyalarına sintaktik şərhlər verməyə meyllidir.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 219-220; N.Chomsky. Aspekts of the theory of sintax. Cambridge, 1965.

СИНТАКСИС АКТУАЛЬНЫЙ – alm. **aktuelle** Syntax (f), ing. actual syntax /'æktʃuəl 'sıntæks/, communicative syntax /kə'mju:nıkətıv 'sıntæks/ fr. syntaxe relevante (actuelle), **azərb.** aktual sintaksis. – Azərb. d. /Sabah mən kitabı ona göndərəcəyəm// cümləsini deyiliş məqamından qabaq baş verən hadisələrdən asılı olaraq (presuppozisiya) daha 4 variantda işlətmək mümkündür:
/Mən sabah ona kitabı göndərəcəyəm//, (başqa şeyi yox, məhz kitabı);
/Mən kitabı ona sabah göndərəcəyəm// (başqa vaxt yox, məhz sabah);
/Ona kitabı sabah mən göndərəcəyəm// (başqası yox, məhz mən);
/Mən kitabı sabah ona göndərəcəyəm// (başqasına yox, məhz ona).
Formal sintaktik struktur baxımdan bu cümlələrin bütöv beş variantı üçün vahid formula ilə açılışı belə olacaq:



M – mübtəda
X – xəbər
T – tamamlıq
Z – zərf.
Burada leksik tərkib və verilən məlumat faktiki olaraq eyni olsa da, bu variantlar ötürülən məlumatın aktuallığı baxımından fərqlidirlər. Hər dəfə aktual məlumat həm söz sırası, həm də vurğu ilə cümlənin xətti dinamikasını köklü şəkildə dəyişir. Cümlədəki bu dinamikliyi göstərmək üçün V.Matezius (1882-1945) aktual üzvlənmə nəzəriyyəsini işləyib hazırladı. Bu nəzəriyyəyə əsasən, cümlədə «yeni», «nüvə» və ya «rema» anlayışları «məlum», «tema» anlayışlarına qarşı qoyulur. Məlum çıxış nöqtəsidir. Müzakirə zamanı danışan deyir ki, /Sabah mən kitabı.../. Hər dəfə məlum cümlənin başlanğıcında yer alır.
/Ona... kitabı... sabah... mən,.. göndərəcəyəm/ cümlədə isə yeni kimi götürülür, ötürülən informasiyanın nüvəsidir, remasıdır.
Bəzən cümlə bütövlükdə yeni ola bilər. Məs.: /Biri vardı, biri yox idi, bir keçisaqqal kişi vardı/ və s. Sabit söz sırası olan dillərdə, məs.: alm. d. /Es/ formal mübtədası feldən qabaq gəlir, ancaq əsas mübtəda keçir feldən sonraya. Müq. et: /Es war einmal ein König// (Biri vardı, biri yoxdu, bir kral vardı).

Tema qabaqda gələrsə bu obyektiv söz sırası adlanır. Məs.: Azərb. d. /Katibənin adı Ruhəngizdir//. Bu zaman məlumdan naməluma doğru getməklə cümlənin mənası asan başa düşülür. Subyektiv söz sırası isə yeninin cümlə əvvəlinə keçməsi deməkdir. Məs.: Azərb. d. /50 manat mən ayaqqabıya vermərəm//. Aktual məlumatın verilməsində intonasiya, söz

sırası, ədatlar, əvəzliklər, artikl, cümlə konstruksiyasında aktiv-passiv əlamətləri və s. iştirak edir.
В.Матезиус. О так называемом актуальном членении предложения. Пражский лингвистический кружок. М., 1967, s. 244; K.M.Abdullayev. Azərbaycan dili sintaksisinin nəzəri məsələləri. Bakı, 1998.

СИНТАКСИС ВНЕШНИЙ – alm. äußere Syntax (f), ing. external syntax /eks'tɜ:n(ə)l 'sıntæks/, fr. syntaxe extérieure, azərb. xarici sintaksis. – Birləşmə və cümlələrin struktur xüsusiyyətlərini öyrənən sintaksis bölməsi.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 220.

СИНТАКСИС ВНУТРЕННИЙ – alm. innere Syntax (f), ing. internal syntax /ın'tɜ:n(ə)l 'sıntæks/, fr. syntaxe intérieur, azərb. daxili sintaksis. – Söz və söz qruplarında sintaqmatik əlaqələri öyrənən bölmə.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 220.

СИНТАКСИС СТИЛИСТИЧЕСКИЙ – alm. stilistische Syntax (f), ing. stylistic syntax /staı'lıstık 'sıntæks/, fr. syntaxe de style, (stylistique), azərb. üslubi sintaksis. – Müxtəlif sintaktik konstruksiyaların çeşidli məna çalarlıqlarının ifadəsindən istifadəni öyrənən bölmə.
О.С.Ахманова. Göstərilən əsəri, s. 409.

СИНТАКСИЧЕСКИЙ – alm. syntaktisch, ing. syntactic /sın'tæktık/, syntactic(al) /sın'tæktık(əl)/, fr. syntaxique, azərb. sintaktik.
Bax: Синтаксис ←.

СИНТАКСИЧЕСКИЙ АНАЛИЗ – alm. syntaktische Analyse (f), ing. syntactic analysis /sın'tæktık ə'næləsıs/, fr. analyse syntaxique, azərb. sintaktik təhlil. – Danışıq aktının qurulması və qəbul edilməsi xüsusiyyətlərini, cümlələrin formal və məzmun özəlliklərini, alt və üst qat xüsusiyyətlərini, onların tiplərini, üzvlənməsini və təsnifini həyata keçirən təhlil.
А.А.Реформатский. Göstərilən əsəri,

СИНТАКТИКА – alm. Syntaktik (f), ing. syntactics /sın'tæktıks/, fr. syntactique, azərb. sintaktika. – İşarə nəzəriyyəsində işarələrin birləşmə xüsusiyyətlərini öyrənən sahə.
F.Yadigar (Veysəlli). GDG. s. 38.

СИНТЕЗ – alm. Synthese (f), ing. synthesis /'sınθısıs/, fr. synthèse, azərb. sintez. – Ən kiçik vahidlərin daha böyük vahidlərdə birləşməsi yollarını müəyyənləşdirən təhlil üsulu. Məs.: Azərb. d. /duz/ və /suz/ morfemlərindən /duzsuz/ leksemini düzəldirik.
О.С.Ахманова. Göstərilən əsəri, s. 411.

СИНТЕТИЗМ – alm. synthetischer Sprachbau (m), ing. synthetism /'sınθıtısm/, fr. synthétisme, azərb. sintetizm. – Cümlədə sintaktik əlaqələri sözdəki morfoloji əlamətlərlə müəyyənləşdirən təsnifat növü. A.Şlegel (1767-1845) bu yolla dilləri flektiv, affiksli və amorf olmaq üzrə üç yerə

bölürdü. Sintetik formaların üstünlük təşkil etdiyi dillər sintetik dillər adlanır. Sintetizm anlayışı ilk növbədə qrammatik göstəricilərin ifadəsi olan formantlar əsasında sıx birləşdiyi morfoloji formalara aid edilir. XIX əsrin dilçiləri sintetik (flektiv) dilləri daha mükəmməl hesab edirdilər; fleksiyanın parçalanması nəticəsində analitik dillər əmələ gəlmişdir. XX əsrin əvvəllərində isə buna əks nöqteyi-nəzər (O.Yespersen) inkişaf etməyə başladı: sintetizm analitizmlə müqayisədə daha qədimdir, bütün dillər sintetizmdən analitizmə doğru inkişaf edirlər. Lakin saf analitik və sintetik dil yoxdur, istənilən dil analitizmlə sintetizmi özündə birləşdirir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 445.

СИНТЕТИЧЕСКИЕ ЯЗЫКИ – alm. synthetische Sprachen (Pl.), ing. synthetic(al) languages /sɪn'θetɪk(əl) 'læŋgwɪʤɪz/, fr. langues synthétiques, azərb. sintetik dillər. – Qrammatik göstəricisi sözlə ifadə olunan dillər. Qədim yunan, latın, qot, litov, alman, rus və s. dillər bu qəbildəndirlər.
A.A.Реформатский. Göstərilən əsəri. s. 445.


СИНХРОНИЯ – alm. Synchronie (f), ing. synchronism /'sɪŋkrənɪzm/, fr. synchronie, synchronisme, azərb. sinxroniya. – Zaman ardıcıllığında bir kəsim. Dilə yanaşmada bu bəzən bir neçə yüz ili əhatə edir. Məs.: alm. d-nin tarixi bu baxımdan 3 böyük dövrə bölünür: qədim alman dili dövrü (VIII-XI ə.); orta alman dili dövrü (XII-XVI ə.); yeni alman dili dövrü (XVII- hal-hazırkı dövr).
B.M.Жирмунский. История немецкого языка. M., 1965.

СИНХРОННЫЙ МЕТОД – alm. synchronische Methode (f), ing. synchronic method /'sɪŋkrənɪk 'meθəd/, fr. méthode synchronique, azərb. sinxron metod. – F. de Sössürün adı ilə bağlı olan bu metod dili konkret bir zaman daxilində fəaliyyət göstərən işarələr kimi götürür, dildəki hər bir dəyəri (valuer) dəyərlər sisteminə nisbətdə araşdırır və, beləliklə, onların bir zaman kəsiyində əlaqələrini öyrənir. Dilin sinxron, deskriptiv təsviri onun strukturundakı bütün digər elementləri işığında araşdırır və münasibətlər sistemində hər bir dil vahidinin yeri müəyyənləşdirilir. Bununla da sinxron yanaşma diaxron yanaşmadan köklü şəkildə fərqlənir. Lakin E. Koseriu son illərdə göstərməyə çalışır ki, onların təmiz şəkildə qarşılaşdırılması özünü doğrultmur. Məs.: alm. d. /haben/ feli indiki zamanda təsvir olunanda II şəxsin təkində kökündəki /b/ samitini itirir. Sinxron yanaşma bunu açmaqda acizdir. Diaxron yanaşma isə göstərir ki, tarixən /han/ və /haben/ felləri olmuş, tarixi inkişaf prosesində bu fellər birləşmiş və /haben/ şəklinin almışdır. Ancaq indiki zamanda bircə formada – ikinci şəxsin təkində /han/ özgürlüyünü saxlaya bilmişdir.
A.A.Реформатский. Göstərilən əsəri.; F.Yadigar (Veysəlli). GDG. –

СИРИЙСКИЙ ЯЗЫК – alm. Syrisch (n), ing. Syrian language /sɪrɪən 'læŋgwɪʤ/, fr. langue syrienne, azərb. suriya dili.
Bax: Арамейские языки ←.


СИРИЙСКОЕ ПИСЬМО – alm. syrische Schrift (f), ing. Syrian writing /sırıən 'raıtıŋ/, fr. écriture syrienne, azərb. suriya yazısı. – Finikiya-aramey yazısının bir növüdür. 22 işarədən ibarətdir və Finikiya yazısındakı ardıcıllıqla düzülmüşdür. Sağdan sola yazı növüdür.

Suriya yazı növləri




СИСТЕМА – alm. System (n), ing. system /'sıstım/, fr. système, azərb. sistem. – Müxtəlif elementlərin qarşılıqlı bağlılığına, bir-birindən asılılığına və bir-birini tamamlamağına əsaslanan çoxluğu. Sistem vahidləri və onlar arasındakı əlaqələr daim təkrar olunur və yeni-yeni söyləmlərin yaranmasına imkan verir. Dil, sistemin onun daxili laylarının (səviyyələrinin) elementləri və bu elementlər arasındakı mövcud olan əlaqələrin məcmusudur.

Dil sistemini əyani şəkildə belə göstərmək olar:



Ю.С.Маслов. Göstərilən əsəri, s. 8; F.Yadigar (Veysəlli) GDG, s. 222-224.

СИСТЕМА ГЛАСНЫХ – alm. Vokalsystem (n), ing. vowels system /'vaʊəlz 'sıstım/, fr. système des voyelles, azərb. saitlər sistemi. – Dildəki saitlərin qarşılıqlı əlaqələri əsasında təşkil edilən çoxluğu. Məs.: Azərb. d. 9 sait var. Onlar fərqləndirici əlamətlərlə daxildə bir-birilə bağlı sistem yaradır. Bu bağlılıq özünü onların relevant əlamətlərinə və danışıq aktında bir-birini izləyə bilib-bilməməsində büruzə verir. Bunu biz aşağıdakı kimi göstərə bilərik:



F.Veysəlli. SDƏ, I, s. 144-147.

СИСТЕМА ЗВУКОВАЯ – alm. Lautsystem (n), ing. sound (phonetic) system /saʊnd /fəʊ'netɪk'sɪstɪm/, fr. système phonétique, azərb. səs sistemi. Bax: Фонемная система →.

СИСТЕМА СЕМИОЛОГИЧЕСКАЯ – alm. semiologisches System (n), ing. semiologic system /sɪ:mɪ' ɒlədʒɪk, sɛmɪ- sɪstɪm/, fr . système sémiologique, azərb. semioloji sistem.

Bax: Семиотика ←.

СИСТЕМА СОГЛАСНЫХ – alm. Konsonantensystem (n), ing. system of consonants /'sɪstɪm əv 'kɒnsənənts/, consonant system /'kɒnsənənt 'sɪstɪm/, fr. système des consonnes, azərb. samitlər sistemi. – Dildə samitlər də saitlər kimi ayrıca bir yarımsistem yaradır. Samitlər sistemi bir tərəfdən sistemdaxili relevant əlamətlərlə (karlıq/cingiltilik, əmələ gəlmə üsulu, fəal üzvə görə və s.), digər tərəfdən isə distributiv və fonotaktik xüsusiyyətlərinə görə səciyyələnir. Məs.: alm. d. cingiltili samitlər morfem və söz sonunda gələ bilmirlər, cingiltili samitlər karlarla qonşuluqda işlənmirlər və s.

F.Vejsälli. Einführung in die Phonologie. Baku, 2004.

СИСТЕМА ФОНОЛОГИЧЕСКАЯ – alm. phonologisches System (n), ing. phonologic(al) (phonemic) system /ˌfəʊnələdʒɪk(əl)/fəʊ'ni:mɪk/ 'sɪstɪm/, fr. système phonologique, azərb. fonoloji sistem.

Bax: Фонологическая система →.

СИСТЕМА ЯЗЫКОВАЯ – alm. Sprachsystem (n), ing. system of language /'sɪstɪm əv 'læŋgwɪdʒ/, fr. système linguistique, azərb. dil sistemi.

Bax: Система ←.

СИСТЕМАТИКА – alm. Systematik (f), ing. systematics /sɪstə'mætɪks/, fr. systématique, azərb. sistematika. – Elmi-nəzəri araşdırmalar nəticəsində işlənib hazırlanmış əlamətlər əsasında dil vahidlərinin və ya alınan nəticələrin qruplaşdırılması, nizamla sıralanması. Məs.: dilin fonoloji sistemi aşağıdakı kimi ümumiləşdirilə bilər. Sistem iki yarımsistemdən ibarətdir: 1) seqment vahidlər sistemi (saitlər, samitlər); 2) superseqment vahidlər sistemi (ton, vurğu, intonasiya, prosodiya) və s.

Ф.Вейсалов. О просодике в азербайджанском языке. BSU-nun «Elmi əsərləri», Dil və ədəbiyyat seriyası, №1,2, Bakı, 2005, s. 3-9.

СИТУАТИВНЫЙ – alm. situativ, ing. situation /sɪtjʊeɪʃ(ə)n/, fr. situation, azərb. situativ. Bax: Ситуация→.

СИТУАЦИЯ – alm. Situation (f), ing. situation /ˌsɪtʃʊˈeɪʃən/,sɪtjʊˈeɪʃ(ə)n/, fr. situation, azərb. şərait, məqam. – Danışığın baş tutduğu məqam, danışanın və dinləyənin ünsiyyətdə olduğu zaman və məkan real gerçəkliyə uyğun olaraq yarandığı an. Məs.: Azərb. d. /Bu gün hava istidir//
J.Barwise, J.Perry. Situations and Attitudes. Cambridge, 1983.
СИТУАЦИЯ ВНЕЛИНГВИСТИЧЕСКАЯ – alm. außerlinguistische Situation (f), ing. extralinguistic situation /ekstrəˈlɪŋgwɪstik ˌsɪtʃʊˈeɪʃən/ ˌsɪtjʊˈeɪʃ(ə)n/, fr. situation extralinguistique, azərb. dilxarici şərait. – Danışıq aktının həqiqi gerçəkliyə yönəlməsi. Hava qaralan an alman deyir: /Es dunkelt/. Havanın qaralması gerçəkliyin inikası kimi dildə öz əksini tapır.
J.Barwise. The Situation in Logic, «CSLJ-Lecture Notes», Stanford, 1989.
СИТУАЦИЯ РЕЧЕВАЯ – alm. Sprechsituation (f), ing. speech situation /spi:tʃ ˌsɪtʃʊˈeɪʃən, ˌsɪtjʊˈeɪʃən/, fr. situation de la parole, situation langagiére, azərb. danışıq şəraiti (məqamı). – İnsanın hiss-həyəcan dolu danışığı onun keçirdiyi psixöloji vəziyyətin inikasıdır. Uzun bir yolla irəliləyən maşın sürücüsü deyəndə /Bizim yolumuz çox uzaqdır/ bu onun danışıq məqamındakı yaşantısının dildə konkret ifadəsidir.
J.Barwise. The Situation in Logic, «CSLJ-Lecture Notes», Stanford, 1989.
СИТУАЦИОННАЯ СЕМАНТИКА – alm. Situationssemantik (f), ing. situational or contextual semantics /ˌsɪtjʊˈeɪʃənəl ɔ: kɒnˈtekstjuəl sɪˈmæntɪks/, fr. sémantique situationnelle, azərb. şərait semantikası. – Təbii dillərdə mənanın şərait (situasiya) nəzəriyyəsinə əsasən açılışı. Bu semantika aşağıdakı əsas amillərdən bəhrələnir: a) əlamətlər və münasibətlər əsas anlayışlar kimi götürülür və çoxluq nəzəriyyəsindəki kimi başqa vahidlərdən quraşdırılmır; b) yalnız bir dünya var, gerçəkliklər dünyası, mümkün dünyalar çoxluğu yoxdur; c) düzgün söyləmlər ya bu dünyaya, ya da dünyanın şəraitlər adlanan tərkib hissələrinə aiddir; ç) deklarativ cümlənin mənası S onun tətbiq olunduğu ifadə olunan şərait tipi ilə o şəraitlərin aid olduğu və təsvir olunmalı tip arasındakı münasibətlərdir (Nisbi məna nəzəriyyəsi). Burada iki hal xüsusi qeyd olunmalıdır: 1) dilin səmərəliliyi, yəni eyni ifadə çoxlu sayda tətbiq edilə bilər və 2) Qismən baştutma, yəni natamamlıq və informasiyanın kontekstlə bağlı məhdudluğu.
J.Barwise. The Situation in Logic, «CSLJ-Lecture Notes», Stanford, 1989.
СИУ ЯЗЫКИ – alm. Siu-Sprachen (Pl.), ing. Siu, Siouan languages /ˈsu:ən ˈlæŋgwɪdʒɪz/, fr. langues suies, azərb. siu dilləri. – Şimali Amerikada yayılmış hindi dilləri ailəsi. Əsasən Amerikanın Karolina ştatında yayılmışdır. Bu dillərdə təqribən 70 minə qədər əhali danışır. Samitlər kar/cingiltil, nəfəsli/qeyri-nəfəsliyə görə bölünür. Siu dillərində saitlər əsasən iki qrupa bölünür: ağız (a, e, i, u, o) və burun /ã, ĩ, ũ/. Vurğu fonematik mahiyyətlidir. Açıq hecalar üstünlük təşkil edir. Morfoloji quruluşuna görə aqlütinativ dildir.
G.H.Matthews. Handbook of Siouan languages. Philadelfia, 1958.

СКАЗУЕМОЕ – alm. Prädikat (n), ing. predicate /'predıkeıt/, fr. prédicat, azərb. xəbər. – Felin şəxsə, cinsə və kəmiyyətə görə şəkilçi qəbul etməsi. Alm. və Azərb. d. fel şəxsə və kəmiyyətə görə uzlaşır. İng. d. indiki zamanda yalnız 3-cü şəxsin şəkilçisi var. Keçmiş zamanda ing. d. (qüvvətli) qaydalı və qaydasız fellər heç bir şəxs şəkilçisi qəbul etmir. Alm. d. həm qüvvətli, həm də zəif fellər ikinci şəxsin təkində və cəmində, 1-ci və 3-cü şəxsin cəmində şəxs sonluğu qəbul edir. Rus d. isə keçmiş sadə zamanda fel həm də cinsə görə şəkilçi qəbul edir. Azərb. d. isə bütün zamanlarda şəxs sonluqları vacibdir.

zaman / dillər	indiki zaman.	keçmiş zaman	gələcək zaman
ing. d.	I, you come we, they ask it, she, he-comes asks	I, you, we, they - came it, she, he - asked	I, will come you ------- it, he, she ---- they we shall come you shall ask
alm. d.	Ich frage, komme/ wir kommen, fragen du fragst, kommst/ ihr kommt, fragt er, sie, es fragt, kommt/ sie kommen, Sie fragen	Ich fragte/ wir kamen du kamst, fragtest/ ihr kamt, fragtet/ er, sie, es kam, fragte/ sie fragten, Sie kamen, fragten	Ich werde / wir werden fragen du wirst / ihr werdet fragen Er, sie, es wird / sie werden, Sie werden fragen
rus d.	Я читаю. Мы читаем Ты читаешь, Вы читаете Он /она/ оно читает, Они читают	Я читал(а) Мы читали Ты читал(а) Вы читали Он читал, Она читала Оно читало Они читали	Я прочту/ буду читать Ты прочтешь/ будешь читать Вы будете читать Он/она/оно прочтет Они будут читать
Azərb. d.	Mən oxuyuram, Sən oxuyursan/ Biz oxuyuruq, Siz oxuyursunuz O oxuyur/ Onlar oxuyurlar	Mən oxudum /oxumuşam Sən oxumuşdun / Biz oxuduq Siz oxudunuz O oxudu /oxumuşdu/ Onlar oxudular/ oxumuşdular	Mən oxuyacam Sən oxuyacaqsan Biz oxuyacağıq Siz oxuyacaqsınız O oxuyacaq/ Onlar oxuyacaqlar

H.Glinz. Göstərilən əsəri; M.Hüseynzadə. Göstərilən əsəri, s. 207-209.

СКАЗУЕМОЕ АДЪЕКТИВНОЕ – alm. prädikatives Adjektiv (n), ing. adjectival predicate ./ædʒek'taıv(ə)l 'predıkeıt/, fr. prédicat adjectival,

azərb. təyini xəbər. – Sifətin xəbər şəkiçisi və ya köməkçi fellə birlikdə predikativ rolunda çıxış etməsi. Məs.: Azərb. d. /Onun gözləri qapqara idi//. M.İ.Adilov və b. Göstərilən əsəri, s. 270.

СКАЗУЕМОЕ БЕЗЛИЧНОЕ – alm. unpersönliches Prädikat (n), ing. impersonal predicate /ɪm'pɜ:sənəl 'predɪkeɪt/, fr. prédicat impersonnel, azərb. şəxssiz xəbər. – Mübtədası formal olan və ya tamamilə olmayan cümlə. Məs.: Azərb. d. /Səhərdir/, /Uşağı yatırtmaq lazımdır//. M.İ.Adilov və b. Göstərilən əsəri, s. 270.

СКАЗУЕМОЕ ГЛАВНОЕ – alm. Hauptprädikat (n), verbales Prädikat (n), ing. verbal predicate /'vɜ:bəl 'predɪkeɪt/, fr. prédicat principal, azərb. əsas (baş) xəbər. – Fellə ifadə olunmuş xəbər. Məs.: Azərb. d. /Qardaşım universitetdə oxuyur, həm də axşamlar idmanla məşğul olur//. M.Hüseynzadə. Göstərilən əsəri, s. 207-209.

СКАЗУЕМОЕ ГЛАГОЛЬНОЕ – alm. verbales Prädikat (n), ing. verbal predicate /'vɜ:bəl predɪkeɪt/, fr. prédicat verbal, azərb. feli xəbər. – Xəbəri fellə ifadə olunan cümlə. Məs.: Azərb. d. /Onlar hər il beləcə əkib-biçirlər//. M.Hüseynzadə. Göstərilən əsəri, s. 207-209.

СКАЗУЕМОЕ ГЛАГОЛЬНОЕ ПРОСТОЕ – alm. einfaches verbales Prädikat (n), ing. simple verbal predicate /'sɪmpl 'vɜ:bəl 'predɪkeɪt/, fr. prédicat verbal simple, azərb. sadə feli xəbər. – Yalnız sadə fellə ifadə olunan xəbər. Məs.: Azərb. d. /O dinləyir, dinlədikcə sevinir//. M.Hüseynzadə. Göstərilən əsəri, s. 207-209.

СКАЗУЕМОЕ ГЛАГОЛЬНОЕ СОСТАВНОЕ – alm. zusammengesetztes verbales Prädikat (n), ing. simple compound predicate /'sɪmpl 'kɒmpaʊnd 'predɪkeɪt/, fr. prédicat verbal composé, azərb. feli tərkibli xəbər. – Mürəkkəb fellə və ya feli tərkib vasitəsilə ifadə olunan xəbər. Məs.: alm. d. /Diese Fehler bleiben haften// (Bu səhvlər ilişib qalıblar). W. Admoni. Göstərilən əsəri, s. 156-207.

СКАЗУЕМОЕ ГЛАГОЛЬНО-ИМЕННОЕ – alm. verbal-nominales Prädikat (n), ing. verbal noun predicate /'vɜ:bəl naʊn 'predɪkeɪt/, fr. prédicat verbal nominal, azərb. feli-ismi xəbər. - Tərkibi feli-ismi xəbərlə ifadə olunan xəbər. Məs.: Azərb. d. /Sən həyəcanlı olsan da, gərək gətirə idin//. M.Hüseynzadə. Göstərilən əsəri, s. 207-209.

СКАЗУЕМОЕ ИМЕННОЕ – alm. nominales Prädikat (n), ing. nominal /'nɒmɪn(ə)l/, nominative predicate /'nɒmɪnətɪv 'predɪkeɪt/, fr. prédicat nominal, azərb. ismi xəbər. – İsim, sifət, say, əvəzlik, ismi sifət, təyini söz birləşmələrilə ifadə olunan xəbər. Məs.: Azərb. d. /Onun əməyi böyükdür//, /Bu il bacımın qiymətləri beşdir//, /Onun ən çox istədiyi mənəm//. Alm. və ing. d. nominal xəbərin tərkib hissəsi kimi bir qism fel

çıxış edir. Müq. et: /He is a teacher// (O müəllimdir); alm. d. /Er scheint gut zu sein// (O yaxşı görünür) və s.
W. Admoni. Göstərilən əsəri, s. 215-235.

СКАЗУЕМОЕ ИМЕННОЕ ПРОСТОЕ – alm. einfaches nominales Prädikat (n), ing. simple nominal predicate /'sımpl 'nɒmn(ə)l 'predıkeıt/, simple nominative predicate /'simpl nɒ'mınətıv 'predıkit/, fr. prédicat nominal simple, azərb. sadə ismi xəbər. – Sadə isim, sifət, say, əvəzlik və ismi sifətlə ifadə olunan xəbər. Məs.: Azərb. d. /Əmim yarışlarda birincidir//, /Atamdan hələ də xəbər yoxdur// və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 319.

СКАЗУЕМОЕ ИМЕННОЕ СЛОЖНОЕ - alm. zusammengesetztes nominales Prädikat (n), ing. compound nominal predicate /'kɒmpaund 'nɒmn(ə)l 'predıkeıt/, fr. prédicat nominal complexe, azərb. mürəkkəb ismi xəbər. – Mürəkkəb adlarla və təyini söz birləşmələrilə ifadə olunan xəbər. Məs.: Azərb. d. /Ən çox sevdiyim şair M.Ə.Sabirdir//, /Avropa ölkələri içərisində sənayenin ən çox inkişaf etdiyi ölkə Almaniyadır//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 319.

СКАЗУЕМОЕ ПРОСТОЕ – alm. einfaches Prädikat (n), ing. simple predicate /'sımpl 'predıkeıt/, fr. prédicat simple, azərb. sadə xəbər. – Sadə və düzəltmə sözlərlə ifadə olunmuş xəbər. Məs.: Azərb. d. /O yazır//, /O şəkil çəkir//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 319.

СКАЗУЕМОЕ СЛОЖНОЕ – alm. zusammengesetztes Prädikat (n), ing. compound predicate /'kɒmpaund 'predıkeıt/, fr. prédicat complexe, azərb. mürəkkəb xəbər. – Cümlədə söz birləşmələri və mürəkkəb fel formaları ilə ifadə olunmuş xəbər. Məs.: Azərb. d. /Cəmil oxumağa başladı//, /Nədənsə müdir deyiləni başa düşmədi//.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 319.

СКАЗУЕМОГО СОСТАВ – alm. Bestand des Prädikats (m), ing. compound predicate /'kɒmpaund 'predıkeıt/, fr. prédicat personnel, azərb. xəbər tərkibi. – Kopulativ fel. Azərbaycan dilində /olmaq, deyil, idi, imiş/ və s. bağlamaları ilə müstəqil mənalı sözlərin birləşməsindən yaranan xəbər. Müq. et: Azərb. d. /O həyəcanlı idi//, /Çünki oldun dəyirmançı, çağır gəlsin dən Koroğlu// və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 319.

СКАНДИНАВИСТИКА – alm. Skandinavistik (f), ing. Scandinavian /skandı'neıvıən/, fr. études scandinaves, azərb. skandinavşünaslıq. – Skandinaviya ölkələrinin dilini, tarixini, mədəniyyətini öyrənən fənlər kompleksi.
R.Conrad. Göstərilən əsəri, s. 183.

СКАНДИНАВСКИЕ ЯЗЫКИ – alm. Skandinavische Sprachen (Pl.), ing. Scandinavian languages /ˌskæ(ɑ)ndɪˈneɪvjən ˈlæŋgwɪʤɪz/, fr. langues scandinaves, azərb. skandinav dilləri. – German dillərinin şimal yarımqrupu. Skandinav dillərinə danimark, isveç, norveç, island, farer dilləri aiddir. Əsasən Danimarkada (Farer adaları), İsveç, Finlandiyanın qərb hissəsində, Norveçdə və İslandiyada yayılmışdır. Bu dillərdə təqribən 20 milyona qədər əhali danışır. Bütün şimal dilləri runik yazılı qədim german dilinə yaxın olan qədim şimal dilinə əsaslanır (VIII əsrə qədər Vikinqlər dövründə bir neçə dialekt yarandı (VIII-XI əsr). XI əsrdən isə şimal dilləri yarandı. Onların yeni tarixi isə 1530-cu ildən bu yana İncilin tərcüməsilə başlandı. Dil baxımından 1391-ci ildən 1814-cü ilə qədər Norveçdə yazı dili Danimarka dililə sıxışdırıldı.

М.И.Стеблин-Каменский. История скандинавских языков. М.-Л., 1953.

СКИФСКИЙ ЯЗЫК – alm. Skythisch (n), ing. Scythian language /ˈsɪðɪənˈlæŋgwɪʤ/, fr. langue scythique, azərb. skif dili. – Qara dənizin şimal sahil boyunda yayılmış bütün skif-sarmat şivə və ləhcələrinin ümumi adı. Osetin dili skif dilinin xələfi hesab olunur.

В.И.Абаев. Скифский язык. М., - Л., 1949.

СКЛОНЕНИЕ – alm. Deklination (f), ing. declension /dɪˈklenʃ(ə)n/, fr. déclinaison, azərb. hallanma.

Bax: Парадигма падежа ←.

СКОБКИ – alm. Klammer (f), ing. bracket /ˈbrækɪt/, paranthesis /pəˈrenθɪsɪs/, fr. parenthèses, azərb. mötərizə. – Əksər hallarda yazıda şərh olunan fikrə və məlumata əlavə və izahatın mötərizəyə alınması. Məs.: Azərb. d. /Bu gün hava respublikamızda buludlu olacaq (məs.: Bakıda)//.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 172.

СКОЛЬЗЯЩИЙ ДИФТОНГ – alm. gleitender Diphthong (m), ing. sliding diphthong /slaɪdɪŋ ˈdɪfθɔŋ/, fr. diphtongue glissante, azərb. sürüşkən, enən diftonq. – İkinci komponenti zəif tələffüz olunan diftonq. Məs.: ing. d. /haʊs/ sözündə /aʊ/ diftonqunun birinci komponenti gərgin, heca nüvəsi yaradan səs kimi, ikinci [ʊ] komponenti isə zəif və heca nüvəsi əmələ gətirməyən ünsür kimi tələffüz olunur.

P.H.Matthews. Göstərilən əsəri, s. 99.

СКОПЛЕНИЕ – alm. Anhaüfung (f), ing. accumulation /əˌkju:mjʊˈleɪʃ(ə)n/, fr. accumulation, azərb. samit yığını. – Bir heca yuvasında bir neçə samitin yanaşı işlənməsi. Bu hind-Avropa dilləri üçün səciyyəvidir. Məs.: ing. d. /strɪ/ samit birləşməsi /street/ sözündə anlautda gəlir. Eləcə də alm. d. bir heca yuvasında 4, morfem qovuşuğunda isə 7 samit dalbadal gələ bilir. Müq. et: /ˈhɛʀpst/ (payız), /ˈhɛʀpstˌʃtra:sə / və s.

P.H.Matthews. Göstərilən əsəri, s. 99; F.Veysälli. Einführung in die Phonologie. Baku, 2004.


СКОРОГОВОРКА – alm. Zungenbrecher (m), ing. rapid speech /ræpɪd spi:tʃ/, tongue-twister /'tʌŋˌtwɪstə/, sputter /'spʌtə/, fr. précipitation des mots, azərb. yanıltmac. – Tələffüz vərdişlərini aşılamaq və ya mənimsəmək üçün eynitipli və ya oxşar səslərin ardıcıl gəlməsindən ibarət ifadə və ya söyləm. Məs.: Azərb. d. /... iki kar, kor, kürkü yırtıq kirpi var/; alm. d. /Fischer Fritz fischte frische Fische/ (Balıqçı Fris diri balıq tutardı).
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 130.

СКОРОПИСЬ – alm. Tachygraphie (f), ing. cursive (writing) /'kə:sɪv/'raɪtɪŋ/, fr. écriture cursive, logographie, azərb. cəldyazma, taziqrafiya. – Yazının sürətini artırmağa xidmət edən xətt, bir-birinə yapışdırmaqla çoxlu qısaltmaları olan yazı növü.
O.C.Ахманова. Göstərilən əsəri, s. 417.

СКРЕЩЕНИЕ – alm. Kreuzung (f), ing. crossing /'krɒsɪŋ/, fr. croisement, azərb. çarpazlaşma.
Bax: Скрещение языков →.

СКРЕЩЕНИЕ ЯЗЫКОВ – alm. Sprachkreuzung (f), ing. crossing languages /'krɒsɪŋ 'læŋgwɪʤɪz/, fr. croisement des langues, azərb. dillərin çarpazlaşması. – Dillərin çarpazlaşması nəticəsində kreol dillərin yaranması. Köməkçi dil kimi ticarətdə işlənən picin dili. Məs.: portəgəz dilinə əsaslanan sabir dili islam dünyası ilə ticarətdə geniş işlənir. Picin dili sonralar ing. və fr. d-nin istifadəsi nəticəsində Sakit okean hövzəsində və Qərbi Afrikada geniş yayıldı. Kreol dili ünsiyyətə girənlərin ana dilinə çevrilmiş picin dilidir. Məs.: Papua (Yeni Qvineyada) ing. d-nə əsaslanan picin dili ölkənin birinci dilinə çevrilən kreol dildir.
C.Finch. Linguistic Terms and Concepts. Linguistic Terms and Concepts. N.-York, 2000, s. 229-232.

СКРЫТЫЙ – alm. implizit, ing. secret /'sɪ:kri:t/, concealed /kən'si:ld/, latent /'leɪtənt/, fr. dissimulé,-e, caché,-e, latent,-e, azərb. gizli. – Heç bir linqvistik göstəricisi olmamasına baxmayaraq müəyyən qrammatik mənanın ifadəsinə xidmət edən. Məs.: ing. d. cinsin öz göstəricisi yoxdur, yalnız mətndə açılır. Müq. et:



P.H. Matthews. Göstərilən əsəri, s. 81.

СЛАБОЦЕНТРАЛИЗУЮЩЕЕ УДАРЕНИЕ – alm. schwachzentralisierende Betonung (f), ing. weak centralize stress /wi:k 'sentrəlaɪz stres/, fr. accent faiblement centralisé, azərb. zəifmərkəzləşdirici vurğu. – Vurğulu heca ilə vurğusuz heca arasındakı fərqin aydın şəkildə ifadə olunmaması. Məs.: Azərb. d. alınma sözlərdə birinci hecadakı sait yarım-

uzun tələffüz olunduğundan, o, sonra gələn hecadan o qədər də seçilmir.

Müq. et: /ali´m/, /adə´m/ və s.
F.Veysəlli. SDƏ, I, s. 103-121.

СЛАБЫЙ – alm. schwach, ing. weak /wi:k/, fr. faible, azərb. zəif. – Vurğusuz hecalarda saitlərin zəif tələffüzü. Məs.: Azərb. d. /dʏzdʏrʏldi/ sözündə /ü/ saiti əvvəlki iki hecada çox zəif tələffüz olunr. O hətta danışıq zəncirindən düşür.
F.Veysəlli. SDƏ, I, s. 103-121.

СЛАБАЯ АРТИКУЛЯЦИЯ – alm. schwache Artikulation (f), ing. weak articulation /wi:k ɑ:ˌtɪkju'leɪʃ(ə)n/, fr. articulation faible, azərb. zəif tələffüz.
Bax: Слабый ←.

СЛАБАЯ ПОЗИЦИЯ - alm. schwache Position (f), ing. weak position /wi:k pə'zɪʃən/, fr. position faible, azərb. zəif mövqe.
Bax: Позиция ←.

СЛАБОЕ УДАРЕНИЕ – alm. schwache Betonung (f), ing. . weak stress /wi:k stres/, fr. accent faible, azərb. zəif vurğu. – Mürəkkəb sözlərdə əsas vurğu daşımayan komponentin vurğusu. Məs.: alm. d. /Tischtuch/ Sözündə ikinci komponent zəif vurğuludur.
F.Vejsalov (Vejsälli). Lehrbuch der deutschen Phonetik. Baku, 1989, s. 194.

СЛАВИСТИКА – alm. Slawistik (f), ing. Slavonic philology /slə'vɒnɪk fɪ'lɒlədʒɪ/, Slavonic studies /slə'vɒnɪk 'stʌdɪz/, fr. études, slaves, azərb. slavyanşünaslıq. – Slavyan dilli xalqların tarixini, mədəniyyətini və dillərini öyrənən elm sahəsi.
А.В.Исаченко. Грамматический строй русского языка в сопоставлении со словацким. Братислава, 1960.

СЛАВЯНИЗМЫ – alm. Slawismen (Pl.), ing Slavisms /slə'vɪzms/, fr. slavismes, azərb. slavyanizmlər. – Slavyan dillərindən başqa dillərə keçmiş sözlər. Məs.: rus d. /совет/, fr. d. /sɔvjɛt/, ing. d. /souviet/ və ya /'səvɪət/, alm. d. /zo:vjɛt/ və ya /zɔvjɛt/ kimi işlənir. Rus dilindəki /v´/ samiti o biri dillərdə ya /vj/ samit birləşməsi kimi, ya da /vi/ birləşməsi Kimi tələffüz olunur.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 258.

СЛАВЯНСКИЕ ЯЗЫКИ – alm. slawische Sprachen (Pl.), ing. Slavic /'slævɪk/, Slavonic languages /slə'vɒnɪk 'læŋgwɪʤɪz/, fr. langues slaves, azərb. slavyan dilləri. – Hind-Avropa dillərinin bir qoludur. Baltik dillərinə yaxın olduğundan onları bəzən baltik-slavyan dilləri də adlandırırlar. Onlar arasında fonoloji-morfoloji-leksik oxşarlıqların olması fikri tez-tez səslənir. Slavyan dilləri 3 yerə bölünür: 1) şərqi slavyan dilləri: rus (145 milyon), belarus (15 milyon), ukrayn (35 milyon); 2) qərbi slavyan dilləri:

polyak (34 milyon), çex (10 milyon), slovak (5 milyon), serb (100 min); cənubi slavyan dilləri: bolqar (9 milyon), makedon (2 milyon), xorvat, sloven (2,1 milyon) dilləri. Qərbi slavyan dillərinə həmçinin bir neçə min əhalinin danışdığı kasıb dili də aiddir. Ortodoks ibadət dili Kimi qədim kilsə slavyan dili (qədim slavyan və ya bolqar) müxtəlif variantlarda mövcuddur. Əsas əlamətləri: əksər slavyan dillərində fellər imperfektiv və perfektiv olaraq iki yerə bölünür. Bitmiş tərz əsasən ön şəkilçilərilə düzəlir.
F.Yadigar (Veysəlli). GDG, s. 105; А.А.Реформатский. Göstərilən əsəri, s. 414-416.

СЛЕНГ – alm. Slang (n), ing. slang /slæŋ/, fr. slang, azərb. slənq. – Adi danışıq dilində sosial və bölgə çalarlı kobud və zarafat mənasında işlənən söz və ifadə. Bu, peşə, sənət sahələrində və sosial zümrələrin, gənclərin işlətdiyi xüsusi leksikondur. İlkin olaraq bu, danışığın mənasını gizli saxlamaq məqsədi güdürdü. Məs.: ing. d. /nod/ (şişka) və /biq noice/ (vacib persona).
И.В.Арнольд. Лексикология английского языка. М., 1959, s. 264-270.

СЛИТНЫЕ СЛОВА – alm. zusammengesetzte Wörter (Pl.), ing. fused words /fju:zd wɜ:dz/, connected words /kə'nektɪd wɜ:dz/, fr. mots conjoints, azərb. bitişik sözlər. – Mürəkkəb sözlər bitişik yazılır. Məs.: Azərb. d. /kəndxuda/; alm. d. /Gasherd/ (qaz sobası); ing. d. /blackboard/ (qara lövhə); rus d. /водопровод/ (su kəməri) və s.
Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili (fonetika, orfoqrafiya, orfoepiya). Bakı, 1972, s. 266-307.

СЛИТНЫЕ СОГЛАСНЫЕ – alm. zusammengesetzte Konsonanten (Pl.), Affrikaten (Pl.), ing. connected consonants /kə'nɛktɪd 'kɒnsənəntz/, fr. consonnes conjoints, azərb. bitişik samitlər. – Bu samitlərə, bir qayda olaraq, dilçilikdə afrikatlar deyirlər. Alm. d. 3, ing. d. 2, rus d. 2, Azərb. d. 2 afrikat var. Müq et: alm. d. /t͡ʃ/, /p͡f/, /t͡s/; rus d. /ц/, /ч/; ing. d. /d͡ʒ/, /t͡ʃ/; Azərb.d. /d͡ʒ/, /t͡ʃ/.
F.Yadigar (Veysəlli). GDG, s. 226-229.

СЛИТНЫЙ – alm. zusammengesetzt, ing. joint /d͡ʒɔɪnt/, fusion /'fju:ʒ(ə)n/, combined /kəm'baɪnd/, fr. uni, lié,-e, azərb. bitişik.
Bax: Слитные слова ←.

СЛИЯНИЕ – alm. Fusion (f), ing. confluence /'kɒnfluəns/, junction /'d͡ʒʌŋkʃən/, amalgamation /əˌmælgə'meɪʃən/, fr. union, fusionnement, fusion, azərb. bitişmə. – Müəyyən mərhələdə ayrı-ayrı dil vahidlərinin birləşib bir bütöv kimi çıxış etməsi. Məs.: ing. d. «fly» /flʌi/ və /er/ /ə/ birləşib /flyer/ sözünü yaradıb. Ancaq ing. d. /ʌi/ və /ə/ birləşərək uzun /a:/ saitini əmələ gətirib. Məs.: /fla:/.
P.H. Matthews. Göstərilən əsəri, s. 140.

СЛИЯНИЕ ГЛАСНЫХ – alm. Vokalfusion (f), ing. vowel junction /'vaʊəl 'dʒʌŋkʃən/, fr. fusion des voyelles, azərb. saitlərin bitişməsi. – İki müxtəlif saitin bir saitdə birləşməsi. Məs.: orta dövr alm. d. /uo/ sait birləşməsi yeni dövr alman dilində uzun /u:/ saitində birləşdi. Müq. et: alm. d. /guot/ - /gut/ (yaxşı).
F.Yadigar (Veysəlli). GDG, s. 140.

СЛИЯНИЕ ЯЗЫКОВ – alm. Sprachmischung (f), Sprachfusion (f), ing. junction of languages /'dʒʌŋkʃən əv 'læŋgwɪdʒɪz/, fr. fusions des langues, azərb. dillərin birləşməsi, qovuşması. – Dillərin bütün səviyyələrində qarşılıqlı təsiri nəticəsində birləşməsi və yeni calaq dilin yaranması. Məs.: kreol dillər, Melaneziyada pidgin ingilis dili, Aralıq dənizində sabir və Lingua franca və s.
R.Conrad. Göstərilən əsəri, s. 245.

СЛОВА-БЛИЗНЕЦЫ – alm. Zwillingswörter (Pl.), ing. twin words /'twɪn wɜ:dz/, fr. mots jumeaux, azərb. əkiz sözlər. – Təkrar, assonans və alliterasiya nəticəsində yaranan mürəkkəb sözlər və frazemlər. Bunlara adətən əkiz sözlər deyirlər. Müq. et: alm. d. /kuckkuck/ (xoruz), /Weiteheute/ (genişlik bu gün), /Wind und Wetter/ (külək və hava).
O.C.Ахманова. Göstərilən əsəri, s. 420.

СЛОВА-ВОЗЗВАНИЯ – alm. Appelwörter (Pl.), ing. appeal words /ə'pi:l wɜ:dz/, proclamation words /ˌprɒklə'meɪʃən wɜ:dz/, fr. mots appels, azərb. müraciət bildirən sözlər. – Müraciət funksiyasında çıxış edən sözlər. Məs.: Azərb. d. /Əhməd, sən gəl bu işdən əl çək//.
O.C.Ахманова. Göstərilən əsəri, s. 420.

СЛОВАРНЫЙ – alm. lexikalisch, ing. vocabulary /vəʊ'kæbjʊlərɪ/, dictionary /'dɪkʃənrɪ/, lexicographic /ˌleksɪkə'græfɪk/, fr. de vocabulaire, lexicographique, azərb. lüğətlə bağlı, lüğəvi mənalı.
Bax: Словарь →.

СЛОВАРНЫЙ ЗАПАС – alm. Wortschatz (m), Wortbestand (m), ing. vocabulary word stock /vəʊ'kæbjʊlərɪ wɜ:d stɒk/, fr. réserve de vocabulaire, azərb. lüğət ehtiyatı. – Dilin bütün sözlərinin toplusu. Adətən lüğət ehtiyatı tarixən sabitləşmiş söz fondunu dəyişən söz tərkibindən fərqləndirirlər. Birinciyə əsas söz ehtiyatı daxildir. Buraya həyatın bütün sahələrini əhatə edən əşya və hadisələrin, insan fəaliyyətinin müxtəlif səviyyələrini səciyyələndirən sözlər daxildir. Məs.: (yer, gün, su, yemək, yaşamaq), qohumluq bildirən: ana, ata, bacı, qardaş, əmi, dayı və s.; yeni yaranan düzəltmə və mürəkkəb sözlər: dəmirçi, yazıçı və s. Dilin söz ehtiyatının böyük bir hissəsini beynəlmiləl sözlər, neologizmlər, xüsusi ifadələr, dialekt və emosional çalarlı sözlər təşkil edirlər.
R.Conrad. Göstərilən əsəri, s. 300-301.

СЛОВАРНЫЙ СОСТАВ – alm. Wortbestand (m), ing. stock of words /stɔk əv wɜ:dz/, vocabulary /vəʊ'kæbjʊlərɪ/, fr. corps lexical, azərb. lüğət tərkibi. – Dildə bütün sözlərin məcmusu. Bu sözlər adətən lüğətlərdə öz əksini tapır. Məs.: Bu yaxınlarda çapdan çıxmış «İngiliscə-Azərbaycanca lüğət» 1696 səhifədir. Bu lüğətdə verilmiş sözlərin miqdarı göstərilməsə də, onda ing. d. lüğət tərkibi dolğun şəkildə təmsil olunur.
O.Musayev. İngiliscə-Azərbaycanca lüğət. Bakı, 2003.

СЛОВАРНЫЙ МИНИМУМ – alm. lexikalisches Minimum (n), ing. lexical minimum /'leksɪkəl 'mɪnɪməm/, fr. minimum lexical, azərb. lüğət minimumu. – Hər hansı bir dili öyrənmək məqsədilə tələb olunan minimum söz ehtiyatı. Müəyyən dərsliyin yazılmasında istifadə olunan leksik minimum. Bu gün minimum 1800-2000 söz ehtiyatı olan hər bir kəs tələffüz və qrammatik qaydaları mənimsədiyi halda bu dildə rahat danışa bilər. Hesablamalar göstərir ki, 1000 ən çox işlənən söz mətndəki sözlərin 85%-ni təşkil edir.
F.Yadigar (Veysəlli). GDG, s. 67.

СЛОВАРНОЕ ГНЕЗДО – alm. Wortnest (n), ing. family of words /'fæmɪlɪ əv wɜ:dz/, fr. famille de vocabulaire, azərb. söz yuvası. – Dildə eyni kökdən olan sözlərin cəmləşdiyi yuva. Məs.: Azərb. d. /yaz/, /yazı/, /yazıçı/, /yazılı/, /yazısız/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 254.

СЛОВАРНОЕ ЗНАЧЕНИЕ – alm. lexikalische Bedeutung (f), ing. lexical meaning /'leksɪkəl 'mi:nɪŋ/, fr. sens lexicographique, azərb. lüğəvi məna. – Dildəki hər hansı bir sözün bütün mənaları, buna bəzən vizual, potensial və ya leksik mənalar da deyirlər. Məs.: Azərb. d. /baş/ sözünün bütün mənaları.
R.Conrad. Göstərilən əsəri, s. 49.

СЛОВАРЬ – alm. Wörterbuch (n), ing. dictionary /'dɪkʃənrɪ/, vocabulary /vəʊ'kæbjʊlərɪ/, fr. dictionnaire, vocabulaire, azərb. lüğət, sözlük. – Lüğət dilin sözlərinin semantik baxımdan (izahlı) araşdıran, başqa dildə açıqlayan (ikidilli) və sözlərə terminoloji və spesifik baxımdan şərh verən bir mənbədir. Biz bunlardan bir neçəsinin adını çəkmək istərdik.
1. A.Axundov. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, 2005;
2. O.Musayev. İngiliscə – Azərbaycanca lüğət. Bakı, 2003;
3. M.İ.Adilov və b. İzahlı dilçilik terminləri. Bakı, 1989 və s.

СЛОВАРЬ АКТИВНЫЙ – alm. aktives Lexikon (n), ing. active dictionary /'æktɪv 'dɪkʃənrɪ/, active vocabulary /'æktɪv vəʊ'kæbjʊlərɪ/, fr. vocabulaire actif, azərb. aktiv, işlək lüğət. – Dildə ən çox işlənən sözlərin lüğəti. Hesablamalar göstərir ki, 4000 söz hər hansı bir dildə istənilən mətnin 97% təşkil edir.
F.Yadigar (Veysəlli). GDG. s. 67.

СЛОВАРЬ ДВУЯЗЫЧНЫЙ – alm. zweisprachiges Wörterbuch (n), ing. bilingual dictionary (vocabulary) /baɪˈlɪŋgwəl ˈdɪkʃənrɪ/vəʊˈkæbjʊlərɪ/, fr. dictionnaire bilingue, azərb. ikidilli lüğət.

Bax: Словарь ←.

СЛОВАРЬ ДИАЛЕКТОЛОГИЧЕСКИЙ – alm. dialektologisches Wörterbuch (n), ing. dialectology dictionary /ˌdaɪəlekˈtɒlədʒɪ ˈdɪkʃənrɪ/, fr. dictionnaire dialectologique, azərb. dialektoloji lüğət. – Hər hansı bir dialektin sözlərinin toplandığı və onların şərhi verilmiş lüğət. Məs.: ötən əsrin 30-cu illərində Almaniyada çapdan çıxmış lüğət buna misal ola bilər. Müq. et: G. Wossidlo-Teuchert. Mecklenburgisches Worterbuch. Berlin, 1937.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 254.

СЛОВАРЬ ЛИНГВИСТИЧЕСКИХ ТЕРМИНОВ – alm. Wörterbuch linguistischer Termini (n), ing. the dictionary of linguistic terms /ðə ˈdɪkʃənrɪ əv lɪŋgwɪstɪk tɜːmz/, fr. vocabulaire des termes linguistiques, azərb. linqvistik terminlər lüğəti. – Sahə lüğətlərindən olub dilçilik elminə xas olan terminlərin açılmasını verən lüğətlər.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 254; R.Conrad Göstərilən əsəri, О.С.Ахманова. Göstərilən əsəri.; H.Bußmann. Göstərilən əsəri.

СЛОВАРЬ ОДНОЯЗЫЧНЫЙ – alm. einsprachiges Wörterbuch (n), ing. monolingual dictionary /ˌmɒnə(ʊ)ˈlɪŋgwəl ˈdɪkʃənrɪ/, fr. dictionnaire unilingue, azərb. birdilli lüğət.

Bax: Словарь ←.

СЛОВАРЬ ОРФОГРАФИЧЕСКИЙ – alm. orthographisches Wörterbuch (n), ing. orthographic(al) spelling dictionary /ˌɔːθəˈgræfɪkəl spelɪŋ ˈdɪkʃənrɪ/, fr. dictionnaire orthographique, azərb. orfoqrafik lüğət. – Dilin sözlərinin yazılışını nizamlayan lüğət. Məs.: A.Axundov. «Azərbaycan dilinin orfoqrafiya lüğəti». Bakı, 2004.

СЛОВАРЬ ОРФОФОНИЧЕСКИЙ – alm. orthophonisches Wörterbuch (n), ing. orthophonic dictionary /ˌɔːθəˈfəʊnɪk ˈdɪkʃənrɪ/, fr. dictionnaire orthoépique, azərb. orfofonik lüğət. – Bu yaxınlara qədər orfofoniya termini əvəzinə orfoepiya sözü işlənirdi. Hazırda bu terminləri kəskin şəkildə fərqləndirirlər. Orfoepiya dildəki sözlərin fonem tərkibinin müəyyənləşdirilməsinə xidmət edirsə, orfofoniya dildəki fonemlərin real tələffüz qaydalarını müəyyənləşdirən elm sahəsidir. Məs.: Azərb. d. /düz/ sözündə 3 fonem olduğunu orfoepiya müəyyənləşdirir. Lakin bu sözlərdə /d/ samitinin dodaqlanan /dº/ və /z/ samitinin yarımcingiltili olmasını orfofoniya müəyyənləşdirir.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

СЛОВАРЬ ПЕРЕВОДНЫЙ – alm. Übersetzungswörterbuch (n), ing. bilingual (translation) dictionary /ˌbʌɪˈlɪŋgwəl, træns'leɪʃən/'dɪkʃənrɪ/, fr. dictionnaire traduit, azərb. tərcümə lüğəti. – İkidilli lüğətlər bu cür lüğətlərdəndir. Hazırda söz birləşmələri, mətnlərin tərcüməsi üzərində qurulmuş lüğətlər yaranmaqdadır.
В.Н Комиссарова. Пособие по переводу с английского языка на русский язык. М., 1960.

СЛОВАРЬ ТОЛКОВЫЙ – alm. erklärendes Wörterbuch (n), ing. explanatory dictionary /ɪks'planətərɪ, ɛk- 'dɪkʃənrɪ/, fr. dictionnaire raisonné, azərb. izahlı lüğət.

Bax: Словарь ←.

СЛОВАРЬ ФИЛОЛОГИЧЕСКИЙ – alm. philologisches Wörterbuch (n), ing. philological dictionary /ˌfɪlə'lɒdʒɪkəl dɪkʃənrɪ/, fr. dictionnaire philologique, azərb. filoloji lüğət. - Sözün semantik şərhi və başqa dilə çevrilməsilə məşğul olan bütün lüğətləri filoloji lüğətlər adlandırmaq olar. Ancaq ayrı-ayrı dəqiq elmlər sahəsi üzrə lüğətlər həm də sahə lüğətləri adlanır. Birinciyə A.Axundovun redaktorluğu və «Ön sözü» ilə çap olunmuş izahlı lüğəti, ikinciyə isə bu lüğəti aid etmək olar: «Русско-английский политехнический словарь». 90 000 yaxın termini özündə əks etdirir. B.V.Kuznetsovun redaktəsi altında. M., 1980.

СЛОВАРЬ ШКОЛЬНЫЙ – alm. Schulwörterbuch (n), ing. School dictionary /sku:l 'dɪkʃənrɪ/, fr. dictionnaire d'école, azərb. məktəb lüğəti. – Məktəblilərin ehtiyacını ödəyən, onların söz ehtiyatını əhatə edən kiçik həcmli lüğət. Məs.: Ə.Əfəndizadənin lüğəti buna misal ola bilər.
Ə.Əfəndizadə. Orfoqrafiya-orfoepiya lüğəti. Bakı, 1989.

СЛОВАРЬ ЭТИМОЛОГИЧЕСКИЙ – alm. etymologisches Wörterbuch (n), ing. etymological dictionary /ˌetɪ'mɒlədʒɪkəl 'dɪkʃənrɪ/, fr. dictionnaire étymologique, azərb. etimoloji lüğət. – Dildəki sözlərin əmələ gəlməsini və hansı dillərlərdəki sözlərlə qohumluğunu müəyyənləşdirən lüğət.

F.Kluge. Etymologisches Wörterbuch der deutschen Sprache. Berlin, 1967.

СЛОВАЦКИЙ ЯЗЫК – alm. Slovakisch (n), ing. Slovak language /'sləʊvæk 'læŋgwɪdʒ/, fr. langue slovaque, azərb. slovak dili. – Əsasən Slovakiyada yayılmış və 4,5 milyon əhalinin danışdığı dil. 1846-cı ildən yazısı var. 1968-ci ildən Slovakiyanın rəsmi dövlət dilidir. Bu dildə /l/ və /r/ sonantları heca düzəldə bilirlər. Məs.: /vlčа/ (balaca canavar), /hřba/ (yığıntı). Vurğu sözün birinci hecası üzərinə düşür.
H.Bußmann. Göstərilən əsəri, s. 689.

СЛОВЕНСКИЙ ЯЗЫК – alm. Slovenisch (n), ing. the Slovene language /ðə 'sləʊvi:n, sləʊ'vɪ:n 'læŋgwɪdʒ/, Slovenian language /sləʊ'vi:n

ˈlæŋgwɪdʒ/, fr. langue slovène, azərb. sloven dili. – 2,1 milyon insanın danışdığı şərqi slavyan dillərindən biri. Bu dildə əsasən Sloveniyada, həmçinin Avstriyanın Kernten, İtaliyanın şimal əyalətlərində və Xorvatiyada danışırlar. Qədim abidəsi XVI əsrdən yazıya alınmışdır. Orfoqrafiyasında çoxlu didaktik işarələrdən istifadə olunur. Vurğu sərbəstdir. Tonlar səciyyəvidir. Dual formalar bu dil üçün səciyyəvidir.
O.Svane. Grammatik der slowenischen Sprache. Kopenhagen, 1958.

СЛОВЕСНЫЙ – alm. wörtlich, verbal, ing. verbal /ˈvɜːbəl/, oral /ɔːrəl/, wordy /ˈwɜːdɪ/, literary /ˈlɪtərərɪ/, philologic(al) /ˌfɪləˈlɒdʒɪk (əl)/, fr. verbal, oral, azərb. sözlü. – Sözlər vasitəsilə ünsiyyət qurmaq.
W.Porzig. Das Wunder der Sprache. Tübingen, 1993.

СЛОВЕСНЫЙ РЯД – alm. Wortreihe (f), ing. 1) verbal row /ˈvɜːbəl rəʊ/, word line /ˈwɜːd laɪn/, fr. rang verbal, azərb. söz cərgəsi, söz sırası.
Bax: Порядок слов ←.

СЛОВО – alm. Wort (n), ing. word /wɜːd/, term /tɜːm/, fr. mot, terme, parole, azərb. söz. – İntuitiv verilən və adi danışıqda işlənən əsas dil vahidi. Sözə verilən tərifl ər saysız-hesabsızdır. Sözün ən çox yayılmış tərifi bunlardır: a) fonetik-fonoloji səviyyədə. Ən kiçik vurğu və sərhəd siqnalları (knaklaut, fasilə və s.) ilə ayrılıb-götürülə bilən, yazıda isə boş yerdən boş yerə qədər məsafə tutan, tam formalaşmış dil vahididir; b) morfoloji səviyyədə qrammatik paradiqmik funksiyalarla təchiz edilmiş və morfoloji cəhətdən fərqlənən söz formalarına malik (məs.: /gəlir/, /gəldi/ və s.) ən mühüm vahid; c) leksik –semantik səviyyədə söz. Ən kiçik nisbətən müstəqil məna daşıyıcısıdır; ç) sintaktik aspektdə ən kiçik, cümlədə yerini dəyişə və əvəz oluna bilən vahiddir. Analitik, semantik eyniliyi, morfoloji stabilliyi və sintaktik mobilliyinə görə son vaxtlar morfem, leksem və formativ məfhumları sözə üstün gəlir.
G.Hammarstrom. Linguistische Einheiten im Rahmen der modernen Sprachwissenschaft. Berlin, 1966.

СЛОВОИЗМЕНЕНИЕ – alm. Wortformbildung (f), ing. inflection /ɪnˈflekʃən/, accidence /ˈæksɪd(ə)ns/, fr. variation de mot, azərb. sözdəyişmə. – Sözün müxtəlif formalarda çıxış etməsi. Məs.: alm. d. hal paradiqmində, təsrif paradiqmində, sifətlərin dərəcələnməsində müxtəlif formalara düşməsi. Bir sözün müxtəlif şəkilçili formalarının məcmusu onun paradiqmini təşkil edir. Alm. d. bu sözün daxili və xarici fleksiyası ilə həyata keçirilir. Yunan, latın, qot və s. dillərdə bu reduplikasiya vasitəsilə əmələ gəlir.

A.M.Diseiullo, E.Willams. On the definition of word. Cambridge, 1987.

СЛОВООБРАЗОВАНИЕ – alm. Wortbildung (f), ing. word-formation./wɜːd fɔːˈmeɪʃən/, derivation /ˌderɪveɪʃən/, word-building /wɜːd ˈbɪldɪŋ/, fr. formation de mot, azərb. sözdüzəltmə. – Dilin sözdüzəltmə

vasitələrilə yaranan sözlərin ümumi cəhətlərini və xüsusiyyətlərini öyrənən dilçilik şöbəsi. Sözdüzəltmə dilin sözlərinin strukturunu tarixi-genetik və sinxron-funksional aspektlərdən öyrənir. Bu zaman qarşıya qoyulan məqsədlər aşağıdkılardır:

a) dilin sözdüzəltmə prosesində (həm sadə, həm də mürəkkəb sözlərin düzəlməsində) iştirak edən vasitələrini müəyyənləşdirərək qruplaşdırmaq: əsas morfemlər, affikslər (prefiks, suffikslər);

b) sözdüzəltmənin struktur tiplərinin və modellərinin öyrənilməsi;

c) sözdüzəltmə prosesində semantik aspekti tədqiq etmək, sözdüzəltmə həm yeni düzəltmələri (ani düzəltmələr, neologizmlər), həm də hazır sözləri (leksikonluıq, uzual düzəltmə) öyrənir ki, bunlar eyni fenomenin iki tərəfini təşkil edir. Çünki yeni leksik məna kəsb etmə dildə mütəmadi olaraq baş verirsə, deməli, dildə yeni sözlər yaranır. Sözdüzəltmənin böyük hissəsini derivasiya (sözdüzəldici şəkilçilərlə yeni sözlərin düzəldilməsi, məs.: ing. d. /teach+er/, /teach+ing/), prefiksasiya (sərbəst işlənə bilməyən morfemlərin sözün əvvəlinə əlavə edilməsi, məs.: ing. d. /head/ → /behead/ (başsız qoymaq), /war/→ /prewar/ (müharibədən əvvəl) / → /postwar/ (müharibədən sonra) və s). Söz kökünün dəyişməsilə yaranan sözlər (məs.: ing. d. /to give/→ /gift/ (zəhər)), vurğunun dəyişməsilə yaranan sözlər (məs.: ing. d. /impo´rtant/ → /important/), sözlərin yanaşması ilə yaranan sözlər (məs.: ing. d. /blackboard/ (qara lövhə)), konversiya yolu ilə yaranan sözlər, yəni bir sözün başqa bir söz sinfinə keçməsi (məs.: ing. d. /to use/→ /use/ (istifadə)) kimi ümumiləşdirmək olar. Sözdüzəltmənin periferik növləri kimi akronimləri, yəni qısaltmaları (məs.: ing. d. /ASHİ/ Action on Smoking and Health)) və kontaminasiyaları (qovuşmaları, məs.: qədim fransız sözü /femelle/ XIV əsrdə ing. d. keçib /female/ (qayın) /male/ sözü ilə qovuşub)) misal göstərmək olar.

Sözdüzəltmə leksikləşmə, idiomatikləşmə və cümlədə konkret mənalarda işlənməsilə bağlı olduğuna görə onun ayrı-ayrı məsələləri morfoloji, leksik, sintaktik, semantik, habelə praqmatik səviyyədə araşdırılaraq həll edilə bilər.

H.Marchand. The Categories and Types of Present day English Word-formation. München, 1960.

СЛОВООБРАЗОВАНИЕ АФФИКСАЛЬНОЕ – alm. affixale Wortbildung (f), ing. affixial word-formation /ˈæfiksɪəl wɜ:d fɔ:ˈmeɪʃən/, fr. formation affixale des mots, azərb. affiksli sözdüzəltmə.

Bax: Словообразование ←.

СЛОВООБРАЗОВАНИЕ МОРФОЛОГИЧЕСКОЕ – alm. morphologische Wortbildung (f), ing. morphologic(al) word-formation /ˌmɔ:fəˈlɔdʒɪk(əl) wɜ:d fɔ:ˈmeɪʃən/, fr. formation morphologique des mots, azərb. morfoloji sözdüzəltmə.

Bax: Словообразование ←.

СЛОВООБРАЗОВАНИЕ СЕМАНТИЧЕСКОЕ – alm. semantische Wortbildung (f), ing. semantic derivation /sımæntık ˌderıveıʃən/, fr. formation sémantique des mots, azərb. semantik sözdüzəltmə.
Bax: Словообразование ←.

СЛОВООБРАЗОВАНИЕ СИНТАКСИЧЕСКОЕ – alm. syntaktische Wortbildung (f), ing. syntactic(al) word-building /sınˈtæktık(əl) wɜ:dbıldıŋ/, fr. formation syntaxique des mots, azərb. sintaktik sözdüzəltmə.
Bax: Словообразование ←.

СЛОВОПОРЯДОК – alm. Wortreihe (f), ing. word- order /wɜ:d ˈɔ: də/, fr. ordre de mot, azərb. söz sırası.
Bax: Порядок слова ←.

СЛОВО-ПРЕДЛОЖЕНИЕ – alm. Wortsatz (m), ing. word sentence /wɜ:d sentəns/, fr. terme proposition, azərb. söz-cümlə.
Bax: Номинативное предложение ←.

СЛОВОРАСПОЛОЖЕНИЕ – alm. Wortstellung (f), ing. word-arrangement /wɜ:d əˈreındʒmənt/, fr. disposition de mot, azərb. söz sırası.
Bax: Порядок слов ←.

СЛОВОСЛОЖЕНИЕ – alm. Kompositum (n), ing. composition /ˌkɒmpəˈzıʃən/, compounding /ˈkɒmpaʊndıŋ/, fr. addition, azərb. söz yanaşması.
Bax: Композита ←.

СЛОВОСОЧЕТАНИЕ - alm. Wortverbindung (f), ing. word combinātion /wɜ:d ˌkɒmbıˈneıʃən/, phrase /freız/, collocation /ˌkɔləʊˈkeıʃən/, idiom /ˈıdıəm/, fr. groupe de mots, azərb. söz birləşməsi.
Bax: Сочетание слов →.

СЛОВОФОРМА - alm. Wortform (f), ing. word form /wɜ:d ˈfɔ:m/, grammar form /ˈgræmə ˈfɔ:m/, fr. forme de mot, azərb. söz forması.
Bax: Форма слова ←.

СЛОГ – alm. Silbe (f), ing. syllable /ˈsıləbl/, fr. syllabe, azərb. heca. - Tələffüz zamanı sözün və ya söz formasının asanlıqla ayrıla bilən hissəsinə heca deyilir. Artikulyator nöqteyi-nəzərdən heca diskretdir (özündən kiçik hissələrə bölünmür), yəni danışıq zənciri ayrı-ayrı səslərə deyil, məhz ən kiçik tələffüz vahidi olan hecalara bölünür. L.R.Zinderin qənaətinə görə, adi eksperimentdə süni şəkildə ləngidilmiş danışıq aktını hecadan kiçik vahidlərə bölmək mümkün deyildir. Heca dil daşıyıcılarının hamısının şüursuz şəkildə qabil olduqları, lakin həmin dilin məxsus qaydalarına müvafiq olaraq danışıq aktının təbii üzvlənməsi (seqmentasiya) vahididir.
Л.Р.Зиндер. Общая фонетика. М.1979, s. 251.

СЛОГ БЕЗУДАРНЫЙ – alm. unbetonte Silbe (f), ing. unstressed syllable /ʌnˈstrest ˈsıləbl/, unaccented syllable /ˈʌnækˈsentıd ˈsıləbl/, fr. syllabe

inaccentuée, azərb. vurğusuz heca. – İki və daha artıq hecalı sözdə vurğulu heca yanındakı hecalar. Məs.: Azərb. d. /qala´/, /qalala'r/; alm. d. /ba: dən/ (çimmək), /fɛʀźu:x/ (cəhd); ing. d. /'bʌnkə/ (bunker, dəmir qapı), /'bə:niŋ/ (odlu, alovlu); rus d. /гълʌва'/ və s.
F.Veysəlli. SDƏ, I, s. 311-313.

СЛОГ ЗАКРЫТЫЙ – alm. geschlossene Silbe (f), ing. closed syllable /kləuzd 'sıləbl/, fr. syllabe fermée, azərb. qapalı heca. - Samitlə bitən hecaya qapalı heca deyirlər. Məs.: Azərb. d. /qaʃ/, /nar/; alm. d. /an/ (yanında), /in/ (içində); ing. d. /æn/ (artikl), /æt/ (yanında); rus d. /от/, /под/ və s.
F.Veysəlli. SDƏ, I, s. 311-313.

СЛОГ ОТКРЫТЫЙ – alm. offene Silbe (f), ing. open syllable /'əupən 'sıləbl/, fr. syllabe ouverte, azərb. açıq heca. – Saitlə bitən hecaya açıq heca deyirlər. Məs.: Azərb. d. /a-na/, /a-ta/, /da/, /də/; alm. d. /ta:gə/ (günlər), /za:gə/ (əfsanə); ing. d. /ɪelɒ:ə/ (radar); rus d. /на-до/, /бра-во/ və s.
F.Veysəlli. SDƏ, I, s. 311-313.

СЛОГ ПРЕДУДАРНЫЙ – alm. vorbetonte Silbe (f), ing. pretonic syllable /prı'tɒnık 'sıləbl/, fr. accent protonique, azərb. vurğudan əvvəlki heca. – Söz daxilində vurğulu hecadan əvvəlki mövqedə gələn heca. Məs.: Azərb. d. //qăla´/, /qalăla´r/; alm. d. /bˇə:zu´x/ (yoluxma); ing. d. /frıvə'lıtı/ (boşluq, ağıldan yüngül).
F.Veysəlli. SDƏ, I, s. 311-313.

СЛОГ УДАРНЫЙ – alm. betonte Silbe (f), ing. stressed syllable /'stresed sıləbl/, fr. syllabe tonique, azərb. vurğulu heca. – Sözdə yüksək tonla, daha qüvvətli, daha uzun zamanla tələffüz olunan heca. German dillərində bir qayda olaraq söz kökünün birinci hecası vurğulu tələffüz olunur. Məs.: ing. d. /k'ʌləndə/, (aşsüzən), /kɔkni/ (kokni, London dialekti); alm. d. /fɛʀ'spʀɛçən/ (vəd etmək), /bək'əmən/ (almaq) və s.

F. Vejsalov (Vejsälli). Lehrbuch der deutichen Phonetik. Baku, 1989.

СЛОГОВЫЕ ЯЗЫКИ – alm. Silbensprachen (Pl.), ing. syllabic languages /sı'læbık 'læŋgwıʤız/, fr. langues syllabiques, azərb. hecalı dillər. – Dillər heca strukturunun olub-olmamasına baxmayaraq hecalı və morlu dillərə bölünürlər: hecalı dillərdə prosodik vahidlər heca ilə üst-üstə düşür, hətta burada heca daşıyıcısı kimi seqment uzun tələffüz olunarsa kiçik vahidlərin cəmi kimi yox, bütöv bir vahid kimi başa düşülür. Buraya heca daşıyıcısı tək fonemdən ibarət olan dillər daxildir. Hətta qoşalaşan və ya uzun sait kimi tələffüz olunan, diftonqlardan ibarət olan hecalar da buraya daxildir. Məs.: fin dilində /kunka/ (gülcük), ancaq /kukkaa/. Buradakı saitlər iki qısa sait məcmusu kimi bir heca daşıyıcısı olur. Bu hal diftonqlar olan hecalara /qısa sait+samit/ və s. daxildir.

Ancaq bu cür hecalı dillərdən fərqli olaraq bəzi dillərdə səs tonu bir heca daxilində dəyişir, hecanın əvvəli və sonu müxtəlif yüksəklikdə olur. Hecanın əvvəli daha uzun olur. Beləliklə, bir növ ton hərəkətinə görə ikiüzvlü heca daşıyıcıları əmələ gəlir. İkiüzvlü heca daşıyıcıları müxtəlif ton yüksəkliyinə malik olur, onlarda qeyri-bərabər tonun (qalxan və enən) iki sait kimi reallaşması baş verir.

Uzun heca daşıyıcılarının geminatlaşan və ya ümumiyyətlə, çoxüzvlü dəyərləndirilməsi «aritmik kəmiyyət» mənası kimi və bunun yer aldığı dillər «morlu» (çünki bu dillərdə ən kiçik prosodik vahid heca ilə üst-üstə düşmür) dillər kimi müəyyənləşdirilə bilər. Bu dillərə lamba, bantu, kiopi və s. dillər aid edilə bilər.

N.S.Trubeskoy. Fonologiyanın əsasları. Almancadan tərcüməsi, «Ön söz» və «Qeydlər» prof. F.Yadigarındır (Veysəlli). Bakı, 2001. s. 240.

СЛОГОДЕЛЕНИЕ – alm. Silbentrennung (f), ing. syllabation /ˈsɪləbleɪʃən/, syllabication /sɪˌlæbɪˈkeɪʃən/, syllabification /sɪˌlæbɪfɪˈkeɪʃən/, fr. syllabation, azərb. heca bölgüsü.

Bax: Разделение слога ←.

СЛОГОРАЗДЕЛ – alm. Silbentrennung (f), ing. syllable-boundary /ˈsɪləblˈbaʊndərɪ/, fr. division en syllabes, azərb. heca kəsimi.

Bax: Разделение слога ←.

СЛОЖНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. zusammengesetzter Satz (m), ing. compound sentence /ˈkɒmpaʊnd ˈsentəns/, fr. proposition complexe, azərb. mürəkkəb cümlə. – İki və daha artıq cümlənin birləşməsindən yaranan konstruksiya mürəkkəb cümlə adlanır. Mürəkkəb cümlələr iki cür olur: tabeli və tabesiz. Məs.: Azərb. d. /Yağış yağdı, toz yatdı// və /Yağış yağdı ki, toz yatdı//. Bunlardan birincisi tabesiz, ikincisi isə tabeli mürəkkəb cümlədir.

Müasir Azərbaycan dili. Sintaksis III. Bakı, 1981, s. 350-353.

СЛОЖНОПОДЧИНЕННОЕ ПРЕДЛОЖЕНИЕ - alm. Satzgefüge (n), ing. compound sentence /ˈkɒmpaʊnd ˈsentəns/, fr. proposition subordonnée complexe, azərb. tabeli mürəkkəb cümlə. - Tabelilik əlaqəsi ilə bağlanan mürəkkəb cümlələr iki və daha artıq cümlənin bir-birinə birləşməsindən yaranan mürəkkəb sintaktik konstruksiyalardır. Tabeli mürəkkəb cümlələrin budaq cümlələrinə görə aşağıdakı növləri fərqləndirilir: mübtəda, xəbər, təyin, tamamlıq, zərflik: məqsəd, tərz, nəticə, müqayisə, şərt, qarşılıqlı-güzəşt budaq cümlələri və s.

Müasir Azərbaycan dili. Sintaksis. III Bakı 1981, s. 387-427.

СЛОЖНОСОКРАЩЕННОЕ СЛОВО - alm. Abkürzung (f), ing. abbreviated word /əˈbriːvɪeɪtɪd wɜːd/, fr. mot abrégé complexe, azərb. mürəkkəb ixtisarlı söz.

Bax: Аббревиатура ←.

СЛОЖНОСОЧИНЕННОЕ ПРЕДЛОЖЕНИЕ - alm. Satzreihe (f), ing. complex sentence /'kɒmpleks 'sentəns/, fr. phrase complexe, azərb. tabesiz mürəkkəb cümlə. – Tabesiz mürəkkəb cümlələr məna əlaqələrinə görə belə təsnif olunur: 1) ziddiyyətli-qarşılaşdırma (məs.: /bir həftə şıdırğı yağan qar ərimiş, lakin şaxtası hələ də azalmamışdı//); 2) fərqləndirici qarşılaşdırma (məs.: /Mən bu qədər danışdım, sən heç ağzını da açmadın); 3) aydınlaşdırma (məs.: /Alim üçün bir şey vacibdir/, o yaradıcılığını xalqına həsr etməlidir//); 4) səbəb-nəticə (məs.: /Yağış yağdı, toz yatdı//); 5) zaman əlaqəsi (məs.: /Əli gəldi, hər şeyi ona danışdım//); 6) birləşdirmə əlaqəsi (məs.: /Hələ ki, onu sakitləşdirmişəm, lakin bir dəfə coşacaq//).

H.Bayramov. Məna əlaqələrinə görə tabesiz mürəkkəb cümlələrin təsnifi.; Müasir Azərbaycan dili. Sintaksis. III. Bakı, s. 369-387.

СЛУЖЕБНЫЕ СЛОВА - alm. Hilfswörter (Pl.), ing. syntactic words /sɪn'tæktɪk wɜ:dz/, auxiliary words /ɔ:g'zɪljərɪ wɜ:dz/, fr. mots-outils, mots grammaticalaux, azərb. köməkçi sözlər. – Morfoloji dəyişikliyə uğramayan, avtosemantik məna daşımayan, ona görə də cümlə üzvü yerində çıxış edə bilməyən və müəyyən məna çalarlığı yaratmağa xidmət edən sözlərə köməkçi sözlər deyilir. Buraya bağlayıcılar, sözönülər, qoşmalar, ədatlar, artikillər, predikativlər və modal sözlər aiddir.

Ю.С.Маслов. Göstərilən əsəri, s. 200-219.

СМЕШАННАЯ ФОНЕМА - alm. gemischtes Phonem (n), ing. mixture phoneme /'mɪkstʃə 'fəʊni:m/, fr. phonème mixte, azərb. qarışıq fonem.

Бах: Архифонема ←.

СМЕШАННЫЙ РЯД - alm. gemischte Reihe (f), ing. mixture line /'mɪkstʃə lʌɪn/, fr. rang mixte, azərb. qarışıq sıra. – Ağız boşluğunun, önündə və ya arxasında deyil, ortasında yaranan sait. Buraya Azərbaycan dilindəki /ı/ saiti aiddir.

F.Veysəlli. SDƏ, I.

СМЕЩЕНИЕ ФОНЕМ - alm. Mischung der Phoneme (f), ing. (combination) confusion of phonemes /ˌkɒmbɪ'neɪʃən kən'fju:ʒən əv 'fəʊni:ms/, overlapping of phonemes /ˌəʊvə'læpɪ:ŋ əv 'fəʊni:ms/ fr. confusion des phonèmes, azərb. fonemlərin birləşməsi. – İki fonemin bir fonemdə birləşməsi. Məs.: orta dövr alman dilində /sc/ samit birləşməsi /ʃ/ fonemində birləşərək bir fonem yaratdı. Müq. et: /scon/ → /ʃØ:n/ (gözəl).

F.Veysəlli. SDƏ, I.

СМЕЩЕНИЕ ЯЗЫКОВ - alm. Mischung der Sprachen (f), ing. confusion of languages /kən'fju:ʒən əv 'læŋgwɪdʒɪz/, mixing of languages (dialekts) /mɪksɪnŋ əv 'læŋgwɪdʒɪz/'daɪəlekt/, fr. confusion des langues, azərb. dillərin çarpazlaşması.

Bax: Соединение языков →.

СМЫСЛ - alm. Sinn (m), ing. sense /sens/, meaning /ˈmi:nɪŋ/, purport /ˈpə:pət/, signification /ˌsɪgnɪfɪˈkeɪʃən/, fr. sens, azərb. anlam. – 1) Leksik vahidin başqa vahidlərdən fərqlənən mənası. Məs.: ing. d. /chair/ bir tərəfdən mebelin tərkib hissəsi olan predmeti bildirir, digər tərəfdən isə bu söz görüşdə aparıcı və ya sədr mənasında işlənir; 2) leksik vahidin dilin semantik sistemində yeri. Məs.: ing. d. /chair/ sözü /furniture/ (mebel), /armchair/ (kreslo), /table/ (masa) sözlərindən fərqlənir; 3) referentin müxtəlif formada ifadəsi. Məs.: ing. d. /the morning star/ və /the evening strar/ eyni referentin (Venera planeti) müxtəlif adlarıdır.
P.H.Matthews. Göstərilən əsəri, s. 337.

СМЫСЛОРАЗЛИЧИТЕЛЬНЫЙ - alm. bedeutungsunterscheidend, ing. distinctive /dɪsˈtɪŋktɪv/, fr. distinctiion de sens, azərb. mənafərqləndirici. – Dünya dilçiliyində L.V.Şerba məktəbindən başqa digər məktəblərin fonemə verdiyi tərif, yəni fonem məna fərqləndirən ən kiçik dil vahididir. Məs.: Azərb. d. /baş/ # /daş/ sözlərində /b/ və /d/ mənafərqləndirici vahidlər kimi dəyərləndirilir. Ancaq Şerba məktəbi fonemi söz və ya söz formalarını fərqləndirən vahid kimi götürür.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 72.

СМЫСЛОРАЗЛИЧИТЕЛЬНЫЙ ПРИЗНАК - alm. bedeutungsunterscheidendes Merkmal (n), ing. distinctive feature /dɪsˈtɪŋktɪv ˈfi:tʃəʳ/, fr. signe distinctif, azərb. mənafərqləndirici əlamət.
Bax: Признак ←.

СМЫЧКА - alm. Verschluß (m), ing. stop /stɒp/, occlusion /əˈklu:ʒən/, joint /dʒɒɪnt/, linking /lɪŋkɪŋ/, union /junjən/, fr. occlusion, azərb. kipləşmə. – Fəal üzvün qeyri-fəal və ya fəal üzvlə kipləşməsi. Azərb. d. /p/ samitinin tələffüzündə iki fəal üzv – dodaqlar kipləşir, sonra isə bu kipləşmə partlayışa keçir.
F.Veysəlli. SDƏ, I.

СМЫЧНО-ВЗРЫВНОЙ - alm. explosiv, ing. occlusion plosive /əˈklu:ʒən ˈpləʊsɪv/, fr. occlusif-explosif, azərb. kipləşən-partlayışlı. – Kipləşən üzvlərin hava axınının təsirilə partlaması ilə yaranan səs. Məs.: alm. d. /p/, /t/. /k/ samitləri buna misal ola bilər.
F.Vejsälli. Einführung in die Phonetik. Baku, 2004, s. 27.

СМЫЧНО-ГОРТАННЫЙ - alm. Kehlkopfverschlußlaut (m), ing. glottal stop catch /ˈglɒtl stɒp kætʃ/, guttral /gʌtərəl/, occlusive /əˈklu:sɪv/, obstruent /ˈɒbstrʊənt/, fr. occlusive-guttural, azərb. kipləşən-xirtdək. – Xirtdəkdə səs tellərinin kipləşərək qəfildən partlaması ilə yaranan səs. Məs.: gürcü dilində /pᶜ/ və /tᶜ/ və s. Bunlara bəzən abruptiv səslər də deyirlər.
Л.Р.Зиндер. Göstərilən əsəri.

СМЫЧНО-ДРОЖАЩИЙ - alm. Verschlußzitterlaut, ing. occlusive-vibrate (trilled) /ə'klu:sıv vaı'breıt/trıld/, fr. occlusive-vibrant, grelottant, azərb. kipləşən-titrək. – Dilçəyin titrəməsindən yaranan səs. Alm. və fr. d. /R/ samiti buna misal ola bilər.
Л.Р.Зиндер. Göstərilən əsəri.

СМЫЧНО-ФРИКАТИВНЫЙ - alm. affriziert, ing. occlusive (obstruent) fricative /ə'klu:sıv/'ɒbstrʊənt/'frıkətıv/, fr. occlusive-fricative, azərb. kipləşən-sürtünən. – Kipləşən üzvlərin nova keçməsilə yaranan samit səslər. Bunlara afrikatlar da deyirlər.

alm. d: /p͡f/, /t͡ʃ/, /t͡s/
ing.d: /t͡ʃ/, /d͡ʒ/
Azərb. d. /t͡ʃ/, /d͡ʒ/
rus d. /t͡ʃ/, /t͡s/.

F.Veysəlli. SDƏ, I.

СМЫЧНО-ЩЕЛЕВОЙ - alm. Verschlußengelaut (m), ing. occlusive fricative /ə'klu:sıv 'frıkətıv/, fr. occlusive-glottale, azərb. kipləşən-novlu.
Bax: Смычно-фрикативный ←.

СМЯГЧЕНИЕ - alm. mouilliert, ing. palatalization /'pælətəlaı'zeıʃən/, fr. mouillure, azərb. yumşalma. – İncə saitlərin qarşısında gələn samitlərin yumşaq tələffüzü. Məs.: Azərb. d. /diş/ sözündə /d/ fonemi incə /i/ saitindən əvvəl gəldiyinə görə yumşaq tələffüz olunur və tanskripsiyada belə göstərilir: [d'].
F.Veysəlli. SDƏ, I.

СОБИРАТЕЛЬНОСТЬ - alm. Sammelmenge (f), ing. collectivity /ˌkɒlek'tıvıtı/, fr. collectivité, azərb. çoxluq. – Çoxluq bildirən söz. Bu sözlər bir qayda olaraq tək formada olsa da, onlarda çoxluq anlayışı ifadə olunur. Məs.: alm. d. /Gebüsch/ (kolluq), /Proletariat/ və s.
R.Conrad. Göstərilən əsəri, s. 237.

СОБИРАТЕЛЬНЫЙ - alm. Sammelname (m), ing. collective /kə'lektıv/, fr. collectif, azərb. toplu.
Bax: Собирательность ←.

СОБСТВЕННОЕ ЗНАЧЕНИЕ - alm. direkte Bedeutung (f), ing. proper meaning /'prɒpə 'mi:nıŋ/, fr. sens propre, azərb. həqiqi məna. – Sözün ilkin, denotativ mənası. Məs.: Azərb. d. /baş/, /burun/ insanın bədən üzvlərinin adıdır. Ancaq /dağın başı/ və /dənizin burnu/ birləşmələrində /baş/ və /burun/ sözləri məcazi mənada işlənmişdir.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 159.

СОБСТВЕННОЕ ИМЯ - alm. Eigenname (m), ing. proper name /'prɒpə neɪm/, fr. nom propre, azərb. xüsusi ad. – Hər hansı bir varlığı eyni cinsli varlıqlardan fərqləndirmək üçün seçilmiş ad. Məs.: Azərb. d. /Əhmədli/ soyadı və ya yer adı. Xüsusi adlar fərdləri bildirir.
R.Conrad. Göstərilən əsəri, s. 175.

СОВЕРШЕННЫЙ ВИД - alm. perfektiver Aspekt (m), ing. perfective aspect /'pɜ:fɪktɪv 'æspekt/, fr. aspect perfectif, azərb. bitmiş növ.
Bax: Вид глагола ←.

СОГЛАСНЫЕ - alm. Konsonanten (Pl.), ing. consonants /'kɒnsənənts/, fr. consonnes, azərb. samitlər. – Ümumi şəkildə danışıq cihazında mərkəzləşməsi ilə səciyyələnən, saitlə yanaşı gəldikdə heca nüvəsi əmələ gətirməyən səslərə samitlər deyilir. Samitlər ya tam küylü, ya da küylə tonun qarışığından ibarət olur.

SAMİTLƏRİN ƏSAS NÖVLƏRİ VƏ ONLAR ÜÇÜN BƏZİ İŞARƏLƏR

Şəraiyə görə			dodaq		dilönü				dil-ortası	dil-arxası	dilçək	udlaq		
				diş-dodaq	retro-fleksiv	kaku-minal	dilucu	dil-kürəyi				yuxarı	aşağı	udlaq
kiplaşan	küylü	saf	p b m	ɱ	ʈ ɖ ɳ	t d n	t d n	t d n	h ɦ ç ʝ	K g ŋ	q ɢ ɴ		ʕ	ʔ
		affrikatlar	pˀ bˀ				tˢ dˢ	tˢ dˢ		Kˣ gˠ	qˣ ɢˢ			
		bir-fokuslu					tʃ dʒ	tʃ dʒ						
		iki-fokuslu					ʈʃ ɖʒ	tʃ dʒ						
						ʧ ʤ	ʧ ʤ							
		yan				tˡ dˡ	tˡ dˡ	tˡ dˡ						
	sonantlar		m	ɱ	ɳ	n	n	n	ɲ	ŋ	ɴ			
novlu	küylü	bir-fokuslu	ɸ β	f v		ɹ	θ ð	θ ð	ç ʝ	x ɣ	χ ʁ	ɕ ʑ	ħ	ʕ ʢ
			ⱱ ɰ		s z	s z	s z	s z						
		iki-fokuslu					ʂʃ ʐʒ	ʂ ʐ	ɕ ʑ	(ʂ ʐ)				
						ʃʃ ʒʒ	ʃʃ ʒʒ			ʃʃ ʒʒ				
		yan				ɬ ɮ	ɬ ɮ	ɬ ɮ	ɭ ʎ	ʟ				
	sonantlar	orta	ɰ	ʋ		ɹ			j	ʏ	ʁ			
		yan			l		l	l	ʎ					
titrək-lər		küylülər	ʙ				r							
		sonantlar			ɾ	ɾɾ					ʀ			

F.Yadigar (Veysəlli). GDG.

СОГЛАСНЫЕ АЛЬВЕОЛЯРНЫЕ - alm. alveolare Konsonanten (Pl.), ing. alveolar consonants /æl'vɪələ 'kɒnsənənts/, fr. consonnes alvéolaires, azərb. yuvaq samitləri. – Dil ucunun dişlərin yuvaqlarına toxunması ilə yaranan samitlər. Fəal üzvü əsas götürsək bunlara dilönü samitlər deyilir.
F.Yadigar (Veysəlli). GDG.

СОГЛАСНЫЕ АПИКАЛЬНЫЕ - alm. apikale Konsonanten (Pl.), ing. apical consonants /'æpɪkəl 'kɒnsənənts/, fr. consonnes apicales, azərb. apikal (dilucu) samitlər. – Dil ucunun (lat. «apix») üst dişlərin yuvaqlarına sıxılması ilə yaranan samitlər. İng. d. samitləri apikaldır.
F.Yadigar (Veysəlli). GDG.

СОГЛАСНЫЕ ВДЫХАТЕЛЬНЫЕ - alm. Schnalzlaute (Pl.), ing. respiratory consonants /rɪs'paɪərətərɪ 'kɒnsənənts/, fr. consonnes respiratoires, azərb. nəfəsalmada yaranan samitlər (marçıltılı səs). – Ağız boşluğunun qabaq hissəsində dilin ucu və ya kürəyi kipləşmə yaradır. Arxa tərəfdə olan boşluğu sorulmuş hava doldurur, eyni zamanda dilin arxa kürəyi yumşaq damağa toxunur. Kipləşən üzvlərin açılması ilə yaranan marçıltılı səs. Bunlara klik də deyirlər. Bu cür səslərə müxtəlif Afrika dillərində (hottentot və bantu dilləri) rast gəlmək olur. Kliklərin aşağıdakı növləri var: /⊙/ - qoşadodaq kliki; /ı/ diş klik; /!/ postalvelar klik; /‡/ palatoalveolar klik və alveolar lateral klik.
Л.Р.Зиндер. Göstərilən əsr, s. 168-169;

СОГЛАСНЫЕ ВЗРЫВНЫЕ (ЭКСПЛОЗИВНЫЕ) - alm. Sprenglaute (Pl.), ing. (ex)plosive consonants /ɪks'pləʊsɪv 'kɒnsənənts/, fr. consonnes explosives, azərb. kipləşən-partlayışlı samitlər.
Bax: Смычно-взрывные ←.

СОГЛАСНЫЕ ВЕЛЯРНЫЕ - alm. Hinterzungenkonsonanten (Pl.), ing. guttural, velar consonants /'gʌtərəl, 'vi:lə 'kɒnsənənts/, fr. consonnes vélaires, azərb. dilarxası samitlər.
Bax: Заднеязычные ←.

СОГЛАСНЫЕ ВИБРАНТЫ - alm. Zitterlaute (Pl.), ing. vibrant consonants /'vaɪbrənt 'kɒnsənənts/, fr. consonnes vibrantes, azərb. titrək samitlər.
Bax: Дрожащие согласные ←.

СОГЛАСНЫЕ ГЕМИНАТЫ - alm. Geminate (Pl.), ing. geminate consonants /'ʤemɪneɪt, nət- 'kɒnsənənts/, fr. consonnes géminées, azərb. geminat samitlər.
Bax: Геминаты ←.

СОГЛАСНЫЕ ГЛУХИЕ - alm. stimmlose Konsonanten (Pl.), ing. voiceless consonants /'vɔɪslɪs 'kɒnsənənts/, voiceless off-glide /'vɔɪslɪs ɒv glaɪd/, unvoiced consonant /'ʌn'vɔɪst 'kɒnsənənts/, deaf consonant /def 'kɔnsənənts/, fr. consonnes sourdes, azərb. kar samitlər.
Bax: Глухие согласные ←.

СОГЛАСНЫЕ ГОМООРГАННЫЕ - alm. homorgane Konsonanten (Pl.), ing. homorgane consonants /hɒmɔ:'gən 'kɒnsənənts/, fr. consonnes homorganes, azərb. həmcins samitlər.
Bax: Гомоорганные согласные ←.

СОГЛАСНЫЕ ГОРТАННЫЕ - alm. Kehlkopflaute (Pl.), ing. guttural consonants /'gʌtərəl 'kɒnsənənts/, fr. consonnes (laryngales) gutturales, azərb. udlaq samitləri (larinqal samitlər).
Bax: Гортанные согласные ←.

СОГЛАСНЫЕ ГУБНЫЕ - alm. Lippenkonsonanten (Pl.), ing. labial consonants /'leɪbɪəl 'kɒnsənənts/, fr. consonnes labiales, azərb. dodaq samitləri.
Bax: Губные согласные ←.
СОГЛАСНЫЕ ГУТТУРАЛЬНЫЕ - alm. gutturale Konsonanten (Pl.), ing. guttural consonants /'gʌtərəl 'kɒnsənənts/, fr. consonnes gutturales, azərb. quttural (dilarxası) samitlər.
Bax: Заднеязычные согласные ←.
СОГЛАСНЫЕ ДВУХФОКУСНЫЕ - alm. Konsonanten mit 2 Fokusen (Pl.), ing. bifocal consonants /'baɪ'fəʊkəl 'kɒnsənənts/, fr. consonnes bifocales, azərb. ikifokuslu samitlər.
Bax: Двухфокусные согласные ←.
СОГЛАСНЫЕ ДОРСАЛЬНЫЕ - alm. dorsale Konsonanten (Pl.), ing. dorsal consonants /'dɔ:səl 'kɒnsənənts/, fr. consonnes dorsales, azərb. dorsal samitlər.
Bax: Дорсальные согласные ←.
СОГЛАСНЫЕ ЗВОНКИЕ - alm. stimmhafte Konsonanten (Pl.), ing. voiced consonants /vɔɪst 'kɒnsənənts/, fr. consonnes sonores, azərb. cingiltili samitlər.
Bax: Звонкие согласные ←.
СОГЛАСНЫЕ ИМПЛОЗИВНЫЕ - alm. implosive Konsonanten (Pl.), ing. implosive consonants /ɪm'pləʊsɪv 'kɒnsənənts/, fr. consonnes implosives, azərb. imploziv samitlər.
Bax: Имплозивные согласные ←.
СОГЛАСНЫЕ КАКУМИНАЛЬНЫЕ - alm. kakuminale Konsonanten (Pl.), ing. cacuminal consonants /kæ'kju:mɪnəl 'kɒnsənənts/, fr. consonnes cacuminalles, azərb. kakuminal samitlər.
Bax: Какуминалные согласные ←.
СОГЛАСНЫЕ ЛАБИАЛИЗОВАННЫЕ - alm. labialisierte Konsonanten (Pl.), ing. unround /'ʌn'raʊnd/, labialize consonants /ˌleɪbɪəlaɪz 'kɒnsənənts/, fr. consonnes labialisées, azərb. dodaqlanan samitlər.
Bax: Лабиализованные согласные ←.
СОГЛАСНЫЕ ЛАБИО-ВЕЛЯРНЫЕ - alm. labio-velare Konsonanten (Pl.), ing. labio-velar consonants /'leɪbɪəʊ-'vi:lə 'kɒnsənənts/, fr. consonnes labio-vélaires, azərb. dodaq-damaq samitləri. – Dilin arxa kürəyinin arxasının fəallığı ilə bərabər dodaqların da iştirak etməsilə yaranan samit səslər. Qədim german dillərində /x^{v}/, /q^{v}/, /k^{v}/ bu cür səslər olublar. F.Yadigar (Veysəlli). GDG.


СОГЛАСНЫЕ ЛАРИНГАЛЬНЫЕ - alm. laryngale Konsonanten (Pl.), ing. laryngeal consonants /lə'rɪnʤɪəl 'kɒnsənənts/, fr. consonnes laryngales, azərb. larinqal samitlər.
Bax: Ларингальные согласные ←.
СОГЛАСНЫЕ МЯГКИЕ - alm. weiche Konsonanten (Pl.), ing. soft consonants /sɒft 'kɒnsənənts/, fr. consonnes mouillées, azərb. yumşaq samitlər.
Bax: Мягкие согласные ←.
СОГЛАСНЫЕ НАЗАЛИЗОВАННЫЕ - alm. nasalierte Konsonanten (Pl.), ing. nasal consonants /'neɪzəl 'kɒnsənənts/, fr. consonnes nasalisées, azərb. burunlaşan samitlər.
Bax: Назализованные согласные ←.
СОГЛАСНЫЕ НАЗАЛЬНЫЕ - alm. Nasalkonsonanten (Pl.), ing. nasal consonants /ˌneɪzəl 'kɒnsənənts/, fr. consonnes nasales, azərb. burun samitləri.
Bax: Носовые согласные ←.
СОГЛАСНЫЕ ОДНОФОКУСНЫЕ - alm. Konsonanten mit einem Fokus (Pl.), ing. umfocal consonants /ʌm'fəʊkəl 'kɒnsənənts/, fr. consonnes monofocales, azərb. birfokuslu samitlər. – Tələffüzü zamanı ağız boşluğunda bir yerdə mərkəzləşmə ilə tələffüz olunan samitlər. /ʃ/, /ʒ/ samitlərindən başqa bütün novlu samitlər birfokuslu samitlərdir.
Л.Р.Зиндер. Göstərilən əsəri, s. 157.
СОГЛАСНЫЕ РЕТРОФЛЕКСНЫЕ - alm. retroflexive Konsonanten (Pl.), ing. retroflexsive consonants /'retrəʊ'flksɪv 'kɒnsənənts/, consonants cacuminal /'kɒnsənənts kæ'kju:mɪnəl/, fr. consonnes rétroflexionelles, azərb. retrofleksiv samitlər. - Dil ucunun yuxarı qalxaraq geri çəkilməsi ilə yaranan samit səslər. Belə səslərə bəluc və pamir dillərində rast gəlmək olur. Məs.: /tu/ (yekə), /tu:la/ (it).
Handbook of the İnternational Phonetic Assosiation. Cambridge, 1999, s. 201.
Л.Р.Зиндер. Göstərilən əsəri, s. 157.
СОГЛАСНЫЕ РТОВЫЕ - alm. orale Konsonanten (Pl.), ing. oral consonants /'ɔ:rəl 'kɒnsənənts/, fr. consonnes orales, azərb. ağız samitləri. – Damaq pərdəsi yuxarı qalxaraq burun boşluğunu tutmaqla ağız boşluğunda yaranan samitlər. /m/. /n/, /ŋ/ samitlərindən başqa yerdə qalan bütün samitlər ağız samitləridir.
Л.Р.Зиндер. Göstərilən əsəri, s. 153-165.
СОГЛАСНЫЕ ТВЕРДЫЕ - alm. harte Konsonanten (Pl.), ing. hard consonants /hɑ:d 'kɒnsənənts/, fr. consonnes dures, azərb. sərt samitlər. – Köməkçi, yardımçı tələffüzün olmaması sərt samitlərin yaranmasına səbəb olur. Rus dilində hər bir yumşaq samitin sərt qarşılıqlığı vardır.

Burada /tʃ/ samiti istisna təşkil edir. Sərt samitlər bunlardır: /p,b,v,t,m, f, d, n,s, z, ʦ,ʃ, ʒ, k, g, x/.
Л.Р.Зиндер. Göstərilən əsəri, s. 131-135.
СОГЛАСНЫЕ УВУЛЯРНЫЕ - alm. uvulare Konsonanten (Pl.), ing. uvular consonants /'ju:vjulə 'kɒnsənənts/, fr. consonnes uvilaires, azərb. dilçək samitlər. – Dilçəyin titrəməsi ilə yaranan samitlər. Buraya alm. və fr. d. /R/ samiti aiddir.
Л.Р.Зиндер. Göstərilən əsəri, s. 131-147.
СОГЛАСНЫЕ ШЕПЕЛЯВЫЕ - alm. lispelnde Konsonanten (Pl.), ing. consonants lisping /'kɒnsənənts lɪspɪŋ/, fr. consonnes qui susseyent, sifflantes azərb. fısıltılı samitlər. - Fısıltı ilə tələffüz olunan samit səslər. Bunlar /s/ və /z/ samitləridir.
Л.Р.Зиндер. Göstərilən əsəri, s. 131-147.
СОГЛАСНЫЕ ЩИПЯЩИЕ - alm. Zischlaute (Pl.), ing. consonants hushing sound /'kɒnsənənts hʌʃɪ:ŋ saʊnd/, fr. consonnes chuintantes, azərb. fışıltılı samitlər. - /tʃ/, /ʃ, /ʒ/ samitləri fışıltılı samitlərdir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 481.
СОГЛАСНЫЕ ШУМНЫЕ - alm. Geräuschlaute (Pl.), ing. consonants noisy /'kɒnsənənts 'nɔɪzɪ/, fr. consonnes bruyantes, azərb. küylü samitlər. – Küylü samitlər ciyərdən gələn hava axınının xirtdəküstü boruda (ağız, burun, udlaq) maneələri dəf etməsilə yaranan samitlərdir. Küy yaradan manea üç cürdür: kipləşmə, nov və titrəmə. Sonorlardan başqa bütün samitlər küylü samitlərdir.
Л.Р.Зиндер. Göstərilən əsəri, s. 137-147.
СОГЛАСНЫЕ ЩЕЛКАЮЩИЕ - alm. Schnalzlaute (Pl.), ing. consonants click /'kɒnsənənts klɪk/, fr. consonnes claquantes, azərb. marçıltılı samitlər (klik)
Baz: Согласные вдыхательные ←.
СОГЛАСОВАНИЕ - alm. Kongruenz (f), ing. agreement /ə'gri:m(ə)nt/, concord /'kɒŋkɔ:d/, congruence /'kɒŋgruəns/, fr. accord, azərb. uzlaşma. – Bu təyin olunanla təyin edən arasında elə əlaqədir ki, təyin olunanın qrammatik mənaları təyin edəndə təkrar olunur. Məs.: rus d. /белому хлебу/ birləşməsində ikinci tərəfin tələbilə birinci tərəf kişi cinsində, yönlük halında və təkdə işlənmişdir. İng. və Azərb. d. belə uzlaşma yoxdur.
A.Реформатский. Göstərilən əsəri, s. 328.
СОГЛАСОВАНИЕ НЕПОЛНОЕ - alm. partielle Kongruenz (f), ing partial agreement /'pɑ:ʃəl ə'gri:mənt/, fr. accord imparfait, azərb. yarımçıq (natamam) uzlaşma. – Yarımçıq uzlaşma bu və ya digər əlamətə görə uzlaşmanın olmamasıdır. Məs.: rus d. /она играет/ birləşməsində şəxsə və kəmiyyətə görə uzlaşma var. Ancaq /она играла/-da isə həm də cinsə

görə uzlaşma vardır. Deməli, birinci yarımçıq və ya natamam uzlaşmadır. İkinci isə tam uzlaşmadır.
A.Реформатский. Göstərilən əsəri, s. 328-329.

СОГЛАСОВАНИЕ ПОЛНОЕ - alm. volle Kongruenz (f), ing. full agreement /ful ə'gri:mənt/, fr. pleine accord, azərb. tam uzlaşma.
Bax: Согласование полное ←.

СОДЕРЖАНИЕ - alm. Inhalt (m), ing. content /'kɒntent/, connotation /ˌkɒnəʊ'teɪʃən/, fr. contenu, azərb. məzmun. – F. de Sössür bunu signifie, L.Yelmslev məzmun, bəzən siqnifinant və ya siqnatum da adlandırırlar. Dil işarəsinin əsas komponenti ünsiyyətdə işarə ilə maddi təmsilçilə (əksərən səsli və ya qrafik) təzahür edən. İşarənin məzmunu, mənası (məs.: stol) sözünün /s+t+o+l/ fonem və ya qrafem ardıcıllığı ilə verilməsi. İşarənin maddi tərəfi, məna tərəfi, ifadə olunanı, işarələnəni. Konkret yanaşmadan asılı olaraq məna belə izah olunur: a) dildənkənar reallığın bildirilməsi (referent, siqnifikat); b) işarənin anlam (məfhum) tərəfi, mənası; c) dillə yaradılan ümumi dünyagörüşünün dildə ifadə olunan aralıq dünyası (məzmun qrammatikasında) və s.



F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 24-32.

СОДЕРЖАТЕЛЬНАЯ ГРАММАТИКА – alm. inhaltbezogene Grammatik (f), ing. containing grammar /kən'teınıŋ 'græmə/, fr. grammaire étoffée, azərb. məzmun qrammatikası. – Ötən əsrin əvvəllərində Almaniyada V.fon Humboldtun nəzəriyyəsinə söykənən L.Vaysgerberin (1899-1958) işləyib hazırladığı qrammatik konsepsiya. Bu cərəyan dilçiliyə yeni romantizm, dilin energetik nəzəriyyəsi və ya yeni humboldtçuluq kimi daxil olub. V.fon Humboldtun «dil daim fəaliyyətdə olan qüvvədir (energeia)» tezisini əsas götürərək L.Vaysgerber çoxsaylı yazılarında «dilin daxili formasının» spesifik dünyagörüşünü təmsil etdiyini sübut etməyə çalışır. Onun əsas məqsədi pedaqoji qrammatikanın təməl prinsiplərini işləyib hazırlamaq idi. O, ana dilinin aralıq dünyasını təşkil etməsi fikrini irəli sürür. Ana dili onda danışanların dil kollektivilə nizamlanmış reallığın əşyaları arasında müəyyən mənəvi strukturlaşdıran ötürücü vasitəsidir. Bu da V.fon Humboldtun «daxili» formasına uyğun gəlir. Dünyada baş verən bütün nəsnələr dinamik proses kimi ana dili vasitəsilə həyata keçir. Dünyanın sözlə ifadəsini, sözə çevrilməsini biz ən yaxşı halda leksikonda görürük. Məhz burada dilin strukturlaşdırma gücü aydın şəkildə özünü büruzə verir. Məs.: Qalaktika müxtəlif xalqlarda müxtəlif cür ifadə olunur, yəni ulduzların eyni, real xaotik düzümü müxtəlif dillərdə müxtəlif cür ifadə olunur. Məs.: «Orion» bürcü reallığın obyekti kimi mövcud deyildir, o, əqli təsəvvürün məhsuludur. Məzmun qrammatikası dünyanın müxtəlif dillərində inikasın müxtəlif olmasını əsas götürür. Bu qrammatika 4 mərhələni fərqləndirir:

1 mərhələ	səs tərəfi (lautliche Seite)		mənəvi (ruh) tərəfi (geistige Seite)	
2 mərhələ	səslənmənin öyrənilməsi (lautbezogene Betrachtung)	məzmunun öyrənilməsi (inhaltbezogene Betrachtung)	linqvistik enerqetik baxım (sprachwissenschaftliche Betrachtunq)	
3 mərhələ	formanın öyrənilməsi (gestalbezogene Betrachtung)	məzmunun öyrənilməsi (inhaltbezogene Betrachtung)	funksional baxım (leistungsbezogene Betrachtunq)	təsirin öyrənilməsi (wirkungbezogene Betrachtunq)

L.Vaysgerberə görə, qrammatika özündə məqsəd deyil, elmi məqsədə keçid mərhələsidir. Dil hərəkətverici qüvvə olduğundan, ardı-arası kəsilmədən dil kollektivinin həyatını təmin etdiyindən bu mərhələ keçilməlidir. Funksional baxım dili statik təcridlikdən və süni hipostaziyadan azad etməli və yenidən dünyaya aparmalıdır. Bu L.Vaysgerberdə mərkəzi yer tutur, o, dil xətti təzyiqinin ana xəttini təşkil edir, çünki o, dünyanın hər bir ana dilində olduğu kimi sözlə verilməsi prosesinə müdaxilə edir. Metodik baxımdan onun baş məfhumu dil priyomudur, statik dil,

məzmunun energetik əks qütbdür. Onun predmeti dil kollektivində dünyanın sözləşməsi prosesidir.

Dilin ilkin funksiyası dünyanın ana dilində əks olunmasında iştirak edən nə varsa odur. Dilin təsir aspektini öyrənən 4-cü mərhələyə keçid onunla bağlıdır ki, ilkin funksiyanın vacibliyinə baxmayaraq dil özü məqsəd deyil. Qrammatik baxım dilin təsir dairəsinə əhəmiyyət vermirsə, funksional baxım hər şeydən əvvəl «dünyanı» əhatə edirsə, təsir aspekti ilə həyat dilçilik sahəsinə qayıdır. O, dil kollektivində həyat proseslərinin dilə aid olan məcmusunu açmağa can atır. Dil təsiri dünyanın sözləşməsi anından başlanır. Ona görə də bütün həyat sahələrində dilin fəal müdaxiləsinə rast gəlirik. Söz dünyasının yaradıcılarının həyatında, müəyyən kollektivin dillə bağlı işində və hərəkətində dilin təsiri açıq-aydın hiss olunur.

Formal baxımın birinci növbədə mənanı və funksiyanı müəyyənləşdirdiyi, məzmunla bağlı öyrənmənin dil tutumuna keçməsi aralıq dünyası ilə izah oluna bildiyi kimi, funksional baxımdan dil priyomları təsir aspektində dil dəyəri əldə edir. L.Vaysgerber bildirir ki, ana dilinin təsir dairəsinə ana dili dəyərlərində ardıcıllıq kimi mövcud olan hər şey daxildir. Dilçiliyin funksiya və təsir aspektilə əlaqəsi onunla izah olunur ki, məzmunla funksiya və təsirsizə təsir ediriksə, məcburiyyət qarşısında qalıb «dil rayonları» cəlb edirik. Beləliklə, qrammatik araşdırmalarda dil tutumunu ətraf aləmdən güclə ayırmaq olur. Funksiya və təsir məzmunun hüdudlarını göstərməyə xidmət edirsə, eyni zamanda funksiya və təsir məzmuna əsaslanırsa, onda daim öz ətrafında fırlanmaq qorxusu yaranır. F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 24-34-36.

СОДЕРЖАТЕЛЬНЫЙ АНАЛИЗ – alm. Inhaltsanalyse (f), ing. containing analysis /kən'teınıŋ ə'næləsıs/, fr. analyse d'aprés le sens, azərb. məzmun təhlili. – Hər cür mətnlərdə kommunikativ məzmunların (qəzet, radio, telemətn, bədii mətn) obyektiv semantik və səriştəli təhlili. Müəyyən açar söz və sintaktik əlaqələr əsasında danışanın mövqeyinə uyğun müxtəlif məzmun və məlumatların şərhi, subyektiv mövqeyin açılması, dinləyənin kontekstdən əldə edə biləcəyi biliklərin müəyyənləşdirilməsi. Özü də üst qatdakı hadisələr müəyyən kateqoriyalar əsasında təsnif olunur və sintaktik cəhətdən qiymətləndirilir. Bu zaman mətnin ümumi məzmunu sözbəsöz məna açılışında daha qiymətli olur.
H.Bußmann. Göstərilən əsəri, s. 341.

СОЕДИНЕНИЕ – alm. Verknüpfung (f), Verkettung (f), ing. connection /kə'nekʃən/, link /lıŋk/, conjunction /kən'dʒʌŋkʃən/, fr. jonction, liaison, assemblage, azərb. birləşmə. – 1) Düz xətt boyunca dil vahidlərinin qanunauyğun şəkildə düzülməsi. Adətən bunu «+» və ya «^» simvolları ilə ifadə edirlər. Bunun üçün ən azı iki elementin olması vacibdir. Məs.: NP+VP bunların düzülüş qaydası TQ-da əlavə qaydalarla nizamlanır;

2) İng. linking-generativ fonologiyada əlamətlərin avtomatik müəyyənləşməsi metodu. Məs.: umlautun işlənməsi;
3) Semantikada semantik əlamətlərin nizamlanmamış çoxluğunun düzəlməsi prosesi. Əlamətlərin haradan yarandığını müəyyənləşdirmək vacib deyildir. İsimin, felin, sifətin və s. birləşməsi.
H.Bußmann. Göstərilən əsəri, s. 341.

СОЕДИНИТЕЛЬНЫЙ - alm. verknüpfend, ing. connecting /kəˈnektıŋ/, copulative /ˈkɒpjʊlətɪv/, connective /kəˈnektɪv/, linking /lıŋkıŋ/, fr. conjonctif,-ve, azərb. birləşdirici.
Bax: Соединение ←.

СОЕДИНИТЕЛЬНЫЙ ГЛАСНЫЙ - alm. Bindevokal (m), ing. connecting vowel /kəˈnektıŋ ˈvaʊəl/, connective vowel /kəˈnektɪv ˈvaʊəl/, fr. voyelle copulative, azərb. birləşdirici sait. – Rus dilindəki /parʌvoz/ «paravoz» sözündəki ikinci sait [ʌ] buna misal ola bilər.
A.A.Реформатский. Göstərilən əsəri, s. 125.

СОКОТРИЙСКИЙ ЯЗЫК - alm. Soqotri Sprache (f), ing. Socotri /səˈkəʊtrı ˈlæŋgwıdʒ/, fr. langue socotra, azərb. sokotri dili. – Semit dillərindən biri. Yəmən Xalq Respublikasının Sokotra və Əbd əl Küri adalarında yayılmışdır. Bu dildə təqribən 50 minə qədər əhali danışır. Yazısız dildir.
В.В.Наумкин. Очерки по этнолингвистике Сокотры. М., 1981.

СОКРАЩЕНИЕ - alm. Abkürzung (f), ing. abbreviation /əˌbri:vıˈeıʃən/, acronym /ˈækrənım/, fr. abréviation, azərb. ixtisar.
Bax: Аббревиатура ←.

СОЛОНСКИЙ ЯЗЫК - alm. Solonisch (n), ing. Solon language /ˈsəʊlɒn ˈlæŋgwıdʒ/, fr. langue solonne, azərb. solon dili. – Tunqus-Mancuriya dillərinə aid dillərdən biridir. Monqolustanda və Çində yayılmışdır. Daşıyıcılarının sayı dəqiqləşdirilməmişdir (təqribən bir neçə min).
Н.Н.Понне. Материалы по солонскому языку. Л., 1931.

СОМАЛИ - alm. Somali (n), ing. Somalia /səʊˈmɑ:lə/, fr. langue somalienne, azərb. somali dili. – Kuşit dillərinin şərq yarımqrupuna daxil olan dil. Əsasən Somalidə, həmçinin Həbəşistanda və Keniyada yayılmışdır. Bu dildə 7 milyondan artıq əhali danışır. Fonemlər sistemində 20 sait (bu dildə saitlərin uzunluğu fonoloji mahiyyətlidir) və nisbətən zəif inkişaf etmiş samitlər yarımsistemindən ibarətdir. Tonal dildir (4 ton fərqləndirilir). Söz vurğusu sərbəstdir.
R.C.Abraham The principles of Somali. L., 1951.

СОНАНТ - alm. Sonant (m), ing. sonant /ˈsəʊnənt/, fr. sonnant,-e azərb. sonant.
Bax: Сонорный →.

СОНАНТ БОКОВОЙ - alm. Seitensonant (m), ing. lateral sonant /'lætərəl 'səunənt/, fr. sonnant latéral, azərb. dilyanı sonant. - /l/ samiti buna misal ola bilər.
F.Veysəlli. SDƏ, I, s. 121-129.

СОНГАЙ-ЗАРМА ЯЗЫКИ - alm. Songhay-Zerma Sprachen (Pl.), ing. Songhay- zarma (jerma) languages /'sɒŋaɪ/sɒŋ'gʌɪ zarma 'læŋgwɪʤɪz/, fr. langues songhaïque, songhay-zarmas, azərb. sonqay-zarma dilləri. – Genealoji mənsubiyyəti müəyyənləşdirilməmiş Afrika dilləri. Əsasən Nigeriya, Burkina-Faso, Benin və Mali respublikalarında yayılmışdır. Bu dillərdə danışanların sayı təqribən 8 milyona yaxındır. Tonal dildir. Əsas heca strukturı CVCV-dır.
P.F.Lacroix L'ensemble songhay-jerma; problemes et themes de travail. Abidjan, 1971.

СОНОРНЫЙ - alm. sonor, ing. resonant /'reznənt/, fr. sonore, azərb. sonor. – Akustik baxımdan səslər sonorlara (səsliləra) və küylülərə bölünürlər. Sonor səslər rezonator tonu ilə müəyyənləşir, onlarda küy ya tamam iştirak etmir (saitlər), ya da qismən iştirak edir. Məs: Azərb. d. /r/, /m/, /n/, /l/.
A.A.Реформатский. Göstərilən əsəri, s. 170.

СООБЩЕНИЕ - alm. Mitteilung (f), ing. communication /kəmju:nı'keıʃən/, message /'mesıʤ/, fr. communication, azərb. məlumat. – Ünsiyyət prosesində müsahibə göndərilən informasiya, məlumat.

Bax: Информация←

СОПОДЧИНЕНИЕ - alm. Zusammengehörigkeit (f), ing. collateral /kə'lætərəl/, subordination /sə,bɔ:dineıʃən/, fr. subordination, collatérale, azərb. bərabər tabelik (bir baş cümləyə tabe olmaq). – İki budaq cümlə bir baş cümləyə tabe olanda buna eyni (bərabər) tabelik əlaqəsi deyirlər. Burada iki növ fərqləndirilir: 1) budaq cümlələr eyni və ya müxtəlif baş üzvə tabedirlərmi; 2) onlar eynicinslidirlər, yoxsa müxtəlifdirlər. Məs.: Azərb. d. /Nə zaman ki, poçtalyon məktubları bir-bir nəzərdən keçirirdi, rəis şəhərə baxmağa getmişdi, o, şəhərə ki, onun çox xoşuna gəlmişdir//. Burada iki budaq cümlə var, onlar bir baş cümləyə tabedirlər, birincisi baş cümlənin xəbərinə, ikincisi isə onun tamamlığına tabedir. Ancaq /Nə zaman ki, sabah açılırdı, mən sürəti artırırdım ki, qatarın yola düşməsinə çatım//. Burada hər iki budaq cümlə qeyri-həmcinsdir, biri zaman, o birisi isə məqsəd budaq cümləsidir. Bunlar qismən tabelilikdir.

Nəhayət, /Mən yaxşı xatırlayıram ki, o, çox pis idi, otaq çox soyuq idi, çay məni qızdırmırdı//. Burada üç budaq cümlə baş cümlənin eyni xəbərinə tabedir, ancaq onlar həmcinsdir. Əslində bu tabesizliyin bütövlükdə tabeliliyə çevrilməsidir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 342.

СОПОДЧИНЕНИЕ НЕОДНОРОДНОЕ - alm. heterogene Zusammengehörigkeit (f), ing. non-homogeneous (heterogeneous joint) collateral subordination /ˈnɔnˌhɒməʊˈdʒi:nɪəs-ˈdʒɛn-,/ˈhɛtərəʊˈdʒi:nɪəs,dʒɛndʒɔɪnt/kɔˈlætərəl səˌbɔ:dineɪʃən/, fr. subordination hétérogène, azərb. - qeyri-həmcins tabelilik.

Bax: Соподчинение ←.

СОПОДЧИНЕНИЕ ОБЩЕЕ - alm. allgemeine Zusammengehörigkeit (f), ing. general collateral subordination /ˈdʒenərəl kəˈlætərəl səˌbɔ:dineɪʃən/, fr. subordination communne, azərb. - ümumi tabelilik.

Bax: Соподчинение ←.

СОПОДЧИНЕНИЕ ОДНОРОДНОЕ - alm. homorgane Zusammengehörigkeit (f), ing. (heterogeneous) homogeneous collateral subordination /ˈhɛtərəʊˈdʒi:nɪəs,dʒɛn /ˌhɒməʊˈdʒi:nɪəs,-ˈdʒɛn-, kɔˈlætərəl səˌbɔ:dineɪʃən/, fr. subordination homogène, azərb. - həmcins tabelilik.

Bax: Соподчинение ←.

СОПОДЧИНЕНИЕ ПАРАЛЛЕЛЬНОЕ - alm. parallele Zusammengehörigkeit (f), ing. paralel (joint) collateral subordination /ˈpærəlel/dʒɔɪnt /kəˈlætərəl səˌbɔ:dineɪʃən/, fr. subordination parallèle, azərb. paralel, yanaşı tabelilik. – Hər iki budaq cümlə eyni şəkildə baş cümləyə tabe olur. Məs.: rus d. /Когда рассветло, я скорее поехал, чтобы пороход ушел без меня//. Hər iki budaq cümlə baş cümləyə aiddir.

A.A.Реформатский. Göstərilən əsəri, s. 342.

СОПОСТАВИТЕЛЬНЫЙ - alm. konfrontativ, ing. comparative /ˈkəmˈparətɪv/, fr. comparatife,-ve, azərb. tutuşdurma.

Bax: Сопоставительная грамматика →.

СОПОСТАВИТЕЛЬНАЯ ГРАММАТИКА - alm. konfrontative Grammatik (f), ing. comparative grammar /ˈkəmˈpærətɪv ˈgræmə/, fr. grammaire comparative, azərb. müqayisəli qrammatika. – Dillərin qarşılıqlı-müqayisəli tədqiqi, qarşılaşdırılan dillərin sistem və struktur laylarındakı ümumi və fərqli cəhətləri üzə çıxarmağı qarşısına məqsəd qoyur. Bu yanaşma sinxron-müqayisəlidir. Özü də eyni qrammatik nəzəriyyəyə söykənən təsviri əsas götürür.

G.Nickel. Reader zur kontrastiven Linguistik. Frankfurt, 1972.

СОПОСТАВИТЕЛЬНЫЙ МЕТОД - alm. konfrontative Forschungsmethode (f), ing. comparative method /ˈkəmˈpærətɪv ˈmeθəd/, fr. méthode comparative, azərb. tutuşdurma metodu. – Oxşar və fərqli cəhətləri müəyyənləşdirmək üçün ana dilinin istənilən səviyyəsinin öyrənilən dilin müvafiq səviyyəsilə qarşılaşdırılması. Buna ən yaxşı nümunə A.İsaçenkonun tədqiqatlarıdır.

Müqayisə çox geniş məntiqi əməliyyatdır və demək olar ki, bütün elm sahələrinə aiddir. Dilçilikdə tutuşdurma metodu və ya müqayisə metodu müəyyən sərhədi, üsulları olan elmi tədqiqat vasitəsidir. Dilçilik sahəsində müqayisəli metodun iki növü vardır: 1) müqayisəli – tarixi metod, 2) müqayisəli-tutuşdurma metodu.

А.В.Исаченко. Грамматически строй русского языка в сопоставлении со словацким языком. Морфология. Братислава, 1960, A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 228.

СОСТАВ ПОДЛЕЖАЩЕГО - alm. Subjektbestand (m), ing. group of the subject (subject with its adjuncts) /gru:p əv ðiː ˈsʌbdʒɪkt/, fr. composition du sujet, azərb. mübtəda tərkibi. – Ən azı iki leksemdən ibarət olub, aralarında ya bağlayıcı, ya qoşma, ya da onlardan heç biri olmayan, ancaq xəbərlə uzlaşan tərkib. Məs.: Azərb. d. /Əli və Vəli gəldilər//, /Bir neçə tələbə gecikmişdi//, /Kişi ilə arvad yan-yana oturmuşdular// və s.

А.А.Реформатский. Göstərilən əsəri, s. 333. .

СОСТАВ СКАЗУЕМОГО - alm. Prädikatbestand (m), ing. group of the predicate (predicate with its adjuncts) /gru:p əv ðiː ˈpredɪkeɪt/, fr. composition du prédicat, azərb. xəbər tərkibi. – Mürəkkəb xəbər çox müxtəlif olur. Köməkçi fellə əsas fellərin birləşməsi, modal fellərlə əsas fellərin xəbər kimi çıxış etməsi və s. Məs.: alm. d. /Er will kommen// (O gəlmək istəyir).

А.А.Реформатский. Göstərilən əsəri, s. 334.

СОСТАВЛЯЮЩИЙ - alm. Konstituente (f), Bestandteil (m), ing. immediate constituents /ɪˈmiːdjət kənˈstɪtjʊənts/, component /kəmˈpəʊnənt/, fr. constituant,-e composant,-e, azərb. tərkib. – İstənilən dil vahdini göstərmək üçün işlənən vahid. Bir neçə vahid birləşərək konstruksiya yaradır. Hər bir cümlə tərkiblərə bölünür. Məs.: Azərb. d. /Yeni binalar göyə yüksəlir/. Burada /yeni binalar/ və /göyə yüksəlir/ tərkiblərdir. Burada /yeni binalar/ ismi söyləm, /göyə yüksəlir/ feli söyləmdir. Onlar hierarxik qaydada birləşərək daha yüksək tərkib yaradır. A və B birləşib bilavasitə C tərkibini yaradır. L.Blumfildin təliminə əsasən təhlil belə aparılmalıdır.

H.Bußmann. Göstərilən əsəri, s. 413.

СОСТОЯНИЕ ЯЗЫКА - alm. Sprachzustand (m), ing. state of language /steɪt əv ˈlæŋgwɪdʒ/, fr. état de langue, azərb. dilin vəziyyəti. – Dil tarixində müəyyən bir mərhələdə onun sistem və struktur əlaqələrinin vəziyyəti, bir sinxron kəsimi.

О.С.Ахманова. Göstərilən əsəri, s. 444.

СОТОЮЖНЫЙ ЯЗЫК - alm. Süd-Sotho Sprache (f), ing. SothoSouth language /ˈsuːtuːsəθ-, saʊθ ˈlæŋgwɪdʒ/, fr. langue sote du Sud, azərb. cənubi sot dili. – Bantu dillərindən biri. Əsasən Lesota Krallığında yayılmışdır. Lesota Krallığında ingilis dililə bərabər rəsmi dövlət dilidir. Bu

dildə təqribən 4 milyona qədər əhali danışır. Yazısı latın qrafikası əsasındadır.
R.A.Paroz Elements of Southern Sotho. Morija-Basutoland, 1946.

СОЦИОЛИНГВИСТИКА - alm. Soziolinguistik (f), ing. sociolinguistics /ˈsəʊʃɪəʊ, ˈsəʊsɪəʊlɪŋˈgwɪstɪks/, fr. sociolinguistique, azərb. sosioloji dilçilik (sosiodilçilik). – Dilçiliyin və sosiologiyanın kəsişməsində dilin sosial vəziyyətini, onun cəmiyyətdə işlənməsi xüsusiyyətlərini, cəmiyyətin ayrı-ayrı sosial təbəqələrinin dilə münasibətini və s. öyrənən dilçilik şöbəsi. Sosiolinqvistikanın öyrəndiyi məsələləri təxminən belə qruplaşdırmaq olar: 1) dilin işlənməsində sosial əhəmiyyət kəsb edən normanın müəyyənləşdirilməsi (harada, kim, necə, hansı dildə danışır). Bu zaman cəmiyyətin təbəqələrinin dildən necə istifadə etmək prinsiplərini statistik yolla müəyyən etmək mümkündür. Sosioiqtisadiyat, tarix və mədəniyyət baxımından etnik fərdlərin, sosial qrupların və siniflərin dil variativliyi geniş şəkildə öyrənilməlidir (ikidillilik, kodlaşma və s. məsələlər olduqca vacibdir); 2) sırf linqvistik aspektdə dil sistemlərinin prinsipial müxtəlifliyindən çıxış edən tədqiqatlar sosioloji parametrləri nəzərə alır və kəmiyyət metodlarından istifadə edib dil valentliyini sosial əlamətlərdən asılı olaraq (sosial qrup, yaş fərqi və s.) öyrənir ki, buna adətən variasiya linqvistikası deyirlər. Buradan əldə edilən nəticələr dildə dəyişiklər üçün baza rolunu oynayır, 3) etnometodolji və ya etnoqrafik istiqamətli tədqiqatlar etnik qrupları və fərdlərarası əlaqələri (interaktion) ön plana çəkir və sosial gerçəkliyin dildə ifadəsini tədqiq edir.
R.T.Bell. Sociolinguistics Goals approaches and problems. London, 1976; Ə.Rəcəbli. Sosiolinqivistika. Bakı, 2004.

СОЦИОЛОГИЧЕСКОЕ НАПРАВЛЕНИЕ - alm. soziologische Richtung (f), ing. sociological direction /ˌsəʊsɪələ'dʒɪkəl, ˌsəʊʃɪ dɪ'rekʃən/,dʌɪ'rekʃən/, fr. orientation sociologique, azərb. sosioloji cərəyan. – XX əsrin əvvəllərində gənc qrammatiklərin «dil fərdəlrin təsəvvürlərinin» sistemidir təliminə qarşı sosial cərəyan dilin ünsiyyət vasitəsi kimi ictimai funksiyasını ön plana çəkir. Bu da Levl Brül (1857-1939) və başqalarının sosioloji araşdırmalarına söykənək olan H.Şuxardtın (1842-1927) sayəsində daha geniş yayıldı, ancaq F.de Sössürün və A.Meyenin (1866-1947) sayəsində bu istiqamət dilçilikdə «sosioloji dilçilik» adını aldı. Sonralar bu istiqamətə J.Vandriyes (1875-1960), Ş. Balli (1865-1947), A.Seşe (1870-1946) və b. da qoşuldular. Sosioloji dilçilik aşağıdakı müddəaları əsas götürür: a) dil ictimai hadisədir, o, kollektivə, xalqa məxsusdur, amma başqa ictimai hadisələrdən (siyasi, hüquqi və s.) fərqlidir; b) dil işarələr sistemidir və işarələrin fiziki (deyilən və eşidilən) təbiəti var, ona görə də ünsiyyət psixoloji hadisə deyil; c) dil sistemdir, sistem isə iki tərəfi olan işarələrdən ibarətdir, dil sistem kimi sinxron aspektdə öyrənilməlidir; ç) işarə şərtidir, ancaq o həm də danışanlar üçün ixtiyaridir; d) dil nəsildən-nəslə keçir və fərdlərin danışıq fəaliyyətini müəyyənləşdirir; e) dildə yenilikləri

fərdlər yaradır, amma onlar sonra ümuminin **malına** çevrilir. Ancaq fərdlər dil yarada bilməz.

Sosiolji dilçilik dili mahiyyət etibarilə psixi **hadisə** kimi götürür, ancaq o təkcə psixi deyil, həm də ictimai və fiziki **hadisədir**. Dilçilik sosiolinqvistikanın tərkib hissəsi ola bilməz. Dil nə **qədər** sosioloji olsa da, o, yalnız danışanlırın danışığında mövcuddur.

В.М. Алпатов. История лингвистических учений. **М.**, 2001, s. 143-147.

СОЧЕТАЕМОСТЬ - alm. Kombinatorik (f), ing. combinability /kəmˌbinaˈbılıtı, ʌınə-/, compatibility /kəmˈpatıbəlıtı/, fr. compatibilité, azərb. birləşmə (birləşməyə girmək qabiliyyəti). – **Dil** vahidlərinin birləşməyə girmək qaydaları. Sintaqmatik dilçilikdə **mühüm** mərhələ olan bu tədqiqat üsulu dil vahidlərinin birləşmə qaydalarını müəyyənləşdirir. Bu geniş mənada dillərin tipoloji-müqayisəli tədqiqi **üçün** çox önəmli bir üsuldur. Məs.: rus d. /fstr/ dördüzvlü samit birləşməsi /e/ saiti qarşısında gələ bildiyi halda alman dilində bu mümkün deyildir. Birləşmə qaydaları dilin bütün səviyyələri üçün müəyyən edilə bilər. **Məs.**: ing. d. /Tuesday/ /tju:zdı/ və alm. d. /Samstag/ sözlərində birinci komponent yalnız bu sözlərdə mümkündür. İkinci tərəf isə geniş işlənmək imkanına malikdir.

F.Vejsalov (Veysälli). Zur Kombinatorik der deutschen Vokalphoneme. Zeitschrift für Phonetik, allgemeine Sprachwissenschat und Kommunikationsforschung. Bd. 34, H., 6, Berlin, 1981, s. 724-733; Ю.С.Маслов. Göstərilən əsəri, s. 185.

СОЧЕТАНИЕ - alm. Verbindung (f), Kombination (f), ing. combination /ˌkɒmbıˈneıʃən/, fr. combinaison, azərb. birləşmə.

Bax: Сочетаемость ←.

СОЧИНЕНИЕ - alm. Koordination (f), Beiordnung (f), ing. coordination /kəʊˌɔdıˈneıʃən/, coordinatid /kəʊˌɔ:dıˈnætıd/, parataxis /pərətəksıs/, fr. coordination, azərb. tabesizlik əlaqəsi.

Bax: Координация ←.

СОЧИНИТЕЛЬНЫЙ - alm. beiordnend, ing. co-ordinatıve /kəʊˈɔ:dıˈneıtıv/, fr. de coordination, azərb. tabesiz.

Bax: Координация ←.

СОЧИНИТЕЛЬНЫЙ СОЮЗ - alm. beiordnende Konjunktion (f), ing. co-ordinative conjunction /kəʊˈɔ:dıneıtıv kənˈʤʌŋkʃən/, coordinating conjunction /kəʊˌɔ:dıˈneıt:ıŋ kənˈʤʌŋkʃən/, fr. conjonction de coordination, azərb. tabesiz bağlayıcılar. – Praktik qrammatika dərsliklərində əlaqələndirici və ya tabesiz bağlayıcının sadə (und, aber, and, but və s.) və mürəkkəb (sowohl-als auch, nicht nur-sondern auch, as well as, either-or, neiter-nə və s.) növlərini göstərirlər. Semantik baxımdan onlar kopulativ (sıralanma – und, auch, sowohl-als auch, nicht nur-sondern auch, werder–noch, and, as well as və s.), adversativ (qarşılaşdırma – aber, but, teils-teils, bald-bald, (adətən, bu ikisini kopulativə aid edirlər), oder,

entweder, or, either or, neither-no (bu ikisini isə **disyunktiv**, bölüşdürücü adlandırırlar). Bundan başqa, aydınlaşdırma əlaqəsini bildirən bağlayıcılar da var (das heisst, nämlich, sozusagen, kurz, **d. i.** (das ist), z. B. (zum Beispiel), bzw (beziehungsvveise) və s. Tam bağlayıcı olmayan /daher, also, darauf, indessen/ kimi sözlər də bağlayıcı rolunda çıxış edirlər. /denn, ja, nämlich/ səbəb-nəticə əlaqələrinin ifadəsinə xidmət edir. Burada /dann, darauf, schliesslich/ və s. kimi bağlayıcı sözləri qeyd etmək olar.
Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, s. 283.

СОЮЗ - alm. Konjunktion (f), ing. conjunction /kən'dʒʌŋkʃən/, fr. conjonction, azərb. bağlayıcı. – Bağlayıcılar tabeli və tabesiz olmaqla iki yerə bölünürlər. Tabeli bağlayıcılar alm. d. /als, wenn, nachdem, weil və s./; ing. d. (if, when, because və s.) tabelik əlaqələrinin yaranmasına xidmət edir, əsasən mürəkkəb sintaktik bütövlərdə çıxış edir. Məs.: alm d. /Wenn er vorbeigeht,.../; ing. d./ if he comes to us, ... / və s. Tabesiz bağlayıcılar isə tabesiz cümlələr arasında və ya ayrı-ayrı sözlər arasında əlaqə yaradır. Məs.: alm. və ing. d. /er und sie, she and he/ və s.
F.Yadigar (Veysəlli). GDG, s. 289.

СОЮЗ ПОДЧИНИТЕЛЬНЫЙ - alm. subordinierende Konjunktion (f), ing. subordinating conjunctions /sə'bɔ:dıneıti:ŋ kən'dʒʌŋkʃənz/, fr. conjonction de subordination, azərb. tabeli bağlayıcılar. – Cümlə daxilində sözlərin və sintaktik vahidlərin tabelilik əlaqəsi üzrə birləşməsinə xidmət edən bağlayıcılar. Məs.: Azərb. d. /ki, yəni, yəni ki, çünki, belə ki, ona görə, ona görə də və s./; rus d. /когда, как только, что, чтобы, будто бы, так как, потому что, оттого что, как, как будто, словно, если, коли, как скоро, хотя, несмотря на то что, чтобы, для того, для того чтобы/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 446-447.

СОЮЗ ПРОИЗВОДНЫЙ - alm. abgeleitete Konjunktion (f), ing. derivative conjunctions /dı'rıvətıv kən'dʒʌŋkʃənz/, derived conjunctions /dı'raıvd kən'dʒʌŋkʃənz/, fr. conjonction dérivée, azərb. düzəltmə bağlayıcılar. – Avtosemantik sözlərin desemantizasiyası nəticəsində onların bağlayıcıya çevrilməsi. Məs.: rus d. /хотя, благодаря/; azərb. d. istər, /istərsə də, ola bilsin/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 447.

СОЮЗ ПРОСТОЙ - alm. einfache Konjunktion (f), ing. simple conjunctions /'sımpl kən'dʒʌŋkʃənz/, fr. conjonction simple, azərb. sadə bağlayıcı. - Kök morfemdən ibarət bağlayıcı. Məs.: Azərb. d. /və, ki, da/də, həm, lakin, amma və s./; rus d. /а, но, да, зато, и, но/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 447.

СОЮЗ ПРОТИВИТЕЛЬНЫЙ - alm. adversative Konjunktion (f), ing. adversative conjunctions /əd'və:sətıv kən'dʒʌŋkʃənz/, fr. conjonction adversative, azərb. ziddiyyət bildirən bağlayıcılar. – Bir–birinə zidd

münasibətdə olan elementləri birləşdirən tabesizlik bağlayıcıları. Məs.: Azərb. d. /amma, ancaq, lakin/, rus d. /а, но, однако, зато/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 447.


СОЮЗ РАЗДЕЛИТЕЛЬНЫЙ - alm. disjunktive Konjunktion (f), ing. disjunctive conjunctions /dɪsˈʤʌŋktɪv kənˈʤʌŋkʃənz/, distributive conjunctions /dɪsˈtrɪbjutɪv kənˈʤʌŋkʃənz/, partitive conjunctions /ˈpɑ:tɪtɪv kənˈʤʌŋkʃənz/, fr. conjonction disjonctive, azərb. bölüşdürücü bağlayıcılar. - Birləşdirdiyi elementlər arasında onlardan birinin seçilməsi və ya əvəz oluna bilməsi kimi münasibətlər ifadə edən tabesizlik bağlayıcıları. Məs.: Azərb. d. /ya, ya da, və ya, yaxud, həm... həm də və s./; rus d. /или, либо, то... то/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 447.

СОЮЗ СОЕДИНИТЕЛЬНЫЙ - alm. kopulative Konjunktion (f), ing. connective conjunctions /kəˈnektɪv kənˈʤʌŋkʃənz/, fr. conjonction copulative, azərb. birləşdirici (kopulativ) bağlayıcılar. – Bərabərhüquqlu sintaktik bütövlərin birləşməsinə xidmət edən tabesizlik bağlayıcıları. Məs.: Azərb. d. /amma, ancaq, lakin, ki, da/də və s./; rus d. /и, да, ни – ни, не только..., но и, как... так и/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 447.

СОЮЗ СОЧИНИТЕЛЬНЫЙ - alm. beiordnende Konjunktion (f.), ing. co-ordinate conjunctions /kəʊˈɔ:dɪneɪt kənˈʤʌŋkʃənz/, coordinating conjunctions /kəʊˈɔ:dɪneɪti:ŋ kənˈʤʌŋkʃənz/, fr. conjonction de coordination, azərb. tabesizlik bağlayıcısı. – İki dil vahidini tabesizlik əlaqəsilə bir-birinə bağlayan bağlayıcılar. Bağlayıcılar birləşdirici: /və, ilə, həm, həm də, la/lə/, bölgü: (ya, ya da, və ya, gah, gah da), qarşılıq: (amma, ancaq, lakin, fəqət, halbuki), aydınlaşdırma bildirənlər: (yəni, yəni ki), iştirak bildirənlər: (həm, həm də, bir də və s.), inkarlıq bildirənlər (nə, nə də, nə də ki,) və s.; rus d. / а, но, однако, зато, или, либо, то...то, и, да, ни – ни, не только..., но и, как... так и / və s.
M.Hüseynzadə. Göstərilən əsəri, s. 309-317; O.C.Ахманова. Göstərilən əsəri, s. 447.

СОЮЗ ЯЗЫКОВ - alm. Sprachbund (m), ing. unit of languages /junɪt əv ˈlæŋgwɪʤɪz/, fr. l'union des langues, azərb. dillərin birliyi, ittifaqı. – Coğrafi cəhətdən qonşu, ancaq genetik cəhətdən qohum olmayan, ya da uzaq qohumluq əlaqələri olan, qarşılıqlı təsir nəticəsində (adstrat, dil təmasları) konvergensiya əlamətləri. Başqa dillərdən (qohum və ya genetik qohum olmayan) ayrılan dil qrupları. Məs.: balkan dilləri (alban, rumın, yeni yunan, bolqar, makedon, serb-xorvat dilləri); bir-birilə ümumi, ancaq heç də hamısına şamil edilə bilməyən bağlılıq. Məs.: (alban, bolqar, makedon dillərində infinitiv yoxdur, alban, bolqar, rumın və makedon dillərində postpozisiyalı artikl vardır).
H.Bußmann. Göstərilən əsəri, s.698; R.Conrad. Göstərilən əsəri, s. 241.


СПЕКТРАЛЬНЫЙ АНАЛИЗ РЕЧИ - alm. Spektralanalyse der Rede (f), ing. spectral analysis of speech /ˈspektrəl əˈnæləsɪs əv spi:tʃ/, sound spectrography /saʊnd ˈspektɔ:græfɪ/, fr. analyse spectrale du discours, azərb. danışığın spektral təhlili. – 50-ci illərdən başlayaraq dilin səs tərkibinin tədqiqində spektral tədqiqat üsulu geniş yayılır. Danışığın görünüşünü almaq, səslərin spektrini müəyyənləşdirmək və onların qovuşuğunda baş verən dəyişikləri öyrənmək üçün spektroqraf ən mükəmməl cihazlardan sayılır. Hazırda iki cür spektroqrafdan istifadə olunur: a) statik; b) dinamik. Birinci səsdə hansı səs tonu tezliyinin nə dərəcədə qüvvətlənməsini qeydə alır. Səslənmədəki spektr dəyişiklikləri əks olunmur və ona görə də o, təhlil zamanı səsin haqqında ümumi təsəvvür yaradır. Buna səsin ani spektri deyilir.



a) – saitlərin ani spektri b) – saitlərin dinamik spektri

Belə spektroqramın zamanca dəyişikliklərə uğramasını öyrənmək çətindir. Ona görə də son zamanlar dinamik spektroqrafdan istifadə olunur.


Spektroqramda səsin əsas tonunun tezliyi şaquli, zamanı isə üfüqi istiqamətdə verilir. Dinamik spektroqramda səsin ton spektri laylar şəklində əks olunur ki, bunlara ədəbiyyatda formantlar deyilir. Səs spektrində bir neçə formant ola bilər. Onlar Fo, Fı, Fıı, Fıı, Fıv və s. ilə işarə olunur. Spektroqramın lap aşağısında Fo, onun üstündə Fı, sonra Fıı və s. formantları gəlir. Dil səslərinin öyrənilməsində Fı və Fıı əsas əhəmiyyətə malikdir.



Alman dilində [pfaltser, Adel, Koffer, ofen, öde, öffnen, Ufer, Jktus über, üppig, Ebbe, Jgel], sözlərinin spektoqramları


Fıı və Fıv isə danışanın fərdi xüsusiyyətlərini öyrənmək üçün əhəmiyyətlidir. Saitlərdə formantlar aydın görünür. Sonantlar da aydın formant strukturuna malikdir. Cingiltili samitlərin spektroqramında Fo-ı aydın

seçmək mümkündür. Kar novlu samitlər yuxarı tezliklərdə qarmaqarışıq spektrə malikdir, kipləşən-partlayışlılarda isə Fo olmur, kipləşmə ağ sahə, partlayış isə qara nöqtələr şəklində spektrdə qeydə alınır.



Formant xərkeşi


Spektroqramda ton tezliyini ölçmək üçün formant xətkeşindən istifadə olunur. Səsin intensivliyi isə spektrin qaralma dərəcəsi ilə verilir. Spektroqramda qaralma güclü olarsa, intensivlik çox, qaralma dərəcəsi zəifdirsə, səsin intensivliyi az olur. Beləliklə, ossilloqramda olduğu kimi, spektroqramlarda da hər bir səsin üç əsas parametri - əsas tonu, zamanı və intensivliyi haqqında məlumat almaq mümkündür. Lakin ossilloqramlardan fərqli olaraq spektroqram səslərin daxilindəki ardıcıl dəyişmələri görməyə imkan verir.



Azərbaycan dili saitlərinin ayrılıqda tələffüzündən alınmış spektoqramlar


Fonemlərin spektral təhlili. Qapalı saitlərin spektroqramlarında Fo və Fı-i bir-birindən ayırmaq mümkün deyildir, çünki hər bir formant bir neçə tezliyi özündə cəmləşdirir. Açıq saitlərdə isə (ağız boşluğu açıldıqca) yuxarı tezlikdə yerləşir. Fıı isə /i/-də yuxarı, /u/-da isə aşağı tezlikdə olur.

Saitlərin söz daxilindəki spektri onların ayrılıqda tələffüzündən alınmış spektrindən əsaslı şəkildə fərqlənir. Buna da səbəb saitdən əvvəl və ya sonra gələn samitlərin müxtəlif keyfiyyətdə olmasıdır. Dilönü, dilortası və dilarxası samitləri elə təsir göstərir ki, saitin əvvəlində və axırında spesifik keçid vəziyyətləri yaranır. Keçid vəziyyətləri formant başlanğıclarının və sonlarının yüksək və alçaq olmasında özünü göstərir. Məsələn, dilönü samitləri arxa sıra saitlərinin başlanğıcının yüksək tezlikdə olmasını təmin edirsə, dodaq samitləri, bunun əksinə olaraq, keçid vəziyyətlərini alçaq tezliklə təmin edir.



[ot], [eʃk] [χɑs], [ɑrɑ], [elχan] və (eldar) sözlərinin spektoqramları


Ümumiyyətlə, müxtəlif tələffüz məxrəcləri olan səslərin qovuşuğunda təsir və əks-təsir özünü daha aydın göstərir. Eyni tələffüz məxrəci olan səslərin qovuşuğunda isə keçid vəziyyətləri o qədər də nəzərə çarpmır. Saitin vurğulu və ya vurğusuz mövqedə gəlməsindən asılı olaraq reduksiyaya uğrama dərəcəsi spektroqramdan aydın görünür



Azərbaycan dili samitlərinin F_1 və F_2 qiymətlərinə görə düzülüşü

Azərbaycan dili saitlərini ayrılıqda deyilişindən alınmış spektroqramlarını hesablayaraq, hər bir saitin Fı və Fıı-si rəqəmlər şəkilində müəyyənləşdirilmişdir.

Şəkildən göründüyü kimi, Fıı artikulyator cəhətdən saitin tələffüzündə şaquli istiqamətdə, Fı isə üfüqi istiqamətdə hərəkətini əks etdirir. Qapalı saitlər hər iki diktorun ifasında, birinci formanta görə aşağı tezliyə, ikinci formant isə yuxarı tezliyə malikdir. Arxa sıra saitlərindən /o/ və /u/-da Fıı 800-1000 hs sahəsində yerləşir. /a/ və /æ/-də ən yüksək tezliyə malikdir ki, bu da onların Azərbaycan dili saitlər sistemində ən açıq saitlər olmasına dəlalət edir. Fıı-yə görə /æ/ /a/-dan xeyli yüksəkdir. Bu da o deməkdir ki, /æ/ /a/-ya nisbətən qapalı, /i/ və /ü/-dən xeyli açıqdır. /ı/ saiti spektral səciyyəsinə görə qarışıq sait kimi müəyyənləşdirilə bilər. Sonantlar spektral şəklinə görə daha çox saitlərə oxşayır. Bu oxşarlıq sonantlarda saitlərdə olduğu kimi formant strukturunun olmasında özünü göstərir. Amma saitlərdən fərqli olaraq, sonantlarda intensivlik çox zəifdir. Vurğusuz hecalarda isə sonantın intensivliyi saitlə bir səviyyədə, hətta ondan yüksək də ola bilər.



Səsin spektroqramda stasionar və keçid sahəsi

Kar kipləşən-partlayışlı samitlərdə kipləşmə fasilə kimi, partlayış isə kiçik nöqtə şəklində spektroqramda əks olunur. Cingiltili kipləşən partlayışlı samitlərin spektrində Fo sahəsinə uyğun titrəyişlər və bir də partlayış zamanı zəif tezlikli titrəyişlər əks olunur.

Kar, novlu samitlərdə, yuxarıda deyildiyi kimi, yüksək tezliklər də bəzən enli, bəzən isə dar zolaqlar şəklində olur. /f/-də bu çox dar, /s/-də isə enli olur.

Cingiltili novlu samitlərin spektrində küy çox zəif şəkildə yüksək tezliklərdə öz əksini tapır

Qeyd etmək lazımdır ki, ayrı-ayrı səslərin spektrində baş verən dəyişiklikləri öyrənmək üçün onlarda stasionar, birinci və ikinci keçid hissələri ayrılır. Stasionar sahə dedikdə səsin əvvəldən və sondan dəyişikliyə uğrayan keçid hissələrinin təcrid olunması nəticəsində yerdə qalan sabit hissəsi nəzərdə tutulur. 1-ci və 2-ci keçidlər isə səsin ən çox dəyişikliyə uğrayan ekskursiya və rekursiya fazalarına uyğun gəlir. Düzdür, burun samitləri stasionar hissənin aşağı tezliklərə enməsinə səbəb olur.

Fonemlərin spektral təhlilində hər bir formantın qiymətini tapmaq üçün, formant xətkeşi spektroqramın üzərinə qoyulur və hər bir formantın tezliyi müəyyənləşdirilir. Fo, Fı, Fıı qiymətləri tapılır. /ot/ sözündəki /o/-da Fı 650 hs, Fıı isə 160 hs-ə bərabərdir. Bu qiymətləri çıxartmaq üçün hər bir formant strukturunun aşağı və yuxarı hüdudu ölçülür və toplanaraq iki yerə bölünür. Eyni əməliyyatı keçid sahələri üçün də etmək mümkündür.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 147-153.

СПИРАНТ - alm. Spirant (Frikativlaut, Engelaut) (m), ing. spirant /'spaiərənt/, fr. spirante, azərb. novlu samit. – Danışıq cihazında nov əmələ gəlir, ciyərlərdən gələn hava axını novdan süzülərək bayıra çıxan zaman əmələ gələn səsləri novlu samitlər adlandırırlar. Məs.: /v/, /f/, /z/, /ʃ/ və s.
R.Conrad. Göstərilən əsəri, s. 86. ır.

СПОНТАННЫЙ - alm. spontan, ing. spontaneous /spɒn'teınıəs/, fr. spontané,-e, azərb. spontan, hazırlıqsız. – Dildə qeydsiz-şərtsiz baş verən dəyişiklik. Məs.: ing. d. cənubda /moor/ /muə/ (qan almaq) və /poor/ (kasıb, bədbəxt), /more/ /mo:/ (müqayisə dərəcəsi) (daha çox) və /pour/ /pɔ:/ (tökmək) sözlərində sait qovuşub. Bunun heç bir səbəbi yoxdur, spontandır.
P.H.Matthews. Göstərilən əsəri, s. 351.

СПОНТАННОЕ ИЗМЕНЕНИЕ - alm. spontane Veränderung (f), ing. spontaneousi inflexion (change) /spɒn'teınıəsı ın'flekʃən /tʃeındʒ/, fr. changement spontané, azərb. qəfil dəyişmələr.

Bax: Спонтанный ←.

СПОРАДИЧЕСКИЙ - alm. sporadisch, ing. sporadic(al) /spə'rædık(əl)/, fr. sporadique, azərb. sporadik.

Bax: Спорадическое изменение →.

СПОРАДИЧЕСКОЕ ИЗМЕНЕНИЕ - alm. sporadische Veränderung (f), ing. sporadic(al) inflexion (change) /spə'rædık(əl) ın'flekʃən /tʃeındʒ/, fr. changement sporadique, azərb. sporadik dəyişmə. – Ayrı-ayrı söz və morfemlərdə baş verən, onların spesifik funksiyası ilə bağlı olan dəyişik-

liklər **sporadik** adlanır. Məs.: rus d. hörmət mənasında işlənən /гocyдарь/ **dəyişərək** oldu /сударь/ (cənab). /Здравствуйте/ oldu /здрасте/; ing. d. /God **be** with you/ (Qoy allah sizinlə olsun) oldu /God bye/ (Sağ ol); alm. d. /Guten Morgen/ oldu /Gmojn/ (Sabahın xeyr) və s.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 209.

СПОСОБ - alm. Mittel (n), ing. means /mi:n/, method /'meθəd/, fr. manière, procédé, azərb. vasitə, üsul, qayda – Dildə yeni formalar və mənaların yaranmasında iştirak edən vasitələr. Buraya daxil olan vasitələr bunlardır: daxili fleksiya, təkrarlar və söz sırası. Eyni zamanda superseqment vasitələri də – vurğu və intonasiyanı bu vasitələrə daxil etmək olar. Məs.: alm. d. /hant/ (əl) - /hɛndə/ (əllər), /John loves Marie/, /Marie **loves** John//, /Ich werde gelesen// (Mən oxunacağam); rus d. /му'ка/ # /мука'/, intonasiya /казнить, нельзя помиловать/ və ya /казнить нельзя, помиловать/, təkrar /большой-большой/.
А.А.Реформатский. Göstərilən əsəri, s. 287-313.

СПОСОБ АРТИКУЛЯЦИИ - alm. Artikulationsweise (f), ing. mode (means, method, character) of articulation /məʊd/mi:ns/'meθəd 'kærıktə ɑ:ˌtıkjʊ'leıʃən/, fr. mode d'articulation, azərb. tələffüz üsulu. – Tələffüz üsuluna görə samit səslər kipləşən-partlayışlı - /b, p, d, t, q, k./, kipləşən-novlu - /pf, ʦ, ʧ/, novlu - /v, f, z, s, j, ç,x,h/, titrək /R/ və süzülən /l/ olur.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

СПОСОБ ОБРАЗОВАНИЯ - alm. Bildungsweise (f), ing. mode (means, method, character) of articulation /məʊd/mi:ns,'meθəd 'kærıktə/ əv ɑ:ˌtıkjʊ'leıʃən/, fr. mode de formation, azərb. əmələ gəlmə üsulu.
Bax: Способ артикуляции ←.

СПРЯЖЕНИЕ - alm. Konjugation (f), ing. conjugation /ˌkɒnʤʊ'geıʃən/, fr. conjugaison, azərb. təsriflənmə. – Fellər şəxsə görə şəkilçi qəbul edərək təsriflənirlər.
Bax: Категория лица глагола ←.

СРАВНЕНИЕ - alm. Vergleich (m), ing. comparison /kəm'pærısn/, compare /kəm'peə/, fr. comparaison, azərb. müqayisə. - 1) Müqayisə iki dil vahidini bir-birindən fərqləndirmək məqsədilə aparılır. Məs.: ing. d. /He is taller than me// (O məndən ucadır). İngilis dilində müqayisə /er/ şəkilçisi və /than/ ədatı ilə, Azərb. d. isə hal şəkilçisilə düzəlir. İng. d. müqayisə üçün /more/ və /less/ zərfləri də işlənir. Məs.: /He is more fortunate than me// (O məndən çox xoşbəxtdir) və ya /She is less fortunante than me// (O məndən az xoşbəxtdir) və s;
2) Müqayisə dillərin genetik qohumluğunu sübut etmək üçün istifadə olunan metoddur. Məs.: müqayisə yolu ilə dil ailələrini və qruplarını müəyyənləşdirmək olar. Bu daha çox tarixi-müqayisəli metoddur;

3) Müqayisə dillərin tutuşdurularaq öyrənilməsinə də kömək edir. Bu zaman dillər arasında fərqli və oxşar cəhətləri müəyyənləşdirərək dillərin tipologiyasını işləyib hazırlamaq olur.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 237-248.

СРАВНЕНИЕ ЯЗЫКОВ - alm. Sprachvergleich (m), ing. linguistic comparison /lɪŋ'gwɪstɪk kəm'pærɪsn/, fr. comparaison des langues, azərb. dillərin müqayisəsi.
Bax: Сравнение ←.

СРАВНИТЕЛЬНАЯ ГРАММАТИКА - alm. vergleichende Grammatik (f), ing. comparative grammar /kəm'pærətɪv 'græmə/, fr. grammaire comparée, azərb. müqayisəli qrammatika. – Müqayisəli qrammatika XIX əsrin birinci rübündə geniş vüsət aldı. Rusiyada A.X.Vostokov (1781-1864), F.F.Fortunatov (1848-1914), Almaniyada F.Bopp (1791-1867), R.Rask (1787-1832) və Y.Qrimm (1785-1863) müqayisəli qrammatikanın baniləri sayılırlar. Ancaq onlar tarixi-müqayisəli metoddan istifadə etməklə qrammatika elmini yaratdılar. Məsələn, F.Boppun, A.Meyenin təbirincə desək, Hind-Avropa dillərini şərh etməsi Kolumbun Amerikanı kəşf etməsinə bərabərdir. F.Bopp qohum dillərin materialları əsasında sistemli nəzəriyyə işləyib hazırladı. Yəni bu dillərdə ayrı-ayrı oxşar və ya qohum hadisələr deyil, oxşarlıqların bütöv bir sistemini müəyyənləşdirdi. O, qədim formaları axtarıb tapmaqla bir dilin hadisələrini başqa dilin analoji hadisələrinin köməyi ilə şərh edirdi. Bununla da o, tarixi-müqayisəli metodun əsasını qoymuş oldu. O «Vergleichende Grammatik des Sanskrit. Zend, Armenischen Griechischen, Lateinischnen, Litauischen, Altslavischen, Gotischen und Deutschen» (1833-1852), (ikinci nəşri 1857-1861) adlı əsərində faktiki olaraq müqayisəli qrammatikanın yaradıcısı kimi çıxış edir.

R.Rask island dili sahəsində tədqiqatları ilə germanistikanın inkişafına təkan verdi. Y.Qrimm isə german dillərində birinci və ya german samit dəyişmələri qanununu kəşf etdi:

Ulu dildə. /bh, dh, gh/ → germ. dil. /b, d, g/
/b, d, g/ → ... /p, t, k/
/p, t, k/ → ... /f, th, h/

Onun 4 cildlik «Deutsche Grammatik» (1837) əsəri çox sanballı bir əsər idi. İkinci və ya alman samit dəyişmələri qanununu o, bir qədər sonra kəşf etdi:

germ. d.: /p, t, k, b(v), d, g (j)/
alm. d.: /pf, ff, (t), z, zz, ss, (k), ch, hh, (cx), b (p), d (t), g (k)/

Я.В.Лоя. История лингвистических учений. M., 1968, s. 46-51; F.Yadigar (Veysəlli). GDG. s. 30-31.

СРАВНИТЕЛЬНО-ГРАММАТИЧЕСКИЙ МЕТОД - alm. vergleichend-grammatische Methode (f), ing. comparative grammatical method

/kəm'pærətıv grə'mætıkəl 'meθəd/, fr. méthode grammaticale comparée, azərb. müqayisəli-qrammatik metod.
Bax: Сравнительная грамматика ←.

СРАВНИТЕЛЬНО-ИСТОРИЧЕСКИЙ МЕТОД - alm. vergleichend-historische Methode (f), ing. comparative historic(al) method /kəm'pærətıv hıs'tɔrık(əl) 'meθəd/, fr. méthode comparative-historique, azərb. müqayisəli-tarixi metod. – Müqayisəli-tarixi metod ayrı-ayrı və ya qohum dillərin tarixini öyrənmək üsuludur. Müqayisəli-tarixi metodun məqsədi dillərin ümumi tarixini yaratmaqdır.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 230.

СРАВНИТЕЛЬНО-ИСТОРИЧЕСКОЕ ЯЗЫКОЗНАНИЕ - alm. vergleichend-historische Sprachwissenschaft (f), ing. comparative-historical linguistics /kəm'pærətıv hı'stɔrıkəl lıŋ'gwıstıks/, fr. linguistique historique-comparée, azərb. müqayisəli-tarixi dilçilik.
Bax: Сравнительная грамматика ←.

СРАВНИТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. Komparativsatz (m), ing. comparative sentence /kəm'pærətıv 'sentəns/, fr. proposition comparée, azərb. müqayisə cümləsi. – Müqayisə budaq cümlələri real və qeyri-real olmaqla iki yerə bölünürlər. Məs.: alm. d. /Er benimmt sich besser als wir erwartet hätten// (O özünü bizim gözlədiyimizdən yaxşı apardı), /Er tut, als ob er nichts höre// (O elə edir ki, guya heç nə eşitmirdi).
W. Admoni. Göstərilən əsəri, s. 277.

СРЕДИЗЕМНОМОРСКИЕ ЯЗЫКИ - alm. Mittelmeersprachen (Pl.), ing. Mediterranean languages /ˌmedıtə'reınjən 'læŋgwıʤız/, fr. langues méditerranénnes, azərb. aralıq dənizi dilləri. – Genetik mənsubiyyəti dəqiqləşdirilməmiş Cənubi Avropa və Aralıq dənizi adalarında yayılmış bir sıra dillərin ümumi adı. Aralıq dənizi dillərinin yeganə canlı nümayəndəsi bask dilidir. İtaliyada yayılmış etrusk dili (b. e. ə. VIII əsr) və het dili (b. e. ə. I-III əsrlər) də (roman dillərinə qədərki dövrdə yayılmış) Aralıq dənizi dillərinə aid edilir.
В.Георгиев. Исследования по сравнительно-историческому языкознанию. М., 1958.

СРЕДНЕПЕРСИДСКИЙ ЯЗЫК - alm. Mittelpersisch (n), ing. Middle Persian language /'mıdl 'pɜ:ʃən 'læŋgwıʤız/, fr. langue persane moyenne, azərb. orta fars dili. – Cənub-qərb yarımqrupuna aid olan ölü orta fars dili (pəhləvi dili). Əsasən İranın cənubunda, sonralar isə Sasanilər dövləti ərazilərində yayılmışdır (III-VII əsrlər) və həmin dövrlərdə Sasanilər dövlətinin rəsmi dili olmuşdur.
В.С.Расторгуев. Среднеперсидский язык. М., 1966.

СРЕДНИЙ РОД - alm. sächliches Geschlecht (n), ing. neuter (gender) /'nju:tə/dʒendə/, fr. genre, neutre, azərb. orta cins. – Alm. və rus d. qrammatik cins kateqoriyası öz formal göstəricisilə fərqlənir. Müq. et: alm. d. /chen/, /lein/, /es/, /ge-e/. Məs.: /das Mädchen/ (qız), /das Herrlein/ (cənabcığaz), /es schreibt/ (qız yazır), /das Gebaüde/ (bina); rus d. /e, o/. Məs.: rus d. /поле/, /море/, /тело/,/село/, /оно сказало/ və s.
H.Glinz. Göstərilən əsəri.

СРЕДНИЙ РЯД - alm. mittlere Reihe (f), ing. mid(dle) row /'mıdl rəʊ/, fr. rang moyen, azərb. orta sıra. – Orta sıra saitlərinin əmələ gəlməsində dilin ön və orta hissəsi bütövlükdə damağa doğru qalxmış olur ki, belə vəziyyətdə ağız boşluğu təqribən iki bərabər hissəyə bölünür. Azərb. d. /ə/, /ø/ saitləri orta sıra saitləridir.
Ə.Dəmirçizadə. Müasir Azərbaycan dili. Fonetika. Bakı, 1972, s. 39.

СРЕДНИЙ СЛОГ - alm. mittlere Silbe (f), ing. middle syllable /'mıdl 'sıləbl/, theory of three styles /'θıərı əv θri: staıls/, fr. syllabe du milieu, azərb. orta heca. - Söz və ya söz formaları daxilində orta mövqedə gələn heca. Məs.: Azərb. d. /balaca/, /qaraca/ və s.
F.Yadigar (Veysəlli). GDG.

СТАНДАРТНЫЙ ЯЗЫК - alm. Standardsprache (f), ing. standard language /'stændəd 'læŋgwıdʒ/, fr. langue standardisée, azərb. standart dil. – Ünsiyyətdə düzgün işlənən dil, bir qayda olaraq yazı və rəsmi danışıqlar və mədəni təsisatlarda işlənən dil. Məs.: Standart ingilis dili.
P.H.Matthews. Göstərilən əsəri, s. 357.

СТАРОСЛАВЯНСКИЙ ЯЗЫК - alm. Altslavisch (n), ing. Old Slavonic language /əʊld Slə'vənık 'læŋgwıdʒ/, fr. l'ancienne langue slave, azərb. qədim slavyan dili. – Bizə gəlib çatan X-XI əsr qədim slavyan abidələrinin dili. Qədim slavyan dilinin əsasını cənub slavyan dialekti təşkil edir. Qədim slavyan dilindəki abidələr iki əlifbada qlaqolitsa və kiril əlifbalarında yazılmışdır. Qədim slavyan dili cənub qrupuna aiddir və bu qrupa xas olan xüsusiyyətləri əks etdirir:
1) Başlanğıc birləşmələr /ra-/, /la-/ müasir rus dilindəki ro-, lo- birləşmələrinə müvafiq gəlir. Məs.: qədim slavyan dili /равьнъ/, /ладии/, müasir rus dili /ровный/, /лодка/;
2) Yarımsaitlik Müq. et: qədim slavyan dili /брада/, /глава/, /млѣко/, müasir rus dili /борода/, /голова/, /молоко/;
3) Qədim /tj/, /dj/, /št/, /žd/ birləşmələrinin dəyişməsi. Müq. et: qədim slavyan dili /свѣща/, /межда/, müasir rus dili /свеча, межа/ və s.
А.М.Селищев. Старославянский язык. ч. 1-2, М., 1951-52.

СТАТИКА - alm. Statik (f), ing. statics /'stætıks/, fr. statique, azərb. statika. – Qrammatikada fellərin növündə geniş işlənir. Onlara bəzən vəziyyət felləri də deyirlər. Məs.: alm. d. /kennen/ (tanımaq), /empfindən/

(duymaq), /bezahlen/ (saymaq), /mögen/ (istəmək) elə əlaməti və ya əlaqələri bildirir ki, heç bir hərəkət və ya dəyişiklik olmur, yəni statik məqamları yenidən başlamaq, dayandırmaq, kəsmək və ya onlara təsir etmək olmaz. Buna dəlalət edən amillərdən biri də onların əsas mənasında əmr formasında çıxış edə bilməmələridir. Məs.: alm. d. /kennen hoffen!/ (tanımağa ümid etmək) modal zərflərlə məs.: /freilich/ (sərbəst), /heimlich/ (gizli) birləşə bilmir. Bunlardan fərqli olaraq dinamik fellər (məs.: /welken/ (solmaq), /arbeiten/ (işləmək), /lesen/ (oxumaq) vəziyyətin dəyişməsini bildirirlər, özü də /arbeiten/ (işləmək), /lesen/ (oxumaq) fellərində hərəkətlər iş icraçısı vasitəsilə görülür. Statiklik həm də sifətlərə şamil edilə bilər. Məs.: /alt/ (qoca), /reich/ (zəngin), ancaq /schnell/ (tez), /hilfsbereit/ (köməyə hazır). Bir sıra fellərin məchul forması olmur. Məs.: alm. d. /Das Buch wird von ihm/ işlənmir. İng. d. belə fellər proqressivdir. Məs.: ing. d. /He is knowing Bill// (O, Bili tanıyır).
H.Buβmann. Göstərilən əsəri, s. 734.

СТАТИСТИЧЕСКИЙ МЕТОД - alm. statistische Methode (f), ing. statistic(al) method /stə'tıstık(əl) 'meθəd/, fr. méthode statistique, azərb. statistik metod. – Statistik metod riyazi üsulların köməyilə dil vahidlərinin kəmiyyət əlamətlərini üzə çıxartmağa imkan verir. Fonetik vahidlərin funksional yükünü müəyyənləşdirilməsi alimləri çoxdan narahat edir. Sonralar Praqa Dilçilik məktəbi, xüsusilə də, onun ayrı-ayrı nümayəndələri, statistik metodlara xüsusi diqqət yetirmiş və onu konkret tədqiqatlarında tətbiq etmişlər. Ancaq amerikan alimi G.K.Tsipf (1902-1950) riyazi yolla bəzi mühüm əlamətləri aşkar edə bilmişdir. O, belə nəticəyə gəlmişdir ki, ən az enerji sərf etməklə düzələn dil vahidləri daha yüksək işlənmə tezliyinə malikdir. Digər tərəfdən, az enerji sərf etməklə tələffüz edilən səslər daha çox işlənmə tezliyi göstərirlər.

Tədqiqatlar göstərir ki, 50 minlik lüğətdə sözləri tezlik siyahısında düzsək, görərik ki, 15 ən çox işlənən söz istənilən mətndəki sözlərin 25%-ni və 100 ən çox işlənən söz 85%-ni, 4000 söz isə istənilən mətnin 97,5 %-ni təşkil edir. Bu hesablamalar xarici dilin tədrisini yenidən qurmaq, bu məqsədlə yazılan dərsliklərdə məhz daha çox işlənən sözlərdən istifadə etmək tələbini zəruri edir.

Statistik hesablamalar birmənalı şəkildə sübut etmişdir ki, yüksək işlənmə tezliyini ən qısa, daha qədim, morfoloji cəhətdən daha sadə və daha çox məna tutumu olan sözlər təşkil edir.

Statistik metodlar ayrı-ayrı müəlliflərin üslubunu müəyyənləşdirməkdə böyük rol oynayır. Hətta tarixi dilçilikdə də (elmi ədəbiyyatda buna qlottoxronologiya deyirlər) kəmiyyət kriteriyalarından istifadə olunur.

Məlumdur ki, sözün məlumat tutumu onun işlənməsi tezliyinə tərs mütənasibdir. Gözlənilmədən işlənən sözün məna tutumu daha böyükdür. Azərbaycan dilində /qata+r/ sözündə /r/ fonemi heç bir informasiya daşımır, çünki bu sözdə /r/ samitindən başqa heç bir samit işlənə bilməz.

Ancaq /qa+r/ sözündəki /r/ müəyyən informasiya daşıyır, çünki bu mövqedə /l, n, z, t/ və s-dən hər biri gələ bilər. Deməli, dil vahidinin seçilmə ehtimalı böyük olduqca, onun informativliyi də böyük olur. Odur ki, /qar/ sözündəki /r/ daha informativdir, çünki onun bu sözdə gəlmə ehtimalı beşdə birə bərabərdir. Başqa sözlə desək, /qatar/ sözündə axırıncı samit tələffüz olunmasa belə, bu ünsiyyətə xələl gətirməz. Beləliklə, dildə müəyyən ünsiyyət məqamında hər hansı bir vahid deyilməsə də, məna pozulmur, sözü bərpa etmək olur. Bu informasiya nəzəriyyəsində redundantlıq (izafilik) adlanır (məs.: qata+r). Dil vahidi buraxıldığı halda ünsiyyətin pozulması müşahidə olunarsa, buna relevantlıq deyilir (məs.: qar). Kibernetikanın ən çox işlətdiyi məfhum entropiyadır. Entropiya fizikadan əxz edilib və hadisələrin qeyri-müəyyənliyini ölçmək üçün tətbiq edilən üsuldur. Məs.: alman dilində /p/ samitindən sonra /z/ fonemi /r-ya nisbətən daha az ehtimal olunandır, çünki /pr/ fonem birləşməsi mümkündür, ancaq /pz/ mümkün deyildir. Beləliklə, redundantlığı hesablamaq olar və küyün statistik əlamətlərini tədqiq etmək mümkündür. Amma bir şey xüsusi qeyd edilməlidir ki, redundant nəsə artıq bir şey kimi başa düşülməməlidir. Bəzən ünsiyyətdə redundant deyiləni başa düşmək üçün mühüm əhəmiyyət kəsb edir. Məs.: səsli-küylü danışıqda deyiləni başa düşməkdə bu əlamət son dərəcə əhəmiyyətlidir.

Statistik tədqiqatlarda ehtimal nəzəriyyəsi mühüm rol oynayır. Bu yolla hər bir dil vahidinin işlənməsi ehtimalını müəyyənləşdirmək və proqnozlaşdırmaq mümkündür. Bu da maşınla tərcümədə vacib rol oynayır.

Maşınla və ya avtomatik tərcümə bəşəriyyətin çoxdankı arzusudur. Təssəvvür edək ki, kompüterdə yazılmış hər hansı bir mətni bir qrafikadan o birisinə keçirməyə düyməni basmaqla nail olduğumuz kimi, tərcümədə də bir dilin mətninin o biri dilə bir düymə ilə çevirmək olardı. Bu sahədə ilk cəhdi 1933-cü ildə P.Petroviç Smirnov Troyanski etmişdir. Sonralar bu ideya özünə daha çox tərəfdar tapdı. 1952-ci ildə Amerikada maşınla tərcüməyə həsr olunmuş I konqres oldu. Özü də orada cəmi 18 adam iştirak edirdi. 1954-cü ildə N.Yorkda onun ilk nümayişi oldu. İVM-in təşkil etdiyi bu tədbirdə rus dilindən ingilis dilinə 250 sözlü 701 tərcümə nümayiş etdirildi. 1955-ci ildə 952 sözlü mətn rus dilinə tərcümə edildi.

Son dövrlərdə avtomatik sintez və analizdən istifadə etməklə məsələni durğunluq nöqtəsindən tərpətmək istəyirlər. Avtomata sözlər və qaydalar verilir və bu yolla da mütəxəssislər törəmə qrammatikası ruhunda cümlələr düzəltməyə nail olurlar. Məqsəd hər hansı bir cümlənin sintaktik konstruksiyasını tanımaqdan ibarətdir. Maşın öz yaddaşındakı göstəricilər əsasında cümlənin sintaktik strukturunu düzəldir. Bu zaman cümlədə meydana gələ bilən ikimənalılıq əvvəlcədən verilmiş qaydalar əsasında nəzərə alınır. Amma o da doğrudur ki, tərcümədən öncə elə maşın düzəltmək lazımdır ki, o bilgili olsun və düşünə bilsin.

F.Yadigar (Veysəlli). GDG. s. 65-71.

СТАТИСТИЧЕСКАЯ ЛИНГВИСТИКА – alm. statistische Linguistik (f), ing. statistic(al) linguistics /stə'tıstık(əl) lıŋ'gwıstıks/, fr. linguistique statistique, azərb. statistik linqvistika.

Bax: Математическая лингвистика ←.

СТЕПЕНЬ СРАВНЕНИЕ - alm. Steigerungsstufe (f), ing. degrees of comparison /dı'gri:s əv kəm'pærısən/, fr. degrés de comparaison, azərb. müqayisə dərəcəsi. – Alman dilində dərəcələnmənin mərhələləri: müqayisə 1-ci, şiddətlənmə isə 2-ci mərhələdir. Ümumiyyətlə, hind-Avropa dillərində adi, müqayisəli və şiddətləndirmə dərəcələri fərqləndirilir. Bundan başqa, bir elativ dərəcəsi də fərqləndirilir. Məs.: alm. d. /Liebste Mutter/ (Əzizdən əziz ana). Azərbaycan dilçiliyində bəzən üç, bəzən də beş dərəcənin olması fikri irəli sürülür. Əslində, /qapqara/, /lap qara/ eyni dərəcədə ifadə olunmuş formalardır. /boztəhər/, /bozumtul/ da eynilə bir dərəcənin müxtəlif variantlarıdır.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 246-247.

СТЕПЕНЬ ПОЛОЖИТЕЛЬНАЯ - alm. Positiv (m), ing. positive degree /'pɒzətıv dı'gri:/, fr. degré positif, azərb. adi dərəcə.

Bax: Степень сравнения ←.

СТЕПЕНЬ ПРЕВОСХОДНАЯ - alm. Superlativ (m), ing. superlative degree /sju:'pɜ:lətıv dı'gri:/, fr. degré superlatif, azərb. üstünlük (şiddətləndirmə) dərəcəsi.

Bax: Степень сравнение ←.

СТЕПЕНЬ СРАВНИТЕЛЬНАЯ - alm. Komparativ (m), ing. comparative degree /kəm'pærətıv dı'gri:/, fr. degré comparatif, azərb. müqayisə dərəcəsi.

Bax: Сравнительная степень ←.

СТЕРЖНЕВОЕ СЛОВО - alm. Stammwort (n), ing. main (head, pivotal) word /meın/hed 'pıvətl/ wɜ:d/, fr. mot principal, (cardinal), azərb. kök, özək söz. – Tarixən nə düzəltmə, nə də mürəkkəb söz. Məs.: alm. d. /gut/ (yaxşı), /Mann/ (kişi) və s. Sinxron yanaşmada tərkib hissələrinə bölünməyən söz. Məs.: alm. d. /Mensch/ (adam), tarixən /Mann/ sözündəndir.

R.Conrad. Göstərilən əsəri, s. 252.

СТИЛИЗАЦИЯ - alm. Stilfärbung (f), ing. stylization /'staılaızeıʃən/, fr. stylisation, azərb. üslublaşdırma, çalarlıq. – Danışığın üslubu çalarlığı, bu neytral danışıqdan ekspressiv ifadəliliyə çevrilir. Növləri: zarafat çalarlığı. Məs.: Azərb. d. /Həvva paltarı/, inamlılıq çalarlığı /qocaciyəz/, mənanı zəiflətmək çalarlığı /çırpışdırmaq/, kinayəlilik /min dəfə ağıllı/, şişirtmə /acığından dodağını çeynəmək/ və s.

R.Conrad. Göstərilən əsəri, s. 254.

СТИЛИСТИКА - alm. Stilistik (f), Stilkunde (f), ing. stylistics /staı'lıstıks/, styles /staıls/, fr. stylistique, azərb. üslubiyyat. – Üslubiyyat haqqında elm. Üslubiyyat müəyyən məqsəd və təsir göstərmək üçün dil vahidlərinin seçilməsi və işlədilməsi qaydalarını öyrənir. O, ədəbiyyatşünaslıq və estetikaya daha yaxındır. Üslubiyyat dil vahidlərinin təsviri sayəsində onların təhlilinə zəmin yaradır. Üslubiyyat XIX əsrdə ritorikadan ayrılıb.
R.Conrad. Göstərilən əsəri, s. 254.

СТИЛЬ - alm. Stil (m), ing. style /staıl/, fr. style, azərb. üslub. - 1) Ünsiyyət məqsədilə əlaqədar dil vasitələrini seçmə, seçilən vahidləri əlaqələndirib birləşdirmə baxımından səciyyələnən dil növü; 2) Müəyyən müəllif, əsər və ya janr üçün səciyyəvi olan dil vasitələrindən istifadə; 3) Ekspressiv çalarına görə dil vasitələrindən seçmə və əvəzetmə prinsipi üzrə istifadə; 4) Dilin sintaktik qaydaları və sözişlətmə normaları əsasında yazma və danışma.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 296.

СТИЛЬ ЖАНРОВЫЙ - alm. Genrestil (m), ing. styles of genre /staıls əv ʤenre/, fr. style de genre, azərb. janr üslubu. – Hər hansı bir janrı səciyyələndirən üslub növü. Ədəbiyyatşünaslıqda əsasən lirik, epik və dramatik janrlar olduğu göstərilir.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 296.

СТИЛЬ ИНДИВИДУАЛЬНЫЙ - alm. individueller Stil (m), ing. individual style /ˌındı'vıdjʊəl staıl/, fr. style individuel, azərb. fərdi üslub. – Müəllifin bütün əsərlərində və ya müəyyən dövrdə yazılmış əsərlərində özünü göstərən əsas üslubi vahidlərin məcmusu; müəyyən şəxsin şifahi və yazılı nitqini səciyyələndirən sözişlətmə və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 296.

СТИЛЬ НЕЙТРАЛЬНЫЙ - alm. neutraler Stil (m), ing. neutral style /'nju:trəl staıl/, fr. style neutre, azərb. neytral üslub. – Heç bir xüsusi üslubi göstəricisi olmayan və dilin bütün üslublarında özünü göstərən üslub.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 296.

СТИЛЬ ПРОИЗНОШЕНИЯ - alm. Aussprachestil (m), ing. style of pronunciation /staıl əv prəˌnʌnsı'eıʃən/, fr. style de prononciation, (articulation), azərb. tələffüz üslubu. - Ədəbi dildə düzgün danışmaq üçün onun ayrı-ayrı səslərini, səs birləşmələrini, sözlərini və cümlələrini düzgün tələffüz etmək vacibdir, çünki fikrin düzgün başa düşülməsi deyilənin aydın tələffüz olunmasını tələb edir.

Akademik L.V.Şerba tələffüzdən danışarkən onun iki növünü fərqləndirir:

1. Səlis tələffüz.
2. Danışıq tələffüzü.

Səlis tələffüz səsləri aydın, tamam başa düşülən tərzdə, sözləri və cümlələri düzgün vurğu və intonasiya ilə tələffüz etməyə deyilir. Məs.: alm. d. /'ta:fəl/, /ˌ'bru:dər/. Bu tələffüz tərzinə əsasən savadlıların danışığında, televiziya və radio verilişlərində rast gəlinir.

Danışıq tələffüzünə isə, adından məlum olduğu kimi, danışıq dilində, ara söhbətlərində, etinasız danışıqda və s. rast gəlmək mümkündür.

Aydın məsələdir ki, alman ədəbi dilinin fonetikasını öyrənərkən birinci tələffüz üsulundan çıxış etmək lazımdır.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 56-57.

СТОИКИ - alm. Stoiker (Pl.), ing. stoics /'stəʊɪks/, fr. stoïciens, azərb. stoiklər. – Stoiklər ənənəvi qrammatikanın banisi sayılırlar. Eramızın başlanğıcında Yunanıstanda anomistlərdən olan stoiklər dilə təbiətin bir hissəsi kimi yanışır, onun işlədilməsinə diqqət yetirməyi tələb edirdilər. Eyni zamanda onlar iddia edirdilər ki, dil razılaşmadır və ondan sapmalar olmamalıdır. Belə sapmalar olarsa, müəyyən model əsasında düzəltmələr olacaqdır. Elmi qrammatikanın təhlil metodikasını işləyib hazırlayan stoiklər dilin yaranmasının fəlsəfi problemləri, məntiq və ritorika ilə də ardıcıl məşğul olmuşlar. Onların qrammatikası dilçilik tarixinə yunan qrammatikası adı altında daxil olub. Onlar qrammatikanın deskriptiv (dil danışıldığı və ya yazıldığı kimi təsvir olunmalıdır) və reskriptiv (normativ) (necə danışılmalıdır və ya yazılmalıdır qaydalarına əsaslanaraq təsvir edilməlidir) növlərini fərqləndirməklə bağlı geniş diskussiyalar aparmışlar.

D.Crystal. Einführung in die Linguistik. Stuttgart, 1975; F.Yadigar (Veysəlli). GDG, s. 13-23.

СТРАДАТЕЛЬНОЕ ПРИЧАСТИЕ - alm. passives Partizip (n), ing. passive participle /'pæsɪv 'pɑ:tɪsɪpl/, fr. participe passif, azərb. məçhul feli sifət. – Məchul növ fellərindən əmələ gələn feli sifət. Məs.: Azərb. d. /içilmiş/, /yazılmış/; alm. d. /gesungen/ (oxunmuş), /getrunken/ (içilmiş); ing. d. /sung/ (oxunmuş), /drung/ (içilmiş); rus d. /прочитанная книга/, /критикуемая книга/ və s.

А.В.Исаченко. Göstərilən əsəri.

СТРАДАТЕЛЬНЫЙ ЗАЛОГ - alm. Passiv (n), ing. passive voice /'pæsɪv vɔɪs/, fr. voix passive, le passif, azərb. məchul növ. - Semantik baxımdan məchul növ felin ifadə etdiyi hərəkətin icrasında subyektin fəal iştirak etmədiyini, bildirir. Azərb. d. felin məchul növü /yıl/[4] və /ıl/[4] şəkilçilərilə düzəlir. Müq. et: /yazılmaq/. Rus d. /-ся, сь/ şəkilçiləri və məchul feli sifətlə əmələ gəlir. Müq. et: rus d. /дом строится/, /дом был построен/. Alm. və ing. dillərində passiv sintaktik səviyyədə əmələ gəlir. Müq. et: alm. d. /Der Brief wird geschreiben//; ing. d. /The letter has been written// (məktub yazılır)və s.

А.В.Исаченко. Göstərilən əsəri, s. 163.

СТРОЕНИЕ - alm. Struktur (f), ing. structure /'strʌktʃə/, fr. structure, texture, azərb. qurum, struktur, quruluş.
Bax: Структура →.

СТРОЙ - alm. Bau (m), ing. structure /'strʌktʃə/, fr. régime, ordre, organisation, azərb. quruluş. – Dilin sistem və struktur əlaqələrinin məcmusu.
Bax: Структура →.

СТРОЙ ГРАММАТИЧЕСКИЙ - alm. grammatischer Bau (m), ing. grammatical structure /grə'mætıkəl 'strʌktʃə/, fr. structure grammatical, azərb. qrammatik quruluş. – 1) Dilin qrammatik vasitələrinin (morfoloji, sintaktik, leksik, fonoloji) məcmusu; 2) Dilin obyektiv şəkildə qrammatik qruluşunun təsvirini verən qrammatik kitablar. Məs.: W.Q.Admoni. Der deutsche Sprachbau. München, 1986.

СТРОЧНАЯ БУКВА - alm. Kleinbuchstabe (m), ing. lower-case letter /'ləʊə keıs 'letə/, fr. minuscule, lettre minuscule, azərb. kiçik hərf.
Bax: Буква ←.

СТРОЧНОЕ ПИСЬМО - alm. einfache Schrift (f), ing. lower-case letter /'ləʊə keıs 'letə/, fr. lettre minuscule, azərb. sətri yazı. – Adi hərflərlə yazılan, orfoqrafik normaya uyğun sətri yazı.
Ə.Dəmirçizadə. Göstərilən əsəri.

СТРУКТУРА - alm. Struktur (f), ing. structure /'strʌktʃə/, fr. structure, azərb. struktur. – Bütöv daxilində müxtəlif elementlərin vəhdəti struktur adlanır.
A.A.Реформатский. Göstərilən əsəri, s. 32.

СТРУКТУРНАЯ ГРАММАТИКА - alm. strukturelle Grammatik (f), ing. structural grammar /'strʌktʃərəl 'græmə/, fr. grammaire structurale, azərb. struktur qrammatika. – Dilin işlənməsi üçün bütün lazımi qaydaları, dil sisteminin müxtəlif səviyyələrində paradiqmatik və sintaqmatik əlaqələri öyrənən dilçilik bölməsi. Struktur dilçilik bir tərəfdən düzgün cümlələrin işlənməsi qaydalarını (performance), digər tərəfdən isə bütöv dil bilgisini (compotence) aşkarlamağı qarşısına məqsəd qoyur. Struktur qrammatika sinxron təsviri əsas götürür.
E.Benveniste. Göstərilən əsəri.

СТРУКТУРАЛИЗМ - alm. Strukturalismus (m), ing. structuralism /'strʌktʃərəlızəm/, fr. structuralisme, azərb. strukturalizm. – F. de Sössür konsepsiyasına əsaslanan, bir-birindiən əsaslı şəkildə fərqlənən dilçilik cərəyanlarının ümumi adı. Strukturalizm bəzən N.Xomskidən əvvəlki, bəzən də N.Xomskinin generativ transformasional qrammatikasını da əhatə edən istiqamət kimi başa düşülür. Klassik strukturalizm mərkəzlərinə Cenevrə məktəbi, L.Blumfild biheyviorizmi, Z.Hərris distribusionalizmi, L.Yelmslevin qlossematikası, London kontekstualizmi, Praqa

dilçilik məktəbi daxildir. F. de Sössür təliminə əsasən dil dəqiq dərk edilən, formal baxımdan aydın təsvir olunan, qarşılıqlı əlaqələrdə olan formal elementlər sistemidir.

Dilçilik psixoloji və humanitar elmlərdən asılı olmayan ayrıca bir elm sahəsi kimi götürürlür. Struktur dilçilik əsasən aşağıdakı müddəalardan çıxış edir:


a) dilə üç aspektdən yanaşırlar: «langue» bir dildə danışanların hamısının beynində, yaddaşında saxlanılan sistem; «parole» konkret məqamlarda həmin dil sisteminin danışıq aktı şəklində aktuallaşması və «faculté de langage» (dilin mənimsənilməsi və işlənməsi üçün ümumi fəaliyyət), burada dil və danışıq aktı bir-birlərini ehtiva edir. «Langue» dilçilik elminin yalnız danışıq aktında reallaşması vasitəsilə obyekti ola bilər; b)«langue» dil sistemi olmaqla işarələr sistemindən ibarətdir. Hər bir işarə qarşılıqlı şəkildə bir-birini ehtiva edən 2 aspektdən ibarətdir: işarənin maddi tərəfi, səs materiyası (onun akustik obrazı) və anlam, məfhum tərəfi (işarələyən və işarələnən). Bu iki tərəfin bir-birinə münasibəti ixtiyaridir (fr. arbitraire), yəni bu hər bir dil üçün spesifikdir və razılaşmaya əsaslanır; c) bu dil işarələri dəyərlər sistemi yaradır və bu dəyərlər bir-birinə qarşılaşmaya (oppozisiyaya) girir. Hər bir işarə sistemi də digərlərinə olan əlaqəsinə görə dəyərləndirilir. Bu kontrast yaratma prinsipi distinktiv fərqləndirmədə strukturlaşdırmanın ana xəttini təşkil edir; ç) elementlərin bu qarşılıqlı əlaqələnməsi iki səviyyədə təhlil edilə bilər: sintaqmatk səviyyədə, yəni elementlərin düz xətt boyunca yanaşı gələ bilməsi baxımından, digər tərəfdən isə paradiqmatik, yəni eyni mövqedə bir-birilə əvəz oluna bilməsi baxımından; d) dil işarələr sistemi kimi götürüldüyündən onun təsviri sinxron planda olmalıdır; e) dilin təhlili kifayət qədər etibarlı sayılan dil materialı (korpus) üzərində aparılmalıdır ki, onun da etibarlılığı üzvlənmə (seqmentasiya) və təsnifat (klassifikasiya) üsulu ilə müəyyənləşsin, özü də üzvlənmə sintaqmatikaya, təsnifat isə paradiqmatikaya aiddir. Bu zaman distribusiya mərkəzi tədqiqat üsulu kimi öncə fonologiyada uğurla sınaqdan çıxdı, fonemlərin inventarı və onların birləşmə imkanları geniş tədqiq olundu; fonologiyada və morfologiyada sınaqdan çıxmış metodlar sintaktik səviyyədə söyləm strukturu qrammatikasına (Phrase structur qrammar) gətirib çıxardı. Semantikada isə təhlil komponentlər, söz sahələri və siniflər üzrə həyata keçirilməyə başladı. Ənənəvi dilçilikdə olduğu kimi, strukturalizmdə də antropoloji, etimoloji, humanitar, bədii-nəzəri və psixoloji tədqiqatlar da önəmli rol oynamağa başladı.

E.Koseriu. Ümumi dilçiliyə giriş. 1992-ci il nəşrindən almancadan tərcüməsi, «Giriş» məqaləsi və «Qeydlər» prof. F.Veysəllinindir. Bakı, 2006, s. 91-135.

СТУПЕНЧАТОЕ ПРОТИВОПОСТАВЛЕНИЕ - alm. graduelle Opposition (f), ing. gradual opposition /'grædjʊəl ˌɒpə'zɪʃən/, fr. opposi-


tion étagée, azərb. dərəcəli qarşılaşma. – Dərəcəli qarşılaşmalar arasında münasibətlər eyni əlamətin müxtəlif dərəcədə təmsil olunmasıdır. Məs.: Azərb. d. /u/ - /o/ - /ü/.
F.Veysəlli. SDƏ, I, s. 164.

СТЫК - alm. Anschlußart (f), ing. joint /dʒɔɪnt/, juncture /'dʒʌŋktʃə/, fr. about, point de jonction, azərb. qovuşma. – Alman alimi E.Siversin (1850-1932) işləyib hazırladığı qovuşma nəzəriyyəsinə əsasən bu prosesin iki növü var: zəif /schwachgeschnittener Anschluß/ :



(toxum)

və qüvvətli /Stark geschnittener Anschluß/:



(tox).

Birincidə sait uzun, ikincidə isə qısadır.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 130.

СТЯЖЕНИЕ ГЛАСНЫХ - alm. Zusammenziehung (f), Kontraktion (f), ing. contraction vowel /kən'trækʃən 'vaʊəl/, vocalic /vəʊ'kælık/, fr. jonction des voyelles, azərb. saitlərin qovuşması. – Ortada gələn samitin düşməsi nəticəsində saitlərin birləşməsi. Məs.: orta alman dilində /getregede/ → /Getreide/ (taxıl). Bəzən sözün bütöv bir hissəsi itir. Məs.: orta alman dilində /Schultheize/ → /Schulze/ (kənd ağsaqqalı) və s.
R.Conrad. Göstərilən əsəri, s. 145.

СТЯЖЕНИЕ ДИФТОНГА - alm. Zusammenziehung des Diphthongs (f), ing. contraction diphthong /kən'trækʃən 'dıfθɒŋ/, fr. retressissement du diphtongue, azərb. diftonqun daralması. – Orta dövr alman dilində /ie/, /uo/, /ea/ diftonqları müvafiq uzun saitlərə keçdi. Müq. et: alm. d. /guot/ → /gut/ (yaxşı), /sieben/ → /sieben/ və s.
В.М.Жирмунский. История немецкого языка. М., 1965.

СУАХИЛИ - alm. Suaheli (Swahili) (n), ing. Swahili /swə'hi:li, swɑ:-/, fr. souahili, azərb. suahili. – Bantu dilləri ailəsinə daxil olan dillərdən biri. Əsasən Tanzaniya, Keniya və Uqandada, qismən də Zair və Mozambik respublikalarında yayılmışdır. Suahili Uqandanın ingilis dililə bərabər həm də rəsmi dövlət dilidir. Bu dildə təqribən 35 milyondan yuxarı əhali danışır. Bu dilin lüğət tərkibinin təqribən 40%-ni ərəb mənşəli sözlər təşkil edir. Yazıda 1890-cı ildən latın qrafikasından istifadə olunur.
Е.Н Мячина. Язык суахили. М., 1960.

СУБВАРИАНТЫ - alm. Subvariante (f), ing. intergrades /'ıntə'greıds/, fr. subvariante, azərb. subvariant. – Aşkar mövqe bağlılığı olmayan çalarlıq. Məs.: Azərb. d. /gə:rəm/ (gəlirəm) əvəzinə.
F.Veysəlli. SDƏ, I.

СУБМОРФЕМНЫЙ - alm. submorphemisch, ing. sub-morphemic /sʌb'mɔ:fi:mıks/, fr. submorphèmatique, azərb. submorfem. – Morfoloji səviyyədə fərqləndirilməyən. Məs.: alm d. qadın cinsli isimlərin hallanması zamanı heç bir halda morfoloji göstərici yoxdur.
H.Glinz. Göstərilən əsəri.

СУБСТАНТИВ - alm. Substantiv (n), ing. substantive /'sʌbstəntıv/, fr. substantif, azərb. isim.
Bax: Существительное →.

СУБСТАНТИВАЦИЯ - alm. Substantivierung (f), ing. substantivization /'sʌbstəntıvızeıʃən/, fr. substantivation, azərb. isimləşmə (substantivləşmə). – Digər söz siniflərindən isimləşməsi və ya isim əlamətlərini qəbul etməsi. Fellərin, sayların, sifətlərin və s. nitq hissələrinin isimləşməsi. Müq. et: Azərb. d. /üçüncü artıqdır/, /yeməkdən əvvəl əlləri yumaq lazımdır/, /ağlar qaralara qalib gəldi/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 461.

СУБСТАНТИВНЫЙ - alm. substantivisch, ing. substantival /'sʌbstəntaıvəl/, substantive /'sʌbstəntıv/, fr. substantif,-ve, azərb. isimi.
Bax: Субстантивация ←.

СУБСТАНТИВНОЕ СЛОВОСОЧЕТАНИЕ - alm. substantivishe Verbindung (f), ing. substantival phrase /ˌsʌbstən'taıvəl freız/, fr. groupe de mots substantif, azərb. ismi söz birləşməsi. – Məs.: alm. d. /Der Hut der Frau// (xanımın papağı), /an der Schwelle der Tür// (qapının kanndarında) və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 461.

СУБСТАНЦИЯ ВЫРАЖЕНИЯ - alm. Ausdruckssubstanz (f), ing. substance of expression /'sʌbstəns əv ıks'preıʃən/, fr. substance de l'expression, azərb. ifadənin substansiyası. – Qlossematikada ifadə planının vahidi, səs materiyası, dilin yazıdakı işarələri (stenoqrafik, Morze əlifbası) və s. İfadənin forması olan səslər digər sistemlərə çevriləndə özümlüyünü qoruyub saxlayır.
F.Veysəlli. SDƏ, I, s. 234-238.

СУБСТАНЦИЯ СОДЕРЖАНИЯ - alm. Inhaltssubstanz (f), ing. substance of content /ˌsʌbstəns əv 'kɒntent/, fr. substance du contenu, azərb. məzmunun substansiyası. – Qlossematikada danışanın real təcrübəsi onu əhatə edən psixi obyektlər, təsəvvürlər və məfhumlar. Onlar dilin ifadə planında öz əksini invariant şəklində tapır.
F.Veysəlli. SDƏ, I, s. 234-238.

СУБСТИТУТ - alm. Substitut (n), ing. substitute /'sʌbstitju:t/, ersatz /'ɛəzæts/, surrogate /'sʌrəgıt/, fr. substitut, azərb. substitut, əvəzləyici. – Funksional cəhətdən uyğun gələn elementi əvəz edən. Məs.: əvəzliklər isimlərin substitutu ola bilər.
H.Bußmann. Göstərilən əsəri, s. 753.

СУБСТИТУЦИЯ - alm. Substitution (f), ing. substitution /ˌsʌbstı'tju:ʃən/, fr. substitution, azərb. əvəzetmə. – 1) TQ-da alt qatdan üst qata doğru gedən əməliyyatda struktur ağacda müəyyən konstituentlərin başqaları ilə əvəzlənməsi. Bu zaman iki forma fərqləndirilir: a) reduksiya: əvəzlənən element əvəz edəndən kiçikdir. Məs.: alm. d. /der alte Mann/ →/er/; ekspansiya: əvəzlənən element əvəz edəndən böyükdür (reduksiyanın əksi);
2) Əvəzetmə əməliyyatında əvəzetmənin sinonimi;
3) Qlossematikada substitut dil variantlarının (allofonların) müəyyənləşməsinə xidmət edir. Məs.: alm. d. dilönü /r/ ilə dilçək /R/ mənaya xələl gətirmədən bir-birini əvəz edə bilər. Bu metodu xeyli əvvəl N.S.Trubeskoy kommutasiya metodu kimi fakültativ variantların müəyyənləşdirilməsində istifadə etmişdi.
F.Veysəlli. SDƏ, I, s. 234-238.

СУБСТРАТ - alm. Substrat (m), ing. substratum /'sʌb'strɑ:təm/, fr. substrat, substratum, azərb. substrat. – Məğlub xalqın dilində qalib xalqın dilindən ilişib qalan söz və ya ifadə. Məs.: aşağı alman dialektinin Berlin dialektinə təsiri.
O.C.Ахманова. Göstərilən əsəri, s. 462.

СУБФОНЕМНЫЙ - alm. subphonemisch, ing. subphonemic /'sʌbfəu'ni:mik/, fr. submorphématigue, azərb. subfonem. – Allofon səviyyəsinə aid olan. Məs.: Azərb d. /tin/ sözündə /t/ samitinin yumşaq tələffüz olunması.
O.C.Ахманова. Gğstərilən əsəri, s. 462.

СУБФОНОЛОГИЧЕСКАЯ ПОЗИЦИЯ - alm. subphonologische Position (f), ing. subphonological position /'sʌbˌfəunə'lɒʤıkəl pə'zıʃən/, fr. position subphonologique, azərb. subfonoloji mövqe.
Bax: Позиция ←.

СУБЪЕКТ - alm. Subjekt (n), ing. subject /'sʌbʤıkt/, fr. sujet, azərb. mübtəda (subyekt). – Hökmün, predmetinin ifadəsi, cümlənin strukturunda mərkəzi mövqe tutan söz. Əsasən morfoloji göstəricisi adlıq haldır. Cümlədə adətən xəbərdən əvvəl gəlir. Bir tərəfdən tamamlıq, o biri tərəfdən xəbərə münasibətdə baş üzvdür. Hərəkətin agensi, icraçısıdır, törədicisidir. Məs.: Azərb. d. /Onlar gəlirlər// və s.
H.Bußmann. Göstərilən əsəri, s. 749.

СУБЪЕКТ ДЕЙСТВИЯ - alm. Handlungssubjekt (n), ing. agents /'eɪdʒənts/, subject /'sʌbdʒɪkt/, fr. sujet de fait, azərb. mübtəda (subyekt). Bax: Субъект ←.

СУБЪЕКТ ЛОГИЧЕСКИЙ - alm. logisches Subjekt (n), ing. logical subject /'lɒdʒɪkəl 'sʌbdʒɪkt/, fr. sujet logique, azərb. məntiqi subyekt. – Alm. d. /Das Buch wurde von mir geschrieben// (kitab mənim tərəfimdən yazılıb) cümləsində /von mir/ məntiqi subyektdir.

H.Bußmann. Göstərilən əsəri, s. 749.

СУДАНСКИЕ ЯЗЫКИ - alm. Sudansprachen (Pl.), ing. Sudan languages /su(:)dɑ:n,- sʊ- 'læŋgwɪdʒɪz/, fr. langues soudanaises, azərb. Sudan dilləri. – XX əsrin birinci yarısında afrikaşünaslıqda, əsasən, Sudan, Qvineya sahillərində və Həbəşistan yaylalarında yayılmış dilləri ümümi ad altında birləşdirmək üçün işlədilən termin.

D.Westermann. Die Sudansprachen. Hamburg, 1911.

СУНДАНСКИЙ ЯЗЫК - alm. Sundanisch (n), ing. sundan language /sun'dɑ:n 'læŋgwɪdʒ/, fr. langue soundanne, azərb. sundan dili. – İndoneziyada yayılmış dildir. Sundan dilində 22 milyona yaxın əhali danışır. Əsas dialektləri: baduy, banten, boqor-kravanq, çiancur, kuninqan, çirebon və s.

А.П.Павленко. Сунданский язык. М., 1965.

СУНДАНЕЗИЙСКИЙ ЯЗЫК – Bax: Австронезийский язык

СУЖЕНИЕ ЗНАЧЕНИЯ - alm. Bedeutungsverengung (f), ing. narrowing significance /'nærəʊɪŋ sɪg'nɪfɪkəns/, fr. rétrécissement du sens, azərb. mənanın daralması. – Söz dilin müəyyən tarixi dönəmində öz geniş mənasından uzaqlaşaraq yeni konkret məna kəsb edir. Məs.: ing. d. /indermaker/ (sahibkar) mənasında işlənmişdi, bu gün isə (meyit basdıran) deməkdir. Rus dilində /порох/ sözü əvvəllər kiçik hissəçiklərdən ibarət «toz» şəkilində olan istənilən şeyləri bildirirdisə, bu gün yalnız partlayıcı maddə, «barıt» mənasında işlənir.

F.Yadigar (Veysəlli). GDG, s. 165.

СУПЕРЛАТИВ - alm. Superlativ (m), ing. superlative /sju:'pɜ:lətɪv/, fr. superlatif, azərb. şiddətləndirmə dərəcəsi (superlativ). – Dildə sifətin keyfiyyət göstəricisinin ən yüksək dərəcəsi. Məs.: alm. d. /groß - größer – der größle/; ing. d. /great – greater – the greatest/; rus d. /большой – большее - наибольший/; Azərb. d. /lap, ən, çox gözəl / və s.

H.Bußmann. Göstərilən əsəri, s. 756; M.Hüseynzadə. Göstərilən əsəri, s. 99-103.

СУПЕРСЕГМЕНТНЫЙ - alm. supersegmentell, ing. suprasegmental /'sju:prəseg'məntəl/, fr. supersegmental, azərb. xəttüstü vahidlər. – Seqment vahidlərdən fərqli olaraq (fonemlər, morfemlər, leksemlər) xəttüstü

əlamətlər (vurğu, prosodiya, intonasiya, fasilə, hecalararası ton, intensivlik və zaman) onların üzərinə sərilir və söyləmin, cümlənin bütövlüyünü və sintaqmalara bölgüsünü nizamlayır. Məs.:
/O, / qoca atlıya yanaşıb / qulağına nəsə pıçıldadı// və /O qoca / atlıya yanaşıb / qulağına nəsə pıçıldadı//
F.Veysəlli. SDƏ, I, s. 299-314.

СУПЕРСТРАТ - alm. Superstrat (n), ing. superstratum /ˈsju:pəˌstreɪtəm/, superstrata /ˈsju:prəˌstreɪtə/, fr. superstrate, azərb. superstrat. – Gəlmə xalqın dili ilə yerli xalqın (aborgenlərin) dili arasıda gedən mübarizədə yerli xalqın dilinin qalib gəlməsi nəticəsində gəlmələrin dilinin müəyyən dəyişmələrə məruz qalması. Hakim dillə məğlub dilin qarşılıqlı təsirindən yaranan. Dilçilikdə adətən substrata qarşı qoyulur. Məs.: fransız dilinin ingilis dilinə təsiri (Normandiyadakı qələbədən sonra ingilis dili uzun müddət fransız dilinin hökmranlığı altında olmuşdur).
H.Buβmann. Göstərilən əsəri, s. 756; Ю.С.Маслов. Göstərilən əsəri, s. 224.

СУПИН - alm. Supinum (n), ing. supine /spju:ˈpaɪn/, fr. soupine, azərb. supin. – İnfinitivə yaxın funksiyada məqsəd mənası daşıyan passiv xarakterli fel forması. Məs.: alm. d. /Eine leicht zu verschmerzende Enttäushung/ (asan dözülən məyusluq).
H.Buβmann. Göstərilən əsəri, s. 757.

СУППЛЕТИВИЗМ - alm. Suppletivismus (m), ing. superlativizm /sju:ˈpɜ:lətɪvɪzm/, fr. supplétivisme, azərb. suppletivizm. – Müəyyən qrammatik formanın müxtəlif morfem köklərindən düzəlməsi. Alman və ingilis dillərində /sein/ və /to be/ fellərindən düzələn paradiqm belədir:

/bin, ist, sind, war/ və ya /gut/ → /besser/ → /der beste/

/am, are, is, was, were/ və ya /good/ → /better/ → /the best/ və s.

H.Buβmann. Göstərilən əsəri, s. 757.

СУППЛЕТИВНЫЙ - Bax: Супплетивизм ←.

СУФФИКС - alm. Suffix (n), ing. suffix /ˈsʌfɪks/, fr. suffixe, azərb. şəkilçi. – Sərbəst morfemlərə qoşulub, müəyyən qrammatik məna ifadə edən, ancaq ayrılıqda işlənə bilməyən sinsemantik morfem. Morfoloji-sintaktik funksiyasına görə şəkilçilər sonluqlara və düzəltmə şəkilçilərə bölünür. Axırıncılar yeni mənalı sözlərin yaranmasına xidmət edir. Məs.: Azərb. d. /-çi/ - /dəmir+çi/, ancaq /-in/ - /dəmir-in/ və s.
H.Buβmann. Göstərilən əsəri, s. 755.

СУФФИКС НЕПРОДУКТИВНЫЙ - alm. unproduktives Suffix (n), ing. unproductive suffix /ˈʌnprəˈdʌktɪv ˈsʌfɪks/, fr. suffixe improductif, azərb. qeyri-məhsuldar şəkilçi. – Dilin müasir mərhələsində yeni sözlərin yaradılmasında iştirak etməyən və ya az iştirak edən şəkilçilər. Məs.: rus d. /ей/, /знь/, /зна/. /грамотей/, /отчизна/, /жизнь/, /новизна/ və s. Bunlar qapalı cərgələr yaradır.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 196.

СУФФИКС ПРОДУКТИВНЫЙ - alm. produktives Suffix (n), ing. productive suffix /prə'dʌktıv 'sʌfıks/, fr. suffixe productif, azərb. məhsuldar şəkilçi. – Bunlar elə şəkilçilərdir ki, onların köməyi ilə dilin müasir dönəmində yeni sözlər yaratmaq mümkündür. Məs.: alm. d. /-er/; rus d. /-тель/ və s. Müq. et: alm. d. /Lehrer/ (müəllim); rus d. /учитель/ (müəllim) və s.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 196.

СУФФИКСИАЛЬНО-ПРЕФИКСИАЛЬНЫЙ - alm. suffixal-präfixal, ing. suffixal- prefixal /'sʌfıksəl 'pri:fıksəl/, with-prefixal /wıð 'pri:fıksəl/, fr. suffixo à préfixal,-e, azərb. şəkilçi-önşəkilçili. – Sözün həm şəkilçi, həm də önşəkiçi ilə yaranması. Məs.: alm. d. /Missverständnis/ (anlaşılmazlıq) sözün əvvəlində gələn iki önşəkilçisi /miss+ver/ və kökə bağlanan /nis/ şəkilçisilə əmələ gəldiyindən buna şəkilçili və önşəkilçili düzəltmə deyirlər və s.
F.Yadigar (Veysəlli). GDG.

СУЩЕСТВИТЕЛЬНОЕ - alm. Substantiv (n), ing. noun /naʊn/, substantive /'sʌbstəntıv/, fr. nom, substantif, azərb. isim. – Əşya, predmet, hadisə, olay və s. bildirən söz. İsim və sifət dilin sözlərinin 66%-ni təşkil edir. İsmin cins (rus, alm. d.), kəmiyyət, hal (ing. d. yoxdur) kateqoriyaları var. İsimlər mənaca konkret və mücərrəd olurlar.
H.Buβmann. Göstərilən əsəri, s. 752.

СУЩЕСТВИТЕЛЬНОЕ ВЕЩЕСТВЕННОЕ - alm. Dingsubstantiv (n), ing. material nouns /mə'tırıəl naʊns/, substantive /'sʌbstəntıv/, fr. nom matériel, azərb. əşyavi isimlər. – Əşya, kütlə, predmet və s. bildirən sözlər. Məs.: alm. d. /das Ding/ (şey); rus d. /сахар/; Azərb. d. /qənd/ və s.
О.С.Ахманова. Göstərilən əsəri, s. 465.

СУЩЕСТВИТЕЛЬНЫЕ КОНКРЕТНЫЕ - alm. konkrete Substantive (Pl.), ing. concrete nouns /'kɒnkri:t naʊns/ (substantives), reality nouns /'sʌbstəntıvs/rıəlıtı/rı:'ælıtı naʊns/, fr. nom concret, azərb. konkret isimlər. – Buraya əsasən xüsusi isimlər daxildir. Məs.: Azərb. d. (Bakı, Şəki, M.Ə.Rəsulzadə, M.Ə.Sabir, Ş. İ.Xətai) və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 125.

СУЩЕСТВИТЕЛЬНОЕ ЛИЧНОЕ - alm. Personalname (m.), ing. personal nouns /'pə:sənəl naʊnz/, fr. nom personnel, azərb. şəxsi isim. – Buraya xüsusi adlar daxildir. Məs.: Azərb. d. /Əhməd/, /Turac/, /Sara/, /Emil/, /Fərid/, /Aysel/, /Mehdi/, /Nərmin/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 125.

СУЩЕСТВИТЕЛЬНОЕ МЕСТОИМЕННОЕ - alm. pronominales Substantiv (n.), ing. pronominal noun /prəʊ'nəmınəl naʊn/, noun-pronouns /'prəʊnaʊn naʊnz/, fr. substantif pronominal, azərb. ismi əvəzlik.
Bax: Местоимение ←.

СУЩЕСТВИТЕЛЬНОЕ НАРИЦАТЕЛЬНОЕ - alm. Gattungsname (m), ing. common noun /ˈkɒmən ˈnaʊn/, fr. nom commun, azərb. ümumi isim. – Əşyaların ümumiləşmiş adı. Məs.: Azərb. d. /kitab/, /su/, /məktəb/, /şəhər/, /kənd/, /qəsəbə/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 125.

СУЩЕСТВИТЕЛЬНОЕ НЕОДУШЕВЛЕННОЕ - alm. die Nichtlebewesen (Pl.), ing. inanimate nouns (substantive) /ɪnˈænɪmeɪt naʊns /ˈsʌbstəntɪv/, fr. noms inanimés, azərb. cansız isimlər. – Cansız əşya, predmet, kütlə bildirən isimlər. Məs.: Azərb. d. /daş/, /torpaq/, /ağac/, /yarpaq/; alm. d. /das Ding/ (şey); rus d. /вода/, /сахар/, /хлеб/, /дерево/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 126.

СУЩЕСТВИТЕЛЬНОЕ ОДУШЕВЛЕННОЕ - alm. Lebewesen (Pl.), ing. animate nouns /ˈænɪmeɪt naʊns/, fr. noms animés, azərb. canlı isimlər. – Canlı aləmi, (insan, peşə, sənət və digər çanlılar) bildirən isimlər. Məs.: Azərb. d. /müəllim/, /həkim/, /mühəndis/, /kəklik/, /bildirçin/, /canavar/; rus d. /учитель/, /врач/, /лев/, /медведь/; ing. d. /teacher/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 126.

СУЩЕСТВИТЕЛЬНЫЕ ОТВЛЕЧЕННЫЕ - alm. abstrakte Substantive (Pl.), ing. abstract nouns /ˈæbstrækt naʊns/, fr. noms abstraits, azərb. mücərrəd isimlər. – İş görəni (aqens) və əlamətin daşıyıcısını nəzərə almadan, yalnız işin və hərəkətin özünü adlandıran isimlər. Mücərrəd isimlər konkret isimlərə qarşı qoyulur. Məs.: Azərb. d. /azadlıq/, /sevgi/, /nifrət/, /elm/; rus d. /свобода/, /любовь/, /отчизна/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 126.

СУЩЕСТВИТЕЛЬНЫЕ ГЛАГОЛЬНЫЕ - alm. verbale Substantive (Pl.), ing. verbal nouns (substantive) /ˈvɜːbəl naʊns/ˈsʌbstəntɪv/, fr. noms verbaux, azərb. feli isimlər. – Fellərə müxtəlif sözdüzəldici şəkilçilər artırmaqla və ya onların isimləşməsi (substantivləşməsi) nəticəsində yaranan isimlər. Məs.: Azərb. d. /yapışqan/ (yapışdırmaq), yemə-içmə (yemək-içmək), /getmə-gəlmə/ (getmək-gəlmək); rus d. /хождение/, /размалывание/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 126.

СУЩЕСТВИТЕЛЬНЫЕ ПАРНЫЕ - alm. gepaarte Substantive (Pl.), ing. correlated nouns /ˈkɒrɪleɪtɪd naʊns/, fr. noms doubles, azərb. qoşa isimlər. - Kişi və qadın cinslərinə aid insan və digər canlıları bildirən əlaqəli isimlər. Məs.: Azərb. d. /müəllim - müəllimə/, /katib - katibə/; rus d. /пианист - пианистика/, /учитель - учительница/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 126; O.C.Ахманова. Göstərilən əsəri, s. 466.

СУЩЕСТВИТЕЛЬНОЕ СОБСТВЕННОЕ - alm. Eigenname (m), ing. proper nouns /ˈprɒpə naʊns/, fr. noms propres, azərb. xüsusi isimlər. –

Şəxs adları kimi işlənə bilən isimlər. Məs.: Azərb. d. /Tərlan/, /Turac/, /Ceyran/, /Laçın/, /Şahmar/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 126.

СУЩЕСТВИТЕЛЬНОЕ-ЧИСЛИТЕЛЬНОЕ - alm. substantiviertes Zahlwort (Pl.), ing. numeral-noun, substantive /'nju:mərəl naun 'sʌbstəntıv/, fr. adjectif numéral, azərb. isim–say. – Sözdəyişmə formalarına görə isimlə üst-üstə düşən saylar. Məs.: Azərb. d. /Beşi beşə vurduqda eləyir iyirmi beş//; rus d. /пять, пяти, пятью, о пяти/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 516.

СХЕМА - alm. Schema (n), ing. diagram /'daıəgræm/, scheme /ski:m/, fr. schéma, azərb. sxem.
Bax: Модель ←.

СХОЖДЕНИЕ – alm. Affinität (f), ing. convergence /kən'və:ʤəns/, fr. pincement, convergence, azərb. oxşarlıq, uyğunluq. – Konvergensiya nəticəsində müxtəlif mənşəli dillərin fonetik, morfoloji və sintaktik quruluşlarında yaranan oxşarlıq, uyğunluq.
Bax: Конвергенция ←.

СЦЕНИЧЕСКИЙ – alm. szenisch, ing. stage /steıʤ/, scenic /'si:nık/, fr. scénique, azərb. səhnə ilə bağlı olan, səhnəyə aid olan. – Səhnə üçün səciyyəvi olan danışıq tərzi.
O.C.Ахманова. Göstərilən əsəri, s. 466.

СЧЕТНЫЙ – alm. quantitativ, ing. quantity /'kwɒntıtı/, quantitative /'kwɒntıtətıv/, fr. de compte, de comptabilité, azərb. say, miqdar bildirən. – Say, kəmiyyət, miqdar ifadə edən sözlər. Məs.: Azərb. d. /beşlik/, /onluq/, /beşlər/, /yeddilər/; rus d. /двойка/, /тройка/, /семерка/, /сотня/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 466.

– T –

ТАБАСАРАНСКИЙ ЯЗЫК - alm. Tabasaranisch (n), ing. Tabasaranian language /tə'bɑsærənɪən 'læŋgwɪʤ/, fr. tabassaran, azərb. tabasaran dili. – Ləzgi dillərinə məxsus dillərdən biridir. Dağıstanın Tabasaran və Xiv bölgələrində yayılmışdır. Tabasaran dilində təqribən 80 minə qədər əhali danışır. İki dialektə bölünür: cənub və şimal. Tabasaran dilinin saitlər yarımsistemi 6 sait fonemdən ibarətdir. Vurğu zəifdir və söz daxilində müxtəlif hecaların üzərinə düşür. Yazısı 1932-ci ildə latın qrafikası əsasında hazırlanmışdır, 1938-ci ildən isə kiril əlifbasına keçirmişlər.
А.А.Магометов. Табасаранский язык. Тбилиси, 1965.

ТАБУ́ - alm. Tabuwort (n), ing. taboo /tə'bu:/, fr. tabou, azərb. tabu. - Tabu dini inam, mövhumat, xurafat baxımdan, habelə norma qaydaları çərçivəsində qadağan edilən söz və ya ifadə. «Tabu» termini polinez dillərindən götürülmüşdür. Tabu «ta»- qeyd etmək, ayırmaq, «bu» - bütövlükdə, bir yerdə deməkdir; /tabu/- bötövlükdə ayırmaq, xüsusi qeyd etmək deməkdir. Bu və ya digər dini, siyasi və s. digər səbəblərdən işlənməsinə qadağa qoyulmuş hesab edilən sözlər. Məs.: Azərb. d. /bəy/ əvəzinə /cənab/, /azad olmaq/ əvəzinə /doğmaq/ və s.
А.А.Реформатский. Введение в языковедение. М., 2001, s. 104-107

ТАБУИРОВАНИЕ - alm. Tabuisierung (f), Tabuierung (f), ing. taboo /tə'bu:/, fr. interdiction de vocabulaire, azərb. tabulaşma. - Müəyyən dil cəmiyyətlərində sözlərin işlənməsində müşahidə olunan qadağa. Məs.: Azərb. d. ölümlə bağlı sözlərin əvəzlənməsi /öldü/ əvəzinə /gözlərini birdəfəlik yumdu/, /həyatla vidalaşdı/, (ömrünü bağışlamaq). Bu proses dildə yeni sözlərin və alınmaların yaranmasına gətirib çıxardır. Danışıqda bəzən də tabu əvəzinə evfemizmlər ← işlənir.
А.А.Реформатский. Göstərilən əsəri, s.105.

ТАБУИРОВАННЫЙ - alm. tabuiert, ing. tabooed /tə'buɪd/, fr. taboúé, azərb. tabulaşmış.
Bax: Табу ←.

ТАВТАЦИЗМ - alm. Tautazismus (m), ing. Tautazism /'tɔ:təʊzɪsm/, fr. tautosisme azərb. tavtasizm. – Başlanğıcında eyni səslər təkrarlanan sözlərin ardıcıllığı. Məs.: Azərb. d. /Su sənəyi suda sınar// cümləsində bütün sözlər /s/ fonemilə başlayır.
R.Conrad. Göstərilən əsəri, s. 267; M. İ. Adilov və b. Göstərilən əsəri, s. 14.

ТАВТОЛОГИЧЕСКИЙ - alm. tautologisch, ing. tautological /ˌtɔ:tə'lɒʤɪk(ə)l/tɑ:tə'lɑ:ʤɪkəl/, fr. tautologique, pléonastique, azərb.

tavtoloji. – 1. Tavtologiya iki oxşar və ya eyni leksik vahidin və ifadənin həmcins üzvlər kimi bir-birinin ardınca işlənməsi xüsusiyyətlərini öyrənir. Məs.: formal məntiqdə «p» və ya «qeyri-p» (yağır və ya yağmır). Məs.: Azərb. d. /özüm görmüşəm, bu gözlərimlə/. Bəzən sinonimlər də bu cür işlənir: Məs.: alm. d. /Hohn und Spot/ (rişxənd və kinayə); 2. Pleonazmus, yəni deyilmiş fikrə təkrar əlavə etmək. Məs.: alm. d. /Ich, habe es selbst gesehen, mit eigenen Augen// (Mən onu özüm, öz gözlərimlə görmüşəm) və s.
R.Conrad. Göstərilən əsəri, s. 267.

ТАВТОЛОГИЯ - alm. Tautologie (f), ing. tautology /tɔ:'tɒlədʒɪ,-i-/, fr. tautologie, azərb. tavtologiya. - Canlı danışıqda və yazıda eyni köklü sözlərin təkrarından yaranan yeni sözləri öyrənən elm sahəsi.

Məs.: Azərb. d. /İndi nə sən sənsən, nə də mən mənəm,
Biz ki, biz deyilik, bizə əlvida//.

B.Vahabzadə.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 265.

ТАВТОСИЛЛАБИЧЕСКИЙ (ГОМОСИЛЛАБИЧЕСКИЙ) - alm. tautosyllabisch, ing. tautosyllabic /tɔ:'tɒsɪ'læbɪk/, fr. tautosyllabique, azərb. tavtosillabik, eyni hecaya aid . – Məs.: alm. və ing. d. diftonqların komponentləri eyni morfemdə gələn iki seqmentin birləşməsidir, fonoloji cəhətdən isə onlar monofonemlərdir. Müq. et: ing. d. /haʊs/ (ev), /taɪm/ (vaxt) və s.
P.H.Matthews. Göstərilən əsəri, s. 373.

ТАГАЛЬСКИЙ ЯЗЫК – alm. Tagalog (n), ing. Tagalog language /tə'gɑl:ɒg, ləgus- lɑ:g, ləg 'læŋgwɪdʒ/, fr. langue tagalle, azərb. taqal dili. – Filippin dillərindən biridir. Əsasən Filippinin mədəni və iqtisadi cəhətdən inkişaf etmiş ərazilərində, Luson adasının mərkəzi və cənub ərazilərində və Filippin arxipelaqına daxil olan bəzi adalarda yayılmışdır. Taqal dilində 13 milyona qədər əhali danışır. 1959-cu ildən Filippin Respublikasında rəsmi qaydada «filippin» (pilipino) adlandırılmış və 1973-cü ildən isə dövlət dili (ingilis dili ilə bərabər) statusu almışdır. Taqal dilinin fonoloji sistemi 5 sait və 16 samitdən ibarətdir. Felin 4 zaman forması və 3 növü vardır.
М.Крус, Л.И.Шкарбан. Тагальский язык. М., 1966.

ТАГМЕМА - alm. Tagmem (n), ing. tagmeme /'tagmi:m/tæg məmə/, fr. tagmème, azərb. taqmem. – 1. Dilin qrammatik formasının ən kiçik mənalı vahidi; taqmemin mənasını adətən episemem adlandırırlar. Qrammatik forma bir neçə taksemdən də ibarət ola bilər. Məs.: ing. d. /Peter singing/ (Peter oxuyur) cümləsində söz sırası /əks-söz sırasında bu, sual cümləsi olur/ və /singen/ felinin 3-cü şəxs təkdə seçilməsi taksemlərindən ibarətdir. Taksemlər özlüyündə heç bir mənaya malik deyillər; 2. Amerikan dilçisi K.Payk qrammatik funksiyaların korrelatı və paradiqmatik

yerləşdirmə sinfi (doldurma forması) kimi başa düşür. Bunlar üçün ilkin olaraq «qramem» termini işlədilirdi.

R.Conrad. Göstərilən əsəri, s. 267; H.Buβmann. Göstərilən əsəri, s. 769.

ТАГМЕМИКА - alm. Tagmemik (f), ing. tagmemics /tæg'məmıks/ tag'mi:mıks/, fr. tagmémique, azərb. taqmemika. – Dilin taqmemlərini təsvir etməklə məşğul olan qrammatika bölməsi. Amerikan strukturalizmində mühüm cərəyan. Bu cərəyan dil qanunauyğunluqlarını sosial-mədəni sahə ilə sıx əlaqədə götürür. Onun inkişafına bir tərəfdən İncilin tərcüməsində praktik məsələlərin həlli təkan vermişdirsə (Summer İnstitute of Linguistics), digər tərəfdən, L. Blumfild və deskriptiv dilçilik güclü təsir göstərmişdir. Ən tanınmış nümayəndəsi K.Paykdır (Pike). O, özünün «Language in relation to a unified theory of the structure of human behavior» (1954-1960) adlı üçcildli əsərində konsepsiyanın əsaslarını işləyib hazırlamışdır. O, bütün dil səviyyələrinin ən kiçik funksional vahidlərini L. Blumfildə söykənərək taqmemlər və onları sintaqmatik funksiyaların korrelatları (məs.: mübtəda, tamamlıq) və paradiqmatik dolgurulmalar (məs.: isimi əvəzlik, xüsusi adlar mübtəda yerində gələn əvəzçilərdir) adlandırır. Bir neçə taqmem sintaqmlar yaradır və bu zaman hierarxik səviyyələrin çulğalaşması baş verir. Məs.: sintaksisdə söz, söyləm, cümlə, mürəkkəb cümlə, abzas, diskurs yüksək səviyyəli taqmemin formal elementlərindən düzəlir. Belədə cümlə sonrakı aşağı səviyyənin sintaqmemləri, yəni «söyləm» kimi təhlil edilə bilirlər. Bu çoxüzvlü zəncirlər kimi, Z. Hərrisin inkişaf etdirdiyi «həlqələr təhlili» vastəsilə həyata keçirilə bilər. Prinsipial olaraq bütün dil vahidləri 3 nəzəri perspektiv baxımdan təhlil edilə bilər: 1. Əlamət modusu baxımından hər bir dil vahidinin xüsusi «emik» («etik» və «emik» təhlil) struktura malikdir. Məs.: fonologiyada fərqləndirici əlamət; 2. Manifestasiya modusu baxımından hər bir element «etik» təzahür etmə formalarının «paradiqmatik» klassından ibarətdir; 3) Distribusiya modusu baxımından hər bir vahid distributiv klassa aiddir.

K.Pike. Text. Text and Tagmemik. London, 1983.

ТАДЖИКСКИЙ ЯЗЫК – alm. Tadshikisch (n), ing. Tajik /'tɑ:dʒık/, the Tajik language /ðə: 'tɑ:dʒık 'læŋgwıdʒ/, fr. le tadjik, langue tadjike, azərb. tacik dili. – İran dillərinin cənub-qərb qrupuna aid dillərdən biridir. Tacikistan, Qırğızıstan, Qazaxıstan respublikalarında, habelə Əfqanıstanın şimalında və İran ərazilərində yayılmışdır. Tacik dilində 10 milyondan yuxarı əhali danışır. Fonetik sistemi 6 sait və 24 samitdən ibarətdir. Qrammatik quruluşu flektiv-analitikdir. Cins və hal kateqoriyaları yoxdur. Hal münasibətləri sintaktik yolla ifadə olunur.

А.А.Керимова. Таджикский язык. «Языки народов СССР». М., т. 1, 1966.

ТАИТИ ЯЗЫК – alm. Tahitisch (n), ing. Tahiti language /tɑ:'hıtı 'læŋgwıʤ/, fr. langue tatïtienne, azərb. taiti dili. – Polinez dillərinə aid dillərdən biri. Bu dildə 100 minə yaxın insan danışır.
В.Д.Аракин. Таитянский язык. М., 1981.

ТАЙНЫЙ ЯЗЫК - alm. Geheimsprache (f), ing. secret language /'si:krıt 'læŋgwıʤ/, fr. langue secrete, azərb. məxfi, gizli dil. - Süni yaradılmış dil sistemi, müəyyən qrup tərəfindən məxfi (qapalı) ünsiyyət məqsədilə işlədilən və onlar tərəfindən aydın başa düşülən xüsusi ictimai təbəqənin dili. Məs.: ayrı-ayrı saitlərin və ya hecaların yerdəyişməsi və ya uzadılması ilə düzələn məktəblilərin gizlin dil. Müq. et: /məbənəmən səbənəmə söylələməm//.
A.Bausani. Geheim-und Universalsprachen. Stutgart, 1970.

ТАЙСКИЕ ЯЗЫКИ - alm. Tai-Sprachen (Pl.), ing. Thai languages /tɑı 'læŋgwıʤız/, fr. langues thaïes, azərb. tay dilləri. – Əsasən Çinin cənubunda yayılmışdır. Bəzi mənbələrdə Çin-tibet dilləri, digər mənbələrdə isə avstronez dilləri ilə qohumluğu iddia olunur. Tay dilləri əsasən 9 qrupa bölünür. Tipoloji baxımdan kök dillərdir. Bu dillərdə heca açıq və qapalı ola bilir.
Л.Н.Морев, Ю.Я.Плам, М.Ф.Фомичева. Тайский язык. М., 1961.

ТАЙСКИЙ ЯЗЫК - alm. Taisprache (f), ing. Thai language /tɑı 'læŋgwıʤ/, fr. langue thaï, azərb. tay dili. – Tay dillərindən biridir. Tailand ərazisində yayılmışdır. Tay dilinin 30 milyona qədər daşıyıcısı vardır. Tailand Krallığının rəsmi dilidir (1938-ci ilə qədər Siamın Tailand adı ilə əvəzlənməsinə qədər siam dili adlandırılmışdır). Kök dildir. Fonem inventarı 20 samit və 24 saitdən ibarətdir. Saitlərdən 18-i monoftonq, 6-sı diftonqdur. Tonlu dildir və 5 ton fərqləndirilir.
Л.Н.Морев, Ю.Я.Плам, М.Ф.Фомичева. Тайский язык. М., 1961.

ТАКАНА ЯЗЫКИ - alm. Takana-Sprachen (Pl.), ing. Tacanan languages /'tɑkɑ:næn 'læŋgwıʤız/, fr. langues tacanas, azərb. takana dilləri. – Cənubi Amerikanın Pano-takana dilləri ailəsinə daxil olan hind dilləri yarımqrupu. Peru və Boliviyada yayılmışdır. Takana, reyesano, kavinenya, çama, uarayo və toromano dillərini özündə birləşdirir. Takana dillərinin fonem inventarı bir-birindən qismən fərqlənir: 21 samit və 4 sait fonemdən ibarətdir.
M.R.Key. Comparative Tacanan phonology. The Hague – Paris, 1968.

ТАКСЕМА - alm. Taxem (n), ing. taxeme /tæksəm/'taksi:m/, fr. taxème, azərb. taksem. - L.Blumfildin dilçiliyə gətirdiyi linqvistik termindir, mənası olmayan ən kiçik forma ünsürü deməkdir. Dilçilikdə adətən mənalı vahid olan taqmemə qarşı qoyulur. Fonemlər kimi taksemlərin də heç bir mənası yoxdur. Ayrılıqda və ya başqa taksemlərlə birlikdə taqmem-

ləri əmələ gətirir. Bir qayda olaraq 4 cür taksem fərqləndirilir: seçim, sıra, informasiya və aksent taksemləri. Məs.: Azərb. d. /gəl/ taksemi intonasiyaya görə /çağrış/ və /seçim/ taksemlərindən ibarətdir. Burada nominal formadan fərqli olaraq (məs: /Yanğın/) felin əmr forması seçilib.
R.Conrad. Göstərilən əsəri, s. 267

ТАКСОН - alm. Taxon (n), ing. taxon /'tæksɒn/, fr. taxon, azərb. takson. - Dilləri taksonomik qarşılaşdırmalarının əsasını təşkil edən əlamət və ya əlamətlərin konkret daşıyıcısı, xüsusiyyət və təzahürləri.
H.Bußmann. Göstərilən əsəri.

ТАКСОНОМИЧЕСКИЙ АНАЛИЗ - alm. taxonomische Analyse (f), ing. taxonomic(al) analysis /'tæksə'nɒmık(əl) ə'næləsıs/, fr. analyse taxonomique, azərb. taksonomik təhlil. – Dil vahidlərinin distributiv - bölgü prinsipinə, distributiv əlamətlərə və strukturlara söykənən təhlili. Termin olaraq bu söz botanika və zoologiyadan götürülüb. N.Xomski Amerika strukturalistlərinin üzvlənməyə və təsnifə söykənən fonoloji təhlilini bu cür dəyərləndirir.
H.Bußmann. Göstərilən əsəri, s. 776.

ТАКСОНОМИЧЕСКАЯ ГРАММАТИКА - alm. taxonomische Grammatik (f), ing. taxonomik grammar /'tæksə'nɒmık græmə/, fr. grammaire taxonomique, azərb. taksonomik qrammatika. - Dilçilikdə buna bəzən konsitituent struktur qrammatikası da deyirlər, cümləni konstituent kimi göturür. Seqmentləşmə və strukturların təsnifini addım-addım həyata keçirməklə tərkib hissələr aşkar edilir. Cümlə (S), ismi söyləm (NP) və feli söyləm kimi (VP) /NP+VP/ şərh edilir. Bu da sonralar törəmə qrammatikasının yaranmasına gətirib çıxartdı.
F.Veysəlli. SDƏ.

ТАКСОНОМИЯ - alm. Taxonomie (f), ing. taxonomy /'tæk'sɒnəmı/, fr. taxonomie, azərb. taksonomiya. - Dill vahidlərinin üzvlənməsinə və təsnifatına söykənən təhlil prosesi.
R.Conrad. Göstərilən əsəri, s. 267.

ТАКТ - alm. Sprechtakt (m), ing. tact /tækt/ breath group /breθ gru:p/, fr. temps, azərb. takt. - Danışıq aktında eyni ritmik parçaların təkrarından yaranan ritmik qruplar. Məs.: /ta+'ta/, /ta+ta+'ta / və ya /'ta+ta/, /'ta+ta+ ta/ və s.
R.Conrad. Göstərilən əsəri, s. 251.

ТАКТ РЕЧЕВОЙ - alm. Redetakt (m), Sprechtakt (m), ing. tact speech /tækt spi:tʃ/, link (in the spoken chain) /lıŋk ın ðə 'spəʊkən tʃeın/, fr. temps de la parole, azərb. danışıq taktı. - Vurğuzuz və ya vurğulu hecaların ardıcıl təkrarı. Məs.: alm. d. /in der ʃu:lə/ ((məktəbə); ing. d. /in ðe seım taım/ (eyni vaxtda) və s. Vurğusuz sözlər vurğululardan qabaqda gələrsə, buna proklitik ← sonra gələrsə, enklitik → deyilir. Yuxarıda verilmiş alman və ingilis misallarında danışıq taktı proklitik və vurğulu sözdən ibarətdir.


/vv'-/. Ancaq Azərb. d-də. bu əksinə olur, yəni vurğulu söz **əvvəl**, enklitik isə sonra gəlir. Müq. et: /at kimi/ /v'--/ //və s.
R.Conrad. Göstərilən əsəri, s. 251.

ТАЛЫШСКИЙ ЯЗЫК - alm. Talyschisch (n), ing. Talysh language /talıʃ 'læŋgwıʤ/, fr. le talych, azərb. talış dili. – İran dillərinə aid **dillər**dən biridir. Azərbaycanın cənubunda və İranın şimal ərazisində **yayıl**mışdır. Təqribən 200 minə qədər əhali bu dildə danışır. Leksik **tərkib**ində türk dillərindən alınma sözlər üstünlük təşkil edir.
Б.В.Миллер. Талышский язык. М., 1953.

ТАМИЛЬСКИЙ ЯЗЫК - alm. Tamilsprache (f), ing. Tamil /'tæmıl/, Tamilian language /tə'mıljən 'læŋgwıʤ/, fr. langue tamile ou **tamoule**, azərb. tamil dili. – Dravid dillərindən biridir. Hindistanın Tamil **ştatın**da (bu ştatın həm də rəsmi dövlət dilidir), Sinqapurda (dörd **rəsmi dil**dən biri), Keniya, Uqanda, Tanzaniya, Zambiya, Zimbabve və s. **yayıl**mışdır. Tamil dilində 50 milyona qədər əhali danışır.
М.С.Андронов. Разговорный тамильский язык и его диалекты. М., 1962.

ТАНА – alm. Tanaschrift (f), ing. thane /θeın/, fr. thana, azərb. **tana**. - XVII əsrdə ərəb əlifbasının təsiri nəticəsində formalaşmış maldiv **yazısı**. Yazının istiqaməti soldan sağadır. Əlifbadakı ilk 9 hərf 1-9-a **qədərki** ərəb rəqəmlərini, sonrakı 9 hərf isə sinqal yazısındakı «lit akuru» rəqəmlərini təmsil edir. Hecanın əvvəlində saiti işarə etmək üçün əlif-dən «ʌ» istifadə olunur. Bu zaman müvafiq samitin üstündə və ya altında əlif işarəsi qoyulur. Məs.: /ˆa/, /ˌi/ və s.

Tana əlifbası



C.P.Bell. The Maldive İslands: Monograph on the history, archaelogy and epigraphy. Colombo, 1940.

ТАНГУТСКИЙ ЯЗЫК - alm. Tangutisch (n), ing. Tangut language /'taŋgu:t 'læŋgwıʤ/ , fr. langue tangoue, azərb. tanqut dili. – Çin-tibet dilləri ailəsinin Tibet-Birma qoluna aid dil. Bu dil Çin ərazisində **yayıl**mışdır. Tanqut dilində 2,5 milyon əhali danışır. Fonoloji sistemində cingiltili samitlər yoxdur, kar samitlər təmiz (saf) və nəfəslilərə **bölünür**. Saitlər yarımsistemi monoftonqlardan ibarətdir (bu dildə burunlaşmış saitlərə də rast gəlinir).
К.Б.Кепинг. Тангутский язык. Морфология. М., 1985.

ТАНО-АЦТЕКСКИЕ ЯЗЫКИ - alm. Tano-aztekische Sprachen (Pl.), ing. Tano-Aztec languages /tænɔ 'æztek-s-s 'læŋgwıʤız/, fr. langue tano-aztek, azərb. tano-astek dilləri. – Şimali Amerikanın hind **dilləri**

qrupu. Əsasən Amerikanın şimalında və Meksikada yayılmışdır. 1,5 milyon əhali bu dildə danışır.
B.Whorf. The Relationship of Uto Aztecan and Tanoan, «American Anthropologist», 1937, v. 39, № 3.

ТАСМАНИЙСКИЕ ЯЗЫКИ - alm. Tasmanische Sprachen (Pl.), ing. Tasmania languages /tæz'meını ə,-nj/ə-an/s/ən/z 'læŋgwıʤız/, fr. langues tasmaniennes, azərb. tasman dilləri. – Tasmaniyanın yerli əhalisinin danışdığı qohum dillər qrupu. Tasmaniya adasının yerli əhalisinin sayı (1788-ci ildə Avropalılar tərəfindən işğalı zamanında) 5-8 minə yaxın olduğu göstərilir. Hal-hazırda bu dillər (1876-cı ildən) ölmüş dillərdən hesab olunur.
W.Schmidt. Die tasmanischen Sprachen. Quellen, Gruppierungen, Grammatik. Wörterbücher, Utrecht, 1952.

ТАТАРСКИЙ ЯЗЫК - alm. Tatarisch (n), ing. Tatar /'tɑ:tə/, the Tatar language /ðı: 'tɑ:tə 'læŋgwıʤ/, fr. le tatar, le tartare, langue tatare, (tartare), azərb. tatar dili. – Türk dilləri ailəsinə mənsub dillərdən biridir. Əsasən Tatarıstan, Başqırdıstan, Çuvaş, Udmurt, Mordov, Kazaxıstan, Azərbaycan, Özbəkistan, Qırğızstan, Türkmənistan və Rusiya Federasiyasında yayılmışdır. Tatar dilində danışanların sayı 25 milyondan yuxarıdır. Tatar dilinin yazısı uzun müddət ərəb, bir müddət latın, indi isə kiril əlifbası əsasındadır.
У.Ш.Байчура. Звуковой строй татарского языка. Казань, 1959-61.

ТАТСКИЙ ЯЗЫК - alm. Tatisch (n), ing. Tat language /tæt 'læŋgwıʤ/, fr. langue tate, azərb. tat dili. – İran dillərindən biri. Əsasən Azərbaycanın Quba rayonunda, habelə Dağıstanın bəzi bölgələrində yayılmışdır. Tat dilində təqribən 20 minə qədər əhali danışır. İki dialekti: şimal (Quba ləhcəsi), cənub (Quba ləhcəsində savayı Azərbaycan ərazisində yayılmış digər ləhcələr). Tat ədəbi dili şimal dialekti əsasında formalaşmışdır.
А.Л.Грюнберг. Язык североазербайджанских татов. Л., 1963.

ТАШЕЛЬХИТСКИЙ ЯЗЫК - alm. Taschelhisch (n), ing. tashelchit language /tɑʃ'ılkıt 'læŋgwıʤ/, Also ch/x/, fr. tachelhite, azərb. taşelhit dili. – Bərbər dillərindən biri. Mərakeş ərazisində yayılmışdır. 2,4 milyona qədər əhali bu dildə danışır. Zəif inkişaf etmiş saitlər sistemi vardır. Saitlər sistemi 3 saitdən ibarətdir: /a/, /i/, /u/. Cümlə daxilində söz sırası XMT ardıcıllığındadır. Yazısız dildir.
H.Stumme. Handbuch des Schilhischen von Tazerwalt. Leipzig, 1899.

ТВЕРДОСТЬ «СОГЛАСНОГО» (ТВЕРДАЯ ОКРАСКА) - alm. Härte des Konsonanten (f), ing. «hardness» of consonant /hɑ:dnıs əv kɒnsənənt/, fr. consonne dure, azərb. samitin qalınlığı. Rus dilində samitlər sərt və yumşaq olmaq üzrə iki yerə bölünürlər. Bu dildə yalnız yumşaq /tʃ/ samitinin qalın qarşılığı yoxdur. Digər tərəfdən, yalnız /ʦ/ samitinin yumşaq qarşılığı yoxdur. Yerdə qalan bütün samitlər sərtlik və yumşaqlığa görə qarşılaşdırılırlar: Müq. et:

Sərt samitlər /v, f, m, b, p, t, d, n, z, s, ʦ, ʒ, r, j, ʃ, g, k, x/

Yumşaq samitlər /v′, f′, m′, b′, p′, t′, d′, n′, z′, s′, ʦ′, ʃ′, ʒ′, r′, j′, g′, k′, x′/
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 53.

ТВЕРДЫЙ - alm. hart, ing. hard /ha:d/, fr. dure, azərb. qalın, sərt. - Bax: Твердость <согласного> (Твердая окраска) ←.

ТВЕРДЫЙ СОГЛАСНЫЙ - alm. harter Konsonant (m), ing. hard (non-palatalized) consonant /ha:d /nɒn-′pælətəlaızd/′kɒnsənənt/, fr. consonnes dures, azərb. sərt samit. – Yumsaq samitə nisbətən daha aşağı tembrə malik olan samit.

Bax: Твердость <согласного> (Твердая окраска) ←.

ТВОРИТЕЛЬНЫЙ ПАДЕЖ - alm. Instrumentalis (m), ing. instrumental (case) /ˌınstrə′mentəl/ınstrʊ′mɛnt(ə)l/keıs/, ablative /′æblətıv/, fr. instrumental, azərb. təsirlik hal. – Azərb. d. «(i)lə», «vasitəsilə» düzələn formalar. Məs.: Azərb. d. /qələmlə, çəkiclə, sözlə (vasitəsilə) və s. Rus d. paradiqmində təkdə kişi cinsli isimlər /-om/, qadın cinsli isimlər isə /-ой/, cəmdə isə /-ами/ şəkilçisi qəbul edən forma. Müq. et: /столом/, /новои/, /книгой/, /книгами/ və s.

A.A.Реформатский. Göstərilən əsəri.

ТЕКСТ - alm. Text (m), ing. text /tekst/, fr. texte, azərb. mətn. – Danışıq və ya yazı zamanı danışanın niyyətinin sözlü ifadəsi: 1. İlkin olaraq bir cümlədən artıq danışıq parçasının vahidi; 2. Mətn ünsiyyət məqsədilə fəaliyyətin dildə ifadə forması, məqamla bağlıdır və dinləyiciyə yönəlib (mətinxarici): a) mətnbağlayan (mətndaxili) əlamətlər: sərhəd işarələri, grammatik vasitələr, söz sırası, əvəzlik, artikl, anafora və katafora; b) tekstin teması və ya məzmun koherensiyası. Buna qeyri – sözlü mətn əlamətləri kimi mimikanı və jestləri də əlavə etmək olar.

Новое в зарубежной лингвистике. Составление, общая редакция и выступительная статья Т.М.Николаевой. М., 1978.

ТЕКСТА АНАЛИЗ - alm. Textanalyse (f), ing. texts of analysis /teksts əv ə′næləsıs/, stylistic analysis and interpretation of texts /staılıstık ə′næləsıs ænd ın′tə:prıteıʃən əv tekst/, fr. explication de texte, azərb. mətnin təhlili. – 1. Mətnlərin linqvistik - fonetik, fonoloji, morfoloji qrammatik, üslub və ədəbiyyatşünaslıq təhlili; 2. Z.Harrisin anlamında distribusionalizmə söykənən mətn təhlili, «discourse analysis». Eyni əhatədə müxtəlif söz sırası mənadan asılı olmayaraq müxtəlif şəkildə şərh oluna bilər. Məs.: Azərb. d. /oxu/ atan kimi/ adam ol//.

Bax: Текст ←.

ТЕКСТОЛОГИЧЕСКИЙ - alm. textologisch, ing. textological /tekstɒlɒʤıkəl/, fr. textologique, azərb. tekstoloji təhlil. – Mətnin formal və semantik təhlili.

Bax: Текст ←, Текста анализ ←.

ТЕЛУГУ - alm. Telugu-Sprache (n), ing. Telugu language /ˈteləgu: ˈlæŋgwɪdʒ/, fr. langue telugue ou télougoue, azərb. teluqu dili. – Dravid dillərindən biridir. Hindistanın Andxra-Pradeş ştatında yayılmışdır və həmin ştatın rəsmi dövlət dilidir. 63 milyondan çox əhali teluqu dilində danışır. Hindistandan kənarda bu dildə Şri-Lankada, Malayziyada, Sinqapurda və Sakit okeanın bəzi adalarında (Mavriki, Fici və s.) danışılır. Dörd dialektə bölünür.
З.Н.Петруничева. Язык телугу. М., 1960.

ТЕМА - alm. Thema (n), ing. theme /θi:m/, topic /ˈtɒpɪk/, fr. sujet, thème, azərb. tema. – Tema cümlənin aktual üzvlənməsinin vahidi olub, cümlədə verilən məlumatın artıq bizə məlum olanını bildirir. Cümlənin teması mətnin elə bir parçasıdır ki, bu onun özündən sonra gələn cümlənin remasının üzə çıxmasına köməklik edir. Əsas etibarı ilə tema remadan əvvəl gələrək, məlumatın remaya ötürülməsində həlledici rol oynayır. Bəzən dilçilər temanı köhnə adlandırırlar ki, bu da özlüyündə hər hansı bir fikrin artıq köhnəldiyindən, yəni bizə məlumluğundan irəli gəlir. Məs.: Azərb. d. /Ürəyində qaynayan odlu hirs/ /tema/ Muradın bütün bədənini alışdırdı// (rema).
K. Abdullayev. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, 1998, s. 95.


ТЕМАТИЧЕСКАЯ ГРУППА - alm. thematische Gruppe (f), ing. thematic group /θɪˈmætɪk gru:p/, fr. groupe thématique, groupe des travaux, azərb. tematik qrup. - Tema əmələ gətirən sözlər, söz birləşmələri.
K. Abdullayev. Göstərilən əsəri, s. 95.

ТЕМАТИЧЕСКИЙ - alm. thematisch, ing. thematic /θɪˈmætɪk/, fr. thématique, azərb. tematik. - Əsas düzəldici; söz tərkibində morfemlərin birləşməsinə xidmət edən sait. Məs.: rus d. /o/ və /e/ saitləri tematik saitlərdir. Müq. et: /кров-о-обращение/, /земл-е-ведение/, /природ-о-ведение/.
Ю.С.Маслов. Göstərilən əsəri.

ТЕМАТИЧЕСКИЙ ГЛАСНЫЙ - alm. thematischer Vokal (m), ing. thematic vowel /θɪˈmætɪk ˈvaʊəl/, fr. voyelle thématique, azərb. tematik sait.
Bax: Тематический ←.

ТЕМБР - alm. Klangfarbe (f), ing. tamber /ˈtæmbə/tɛ:mbr/, fr. timbre, azərb. tembr. – Səsin əsas tonuna və ya küyünə harmonik oberton və rezanator ton əlavə etməklə meydana gələn (səs) çaları. Səsin tembri əsas ton ilə digər tonların (oberton, rezanotor ton) birləşməsindən ibarətdir. Səsin təmizliyi və şəffaflığı kimi başa düşülən «cingiltilik» və «səslilik» tembr məfhmuna aid edilir. Mürəkkəb səsin yüksəkliyi onun əsas tonu ilə müəyyən edilir, obertonlar isə səsə müəyyən rəng, əlavə səda verir ki, buna da tembr deyilir.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 25.

ТЕМБР ГЛАСНОГО - alm. vokalische Klangfarbe (f), ing. vowel tamber /'vaʊəl 'tæmbə/ tɛ:mbr/, fr. timbre de la voyelle, azərb. saitin tembri. - Saitin fiziki xüsusiyyəti səs tellərinin mütamadi titrəməsindən yaranan sinusoidal əyrilərin yaratdığı, eşidilən səs əlaməti.



Səs tellərinin eyni ardıcıllıqla titrəməsindən yaranan tonlar avazlanma adlanır. Avazlanmanın ayrı-ayrı tonları parsial tonlar adlanır. Ən aşağı parsial ton əsas ton, onlardan yüksəkdə olanlar isə obertonlar adlanır. Hər bir saitin yaranmasında rezonator rolunu oynayan ağız və burun boşluqları spesifik ölçüdə və biçimdə olduğundan onlar öz tembrinə görə ciddi şəkildə fərqlənirlər. Azərbaycan dilində /a/ ən açıq, /i/ isə ən qapalı saitlərdir. Ō biri saitlər bunların arasında yerləşir.

F.Vejsalov (Vejsälli). Lehrbuch der deutschen Phonetik. Baku, 1989.

ТЕМБР РЕЧИ - alm. Klangfarbe der Rede (des Sprechens) (f), ing. tamber of speech /'tæmbəʊ əv 'spi:ʧ/, fr. tembre de la parole, azərb. danışıq tembri. - Danışığa xüsusi ekspressivlik-emosionallıq verən çalarlıq. Danışıq eyni axında olarsa o, çox cansıxıcı olar. Danışan hər bir kəs öz danışığını rəngarəng və ahəngdar qurur ki, dinləyən üçün marqaqlı və cazibədar olsun.


R.Conrad. Göstərilən əsəri, s. 273.

ТЕМП РЕЧИ - alm. Sprechtempo (n), ing. ing. speed of utterance /'spi:d əv'ʌtərəns/, tempo or rate of speaking /'tempəʊ ɔ: reit əv 'spi:kıŋ/, fr. rythme (temps) du discours, azərb. danışıq tempi. – Danışıqda zaman parametrindən normal şəkildə istifadə. D.Counzun hesablamalarına görə ingilis öz ana dilində danışanda orta hesabla 1 dəqiqədə 300, müvafiq olaraq bir saniyədə 5 heca tələffüz edir.


A.Digeser. Phonetik und Phonologie des Englischen. Ein Lernbuch mit Übungen. München, 1978, s. 3.

ТЕМП РЕЧИ БЫСТРЫЙ - alm. schnelles Sprechtempo (n), ing. quick tempo of speaking /kwık tempəʊ əv 'spi:kıŋ/, fr. tempos rapide du discours, azərb. sürətli danışıq tempi. - Danışıq prosesində səslərin reduksiyaya uğraması ilə səciyyələnən sürətli danışıq tempi. Azərb. d. sürətli danışıq prosesində sait səslər kəmiyyət dəyişiklərinə: qısalmalara, bəzən də danışıq zəncirindən düşmələrə məruz qalırlar. Məs.: incə saitlər kar

samitlərin əhatəsində gəldikdə güclü reduksiyaya uğrayırlar. Məs.: Azərb. d. /kükürd, tüstülü, tündlük, tütün, küskün/ və s.



kükürd



tütün

F.Veysəlli. SDƏ.

ТЕМП РЕЧИ МЕДЛЕННЫЙ - alm. langsames Sprechtempo (n), ing. slow tempo of speaking /sləʊ 'tempəʊ əv 'spi:kɪŋ/, fr. temps lent de la parole, azərb. yavaş danışıq tempi. - Adi danışıq tempindən də aşağı temp. Bu zaman danışıq səslərindən hər biri aydın və səlis tələffüz olunur. Fasilələrin sayı artır. Bu cür danışıq tempindən imla yazanda, telefonda danışanda istifadə olunur.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

ТЕМП РЕЧИ ПРЕРЫВИСТЫЙ - alm. abgebrochenes Sprechtempo (n), ing. tempo of speaking staccato /'tempəʊ əv 'spi:kɪŋ stə'kɑ:təʊ/, fr. temps saccadé de la parole, azərb. fasiləli (kəsikli) danışıq tempi. – Danışıq zəncirinin qəflətən kiçik hissələrə parçalanması. Məs.: Azərb. d. /Dünən..../// Səhər yuxudan durdum.../// А.А.Реформатский. Göstərilən əsəri, s. 190-195.

ТЕНДЕНЦИЯ - alm. Tendenz (f), ing. tendency /'tendənsɪ/, trend drift /'trend drɪft/, fr. tendance, azərb. meyl. - Dilin işlənməsində müşahidə olunan meyl. Məs.: Azərb. d. inkar şəkilçisi vurğunun əvvəlki hecaya keçməsini tələb edir. Müq. et: Azərb. d. /o yazır//, ancaq /o yazmır//. Bir sıra dillərdə burun saitlərindən əvvəl gələn sait mütləq burunlaşmalıdır. Müq. et: alm. d. /'man/ (kişi), /'me:nə/ (atın yalı) və. s. Sintaktik səviyyədə həmcins üzvlərin işlənməsində bir-birini izləmə meyli müşahidə olunur. Məs.: ing.d. /I saw Mary and your frends from Chicago// (Mən Mariyanı və onun çikaqolu dostunu gördüm). Ancaq bu cümləni heç vaxt belə işlətmək olmaz: /... your frends from chicago and Mary/.

P.H.Matthews. Göstərilən əsəri, s. 374.

ТЕОРИЯ АДАПТАЦИИ - alm. Adaptationstheorie (f), ing. adaptation theory /ˌædəp'teɪʃən 'θɪərɪ/, fr. théorie de l'adaptation, azərb. uyğunlaşma nəzəriyyəsi. - Məs.: dildə sözlər, xüsusilə də alınma sözlər söz alan dilin fonoloji, morfoloji və sintaktik qaydalarına uyuşaraq tamamilə və ya qismən mənimsənilir. Məs.: fransız sözü /'garɪʤ/, ingilis dilinə keçərək /gə'rɑ:ʒ/ kimi tələffüz olunur.

P.H.Matthews. Göstərilən əsəri, s. 3.

ТЕОРИЯ ВОЛН - alm. Wellentheorie (f), ing. wave theory /weɪv ˈθɪərɪ/, fr. théorie des ondes, azərb. dalğa nəzəriyyəsi. – Dilçiliyə J.Şmidt (1843-1901) tərəfindən gətirilmişdir. Bu nəzəriyyəyə görə dildəki dəyişikliklər orta nöqtədən başlayaraq bütün istiqamətlərə dalğavari şəkildə eyni cür yayılır.

Bax: Волнотеория ←.

ТЕОРИЯ ГЕНЕАЛОГИЧЕСКАЯ (ТЕОРИЯ МИГРАЦИИ) - alm. Stammbaumtheorie (f), ing. genealogical theory /ˌdʒiːnɪəˈlɒdʒɪkəl θɪərɪ/, (pedigree) migration theory /ˈpedɪgriː/maɪˈgreɪʃən θɪərɪ/, fr. théorie généalogique (théorie migratoire), azərb. genealoji nəzəriyyə (mühacirət nəzəriyyəsi). - Hər bir dilin əvvəlcə mövcud olan dillərdən müəyyən dəyişmələr, dialektlərə parçalanma və s. nəticəsində yarandığını iddia edən dil nəzəriyyəsi.

Bax: Генеалогическая (типологическая, морфологическая) классификация языков ←.

ТЕОРИЯ ЗВУКОПОДРАЖАНИЯ - alm. Lautnachahmungstheorie (f), ing. onomatopoetic theory /ˈɒnəmætəˈpiːɪk θɪərɪ/, fr. théorie onomatopéique, azərb. səs təqlidi nəzəriyyəsi. - Bioloji nəzəriyyələrin içərisində səs təqlidi nəzəriyyəsi geniş yayılmış nəzəriyyələrdəndir. Səs təqlidi nəzəriyyəsi qədim Yunanıstanda stoiklərdə başlanmış və X1X-XX əsrlərdə geniş yayılmışdır. Bu nəzəriyyə dilin yaranmasında ilahi qüvvənin rolunu qəbul etmir. Ancaq «dilsiz» insan təbiət səslərini təqlid etməklə (suyun şırıltısı, küləyin vıyıltısı, quşların səsini) özünə dil yaratdığını əsas götürür. Məs.: Azərb. d. /şappa-şap/, /ham-ham/, /quqquluqu/ və s. Bu nəzəriyyə dilin yaranması üçün ciddi qəbul edilmir. Cünkü, bu cür sözlər dildə həddən artıq azdır. Digər tərəfdən, cansız aləmin səs çıxartması və, beləliklə də onları bildirən sözlər yaratmaq (üçbucaq, daş, divar və s.) mümkün olmur. Səs təqlidində təfəkkür şəkillərdə və obrazlarda əks olunur. A.A.Reformatski çox doğru olaraq göstərir ki, səs təqlidi sözlərinə daha çox mədəni dillərdə rast gəlmək olur. Bu onunla izah olunur ki, «təqlid etmək üçün mükəmməl şəkildə danışıq cihazını idarə etməyi bacarmaq lazımdır, buna da insan ilkin andan inkişaf etməmiş xirtdəyilə nail ola bilməzdi»

A.A.Реформатский. Göstərilən əsəri, s. 459.

ТЕОРИЯ ИНФОРМАЦИИ - alm. Informationstheorie (f), ing. information theory /ˌɪnfəˈmeɪʃən θɪərɪ/, fr. théorie d'information, azərb. informasiya nəzəriyyəsi. - Statistik qanunauyğunluqları əsas götürən və məlumatların verilməsini və işlənməsini tədqiq edən elm sahəsi. Biologiya, psixologiya və nəzəri dilçilik üçün baza elmi sayılır. İnformasiya nəzəriyyəsi müəyyən məlumat daxilindəki xəbərlərin (yeni verilən biliklərin) kəmiyyətini, miqdarını ölçmə üsullarını, həmin məlumatın konkret

təbiətindən asılı olmadan əmələ gəlmə ehtimalını işləyib hazırlayır. Buna görə də bu nəzəriyyənin əsas nəticələri dilçilikdə geniş tətbiq edilir. Təsvir zamanı istifadə edilən əsas məfhumlar bunlardır: /bit, kod, faktlar, entropiya, informasiya, ünsiyyət, relevant, redundant, işarə/ və s. Məs.: ing. d. /f/ samitindən sonra /t/ samitinin gəlməsi ehtimalı çox azdır, ancaq /u/, /r/ və ya /a/ fonemlərinin gəlməsi ehtimalı cox yüksəkdir. Hər hansı bir hadisənin, dil vahidinin meydana gəlmə ehtimalı nə gədər az olarsa, onun informasiya dəyəri, entropiyası (bitlə ölçülür) bir o qədər çox olur.

C.E.Shannon, W.Wearer. The mathematical Theory of Combination. Urbana, 1949; W.Meyer-Eppler. Grundlagen und Anwendungen der Informationstheorie. Berlin, 1969.

ТЕОРИЯ ЛАРИНГАЛЬНАЯ - alm. laryngale Theorie (f), ing. laryngeal /'lærıŋgal/, theory of the laryngeals /θıərı əv ðə 'lærıŋgals/, fr. théorie laryngale, azərb. larinqal nəzəriyyəsi. - Hind-Avropa vokalizminin (hətta konsonantizmin də) meydana gəlməsilə bağlı fərziyyə. Bu fərziyyəyə görə, hind-Avropa dillərində sait və samit sistemlərinin meydana gəlməsi bir sıra larinqallar adlanan samit elementlərinin yox olması sayəsində mümkün olmuşdur. Bü nəzəriyyənin bəzi mübahisəli cəhətlərinə baxmayaraq o, hind-Avropa dilçiliyin ən mühüm nailiyyəti sayılır. Bu nəzəriyyə F. de Sössürün adı ilə bağlıdır. O, 1879-ci ildə yazdığı «Mémoire sur le système primitif des voyelles dans les langues indoeuropéennes» əsərində heç laringal termini işlətmədən hind-Avropa dillərində əmsalları şərti olaraq A və O kimi işarələyir. F. de. Sössür uzun saitləri /e/ ilə sonant birliyi kimi götürür. Məs.: hind-Avropa dilində – ē-< eA,-ō< eO. Sonralar bu fərziyyə het dilinin kəşfilə bir daha təsdiq olundu. Müq. et: het d. /pahs/ (qorumaq) sözü qədim slavyan dilində /pāsco/ (otarmaq) və s. Bu nəzəriyyə ablaut nəzəriyyəsindən fərqli olaraq qısa və uzun saitlərin vahid izahını verir. ē/ə, ā/ə, ō/ə və ya er/r, em/m və s. Yəni bu silsilə olaraq eh/H, aH/H, OH/H əvəzlənmələrilə izah olunur. Başqa sözlə, qısa saitlər hind-Avropa dillərində – e – müxtəlif larinqallarla vəhdətdə götürülür. Larinqal nəzəriyyəsi hind-Avropa dillərində bir sıra digər problemlərin həllinə köməklik göstərir və sonralar bir sıra tədqiqatlarda geniş tətbiq olunmağa başlamışdır.

R.Conrad. Göstərilən əsəri, s. 151; A.A.Реформатский. Göstərilən əsəri, s. 401; H.Bußmann. Göstərilən əsəri, s. 434.

ТЕРМИН - alm. Fachwort (n), Terminus (m), ing. term /tə:m/, fr. terme, azərb. termin. - Mənşəyinə görə latın dilinə məxsus «termunus» sözündəndir, həd-hüdud deməkdir. Termin elmin, texnikanın, incəsənətin anlayışlarını, təbiət və cəmiyyətdə baş verən hadisələri, istehsal proseslərini bir-birindən fərqləndirmək üçün onlara verilən səciyyəvi addır. Ter-

min adi sözlər kimi kontekstlə deyil, anlayışlar sisteminin müəyyən bir sahəsilə bağlıdır. Termin, bir qayda olaraq, konkret anlam bildirir, ona görə də çoxmənalı olmur. Müq. et: dilçi, fonem, sintaqm, kök, şəkilçi və s.
N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1980, s. 152-154.

ТЕРМИНАТИВНЫЙ - alm. Terminativus (m), ing. terminative /'tɜ:mınətıv/, conclusive /kən'klu:sıv/, fr. terminatif,-ve, azərb. terminativ, sonu olan. - Adətən terminativ həm başlanğıcı, həm də sonu bildirir. Ancaq bəzən bu terminlə feldəki hərəkətin son həddini bildirirlər. Terminativ fellər perfektiv və imperfektiv ola bilərlər. Məs.: alm. d. /verbrennen/ (yanıb qurtarmaq).
Bax: Результативный ←.

ТЕРМИНИРОВАННЫЙ - Bax: Термин ←.

ТЕРМИНОЛОГИЯ - alm. Terminologie (f), ing. terminology /ˌtɜ:mı'nɒlədʒı/, fr. terminologie, azərb. terminologiya. - Elm, texnika, incəsənət, istehsalat, iqtisadiyyat, ictimai fəaliyyətin müəyyən bir sahəsinin anlayışları sistemində işlənən terminlər haqqında elm. Terminlər ümumişlək sözlərdən fərqli olaraq işləndiyi elm sahəsində adətən monosemantik olur. Məs.: dilçilikdə /kök/, /əsas/, /fonem/, /morfem/. Bəzən beynəlmiləl və alınma sözlərlə sinonim kimi işlənə bilir. Məs.: Azərb. d. /leksem/, /söz/ və s.
N.N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1980, s. 152-154.

TECO - alm. Teso (n), ing. teso language /'tɛsəʊ 'læŋgwıdʒ/, fr. le téso, azərb. teso dili. – Nilot dillərindən biridir. Uqanda və Keniya ərazilərində yayılmışdır. 1 milyona qədər əhali teso dilində danışır. Teso ədəbi dilinin əsasında Nqora şəhərinin dialekti dayanır. Yazısı XIX əsrdə latın qrafikası əsasında hazırlanmışdır.
J.H.Hilders, J.S.D.Lawrance. An introduction to the teso language, Kamrala, 1956.

ТИБЕТО-БИРМАНСКИЕ ЯЗЫКИ - alm. Tibetisch-burmesische Sprachen (Pl.), ing. Tibet-Burmese languages /tı'bet bɜ:'mi:z 'læŋgwıdʒız/, fr. langues tibéto-birmanes, azərb. Tibet-Birma dilləri. – Çin-tibet dilləri ailəsinin iki qolundan biri. Birma, Çin, Hindistan və Nepalda yayılmışdır. Bu dillərdə danışanların ümumi sayı 60 milyondan yuxarıdır. Tibet-birma dilləri kök, hecalı dillərdir. Morfemlər adətən bir hecadan ibarət olur. Samit birləşmələrinə sözün əvvəlində rast gəlinir. Cümlədə sözlər arasındakı əlaqə köməkçi sözlər və söz sırası vasitəsilə ifadə olunur. Köməkçi sözlər əsasən postpozitivdirlər.
R.Shafer. Bibliography of Sino-Tibetan languages. v. 1-2, Wiesbaden, 1957.

ТИБЕТСКИЙ ЯЗЫК - alm. Tibetisch (n), ing. Tibetan language /tı'betən 'læŋgwıdʒ/, fr. langue tibétaine, le tibétain, azərb. tibet dili. – Çin-Tibet dilləri ailəsinə daxil olan, Tibet-Birma dilləri qrupuna aid dil.

Tibet dilinin ədəbi-yazılı forması Monqolustanın daxilində, Çin Xalq, Respublikasına məxsus olan Sinxay Muxtar vilayətinin Lamaist kilsəsində, keçmiş sovetlər ittifaqının Buryat və Tuva Muxtar vilayətlərində yayılmışdır. 4 milyona yaxın daşıyıcısı məlumdur. Tibet yazısı qupta dövründəki braxma Hind yazısı ilə bağlıdır.
Ю.Н.Рерих. Тибетский язык. М., 1961.

ТИВСКИЙ ЯЗЫК - alm. Tiv(i) (n), ing. Tiv language /tɪv ˈlæŋgwɪdʒ/, fr. langue tive, azərb. tiv dili. – Bantoid dillərinə aid dil. Nigeriya Federativ Respublikasında yayılmış 10 ən böyük dildən biri (Benue və Plato ştatlarının rəsmi dili). Tiv dili Kamerunun cənub bölgələrində də yayılmışdır. 2 milyondan yuxarı daşıyıcısı vardır. Tiv dilində 3 fərqləndirici ton mövcuddur. İsimlərin heca strukturu belədir: CVC, CVCV, CVVC. Feli köklər, bir qayda olaraq, bir və ikihecalı olurlar. Sifət isimlə şuffikslərin (bəzəndə isə önşəkilçilərin) vasitəsilə uzlaşır.
R.C.Abraham. The Tiv people, London, 1940.

ТИГРЕ - alm. Tigre (n), ing. Tigre /ˈtaɪgrɪ/, fr. langue tigrée, azərb. tigre. – Həbəş-semit dillərindən biridir. Həbəşistanın Eritrey əyalətində və Sudanın Həbəşistanla həmsərhəd ərazilərində yayılmışdır. 1 milyondan yuxarı daşıyıcısı vardır. Kuşit dillərinin (əsasən aqav və beduye) təsirinə məruz qalmışdır. Yazıda həbəş əlifbasından istifadə olunur.
W.Leslau. Short grammar of Tigre. New Haven, 1945.

ТИЛЬДА - alm. Tilde (f), ing. tilde /ˈtɪldə/, fr. tilde, azərb. tilda. – 1) Diakritik işarə (≃), burunlaşmanı göstərən işarə. Məs.: Azərb. d. /mæ̃n/; 2) Adətən lüğətlərdə sözlərin və ya onların hissələrinin təkrarını bildirir. Məs.: alm. d. /Bau - und İndustrieplan/. Tildadan həm də transkripsiyada müxtəlif məqsədlərlə istifadə olunur. Məs.: portəgəz dilində saitin üzərinə qoyularaq onun burun saiti olmasını bildirir. Myq. et.: /São Paolo/. İspan dilində samitin yumşaqlığını bildirir: /ñ/

ТИНДИНСКИЙ ЯЗЫК - alm. Tindisch (n), ing. tindin language /ˈtɪ̃ndɪ:n ˈlæŋgwɪdʒ/, fr. le tindine, azərb. tindin dili. – Avar dillərindən biridir. Dağıstanın Sumadin rayonunda yayılmışdır. 5 min əhali bu dildə danışır. İki ləhcəsi məlumdur: tindin və aknad-anqid. Yazısız dildir.
Т.Е.Гудава. Тиндинский язык. «Языки народов СССР», т. 4, М., 1967.

ТИП ЗВУКОВОЙ - alm. Lauttyp (m), ing. sound type /saʊnd taɪp/, fr. type phonétique, azərb. səs tipi. - Dildə eyni vəzifəyə malik olub, yalnız mövqeyə görə fərqlənən səslər sırası. Rus dilindəki /mat/, /matʹ/, /mʹat/ və /mʹatʹ/ sözlərindəki [a], [aˊ], [ˈa], [ˈaˊ] saitləri bunlara misal ola bilər. Müasir fonologiyada bunlara variantlar və ya allofonlar deyilir.
F.Veysəlli. SDƏ.

azərb cümlə tipi. – Alman dilində cümlə tipləri adətən felin valentliyinə əsasən müəyyənləşə bilər. Müxtəlif cümlə növləri eyni cümlə tipinə aid edilə bilər. Müq. et: Azərb. d. /O, məktəbə gedir!/, ɗO, məktəbə gedir?, /Məktəbə get!/.

R.Conrad. Göstərilən əsəri, s. 228.

ТИП РЕЧИ - alm. Redetyp (m), ing. type of speech /taıp əv 'spı:ʧ/, speech-type /spı:ʧ taıp/, fr. type du discours, azərb. danışıq növü. – Danışıq kobud, adi, ədəbi, dəbdəbəli və s. tiplərdə reallaşa bilər. Ünsiyyətin məqsədindən və baş verdiyi şəraitdən asılı olaraq, danışıq üslubu da dəyişir. Bu üslublar həm leksik-sintaktik, həm də fonetik xüsusiyyətlərinə görə fərqlənirlər. Məs.: neftçi ilə pambıqçının danışığı təkcə leksik tərkibinə görə deyil, həmçinin fonetik xüsusiyyətlərinə görə də seçilir.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 168-171.

ТИП ЯЗЫКА - alm. Sprachtyp (m), ing. lingustic type /lıŋ'gwıstık taıp/, fr. type de la langue, azərb. dil tipi. - Dillərin quruluşa görə təsnifatında ayrı-ayrı dillərin struktur xüsusiyyətləri haqqında ümumiləşmiş təsəvvür; bu təsnifatda tarixi-genetik və coğrafi əlaqələr nəzərə alınmır. A.Şlayxerin klassik dil tipologiyasında dillər analitik və sintetik olmaq üzrə iki yerə bölünürdü. Məs.: qədim Çin dili analitik dil idi, çünki cümlədə sözlərin qrammatik əlaqələri müstəqil sintaktik ünsürlərlə (məs.: söz önləri-lə, sintetik dillərdə isə bunlar morfoloji yolla) ifadə olunur. Sintetik dillər də öz növbəsində aqlütinativ dillərə (türk dilləri, çünki bu dillərdə hər bir qrammatik məna bir morfemlə ifadə olunur) və flektiv dillərə (sanskrit, rus, ərəb və s., çünki söz daxilində dəyişiklik qrammatik mənanı ifadə edə bilir) bölünür. V. fon Humboldt polisintetik dilləri xüsusi fərqləndirirdi. Burada bir söz bir neçə semantik cəhətdən çox spesifik söz köklərini birləşdirir.

F. Yadigar (Veysəlli). GDG. s. 85.

ТИПОЛОГИЧЕСКИЙ - alm. typologisch, ing. typologic(al) /ˌtaıpə'lɒʤık(əl)/, fr. typologique, azərb. tipoloji. - Yuxarıda verilən genealoji və morfoloji tipologiyadan fərqli struktur tipologiya dillər arasında maddi oxşarlıqlarlı deyil, dillərin təşkilində struktur oxşar və fərqli (tipoloji) prinsipləri əsas götürür. Məs.: fransız və gürcü dilləri genetik cəhətdən qohum olmasalar da, bu dillərdə «80» sözündəki struktur yaxınlığı görməmək olmur. Fransız dilində bu söz /kātrœv'Ẽ/ (quatrevingts), gürcü dilində isə /otxmoci/ kimi deyilir. Hər iki dildə bu «4» (fr. d. quatre, gürcü dilində isə otxi) və «20» (fr. d. /vingt/, gürcü dilində isə /oci/) elementlərindən təşkil olunmuşlar. Deməli, onlar maddi varlığına görə oxşar olmasalar da, strukturca eyni cür təşkil olunmuşlar. Tipoloji araşdırmaları dillərin bütün səviyyələri üzrə aparmaq olar. Məs.: fonoloji tipologiyada dilin əsas fonoloji vahidinin xarakteri fonem sisteminin

tipini təşkil edə bilər. Bu vahid fonem olarsa, biz fonemli, (rus, ing., Azərb. və s.) heca olarsa və ya final və inisial (vyetnam dili və s.) hecalı dillərdən danışa bilərik. Morfoloji tipologiya da geniş vüsət almışdır. Burada əsasən sözün morfoloji strukturunun mürəkkəblik dərəcəsi və dildə işlənən qrammatik morfemlərin, affikslərin fərqləri nəzərə alınır. XIX əsrdə bunlar çox önəmli yer tuturdu, lakin çağdaş dilçilikdə bunu kəmiyyət göstəricilərilə, yəni tipoloji indekslə əvəz etməyə çalışırlar.

Bu zaman $\frac{M}{W}$ formulundan istifadə edirlər. M - müəyyən bir dildə verilmiş mətn parçasında morfların sayını, W isə (ing. word) bu parçadakı sözlərin sayını bildirir. Adətən ən azı 100 sözlü mətn götürülür. Nəzəri cəhətdən sintetikliyin ən aşağı göstəricisi 1-dir. Belədə morfların sayı sözün sayına bərabər olur. Həqiqətdə isə heç bir dildə belə say ola bilməz, yəni mətndə hər bir söz bir morfemə bərabər olsun. Başqa sözlə, sintetikliyin indeksi həmişə 1-dən böyük olacaqdır. Bu cür hesablamalar Vyetnam dili üçün ən aşağı göstərici = 1,06 (yəni 100 sözdə 106 morf var), ingilis dili üçün 1,68, sanskrit üçün 2,59, eskimos dillərindən biri üçün 3,72, rus dili üçün isə 2,33-dən 2,45-dək göstərici alınmışdır. Son dövrlər rus alimi İ.İ.Meşaninov (1883-1967) tərəfindən əsası qoyulmuş sintaktik tipoloji araşdırmalar geniş vüsət almışdır. Burada hərəkət, iş icraçısı olan şəxs və obyekt arasındakı əlaqələrin formalaşması əsas kimi çıxış edir. Bununla bağlı 3 əsas cümlə tipi fərqləndirilir: aktiv (fəal), erqativ və nominativ.


Fəal quruluşun mahiyyəti hərəkət (dinamik) və vəziyyət (statik) fellərin qarşılaşmasındadır. Erqativ quruluş isə təsirli və təsirsiz fellərin qarşılaşmasındadır. Bunların hər ikisində mübtəda qrammatik cəhətdən vahid qrammatik göstəriciyə malik olmur, feldə müxtəlif affikslərlə ifadə olunur, subyekt isə müxtəlif hallarla bildirilir. Dinamik fellərlə işlənən subyektin halı (aktivdə) və ya ancaq təsirli fellərin işləndiyi cümlələrdə subyekt həmin cümlənin obyekti olan halda işlənir. Aktiv quruluşa Amerika hindilərinin, erqativ quruluşa isə katqar, luask, şumer, qədim tibet, Avstraliya, bəzi İran və hindu dillərində rast gəlmək olur.
Norminativ dillərdə isə (məs.: alm., ing., Azərb. və s.) subyekt həmişə adlıq halında olur.

Ю.С.Маслов. Введение в языкознание. М., - С. Петербург, 2005, s. 250-259.

ТИПОЛОГИЯ - alm. Typologie (f), ing. typology /taɪ'pɒ'lədʒɪ/, fr. typologie, azərb. tipologiya. - Mənşəyindən və qohumluq dərəcəsindən asılı olmayaraq dillərin struktur tiplərinin təsnifat üsullarını tədqiq edən və işləyib hazırlayan dilçilik bölməsi.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 287; Ю.С.Маслов. Göstərilən əsəri, s. 250-259.

ТИРЕ - alm. Bindestrich (m), ing. dash /dæʃ/, fr. tiret, azərb. tire. – Müvazi mürəkkəb sözlərin arasında qoyulur (-). Məs.: Azərb. d. /şair-bəstəkar/, /yazıçı-dramaturq/ və s.
P.H. Matthews. Göstərilən əsəri, s. 85.
ТОЖДЕСТВЕННЫЙ - alm. identisch, ing. identical /aɪ'dentɪk(ə)l/, fr. identique, azərb. eyni, oxşar.
Bax: Тождество →.

ТОЖДЕСТВО - alm. Identität (f), ing. identityty /aɪ'dentɪtɪ/, fr. identité, azərb. eynilik. – Verilmiş dil vahidlərinin (fonem, morfem, leksem, cümlə) funksional təsvir metodu. İki səs ona görə eyni fonem kimi qəbul edilir ki, onlar funksional baxımdan qarşılaşma yaratmır, bir-birilə kontrasta girmir, sözləri və söz formalarını fərqləndirə bilmirlər. Məs.: Azərb. d. qalın [l] və yumşaq [l'] (/lal/ və /læl'/) müxtəlif cür səslənsələr də, eyni fonemin variantları kimi eyniləşdirilir.
F.Veysəlli. SDƏ.
ТОЖДЕСТВА ГРАММАТИКИ – alm. Identitätsgrammatik (f), ing. identity grammar /aɪ'dentɪtɪ 'græmə/, fr. identites de la grammaire, azərb. qrammatik eynilik. – Törəmə qrammatikası qaydalar sistemi şəklində verilmiş ayrı-ayrı cümlələrin strukturunu təsvir edir və bununla da onları dilin qrammatik cəhətdən düzgün cümlələri kimi eyniləşdirir. Cümləni eyniləşdirmək əməliyyatında xüsusi simvollardan istifadə olunur. Məs.: Azərb. d. /Balaca Cəmil çox şəndir// belə təsvir edilir.



R.Conard. Göstərilən əsəri, s. 110.
ТОЖДЕСТВА ПРЕДЛОЖЕНИЯ - alm. Identitätssatz (m), ing. identity-sentence /aɪ'dentɪtɪ sentəns/, fr. identités de la proposition, azərb. cümlənin eyniliyi.
Bax: Тождество ←.
ТОЛКОВЫЙ СЛОВАРЬ - alm. erklärendes Wörterbuch (n), ing. explanatory dictionary /ɪks'plænətərɪ 'dɪkʃənrɪ/, defining dictionary /dɪ'faɪnɪŋ 'dɪkʃənrɪ/, fr. dictionnaire raisonné, azərb. izahlı lügət. – Birdilli lüğətlərin hamısını bu tip lüğətlərə aid etmək olar.
A.Axundov. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, 2005; С. Ожегов. Словарь русского языка. М., 1975.

ТОЛЧОК (ЭЙЕКЦИЯ) - alm. Ausstoßung (f), ing. ejection /ɪ'dʒekʃən/, fr. éjection, azərb. təkan. - Xirtdəkdə kipləşən səs tellərinin gərgin şəkildə açılması nəticəsində təkanla deyilən səs. Məs.: gürcü dilindəki. /pᶜ/, /tᶜ/ səsləri buna misal ola bilər.
Л.Р.Зиндер. Общая фонетика. М., 1979.

ТОН - alm. Ton (m), ing. tone /təʊn/, fr. ton, azərb. ton. – Ciyərdən gələn hava axının təsirilə gərginləşmiş səs tellərinin periodik titrəməsindən yaranan akustik keyfiyyət. Dildəki sait səslər musiqili tonlardan ibarətdir.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 23.

ТОН <ГЛАСНОГО> ОСНОВНОЙ (ТОН ПРОСТОЙ) - alm. Eigenton <des Vokals> (m), (einfacher Ton), ing. fundamental tone /ˌfʌndə'mentəl təʊn/, simple tone /'sɪmpl təʊn/, fr. ton fondamental, azərb. əsas ton (sadə ton). – Səs tellərinin bütövlükdə dövrü titrəməsindən alınan ton. Saitlərin akustik əsasını təşkil edən və onların yaxşı eşidilməsinə imkan verən səs tonu.
F.Vejsälli. Einführung in die Phonologie. Baku, 2004.

ТОН ГОЛОСОВОЙ - alm. Stimmton (m), ing. voice tone (sound) /vɔɪs təʊn/saʊnd/, fr. ton vocalique, azərb. səs tonu. - Hava təzyiqi nəticəsində bir-birinə yaxınlaşmış gərgin səs tellərinin titrəyişilə əmələ gələn səs; 2. Musiqili ton; 3. Danışığın ahəngdarlığını (melodikliyini) təmin etmək üçün səs tonun qalxması ↗ və enməsi ↘.
Л.Р. Зиндер. Общая фонетика. М., 1979.

ТОН ДВУХВЕРШИННЫЙ - alm. zweitöniger Akzent (m), zweigipfeliger Ton (m), ing. double peak tone /dʌbl pɪ:k təʊn/, fr. ton au sommet double, azərb. ikizirvəli ton. Eyni hecada sait qalxan tonla tələffüz edilir, sonra ton düşüb yenidən qalxır. /$\overset{\vee}{—}$/, /$\overset{\wedge}{—}$/. Məs.: Azərb., d. /yââar//.

R.Conard. Göstərilən əsəri, s. 273.

ТОНАЛЬНОСТЬ - alm. Tonalität (f), ing. tonality /təʊ'nælɪtɪ/, fr. tonalité, azərb. tonluluq.
Bax: Интонация ←.

ТОНЕМА (ФОНЕМА ТОНА) - alm Tonem (n), ing. toneme /təʊnɪm/, fr. tonème, azərb. tonem. – Tonal dillərdə ton vahidi, adətən tonemli dillərdə fonemə bərabər götürülür.
P.H.Matthews. Göstərilən əsəri, s. 379.

ТОНГА - alm. Tonga (n), ing. Tonga language /'tɒŋgə 'læŋgwɪdʒ/, fr. langue tonga, azərb. tonqa dili. – Polinez dillərindən biri. Tonqa Krallığının rəsmi dövlət dilidir (ingilis dili ilə yanaşı). Tonqa dili Yeni Zelandiyanın, Fici, Qərbi Samao, ABŞ-da səpələnmiş tonqalıların arasında da yayılmışdır. 120 minə qədər insan bu dildə danışır. Fonem tərkibi 5 sait,

12 samitdən ibarətdir. Yazısı 1831-ci ildə tərtib olunmuşdur və latın qrafikasına əsaslanır.
C.Tchekhoff. Simple sentenses in Tongan. Canberra, 1981.

ТОНИЧЕСКОЕ УДАРЕНИЕ - alm. Tonerhöhung (f), Hochton (m), ing. tonic accent /'tɒnɪk 'æksənt/, fr. accent tonique, azərb. tonlu vurğu. – Məs.: xorvat, norveç, isveç, Vyetnam, Çin dillərində vurğu musiqilidir.
D.Jones. The Phonem, its Nature and Use. Cambridge, 1949.

ТОНКИЙ СОГЛАСНЫЙ - alm. Tenuis (m), ing. tenuis /'tenjʊɪs/, fr. consonne tenue, azərb. yumşaq samit. – Kar nəfəssiz samit latın mənşəli sözdür. /p/, /t/, /k/ samitlərinin nəfəssiz tələffüzünü bildirir.
P.H.Matthews. Göstərilən əsəri, s. 375.

ТОНОВЫЙ ЯЗЫК – Bax: Язык →.

ТОПОНИМИКА - alm. Toponomistik (f), Ortsnamenkunde (f), ing. toponymy /tɒ'pɒnɪmɪ/tɒpəʊnɪmɪ/, place-name study /pleɪs neɪm stʌdɪ/, toponomastics /təpɔnɔmætɪks/, fr. toponymie, toponomastique, azərb. toponimika. – Onomastikanın yer adlarını öyrənən şöbəsinə toponimika deyilir. Öz obyektinin çoxtərəfliyi və zənginliyilə əlaqədar olaraq toponimika müxtəlif yer adlarını öyrənir. Onlardan dördü: oykonimlər (yaşayış məntəqələrinin adları), oronimlər (dağ, təpə, aşırım, dərə, düzənlik və s. adları), hidronimlər (su hövzələrinin adları), drionimlər (meşə masssivlərinin adları) xüsusi yer tutur. Bundan başqa, toponimikada pelaqonim (dəniz), limnonim (göl), potamonim (çay), gelonim (bataqlıq) və s. fərqləndirlir.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1979, s. 173-174.

ТОФАЛАРСКИЙ ЯЗЫК - alm. Tofalarisch (n), ing. Tofalar language /tɔfə'lær 'læŋgwɪdʒ/, fr. le tofale, azərb. tofalar dili. – Türk dillərindən biridir. Rusiya Federasiyasının Yuxarı Qutara, Alıqcer və Nehrə kəndlərində yayılmışdır. 500 minə qədər daşıyıcısı məlumdur. İki ləhcəsi: qutar və alıqcer məlumdur. Leksik tərkibində monqol, buryat və rus dillərinin güclü təsiri hiss olunur. Yazısı 1988-ci ildə hazırlanmışdır və rus əlifbasına əsaslanır.
В.И.Рассадин. Фонетика и лексика тофаларского языка. Улан-Удэ, 1971.

ТОЧКА - alm. Punkt (m), ing. full stop /'ful stɔp/, period /'pɪərɪəd/, fr. point, azərb. nöqtə. - Fikrin bitməsini göstərən intonasiyanın yazıdakı işarəsi (.).
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 203.

ТОЧКА С ЗАПЯТОЙ - alm. Semikolon (n), ing. semi-colon /'semɪ'kəʊlən/, fr. point-virgule, azərb. nöqtəli-vergül. - Danışıq zamanı yaranmış kiçik fasiləni göstərmək üçün yazıda işlədilən işarə (;).
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 203.

ТРАДИЦИОННАЯ ЛИНГВИСТИКА – Bax: Лингвистика ←.

ТРАНСКРИПЦИЯ - alm. Transkription (f), ing. transcription /træns'krıpʃən/, fr. transcription, azərb. transkripsiya. – Danışığın şifahi və yazılı formaları arasındakı ziddiyyəti aradan qaldırmaq üçün, hər bir fonemin konkret reallaşma formasını göstərməkdən ötrü danışılanın xüsusi işarələrlə verilməsinə transkripsiya deyilir. Məs., alm. d. «Rad», «Lob», «absagen», «ich» və s. sözləri danışıqda /'ʀa:t/, /'lo:p/, /'ap,za:gən/ və /iç/ kimi səslənir. Orfoqrafiyada saitlərin uzunluğu və qısalığı və ya söz sonunda cingiltili samitlərin işlənə bilməməsi öz əksini tapmır, halbuki transkripsiya bunları xüsusi işarələrdən istifadə edərək qeydə alır. Transkripsiya adətən Beynəlxalq Fonetika əlifbasına əsaslanır.

Beynəlxalq Fonetika Cəmiyyətinin transkripsiyası (BFC)

MFA (1979-cu il)			qoşa dodaq	dodaq-diş	diş	retrofleksiv	palatal-alveal	palatal	damaq	dilçək	dodaq-damaq	dodaq-damaq	boğaz	udlaq
nəfəsli samitlər	kipləşən burun		m	ɱ	n	ɳ		ɲ	ŋ	ɴ				
	sürtünən		p b		t d	ʈ ɖ		c ɟ	k g	q ɢ		ɸ β		ʔ
		orta	ɸ β	f v	θ ð s z	ʂ ʐ	ʃ ʒ	ɕ ʑ	ç ʝ	χ ʁ		ʍ	ħ ʕ	h ɦ
		orta sonantlar		ʋ	ɹ	ɻ		j	ɰ		ɥ	w		
	yan	yan sonantlar			ɬ ɮ									
					l	ɭ		ʎ						
	titrək	vurğulular			r					ʀ				
					ɾ	ɽ				ɢ				

F. Veysəlli. SDƏ.

ТРАНСКРИПЦИЯ ФОНЕТИЧЕСКАЯ - alm. phonetische Transkription (f), ing. phonetic transcription /fəʊ'netık træns'krıpʃən/, fr. transcription phonétique, azərb. fonetik transkripsiya. - Fonetik transkripsiyada fonemlərin real danışıqda işlənməsi zamanı onların bir-birinə təsiri nəticəsində yaranan xüsusiyyətləri xüsüsi işarələrlə qeyd edilir. Bu zaman eşidilən hər bir danışıq aktı, nitq parçası, onun səs tərkibi və fonetik incəliklərinin hamısı mütləq nəzərə alınmalıdır. Məs., Azərb. d. /s°#z°ʏlən g°øz jaʃları.../// və s.

F. Yadigar (Veysəlli). GDG. s. 85.

ТРАНСКРИПЦИЯ ФОНОЛОГИЧЕСКАЯ - alm. phonologische Transkription (f), ing. phonologic(al) transcription /'fəʊnə'lɒʤık(əl) træns'krıpʃən/, fr. transcription phonologique, azərb. fonoloji transkripsiya. - Fonoloji transkripsiya ifadənin, sözün və mətn parçasının bütövlükdə fonem tərkibinin yazıda verilməsinə deyilir. Fonoloji transkripsiyada deyilənin və ya eşidilənin yalnız mövcud fonemlər üzrə yazılması

nəzərdə tutulur. Belə transkripsiyada variantlar, fonemlərin danışıq zəncirində bir-birinə təsiri nəticəsində yaranan xüsusiyyətləri qeyd edilmir. Məs.: Azərb. d. /sYzYlən gəz jaʃları...// və s.

F.Yadigar (Veysəlli). GDG. s. 85.

ТРАНСКРИПЦИЯ ФОНОМОРФОЛОГИЧЕСКАЯ - alm. phonomorphologische Transkription (f), ing. phonomorphological transcription /fəunə'mɔ:fə'lɒdʒıkəl træns'krıpʃən/, fr. transcripton phonomorphologique, azərb. fonomorfoloji transkripsiya. - Amalqam morfemlər də daxil olmaqla hər bir morfemin tərkibindəki fonem əvəzlənməsini nəzərə alan transktipsiya növünə deyilir. Məs.: rus d. /$\frac{\text{xot}}{\text{d}}$/ ходы (ход, ходы) və s.

F. Yadigar (Veysəlli). GDG. s. 85.

ТРАНСКРИПЦИЯ УЗКАЯ - alm. enge Transkription (f), ing. narrow transcription /'nærəu træns'krıpʃən/, fr. transcription étroite, azərb. fonoloji transkripsiya.

Bax: Транскрипция фонологическая ←.

ТРАНСКРИПЦИЯ ШИРОКАЯ - alm. breite Transkription (f), ing. broad transcription /brɔ:d træns'krıpʃən/, fr. transcription phonétique, azərb. fonetik transkripsiya.

Bax: Транскрипция фонетическая ←.

ТРАНСКРИПЦИЯ ФОНЕТИЧЕСКАЯ МЕЖДУНАРОДНАЯ - alm. internationale phonetische Transkription (f), ing. international phonetic transcription /ıntə'næʃənəl fəu'netık træns'krıpʃən/, fr. transcription phonétique international, azərb. Beynəlxalq fonetik transkipsiya. - Dünya dillərinin fonetik təsvirində Beynəlxalq Fonetika Assosiasiyasının (İPA) 1886- cı ildə qəbul etdiyi fonetik işarələr sistemi.

Bax: Международная Фонетическая Ассосиация ←.

ТРАНСЛАТИВ - alm. Translativ (m), ing. translative /trænz'leıtıv/ træns'leıtıv/, fr. translatif,-ve, azərb. translativ. – 1) L.Tenyerdə bir söz qrupunun başqa söz qrupunun struktur funksiyasına keçməsini bildirir. Translativlər sözönləri və tabeli bağlayıcılarla ola bilər. Məs.: alm. d. /Ein Drama von Schiller//(Şillerin dramı). /İch weiß, dass er kommt// (mən bilirəm ki, o gəlir) misallarında /von/-un köməkliyilə //Schiller/ təyin funksiyasına, /dass/ isə cümləni tamamlıq funksiyasına ötürür; 2) Translativ fin-uqor dillərində bir vəziyyətdən başqasına keçən tamamlığı bildirən haldır.

R.Conard. Göstərilən əsəri, s. 278.

ТРАНСЛИТЕРАЦИЯ - alm. Transliteration (f), ing. transliteration /trænzlıtə'reıʃən/, fr. translitération, azərb. transliterasiya. - Bir yazı sisteminin işarələrinin başqa yazı sistemilə verilməsi. Məs.: alm. d. «Wien»

/wi:n/ sözü bizim dilimizdə /Vyana/ kimi verilir. Transliterasiyanın iki növü var: 1) yazıya söykənən; 2) tələffüzə söykənən transliterasiya. Məs.: biz rus dilindən /Moskva/ sözünü yazıya əsasən transliterasiya edirik. «Vaşinqton» sözünü isə deyilişə görə transliterasiya edirik.
F.Veysəlli. SDƏ.

ТРАНСЛЯЦИЯ - alm. Translation (f), ing. translation /træns'leıʃən /trænz'leıʃən/, fr. translation, azərb. translyasiya. - 1) Bir dildən başqa dilə keçmələrin ümumi adı;
2) Bax: Транслатив ←.

ТРАНСПОЗИЦИЯ - alm. Transposition (f), ing. transpozition /ˌtrænspə'zıʃən/, fr. transposition, azərb. yerdəyişmə.
Bax: Метатеза ←.

ТРАНСФЕР – alm. Transfer (f), ing. transfer /'trænsfə:/, fr. transfert, azərb. keçid, transfer. - Əvvəl qazanılmış vərdişlərin sonra öyrəniləcəklərə ləngidici təsiri. Dilçilikdə ana dilinin öyrənilən xarici dilə müsbət (oxşarlıqlar) və mənfi (interfens) növləri fərqləndirilir.
H.Buβmann. Göstərilən əsəri, s. 799.

ТРАНСФОРМАЦИЯ - alm. Transformation (f), ing. transformation /ˌtrænsfə'meıʃən/, fr. transformation, azərb. transformasiya. - 1) Z.S.Hərrisin eyni sintaktik əhatədə gələn dil ifadələri arasındakı üst qata çevrilmə əlaqələrini bildirmək üçün işlətdiyi termin; 2) N. Xomskinin generativ transformasional qrammatika modelində cümlələrin alt qatı arasındakı əlaqələri öyrənən əməliyyatlar toplusu. Transformasiya alt qatın söyləm strukturları vasitəsilə əmələ gələn struktur ağaclarını üst qatın struktur ağaclarına cevrir. Texniki mənada bu, o deməkdir ki, transformasiyalar, bir P- markerlərin (fraza göstəricilərinin) digər P- markerlərə (fraza göstəricilərinə) şəkli köçürmələridir. Transformasiya qaydaları söyləm struktur qaydalarından onunla fərqlənirlər ki, onların əməliyyat sahələri ayrı-ayrı şəbəkələr olmayıb, söyləm struktur ağaclarıdır, bunlar da (dəqiq xüsusiləşmiş şərtlərə əməl edildikdə) dəyişirlər. Formal baxımdan transformasiyalar iki komponentdən ibarətdir: struktur təsvirdən (qısa şəkildə ST). ST müvafiq transformasiyasının əhatə etdiyi söyləm-struktur göstəricilərin struktur baxımdan hansı relevant əlamətlərə malik olduğunu göstərməlidir, struktur dəyişikliyində (qısa- SD) bu da transformasıyanın işlənməsini göstərməlidir. Alman dilində misalla bunu aşağıdakı kimi göstərmək olar: /Hans kämmt sich/ /Hans kämmt Hans / deməkdir

Hans kämmt sich /	–[Hans darayır Hansı]
[Hans daranır]	+ Pron. (əvəzlik)
ST: NP_1-X- NP_1	- У +Reflexiv (qayıdış)
1 2 3	4⇒
SD: 1- 2- [	] - 4 obliqator (mütləq)

(Qeyd: x və y konstituentlərin istənilən ardıcıllığını göstərən simvollardır. NP_s – ni uyğun göstərməsi onun referens eyniyyətini bildirməlidir; ikili ox transformasiya qaydası kimi başa düşülməlidir). Bütün T-lər→ konstituentlərin iki əsas əməliyyatın udulmasına və insersiyasına (tətbiqi) söykənir. Onlardan düzələn operasiyalar→ substitusiya (= müxtəlif elementlərin eyni yerdə udulma və eyni elementlərin başqa yerdə tətbiqi) həyata keçirilir. N. Xomskinin qrammatika modelində (1957) 4 tip fərqləndirilirdi: (a) sadə, müfafiq olaraq T sadə (adi) T-lər ayrı–ayrı konstituentlərə (tərkiblərə) tətbiq edilsə, ümumiləşdirici T isə mürəkkəb cümlələrin törəməsinə xidmət edir, özü də onlar müxtəlif struktur ağaclarını ayrıca mürəkkəb struktur ağacda cəmləşdirir, beləliklə də o, törəmə modelinin sonsuzluğa qədər işləməsinə təminat verir (müq. et → rekursivlik). (b) məcburi, müvafiq olaraq fakültativ T- lər obliqator T-lər formal (morfoloji) prosesləri nizamlayır. Məs.: → uzlaşma, fakültativlərə isə məna dəyişdirən bütün T-lər aiddir, çünkü onlar, (məs., →) inkarlıqda alt qatdan üst qata çevirilmədə əlavə semantik informasiya verir. N.Xomskinin 1965-ci il modelində bütün T-lər obliqatordur və mənaca neytraldır. Bu fikir sonradan əsasən saxlanıldı, ancaq (generativ semantikada) alt qatda tam abstrakt elementlərin postulatına gətirib çıxartdı. T-lərın say tətbiqi qaydaları ixtiyari deyil. Sonralar T-lərin sayı xeyli azaldıldı, əsas etibarilə yerdəyişmə, yəni «hərəkət» T-lərilə (movement) və ya udulmAlarda məhdudlaşdı. N. Xomski 1981-ci ildə nüvə qrammatikasının yerdəyişmə transformasiyasını → move- a^{-1} [a] (= «alfa hərəkəti») əvəz etdi.

TG-Transformasional qrammatika:

1) Transformasiya qaydaları tətbiq edən hər bir generativ qrammatika üçün əsas termin.

2) Dar mənada N. Xomskinin inkişaf etdirdiyi transformasiya (generativ- törəmə) nəzəriyyəsi. Əsas məqsədi aydın qaydalar sistemilə dil haqqında gizli (dilin aktiv işlənməsinə yönəlikli) bilikləri üzə çıxartmaqdır. Dil faktlarının üzvlənmə və təsnifinə, konkret dil faktlarının sistemləşməsinə söykənən taksonomik strukturalizmdən fərqli olaraq, N.Xomskinin modeli səriştəli dil daşıyıcısının bilgilərinə, yəni konkret dildə danışanın/dinləyənin dil intuisiyasına əsaslanır. Elm tarixi baxımdan N.Xomski Laybnisin və Dekartın rasionalizminə əsaslanır. Dili anadangəlmə hesab etməklə N. Xomski amerikan strukturalizminin biheyvior (davranış) nəzəriyyəsinə qarşı çıxır, öz qrammatik nəzəriyyəsini dili mənimsəmək nəzəriyyəsinə qaldırır, özü də anadangəlmə dili mənimsəmə mexanizmilə səriştənin inkişafını qrammatik universaliər zəminində izah edir. Belədə nəzəriyyə faktları qabaqlayır. T deduktivdir, o, dildə törəmə mexanizmi barədə dil səriştəsinin «yaradıcı» aspektini xüsusi nəzərə almaqla fərziyyələr irəli sürür.

F.Veysəlli. SDƏ. s. 259-276; F.Veysəlli. Struktur dilçiliyin əsasları. Studia Philologica. II, Bakı, 2008.


ТРЕМА – alm. Trema (n), ing. trema /trɛmə/, diaeresis /daɪ'ɪərɪsɪs/, diacresis /ˌdaɪə'kreɪsɪs/, fr. tréma, azərb. trema. – İki xətti ardıcılıqla gələn saitlərdən birinin üzərində qoyulan iki nöqtəli diakritik işarə. Bu həmin saitlərin diftonq olmadığını göstərir. Məs.: «Alẽn» /ɑle'u:tən/.
R.Conard. Göstərilən əsəri, s. 278.

ТРИГРАФ – alm. Trigraph (m), ing. trigraph /tri:græ:f/'tʌɪgrɑ:f/, fr. trigraphe, azərb. triqraf.
Bax: Дитраф ←.

ТРИАЛ – alm. Trial (n), ing. trial /t'raɪəl/'trʌɪəl/, fr. triale, azərb. trial. – Bəzi dillərdə kəmiyyət kateqoriyasının üçlüyü (əşya və şəxsi) bildirmək üçün işlənir.
R.Conard. Göstərilən əsəri, s. 278.

ТРЕТЬЕ ЛИЦО - alm. dritte Person (f), ing. third persọn /θɜ:d 'pɜ:sən/, fr. troisiéme personne, azərb. üçüncü şəxs. - İş və hərəkət müəyyən zaman çərçivəsində icra olunduğu kimi, müəyyən şəxs tərəfindən də icra olunmalıdır. İşin icraçısı üçüncü şəxsə aid olduqda heç bir şəkli əlamətdən istifadə edilmir. İsimlərdə olduğu kimi, fellərdə də üçüncü şəxs-yalnız təsəvvür edilir. Azərbaycan dilində /o/, /bu/ əvəzlikləri üçüncü şəxs əvəzlikləridir.
M.İ.Adilov və b. Göstərilən əsəri.

ТРЕХУГОЛЬНИК ГЛАСНЫХ - alm. Vokaldreieck (n), ing. vowels triangular /'vaʊəlz 'traɪ'æŋgjʊlə/, fr. triangle des voyelles, azərb. saitlərin üçbucağı. - Saitlərin üçbucaq sxemi əsasında yerləşməsidir ki, üçbucağın uclarında artikulyator əlamətlərin maksimum təzahür etdiyi /i/, /u/, /a/ saitləri yerləşdirilir. /i/ saiti dilin üfüqi istiqamətdə hərəkəti baxımından öndə tələffüz olunduğunu, /a/ saiti dilin şaquli istiqamətdə hərəkəti baxımından açıqlıq dərəcəsini, /u/, sait isə maksimum dodaqlanmanı əks etdirir.



H.Bußmann Göstərilən əsəri, s. 840.

ТРЕХБУКВЕННЫЙ КОРЕНЬ – alm. drei Buchstabenwurzel (f), ing. root /ru:t/, fr. racine, azərb. üçhərfli kök. - Semit dillərində əsas kök növü. Məs.: ərəb. d. /k-t-b/ – «kitab», «katib» və s.
A.A.Реформатский. Göstərilən əsəri,

ТРЕХСЛОЖНЫЙ - alm. dreisilbig, ing. trisyllabic /ˌtraɪsɪˈlæbɪk /, fr. de trois syllables, azərb. üçhecalı. – Fonetik tərkibi üç hecadan ibarət söz və ya söz forması. Məs.: Azərb. d. /bildirçin/, /təbəqə/, /bərəkət//. və s.
F.Veysəlli. SDƏ.

ТРИПТОТ - alm. Triptoton (n), ing. triptote /trɪptot/, fr. triptote, azərb. triptot. - Hallanma paradiqmi üç hal formasından ibarət olan dil.
О.С.Ахманова. Göstərilən əsəri, s. 481.

ТРИСИЛЛАБ - alm. Trisillabum (n), ing. trisyllable /ˈtraɪˈsɪləbəl/, fr. trisyllabe trois-syllables, azərb. üçhecalı. - Üç hecadan ibarət söz. Məs.: Azərb. d. /barama/, /musiqi/ və s.
О.С.Ахманова. Göstərilən əsəri, s. 481.


ТРИФТОНГ - alm. Triphthong (m), ing. triphthong /ˈtrɪfθɒŋ/, fr. triphthongue, azərb. triftonq. - Bir heca kimi tələffüz olunan üç saitin birləşməsi. Məs.: ing. d. «fire» /faɪə/,(alov) /our/, /ˈaʊə/ sözlərində [aiə] və [ǎuə] triftonqları, Vyetnam dilində isə /nqoai/ sözü qalxıb-enən [uai] triftonqu ilə təmsil olunmuşdur.
Ю.С.Маслов. Введение в языкознание. M., 1987, c.69.

ТРОЕГЛАСНЫЙ – Bax: Трифтонг ←.

ТРОП - alm. Tropus (m), bildlicher Ausdruck (m), ing. trope /trəʊp/, fr. trope, azərb. trop. – Söz və ya söz birləşməsinin məcazi mənada işlədilməsindən ibarət üslubi vasitə. Məs.: Azərb. d. /acı xatirələr/, /dəli küləklər/, /iti nəzərlər// və s.
R.Conard. Göstərilən əsəri, s. 273.

ТСВАНА (ЧВАНА) - alm. Tswana (Čwana) (n), ing. Tswana language /ˈtswɑːnə ˈlæŋgwɪdʒ/, fr. le tchvana, azərb. tsvana. – Bantu dillərindən biridir. Botsvanada yayılmışdır və ingilis dili ilə bərabər bu ölkənin rəsmi dillərindəndir. 3,9 milyona yaxın əhali bu dildə danışır. Xuruçe, rolonq, tlxapinq, tlxaro, kçatla, lete, tlokva və s. əsas dialektləridir. Saitlər sistemi 9 saitdən ibarətdir. Tonlu dildir və əsasən iki ton fərqləndirilir – yüksək, orta. Yazısı latın əlifbası əsasındadır.
D.T.Cole. An introduction to Tswana grammar. London, 1955.

ТУАРЕГСКИЕ ЯЗЫКИ - alm. Tuareg (n), ing. Touareg languages /ˈtwɑːreg ˈlæŋgwɪdʒɪz/, fr. langues touarègues (touareg), azərb. tuareq dilləri. – Bərbər-Liviya dillərinin cənub qrupu. Saxara, Mali, Burkino-Faso, Nigeriya və Çad Respublikalarında yayılmışdır. Tuareq dillərində danışanların ümumi sayı 1 milyondan yuxarıdır. Tuareq dilləri iki yarımqrupa bölünür: şimal (qxat, axnet, tamaxak, taytok, ajjer və s), cənub



Tuareg yazısının nümunəsi "tutanaq" (qalxan üstündəki yazı)

(kel arokas, tadxak, taneslemet, ida, sak) və s. Tuareq yazı nümunəsi «tifinaq» (qalxan üzərindəki yazı) yazısıdır.
J.M.Cortade. Essai de grammaire touaregue. Alger, 1969.

ТУВАЛУ - alm. Tuwalu (n), ing. Tuvalu /tu:'wɑ:lu/, fr. tuvalu, azərb. tuvalu. – Polinez dillərinə aid dillərdən biridir. Tuvalu dövlətində (Sakit okeanın mərkəzi hissəsindəki arxipelaqda yaşayan yerli əhalinin dili) yayılmışdır. 9 minə qədər daşıyıcısı vardır. 1978-ci ildən Tuvalu dövlətinini müstəqillik qazanmasından sonra dövlət dili (ingilis dili ilə bərabər) hüququ qazanmışdır. Fonem inventarı 5 sait və 10 samitdən ibarətdir. Yazısı latın əlifbası əsasındadır.
D.G.Kennedi. Te Ngangana a te Tuvalu. Sydney, 1946.

ТУВИНСКИЙ ЯЗЫК - alm. Tuvinisch (n), ing. Tuvinian /tu:vi:n/, the Tuvinian language /ði: tu:vɪnɪən 'læŋgwɪʤ/, fr. langue Touva, Tuva, azərb. tuvin dili. – Türk dillərindən biridir. Tuva Muxtar vilayətində yayılmışdır. 200 minə qədər əhali tuva dilində danışır. Ərazi baxımından 4 dialektə bölünür: mərkəzi, qərb, şərq, şimal-şərq və cənub-şərq. Leksik qatında monqol dilindən keçmə sözlər üstünlük təşkil edir. Yazısı 1930-cı ilədək latın, 1941-ci ildən isə kiril qrafikasına əsaslanır.
Ф.Г.Исхаков, А.А.Пальмбах. Грамматика тувинского языка. М., 1961.

ТУКАНО ЯЗЫКИ - alm. Tukano-Sprachen (Pl.), ing. Tucana languages /'tu:kɑ:nə 'læŋgwɪʤɪz/, fr. langues tucanos, azərb. tukano dilləri. – Cənubi Amerikada hindi dilləri qrupu. Əsasən Kolumbiya, Ekvador, Peru, Braziliya və s. yayılmışdır. 50 minə qədər daşıyıcısı vardır. Coğrafi baxımdan 3 yarımqrupa bölünür: şərq (tukano, quanano, piratapuyo, papiva, desano, karapano, tatuyo), qərb (siona, makaquaxe, anqutero, tetete, orexon) və, nəhayət, aralıq yarımqrupu (kubeo). Bu dillər arasında ən geniş yayılmışı tukano dilidir.
B.West. Grammatica popular del Tucano. Bogota, 1980.

ТУНГУСО-МАНЬЧЖУРСКИЕ ЯЗЫКИ - alm. Tungusisch-mandschurische Sprachen (Pl.), ing. Tungus-manjurian (Manchuria) languages /'tuŋus/tuŋ'u:s mɑn'ʧu(ə)rɪən mæn'ʧu(ə)r 'læŋgwɪʤɪz/, fr. langues toungouzes-mandchouriennes, (de Mandchourie), azərb. tunqus-mancur dilləri. – Sibirin və Uzaq Şərqin qohum dilləri qrupu. Tunqus-mancur dillərini bəzi tədqiqatçılar Altay dilləri ailəsinə aid edirlər.
В.И.Цинциус. Сравнительная фонетика тунгусо-маньчжурских языков. Л., 1980.

ТУНГУССКИЙ ЯЗЫК – alm. Tungusisch (n), ing. Tungus language /'tuŋus/tuŋ'u:s 'læŋgwɪʤ/, fr. langue Toungouska ou tunguska, azərb. tunqus dili. – Tunquslar əsasən Yenisey çayının sol sahilində, Saxalin adasında, həmçinin az bir qismi Çin və Monqolustanda yaşayırlar. Tun-

qus dilində təqribən 50 minə qədər əhali danışır. Ədəbi dili nep dialektinə söykənir. Yazısı 1937-ci ildən kiril əlifbasına əsaslanır.
О.А.Константинова. Эвенкский язык. М., -Л., 1964.

ТУПИ - alm. Tupi (n), ing. tupi /'tu:pɪ/, fr. toupi, azərb. tupi. – Cənubi Braziliyada yayılmış dildir. 30 min daşıyıcısı məlumdur. Fonem inventarı 6 sait və 16 samitdən ibarətdir. Əsas heca strukturları bunlardır: CVCV, VCV, VCVC (V). Bu dildə iki saitin birləşməsi mümkündür. Vurğu adətən sonuncu hecanın üzərinə düşür. Yazısı latın qrafikasına əsaslanır.
A.Barbosa Lemos. Curso de Tupi antigo. Rio de Janero, 1956.

ТУПИ-ГУАРАНИ ЯЗЫКИ - alm. Tupi-Guarani-Sprachen (Pl.), ing. Tupi Guarani languages /ˌtu:pɪ gwɑ:rə'ni: 'læŋgwɪʤɪz/, fr. langues toupi-guaranais, azərb. tupi-quarani dilləri. – Cənubi Amerikada yayılmış ən böyük hindi dilləri ailəsi. 4 milyona qədər əhalinin danışdığı tupi-quarani dilləri qrupu əsasən Braziliya, Boliviya və Paraqvayda yayılmışdır və təqribən 50-yə yaxın dili özündə birləşdirir. Fonoloji sistemi zəngin saitlər yarımsisteminin (12-14 sait fonem) və nisbətən zəif inkişaf etmiş samitlər yarımsisteminin (12-19) olmasıyla səciyyələnir. Heca daxilində samit birləşmələrinə az təsadüf edilir. CVCV, CVC və CV heca strukturları üstünlük təşkil edir. Vurğu adətən sonuncu hecaya düşür. İsmi sözdüzəltmə feli sözdüzəltmə ilə müqayisədə güclü inkişaf etmişdir.
E.Gregores, J.A.Suarez. A deskription of colloquial Guarani. The Hague – Paris, 1967.

ТУРЕЦКИЙ ЯЗЫК - alm. Türkisch (n), ing. the Turkish language /ðiː 'təːkɪʃ 'læŋgwɪʤ/, fr. le turc, langue turque, azərb. türk dili. – Müasir Türkiyə ərazisində yayılmış türk dili. Əsasən Türkiyə ərazisində və keçmiş sovetlər ittifaqının bəzi respublikalarında (Azərbaycan, Rusiya Federasiyası, Özbəkistan, Kazaxıstan və s.), həmçinin Rumıniya, İran, İraq, Suriya, Yunanıstan və s. dövlətlərində yayılmışdır. Təqribən 70 milyona yaxın daşıyıcısı vardır. Türk Respublikasının rəsmi dövlət dilidir. Yazısı latın qrafikası əsasındadır.
Н.К.Дмитриев. Строй турецкого языка. Л., 1939; А.Н.Кононов. Грамматика современного турецкого языка. Л., 1976.

ТУРКМЕНСКИЙ ЯЗЫК - alm. Turkmenisch (n), ing. Turkmen /'təːkmən/, the Turkmen language /ðiː 'təːkmən 'læŋgwɪʤ/, fr. le turkmène, langue turkmène, azərb. türkmən dili. – Türkmən dili (3,8 milyon) Türkmənistanın dövlət dilidir. Bu dildə 1 milyon 525 min Türkmənistanda, 300 min Əfqanıstanda, 350 min İranda, 120 min Türkiyədə əhali danışır. Tekin, yomud, ərsarin, sarık, çovdur və s. əsas dialektləridir.
Н.А.Баскаков. К истории изучения туркменского языка. Ашгабад, 1965.

ТЮРКОЛОГИЯ - alm. Turkologie (f), ing. study of Turkic languages /'stʌdı əv 'tə:kık 'læŋgwıʤız/, fr. études turcolojiques, azərb. türkologiya. – Türk dilli xalqların dilini, ədəbiyyatını, mədəni irsini, tarixini, folklorunu öyrənən humanitar fənlərin məcmusu. Türkologiyanın (türkşünaslıq) inkişafında əsaslı dönüş XIX əsrin ikinci yarısına təsadüf edir. M.A.Kazımbəy (1802-1870), V.V.Radlov (1837-1917), və b. tədqiqatçılar bu elmin yaranmasında misilsiz xidmət göstərmişlər.

М.А.Казымбек. Общая грамматика турецко-татарского языка. Казань, 1839. В.В.Радлов. Vergleichenole Phonetik der Turksprachen. I, Phonetik. Lagpsiq, 1882-83.

ТЮРКСКИЕ ЯЗЫКИ – alm. Turksprachen (Pl.), ing. Turkic languages /'tə:kık 'læŋgwıʤız/, fr. langues turques, azərb. türk dilləri. – Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Tatarıstan və Türkiyənin dövlət dili. Bundan başqa Rusiya Federasiyası, İran, Əfqanıstan, Monqolustan, Çin, Rumıniya, Bolqarıstan, Albaniya və s. dövlətlərin ərazilərində yaşayan türkdilli xalqların danışdığı qohum dillər ailəsi. Bəzi mənbələrdə türkdilli xalqların sayı göstərilmir ya da bu rəqəmlər qəsdən az göstərilir. Məs.: 1979-cu ildə Almaniyanın paytaxtı Berlində nəşr olunmuş (G.F.Meier, Barbara Meier. «Handbuch der Linguistik und Kommunikationswissenschaft») kitabında türkdilli xalqların sayı aşağıdakı kimi verilir: Türkiyə türkləri 36 milyon, Azərbaycan türkləri 12 milyon, Cənub Azərbaycanda yaşayan azərbaycanlılar 1,4 milyon, türkmənlər 2 milyon, tatarlar 6,5 milyon, başqırdlar 0,5 milyon, qaraqalpaqlar 8 min, karaimlər 260 min, qazaxlar 6,5 milyon, özbəklər 10,5 milyon, uyğurlar 5,5 milyon, qırğızlar 2 milyon və s. Əslində bu gün turkdilli xalqların sayı 300 milyondan yuxarıdır.

N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1980, s. 291-308.

– У –

УБЫХСКИЙ ЯЗЫК - alm. Ubychisch (n), ing. ubykh language /'u:bıx,-k 'læŋgwıʤ/, fr. langue oubykhe, azərb. ubıx dili. – Abxaz-adıgey dillərindən biridir. Adıgeydə və Türkiyə Respublikasının Anadolu bölgəsinin bəzi kəndlərində yayılmışdır. Bu dildə danışanların dəqiq sayı məlum deyil. Abxaz-Adıgey dillərindən fərqli olaraq ubıx dilinin fonoloji sistemi iki sait (açıq /a/ və qapalı /ə/) və 80 samit fonemdən təşkil olunmuşdur. Yazısız dildir.

M.A.Кумахов. Убыхский язык. «Языки нарордов СССР», т. 4, M., 1967.

УВЕЛИЧИТЕЛЬНЫЙ – alm. vergrößernd, ing. augmentative /ɔ:g'mentətıv/, fr. augmentatif,-ve, azərb. böyüdücü. - Böyüdücü mənası ifadə etmək və bununla da müxtəlif emosional çalarlıqlarla (təəccüb, heyrət) müşayiət olunan böyük həcm və kütlənin ümumiləşdirilmiş mənasını verən vasitələr. Məs.: rus d. /домище/, /зрелище/. İtaliyan dilində /cassone/ (böyük qutu, böyük daxıl) sözündə /-one/ səkilçisi böyük həcmi bildirir /cassa/ (qutu, siyirmə). Azərbaycan dilində bu mənanı bildirmək üçün xüsusi qrammatik şəkilçilər yoxdur, böyütmə mənası əsasən leksik yolla ifadə olunur. Məs.: /fil boyda/, /əjdaha kimi/; alm. d. /groß wie ein Elefant/ (Fil kimi böyük) və s. Auqmentativ diminutivə qarşı qoyulur. Deməli, bəzi dillərdə bu felin kateqorial formasıdır, bəzilərində isə leksik yolla ifadə olunur.

P.H.Matthews. Göstərilən əsəri, s. 30

УВЕЛИЧИТЕЛЬНОСТИ ЗНАЧЕНИЕ - alm. vergrößerte Bedeutung (f), ing. augmentative meaning /ɔ:gmentətıv 'mı:nıŋ/, fr. sens augmentatif, azərb. şiddətləndirmə mənası. - Sözün əsas leksik mənasına əlavə edilən şiddətləndirici məna. Bu da dilimizdə əsasən təkrar yolu ilə ifadə olunur Məs.: Azərb. d. /kəsilə-kəsilə qalmaq/, /hıqqana-hıqqana danışmaq/; rus d. (книжища) (həcmcə iri, böyük kitab).

O.C.Ахманова. Göstərilən əsəri, s. 482; R.Conrad. Göstərilən əsəri, s.45.

УВЕЩЕВАТЕЛЬНОЕ НАКЛОНЕНИЕ (КОГОРТАТИВ) - alm. Cohortativus (m), Adhortativus (m), ing. cohortative /'kəuhɒ:tətıv/, hortatory mood /'hɔ:tətərı mu:d/, fr. permissif, cogoratif, azərb. icbar növ. - Məs.: Azərb. d. /yazdırtmaq/, nəyi? (məktubu), kimə?- yəni kimə ünvanlanıb bu məktub? Yazdırdım? yəni məktubu kim yazdı. Ancaq /bildirdim/ felində kim, nəyi, kimə bildirdi məlum olur, alm. d. /schreiben lassen, lesen lassen/ və s.


M.Hüseynzadə. Göstərilən əsəri, s. 187- 189.

УВУЛЯРНЫЙ - alm. uvular, ing. uvula /ˈju:vjʊlə/, fr. uvulaire, azərb. dilçək səsi. - Tələffüz zamanı dilçəyin fəallığı nəticəsində yaranan səs. Adətən, dilçək samitlərini dilarxası samitlərlə dəyişik salırlar. Lakin dilarxası samitlərin tələffüzündə dilin arxa hissəsi fəal olur, yəni onların tələffüzündə dilçək qeyri-fəal olur. Dilçək samitlərinin tələffüzündə isə dilçək fəal rol oynayır. Məs.: alm. d. /R/ samiti buna misal ola bilər. Müq. et: /ˀˈaRba_etən/, /ˀɛRˈkɛltʊŋ/ və s. [r] isə dialektlərdə və yaşlı nəslin dilində işlənir. Fransız dilində də /r/ dilçək samitidir. Azərb., ing. və rus dillərində isə bu samit dilönü titrək kimi tələffüz olunur.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 113-115.

УГАРИТСКИЙ ЯЗЫК - alm. Ugaritisch (n), ing. Ugarit language /u:gəˈrɪt ˈlæŋgwɪʤ/, fr. langue ugaritique, azərb. uqarit dili. – Ölü semit dillərindən biridir. Aralıq dənizinin sol sahilində bizim eradan əvvəl XII-XIII əsrlərdə Uqarit dövləti ərazisində yayılmışdır. Uqarit dilində yazıda mixi konsonant əlifbadan istifadə olunduğunu yazılı abidələr (dini mərasimlərə aid mətnlər, işgüzar sənədlər və s.) göstərir.

Uqarit əlifbası



C.Cerepт. Угаритский язык. M., 1965.

УГОРСКИЕ ЯЗЫКИ - alm. ugrische Sprachen (Pl.), ing. Ugric languages /ˈu:grɪk, ˈju:-, ˈlæŋgwɪʤɪz/, fr. langues ougores, azərb. uqor dilləri. - Fin-uqor dillərinin qollarından biridir. Genealoji mənsubiyyətinə görə uqor dilləri fin-uqor ulu dilinə aiddir. Uqor dilləri macar və ob-uqor (xanta və man) yarımqruplarına bölünürlər. Uqor dilli xalqlar (macarlar Mərkəzi Avropada), xantlar və manlar isə əsasən qərbi və şərqi Sibirdə (Ob çayının sahillərində) məskunlaşmışlar. Ümumilikdə bu dillərdə təqribən 15 milyondan yuxarı əhali danışır. Uqor dillərinə daxil olan macarlar yazıda latın, xantlar və manlar isə kiril əlifbasından istifadə edirlər.

П.Хайду. Уральские языки. M., 1985; L.Honti. Characteristic features of Ugric Languages. «Acta Linguistica Academiae scientiarum Hungaricae», t. 29, Budapest, 1979.

УДАРЕНИЕ (АКЦЕНТ) - alm. Betonung (f), Akzent (m), Druck (m), ing. stress /ˈstres/, accent /ˈæksənt/, fr. accent, azərb. vurğu. – «Vurğunun akustik təbiəti sözdə bir hecanın yüksək və ya alçaq tonla, daha qüvvətli və ya daha zəif, zaman baxımından isə daha çox və ya daha az vaxt sərf etməklə tələffüz olunmasıdır. Aritikulyator baxımdan, vurğulu hecadakı səslər tələffüzdə danışıq üzvlərinin daha gərgin

vəziyyət almasıdır. Vurğu, hər şeydən əvvəl, dərketmə vahididir. Alm. d. /ˈa:bənt/ (axşam), /ˈta:fəl/ (lövhə) sözlərində vurğu birinci hecanın üzərinə düşür. Əgər həmin sözlərdə vurğunu ikinci hecada tələffüz etsək, o zaman bu sözləri başa düşmək olmaz. Verilmiş sözləri /a:ˈbənt/, /ta:ˈfəl/ kimi işlətmək mümkün deyil. Realaşma yerinə görə vurğunun üç növünü göstərirlər: söz, sintaqm və cümlə vurğusu. Sözdə vurğunun daşıyıcısı heca, sintaqm və cümlədə isə sözdür».
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 134-135.

УДАРНЫЙ - alm. betont, ing. stressed /stresd/, fr. accentué, azərb. vurğulu. - Vurğu daşıyan, üzərinə vurğu düşən. Məs.: Azərb. d. /baˈba/ sözündə ikinci heca vurğuludur. Vurğulu heca qüvvətli tələffüz edildikdə ona qüvvətli (dinamik), uzun tələffüz edildikdə kəmiyyət (kvantativ), qalxıb-enən tonla tələffüz edildikdə isə musiqili vurğu deyirlər.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 135-136.

УДАРНЫЙ ГЛАСНЫЙ - alm. betonter Vokal (m), ing. stressed vowel /stresd ˈvauəl/, fr. voyelle accentuée, azərb. vurğulu sait. - Söz daxilində başqa saitlərə nisbətən uzunluğuna, gücünə və tonun hərəkətinə görə fərqlənən sait. Məs.: Azərb. d. vurğulu saitlər hər üç akustik parametrin göstəricilərinə görə (ton, intensivlik və zaman) vurğusuz saitlərinkindən fərqli olur. Müq. et: Azərb. d. /papaq/, /hava/ və s. kimi ikihecalı sözlərdə ikinci hecadakı saitlər vurğu daşıyırlar. Rus d. vurğulu sait vurğusuzdan 1,5 dəfə uzun tələffüz olunur.
Л.В.Златоустова. Фонетическая структура слова в русском языке. Казань, 1962.

УДАРНОЕ СЛОВО - alm. betontes Wort (n), ing. stressed word /stresd wɜ:d/, fr. mot accentué, azərb. vurğulu söz. - Cümlə tərkibində vurğulu söz. Məs.: alm. d. /ʔin ˌdeːr ˌˈʃuːlə.../ (məktəbdə); ing. d. /at the school.../ (məktəbdə); azərb. d. /məktəbə qədər// və s. fonetik sözlərdə vurğu avtosemantik mənalı sözün üzərinə düşür.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 144- 145.

УДАРНЫЙ СЛОГ - alm. betonte Silbe (f), ing. stressed syllable /stresd ˈsıləbl/, fr. syllabe accentuée, azərb. vurğulu heca. - Sözdə vurğu daşıyan heca. Məs.: Azərb. d. /aná, atá, balá, talá, külə'k/ sözlərində ikinci heca vurğu daşıyır. Alm. d. /ˈWetter/ (hava) (n), /ˈMutter/ (ana) (f), /ˈVater/ (ata) (m) sözlərində vurğu birinci hecaya, /Muˈsik/ (musiqi) (f) sözündə isə ikinci hecaya düşür.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1981, s. 136-137.

УДАРЯЕМОСТЬ - alm. Akzentuierung (f), ing. stressed /stresd/, fr. accentuation, azərb. vurğululuq. - Söz hissələrinin seqmentüstü (qeyri-xətti)

fonoloji səciyyəsi. Dildə iki meyarlı qarşılaşma fərqləndirilir: /÷ –/ (vurğulu + vurğusuz); /– ÷/ (vurğusuz + vurğulu).
Л.Р.Зиндер. Общая фонетика. М., 1979.

УДАРЯЕМЫЙ – Bax: Ударный ←.

УДВОЕНИЕ - alm. Gemination (f), Verdoppelung (f), ing. gemination /ˌʤemɪˈneɪʃən/, reduplication /rɪˌdju:plɪˈkeɪʃən/ fr. gemination, azərb. geminasiya. – 1. Samitin uzun tələffüzü. İtalyan dilində /at:o/ «hərəkət» (atto kimi yazılır) /t/ samiti uzundur və geminat kimi adı qısa /t/ samitinə qarşı qoyulur. Azərbaycan dilində uzun samitlər məsələsinə toxunan və onları ayrılıqda fonem hesab edən ilk dilçilərdən biri F.Kazımov (1925-1989) dilimizdə aşağıdakı 15 samitin geminat olduğunu sübut etməyə çalışırdı:

/p:, b:, d:, t:, k:, g:, m:, n:, l:, f:, v:, s:, ʃ:, ʒ:, z: /

F.Kazımov öz fikirlərini bu amillərlə əsaslandırır: 1. Azərbaycan geminatları morfoloji cəhətdən bölünməz bütövdürlər; 2. Geminatlar sadə samitlərlə mövqe əvəzlənməsinə girmirlər; 3. Geminatlar sadə samitlər və ya iki sadə samiti əvəz edə bilmirlər; 4. Geminatlar dildə məna fərqləndirməyə, sözü tanımağa xidmət edirlər; 5. Nəhayət, azərbaycanca danışanlar geminatların fonoloji rolunu hiss edirlər. Sonuncu kriteriya bəri başdan qəbul edilə bilməz. /əm:mək/, /yum: max/, /il:ik/ və s. kimi sözlərdə samitlərin bir morfemə aid olmasını iddia etmək düzgün deyildir, çünki samitin biri kök, o birisi isə şəkilçi morfemə aiddir. «Baqqal, saqqal» və s. kimi sözlərdə /k+g/ samit birləşməsi tələffüz olunur. «Xətt, miss, zidd» sözlər isə çağdaş Azərbaycan tələffüz normasına görə bir samitlə deyilir. Beləliklə, müasir Azərbaycan dilində uzun samitlərin (geminatların) olması fikri özünü doğrultmur.
P.H.Matthews. Oxford Concise Dictionary of Linguistics. Oxford, 1997, s. 141; H.K. Дмитриев. Некоторые вопросы азербайджанского языкознания. Труды АГУ. Баку, 1949; Ф.Кязимов. Система согласных фонем современного азербайджанского языка. «Уч. записки» Азгоспединститута иностранных языков. Баку, 1956, выпуск 1., s. 47-58; F.Veysəlli. SDƏ. s. 121-127.

УДВОЕННЫЙ - alm. verdoppelt, ing. double /ˈdʌbl/, reduplicated /rɪˈdju:plɪkeɪtɪd/, fr. doublé, géminé,-e, azərb. uzunlaşma. – a). dilin fonem sistemində eyni cinsli samitlərin uzun tələffüzü. Məs; italyan d. /bɛl:o/; Azərb. d. /əl:i/ (50); b) yazıda özündən əvvəl gələn saitin qısa tələffüzünə xidmət edən ikiləşmə. Məs.: alm. d. /ˈmʊtər/ /Multer/ (ana); c) morfem və leksemlərin ikiləşməsilə mənanın qüvvətlənməsi:
R.Conrad. Göstərilən əsəri, s. 91.

УДВОЕННЫЙ СОГЛАСНЫЙ - alm. Doppelkonsonant (m), ing. geminated (double) consonant /ˈdʒemɪnɪted ˈdʌbl, ˈkɒnsənənt/, fr. consonne géminée (double), azərb. qoşalaşmış samit. – Məs., alm. d. yazıda /tt/ samit qoşalaşması ondan əvvəl gələn saitin qısa tələffüz olunmasına xidmət edir. Məs.: /ˈmu:t/ - «Mut» (cəsarət), ancaq /ˈmʊtər/- «ana».
R.Conrad. Göstərilən əsəri, s. 91.

УДИНСКИЙ ЯЗЫК – alm. Udisch (n), ing. udi language /ˈu:dɪ ˈlæŋgwɪdʒ/, fr. langue oudine, azərb. udin dili. – Ləzgi dillərindən biridir. Azərbaycanın Qəbələ rayonunun Nic və Cürcüstanın Oktomberi kəndlərində yayılmışdır. Bu dildə təqribən 7 minə qədər əhali danışır. Yazısız dildir.
Е.Ф.Джейранашвили. Удинский язык. «Языки народов СССР», т. 4, М., 1967.

УДЛИНЕНИЕ - alm. Dehnung (f), Verlängerung (f), ing. lengthening /ˈleŋθənɪŋ/, fr. allongement, azərb. uzadılmış. – a) Azərb. d. alınma sözlərdə vurğudan əvvəlki hecada saitin uzun tələffüzü buna misal ola bilər. Müq. et /a:dil/, /ə:la/, /a:ləm/ və s; b) rus d. isə vurğulu heca saiti vurğusuzdakına nisbətən daha uzun tələffüz olunur; c) istənilən dildə üslubi vasitə kimi istifadə olunur və danışığın emosionallığını (işvəli, ironiyalı, qəzəbli və s. danışığın əlaməti olaraq) artırır Məs.: alm. d. /ʃø:ø:ø:n / (göözəl), rus.d. /какой оон хорооший/, Azərb. d. /nə göözəldir/ və s.
N.S.Trubeskoy. Göstərilən əsəri, s. 22-37.

УДМУРТСКИЙ ЯЗЫК – alm. Udmurtisch (n), ing. Udmurt /u:dˈmʊət/ˈʊdmʊət/, the Udmurt language /ðɪ: ˈʊdmʊət ˈlæŋgwɪdʒ/, fr. langue oudmourte, azərb. udmurt dili. – Perm dillərindən biridir. Əsasən Udmurt, Başqırdıstan, Tatarıstan, Mari və s. respublikalarında yayılmışdır. Udmurt dilində 600 minə qədər əhali danışır. Udmurt dili şimal (Çepsa çayının hövzəsində, Vyatka çayının mənsəbində və s.) və cənub (bura zavyat və zakam dialektləri aiddir) dialektlərinə bölünürlər. Müasir udmurt ədəbi dili şimal və cənub dialektlərinin ümumi xüsusiyyətlərini özündə əks etdirir.
Д.В.Бубрих. Историческая фонетика удмуртского языка. Ижевск, 1948.

УДЭГЕЙСКИЙ ЯЗЫК – alm. Udehe-Sprache (f) , ing. Udegey language /ju:dɪgeɪ ˈlæŋgwɪdʒ/, fr. langue oudyghéenne, azərb. udegey dili. – Tunqus-Mancuriya dillərindən biri. Xabarovsk və Primorsk vilayətlərində yayılmışdır. Udegey dilində 500-ə qədər əhali danışır. Əsasən məişət çərçivəsində işlənir. Yazısız dildir.
О.П.Суник. Удэгейский язык. «Языки народов СССР», т. 5, Л., 1968.

УЗБЕКСКИЙ ЯЗЫК – alm. Usbekisch (n), ing. Uzbek /'ʊzbek/, The Uzbek language /ðɪ 'ʊzbek 'læŋgwɪdʒ/, fr. l'ouzbek, azərb. özbək dili. – Türk dillərindən biridir. Əsasən Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Tacikistan, Əfqanıstanda, Çin Xalq Respublikasının Uyğurıstan Muxtar vilayətində və s. yayılmışdır. Özbək dilində 15 milyondan yuxarı əhali danışır. Özbək dili türk dillərinin qarluq qrupunun qarluq-Xorəzm yarımqrupuna daxildir. Qədim özbək ədəbi dilinin əsası böyük özbək şairi Əlişir Nəvainin (1441-1501) əsərlərində öz əksini tapmışdır. Özbək xalqı əvvəlcə ərəb, sonralar latın, sovet dövründə isə kiril əlifbalarından istifadə etmişdir.

А.Н.Кононов. Грамматика современного узбекского языка. М.,-Л., 1960.

УЗКАЯ ТРАНСКРИПЦИЯ - alm. enge Transkription (f), ing. narrow transcription /'nærəʊ trænsˈkrpʃən/, fr. transcription étroite, azərb. dar transkripsiya. - İlk dəfə böyük ingilis alimi A.Svit (1895-1912) «narrow» və «broad» transkripsiya növlərini fərqləndirməyi təklif edib. Birinci müasir dilçilikdə fonoloji, ikincisi isə fonetik transkripsiyaya uyğun gəlir.

F.Veysəlli. SDƏ.

УЗКИЙ ГЛАСНЫЙ - alm. enger Vokal (m), ing. narrow (slender) vowel /'nærəʊ'slendə'vaʊəl/, fr. voyelles étroites, azərb. qapalı, incə sait. – Tələffüzü zamanı dil kürəyinin sərt damağa doğru qalxması ilə əmələ gələn saitlər. Azərb. d. eyni bir saitin qapalı və açıq olması fonoloji səciyyə daşımır. Ancaq /u/, /ü/, /e/, /i/ saitləri /a/, /ı/, və /o/ saitlərinə nisbətən qapalıdır. Alm. d. /a:/ saitindən başqa yerdə qalan 6 uzun sait (/o:, u:, e:, ø:, y:, i:/), öz qapalılığı ilə /ɔ, ʊ, œ, ɛ, ɣ/ açıq saitlərdən fərqlənirlər.

P.H.Matthews. Göstərilən əsəri, s. 237; R. Conrad. Göstərilən əsəri, s. 290-291.

УЗУАЛЬНЫЙ - alm. usuell, ing. usual /'ju:ʒʊəl/, fr. usuel,-le azərb. adi, uzual - Cəmiyyətdə qəbul edilib mütəmadi işlədilən, ümumi normalara müvafiq olan söz və ya ifadə. Adətən «okkazional» («təsadüfən», «bircə dəfə» işlədilən) terminilə qarşılaşdırılır. İng. d. /black/ (qara) və /blackish/ (qaratəhər), /blackness/ (qaralıq) buna misal ola bilər. Ancaq /blackishness/ (qaralıq) təsadüfü olacaq.

А.Н.Смирницкий. Лексикология английского языка. М.,1956, s.18


УЗУС - alm. Usus (m), ing. usage /'ju:zɪdʒ/, norm /nɒ:m/ fr. usage, azərb. uzus, adi. - Latın dilində uzus «adi, adilik» deməkdir. Söz və ifadələrin forma və konstruksiyaların cəmiyyətdə qəbul olunmuş şəkildə işlənməsi.

Bax: Узуальный ←.

УЙГУРСКИЙ ЯЗЫК – alm. Ujgurisch (n), ing. Uigur /ˈwiːgə/ˈwiːguə/, the Uigur language /ðiˈwiːgə/ˈwiːguəˈlæŋgwɪdʒ/ fr. langue ouighur, ouïgour ou uigur, azərb. uyqur dili. – Türk dillərindən biridir. Çin Xalq Respublikasının tərkibindəki (Sin-szyan) Uyğur Muxtar Respublikasında və Qazaxıstan Respublikasında yayılmışdır. Uyğur dilində 15 milyona yaxın əhali danışır. Çin ərazisində yaşayan uyğurlar ərəb əlifbasından istifadə edirlər.

A. von Gabain, Alttürkisches. Schrifftum. B, 1950.

Soqdi, uyğur və aramey əlifbaları



УКАЗАТЕЛЬНОЕ МЕСТОИМЕНИЕ - alm. Demonstrativpronomen (n), ing. demonstrative pronoun /dɪˈmɒnstrətɪv ˈprəʊnaʊn/, fr. pronom démonstratif, azərb. işarə əvəzliyi. - Məkan və zaman baxımında yaxında yerləşən predmetləri və səxsləri göstərmək üçün işlədilən, daha doğrusu, həmin predmetləri və şəxsləri dəqiqləşdirən, əlamətləri ümumi şəkildə ifadə edən əvəzliklər. Dilimizdə ən çox işlədilən işarə əvəzlikləri

bunlardır: /bu/, /o/, /elə/, /belə/, /həmən/; alm. d. /dieser (e, es), /jener (e, es)/, /derselbe/, /dasselbe/, /dieselbe/, /dies/, /das/; ing. d. /that/, /this/, /there/, rus. d. isə /это (эта)/, /этот/ və s. işarə əvəzlikləridir.
M.Hüseynzadə. Göstərilən əsəri, s. 131-137.

УКАЗАТЕЛЬНОЕ ПРИЛАГАТЕЛЬНОЕ - alm. Demonstrativadjektiv (n), ing. demonstrative adjective /dɪ'mɒnstrətɪv 'ædʒɪktɪv/, fr. adjectif démonstratif, azərb. işarə sifəti.

Bax: Указательное местоимение ←.

УКАЗАТЕЛЬНОЕ СЛОВО - alm. Demonstrativwort (n), ing. pointer, deictic word /'pɔɪntə, 'daɪktɪk wɜ: d/, demonstrative word /dɪmɒnstrətɪv wɜ:d/, fr. mot démonstratif, azərb. işarə sözü.

Bax: Указательное местомение ←.

УКАЗАТЕЛЬНЫЕ ОПРЕДЕЛЕНИЯ - alm. Demonstrativattribute (Pl.), ing. demonstrative attributes /dɪmɒnstrətɪv 'ətrɪbjʊts/, fr. attributs démonstratifs, azərb. işarə təyinləri.

Bax: Определение ←.

УКАЗАТЕЛЬНЫЙ АРТИКЛЬ - alm. Demonstrativartikel (m), ing. demonstrative article /dɪmɒnstrətɪv 'ɑ:tɪkl/, indicating article /'ɪndɪkeɪtɪŋ 'ɑ:tɪkəl/, fr. article indicatif, azərb. işarə artikli.

Bax: Артиклъ ←.

УКРАИНСКИЙ ЯЗЫК - alm. Ukrainisch (n), ing. the Ukrainian language /ðiː jʊ'kreɪnɪən 'læŋgwɪdʒ/, fr. l'ukrainien, langue ukrainienne, azərb. Ukrayna dili. – Cənubi slavyan dillərindən biridir. Əsasən Ukrayna Respublikasında, Rusiya Federasiyasında, Belarus Respublikasında, həmçinin Polşa, Çex, Slovak, Kanada, Amerika və s. dövlətlərində yayılmışdır. Ukrayna dilində 40 milyondan yuxarı əhali danışır. Ukrayna ədəbi dilinin formalaşması iki mərhələ keçmişdir: I mərhələ – köhnə ukrayn dili (XIV-XVIII əsrlər), II mərhələ – müasir ukrayn dili (XVIII əsrin sonu).

Л.А.Булаховський. Питання походження українськоі мови. Киiv, 1956.

УКРАШАЮЩИЙ ЭПИТЕТ - alm. Epitheton (n), Attribut (n), Beifügung (f), ing. adherent epithet /əd'hɪərənt 'epɪθet/, fr. épithète, azərb. bəzəyici epitet.

Bax: Эпитет ←.

УЛУЧШЕНИЕ ЗНАЧЕНИЯ - alm. Verbesserung der Bedeutung (f), ing. improvement of meaning /ɪm'pru:vmənt əv 'mi:nɪŋ/, amelioration of meaning /əˌmi:lɪə'reɪʃən əv 'mi:nɪŋ/, fr. amélioration de la signification, du sens, azərb. mənanın yaxşılaşması. - Sözün ifadə planında (semantikasında) baş verən dəyişmədir ki, bu dəyişiklik nəticəsində o, cəmiyyətdə

qiymətli, faydalı, hörmətli hesab edilən varlıqları (prosesləri, işləri, keyfiyyətləri və s.) ifadə etməyə başlayır. Məs.: orta alm. d. /der Marschall/ - «ata baxan, mehtər», yeni. alm. d. /Marschall/ - «yüksək hərbi rütbə» deməkdir. Alm. və fr. d. /ministr/ sözünün ilkin mənası «xidmətçi» demək idi. Bu gün /Minister/ - «nazir» mənasında işlənir. Elmi ədəbiyyatda buna bəzən meliorativ deyirlər və peyorativə qarşı qoyurlar.
P.H.Matthews. Göstərilən əsəri, s. 16; R. Conrad. Göstərilən əsəri, s. 194; F.Yadigar (Veysəlli). GDG. s. 165.

УЛЬЧСКИЙ ЯЗЫК – alm. Ultschisch (n) (Ulčisch), ing. Ulich language /ju:'lɪtʃ 'læŋgwɪdʒ/, fr. langue oultche, azərb. ulç dili. – Tunqus-mancur dillərinə aid dildir. Rusiya Federasiyasının Xabarovsk vilayətinin Amur düzənliyində yayılmışdır. 1000 nəfərə yaxın daşıyıcısı məlumdur. Yazısız dildir.
О.П.Суник. Ульчский язык. Л., 1965.

УМБРСКИЙ ЯЗЫК – alm. Umbrisch (n), ing. Umbrian language /'ʌmbrɪən 'læŋgwɪdʒ/, fr. langue oumbrien, azərb. umbr dili. – İtali dillərinə aid ölü dillərdən biridir. Romanın şimal-şərqindəki Umbriyada məskunlaşmış tayfaların dili olmuşdur.
A.Ernout. Le dialecte Ombrien. Paris, 1961.

УМБУНДУ – alm. Umbundu (n), ing. Umbundy language /'ʌmbəndɪ 'læŋgwɪdʒ/, fr. langue oumboundou, azərb. umbundu dili. – Bantu dillərindən biridir. Umbundu dili Anqolanın mərkəzi və sahilboyu ərazilərində yayılmışdır. 2 milyon əhali bu dildə danışır. Tonlu dildir. Söz strukturunda açıq hecalar üstünlük təşkil edir, vurğu sabitdir və adətən axırdan əvvəlki hecaya düşür.
J.F.Valente. Grammatica Umbundu. A lingua do Centro de Angola. Lisboa, 1964.

УМЕНЬШИТЕЛЬНО-ПРЕНЕБРЕЖИТЕЛЬНЫЙ.- alm. diminutiv-vernachlässigt, ing. diminutive-prejorative /dɪ'mɪnjʊtɪv-'predʒərətɪv/, fr. diminutif dédaigneux, méprisant, azərb. kiçiltmə-etinasız. - Kiçiltmə, etinasız münasibət bildirən. Məs.: alm. d. /-ling/ səkilçisi buna misal ola bilər. Dichterling /şaircik/ və s.
R.Conrad. Göstərilən əsəri, s. 194.

УМЕНЬШИТЕЛЬНОСТЬ - alm. Verminderung (f), ing. diminutivity /dɪ'mɪnjʊtɪvɪtɪ/, fr. le diminutif, azərb. kiçiltmə. – Azərb d. (cığaz), alm d. /-çən/, /-laen/ şəkilçilərilə düzələn kiçiltmə mənalı sözlər. Müq. et: /qızcığaz/, /das Männlein/ (kişiciyəz), /das Büchlein/ (kıtabcığaz) və s.
R.Conrad. Göstərilən əsəri, s. 65.

УМЕНЬШИТЕЛЬНЫЙ - alm. diminutiv, ing. diminutive /dɪ'mɪnjʊtɪv/, fr. diminutif, azərb. kiçiltmə. - Hər hansı əşya və hadisənin çəkisini, Ölçüsünü, gücünü və dəyərini həddən artıq kiçiltməklə yaranan obrazlı ifa-

də. Məs.: Azərb. d. /Bir qarış uşaqdır/, /dıqqılı bala/, /bir tikə ye/. Alm. d. /ein Butterbrötchen/ (kökəcik), /eine kleine wenige Strecke/ (balaca, kiçik məsafə) və s. Ancaq bəzi dillərdə felin tərz növü diminutiv mənasını da bildirir. Məs.: rus d. /поразвлечь болъного/. Ancaq isimlərdə geniş işləndiyindən fellərə az tətbiq edirlər.
R.Conrad. Göstərilən əsəri, s. 143.

УМЕНЬШИТЕЛЬНО-ЛАСКАТЕЛЬНЫЙ – alm. diminutive Koseform (f), ing. diminutive-hypocorestic /dɪ'mɪnjʊtɪv 'hʌɪpəʊkə'rɪstɪk also - chor/, fr. diminutif, azərb. kiçiltmə - əzizləyici. – 1) Sözə kiçildici münasibət bildirmək üçün kiçiltmə və əvəzləmə mənasında işlənən söz. Məs.: rus d. /домик/, /кирпичик/; Azərb. d. /evciyəz/; 2) Xüsusi kiçiltmə şəkilçilərlə düzələn şəxs adları. Məs.: rus d. /Ванъка/, /Петенъка/; Azərb. d. /Əhmədcik/ və. s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 483.

УМЛАУТ - alm. Umlaut (m), Methaphonie (f), Periphonie (f), ing. umlaut /'ʊmlaʊt/, mutation /mjʊ:'teɪʃən/, fr. umlaut, azərb. umlaut. – German dillərində daxili feleksiyanın bir növü olub, saitlərin əvəzlənməsilə yeni qrammatik formanın yaranmasına xidmət edir. Bu termin dilçiliyə X1X əsrin birinci rübündə Y.Qrimm tərəfindən gətirilmişdir. Əsasən orta əsrlərdə meydana çıxan umlaut hadisəsi isimlərin tək və cəmini fərqləndirən əlamət kimi təzahür etmişdir. Tək halda arxa sıra saitləri olan /Bruder/ (qardaş), /Ofen/ (soba), /Gast/ (qonaq) və.s. kimi sözlər cəmdə müvafiq ön sıra saitlərinə keçirlər. Müq. et: /Brüder/, /Öfen/, Gäste/ və. s. İng. d. /foot/→ /feet/. Əslində qədim german dillərində kök saitinin bu cür dəyişməsinə səbəb söz kökünə əlavə edilən incə sait səbəb olsa da, sonradan unifikasiya nəticəsində vurğu kök saitin üzərinə keçir və cəm şəkilçisi ya düşür (məs.: ing. d. (/foot/-footy/) ya da neytral /ə/-yə keçir. Məs.: alm. d. /gest- gesti/→/'gestə/ və s. E. s. 750- ci illərdən başlayaraq sonda gələn /i (j)/-nin əlavəsilə yazıda bu /a>e/ kimi işarə olunurdu. Alm. d. iki cür umlaut fərqləndirilir. Birinci umlaut (Primärumlaut): q. a. d /lamb̓/>/lembir/. /hs, ht, rh, rw/ samit birləşmələri umlauta mAneçilik törədən birləşmələr idi. Lakin XII əsrdən sonra bunların da qarşısında umlaut yarandı və bununla da ikinci umlaut (Sekundärmlaut) prosesi başlandı ki, bu aşağıdakı şəkildə özünü büruzə verdi: /a/> /ä/, o>ö, u>ü, ā>æ, ō>oe, u><iu (=ü), ou>ōu (eu) uo>üe. Müq. q. a.d. mahtig> y. a. d. mähtec «machtig» (güclü, nəhəng), /mohti/>/möhte/, /möchte (istərdim), /husir/>/hiuser/, /Häuser/ (evlər).
P.H. Matthews. Göstərilən əsəri, s. 388; R. Conrad. Göstərilən əsəri, s. 281.

УМОЛЧАНИЕ - alm. Verschweigen (n), ing. passing over in silence /'pa:sɪŋ 'oʊvə ɪn 'saɪləns/, preterition /'pri:tə'rɪʃən/, fr. silence, réticence,

azərb. susma. – Danışıq aktında həmsöhbət danışığını kəsir, lakin dinləyici onun nə demək istədiyini başa düşərək asanlıqla bərpa edə bilir. Məs.: Azərb. d. /Mən professor, indi bu yaşımda... (vəzifə davası edim) və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 483

УНИВЕРСАЛИИ ЛИНГВИСТИЧЕСКИЕ - alm. linguistische Universalien (Pl.), ing. linguistic universals /ˈlɪŋˈgwɪstɪk juːnɪˈvɜːsəls/, fr. universalités linguistiques, azərb. linqvistik universalilər. – Dünyanın bütün dillərinə xas olan xüsusiyyət və hadisələr. Linqvistik universalilər də öz növbəsində iki qrupa bölünürlər, mütləq (dünyanın bütün dillərini əhatə edən) və statistik (dillərin böyük əksəriyyətində rast gəlinən). Mütləq universalilərə aşağıdakılar aiddir: 1) Bütün dillərdə sait və samitlər mövcuddur; 2) Bütün dillərdə insanlar öz danışıqlarında cümlələrdən istifadə edirlər; 3) Bütün dillərdə xüsusi adlar vardır; 4) Qrammatik fərqlərin olduğu dillərdə kəmiyyətə görə fərqlənmənin olması mütləqdir. Statistik universalilərə aşağıdakıları nümunə göstərmək olar: 1) Dillərin böyük əksəriyyətində ən azı iki və daha artıq sait olur (yalnız Avstraliyadakı aranta dilində saitlər yarımsistemi tək bircə saitdən ibarətdir); 2) Demək olar ki, dunyanın bütün dillərində əvəzliklər kəmiyyətcə tək və cəm olurlar (yalnız köhnə və müasir yava dilində əvəzliklər kəmiyyətə görə tək və cəmə bölünmürlər).
Ю. С. Маслов Введение в языкознание. М. 1987. s. 4; Yeni, 4-cü nəşri: С.-Петербург, 2005, s. 6.

УНИЛАТЕРАЛЬНЫЙ – Bax: Односторонний ←.

УНИФИКАЦИЯ ЯЗЫКА – alm. Unifikation der Sprache (f), ing. unification (standard) of language /ˌjuːnɪfɪˈkeɪʃən/ˈstændəd/ əv ˈlæŋgwɪʤɪz/, fr. unification de la langue, azərb. dilin vahid şəklə düşməsi. – Vahid ədəbi dilin yaranması. İngilis dilli ədəbiyyatda buna «standard language» deyirlər.
P.H.Matthews. Göstərilən əsəri, s. 390.

УНИЧИЖИТЕЛЬНЫЙ – Bax: Пейоратив ←.

УНЦИАЛ – Bax: Письмо ←.

УПОДОБЛЕНИЕ ГРАММАТИЧЕСКОЕ - alm. Kongruenz (f), Übereinstimmung (f), ing. concord, agreement /ˈkɒŋkɔːd ə'griːmənt/, congruence /ˈkɒŋgruəns/, coordination /kəʊˌɔːdɪˈneɪʃən/, grammatical assimilation /grəˈmætɪkəl əˌsɪmɪˈleɪʃən/, fr. comparasion grammaticale, azərb. qrammatik uyuşma (uzlaşma). - Dillərin əksəriyyətində xəbərlə mübtəda kəmiyyətə görə, rus və alm. d. isə onlar həm də cinsə görə uzlaşırlar. Məs.: cəmdə alm. d. /Die guten Knaben kommen/ (yaxşı oğlanlar gəlirlər), /die guten Töchter kommen/ (yaxşı qızlar gəlirlər), /die guten Bilder gefallen uns/ (yaxşı şəkillər xoşumuza gəlir); rus d. /хорошие мальчики идут/, /хорошие сестры идут/, /хорошие дети идут/, Azərb. d. /Qatar gəlir/,

/Qatarlar gəlirlər/; alm. d. təkdə /Der gute Knabe kommt/ (yaxşı oğlan gəlir), /die gute Tochter kommt/ (yaxşı qız gəlir), /das gute Bild gefällt mir/ (yaxşı şəkil xoşuma gəlir); ing. d. /The train is coming/ (qatar gəlir), /The trains are coming/ (qatarlar gəlir); rus d. /хороший мальчик идёт/, /хорошая сестра идёт/, /хорошое лето идёт/; Azərb. d. /uşaq yatır/.

Bax: Согласование ←.

УПОМИНАНИЕ – alm. Allusion (f), ing. allusion /ə'lu:ʒən/, fr. mention, azərb. xatırlama. – Qaynağa söykənək, keçmişin tarixi faktlarına istinad. Məs.: /Sokratı deyə bilmərəm, ancaq Platondan xəbərim var//.

O.C.Ахманова. Göstərilən əsəri, s. 486.

УПОТРЕБИТЕЛЬНОСТЬ - alm. funktionelle Belastung (f), ing. functional yield /'fʌŋkʃənəl ji:ld/, use /ju:s/, fr. rendement fonctionnel, azərb. işləklik.

Bax: Функциональная нагрузка ←.

УПОТРЕБЛЕНИЕ - alm. Gebrauch (m), Anwendung (f), ing. use /ju:s/, application /æplɪkeɪʃən/, combinatory possibilities /'kɒmˌbɪnə'tərɪ ˌpɒsə'bɪlɪtɪs/, fr. emploi, usage, azərb. işlətmə. – Hər hansı bir dil vahidinin danışıqda izlənməsi xüsusiyyəti (tezliyi, yeri) və s. Məs.: Azərb., alm., rus və ing. dillərində sifət, bir qayda olaraq, isimdən əvvəl işlənir və təyin rolunda çıxış edir. Müq et: Azərb. d. /yaxşı oğlan/, alm. d. /ein guter Mann/, rus d. /хороший мальчик/, ing. d. /a young man/ və s.

O.C.Ахманова. Göstərilən əsəri, s. 486.

УПОТРЕБЛЕНИЕ АБСОЛЮТНОЕ - alm. absoluter Gebrauch (m), ing. absolute use /'æbsəlu:t ju:s/, fr. emploi absolu, azərb. mütləq işlətmə. - Dildə sözün sərbəst işlənməsi, asılı olmaması. Məs.: alm. d. /Mir ist angst/ (Mən qorxuram); 2) Alm. d. indiki (Präsens), Präteritum və gələcək zaman müstəqil işlənə bilir.

O.C.Ахманова. Göstərilən əsəri, s. 486

УПРАВЛЕНИЕ - alm. Rektion (f), ing. government /'gʌvənmənt/, fr. régime, rection, azərb. idarə. – Tabe edən (idarə edən) sözün tələbilə tabe olan (idarə olunan) sözün müəyyən şəkilçi qəbul etməsi. İdarə əlaqəsinin əsas mahiyyəti ondan ibarətdir ki, burada tabe söz tabe olduğu sözün tələbilə ismin bu və ya digər halına düşməli olur, ismin hallara görə dəyişməsi idarə əlaqəsinin tələbilə baş verir, yəni xəbər yerində gələn felin tələbilə isim hallanır. İsmin idarə əlaqəsi əsasında yaranan birləşmələrin tabe tərəfi hallanmaya malik olurlar, yəni isimləşir, ya da müvəqqəti olaraq ismiləşən sözlərdən ibarət olur. Azərb. d. fellər, qoşmalar, müqaysə məqsədilə işlənən bəzi sifətlər, ikinci və üçüncü növ təyini söz birləşmələrinin ikinci tərəfləri kimi işlənən bütün sözlər isimin hallarını idarə edə bilir. Məs.: Azərb. d. /dərsə getmək/, /həyətə baxmaq/, /yalan demək/, /suya girmək/, /düzünü demək/, /beşdən iki çıxmaq/,

/qalibləri mükafatlandırmaq/, /oynamağı öyrənmək/, /danışana qulaq asmaq/ və s. Alm., ing., rus d. də bu cür əlaqə mövcuddur. Müg et.: /I am waiting for you/, /Ich warte auf dich/, /Я тебя жду/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 111.

УПРАВЛЕНИЕ ГЛАГОЛЬНОЕ - alm. verbale Rektion (f), ing. verbal government /'vɜ:bəl 'gʌvənmənt/, fr. régime verbal, azərb. feli idarə. - Fellə ifadə olunmuş idarə növü. İdarə əlaqəsi fellərə, sifətlərə və qoşmalara aid olan kateqorial göstəricidir. Məs.: Azərb. d. /kitab oxumaq/, /iş görmək/, /məktub yazmaq/, /otaqda gəzişmək/. Fellərin hamısı ismin bütün halları ilə eyni dərəcədə əlaqəyə girmirlər, o cümlədən hər bir fel də ismin bütün halları ilə əlaqəyə girə bilmir. Fellər ismin dörd halını – yönlük, təsirlik, yerlik, çıxışlıq hallarını idarə edə bilir. Bu hallar birinci növbədə fellərin tələbilə işlənir. Alm. dilində fellər ismin yiyəlik halını nadir hallarda tələb edir. Müq. et: /Wir gedenken uns dieses Tages// (Biz bu günü xatırlayırıq). Azərb. d. ikinci növ təyini söz birləşmələrində birinci tərəfin yiyəlik halda olması da fellə idarədən asılıdır. Məs.: Azərb. d. /atın qaçmağı/, /küləyin əsməyi/, /dalğaların şıltağlığı/, /müəllimin göstərişi/ və s. Sadalanan misallarda yiyəlik hal ad kimi çıxış edir.
M.İ.Adilov və b., Göstərilən əsəri, s. 112; R.Conrad. Göstərilən əsəri, s. 281.

УПРАВЛЕНИЕ ДВОЙНОЕ - alm. doppelte Rektion (f), ing. double government /dʌbl 'gʌvənmənt/, fr. régime double, azərb. ikili idarə. - İki idarə olunan sözün eyni zamanda bir idarə edən sözdən asılılığı. Məs.: Azərb. və alm. dillərində -də «vermək» feli həm yönlük, həm də təsirlik halını idarə edir: Müq. et: /Kitabı Həsənə ver/; alm. d. /Ich gebe dir das Buch// və ya /Həsənə kitab ver//. /Gib Gabi das Buch//.
R.Conrad. Göstərilən əsəri, s. 219.

УПРАВЛЯЕМЫЙ - alm. regiert werden ing. subordinate(d) /sə'bɔ:dnɪtɪ(d)/, guide /gaɪd/, fr. régi, contrôlé, azərb. idarə olunan. - Məs.: alm. d. /Der junge Mann/ birləşməsində /junge/ idarə olunandır.
O.C.Ахманова. Göstərilən əsəri, s. 487.

УПРАВЛЯЮЩИЙ - alm. regierend, ing. governing /'gʌvənɪŋ/, manager /'mænɪʤə/, fr. régissant, contrôlant azərb. idarə edən. – Alm. d. /Der junge Mann/ birləşməsində /Mann/ idarə edəndir.
O.C.Ахманова. Göstərilən əsəri, s. 487.

УРАЛЬСКИЕ ЯЗЫКИ – alm. Uralische Sprachen (Pl.), ing. Ural languages /'jʊərəl 'læŋgwɪʤɪz/, fr. langues ouraliennes, azərb. ural dilləri. – Fin-uqor və samodey dil qruplarını özündə birləşdirən böyük dil qrupu. Ural dilləri böyük coğrafi ərazini (Norveçdən Taymır yarımadasına qədər, həmçinin Macarıstan, Yuqoslaviya, Moldova) və s. əhatə edir. Ural dilləri geneoloji baxımdan aşağıdakı qollara bölünür: 1) Baltikyanı-fin qolu (fin, ijor, karel, vep və s.); 2) Volqa qolu (mari, erzyan,

mokşan və s.); 3) Perm qolu (udmurt, komi-zryan, komi-permyak və s.); 4) Uqor (xant və man və s.); 5) Saam qolu (saam) və s.
П.Хайду. Уральские языки. М., 1985.

УРБАНИЗМ - alm. Urbanismus (m), ing. urbanizm /ə:bənʌizm/ /ɜ:bənaizm/, fr. urbanisme, azərb. urbanizm. - Şəhər əhalisinin danışığı üçün səciyyəvi olan söz, ifadə, intonasiya və s. Adətən kəndlə bağlı dialektizimlərə, məhəlli sözlərə qarşı qoyulur, bir sıra jarqon və arqoları da (tələbə jarqonu, ziyalı jarqonu) əhatə edir. Məs.: Azərbaycanlılar şəhərdə /maşın/ əvəzinə /araba/ işlədirlər.
O.C.Ахманова, Göstərilən əsəri, c. 487.

УРДУ – alm. Urdu (n), ing. Urdu /'ʊədu:/, fr. l'ourdou, langue ourdou, azərb. urdu. – Pakistanın rəsmi dövlət dili (ingilis dili ilə birlikdə). Hindistanın ədəbi dillərindən biri (əsasən Uttar-Pradeş, Bixar, Maxaraştra, Andxra-Pradeş ştatlarında məskunlaşmış müsəlman xalqları arasında yayılmışdır). Pakistanda əsasən Kəraçi, Lahor, Ravalpindi, İslamabad şəhərlərində yayılmışdır. Hindistanda urdu dilində danışanların sayı 30 milyon, Pakistanda isə 15 milyondur. Urdu yazıda fars yazısından istifadə olunur.
З.М.Дымшиц. Язык урду. М., 1962.

УРОВЕНЬ - alm. Niveau (n), Ebene (f), ing. level /'levl/, fr. niveau, azərb. səviyyə. - Dilçilik elminin obyekti olan dilin struktur layları. Məs.: müasir dilçilikdə diastratik üzvlənməyə görə, fonoloji, morfoloji, sintaktik, leksik səviyyələr kimi əsas laylarla bərabər fonomorfoloji; fonosintaktik, leksik-morfoloji kimi yardımçı laylar da fərqləndirilir. Bu gün səviyyə termini söyləmin həm ifadə, həm də məna tərəfini ayrılıqda göstərmək üçün geniş işlənir (Danimarka strukturalizmi). Eyni zamanda fərziyyə səviyyəsində, yəni konstrukt səviyyədə dili semioloji strukturların abstrakt sxemi kimi də nəzərdən keçirmək geniş yayılmışdır. Bununla yanaşı metasemiotik və semantik səviyyələrdə dilin araşdırılmasına çağdaş dilçilikdə xüsüsi önəm verilir.
O.C.Ахманова. Göstərilən əsəri, s. 488; E.Benveniste. Der Begriff Struktur in der Linguistik. «Probleme der allgemeinen Sprachwissenschaft». München, 1979, s. 101-113.

УСЕЧЕНИЕ - alm. Apokope (f), Abstößung (f), ing. clipped (as a result of apocope) /'kılıpəd/æz ə rı'zʌlt əv ə'pɒkə(ʊ)pı/, fr. écrêtage, troncature, troncation, azərb. kəsmə, qısaltma - Məs.: Azərb. dilində /gülümsündü/ əvəzinə /gʉ̈lʉ̈msʉ̈ndü/ tələffüz olunur, bunun da nəticəsində vurğulu hecadan əvvəlki hecaların saitləri danışıq aktından düşür.
Bax: Апокопа ←.

УСЕЧЁННАЯ ФОРМА - alm. abgehackte Form (f), ing. clipped form /'klıpəd fɔ:m/, fr. forme tronquée, azərb. qısa, kəsik forma. - Məs.: alm. d. /yayn/ sözü /ya+nein/ sözlərinin birləşməsidir.
O.C.Ахманова. Göstərilən əsəri, s. 488.

УСИЛЕНИЕ - alm. Intensifikation (f), ing. intensification /ɪnˌtensɪfɪ'keɪʃən/, fr. redoublement, recrudescence, azərb. gücləndirmə, qüvvətləndirmə. – Əsasən kontrast yaratmaq məqsədilə prosodik vasitələrin köməyilə ifadə olunur. Məs.: Azərb. d. /Anár məktəbə gedir// (Asif yox).
R.Conrad. Göstərilən əsəri, s. 117.

УСИЛИТЕЛЬНЫЙ - alm. verstärkt, ing. corroborative /kə'rɒbərətɪv/, intensifying /ɪn'tensɪfaɪŋ/, fr. amplificateur, azərb. gücləndirici. – Məs.: /də/da/ ədatları cümlədə mənanın qüvvətlənməsinə xidmət edir. Məs,: Cəmil, sən də bizim əleyhimizəsən? və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 489.

УСЛОВИЯ ПРИДАТОЧНОЕ - alm. Konditionalsatz (m), ing. conditional clause /kən'dɪʃənəl klɔ:z/, fr. proposition subordonnée de condition, azərb. şərt budaq cümləsi. - Məs.: Azərb. d. /O rastıma gələrsə, deməyə söz taparam/ və s.
Bax: Придаточное условное ←.

УСЛОВНО-ЖЕЛАТЕЛЬНОЕ – Bax: Наклонение ←.

УСЛОВНЫЙ – Bax: Придаточное предложение ←.

УСТАРЕВШИЙ (УСТАРЕЛЫЙ) - alm. veraltet, unmodern, ing. old-fashioned /'əʊld'fæʃənd/, archaic /ɑ:'keɪɪk/, obsolete /'ɒbsəli:t/, fr. suranné, périmé, désuet, azərb. köhnəlmiş, arxaik. - Arxaizmlər buna misal ola bilər. Məs.: alm. d. /Ikh harre deiner// bu gün işlənmir, onun əvəzinə /Ich warte auf dich// (Mən səni gözləyirəm) deyilir.
R. Conrad. Göstərilən əsəri, s. 38.

УСТНЫЙ - alm. mündlich, oral, ing. oral /'ɔ:rəl/, verbal /'vɜ:bəl/, fr. oral, azərb. şifahi. - Dil yazılı və şifahi formalarda mövcuddur. F.de Sossürdən sonra dilçilik dili sistem kimi (langue) danışıq aktından (parole) ayırmağı vacib sayır. Dilçiliyin yeganə obyekti kimi danışıq aktının verildiyi göstərilir.
F. Veysəlli. SDƏ.

УСТНЫЙ ЯЗЫК - alm. gesprochene Sprache (f), ing. oral language /'ɔ:rəl 'læŋgwɪdʒ/, fr. langue parlée, azərb. şifahi dil. - Danışılan, danışıq dili. Dilin onda danışanların hamısının gündəlik həyatında şifahi ünsiyyət vasitəsi kimi çıxış etməsi. Bu da əsasən yazısı olmayan dillərdə daha tez nəzərə çarpır. Məs.: Azərbaycanın Quba rayonun Xınalıq kəndində yayılmış xınalıq dili.
F. Veysalov (Veysəlli) Lehrbuch der deutschen Phonetik. Bakı, 1989.

УСТОЙЧИВОЕ УДАРЕНИЕ – Bax: Ударение ←.

УСТОЙЧИВОСТЬ ЯЗЫКА - alm. Stabilität der Sprache (f), ing. linguistic stability /lɪŋgwɪstɪk stə'bɪlɪtɪ/, fr. stabilité de la langue, azərb. dilin davamlılığı, sabitliyi. - Dillərin müəyyən dövrdə dəyişikliyə uğrama-

ması. Sabitlik ən çox leksik səviyyədə, ən az isə sintaktik səviyyədə özünü büruzə verir.
O.C.Ахманова. Göstərilən əsəri, s. 490.

УСТОЙЧИВЫЙ - Bax: Устойчивость языка ←.

УСТОЙЧИВЫЙ ВИД - alm. Permansiv (m), ing. permansive /pə: mənsıv/, fr. permansiv, aspect stable, azərb. sabit növ.
Bax: Вид ←.

УСТОЙЧИВЫЙ ДИФТОНГ - alm. stabiler Diphthong (m), ing. level diphthong /'levl 'dıfθoŋ/, fr. diphtongue stable, azərb. sabit diftonq. – Komponentləri dəyişikliyə uğramayan diftonqlar. Alm. d. /a e/, /ɔ ø/, /a o/ bu cür diftonqlardır.
F. Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 95-98.

УСТУПИТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ – alm. Konzessivsatz (m), ing. concessive sentence /kən'sesıv 'sentəns/, fr. proposition concessive, azərb. güzəşt cümləsi.
Bax: Придаточное уступительное ←.

УТВЕРДИТЕЛЬНЫЙ - alm. bejahend, ing. affirmative /ə'fə:mətıv/, fr. affirmatif,-ve, azərb. təsdiqi. - «Ümumi sual» cümlələrinə verilən cavabın Azərb. d. təsdiq forması Məs.: Azərb. d. Gəlirsən? - /hə/.
Bax: O.C.Ахманова. Göstərilən əsəri, s. 490.

УТВЕРЖДЕНИЕ - alm. Affirmation (f), Bejahung (f), ing. affirmation /ˌæfə:'meıʃən/, assertion /ə'sə:ʃən/, fr. confirmation, affirmation, azərb. təsdiq, təsdiq etmə. - İnkara qarşı qoyulur: alm. /ja/ - /nein/, ingiliscə /yes/ - /no/, rusca /da/ - /net/, azərbaycanca /hə, bəli/ - /yox, xeyr/ və s.
R. Conrad. Göstərilən əsəri, s. 23.

УТОЧНЯЮЩИЙ - alm. präzisierend, ing. specifying /'spesfaıŋ/, fr. préciseusement, azərb. dəqiqləşdirici. - Fikri dəqiqləşdirmək məqsədilə işlənən ifadə və ya söz. Məs.: Azərb. d. /Qonşumuz, Həsən kişini deyirəm, /çox mərfətli adamdır //.
O.C.Ахманова. Göstərilən əsəri, s. 490.

УХУДШЕНИЕ ЗНАЧЕНИЯ - alm. Bedeutungsverschlechterung (f), ing. deterioration of meaning /dıˌtıərıə'reıʃən əv' mi:nıŋ/, fr. altération, détérioration, aggravation, azərb. mənanın pisləşməsi. - Dil vahidinin elə semantik dəyişkənliyidir ki, bu dəyişkənlik nəticəsində həmin vahid, cəmiyyətdə nisbətən daha dəyərsiz, hörmətsiz, xeyirsiz hesab edilən varlıqları (prosesləri, keyfiyyətləri, insanları və s.) bildirməyə başlayır. Məs.: Azərb. d. /əllamə/, /cəza/, /naqqal/, /yumşaq/ və s. sözlər mənaca pisləşməni bildirir.
O.C.Ахманова. Göstərilən əsəri, s. 490.

– Ф –

ФАЗА ЛИНГВИСТИЧЕСКАЯ - alm. linguistische Phase (f), ing. linguistic phase /ˈlɪŋgwɪstɪk feɪz/, fr. phase linguistique, azərb. linqvistik mərhələ. - Dilin inkişaf prosesində bir-birini əvəz edən mərhələlərdən biri. О.С.Ахманова. Göstərilən əsəri, s. 217.

ФАЗЫ АРТИКУЛЯЦИИ - alm. artikulatorische Phase (f), ing. phase of articulation /feɪz əv ɑ:tɪkjuˈleɪʃən/, fr. phases de l'articulation, azərb. tələffüz mərhələsi. - Tələffüzün üç mərhələsindən biri, başlanğıc (ekskursiya), tələffüzün orta mərhələsi və rekursiya (tələffüzün sonuncu mərhələsi). М.И.Матусевич. Введение в общую фонетику. М., 1957.

ФАЗОВЫЕ ГЛАГОЛЫ - alm. Phaseverb (n), ing. phase verbs /feɪz vɜ:bz/, fr. verbes de la phase, azərb. faza felləri. - Hərəkətin hər hansı bir mərhələsini, dövrünü (fazasını) bildirən fellər. Məs.: Azərb. d. /başlamaq, qurtarmaq, dayanmaq/.

Bax: Глагол ←.

ФАКТИТИВ - alm. Faktitiv (n), ing. factive /ˈfæktɪv/, fr. factitif, azərb. faktiv. – Təhrik etmə, felin icbar mənası bildirən şəkli. Məs.: Azərb. d. /O özünə şərab gətirtdi//, alm. d. /Er lässt Wein bringen//. Buna adhorativ deyirlər.

Bax: Глагол ←.

ФАКТИТИВНЫЙ - alm. faktitiv, ing. factitive /ˈfæktɪtɪv/, fr. factitif,-ve, azərb. faktitiv. – Dar mənada sifətdən düzələn zəif tranzitiv fel. Bu fellər /etmək/ köməkçi feli sintaktik konstruksiyanın ekvivalenti kimi verilə bilər. Məs.: /sauber/ (təmiz) – säubern (təmizləmək) (təmiz etmək) və ya /mild/ (yumşaq), /mildern/ (yumşaltmaq), /mild machen/ (yumşaq etmək). Geniş mənada isə «etmək» mənası verən bütün zəif felləri əhatə edir ki, bunlar səbəb mənasını bildirir. Məs.: alm. d. /fällen/ (fallen machen) (yıxmaq), /senken/ (sinken machen) /böyrü üstə yıxmaq/.

Bax: Глагол ←.

ФАКТИВНОЕ СКАЗУЕМОЕ – alm. faktives Prädikat (n), ing. factive predicate /ˈfæktɪv ˈpredɪkeɪt/, fr. prédicat factif, azərb. faktiv xəbər. – Presuppozisiyanı bildirən xəbər, danışan şəxs normal olaraq faktiv xəbərdən asılı olan budaq cümlədəki fikrin gerçəkliyini ehtiva edir. Məs.: Azərb. d. /o təəccüblənir ki, yenə də qar yağır// söyləmi /Artıq yenə də qar yağır// fikrini ehtiva edir. Buraya /təəssüf etmək, başa düşmək, bilmək, maraqlıdır/ qəribədir ki, təəssüf ki, və s. felləri və modal sözləri aid-

dir /siz artıq bilirsiniz ki, onu mən öldürmüşəm// cümləsində şübhəli bilinən adam polis komissarına qabaqcadan bəlli olan fikri açıb söyləyir.
O.C.Ахманова. Göstərilən əsəri, s. 491.

ФАКТЫ - alm. Tatsachen (Pl.), ing. facts /fækts/, fr. faits, azərb. faktlar. - Dilin daxili qanunauyğunluqlarını açıb göstərən dil faktları. Məs.: alm. d. /17 sait və 23 samit vardır// cümləsi bu dilin fonoloji sistemini səciyyələndirən faktların bir hissəsidir.
F.Veysəlli. Einführung in die Phonologie. Baku, 2004.

ФАКУЛЬТАТИВНЫЙ - alm. fakültativ, ing. facultative /ˈfækəltətɪv/, optional /ˈɒpʃənəl/, fr. facultatif, azərb. fakültativ. - Fakültativ variant eyni fonemin müxtəlif şəkillərdə reallaşmasına deyilir. Bu variantlardan biri digərinin yerində asanlıqla işlənə bilir və sözün dərk edilməsini çətinləşdirmir. Məs.: alm. d. [e:] və [ɛ:] variantları bir fonemi təşkil edir, çünki biri digərinin yerində asanlıqla işlənə bilir və sözün dərk edilməsini çətinləşdirmir. Müasir alman dilinin bir çox dialektlərində [ɛ:] yerinə [e:] və [e:] yerinə [ɛ:] işlənir. Buna həmçinin alman dilində [ʀ], [ʁ], [r] samitlərini də misal gətirmək olar. Azərb. d. /ʒ/, /ʤ/ samitlərini misal göstərmək olar. Məs.: Azərb. d. /gələʒək/, /gələʤək/.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 83.

ФАМИЛИЯ – alm. Name (m) ing. surname /ˈsɜ:neɪm/, name /neɪm/, fr. nom, azərb. soyad. - Şəxsi soyad, ada əlavə edilən (nəslən keçən) və hüquqi xarakter daşıyan soyad. Meydana gəlməsi baxımından soyadlar belə təsnif olunur:. 1) çağırış adları. Məs.: alm. d. /Albert, Wolf/; 2) müəyyən nəsli göstərən adlar. Məs.: Əlibəyli, van Beethoven, fon Humboldt; 3) sənət, peşə və ixtisasdan yaranan soyadlar. Məs.: Dəmirçi, Fischer və s.; 4) rəng kodlarından götürülən soyadlar. Məs.: Sarıyer, Qarayer və s.; 5) quş və heyvan adlarından götürülən adlar. Məs.: Tərlan, Aslanov; 6) başqa dillərdən götürülən soyadlar. Məs.: Əşrəfi, Telman və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 491.

ФАМИЛЬЯРНЫЙ - alm. familiär, umgangssprachlich, ing. unceremonious /ˈʌnˌserɪˈməʊnjəs/, familiar /fəˈmɪljə/, fr. familier, azərb. kobud, qaba. - Danışıq və ya loru dilə aid olan və həddən artıq açıq-aşkar, qeyri-ciddi, ədəbsiz sözlərin danışığa daxil edilməsi.
O.C.Ахманова. Göstərilən əsəri, s. 491.

ФАЛЬЦЕТ - alm. Falsett (n), ing. falsetto /fɔ:lˈsetəʊ/, fr. voix de fausset, azərb. falset. - Qığırdaqlararası cığır qapalı olduğu və səs telləri arasında cığır yarımçıq (və yarımqapalı) olduğu zaman yaranan yüksək tonlu səs.
O.C.Ахманова. Göstərilən əsəri, s. 491.

ФАРЕРСКИЙ ЯЗЫК – alm. Färöisch (n), ing. Faroes language /ˈfɛərəʊz ˈlæŋgwɪʤ/, fr. langue farère, azərb. farer dili. - Skandinav dillərindən biridir və island dili ilə birlikdə skandinav ada dilləri qrupunu təşkil edir. Farer dilində danışanların ümumi sayı 50 minə qədərdir. Fonoloji sistemi saitlərlə zəngindir (uzun və qısa saitlər, habelə diftonqlar fərqləndirilir), samitlər də öz növbəsində uzun və qısa ola bilərlər. 1906-cı ildən farer dili orta təhsil müəssisələrində tədris olunur. Ədəbi dilin əsasında Torsxvan şəhərinin dialekti durur.
W.B.Loskwood. An introduction to modern Faroese. Köbenhavn, 1964.

ФАРИНГАЛЬНЫЙ - alm. Rachenlaut (m), Pharyngallaut (m), ing. pharyngal /fəˈrɪŋgəl/, fr. pharyngal, azərb. udlaq samiti. – Udlaqda artikulyasiyanın mərkəzləşməsi nəticəsində əmələ gələn səs. Məs.: Azərb. alm., ing. və s. dillərində /h/ fonemi belə səsdir.
F.Veysəlov (Veysəlli). Almaņ dilinin fonetikası. Bakı, 1980.

ФАРСИДСКИЙ – Bax: Персидский ←.

ФАУКАЛЬНЫЙ - alm. faukal, ing. faucal /ˈfɔːkəl/, fr. faucal,-e, azərb. udlaq. – Udlaq samitinin köhnəlmiş adı.
Л.П.Зиндер. Общая фонетика. М., 1979.


ФЕМЕМА - alm. Phemem (n), ing. phememe /ˈfiːmiːm/, fr. phémème, azərb. femem. - Dilin fonoloji və morfosintaktik səviyyələrində ən kiçik fərqləndirici vahid kimi götürülən fonem və taksemin ümumi adı.
Bax: Фонема →.

ФЕНОТИПИЧЕСКИЙ - alm. phenotypisch, ing. phenotypic /fiːˈnɔˈtɪpɪk/ ˈfiːnə(ʊ)-ˈtɪpɪk/, fr. phénotipique, azərb. fenotipik. - 1) Real danışıq faktlarına əsaslanan empirik ümumiləşdirmələr. 2) Açıq şəkildə danışıqda öz ifadəsini tapan dil kateqoriyaları.
H.Bußmann Göstərilən əsəri.


ФИГУРА РЕЧИ - alm. Redefigur (f), ing. figure of speech /ˈfɪgə əv spiːʧ/, fr. figure du discours, azərb. nitq fiquru. - Söyləmin ifadəliyini gücləndirmək üçün istifadə olunan sintaktik tərkiblər, xüsusi söz birləşmələri. Məs.: Azərb. d. /Ağ buludlar köynəklərin sıxanda//.
M.Şəhriyar. Aman ayrılıq. Bakı, 1981, s. 17.
R. Conrad. Göstərilən əsəri.

ФИДЖИ – alm. Fidji (n), ing. Fiji /fiːʤiː/, fr. langue fidji ou fiji, azərb. fici dili. – Qismən polinez dillərinə yaxın Okeaniya dillərinin cənub qrupuna daxil olan dil. Əsasən Fici adasında yayılmışdır (adanın yerli sakinlərinin dili). 330 minə yaxın əhali bu dildə danışır. İki dialektə bölünür: qərb (Viti-Levu, Kandavu və Yasava adaları) və şərq (arxipelaqın qalan hissəsi). Fonem inventarı 5 sait (i, e, a, o, u) və 15 samit fonemdən ibarətdir. Yazısı latın əlifbasına əsaslanır.
G.V.Milner. Fijian grammar. Suva, 1956.

ФИЗИОЛОГИЯ ЗВУКОВ РЕЧИ - alm. Physiologie der Rede (f), ing. physiology of speech-sounds /ˌfɪzɪˈɒlədʒɪ əv spi:tʃ ˈsaʊndz/, fr. physiologie phonétique, azərb. danışıq səslərinin fiziologiyası. - Danışıq səslərini onların əmələ gəlmə nöqteyi-nəzərindən (müəyyən tələffüz üzvlərinin hərəkətinin nəticəsi kimi) öyrənən fonetika şöbəsi. Dil səslərinin fizioloji baxımdan öyrənilməsində danışıq cihazı əsas götürülür. Danışıq cihazı bütövlükdə üç yerə bölünür:



Danışıq cihazı
1. dodaqlar; 2. dişlər; 3. diş yuvaqları; 4 sərt damaq və damaq pərdəsi; 5. yumşaq damaq və damaq pərdəsi; 6. dilçək; 7 dil; 8. ağız boşluğu; 9. udlaq; 10. xirtdək qapağı; 11. burun boşluğu; 12. səs telləri; 13. nəfəs borusu; 14. qida borusu.



Xirtdəyin qabaqdan (A) və arxadan (B) görünüşü.
A. 1. qalxanabənzər vəzi, 2. üzüyəbənzər vəzi, 3. dilaltı sümük; 4. nəfəs borusu; B. 1. qalxanabənzər vəzi; 2. üzüyəbənzər vəzi; 3. qalxanabənzər vəzinin yuxarı buynuzcuqları; 4. qalxanabənzər vəzinin aşağı buynuzcuqları; 5. çalovabənzər vəzilər; 6.xirtdək qapağı; 7. nəfəs borusu.

a) ağız boşluğu; b) burun boşluğu; c) udlaq boşluğu. Burada xirtdək, döş qəfəsi, ciyərlər və s. üzvlər nəzərə alınmayıb. Ancaq danışıq cihazında hərəki və qeyri-hərəki üzvləri bir-birindən ayırmaq lazım gəlir. Hərəki üzvlərə dodaqlar(1) alt çənə(2), dil(3), yumşaq damaq(4), dilçək(4) və səs telləri(5) daxildir. Bununla yanaşı dişlər(6), dil yuvaqları(7), sərt damaq(8) və s. kimi qeyri-hərəki üzvlər də vardır. Müasir fonetikada dil səslərinin akustik təsnifində hərəki orqanlar əsas götürülür.
F. Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 112; F. Vejsälli. Einführung in die Phonologie. I, Baku, 2004, s. 17.

ФИЗИЧЕСКИЙ ТИП СЛОВА - alm. physikalischer Typ des Wortes (m), ing. physical type of word /ˈfɪzɪkəl taɪp əv wɜ:d/, fr. type physique du mot, azərb. sözün fiziki növü. - Sözün fiziki, akustik səslənməsi. Sözün səslər ardıcıllığı kimi nəzərdən keçirilməsi. Fiziki baxımdan söz səs axınıdır. F.Veysəlli. SDƏ, I.

ФИКСИРОВАННОЕ УДАРЕНИЕ - alm. fixierte Betonung (f), ing. fixed strees /fikst ˈstres/, fr. l'accentuation fixée, azərb. sabit vurğu. – Sözdə və onun bütün qrammatik formalarında eyni hecaya düşən vurğu. Məs.: Azərb. d. /ana/ və /ata/ sözlərində vurğu daima sonuncu hecanın

üzərinə düşür. Bu sözlərin /analar/, /atalar/ və s. formalarında vurğu axırıncı hecanın üzərinə düşür.
Bax: Ударение →.

ФИКСИРОВАННЫЙ ПОРЯДОК СЛОВ - alm. fixierte Wortfolge (f), Wortreihe (f), ing. fixed word-order /fɪkst wɜ:d 'ɔ:də/, strict (rigid) word-order /strɪkt/'rɪʤɪd/wɜ:d 'ɔ:də/, fr. ordre fixe des mots, azərb. sabit söz sırası. - Müəyyən sintaktik ülgüyə müvafiq qaydada elementlərin (ünsürlərin) yerləşmə ardıcıllığının ciddi şəkildə gözlənilməsi. Məs.: Azərb. d. bir qayda olaraq, cümlə daxilində mübtəda xəbərdən əvvəl gəlir. Müq. et: /Səhərə yaxın *quşların cəhcəhi* məni şirin yuxudan ayıltdı//.

İng. və Azərb. d. cümlələrin söz sırasını tədqiqat mövzusu götürmüş O.Musayev (1929) bu dillərdə söz sırasının başlıca olaraq iki funksiya yerinə yetirdiyini (sintaktik-semantik və üslubi) göstərir və yazır ki, ingilis dilində cümlələr mübtəda, xəbər, ikinci dərəcəli üzvlər – MXT, Azərbaycan dilində isə mübtəda ikinci dərəcəli üzvlər və xəbər – MTX modellərinə əsaslanır.

O.Musayev. İngilis və Azərbaycan dili cümlələrində sözlərin sırası. Bakı, 1960, s. 9.

ФИЛИППИНСКИЕ ЯЗЫКИ – alm. Phillippinische Sprachen (Pl.), ing. Philippine /'fɪləpi:n/, Filipino languages /'fɪlɪpi:nə 'læŋgwɪʤɪz/, fr. langues philippines, azərb. filippin dilləri. – Avstronez dilləri ailəsinə daxil olan qərb dilləri yarımqrupu. Filippin dilləri 11 böyük adada yayılmışdır: Luson, Sebu, Boxol, Masbate, Neqros, Panay, Leyte, Samar, Mindoro, Mindanao, Palavan. Bu dildə 55 milyon əhali danışır. Fonoloji sistemi 5 sait, 16 samitdən ibarətdir.

В.Д.Аракин. Индонезийские языки. М., 1965.

ФИЛОЛОГИЧЕСКИЙ СЛОВАРЬ - alm. philologisches Wörterbuch (n), ing. philological dictionary /ˌfɪlə'lɔʤɪkəl 'dɪkʃənərɪ/, fr. dictionnaire philologique, azərb. filoloji lüğət. - Tərkibindəki sözlərin mənaları və işlənmə normaları göstərilən lüğət.

H.Bußman. Göstərilən əsəri.

ФИЛОЛОГИЯ - alm. Philologie (f), ing. philology /fɪ'lɔləʤɪ/, study of language and literature /'stʌdɪ əv 'læŋgwɪʤ ænd 'lɪtərɪʧə/, fr. philologie, azərb. filologiya. - Müəyyən xalqın dilini, ədəbiyyatını və mədəniyyətini əsasən ədəbi və mədəni tarixi yazılar və abidələr vasitəsilə öyrənən fənlərin ümumi adı.

H.Bußman. Göstərilən əsəri.

ФИЛОСОФИЯ ЯЗЫКА - alm. Sprachphilosophie (f), ing. linguistic philosophy /lɪŋ'gwɪstɪk fɪ'lɔsəfɪ/, philosophy of language /fɪ'lɔsəfɪ əv 'læŋgwɪʤ/, fr. philosophie de la langue, azərb. dilin fəlsəfəsi. – Dilin yaranması, mahiyyəti və işlənməsinə dair ümumfəlsəfi məsələləri öyrənən dilçilik sahəsi.

Dil fəlsəfəsində dil insan fəaliyyətinin digər sahəsi və insanın özünün mahiyyətilə bağlı götürülür. Dil fəlsəfəsində «necədir?» yox, «nədir?» sualı əsasdır. Bir qədər fərqli şəkildə desək, dilçilik fənləri başlayan yerdə dil fəlsəfəsi qurtarır və ya əksinə. Yaxşı bir dilçi öz tədqiqatını başa vuranda deyə bilər: «Burada mənim vəzifəm başa çatdı, bundan o yana dil fəlsəfənin işidir». Əslində hər bir dil nəzəriyyəsi dilin fəlsəfəsi baxımından əsaslanmalıdır. Dilin fəlsəfi problemləri son illərdə N.Xomskinin sayəsində daha geniş işıqlandırılır. O, dili anadangəlmə hesab etməklə bilavasitə V. fon Humboldtun konsepsiyasına yaxınlaşmış olur. Əslində analitik dil fəlsəfəsi fəlsəfi və nəzəri problemlərin tədqiqində gündəlik danışıq dilini bazis kimi götürür. Bu fəlsəfi mənanın yaranmasını və dil ünsiyyətinin funksiyalarını dil fəaliyyətlərini praqmatik tətbiq əlaqələrində müşahidə və təhlillə öyrənməyi əsas götürür. Bundan fərqli olaraq, formal və ya ideal dil fəlsəfəsi formal (ideal) yolla düzələn dil vasitəsilə həm empirik elmi, həm də gündəlik dildən məntiqi və semantik strukturlarını işləyib hazırlamağı qarşısına məqsəd qoyur.

E.Goseriu. Geschichte der Sprachphilosophie. Tübingen 2003; Linguistik und Philosophie. Hrg. von G.Grewendorf und G. Meqqle. Weinheim, 1995.


ФИЛОСОФСКАЯ ГРАММАТИКА - alm. philosophische Grammatik (f), ing. philosophy grammar /fɪ'lɒsəfɪ 'græmə/, fr. grammaire philosophique, azərb. fəlsəfi qrammatika. – Danimarka dilçisi O.Yespersen (1860-1943) dilin fəlsəfə, məntiq və psixologiya ilə əlaqəsini öyrənib, dil və təfəkkür qanunlarının qarşılıqlı əlaqələrinə xüsusi əsər həsr etmişdir. «The Philosophy of Grammar» (1924) adlanan bu əsərində o, təfəkkür kateqoriyalarının ümumi və fərqli cəhətlərini öyrənməklə yanaşı, qrammatik kateqoriyaların məntiqi kateqoriyalara nə dərcədə uyğun gəlib-gəlmədiyini araşdırır. Məs.: dildəki zaman bildirən kateqoriyalarla (ing. d. tense) real zaman kateqoriyası (ing. d. time) arasındakı qarşılıqlı əlaqələrin öyrənilməsi bu qəbildən hesab edilə bilər. N.Xomski isə dilin anadangəlmə olmasını, dil fəaliyyətinin yaradıcı olması ideyasını, dil səriştəsi, dilin mənimsənilməsi, habelə universal qarşılıqlı əlaqələrinin qrammatik nəzəriyyəsinin işlənib hazırlanması, öyrənilməsi kimi problemləri fəlsəfi qrammatikanın predmeti hesab edir.

О.Йесперсен. Философия грамматики. M., 1958; E.Goseriu. Geschichte der Sphrachphilosophie. Tübingen 2003; N.Chomsky. Linguistik und Philosophy. «Linguistik und Philosophie». Weinheim, 1995, s. 269-312.

ФИНАЛЬ - alm. Finale (n), Ende (n), ing. final (sound) /fɪ'na:l/saʊnd/, fr. finale, azərb. son. - Hecanın son səsi. Məs.: Azərb. d. /da-ra-maq/

ФИНИКИЙСКИЙ ЯЗЫК – alm. Finikisch (n), ing. Phoenician language /fɪ'nɪʃɪən 'læŋgwɪdʒ/, fr. langue phénicienne, azərb. Finikiya dili. – Ölü semit dillərindəndir. B. e. ə. VI əsrdə Finikiya, Kipr adasında, Şimali Afrikada, Cənubi İspaniyada və s. yayılmışdır. Finikiyalılar xətti konsonant yazıdan istifadə etmişlər.

Finikiya əlifbaları



ФИНИТНЫЙ ГЛАГОЛ - alm. finites Verb (n), ing. finite of the verb /ˈfaınaıt əv ðı vɜ:b/, fr. verbe final, azərb. finit fel. - Şəxsli cümlələrin xəbəri vəzifəsində işlənən təsriflənmiş (şəxsə, kəmiyyətə, zamana və şəklə görə dəyişmə) fel forması. Məs.: Azərb. d. /O, bu məsələlərə xüsusi maraq göstərirdi//.

ФИННО-ВОЛЖСКИЕ ЯЗЫКИ – alm. Finno-Wolgasprachen (Pl.), ing. Finno-Volga /ˈfınəu ˈvɔlgə/, of the Volga languages /ɒv ðə ˈvɔlgə ˈlæŋgwıʤız/, fr. langues finnos - Volgas, azərb. fin-Volqa dilləri. – Fin-Perm dillərinə aid dildir. Fin, karel, vep, ijor, vod, eston, liv, saam və s. fin-Volqa dillərinə aiddir.

П.Хайду. Уральские языки и народы. М., 1985.

ФИННО-УГОРСКИЕ ЯЗЫКИ – alm. Finno-Ugrisch (n), ing. Finno-Ugrian languages /ˈfınəu ˈju:grıən ˈlæŋgwıʤız/, Finno-Ugric languages /ˈfınəu ˈju:grık ˈlæŋgwıʤız/, fr. langues finno-ougriennes, finno-ougriens, azərb. fin-uqor dilləri. – Ural dilləri ailəsinə daxil olan dillər qrupu. Müasir fin-uqor dilləri 5 qola bölünürlər: 1) Pribaltika-fin (fin, ijor, karel, vep, vod və s.); 2) Volqa qolu (erzyan, mokşan və s.); 3) Perm

qolu (komi-zıryan, komi-permyak, udmurt və s.); 4) uqor qolu (xantı, mana və s.); 5) saam dili.

П.Хайду. Уральские языки и народы. М., 1985.

ФИНСКИЙ ЯЗЫК – alm. Finnisch (n), ing. Finnish /'fınıʃ/, the Finnish language /ði 'fınıʃ 'læŋgwıʤ/, Finnic /fınık/, fr. le finnois, langue finnoise, azərb. fin dili. – Pribaltika-fin dillərindən biridir. Əsasən Finlandiya, İsveç, Norveç, ABŞ, Kanada, Avstraliya, Almaniyada və s. yayılmış dildir. 6 milyona yaxın əhali bu dildə danışır, 8 dialektə bölünür. Aqlütinativ dildir. Fonem inventarı 8 sait, 13 samitdən ibarətdir. 1919-cu ildən Finlandiyanın rəsmi dövlət dilidir.

Л.Хакулинен. Развитие и структура финского языка. М., 1955.

ФЛЕКСИЯ - alm. Flexion (f), Beugung (f), Biegung (f), ing. inflexion /ın'flekʃən/, inflection /ın'flekʃən/ fr. flexion, azərb. fleksiya (şəkilçi). – Hallanma, dərəcələnmə və ya təsrif zamanı sözlərin son şəkilçilərinin, yaxud söz əsası daxilində səslərin dəyişməsi ilə yeni söz formalarının yaradılması üsulu. Buradan məlum olur ki, fleksiyanın iki növü var: a) daxili və b) xarici fleksiya. Hallanma, dərəcələnmə və ya təsrif zamanı söz əsaslarında dəyişən səslər fleksiya adlanır. Məs.: ing. d. /teık/-/tuk/ (götürmək), alm. d. /ge:bən/ → /Gift/ (zəhər). Birinci halda felin kökündəki sait dəyişikliyi keçmiş zamanı, ikinci halda isə yeni sözün-ismin yaranması müşahidə olunur. Xarici fleksiya isə söz kökünə qrammatik formaların artırılması ilə yeni sözlərin və söz formalarının yaranması deməkdir. Müq. et: alm. d. /'geben/ (vermək) /Gıft/ (zəhər), /ga:bə/ (fəhm), ancaq /'ıç‿'' *ge:bə; du·‿''*gi:pst/ (mən verirəm, sən verirsən).

P.H.Matthews. Morphology. 1974; W.G.Admoni. Der deutsche Sprachbau. München, 1998.

ФЛЕКТИВНОЕ СЛОВОИЗМЕНЕНИЕ - alm. flektierende Wortveränderung (f), ing. inflectional flexion /ın'flekʃənəl 'flekʃən/, inflexional accidence /ın'flekʃənəl 'æksıdəns/, fr. variation flexionnelle du mot, azərb. flektiv sözdəyişmə. - Fleksiya vasitəsilə baş verən sözdəyişmə. Belə sözdəyişmədə fleksiya eyni vaxtda bir neçə qrammatik mənanı özündə əks etdirir. Məs.: rus d. /пишу/ sözündəki [y] şəkilçisi bir neçə mənanı: (I şəxsin təkini, indiki zamanı və xəbər şəklini) özündə cəmləşdirir.

P.H. Matthews. Morphology. 1974.

ФЛЕКТИВНЫЙ СТРОЙ - alm. flektierende Struktur (f), Bau (m), ing. (synthetic) inflexional structure /sın'θetık/ın'flekʃənəl 'strʌkʧə/, fr. système flexionnelle, azərb. flektiv quruluş. – V.fon Humboldtdan (1767-1835) başlayaraq dillərin bölgüsündə səciyyələnən morfoloji əlamət. Bu dillərdə morfemlərin formal olaraq qovuşması (fuziya) və funksional cəhətdən çoxmənalılığı əsas əlamətlərdir. Aqlütinativ dillərdən fərqli ola-

raq bu dillərdə formal və funksional üzvlənmə qeyri mümkündür. Hind-Avropa və semit dilləri bu tipdən olan dillərdir.

Müq. et: litov dilində

	təkdə	cəmdə
Nom.	draūg-as (dost)	draūg-aī (dostlar)
Gen.	draūg-o (dostun)	draug-ū (dostların)
Dat.	draūg-ui (dosta)	draug-'ams (dostlara)
Lok.	draūg-e (dostda)	draug-uosé (dostlarda)

H.Bußmann. Göstərilən əsəri, s. 244.

ФЛЕКТИВНЫЕ ЯЗЫКИ - alm. flektierende Sprachen (Pl.), ing. inflexional languages /ɪn'flekʃənəl 'læŋgwɪdʒɪz/, fr. langues flexionnelles, azərb. flektiv dillər. - Flektiv əlamətə malik dillər. Belə dillərdə sözdəyişmə fleksiya vasitəsilə yerinə yetirilir və həmin fleksiyalar aqlütinativ dillərdəki affikislərdən (şəkilçilərdən) funksiya yükünə görə fərqlənirlər (aqlütinativ dillərdə hər bir şəkilçi konkret bir məna ifadə edir). Fleksiyalar isə bir neçə məna ifadə edə bilirlər. Hind-Avropa dilləri flektiv dillər hesab olunur. Məs.: rus d. /Я читал/ cümləsində /л/ şəkilçisi keçmiş zamanı, kişi cinsini və tək halı göstərir.

Bax: Флективный строй ←.

ФОКУС - alm. Fokus (m), ing. focus /'fəʊkəs/, fr. tour, azərb. fokus. – 1) Süzülən samitlərin tələffüzü zamanı danışıq üzvlərinin (fəal üzvlərin qeyri-fəal üzvlərə) bir-birinə toxunmasından və ya yaxınlaşmasından yaranan küy. Son zamanlar fonemlərin spektral təhlili sahəsində aparılan tədqiqatlarda seqmentin əvvəlində akustik əlamət, seqmentin sonundakı fokus əlaməti fonemin eyniləşdirilməsində və tanınmasında həlledici rol oynayır; 2) Cümlə üzvlərinin müəyyən, mütəmadi təkrarlanan əhatələrdə sintaktik mövqeyi; onların mövqe-funksional sintaktik xüsusiyyətləri. Bunu söz sırası və vurğu yerinə yetirir.

Ф.Вейсалов (Вейсалли). Вариативность гласных фонем современного немецкого языка (экспериментальные данные и теоретические проблемы). ДД, Л., 1980, s. 260; P.Delattre Papers in Linguistics and Phonetics. To the Memory of P.Delattre. The Hague-Paris, 1972, s. 513; H.Ablanta /A.Batliner/ W.Oppenriedencr. Zur Information von Modus und Fokus im Deutschen. Tübingen, 1989.

ФОНА - alm. Phon (n), ing. phone /fəʊn/, fr. phone, azərb. səs (fon). – Fonemin danışıq aktında konkret fiziki xassəsi. Fon tələffüz fəaliyyətinin fərdi məhsuludur. O, tələffüzdən tələffüzə, fərddən fərdə müxtəlifdir. Fon maddi vahid kimi bütövlükdə danışıq aktına aiddir. Dil vahidləri (fonemlər) danışıq aktında mövqedən və fonetik əhatədən asılı olaraq fonlarda təmsil olunurlar.

F.Veysəlli. SDƏ.

ФОНАЦИЯ - alm. Stimmbildung (f), Phonation (f), ing. phonation /'fəuneıʃən/, fr. phonation, azərb. səslənmə. - Səsin əmələ gəlməsində iştirak edən bütün danışıq üzvlərinin konkret reallaşmasında səslənməsi. F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

ФОНД ЛЕКСИЧЕСКИЙ ОСНОВНОЙ - alm. lexikalischer Grundwortbestand (m), ing. basic word stock /'beısık wə:d stɒk/, fr. le fond du lexique fondamental, azərb. əsas leksik fond. - Lüğət tərkibinin nisbətən möhkəm qatı, dilin əsas sözlərinin məcmusu. Leksik vahidləri içərisində «o qədər də böyük olmayan söz qrupu var ki, ona əsas söz fondu deyilir ki, bu qrupda dilin kök sözləri, nüvəsi birləşir. Əsas lüğət fondu dilin lüğət tərkibindən çox azdır, o, dilin əsas lüğət tərkibindən daha çox uzunömürlülüyü, əsrlər boyu yaşaması və dildə yeni sözlərin yaranması üçün baza olması ilə fərqlənir.

Alimlər sözün dildə əsas lüğət fonduna daxil olmasının 3 əlamətini göstərirlər: 1) daimilik, yəni uzun illər boyu işlənmiş olsun; 2) hamı tərəfindən (həm ədəbi dildə, həm də dialektdə) işlənməsi; 3) bütün hallarda işlənməsi.

Rus dilində əsas lüğət fonduna aşağıdakı sözləri aid etmək olar: 1) yalnız rus sözləri: /лошадь/, /хороший/, /крестьянин/, /бросать/ və s., 2) şərqi slavyan dilləri üçün ümumişlək sözlər: /семья/, /дешевый/, /сорок/, /белка/ və s.; 3) bütün slavyan dilləri üçün ümumişlək sözlər: /голова, дом, белый/ və s.; 4) slavyan və başqa hind-Avropa dilləri üçün ümumi olan sözlər: /ты/, /кто/, /два/, /сто/, /мать/, /брать/, /сестра/ və s.
А.А.Реформатский. Введение в языковедение. М., 2001, s. 134-135.

ФОНЕМА - alm. Phonem (n), ing. phoneme /'fəuni:m/, fr. phonème, azərb. fonem. – Fonem dildə ayrılıqda mənası olmayan, söz və söz formalarının fərqlənməsinə xidmət edən, özündən daha kiçik hissələrə bölünməyən dil vahididir. Fonem, variant və səs trixotomiyası fonemin düzgün dərk olunmasında mühüm rol oynayır. Ünsiyyətin baş tutması danışıqda rast gəlinən sonsuz miqdarda konkret səslər sayəsində deyil, onların ideal ümumiləşmələri, daha doğrusu, onların mücərrədləşməsi (abstraktlaşması) nəticəsində mümkün olur. İ.A.Boduen de Kurtene bu cür mücərrədləşmiş seqment vahidləri səsdən fərqli olaraq fonem adlandırırdı. İdeal abstraklaşmanın portretlərinin yaranmasında müəyyən mövqelərdəki səs əvəzlənmələrini qruplaşdırmaqla İ.A.Boduen de Kurtene fonem barəsindəki elmi təsəvvürlərin inkişafında misilsiz xidmətlər göstərmişdir. Eyni mənalı dil vahidi daxilində (morfem, leksem) müəyyən mövqedə baş verən səs əvəzlənmələri qrammatik məna ifadə etməklə bərabər (Məs.: alm. d. /mʊtər/ (ana): /mʏtər/ (analar) bizim şüurumuzda bir ümumi bütövdə birləşmək, yəni səs əvəzlənmələrinin ideal vəhdətini yaratmaq qabiliyyətinə malikdirlər. Bu da dilçilik tarixində dil səslərinin ictimai (funksional) məziyyətilə bağlı fikirlərin ilk cücərtiləri kimi dəyər-

ləndirilə bilər. İ.A.Boduen de Kurtene 1870-ci illərin ortalarından etibarən fonem anlayışını fəal şəkildə işlətməyə başlayır. Artıq 1871-ci ildə o, yuxarıda verilmiş alman sözlərində /ʊ/ və /y/ saitlərinin qrammatik funksiya daşıdıqlarını nəzərə alaraq bu səsləri fonem adlandırmağı tövsiyə edirdi. Dünya dilçilik elmində fonem nəzəriyyəsinin ustadı sayılan İ.A.Boduen de Kurtene səsləri üç cəhətdən səciyyələndirirdi: a) sırf fizioloji baxımdan; b) dildə oynadığı rol, psixoloji və ya xalqın ruhunda yerinə yetirdiyi funksiya, yəni morfoloji funksiya baxımdan; c) genetik baxımdan. İ.A.Boduen de Kurtene yaradıcılığının ilk mərhələsində morfoloji, sonrakı mərhələsində psixologizm prinsipi əsas olmuşdur. O, öz nəzəriyyəsində morfematizmi inkişaf etdirməklə Sankt-Peterburq məktəbini yaradır. Morfematizm fonemin danışıq aktından ayrılıb götürülməsində əsas rol oynayır. Məs.: Azərb. d. /dolab/ sözündə /b/ samiti sözdən ona görə ayrılıb götürülə bilir ki, bu onun yalnız morfemlə bağlı olması nəticəsində mümkündür. İ.A.Boduen de Kurtene fonemin məna fərqləndirmə ideyasını, onun struktur baxımdan bölünə bilməsini («kinem» (artikulyator əlamət kimi) və «akusma» (akustik əlamət) elmi cəhətdən əsaslandırmış, əvəzlənmələrin nəzəri və praktik məsələlərini işləyib hazırlamışdı. Sankt-Peterburq məktəbi başda L.V.Şerba olmaqla, fonem nəzəriyyəsində avtonomluq ← ideyasını irəli sürür, onun şagirdi L.R.Zinder (1904-1995) isə bu ideyanı inkişaf etdirir. Yuxarıda /dolab/ sözündə /b/ ayrılıb götürülə bildiyi üçün, bütün digər hallarda bu məna ilə bağlılıq olmasa da, /b/ öz müstəqilliyini hər yerdə (Məs.: /baba, sabah, əbədi) və s. qoruyub saxlaya bilir. Əslən rus knyazlarından olan N.S.Trubeskoy fonemə differensial əlamətlər məcmusu, obrazlı şəkildə desək, «fərqləndirici əlamətlərin toplusu» kimi baxırdı. O, fonemə belə tərif verirdi: «Fonem səs tutumunun fonoloji cəhətdən relevant əlamətlərinin məcmusudur...».

Moskva fonoloji məktəbi İ.A.Boduen de Kurtenenin fonemə olan morfoloji baxışlarını inkişaf etdirir. Fonemlə bağlı bir sıra məsələlərdə Moskva dilçiləri morfem eyniyyətindən çıxış edirlər. Moskvalılar fonemin söz və morfemlərin mənalarını fərqləndirmə və eyniləşdirmə xüsusiyyətlərinə istinad edərək, onda siqnifikativ (fərqləndirici) və perseptiv (eşitmə-dinləmə-qavrama) kimi iki funksiyanı ayırırlar. Moskvalılar fonemin perseptiv (eşitmə-dinləmə-qavrama) funksiyasını əsas götürürlər. Fonemin perseptiv funksiyasının ön plana çəkilməsi fonem-morfem münasibətlərində kəskin dönüş yaradırdı, çünki belədə fonemin zəif və güclü mövqelərdə tutuşdurulması eyni bir morfem daxilində baş verir. Bu da fonemin morfemdən birbaşa asılılığını şərtləndirir. Beləliklə, moskvalıların konsepsiyasında fonem qismən də olsa öz müstəqilliyini itirir, Moskva məktəbi fonemi morfem tərkibində, yalnız ondan asılı şəkildə müəyyənləşdirir.

Bu iki məktəbi fərqləndirən cəhətləri F.Veysəlli aşağıdakı kimi ümumiləşdirir:

SPFM (Sankt-Peterburq fonoloji məktəbi)
1. Fonem potensiyada məna ilə bağlıdır. Onun sintaqmatik planda ayrılıb götürülməsi morfem sərhədi ilə müəyyənləşir. Potensiyada morfemlə bağlılıq onun müstəqil olmasını təmin edir. Hətta ayrılması mümkün olmadıqda belə qalıqlı bölüm prinsipilə ayrılması mümkün hesab edilir. Fonem sözləri və söz formalarını əmələ gətirmə (konsitutiv), tanıtma və fərqləndirmə funksiyasını yerinə yetirir. Fonoloji səviyyə müstəqildir. İzomorfizm yox olur.
2. Fonem tərkibinin müəyyənləşməsi üçün dildəki bütün sözlər götürülür. Fonem təhlili söz çərçivəsində aparılır.
3. Güclü mövqe fonemin bütün keyfiyyət əlamətlərini dolğun şəkildə üzə çıxartmağa imkan verir. Ancaq fonem öz müstəqilliyini bütün mövqelərdə qoruyub saxlayır.
4. Defonologizasiya yoxdur.
5. Fonemin differensial əlamətləri onun sistemdəki qarşılaşmalarından hasil olur.
6. Fonem tərkibi tam tələffüz üslubunda müəyyənləşir.
7. Rus dilinin fonem tərkibi 6 saitdən /ı, i, u, o, e, a/ və 36 samitdən ibarət götürülür, /b, b′, p, p′, v, v′, f, f′, m, m′, d, d′, t, t′, s, s′, z, z′, ʦ, ʧ, ʃ, ʃ′, ʒ, n, n′, l, l′, r, r′, j, k, k′, g, g′, x, x′/ (cəmi 42).
MFM (Moskva fonoloji məktəbi)
1. Fonem morfemin hərəki elementidir. Morfemin eyniliyi fonem eyniliyini təmin edir. Fonemin ayrılıb götürülməsi minimal cütlərlə həyata keçirilir. Onun məna fərqləndirmək qabiliyyəti bu cütlər vasitəsilə yoxlanılır. Fonem siqnifikativ və perseptiv funksiya daşıyır. Morfemsiz fonemi müəyyənləşdirmək olmur. Əsas vahid kimi morfem götürülür.
2. Fonem tərkibi dilin öz sözləri hesabına müəyyənləşir.
3. Fonem statusu güclü mövqe ilə müəyyənləşir. Zəif mövqedə fonemin statusunu müəyyənləşdirmək olmur.
4. Neytralaşma mövqeyində fonoloji qarşılaşma aradan qalxır.
5. Fonemin diferensial əlamətləri onun işləndiyi mövqedən asılı götürülür.
6. Fonem tərkibi güclü mövqe ilə müəyyənləşir.
7. Rus dilində 5 sait /a, ı, o, u, e/ və 34 samit götürülür (cəmisi 39). /i, / g′, x′, k′/ ayrılıqda fonem kimi götürülmür.
F.Veysəlli. SDƏ, I, s. 202-204.

ФОНЕМА АКТУАЛИЗИРОВАННАЯ - alm. aktualisiertes Phonem (n), ing. actualized phoneme /′æktʃuəlaızd ′fəuni:m/, fr. phonème actualisé, azərb. aktuallaşmış fonem. - Danışıqda öz variantlarından birində təzahür edən fonem. Məs.: Azərb. d. /a/ fonemi /başlamax/ sözündə /ʌ/, /ъ/ və /a/ variantlarında aktuallaşır.
F.Veysəlli. SDƏ, I. s. 181-204.

ФОНЕМА НУЛЕВАЯ - alm. Nullphonem (n), ing. zero phoneme /′zıərəu ′fəuni:m/, fr. phonème zero, azərb. sıfır fonem. – Struktur dilçi-

likdə fiziki substansiyası olmayan, qarşılaşmada sıfırla təmsil olunan fonem. Məs.: Azərb. d. **/at/** sözü hal paradiqmində adlıq halında fiziki substansiyası olmayan **haldır**. Eynilə alm. d. /laof/ (qaçış) və /ʃla:f/ (yuxu) sözləri fiziki, formal **göstəricisi** olmadığından adlıq və təsirlik halları kimi qəbul edilir. **Əslində bu**, dilin substansional təbiəti ideyasının əleyhinədir. Ona görə də **Şerba** məktəbi sıfır fonem anlayışını qəbul etmir.
G.F.Meier. Zur **Definition** des sprachlichen Zeichens. «Zeichen und System der Sprache» **Veröffentlichungen** des Symposium. I Band. vom bis 2.10. 1959 in **Erfurt**. Zeitschrift zur Phonetik, Sprachwissenschaft und Kommunikationsforschung. №3, Berlin, 1961, s. 100-109;

ФОНЕМА КОРРЕЛЯТИВНАЯ - alm. Korrelativphonem (n), ing. correlative phoneme /kə'relətɪv 'fəʊni:m/, fr. phonème corrélatif, azərb. korrelyativ fonem. – **Qarşılaşdırma** bir cütlə məhdudlaşmayıb, eyni əlamətin başqa cütləri **də fərqləndirməsi**. Alm. d. samitlər karlıq/cingiltilik əlamətinə görə /p/ - **/b/**, **/t/** - /d/, /k/ - /q/ qarşılaşmalar korrelyasiyası və ya saitlər /u:/ # /y:/, **/ʊ/ # /ʏ/**, /o:/ # /ø:/, /ɔ/ # /œ/ arxa və ön sıra dodaq saitlərinin dörd cüt **qapalı** korrelyasiyasını əmələ gətirir. Ancaq ingilis dilində bu cür **korrelyasiya** yoxdur, çünki bu dildə ön sıra dodaq saitləri yoxdur.
А.А.Реформатский. **Göstərilən** əsəri, s. 223.

ФОНЕМА СЕГМЕНТНАЯ - alm. Segmentphonem (n), ing. segment(al) phoneme /'segmənt(əl) 'fəʊni:m/, fr. phonème segmenté, azərb. seqment fonem. – Amerika **deskriptiv** dilçiliyi 36 seqment fonem: (26 samit: /p, b, t, d, k, g, tʃ, dʒ, f, v, θ, ð, s, z, ʃ, ʒ, m, n, ŋ, l, r, w, y, h/, 9 sait (i, æ, ɬ, ə, a, u, o, ɔ) və 3 yarımsait **/ʏ**, w, h/ verilmişdir) fərqləndirirlər.
H.A.Gleason. An **Introduction** to Descriptive Linguistics. Hold. Rinehart and Winston, **1970**, s. 50.

ФОНЕМА СИЛЬНАЯ - alm. starkes Phonem (n), ing. strong phoneme /strɒŋ 'fəʊni:m/, fr. **phonème** fort, azərb. güclü fonem. - Maksimum fərqləndirici (diferensial) mövqedə cıxış edən fonem. Moskva fonoloji məktəbi səsin fonemliyini (fonematikliyini) güclü mövqedən çıxış edərək müəyyənləşdirir.

Güclü mövqe (**saitlər** üçün vurğulu heca, samitlər üçün saitdən əvvəlki mövqedir) **fonemin** öz funksiyasını yerinə yetirməsi üçün ən əlverişli mövqedir, zəif **mövqe** isə (yerdə qalan mövqelər) bunun üçün əlverişli deyildir. Moskvalılara görə, fonemlər iki funksiya: perseptiv (dərketmə) və siqnifikativ (**fərqləndirmə**) funksiyaları yerinə yetirdiklərindən mövqelər də bu baxımdan müvafiq olaraq iki cür olur:

1. Perseptiv güclü **mövqe**;
2. Perseptiv zəif **mövqe**;
3. Siqnifikativ güclü mövqe;
4. Siqnifikativ zəif mövqe.

Perseptiv güclü mövqedə fonem əsas şəkildə çıxış edir. Perseptiv zəif mövqedə isə fonem mövqedən asılı olaraq öz səslənməsini dəyişərək müəyyən çalarda və ya variasiyada çıxış edir. Məs.: rus d. /мал-мял-мыл–мил/ sözlərinin birinci və ikinci cütündə eyni saitlərdə, ancaq /мал-мыл/ sözlərində /m/ qalın, /мял-мил/ sözlərində isə /mˈ/ yumşaqdır, /l/ hamsında qalındır. Dörd sözün hamısında /m/ və /mˈ/ saitlərini götürsək /мал/-dan /ал/ («алый» sifətinin qısa forması) və /мил/-dən isə /ил/ (çöküntü, lil) alınır. Özü də /a/ və /i/ saitlərinin səslənməsində fərq yoxdur, deməli, əvvəldə gələn /m/ və /mˈ/ saitlərin səslənməsinə təsir etmir. /мял/ və /мыл/ sözlərində /mˈ/ və /m/ saitlərini atmaq olmaz, çünki /ял/ və /ыл/ sözlərinə rus dilində rast gəlinmir. Rus dilində /æ/ yumşaq, /ы/ isə sərt samitlərdən sonra gəlir. Onlar bu mövqe ilə bağlıdırlar. Deməli, /a/-/æ/ cütündə /a/ fonemi, /ы/-/и/ cütlüyündə isə /i/ əsas, /ы/ isə çalar, variasiyasıdır.

Siqnikativ güclü mövqedə qapalı korrelyativ qarşılaşmalar öz gücündə qalır, onlar fərqlənərək fərqləndirir, ancaq siqnifikativ zəif mövqedə fonemlər səslənmədə üst-üstə düşür, öz aralarında fərqlənmirlər, ona görə də fərqləndirə bilmirlər, odur ki, neytrallaşırlar. Məs.: rus d. söz sonunda kar və cingiltili samitlər (Müq. et: «луг», «лук» eyni cür səslənir, /лук/, ancaq cingiltili qarşısında cingiltili tələffüz olunurlar: «луг бы» /lug bɪ/, «лук бы» /lug bɪ/. Rus d. /a/ və /o/ vurğulu hecada fərqlənirlər, vurğusuz hecada isə /ʌ/ kimi (birinci dərəcəli reduksiya) və /ə/ kimi (ikinci dərəcəli reduksiya) tələffüz olunurlar. Müq. et: /сам/, /сом/, ancaq «Сама поймала сома» /sʌmɑ pʌjmálə sʌmá//. /ʌ/ həm /ɑ/, həm də /o/-nu təmsil etdiyindən onların ümumi variantı hesab edilir.

Signifikativ zəif və güclü mövqelər eyni fonemə deyil, iki və daha artıq fonemin qarşılaşmasına aid olur, bu qarşılaşma güclü mövqedə qalır, ancaq zəif mövqedə ümumi variantda neytrallaşır.

Bu mürəkkəb təhlil metodu göstərir ki, Moskva məktəbi İ.A.Boduen de Kurtenenin morfemizm ideyasına sadiqlik nümayiş etdirir. Azərbaycan dilçiliyində bu konsepsiyanı ilk dəfə Q.Ələkbərli (1903-1958), F.Kazımov (1925-1989) tətbiq etmişdir.

F.Veysəlli. SDƏ, I. s. 198-204.

A.A.Реформатский. Göstərilən əsəri, s. 218-219; Г.Алекперли. Идеалистическая основа понимания фонемы в концепции Л.В.Щербы и его последователей. «Ученые записки» АГУ, 1955, №4, s. 91-97; Ф.Казымов. Система гласных фонем азербайджанского языка. Изв. АН СССР, ОЛЯ, Москва, 1952, т. XII, вып. 4 (июнь, август); F.Veysəlli. SDƏ. s. 92-151.

ФОНЕМА СЛАБАЯ - alm. schwaches Phonem (n), ing. weak phoneme /wi:k ˈfəʊni:m/, fr. phonème faible, azərb. zəif fonem (arxifonema).

Bax: Фонема сильная ←.

ФОНЕМНОЕ СОЧЕТАНИЕ – alm. Phonemverbindung (f), ing. phoneme combination /'fəuni:m ˌkɒm'bɪ'neɪʃən/, fr. combinaison de phonème, azərb. fonem birləşməsi. - Müəyyən dilə məxsus olan fonemlərin xətti ardıcıllığı. Hər bir dildə mümkün və qeyri-mümkün fonem birləşmələri var. Bu qanunauyğunluqları öyrənən elm sahəsini kombinator fonologiya adlandırırlar. F.Veysəlli (1943) öz tədqiqat işində fonem birləşmələrinin aşağıdakı növlərini müəyyənləşdirir:

1) Dildə elə fonem birləşmələri var ki, onlar dilin struktur modelinə uyğun gəlir, ancaq onlarda müəyyən məhdudiyyətlər var. Məs.: alm. d. qısa saitlər sözün əvvəlində və ortasında bütün samitlərlə birləşməyə girə bildikləri halda, söz sonunda onların gəlməsi mümkün deyildir;

2) Dildə müəyyən fonem birləşmələri mümkün deyildir, çünki onlar dilin struktur modelinə yaddır. Məs,: alm. d. bir morfem daxilində iki müxtəlif saitin gəlməsi mümkün deyildir;

3) Dildə elə fonem birləşmələrinə rast gəlmək olur ki, onlar dilin struktur modelinə üyğun gəlmir. Məs.: alm. d. fr. dilindən alınmalarda burun saitlərinə rast gəlmək olur. Müq. et: /ʃã:ns/ (şans);

4) Dildə elə fonem birləşmələri var ki, onlar həmin dilin struktur modelinə uyğundur, deməli, bu dildə işlənirlər. Bu cür birləşmələri faktiki birləşmələr adlandırmaq olar. Bu birləşmələr nəzəri cəhətdən mümkün olan, ancaq real işlənməyən birləşmələrə qarşı qoyulur.

Ф.Вейсалов (Вейсалли). Вариативность гласных фонем современного немецкого языка (экспериментальные данные и теоретические проблемы). ДД, Л., 1980.

ФОНЕМНОЕ РАЗЛИЧИЕ - alm. Phonemunterschied (m), ing. phoneme difference /'fəuni:m 'dɪfərəns/, fr. différence de phonème, azərb. fonem fərqi. - Söz və morfemlərin fonetik fərqləndirilməsinə xidmət edən, müstəqil, mövqedən asılı olmayan fonem fərqi. Məs.: Azərb. d. /diz/ və /düz/ sözləri arasındakı fərq /i/ və /y/ saitlərinin arasındakı fonem fərqilə bağlıdır.

F.Veysəlli. SDƏ.

ФОНЕМНЫЙ РЯД - alm. Phonemreihe (f), ing. phoneme serie /'fəuni:m 'sɪəri/, fr. rang du phonème, azərb. fonem sırası. – Moskva fonoloji məktəbinə görə zəif fonem morfemin səs qabığını fərqləndirə bilmir. Məs.: rus d. /kot/, sözündə /k/ morfemin tərkib hissəsi kimi onu fərqləndirən fonemdir. Müq. et: /kət/, /pot/, /rət/ və s. Ancaq /rok/ Sözündə bu /k/ zəif fonemdir, çünki o həmin sözü /ros/, /rot/ sözlərindən fərqləndirsə də, bu samitin /róka/ və /róga/ sözlərində hansı kök morfemin olmasını fərqləndirə bilmir. Amerika dilçiləri bunu morfonem, moskvalılar fonem sırası, hiperfonem, praqalılar isə arxifonem adlandırırlar.

Л.П.Зиндер. Общая фонетика. М., 1979, s. 63.

ФОНЕМИКА - alm. Phonemik (f), ing. phonemics /fəʊˈni:mıks/, fr. phonèmique, azərb. fonemika. – Amerikan dilçiliyində seqment fonemlərin statusunu və birləşmə qaydalarını öyrənən fonologiya bölməsi.
Z.S.Harris. Structural Linguistics. London, 1969, s. 29.

ФОНЕМНЫЙ - alm. phonemisch, ing. phonemic /fəʊˈni:mık/, fr. de phonème, azərb. fonemik.
Bax: Фонемика ←.

ФОНЕМООБРАЗУЮЩИЙ - alm. phonembildend, ing. phoneme-forming /ˈfəʊni:m fɔ:mıŋ/, fr. constituant de phonème, azərb. fonem əmələ gətirən. - Fonolojiləşməyə aparan, allofonların müstəqil fonemlərə çevrilməsi. Məs.: alm. d. «ch» parçalanaraq iki fonem olub. Müq. et: /å:çən/ (balaca «A») və /a:xən/ və s.
F. Vejsalov(Veysälli) Lehrbuch der deutchen Phonetik. Baku, 1989.

ФОНЕМАТИЗАЦИЯ - alm. Phonematisation (f), ing. phonematization /fəʊnıˈmætızeıʃən/, fr. phonématisation, azərb. fonematikləşmə. – Fonemin variantının fonoloji xüsusiyyətlər kəsb etməsi, dilin səs sistemində fonem variantının semioloji cəhətdən relevant ünsürə çevrilməsi.
Bax: Фонемообразующий ←.

ФОНЕМАТИКА - alm. Phonematik (f), ing. phonematics /fəʊnıˈmætıks/, fr. phonèmatique, azərb. fonematika. – Amerika dilçiliyində yalnız seqment fonemlərin statusunu, birləşmədə iştirak qaydalarını və üzvlənmə xüsusiyyətlərini öyrənən elm sahəsi.
Z.S.Harris. Göstərilən əsəri.

ФОНЕМАТИЧЕСКИЙ - alm. phonematish, ing. phonematic /fəʊnıˈmætık/, phonemic /fəʊˈni:mık/, fr. phonèmatique, azərb. fonematik.
Bax: фонематика ←.

ФОНЕСТЕМА - alm. Phonestem (n), ing. phonestheme /fəʊnısθıme/, fr. phonéstheme, azərb. fonestem. - Bəzi xüsusiyyətlərinə görə müəyyən mənada morfemə uyğun gələn, yəni onun qismən hər hansı bir məzmun, yaxud məna təsəvvürləri arasında əlaqə yaradaraq təkrarlanan səs birləşmələri. Lakin morfemdən fərqli olaraq belə səs birləşmələri sözformasının qalan hissələrinin morfolojiləşməsinə gətirib çıxarır. Müq. et: ing. d. /splash/, /spray/, /spout/, /sputter/, /splutter/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 496.

ФОНЕТИКА - alm. Phonetik (f), ing. phonetics /fəʊˈnetıks/, fr. phonètique, azərb. fonetika. - Fonetika dildəki səsləri, onların birləşməsi və bir-birilə əvəz olunması qaydalarını, bu birləşmədə ən mühüm rol oynayan vurğu və intonasiyanı, habelə yazı ilə şifahi nitq arasındakı əlaqələri öyrənən bir elmdir.

«Fonetikanı dilçiliyin bölməsi kimi maraqlandıran odur ki, insan akustik cəhətdən minimum bir əlamətdən tutmuş, məs.: /b-p/ «bir-pir», maksimum böyük tekstlərə qədər bir-birindən seçilən fikirlərin maddi qabığını necə tələffüz edir və bunları da onun müsahibi necə dərk edir. Fonetikanı məhz bu prinsiplərin aşkar edilməsi maraqlandırır».
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 101.

ФОНЕТИКА АКУСТИЧЕСКАЯ - alm. akustische Phonetik (f), ing. acoustic phonetics /ə'ku:stık fəu'netıks/, fr. phonètique acoustique, azərb. akustik fonetika. – Fonetik qurumun akustik təbiətini açmaqda elektroakustik cihazlardan ossilloqraf mühüm rol oynayır. Akustik prosesləri kağız və ya lent (kinolent) üzərinə köçürmək sahəsində imkanlarına görə o, bu cür avadanlıqların ilk nəsli sayıla bilər. Sonralar onun xeyli təkmilləşmiş forması olan intonoqraf, habelə spektroqraf yarandı ki, bunlar da danışığın təbii axınını gözlə izləməyə imkan verir. Bu cihazların tətbiqi ilə əldə edilən materiallar sonra hesablanır, təhlil olunur və ümumiləşdirilir. Adətən, onların köməyi ilə nitq siqnalının üç parametri – intensivlik, melodiya və temp haqqında kifayət qədər dəqiq məlumat almaq olur. Son zamanlar elektronikanın geniş inkişafı nəticəsində eksperiment aparmaq üçün cihazların yeni nəsli yaranıb ki, bunların içərisində analizator və sintezator mühüm rol oynayır. Bunların üstünlüyü ondadır ki, həmin cihazlar tədqiqatçının işini xeyli yüngülləşdirir, onun əllə apardığı hesablamaları həmin cihazlar hazır şəkildə tədqiqatçıya təqdim edir, qrafikasını və cədvəlini daxil etməklə printerdə hazır rəqəmlər almağa kömək edir.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 142; həmin müəllif: Dil. Bakı, 2007.

ФОНЕТИКА ИСТОРИЧЕСКАЯ - alm. historische Phonetik (f), ing. historical phonetics /hı'stɒrıkəl fəu'netıks/, fr. phonètique historique, azərb. tarixi fonetika. - Dilin səs sistemini tarixi baxımdan öyrənən elm sahəsini tarixi fonetika adlandırırlar. F. de Sössür yazır ki, adətən fonetika terminilə səs fizologiyasını göstərirdilər. O, isə bu termini fonologiya ilə əvəz edir, fonetika deyəndə isə hər şeydən öncə dilin tarixində səslərin inkişafının tədqiqini başa düşür. Bu alimə görə, səs fiziologiyası (fonologiya) zamandan xaricdədir, çünki səsin yaranması mexanizmi həmişə özünə bənzər olur. Fonetika və fonologiya heç cür qarşılaşdırıla bilməzlər. Fonetika dil haqqında elmin mühüm tərkib hissəsidir, fonologiya isə onun yardımçı bir elmidir və bütövlükdə danışığa aiddir. Danışıq cihazının bütün mümkün hərəkətlərini öyrənsək belə, bu dil problemlərini həll etmir. Beləliklə, F. de Sössür fonetikanı dil səslərinin tarixi haqqında elm adlandırır.
F. de Sössüre. Grundlagen der allgemeinen Sprachwissenschaft. Berlin, 1967, s. 38.

ФОНЕТИКА ОБЩАЯ - alm. allgemeine Phonetik (f), ing. general phonetics /ˈʤenərəl fəuˈnetıks/, fr. phonètique générale, azərb. ümumi fonetika. - İ.A.Boduen de Kurtene fonetikanı iki yerə bölürdü. O, antropofonika və ya tələffüz üzvləri (fonasiya) və dərketmə sahəsində müşahidə - təcrübi fonetika və psixofonetika - dil fəaliyyəti sahəsində ideya xarakterli fonetik faktların müşahidəsi və ümumiləşməsi adları altında iki aspektin ayrılmasını təkid edirdi.

Məlumdur ki, N.S.Trubeskoy fonetikanı danışıq səsləri haqqında, fonologiyanı isə dil səsləri haqqında elm adlandırırdı.

L.V.Şerba isə fonetikanın fonologiyadan ayrılmağın əleyhinə çıxış edirdi. L.V.Şerbanın fikrinə görə, ümumi fonetika insan dilində səslərin yaranması, birləşməsi və əvəzlənməsi funksiyalarını öyrənən bir elmdir.

И.А.Бодуэн де Куртенэ. Избранные труды по общему языкознанию. M., 1963, т. 2, s. 100; N.S.Trubeskoy. Göstərilən əsəri; s. 4-38; Л.В.Щерба. Языковая система и речевая деятельность. Л., 1979, s. 58; Л.Р.Зиндер. Общая фонетика. M., 1979.

ФОНЕТИКА ОПИСАТЕЛЬНАЯ - alm. beschreibende (deskriptive) Phonetik (f), ing. descriptive phonetics /dısˈkrıptıv fəuˈnetıks/, fr. phonètique descriptive, azərb. təsviri fonetika. - Dilin müasir səs sistemini tədqiq edən fonetika bölməsi.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ФОНЕТИКА СИНТАКСИЧЕСКАЯ - alm. Satzphonetik (f), ing. syntactic(al) (sentence) phonetics /sınˈtæktık(əl)/ˈsentəns/fəuˈnetıks/, fr. phonétique syntaxique, (de syntaxe), azərb. sintaktik fonetika – Sintaktik vahidlərin fonetik xüsusiyyətlərini, onların müxtəlif variantlarda çıxış etməsinin özəlliklərini tədqiq edən dilçilik bölməsi. Sintaktik fonetika L.V.Şerbanın adı ilə bağlıdır. Buraya danışıq aktının sintaqmlara üzvlənməsi, sintaqm və cümlə vurğusu, intonasiyası, habelə intonasiya konturlarının qarşılıqlı şəkildə öyrənilməsi daxildir.

Л.В.Щерба. Фонетика французского языка. M., 1963, s. 128-130.

ФОНЕТИКА ЭКСПЕРИМЕНТАЛЬНАЯ - alm. experimentelle Phonetik (f), ing. experimental phonetics /ıkˌsperımentəl-ek, fəuˈnetıks/, fr. phonétique expérimentale, azərb. eksperimental fonetika. – Dilin fonetik quruluşunun səs tərəfini cihazlarla, xüsusi metodların tətbiqi vasitəsi ilə öyrənən fonetika bölməsi.

F.Vejsalov (Veysəlli) və b. Eksperimental fonetika. Bakı, I, 1980; II, 1981.

ФОНЕТИЧЕСКИЙ - alm. phonetisch, ing. phonetic /fəuˈnetık/, fr. phonétique, de phonétique, azərb. fonetik.

Bax: Фонемика ←.

ФОНЕТИЧЕСКИЙ АНАЛИЗ - alm. phonetische Analyse (f), ing. phonetic analysis /fəuˈnetık əˈnæləsıs/, fr. analyse phonétique, azərb.

fonetik təhlil. – Danışıq aktının üzvlənməsi və bu zaman əldə edilən dil vahidlərinin fonetik təhlili. Bu təhlil zamanı sintaqmatik (xətti) düzülmüş fonem ardıcıllığı, onlardakı hecalar, vurğu, prosodiya, intonasiya, habelə fonem-qrafem qarşılıqlı əlaqələrini müəyyənləşdirən təhlil.
F.Veysəlli. SDƏ, I.

ФОНЕТИЧЕСКАЯ ТРАНСКРИПЦИЯ - alm. phonetische Transkription (f), ing. phonetic transcription /fəʊ'netık træns'krıpʃən/ fr. transcription phonétique, azərb. fonetik transkripsiya. - Fonetik transkripsiyada hər bir fonemin real danışıqda işlənməsi zamanı onların bir-birinə təsiri nəticəsində yaranan xüsusiyyətlər xüsusi diakritik işarələrlə qeyd edilir. Dilöyrənmədə fonetik transkripsiya daha böyük əhəmiyyət kəsb edir, çünki dil öyrənən canlı danışığa yiyələnməli və beləliklə də, ən kiçik orfofonik əlaməti nəzərdən qaçırmamalıdır.
F.Veysəlli. SDƏ, I. s. 329-330; F.Yadigar (Veysəlli). GDG.

ФОНЕТИЧЕСКИЕ ЕДИНИЦЫ РЕЧИ - alm. phonetische Redeeinheiten (Pl.), ing. phonetic units of speech /fəʊ'netık ju:nıts əv spi:tʃ/, fr. unité phonétique du discours, azərb. nitq (danışıq) aktının fonetik vahidləri. – Deyilən fikrin dildə ifadəsi iki yerə bölünür; işarələyən və işarələnən. İşarələyən adı altında səslər, onların xətt boyunca düzülüşü, fonotaktik ardıcıllıqlarda heca, fonetik söz, sintaqm və söyləmlər kiçik fonetik vahidlər adlanır.
F.Yadigar (Veysəlli). GDG.

ФОНЕТИЧЕСКИЕ ЧЕРЕДОВАНИЯ - alm. phonetischer Wechsel (m), ing. phonetic(al) (automatic) gradation /fəʊ'netık(əl)/ˌɔ:tə'mætık/ grə'deıʃən/, fr. alternance phonétique, azərb. fonetik əvəzlənmə. – Tarixi əvəzlənmədən fərqli olaraq fonetik əvəzlənmə fonemlərin danışıq aktında qarşılıqlı təsirindən və ya fonemlərin işlənmə mövqeyindən asılıdır. Fonetik əvəzlənmə iki cür olur: 1) mövqe ilə bağlı əvəzlənmə; 2) kombinator əvəzlənmə. Birinci mövqe ilə bağlı olduğu halda, ikincisi qonşu fonemlərdən asılıdır. Məs.: rus d. /a/ saiti /vədʌvos/ sözündə vurğusuz mövqelərdə /ə/ və /ʌ/ variantlarında çıxış edir, o, mövqedən asılı olaraq öz variantları ilə əvəzlənir. Amma /s°ut/, /sat/ sözlərində /s/ fonemi qonşuluqda gələn saitdən asılı olaraq /s°/ və /s/ variantlarında çıxış edir.
Bax: Альтернация ←.

ФОНЕТИЧЕСКИЙ ЗАКОН - alm. Lautgesetz (n), ing. phonetic rule /fəʊ'netık ru:l/, fr. loi phonétique, azərb. fonetik qanun. – Dildaxili sistem qaydalarından irəli gələn və müntəzəm şəkildə meydana çıxan qanun. Söz sonunda cingiltili samitlərin karlaşması qanunu. Türk dillərində, o cümlədən Azərbaycan türkcəsində, həmahənglik qanunu buna misal ola bilər. Burada söz kökünün birinci hecasında gələn sait ona qoşulan bütün sonrakı hecalardakı sait və samitləri qalın-incə və (dodaq-


qeyri-dodaq) ahəngində kökləyir. Müq. et: /üz(ü)mü/, /üzümç(ü)nü/ və ya /ələkçini/; /atalarımızı/ və s.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ФОНЕТИЧЕСКИЙ ПРИНЦИП ПРАВОПИСАНИЯ - alm. phonetisches Rechtschreibungsprinzip (n), ing. phonetic principles of orthography /fəʊˈnetɪk ˈprnsɪpəls əv ɔːˈθɒgrəfɪ/, fr. principe d'orthographe phonétique, azərb. yazının fonetik prinsipi. – Danışıq aktında real tələffüz olunan səslərin yazıda öz əksini tapması. Fonetik prinsipə görə sözün yazılı forması onun səslənməsini bütövlükdə əks etdirir. Məs.: Azərb. d. /at/, /ana/; alm. d. /ʀɑːt/ və s. Bu prinsipin çatışmayan cəhəti odur ki, eyni kökə malik söz formaları arasındakı əlaqə pozulur. Məs.: alm. d. /ʀɑːɪ/ həm «şura» deməkdir, həm də «təkər» (Rad). Etimoloji prinsipdə isə bu əlaqə nəzərdə tutulur. Məs.: alm. d. (tag) /ˈtaːk/ və (tage) /ˈtaːgə/ söz formalarının hər ikisi «g» qrafemilə yazılsa da, birinci sözün sonunda /k/ tələffüz olunur.
Ə.Dəmirçizadə. Göstərilən əsəri, s. 268-278.

ФОНИКА - alm. Phonik (f), ing. phonics /ˈfəʊnɪks/ˈfɒnɪks/, fr. phonice, azərb. fonika. – Danışıq aktında səs quruluşunun təşkili: alternasiya, assonans, səs təqlidi və s. kimi danışıq prosesində müşahidə olunan hadisələr.
P.H.Matthews. Göstərilən əsəri, s. 277.

ФОНИЧЕСКИЙ - alm. phonisch, ing. phonic /ˈfəʊnɪk/ˈfɒnɪk/, fr. phonique, azərb. fonik. - Danışığa aid olan, danışıqdan ibarət olan.
Bax: Фоника ←.


ФОНОГРАММА - alm. Phonogramm (n), ing. phonogram /ˈfəʊnəgræm/, fr. phonogramme, azərb. fonoqram. – Dil vahidlərinin prosodiya və intonasiya əlamətlərini fərqləndirmək üçün işlənən qrafik işarə. Məs.: Azərb. d. /Əhməd oxuyur/ cümləsinin fonoqrammı belə olacaq.


Əhməd oxuyur

Ф.Вейсалов. Некоторые вопросы интонации азербайджанского языка. ADU-nun elmi əsərləri, «Dil və ədəbiyyat», 1976, №3.

ФОНОГРАФИЧЕСКИЙ АЛФАВИТ - alm. phonographisches Alphabet (n), ing. phonographic alphabet /ˌfəʊnəˈgræfɪk ˈælfəbɪt/, fr. alphabet phonographique, azərb. fonoqrafik əlifba. - Müəyyən dilin səs sistemini yazıda əks etdirmək üçün müvafiq ardıcıllıqla tərtib olunmuş qrafik işarələr. Bu zaman dilin hər bir fonemi yazıda bir qrafik işarə (qrafem) ilə verilir. Azərbaycan dili buna bariz nümunədir.
F. Veysəlli. SDƏ, II. s. 64-90.

ФОНОЛОГИЗАЦИЯ - alm. Phonologisierung (f), ing. phonologization /fəʊˈnɒlədʒɪzeɪʃən/, fr. phonologisation, azərb. fonolojiləşmə. – Fonem variantının fonoloji xüsusiyyət kəsb etməsi, fonem variantının dil sistemində fonematiklik və ya relevant ünsürə çevrilməsi. Məs.: orta dövr alman dilində «ch» birləşməsi orta əsrlərdə iki variantda çıxış edirdi: dilortası /ç/ və dilarxası /x/. Ancaq müasir alman dilində onları doğuran səbəblər aradan qalxdı və samitlər fonoloji dəyər kəsb edərək iki fonem kimi çıxış etməyə başladılar. Müq. et:



F. Veysəlli. SDƏ. s. 16.

ФОНОЛОГИЗОВАННЫЙ - alm. phonologisiert, ing. with phonological relevance /wɪð ˌfəʊnəˈlɒdʒɪkəl ˈrelɪvəns/, fr. phonologisé,-e, azərb. fonolojiləşmiş. – Fonologiyada eyni fonemin variantlarının fonoloji cəhətdən relevant, diferensial (fərqləndirici) əlamət kəsb etməsi. Məs.: rus d. tarixən sərt və yumşaq samitlər fonoloji cəhətdən fərqlənməyiblər. Sonralar saitlərin düşməsi nəticəsində samitlər bu əlamətə görə qarşılaşma yaratdıqdan yumşaqlıq fonematik dəyər kəsb etmişdir.

A.A.Реформатский. Göstərilən əsəri, s. 203.

ФОНОЛОГИЧЕСКАЯ СИСТЕМА - alm. phonologisches System (n), ing. phonologic (phonemic) system /ˌfəʊnəˈlɒdʒɪk/fəʊˈniːmɪk/ˈsɪstɪm/, fr. systèmes phonologique, azərb. fonoloji sistem. – Dilin bütün fonemlərinin və onların qarşılaşma münasibətlərinin məcmusu. Qarşılaşmalar relevant (fərqləndirici, distiktiv) əlamətlərin köməyilə müəyyənləşir. Fonemlər sistemi artikulyator və akustik əlamətlərlə şərh olunur. Dilin fonoloji sistemi seqment (saitlər və samitlər) və superseqment (vurğu, prosodiya, intonasiya) vahidlərin qarşılıqlı asılılıqda və korrelyativ cərgələrdə aydın əks olunur. Məs.: ing. d. saitlər ön sıra (/ɪ, ɛ/) və ya arxa sıra (/ʊ,ɒ, ʌ/), qapalı (/ɪ, ʊ/), orta (/ɛ,ɒ/) və açıq (/a, ʌ/) və s. ola bilər.

Hər bir fonemin məzmunu onun sistemdəki yerindən asılıdır. Dilin fonem sistemini qarşılaşmaların tipologiyası ən yaxşı şəkildə açıb göstərir. Bunu dilçilik elmi tarixində ilk dəfə N.S.Trubeskoy əyani şəkildə göstərmişdir.

Bu təlimi Azərbaycan dilində fonem sisteminə tətbiq etməklə aşağıdakı mənzərəni ala bilərik: bir qarşılaşmanın bütöv qarşılaşma sisteminə münasibəti baxımından: təkmeyarlı qarşılaşmalar:

burada müqayisənin əsası kimi götürülən əlamət yalnız bu qarşılaşmaya xasdır. Məs.: /t/-/d/;

çoxmeyarlı qarşılaşmalar:

müqayisə üçün götürülən əlamət başqa qarşılaşmalara da xasdır. /d/-/b/ xas olan ümumi cəhət /g/-da da var. /p/-/b/ qarşılaşması proporsionaldır, çünki onlar arasındakı münasibətlər eynilə /t/-/d/ və /k/-/g/-da müşahidə olunur. /p/-/ʃ/ isə təcrid edilmişdir, çünki dilimizdə ikinci belə bir oppozisiya yoxdur.

Proporsional qarşılaşmalar çox vacibdir. Bunlar dil vahidlərinin reallaşdığı əlamətlərin şəbəkəsini göstərməyə imkan verir ki, bu da dildəki universallıq ideyasını cəlbedici edir.

Dil üçün təcrid edilmiş qarşılaşmalar daha vacibdir, çünki onlar sayca üstünlük təşkil edir.

B) Qarşılaşmanın üzvləri arasında münasibətlər baxımından onların təsnifi:

1) privativ
2) dərəcəli → qarşılaşmalar.
3) ekvipolent

1) Privativ qarşılaşmaların üzvləri arasında əlamətin olması və olmaması əsas götürülür. Məs.: /b/-/p/ qarşılaşmasında /b/-da cingiltililik əlaməti var, /p/-da isə bu əlamət yoxdur, yəni o, kardır.

2) Dərəcəli qarşılaşmanın üzvləri arasında münasibət dərəcəli olur, yəni eyni əlamət müxtəlif dərəcədə təmsil olunur. Məs.: /u/-/o/, /ü/.

Birinci ikinciyə, ikinci üçüncüyə nisbətən açıqdır. Elə eyni qarşılaşma daxilində də birinci üzv qapalı, ikinci üzv isə açıqdır və s.

3) Ekvipolent qarşılaşmada üzvlər arasındakı münasibətə görə onlar məntiqi cəhətdən eyni hüquqludur. Məs.: /p/-/t/, /f/-/k/ və s. Bunlar dildə ən çox işlənəndir.

C) Qarşılaşma üzvlərinin distinktiv əlamətləri qoruyub saxlaya bilməsinə görə onlar sabit və neytrallaşan olurlar.

Sabit qarşılaşma o deməkdir ki, onun üzvləri stabil qarşılaşmaların üzvləri kimi bütün mövqelərdə qarşılaşmanı saxlayırlar. Məs.: /p/, /t/, /k/, /ʃ/, /f/, /s/.

Ancaq bəzi qarşılaşmalarda üzvlərdən biri müəyyən mövqedə fərqlənməni həyata keçirə bilmir. Alman və rus dillərində söz sonunda cingiltili samit öz cingiltililiyini itirir və kar qarşılığında çıxış edir. Rus dilində vurğusuz mövqedə /o/ # /a/ qarşılaşması da neytrallaşır. Məs.:

alman dilində	rus dilində
«Rad» (təkər) /ra:t/ «d»	«rod» (cins) /rot/ «d»
T	T
«Rat» (şura) /ra:t/ «t»	«rot» (ağız) /rot/ «t»

Deməli, müəyyən mövqedə oppozisiya üzvlərinin hər ikisinə xas olan əlamətlər iştirak edir. Başqa sözlə desək, qarşılaşma öz gücünü itirir və ya neytrallaşır. Bu mövqedə çıxış edən vahidi N.S.Trubeskoy arxifonem adlandırır. Ancaq müəyyən mövqedə gələ bilməmək heç də o demək deyildir ki, hər hansı bir fonem fonematikliyini itirir. Məs.: /maj/, /tʃaj/, /taj/, /saj/ və s. cərgəsində /ɣaj/ və /naj/ mümkün deyilsə, deməli /ɣ/ və /n/ fonem deyillər. İngilis və alman dillərində sözbaşında /b+l/ və /g+l/ ardıcıllığı mümkündür.

Məs.:

Alm. d.	ing. d
/blat/ (vərəq)	/blək/ (qara)
/glat/ (hamar)	/gləd/ (xoş)

Bu dillərdə sözbaşında /d+l/ ardıcıllığı mümkün deyildir, ancaq başqa mövqedə bu ardıcıllıq mümkündür. Müq. et:

alman dilində	ingilis dilində
«Adler» /a:dler/ (qartal)	«saddle» /sədl/ (yəhər)

Bəzən iki vahid arasındakı münasibətlər eynilə digər cütlər arasındakına oxşayır. Məs.:

Azərb. d.		
/p/	/t/	/k/
/b/	/d/	/g/

Bunlar arasındakı münasibətlər kar və cingiltili əlamətlərə söykənir.

Dilin fonematik sistemində eyni tipli qarşılaşmalar bir dəst düzəldir ki, bu da adi qarşılaşmadan böyükdür. Bunlara korrelyasiya deyilir. Belə korrelyasiya dəstləri sanskrit dilində adi haldır. Məs.:

Kar:	/p/, /ph/, /t/, /th/, /k/, /kh/
Cingiltili:	/b/, /bh/, /d/, /dh/, /g/, /gh/

Buradan da fonemi əlamətlər dəsti kimi müəyyənləşdirmək ideyası yarandı. Bəzən sistemdə hər hansı əlamətə görə qarşılaşma alınmır, üzvün bir əlamətə görə qarşılığının yeri boş qalır. Məs.: Azərb. dilində «h» samitinini kar qarşılığı yoxdur.

Hər bir dilin fonem sistemi özgürlüyü ilə seçilir. Məs.: Azərb. dilində fonemlərin qarşılaşma xüsusiyyətləri bəzi cəhətlərinə görə alman dilindəkinə oxşayır: Onları ön sıra/arxa sıra, dodaq/qeyri – dodaq əlamətləri üzrə qapalı korrelyasiya baxımından götürsək, onda belə bir mənzərə alınar:

Dillər	
Azərb. d.	alm. d.
/u/, /ɣ/, /ɔ/, /œ/	/u:/, /ɣ:/, /o:/, /ø:/
	/ʊ/, /ɣ/, /ɔ/, /œ/

Azərbaycan dilində bu samitlər iki cüt olduğu halda, alman dilində 4 cütdür. İngilis dilində isə bu korrelyasiya ümumiyyətlə yoxdur.

F.Veysəlli. SDƏ, I. s. 166-174; A.A.Реформатский. Göstərilən əsəri, s. 220-227.

ФОНОЛОГИЧЕСКОЕ СЛОВО - alm. phonologisches Wort (n), ing. phonological word /ˌfəunəˈlɒʤɪkəl wɜ:d/, fr. mot phonologique, azərb. fonoloji söz. - Bir vurğu ilə deyilən söz, yaxud proklitik və enklitik elementlərlə sözün birgə deyilməsi. Adətən buna fonetik söz deyirlər. Məs.: ing. d. /I've done it// cümləsində /I've/ fonoloji (fonetik) sözdür. Sintaktik baxımdan isə o, iki sözdən ibarətdir.

O.Ch.Zacher. Deutsche Phonetik. L., 1969; F.Vejsalov (Veysälli). Lehrbuch der deutschen Phonetik. Bakı, 1989; P.H.Matthews. Göstərilən əsəri, s. 278.

ФОНОЛОГИЯ - alm. Phonologie (f), ing. system of phonemes of a language /ˈsɪstɪm əv ˈfəuni:mɪz əv əˈlæŋgwɪʤ/, phonology /fəˈnɒləʤɪ/, phonemics /fəunemɪks/fəuˈni:mɪks/, fr. phonologie, azərb. fonologiya. – Danışıq səslərini, morfem, söz və cümlələrin ifadə tərəfini fərqləndirmə və eyniyyət vasitəsi kimi öyrənən dilçilik elmi. Bəzən bu elmi funksional fonetika, fonematika və ya fonemika kimi də adlandırırlar. İ. A. Boduen de Kurtene bunu psixofonetika adlandırırdı. L. V. Şerba isə fonologiyanı fonetika ilə birlikdə dilin səs tərəfi haqqında elmin iki aspekti kimi götürürdü. Fonologiya səslərin, səs birləşmələrinin və prosodik vasitələrin relevantlığını və funksional xüsusiyyətlərini tədqiq edir. Fonetika ilə fonologiyanın fərqləndirilməsi ilk dəfə İ.A.Boduen de Kurtene tərəfindən irəli sürülmüşdü. F. de Sössür isə fonologiyanı səslərin fiziologiyası kimi başa düşürdü. N. S. Trubeskoy danışıq səsləri haqqında iki elmin mövcudluğunu sübut etməyə cəhd göstərirdi. N. S. Trubeskoya görə, bu fənlərdən biri danışıq aktına, digəri isə dilə yönəldilməlidir. 1-ci təbiətşünaslıq elmlərinə daha çox yaxındır, tədqiqatda təbiətşünaslıq elminin işləyib hazırladığı metodlardan istifadə edir. 2-ci isə ictimai elmlərə daxildir. Fonologiya fonetik (akustik və artikulator) müxtəlifliyi və eyniliyi deyil, səsləri funksional baxımdan, onların dildə yerinə yetirdiyi ictimai yük baxımından öyrənir.

İngilis dilçiliyində fonologiya fonetika və fonemika üçün ümumi termin kimi götürülür. Müasir dilçilik məktəblərində struktur təhlil üsulu kimi minimal cütlərdən istifadə olunur və fonologiyanın əsas vahidi olan fonem məna fərqləndirən element kimi götürülür. Amerikan strukturalizmində də bu yanaşma aparıcıdır, ancaq bütövlükdə taksonomik strukturalizm (üzvlənmə və eyniləşdirmə/təsnif) kimi tanınan Amerika strukturalizmi daha çox distribusiya kriteriyalarından istifadə edir. Hər iki məktəb fonologiyanı müstəqil təsvir səviyyəsi kimi götürür. Onlar fuknsional fərqləndirmə (məs.: /baş/ # /gaş/) prinsipini əsas götürərək fərqləndirici əlamətdən (dodaq /b/ və dilarxası /g/) istifadə edərək qarşılaşmanı müəyyən edirlər, fonemi distiktiv əlamətlərin dəsti kimi dəyər-

ləndirərək dünya dillərinin fonem inventarlarının təsviri üçün universal fonoloji əlamət bazası fərziyyəsindən çıxış edirlər.

Onlardan fərqli olaraq generativ yanaşma fonologiyanın avtonomluğunu qəbul etmir, onu generativ transformasiyonal qrammatika çərçivəsində fonetik-fonoloji və sintaktik-morfoloji qaydalar (sistematik) kimi götürməklə fonoloji təsvirdə fonemin özünü deyil, distiktiv əlamətləri universal xarakter kəsb edən əsas vahidlər kimi götürür. Nisbətən abstrakt konstant özül formalar əsasında intrinzik və ekstrinzik düzülmüş qaydalar zəminində üst qatın fonetik variantları üzə çıxarılır. Məs.: alman dilində /di:b/ üst qatda /di:p/ (oğru) üçün əsas forma kimi götürülür, çünki bu dildə söz sonu qanununa görə karlaşma mütləqdir. Bu isə real substansiya ilə funksiya arasında uçurum deməkdir və heç vaxt elmə uğur qazandıra bilməz.

Son zamanlar superseqment vahidlərin geniş tədqiqi üçün qeyri-xətti fonologiya inkişaf etdirilir.

Fonologiya sahəsində saysız-hesabsız tədqiqatlar psixolinqvistikanın, dilöyrətmənin, kontrastiv və konfrontativ dilçiliyin, yazı islahatlarının və tətbiqi dilçiliyin, xüsusilə də maşınla tərcümənin inkişafına ciddi təkan verdi.

F.Vejsälli. Einführung in die Phonologie. Baku, 2004; E.Coseriu. Einführung in die allgemeine Sprachwissenschaft. Tübingen, 1998. Almancadan tərcüməsi, «Ön söz» və «Qeydlər» prof. F. Veysəllinindir. Bakı, 2006.

ФОНОЛОГИЯ ТРАНСФОРМАЦИОННАЯ - alm. transformationelle Phonologie (f), ing. transformational phonology /ˌtrænsfəˈmeɪʃənəl,-trɑ:ns-nz fəʊˈnɒlədʒɪ/, fr. transformation phonologique, azərb. transformasional fonologiya.

Bax: Фонология ←.

ФОНОМЕТРИЯ - alm. Phonometrie (f), ing. phonometry /fəʊˈnɒmɪtrɪ/, fr. phonométrie, phonométrique, azərb. fonometriya. – Danışıq dilinin eksperimental-fonetik yolla tədqiqini inkişaf etdirən elm sahəsi. Eksperimental yolla təhlil edilən, dinləyicilər tərəfindən qəbul edilən göstəricilərin müqayisəsinə söykənən tədqiqatlar.

H.G.Tillmann. Sprachlaute und Sprachsignale: Zur Perspektive einer neuen Phonometrie. «Phonetica», 4-5, 1979, s. 241-252.

ФОНОМОРФОЛОГИЯ - alm. Phonomorphologie (f), ing. phonomorphology /fəʊˈnɔmɔ:ˈfɔlədʒɪ/, fr. phonomorphologie, azərb. fonomorfologiya.

Bax: Морфонология ←.

ФОНОСТИЛИСТИКА - alm. Phonostilistik (f), ing. phonostylistics /fəʊˈnɔstaɪˈlɪstɪks/, fr. phonostylistique, azərb. fonostilistika. – Fonetik vasitələrin üslubi məziyyətlərini öyrənən elm. Buraya səslənmə, qafiyə, metrika və ritm daxildir. Səslənmə, deyiliş təkcə danışan şəxsin fərdi cəhətlərini deyil, həm də semantik və praqmatik təsir gücünü özündə əks

etdirir. Deklamasiyada, təqlidetmədə və əsərin emosional təsirini gücləndirməkdə səslənmənin rolu olduqca böyükdür. Mətni müşayiət edən konnotativ çalarlıqları dinləyiciyə çatdırmaqda melodiya və ritmin birgə fəaliyyəti onun prosodiya və intonasiya qəlibi vasitəsilə həyata keçirilir. Y. V. fon Qötenin «Səyyahın gecə nəğməsi» şerində incə saitlər yüksəkliyin, qalın saitləri isə sakitliyin rəmzi kimi çıxış edir.

Əksər hallarda səs təqlidi yolu ilə yaranan sözlər şerin və ya nəsr əsərinin daxili qurluşunu açıb göstərməyə kömək edir.

Məs.: Heydərbaba, ildırımlar çaxanda,
Sellər, sullar şaqqıldayıb axanda,
Qızlar ona səf bağlayıb baxanda,
Salam olsun şövkətüzə, elüzə,
Mənim də bir adım gəlsin dilüzə.

Şal istədim mən də evdə ağladım,
Bir şal alıb tez belimə bağladım,
Qulamgilə qaçdım, şalı salladım,
Fatma xala mənə corab bağladı,
Xan nənəmi yada salıb ağladı.

M.Şəhriyar. Aman ayrılıq. Bakı, 1981, s. 17, 22.

Adətən qafiyə, assonans, eyni qafiyə, qrammatik qafiyə, bənd qafiyəsi, üçlük, dördlük, alliterasiya üslubi vasitə kimi istifadə olunur. Məs.: alm. d. /Milch macht müdə Manner munter// (Süd yorğun Adamları gümrah edir)

Metrika da uzun və qısa vurğulu və vurğusuz hecaların nizamlı növbələnməsi kimi mühüm üslubi vasitələrdir. Burada danışığın tempi də mühüm rol oynayır. Ritmin uzun və qısa hecalarla bağlılığı heca vəzninin əsasını (heca, sərbəst və əruz vəznləri) təşkil edir. Azərbaycan dilində əruz vəzni də geniş üslubi metod kimi çox işlənir.

B.Slowinski. Stilistik. Stuttgart, 1999, s. 135-137; W. Strunk. The Elements of Style. London, 1972², s. 26-34.

ФОНОТАКТИКА - alm. Phonotaktik (f), ing. phonotactics /fəʊ'nɔ'tæktıks/, fr. phonotactique, azərb. fonotaktika. – Bir dildə mümkün və qeyri-mümkün fonem birləşmələrini öyrənən elm sahəsi. Hər bir dildə fonotaktik qaydalar fərqlidir. Məs.: Azərb. d. öz sözlərimizdə sözbaşında iki və ya üç samit dalbadal gələ bilməz. Ancaq alman dilində bu mümkündür. Müq. et: alm. d. /ʃtʀɑ:sə/ (küçə), /ʃpʀɑ:xə/ (dil) və s.

Ф.Вейсалов (Вейсалли). Вариативность гласных фонем современного немецкого языка (экспериментальные данные и теоретические проблемы). ДД, Л., 1980.

ФОРМА - alm. Form (f), ing. form /fɔ:m/, fr. forme, azərb. forma. - 1. Ənənəvi qrammatik ad, eyni kökdən olan sözlərin müxtəlif şəkli (hal və

təsrif formaları). Məs.: Azərb. d. /ata, atanı, atada/ və s. Qədim dövrdən bu yana işarəni ifadə edən, Amerikan dilçiliyində müəyyən mənaya uyğun ifadə. Onlar ayrılıqda gələ bilən sözü sərbəst forma, bu cür işlənə bilməyənləri isə (şəkilçi, sonluq) asılı formalar adlandırırlar; 2. Qlossematikada isə «forma/substansiya» qarşılaşmasında forma bütün substansional reallaşmaların əsasını təşkil edən abstrakt əlamətlər başa düşülür, özü də substansiya danışıq aktına, forma isə dilə aid götürülür. Digər tərəfdən, forma dilin bütün səviyyələrində abstrakt məna əlaqələrinin ifadəsi kimi izah edir. Mənanın substansiyası formaca dildən dilə fərqli olur, hərçənd ki, mental struktur eyni və ya oxşar ola bilər. Məs.: rənglərin özü və onların müxtəlif dillərdə fərqli ifadə formaları.
H.Bußmann. Göstərilən əsəri, s. 246.

ФОРМА ГИПОТЕТИЧЕСКАЯ - alm. hypothetische Form (f), ing. hypothetic(al) form /ˌhaɪpəʊ'θetɪk(əl) fɔ:m/, starred form /stɑ:dɪd fɔ:m/, fr. forme hypothétique, azərb. hipotetik (fərz edilən) forma. - Mövcud yazılı abidələrə təqdim olunmayan, yalnız müqayisəli-tarixi yenidənqurmalar vasitəsilə bərpa edilən forma.
O.C.Ахманова. Göstərilən əsəri, s. 501.

ФОРМА ПОТЕНЦИАЛЬНАЯ - alm. potentielle Form (f), ing. potential form /pəʊ'tenʃəl fɔ:m/, fr. forme potentielle, azərb. potensial forma. - Dildə əyani şəkildə mövcud olmayan, lakin məhsuldar modellərə müvafiq qaydada asanlıqla düzələ bilən forma. Məs.: rus d. /мальчик, продовавший яблоки, ушел// → 1) /Мальчик, который продовал яблоки, ушел//; 2) /Продовавший яблоки мальчик ушел//.

Göründüyü kimi, generativ qrammatikanın təbirincə desək, alt qatda eyni məna strukturuna malik olan cümlə asanlıqla üst qatda müxtəlif şəkildə ifadə oluna bilər.
A.A.Реформатский. Göstərilən əsəri, s. 334-336.

ФОРМА СЛОВА - alm. Wortform (f), ing. form of the word /fɔ:m əv ðɪ 'wɜ:d/, fr. forme du mot, azərb. söz forması. - Sözün konkret danışıq aktında işlənməsi. Məs.: Azərb. d. /alma almaya bənzər/ ifadəsində alma sözü iki formada çıxış edir.
Bax: Форма ←.

ФОРМА СЛОВА ВНУТРЕННЯЯ - alm. innere Wortform (f), ing. inner form of the word /'ɪnə fɔ:m əv ðɪ: wɜ:d/, fr. forme intérieure du mot, azərb. sözün daxili forması. - Sözün daxilində baş verən dəyişikliyi əks etdirən forma. Məs.: ing. d. /foot/ → /feet/ (ayaq → ayaqlar).
P.H. Matthews. Göstərilən əsəri, s. 132.

ФОРМА СЛОВООБРАЗОВАНИЯ - alm. Wortbildungsform (f), ing. form of word-formation /fɔ:m əv wɜ:d fɔ:'meɪʃən/, fr. forme de la formation du mot, azərb. sözdüzəltmə forması. – Bütün sözdüzəltmə şəkilçiləri (isim,

sifət, fel, say, zərf düzəldən şəkilçilər. Məs.: Azərb. d. /dəmir+çi/, /at+lı/, /uca+l+maq/, /beş-inci/, /sürət+lə/ və s-i. sözdüzəltmə formaları **hesab** etmək olar. Bunlar da özlüyündə məhsuldar və qeyri-məhsuldar **olmaqla** iki yerə bölünürlər. Məhsuldar şəkilçilər: Azərb. d. /qayıq+çı/; rus d. /**стол+ик**/; alm. d. /Übung/ (tapşırıq). Qeyri-məhsuldar şəkilçilər: Azərb. d. /**dola**+b/; rus d. /-**оть**/ şəkilçisi ilə cəmi beş fel düzəlir. Müq. et: rus d. /**молоть, колоть**, полоть, пороть, (по) **боротъ**/; alm. d. /ler/ müq. et: /Tisch+ler/ və s.
A.A.Реформатский. Göstərilən əsəri, s. 247-249.

ФОРМА РЕЧИ - alm. Redeform (f), ing. form of speech /ˈfɔːm əv spiːtʃ/, fr. forme du discours, azərb. nitq forması. – 1. Söz, **söyləm** və cümlələrin danışıqda təzahür formaları. Ənənəvi dilçilikdə **bunun iki** növünü fərqləndirirlər: 1) monoloji nitq forması; məs.: /mən sizə **o günləri** arzu edirəm ki, siz firavan və azad yaşayasınız.../; 2) dioloji **nitq** forması: məs.:
- Siz bunu mənə arzu edirsiniz?
- Bəli, bəs siz nə bilirdiniz!
2. Ədəbi dilin normalarına riayət edilmə dərəcəsinə görə **fərqlənən** danışığın üslubi növləri: 1) yüksək (ədəbi) danışıq **forması**: məs.: /bilirsinizmi, siz məsələni çox şişirdirsiniz//; 2) ara danışıq **forması**: məs.: /bilirsiz, siz məsələni çox şişirdirsiz//; 3) loru danışıq forması; /**bilirsən**, çox şişirtmə//; 4) arxaik danışıq forması: məs.: /çox şişirtmə ha// və s.
F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980.

ФОРМА СЛОВОИЗМЕНЕНИЯ - alm. Wortveränderungsform (f), ing. form inflection /ˈfɔːm ɪnˈflekʃən/, fr. forme de la variation du **mot**, azərb. sözdəyişmə forması. - Cümlə və söz birləşmələri daxilində bir **cözün** digər sözlərə münasibətini əks etdirən söz forması. Məs.: Azərb. d. /atamın kitabı/, /vətən üçün/; alm. d. /für das Vaterland/ (ata yurdu üçün) və s.
A.A. Реформатский. Göstərilən əsəri, s. 247-260.

ФОРМАЛЬНО-ГРАММАТИЧЕСКИЙ - alm. formell-grammatisch, ing. formal-grammatical /ˈfɔːməl grəˈmætɪkəl/, fr. formellement grammatical,-e, azərb. formal-qrammatik. - Tərkib ünsürlərinin **qrammatik** xüsusiyyətlərilə, onların formal (sintaktik) əlaqələrilə şərtlənən; qrammatik əlaqələrin formal ifadəsinə aid olan. Sözdüzəldici və **sözdəyişdirici** formalardan başqa sintaktik səviyyədə də sintaktik və qeyri-**sintaktik** formalar fərqləndirilir. Birinciyə cümlə üzvlərinin uzlaşma və **ifadəyə** görə qarşılıqlı münasibətləri. (Məs.: alm. d. /Ich bin mit dir **zufrieden**/ (mən səndən razıyam)), ikinciyə isə cümlə üzvlərindən asılı **olmayan** formalar aiddir (Məs.: rus d. /stol-stolu/, /**я возьму, я взял бы**/) və s.
A.A. Реформатский. Göstərilən əsəri, s. 257-259.


ФОРМАЛЬНЫЙ - alm. formell, ing. formal /ˈfɔːməl/, fr. **formel**,-le, azərb. formal. - Formadan çıxış edən, ifadə xüsusiyyətlərinə **əsaslanan**,

söz formasına aid olan. Məs.: Azərb. d. /quş, quşçu-quşçuluq, quşdan/ formaca fərqli sözlərdir.

ФОРМАЛЬНАЯ ГРАММАТИКА - alm. formelle Grammatik (f), ing. formal grammar /'fɔ:məl 'græmə/, fr. grammaire formelle, azərb. formal qrammatika. – Riyazi dilçiliyin bir qolu olan formal qrammatikanın əsası N.Xomski tərəfindən qoyulub. FQ-nin əsas məqsədi düzgün qurulmuş mətnlərin qanunauyğunluqlarını öyrənməkdir. FQ mücərrəd qaydalar sistemindən istifadə etməklə həmin mətnlərin düzgün şərhini və təsvirini verir. Ən geniş yayılmış növü N.Xomskinin törəmə qrammatikasıdır. Bu qrammatika nizamlanmış sistemdir: Γ= <V, W, N, R>, burada V və W kəsişməyən son çoxluqlardır. Bu çoxluqları əsas, terminal, köməkçi və ya qeyri-terminal əlifbalar adlandırırlar (onların elementlərini əsas və ya terminal və köməkçi və ya qeyri-terminal simvollar adlandırırlar). Π-W-nin elementidir, başlanğıc simvoludur, Rφ → ψ tipli qaydaların son çoxluğudur, burada ψ əsas və köməkçi simvolların həlqəsidir (son ardıcıllıqlardır). Əgər φ →.ψ Γ qrammatikasının qaydasıdırsa və ω_1 ω əsas və köməkçi simvolların həlqəsidirsə, deyirlər ki, ω_1 ψ ω_2 bilavasitə ω_1 ψ ω_2-dən Γ-yə çıxarıla bilər. Əgər ξ_0 ξ_1 ξ_2 həlqələrdirsə və hər biri üçün = 1., ξ_1 həlqəsində n bilavasitə ξ_1-1-dən çıxarıla bilər, onda deyirlər ki, ξ_0 Γ-yə ξ_0-dan çıxır. Γ-yə keçmə onun başlanğıc simvolları olan əsas simvolların o çoxluğu Γ qrammatikasının törətdiyi dil adlanır və L (Γ) kimi işarə edilir. Γ-nin bütün qaydaları η_1 A η_2 → şəklindədirsə, onda Γ tərkiblər qrammatikası adlanır (və ya bilavasitə tərkiblər), qısa şəkildə buna BTJC-qrammatikası deyilir; özü də bu zaman hər qaydada η_1və η_2 (sağ və sol kontekstlər) boşdurlarsa, onda bu kontekstsiz (və ya kontekst-sərbəst) qrammatika qısa şəkildə R-siz qrammatika (və ya kontekstli-sərbəst) adlanır. Adi linqvistik təsvirdə əsas simvollar sözləri, köməkçi simvollar qrammatik kateqoriyaların göstəricilərini, başlanğıc simvol isə cümləni bildirir; özü də qrammatikanın törətdiyi təbii dilin qrammatik cəhətdən düzgün cümlələr çoxluğu kimi şərh olunur. Tərkib hissələr qrammatikasında hər bir simvolun yanında qrammatik kateqoriyanın göstəricisi də verilir. Məs.: /sərçə budaqda oturub// cümləsi simvollarla və ağac şəklində belə verilir:

C → I adl. h. tək FF → I yerl. h. tək → F ind. z. tək 3-cü şəxs

və ya



adl. h. tək yerl. h. F ind. z. tək 3-cü şəxsin təki

Лингвистический энциклопедический словарь. Под редакцией В.Н.Ярцевой. М., 1990, s. 288-289.

ФОРМАЛЬНАЯ ЕДИНИЦА МИНИМАЛЬНАЯ - alm. formale Minimaleinheit (f), ing. minimum, minimal formal unit /'mınıməm/' mınıməl 'fɔ:məl 'ju:nıt/, fr. unité minimale formelle, azərb. ən kiçik formal vahid. - Morfoloji səviyyədə ən kiçik ifadə vahidi. Məs.: ing. d. /s/, /iz/, /z/ (bats, bags, sitiz) ünsürləri ən kiçik ifadə vahidləridir.

F. Yadigar (Veysəlli). GDG.

ФОРМАЛЬНЫЕ СЛОВА - alm. formale Wörter (Pl.), ing. formal-words /fɔ:məl wɜ:dz/, fr. mots formelles, azərb. formal sözlər. – Danışıqda müstəqil funksiyaya malik olmayan, yəni müstəqil cümlə üzvü kimi çıxış edə bilməyən köməkçi və yardımçı sözlər. Buraya bağlayıcılar, qoşmalar, ədatlar daxildir.

M. Hüseynzadə. Müasir Azərbaycan dili. Morfologiya. III, Bakı, 1973, s. 290-352.

ФОРМАЛЬНАЯ ЧАСТЬ СЛОВА - alm. formaler Wortteil (m), ing. formal part of the word /'fɔ:məl pɑ:t əv ði: wɜ:d/, fr. partie formelle du mot, azərb. sözün formal hissəsi. – Dildə sözün hər hansı bir qrammatik məna ifadə edən hissəsi. Bunlara adətən şəkilçi də deyirlər. Məs.: Azərb. dilçisi Y. Seyidov (1930) qrammatik şəkilçiləri belə təsnif edir.

1) hal şəkilçiləri;
2) mənsubiyyət şəkilçiləri;
3) kəmiyyət şəkilçiləri;
4) şəxs-xəbərlik şəkilçiləri;
5) sifətin dərəcə şəkilçiləri;
6) inkarlıq şəkilçiləri;
7) təsirsiz fellərdən təsirli fellər əmələ gətirən şəkilçilər;
8) felin növ şəkilçiləri;
9) zaman şəkilçiləri;
10) fel şəkillərinin şəkilçiləri;
11) felin təsriflənməyən formalarının (məsdər, feli sifət, feli bağlama) şəkilçiləri;
12) bu kateqoriyalara aid olmayan şəkilçilər (dakı, dəki).

Y.Seyidov. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı, 2005, s. 51-52.

ФОРМАНТ - alm. Formant (m), ing. formant /'fɔ:mənt/, fr. formants, azərb. formant. – 1) Sözü qrammatikada şəkilçilə sonluq bir bütövdə götürülərək formant adlandırırlar. Məs.: rus d. /старание/ sözündə /-ание/ və ya /-jo¸cibo/, /кулачье/ və /дворянство/ sözləri də bu qəbildən olan formantlardır; 2) Akustik fonetikada ağız boşluğunda (irəlidə, arxada) yaranan rezonansı, həmçinin rezonansın nəticəsini (aşağı, yüksək ton) formant adlandırırlar. Rezonatorlarda ümumi səs formantların qarışığından

əmələ gəlməklə hər hansı birinin üstünlüyü deməkdir. Akustik qanuna görə, hamar səthi rezonator (ağız boşluğunda) səsi əks etdirir, yumşaq səthli isə səsi udur. Ağızda dil əzələsi gərgin olanda rezonator tonunun yayılmasına, gərgin olmayanda isə tonları udur və səciyyəvi rezonator tonlarını qarışdırır. Dilin gövdəsi nə qədər yuxarı qalxarsa, F_{II} bir o qədər yuxarı olar, F_I isə dilin üfüqi istiqamətdə hərəkətini əks etdirir.

A.A.Реформатский. Göstərilən əsəri, s. 161; F. Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 149-153.

ФОРМАТИВ - alm. Formativ (m), Bildungselement (n), ing. formative /'fɔ:mətɪv/, fr. formatif,-ve, azərb. formativ. - Sırf qrammatik funksiya ifadə edən qrammatik şəkilçilər və ya köməkçi sözlər. Məs.: Azərb. d. hal şəkilçiləri.

Y.Seyidov. Göstərilən əsəri, s. 51-52.

ФОРМООБРАЗОВАНИЕ - alm. Formbildung (f), ing. formbuilding /fɔ:m'bɪldɪŋ/, derivation of word-forms /derɪ'veɪʃən əv wə:d-fɔ:ms/, fr. constitution de nouvelles formes, formation de nouvelles espèces, azərb. forma əmələ gətirən. – 1) Eyni sözün bu və ya digər formasının düzəldilməsi. Məs.: Azərb. d. /-lar/-lər/ şəkilçiləri formadüzəldici şəkilçilərdir. Söz formalarında qrammatik məna fərqi var. Buraya felin növ şəkilçiləri, sözlərə əzizləmə və kiçiltmə mənası verən şəkilçilər, feli sifət, feli bağlama və məsdər şəkilçiləri, sifətin dərəcə şəkilçiləri və s. aiddir; 2) Sözdəyişdirici şəkilçilər formadüzəldici şəkilçilərdən fərqli olaraq sintaktik əlaqələri ifadə edirlər. Buna əyani misal kimi inkarlıq şəkilçilərini göstərmək olar. Qeyd edək ki, Y. Seyidov bu cür kəskin fərqləndirməni qəbul etmir.

Y. Seyidov. Göstərilən əsəri, s. 52-53.

ФОРМУЛА - alm. Formel (f), ing. formula /'fɔ:mjʊlə/, formulation /'fɔ:mjʊ'leɪʃən/, fr. formule, azərb. formul. – 1) Formal məntiqdə təbii dilin cümləsini formal-məntiqi dilə çevirmək üçün formal təhlilin nəticəsi. Məs.: Azərb. d. /Zeynəb Əhmədin bacısıdır// belə olacaq; a) faktlar (Zeynəb, Əhmədin bacısı); b) bacısıdır (Zeynəb, Əhmədin); 2) Frazeoloji termindir, leksik-sintaktik cəhətdən dəyişmir, əksərən cümlə mənası verən söz qrupu, praqmatik baxımdan kontakt və ya nəzakət formasında işlənən formul. Məs.: Azərb. d. /Şərəfinizə/; alm. d. /Zum Wohl/; ing. d. /To you health/ və s.

H. Büßmann. Göstərilən əsəri, s. 249.

ФРАЗА - alm. Phrase (f), ing. phrase /freɪz/, sentence /'sentəns/, fr. phrase, azərb. söyləm. – 1) Ünsiyyətdə danışığın aktuallaşmış ən kiçik vahidi; 2) İntonasiyanın əsasında duran bütövlük. İki fasilə arasında gələn danışıq parçası. Məs.: Azərb. d. /Bu gün/ axşama yaxın/ qar yağacağı /gözlənilir//. İng. d. clause (üzv cümlə) təsriflənən fel formasına malik sintaktik konstruksiyalardır. Nisbətən müstəqilliyilə səciyələnən söz qrupu və ya cümlə. Əsas növləri bunlardır: a) müvafiq atributiv genişlənmə-

ləri olan nominal ifadələr. NP (Məs.: Azərb. d. /Əhməd, sarışın Əhməd, tarixdən ibrət dərsi alan Əhməd/ və s.); feli söyləm: VP. Məs.: Azərb. d. /sevinir, o da görür, inanır ki, o da haqlıdır/ və s.
H.Bußmann. Göstərilən əsəri, s. 585.

ФРАЗА МОРФЕМНАЯ - alm. Morphemphrase (f), ing. morphemic phrase /'mɔ:fi:mık freız/, fr. phrase morphémique, azərb. söyləm, morfem ardıcıllığı. – İki və daha artıq sərbəst formadan ibarət morfem ardıcıllığı. Məs.: alm. d. /recht gern/ (həvəslə), /wirklich sehr energisch// (həqiqətən çox enerjili); ing. d. /make efficient//.
P.H. Matthews. Göstərilən əsəri, s. 279.

ФРАЗА СИНТАКСИЧЕСКАЯ - alm. syntaktische Phrase (f), ing. syntactic phrase /sın'tæktık freız/, fr. phrase syntaxtique, azərb. sintaktik söyləm. - Müəyyən səciyyəvi ritmik melodik modellərdən ibarət olan sintaktik söyləm. Məs.: ing. d. /They said/ they liked cheese// (Onlar dedilər ki, onlar pendiri sevirdilər). Bu cümlədə iki söyləm (sintaqm) reallaşır.
P.H. Matthews. Göstərilən əsəri, s. 279.

ФРАЗЕОЛОГИЗМ - alm. Phraseologismus (m), ing. phraseologizm /freızı'ɒlədʒızm/, fr. phraséologique, azərb. frazeologizm. – Dildə ayrılıqda formalaşmış sabit söz birləşməsi, bunların komponentləri kommunikativ əlaqədə tam məna kəsb edir və bir qayda olaraq bitmiş cümlə yaratmır. Məs.: Azərb. d. /bərkə-boşa düşmək/.
H. Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978, s. 13.
Bax: Идиоматика ←.

ФРАЗЕОЛОГИЧЕСКАЯ ЕДИНИЦА - alm. phraseologische Einheit (f), ing. phraseological unity /ˌfreızıə'lɒdʒıkəl 'ju:nıtı/, fr. unité phraséologique, azərb. frazeoloji vahid. – Rus dilçiliyində frazeoloji vahidlərin üç növü göstərilir: a) frazeoloji vahid; b) frazeloji qovuşma; c) frazeoloji birləşmə.

«Fikrin ifadəsində danışığın bilavasitə tərkib hissəsini təşkil edən, iki və ya daha çox tammənalı sözün tarixən birləşməsindən ibarət olub, komponentləri sintaktik və semantik cəhətdən parçalanmayan, quruluşca sərbəst söz birləşməsinə və ya cümləyə oxşayan, mənaca sözə, söz birləşməsinə və cümləyə ekvivalent olan, dildə hazır şəkildə mövcud olub, ənənəyə görə bir formada, ya da qrammatik cəhətdən dəyişdirilərək işlədilən konstruksiyalara frazeoloji vahidlər deyilir». Məs.: Azərb. d. /üzgöz olmaq/, /belini qırmaq/, /it itin ayağını basmaz//.
H.Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978, s. 27.

ФРАЗЕОЛОГИЧЕСКОЕ ВЫРАЖЕНИЕ - alm. phraseologischer Ausdruck (m), ing. phraseological expression (phrase) /ˌfreızıə'lɒdʒıkəl ıks'preʃən/freız/, fr. locution phraséologique, azərb. frazeoloji ifadə. – Tərkibinə görə sabit olan, semantik cəhətdən bölünən və hər biri özlü-

yündə müstəqil mənaya malik olan sözlərdən təşkil olunmuş ifadələr. Lakin adi söz birləşmələrindən fərqli olaraq frazeoloji ifadələr danışıqda hazır şəkildə çıxış edirlər. Atalar sözləri, zərb məsəllər, hikmətli sözlər, həmçinin adlandırma funksiyası icra edən sabit söz birləşmələri frazeoloji ifadələrə aid edilirlər. Məs.: Azərb. d. /alovlu salamlar/, /kəskin baxış/, /sağlam fikir/, /mütərəqqi ideya/ və s.

M.T.Тагиев. Глагольная фразеология современного русского языка (Опыт исследования ФЕ по окружению). АДД, Баку, 1966, с. 5-6.

ФРАЗЕОЛОГИЧЕСКОЕ ЕДИНСТВО – alm. phraseologische Einheit (f), ing. phraseological unity /ˌfreɪzɪəˈlɒdʒɪkəl ˈjuːnɪtɪ/, fr. unité phraséologique, (de phraséologie), azərb. frazeoloji uyuşma. – Frazeoloji uyuşmalar elə vahidlərdən sayılır ki, onun tərkib hissələri arasında müəyyən dərəcədə müstəqillik vardır və onlar müəyyən mənada sərbəst birləşmələri xatırladır. Məs.: rus d. /плакали денежки/, Azərb. d. /xoşu gəlmək/. Frazeoloji vahidlərin bu növündə müəyyən qrammatik sərbəstlik var. Məs.: /xoşum gəlir/, /xoşumuz gəlir/ /kürkünə birə düşmək//; alm. d. /j-m den Kopf waschen// (başını piyləmək) və s.

A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 179.

ФРАЗЕОЛОГИЧЕСКОЕ СОЧЕТАНИЕ – alm. phraseologische Verbindung (f), ing. phraseological combination /ˌfreɪzɪəˈlɒdʒɪkəl ˌkɒmbɪˈneɪʃən/, fr. combinaison phraséologique, (de phraséologie), azərb. frazeoloji birləşmə. – Tərkibləri arasındakı əlaqə nisbətən zəif olan birləşmə. Frazeoloji birləşmələrdə istinad söz nisbətən daha müstəqil olur. Belə ki, həmin söz mənsubiyyət şəkilçilərinə görə dəyişməklə bərabər, bu sözlə onun aid olduğu sözün arasına müxtəlif sözlər də daxil ola bilir. Məs.: Azərb. d. /gözünə dəymək/ (Çöldə gözümə heç bir şey dəymirdi) və s. Belə birləşmələr sərbəst birləşmələrdən yalnız məcazi məna bildirmələri ilə fərqlənir.

A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 179.

ФРАЗЕОЛОГИЧЕСКОЕ СРАЩЕНИЕ – alm. phraseologisches Zusammenrücken (n), ing. phraseological concretion /ˌfreɪzɪəˈlɒdʒɪkəl kənˈkriːʃən/, fr. jonction (soudure) phraséologique, azərb. frazeoloji qovuşma. – Frazeoloji qovuşmalar özlərinin möhkəm semantik bağlılığı, bölünməzliyi ilə fərqlənir. Belə frazeoloji vahidlərdə əsas söz qrammatik cəhətdən dəyişməz qalır və tərkib hissələrinin arasına heç bir söz daxil ola bilmir. Məs.: Azərb. d. /qulaq asmaq/ (Mən ona diqqətlə qulaq asdım).

A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 179.

ФРАЗЕОЛОГИЯ - alm. Phraseologie (f), ing. phraseology /ˌfreɪzɪˈɒlədʒɪ/, fr. phraséologie, azərb. frazeologiya. - 1) Dildəki frazeologizmlərin məcmusu, frazeoloji vahidlərin hamısı; 2) Dilin frazeoloji vahidlərini öyrənən elm sahəsi.


H.Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978, s. 5.

ФРАЗИРОВКА - alm. Deklamation (f), ing. declamation /ˌdekləˈmeɪʃən/, fr. phrasé, azərb. qiraət. - Adətən ifadəli oxu zamanı seqmentüstü vasitələrdən istifadə etmə, müəyyən konkret oxu zamanı danışan tərəfindən fasilələrin yerində işlədilməsi, müvafiq intonasiya konturunun seçilməsi.
O.C.Ахманова. Göstərilən əsəri.

ФРАЗОВАЯ ИНТОНАЦИЯ - alm. Satzintonation (f), ing. phrasal intonation /ˈfreɪzəl ˌɪntəˈneɪʃən/, fr. intonation phrastique, azərb. fraza, söyləm (cümlə) intonasiyası.
Bax: Интонация ←.

ФРАЗОВЫЙ МАРКЕР – alm. Phrasenmarker (m), Formationsmarker (m), ing. phrasal, phrase maker /ˈfreɪzəl ˈfreɪz ˈmɑːkə/, fr. marqueur phrastique, azərb. söyləm göstəricisi. – Söyləm strukturunun kateqorial simvollarla qeyd olunan mötərizə və ya ağac şəklində təsviri. Məs.: alm. d. /Hans singt ein Lied// (Hans mahnı oxuyur) cümləsini qaydalarca belə təsvir etmək olar:

1) C → IS + FS A → ein açılışı c-cümlə, IS-ismi söyləm
IF → (A) artikl + I V→Hans, Lied FS-feli söyləm, A-artikl, İ-isim,
FV → köməkçi fel + F + IS F→sing köməkçi f. F-fel, ind. indiki z. tək, 3-RF → indiki zaman + tək + 3-cü şəxs. Ağac şəkli belədir:




və ya bu ağaca ekvivalent olan mötərizə ilə göstərən zəncir:

[IS [I [Hans] I] IF FS [köm [ind+tək + 3-cü şəxs] köm F [sing] F IS [A [ein] [A I [Lider] I] İS] FS] C.
R.Conrad. Göstərilən əsəri, s. 84.

ФРАЗОВАЯ СТРУКТУРА – alm. Phrasenstruktur (f), Konstituentenstruktur (f), ing. phrasal, phrase structure /ˈfreɪzəl freɪz ˈstrʌktʃə/, fr. structure de phrase, azərb. söyləm strukturu. – Cümlənin və ya konstruksiyanın tərkib hissələrinin hierarxik formada sintaktik strukturu. Bu cümlənin tərkib hissələrinə görə təhlilin nəticəsində əldə edilir və ya söyləm struktur qrammatikasında söyləm strukturu qaydalarının avto-

matik tətbiqilə alınır. Məs.: Azərb. d. /Oğlanlar gözəl oynayırlar/ cümləsi fraza strukturunu ağac şəklində belə vermək olar:



oğlanlar gözəl oynayırlar

Burada C-cümlə IS-ismi söyləm, FS-feli söyləm, I-isim, Z-zərf, F-isə fel deməkdir.

P.H. Matthews. Göstərilən əsəri, s. 279-280; R.Conrad. Göstərilən əsəri, s. 200.

ФРАЗОВАЯ СТРУКТУРНАЯ ГРАММАТИКА – alm. Phrasenstrukturgrammatik (f), Konstituentengrammatik (f), ing. immediate constituent grammar /ɪ'mi:djət kən'stɪtjuənt 'græmə/, phrase structural grammatical /freɪz 'strʌktʃəl grə'mætɪkəl/ fr. grammaire structurale de phrase, azərb. söyləm struktur qrammatikası. – Amerikan strukturalizmində cümlənin sintaktik quruluşunu tərkib hissələrinə görə təhlil üsulu, yəni cümlə strukturu hierarxik asılılıq əlaqəsi əsasında qurulmuş tərkiblər kimi götürülür. Dilin tərkiblər strukturunun aşkarlanmasına yönəlmiş bu təhlil üsulu aşkarlama əməliyyatları ilə üzvlənməni və təsnifata dair addımları əsaslandırır. Bu ilk olaraq tanıma qrammatikasına əsaslanan qrammatika növü, generativ, transformasional qrammatika çərçivəsində güclü formalaşma, həm də başqa cür şərh deməkdir, çünki ilkin statik analitik təsvir qaydaları (Məs.: C→IS+FS, yəni cümlə ismi söyləmdən və feli söyləmdən ibarətdir) indi əvəzetmə qaydasına çevrilə bilər (söyləm struktur qaydaları-törəmə qrammatikası). Əslində burada üst qata xas olan sintaktik-semantik əlamətlərin böyük qismi açılmamış qalır. Məs.: davamlılıq (Müq. et: /O mühazirə oxuyur//), çoxmənalılıq (Müq. et: /Müəllimin dəvəti//) (müəllim dəvət edir, yoxsa dəvət edilir) və s.

H.Bußmann. Göstərilən əsəri, s. 586.

ФРАЗОВОЕ УДАРЕНИЕ - alm. Satzbetonung (f), ing. phrasal stress /'freɪzəl stres/, fr. accent de phrase, azərb. cümlə vurğusu. – Cümlədə daha mühüm məlumat daşıyan sözün və ya söz birləşməsinin fərqləndirilməsi. Məs.: Azərb. d. /Anam çörə"'k bişirir//. Bu cümlədə /çörək/ sözü cümlə vurğusu daşıyır. Transkripsiyada /$\overset{///}{—}$/ işarəsilə göstərilir. Azərb. d. adi danışıqda cümlə vurğusu, bir qayda olaraq, xəbərdən əvvəl gələn sözün üzərinə düşür.

F. Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

ФРАКИЙСКИЙ ЯЗЫК – alm. Thrakisch (n), ing. Thrace /θreıs/, Thracian language /θreısjən 'læŋgwıʤ/, fr. langue thrace, azərb. fraki dili. – Qədim dövrlərdə Balkan yarımadasında, həmçinin Asiyada məskunlaşmış tayfaların dili. Fraki dilinin izləri müasir balkan dillərində (rumın, alban, bolqar) qalmışdır.

В.Н.Топоров. К фракийско-балтийским языковым параллелям. «Балканское языкознание», М., 1973.

ФРАНЦУЗСКИЙ ЯЗЫК – alm. Französisch (n), ing. French /frentʃ/, the French language /ði frentʃ 'læŋgwıʤ/, fr. le français, langue française, azərb. fransız dili. – Rolman dillərindən biridir. Fransız dilində dünyada təxminən 95 milyon nəfər əhali danışır. Fransa Respublikasının, Belçika Krallığının (daç dili ilə birlikdə), İsveçrə Konfederasiyasının (alman və italyan dilləri ilə birlikdə) və Kanadanın (ingilis dili ilə birlikdə) dövlət dilidir. Fransız dili bu sadalanan ölkələrin ana dili və ya əhalisinin böyük əksəriyyətinin ana dilidir. Bundan başqa fransız dili Benin, Burkino Faso, Qabon, Qvineya, Zair, Mali, Konqo, Seneqal, Burundi və s. dövlətlərin ərazisində yayılmışdır. Fransız dili üç dövrə bölünür: qədim fransız dili (XI-XIV əsr), orta fransız dili (XIV-XV əsr) və yeni fransız dili (XV əsrdən bu günə qədər). Bu dilin yazılı abidəsi IX əsrə aiddir. Yazısı latın əlifbasına əsaslanır.

Л.В.Щерба. Фонетика французского языка. М., 1957.

ФРЕКВЕНТАТИВ - alm. Frequentativ (n), ing. frequentative /frı'kwentətıv/, iterative aspekt /'ıtərətıv æspekt/, fr. fréquentatif,-ve, azərb. frekventativ. - Hərəkətin bir neçə dəfə təkrarlandığını, yəni onun ayrı-ayrı mərhələlərə bölündüyünü göstərən tərz. Məs.: Azərb. d. /O mütəmadi məşğul olur//. Hərəkətin iki dəfə təkrarı - iterativ →, bir dəfə təkrarı isə zemelfaktiv adlanır.

H.Bußmann. Göstərilən əsəri, s. 254.

ФРИГИЙСКИЙ ЯЗЫК – alm. Phrygisch (n), ing. Phrygian language /'frıʤıən 'læŋgwıʤ/, fr. langue phrygienne, azərb. friq dili. - Avropadan Mərkəz Asiyaya köçərək orada məskunlaşmış hind-Avropa dilləri ailəsinə daxil olan friq tayfalarının dili. Friq dilinin fonoloji sistemi yunan dilinin fonoloji sisteminə çox yaxındır (5 monoftonq sait, 4 diftonq (/ai/, /au/, /ei/, /oi/) və 16 samit).

В.П.Нерознак. Палеобалканские языки. М., 1978.

ФРИЗСКИЙ ЯЗЫК – alm. Friesisch (n), ing. Frisian language /'frızıən 'læŋgwıʤ/, fr. langue frise, azərb. friz dili. – Şimal dənizi sahilində güneydə yaşayan germanlara frizlər deyilir. Onlar friz dilində danışırlar. Niderlandın şimalında Frizlandda təxminən 0,5 milyon adam bu dildə danışır. Ölkənin paytaxtı Lyouvertdir. Bu dili bəzən anqlofriz terminilə də göstərirlər. Bu gün Şlezviq-Holştaynda dar bir zolaqda işlənən

dialektə doğu, Saterlanddakı dialektə şərqi və Frizlandın qərbindəki dialektə isə batı friz və ən geniş ərazidə işlənənə isə orta friz dialekti deyirlər. Qədim friz dili qədim ingilis dilinə daha yaxın idi. Müasir friz dili isə orta friz dialekti əsasında formalaşıb.
F.Yadigar (Veysəlli). GDG. s. 126.

ФРИКАТИВНЫЙ - alm. Reibelaut (m), ing. fricative /'frɪkətɪv/, fr. fricatif,-ve, azərb. sürtünən. - Hava axınının ağız boşluğunda yaranmış novdan süzülərək dışarı çıxması nəticəsində yaranan küylü samitlər. Məs.: Azərb. d. /f/, /v/, /s/, /z/, /j/.
Bax: Акустическая фонетика ←.

ФУЗИОННЫЙ - alm. Fusion (f), ing. fusional /'fju:ʒənəl/, fr. fusionnel,-le, azərb. fuziya.
Bax: Фузия →.

ФУЗИЯ - alm. Verschmelzung (f), ing. fusion /'fju:ʒən/, fr. fusion, azərb. fuziya. – Əlavə olunan şəkilçinin təsirilə morfemin tərkibində baş verən fonetik dəyişiklik, birləşmə. Məs.: alm. d. /blau/ (mavi)→/bläulich/ (mavitəhər).
H. Bußmann. Göstərilən əsəri, s. 261.

ФУЛА – alm. Phula (n), ing. Fulah /'fu:lə/, Fhulah, fula, fr. le Poular, langue des Peuls ou Foulbé, azərb. fula dili. – Qərbi Atlantik dillərindən biridir. Əsasən Nigeriya, Seneqal, Qvineya, Mali, Kamerun, Burkina-Faso, Nigeriya və b. Qərbi Afrika dövlətlərinin ərazisində yayılmışdır. Bu dildə ümumilikdə 20 milyona yaxın əhali danışır. Əsas dialektləri aşağıdakılardır: futa-toro (Seneqal), futa-callon (Qvineya), mərkəzi masina (Mali) və volti, şərq adamaua (Kamerun). Fula dilinin qrammatik quruluşu sintetikdir (fuziyanı və aqlütinasiyanı özündə ehtiva edir).
А.И.Коваль, Г.В.Зубков. Язык фула. М., 1968.

ФУНКТИВ - alm. Funktiv (n), ing. functive /'fʌŋktɪv/, fr. fonctif,-ve, azərb. funktiv. – 1) Danimarka dilçiliyində (qlossematikada) dilin substansiyasına aid olan, bir-birilə əlaqəli elementlər, bunlara funktionlar da deyirlər; 2) Qlossematikanın tədqiqat obyekti funktivlər deyil, onlar arasındakı asılılıq əlaqəsindən ibarət olan sistemdir, bu da interdependensiya, determinasiya və konstellasiyadan ibarətdir.
F. Veysəlli. SDƏ, I. s. 234-238.

ФУНКЦИОНАЛЬНАЯ НАГРУЗКА - alm. funktionelle Belastung (f), ing. functional yield /'fʌŋkʃənəl ji:ld/, fr. chargement (rendement) fonctionnel, azərb. funksional yük. - 1) Müəyyən dil vasitəsinin söyləmin fərqləndirilməsində iştirakı. Məs.: Azərb. d. /Rəşid bu gün məktəbdən tez qayıtdı// və /Rəşad bu gün məktəbdən tez qayıtdı//; 2) Söz və morfemlərin fərqləndirilməsi üçün müəyyən fonoloji qarşılaşmanın istifadə dərəcəsi. Məs.: Azərb. d. /baş-qaş-yaş/, /bala-hala-nala-qala/ və s;

3)Müəyyən mətndə dil vahidinin (fonem, morfem və s.) işlənmə dərəcəsi. Məs.: alm. d. ən çox işlənmə tezliyinə malik [ə] saitidir.
F.Vejsalov. Einführung in die Phonologie. Baku, 2004.

ФУНКЦИОНАЛЬНЫЕ ПАДЕЖИ - alm. funktionelle Kasus (Pl.), ing. functional (relational) cases /ˈfʌŋkʃənəl/rɪˈleɪʃənl/keɪsɪs/, fr. cas fonctionnels, azərb. funksional hallar. - Müəyyən məkanla bağlı vəziyyət və hərəkətin semantikasını nisbətən açıq tərzdə göstərən kateqoriyal hal formaları. Məs.: Azərb. d. yiyəlik, yönlük və çıxışlıq halları belə xüsusiyyətlərə aiddir.
Y.Seyidov. Göstərilən əsəri.

ФУНКЦИОНАЛЬНЫЕ СЛОВА - alm. funktionelle Wörter (Pl.), ing. functional words /ˈfʌŋkʃənəl wɜ:dz/, fr. mots fonctionnels, azərb. funksional sözlər. - Modal və köməkçi sözlərin ümumi məcmusu. Onlar müstəqil semantik mənaya malik olmur, cümlə üzvü yerində işlənmir və dəyişməz qalırlar.
Y.Seyidov. Göstərilən əsəri.

ФУНКЦИОНАЛЬНЫЙ - alm. funktionell, ing. functional /ˈfʌŋkʃənəl/, fr. fonctionnel,-le, azərb. funksional.
Bax: Функциональная нагрузка ←.

ФУНКЦИЯ - alm. Funktion (f), ing. function /ˈfʌŋkʃən/, fr. fonction, azərb. funksiya. - 1) Danışıq aktında dil vahidlərinin (ünsürlərin) yerinə yetirdikləri vəzifə, onların rolu; 2) Konkret mətndə dil vahidinin işlədilməsinin məqsəd və xüsusiyyəti; 3) Dilin müxtəlif aspektlərinin və onların elementlərinin vəzifəsi, tətbiqi və işlədilməsi baxımından ümumi adı; 4) Coğrafiyadan riyaziyyata və məntiqə gətirilmiş əsas məfhum. Çoxluq nəzəriyyəsində A çoxluğunun x elementinə B çoxluğunun y elementi uyğun gəlir. y=f (x); (f: A → B və ya A → B) çoxluq nəzəriyyəsi baxımından AXB düzələn çoxluğun tərkib hissələridir. f (x) = f (y) bərabərliyi x=y bərabərliyini ehtiva edir; 5) Qlossematikada funksiya daha çox nisbət anlayışına uyğun gəlir. Orada bu anlayış məntiqi, riyazi və etimoloji anlamda işlənir, yəni funksiya həm müxtəlif vahidlərin asılılıqlarının fərqli formalarına (interdependesiya, determinasiya və konstellasiya), həm də bu vahidlərin müəyyən şəkildə fəaliyyət göstərməsinə, mətndə müəyyən rol oynamasına aiddir.
F. Veysəlli. SDƏ, I. s. 204-214.

ФУНКЦИЯ АССОЦИАТИВНАЯ - alm. assoziative Funktion (f), ing. associative function /əˈsəʊʃɪeɪtɪv ˈfʌŋkʃən/, fr. fonction associative, associative auxiliaire, azərb. assosiativ funksiya. - Kombinator variantın qonşuluqda işlənən fonemi göstərməkdən ibarət olan səciyyəvi funksiyası. Məs.: müasir rus dilində söz yumşaq samitlə başlayırsa, sonrakı sait /æ/ /ö/ və ya /ü/ olmalıdır. Müq. et: [dʹ/æ/dʹa], [tʹötʹa], [tül] və s.
A.A.Реформатский. Göstərilən əsəri, s. 211-220.

ФУНКЦИЯ ДИФФЕРЕНЦИАЛЬНАЯ - alm. distinktive (differenzielle, unterschiedende) Funktion (f), ing. distinctive, differential function /dɪs'tɪŋktɪv ˌdɪfə'renʃəl 'fʌŋkʃən/, fr. fonction différentielle (distinctive), azərb. differensial funksiya. – Dilin ən kiçik vahidi olan fonemin əsas funksiyası. Bir dil vahidinin eyni səviyyəli digər vahiddən fərqləndirilməsinə xidmət edən əlamət. Məs.: Azərb. d. /ot-od, yol-kol, il-el, daşqaş//; alm. d. /Karten-Garten/, (kart-bağ); rus d. /том/-/дом/; ing. d. /night/-/light/ (gecə –asan) və s.

ФУНКЦИЯ МОРФОЛОГИЧЕСКАЯ - alm. morphologische Funktion (f), ing. morphological function /ˌmɔ:fə'lɒdʒɪkəl 'fʌŋkʃən/, fr. function morphologique, azərb. morfoloji funksiya. – Hər hansı bir morfemin yerinə yetirdiyi konkret funksiya (məna). Məs.: ing. d. /-s/ 3-cü şəxsin təkini, indiki zamanı bildirir.

P.H. Matthews. Morphology. Cambridge, 1979.

ФУНКЦИЯ <ФОНЕМЫ> ДЕМАРКАЦИОННАЯ - alm. Grenzfunktion des Phonems (f), ing. phoneme demarcative function /'fəʊnim ˌdi:mɑ:'keɪtɪv 'fʌŋkʃən/, fr. fonction de démarcation du phonème, azərb. fonemin sərhədləyici funksiyası. – Dil vahidinin sərhədləmə funksiyası. Sabit vurğusu olan dillərdə (Məs.: Azərb. d.) vurğu sərhədləyici funksiya yerinə yetirir. Belə ki, o, həmişə sözün sonuncu hecası üzərinə düşməklə sözün sonunun sərhədini bildirir. Məs.: Azərb. d. /ata'm/ Bakıya ged'ir//.

ФУНКЦИЯ ДЕЙКТИЧЕСКАЯ - alm. deiktische Funktion (f), ing. deictic function /'daɪktɪk 'fʌŋkʃən/, fr. fonction déictique, azərb. işarətmə funksiyası. – 1) Ünsiyyətdə linqvistik və ya paralinqvistik vasitələrlə (jest, mimika, bədən üzvlərinin hərəkəti) nəyəsə işarətmə; 2) Ünsiyyət məqamından asılı olaraq şəxsə, yerə və zamana işarətmə. Bunlar da artikl, əvəzlik, terminantlar və mətndüzəldici rol oynayır. Məs.: alm. d. /Ich habe Hunger// cümləsində gerçəkliyin həqiqi inikası zəifdir, çünki kimin, harada, nə üçün deməsi ifadə olunmayıb, yəni praqmatik deyiliş məqamı açılmayıb.

H. Bußmann. Göstərilən əsəri, s. 163.

ФУНКЦИЯ ЗНАКОВАЯ - alm. Zeichenfunktion (f), ing. sign function /saɪn 'fʌŋkʃən/, fr. fonction de signe, azərb. işarə funksiyası. – Məlumatın ötürülməsinə xidmət edən dil işarəsinin əsas funksiyaları: a) əks etdirmək (məs.: ikonlar, modellər, piktoqramlar, dildəki metaforalar, bənzətmələr, onomatopoetik sözlər, bir sözlə, öz referentinə yaxınlığı ilə səciyyələnən işarələr); b) bildirmək və ya göstərmək (məs.: nişanlar, xüsusi adlar, yol hərəkətini nişanlayan işarələr); c) fərdi xarakter daşıyan və tam ixtiyari olan işarələr və rəmzi xarakter daşıyan (məs.: malların üzərindəki yazılar, riyazi və kimyəvi formullar, ideoqramlar, musiqi notları,

loqoqramlar), başqa cür desək, aid olduğu obyektlərə oxşarlığı olmayan işarələri əks etdirməkdən ibarətdir.

«Əsil işarələr bir növ əvəzedici rolunda çıxış edir, obyektin özü olmayıb onun yerində, əvəzində gəlir. Dildəki sözlər buna aydın misaldır. Göstəricilər, nişanlar isə obyekti qismən və ya bütövlükdə bildirmək, göstərmək və səciyyələndirmək funksiyası daşıyır».

F. Yadigar (Veysəlli). GDG, s. 38.

ФУНКЦИЯ КУЛЬМИНАТИВНАЯ - alm. Kulminationsfunktion (f), ing. culminative function /ˌkʌlmɪˈneɪtɪv ˈfʌŋkʃən/, fr. fonction culminative, azərb. zirvəbildirmə (zirvədüzəltmə) funksiyası. - Dildə vurğunun sözün əvvəlinə, ortasına və sonuna düşməsi zirvədüzəltmə funksiyasını yerinə yetirir. Məs.: çex dilində vurğu həmişə sözün birinci, polyak dilində isə sonuncu hecası üzərinə düşür.

F.Vejsalov (Veysəlli). Lehrbuch der deutchen Phonetik. Baku, 1989, s. 195.

ФУНКЦИЯ НОМИНАТИВНАЯ - alm. Nominativfunktion (f), ing. nominative function /ˈnɒmɪnətɪv ˈfʌŋkʃən/, fr. fonction nominatif,-ve, azərb. adlandırma funksiyası. - Söz və ya söz birləşməsinin adlandırma funksiyası. Məs.: Azərb. d. /Əli/, /çiçək/, /bahar/, /uşaq bağçası/ və s. Azərb. d. təkcə isimlərin bir neçə adlandırma funksiyası vardır: 1) şəxs adları; 2) insanlar arasındakı münasibətləri bildirən sözlər; 3) heyVanların adları; 4) bədən üzvlərinin adları; 5) cansız varlıqların adları; 6) mənəvi və abstrakt məfhumlar; 7) təbiət hadisələri; 8) ictimai hadisələr; 9) müxtəlif elm adları; 10) zaman anlayışları; 11) keyfiyyət və əlamət adları; 12) peşə, vəzifə, dərəcə və s. bildirən adlar; 13) hal-hərəkət adları; 14) yer, çay, dağ və s. adlar.

M.Hüseynzadə. Göstərilən əsəri, s.19-25.

ФУНКЦИЯ ПЕРЦЕПТИВНАЯ - alm. perzeptive Funktion (f), Erkennungsfunktion (f), ing. perceptive function /pəˈseptɪv ˈfʌŋkʃən/, fr. fonction perceptif,-ve, azərb. dərketmə (qavrama) funksiyası. – İnsan səsləri eşidərək dərk edir, buna perseptiv funksiya deyilir.

Danışanın göndərdiyi məlumatı dinləyənin qəbul etməsi ünsiyyətin əsas şərtlərindən biridir. Adi hallarda danışanın nitqi ya onun özünə (daxili nitq, monoloq), ya müsahibinə (dialoq), ya da bir neçə nəfərə (çıxış, məruzə və s.) yönəldilir. Bütün hallarda danışanla dinləyənin eyni dilin daşıyıcısı olması vacibdir. Digər tərəfdən, canlı danışıqda danışanla dinləyən mütəmadi olaraq funksiyalarını dəyişirlər. Göndərilən məlumatın dərk edilməsi və onun öz ilkin forması ilə eyniləşdirilməsi üçün mühüm olan elementlərin məcmusu ünsiyyətin perseptiv bazasını təşkil edir. Eşitmə və eyniləşdirmə bir dil kollektivi daxilində uşaqlıqdan tərbiyə olunur. Sonralar bu proses avtomatikləşir və insanın gündəlik həyatında normaya çevrilir.

Məlumatın maddi qabığını dil səsləri və ya fiziki terminlə desək, bir-birindən seçilən siqnallar təşkil edir. Siqnalların eşidilib dərk edilməsində eşitmə cihazı olan qulaq mühüm rol oynayır.

Səsin dərk edilməsi mürəkkəb bir prosesdir. Mühitdə dalğalar şəklində yayılan səslər dinləyənin xarici qulağına çatır. Qulaq seyvanı bu səsləri istiqamətləndirir. Səs keçidi bir rezonator kimi səsin təzyiqini qüvvətləndirir və səs zindanlarını hərəkətə gətirir, eşitmə sümükləri bu titrəyişi oval pəncərəyə ötürür. Membran və pəncərə ölçüsündəki fərq vasitəsilə 50-60 dəfə güclənmiş təzyiqə malik rəqs yaranır. Əks təqdirdə ilbizdəki mayenin sıxlığı böyük ampilituda ilə titrəməni istisna edir. Oval pəncərədən alınmış titrəyiş əsas membrana ötrülür. Membranla birlikdə hərəkətə gələn eşitmə sinirləri mərkəzi sinirə xəbər verir.

Alman alimi H.fon Helmholsa görə, əsas membranın hər bir lifi müəyyən yüksəkliyə malik tonda köklənir. Membran insan qulağı eşidə bilən (16-dan 22000 hs-ə qədər) tezliyi əks etdirən rezonatoru xatırladır.

İnsanda aşağı eşitmə sərhədi 16 hs-dir. Yuxarı eşitmə sərhədi yaşdan asılıdır. Yaşlı adamlarda bu 15000 hs-ə, uşaqlarda isə 22000 hs-ə bərabərdir. Danışıq səsləri bu diapozonda yerləşir.

- Səsin eşidilməsi üçün onun gücü olmalıdır. Dərk edilən səsin güc diapazonu 0,000000001 erq-sm^2-dən 10,0000 erq-sm^2 saniyəyə bərabərdir. Dərk edilən səsin eşidilmə sərhədi ən az gücü olan səsin tonundan asılıdır. Qulağımızın həssaslığı 1000 hs-dən 3000 hs-ə qədərdir.


Səsin eşidilməsi və dərk edilməsi üçün onun tezliyi və intensivliyi əsas rol oynayır. İntensivlik Q.Bellin şərəfinə desibellə ölçülür:

1:1 db. aşağı eşitmə sərhədi
10:1 10 m məsafədən pıçıltı, küləkdə yarpaqların xışıltısı
100:1 20-1 m məsafədən pıçıltı
1000:1 30 nəqliyyatı olmayan şəhərlərdəki səs
10000:1 40-10 m məsafədən gələn maşın səsi
100000:1 50-otaqda radionun səsi
1000000:1 60-1 m məsafədən müsahiblə söhbət
10000000:1 70-güclü küçə nəqliyatının səsi
100000000:1 80-çox güclü səs
1000000000:1 90-3 m məsafəyə qoyulmuş hava təmizləyicisinin səsi
10000000000:1 100-10 m məsafədən çəkic səsi
100000000000:1 110-1 m məsafədən təyyarə səsi
1000000000000:1 120-30 sm məsafədən çəkicin zindana dəyməsindən yaranan səs 130 eşitmənin son sərhədi (ağrı)

Ünsiyyətin perseptiv bazasının son zamanlarda tədqiqi geniş vüsət almışdır. Aparılan tədqiqatların məqsədi dərketmənin linqvistik əsasını işləyib hazırlamaqdır. Maraqlı məsələlərdən biri odur ki, necə ola bilir ki, dinləyən danışanın məlumatını məhz bu məlumatın eyni kimi dərk edir? Necə ola bilir ki, dinləyən səslər ümmanından məlumatın maddi qabığını tam əks etdirən səslər seçib öz beynində o məlumatın analoqunu bərpa

edir, eyni dil vahidinin müxtəlif realizə formalarını fərqləndirir? Bu və bu kimi suallar perseptiv dilçiliyin qayəsini təşkil edir. Son tədqiqatlar göstərir ki, eyniləşdirmə və fərqləndirmə zonalar vastəsilə baş verir. İnsanın eşitmə mərkəzində hər bir dil vahidinin özünəməxsus zonası var. Bir variantı təmsil edən səslər beyindəki zonada nöqtələr şəklində əks olunur.

Saitlərin formant zonasını müəyyənləşdirən eşitmə sahəsində sintetik saitlərin zonalarını aşağıdakı kimi göstərmək olar



Eşitmə zonaları öz xüsusiyyətlərinə görə 2 yerə bölünür: 1. Eynilik zonası; 2. Oxşarlıq zonası. Biz xarici dili öyrənəndə bu dilin ana dilinə uyğun gəlməyən səsləri ya eynilik zonasına düşür, yəni xarici dildə eşitdiyimiz səsləri ana dilimizin səsləri kimi eşidir və dərk edirik, ya da eşitdiyimiz səsin ana dilində ekvivalenti olmadığından həmin səs oxşarlıq zonasına düşür, yəni özünə oxşar səslə eşitmə zonasında üst-üstə düşür. Hər iki halda ciddi tələffüz səhvləri aşkara çıxır. Dil vahidlərinin dərk edilməsində iki fikir bir-birindən ayrılmalıdır. Birinci fikrə görə dərketmə fərqləndirici əlamətlərə əsaslanır. Lakin son dövrlərin tədqiqatları bu fikir ilə razılaşmır və göstərir ki, fərqləndirici əlamətlər dərketməni təmin etmir. Hətta FƏ məcmusu danışıq zəncirindən ayrılmış parçaların dərk edilməsi üçün kifayət deyil. Doğrudan da, fonem barəsində informasiya onun özündən çox qonşu fonemlərdə cəmlənmiş olur. Elə buna görə də tədqiqatçılar belə fikrə gəlirlər ki, ilkin minimal dərketmə vahidi hecadır. F. Yadigar (Veysəlli). Fonetika və fonoloiya məsələləri. Bakı, 1993, s. 153-157.

ФУНКЦИЯ РАЗГРАНИЧИТЕЛЬНАЯ – alm. abgrenzende Funktion (f), demarkative Funktion (f), ing. delimitative function /dɪ'lɪmɪtətɪv 'fʌŋkʃən/, fr. fonction démarcative, azərb. sərhədləyici funksiya. - Ardıcıl vahidlər arasında sərhədləri göstərmə funksiyası. Məs.: alm. d. knak-

laut söz və ya morfemlərin başlanğıcını bildirir. Müq. et: alm. d. /verreisen/ (çıxıb getmək), /vereisen/ (buza dönmək) və s.

ФУНКЦИЯ СИГНИФИКАТИВНАЯ - alm. signifikative Funktion (f), ing. significative function /sɪg'nɪfɪkətɪv 'fʌŋkʃən/, fr. fonction significative, azərb. fərqləndirmə funksiyası. – Məs.: Azərb. d. /daʃ/ # /jaʃ/; rus d. /m̲at/ # /m̲'at/ # /mat̲/ # /mat'/.

A.A.Реформатский. Göstərilən əsəri, s. 158, 182.

ФУНКЦИЯ СИНТАКСИЧЕСКАЯ - alm. syntaktische Funktion (f), ing. syntactic function /sɪn'tæktɪk 'fʌŋkʃən/, fr. fonction syntaxique, azərb. sintaktik funksiya. – Söz və söz birləşməsinin cümlədə işlədilməsi.

A.A.Реформатский. Göstərilən əsəri, s. 182.

ФУНКЦИЯ ЯЗЫКА - alm. Sprachfunktion (f), ing. functions of language /'fʌŋkʃəns əv 'læŋgwɪʤ/, fr. fonction de langue, azərb. dil funksiyası. – Avstriya psixoloqu və dilçisi K. Bülerə (1879-1963) görə, dil işarələri üç yerə bölünür: a) müraciət (məs.: alm. d. Appellfunktion /Sən, sabah Berlində olmalısan//); b) eksplikativ, nə isə nəql etmək, xəbər vermək və s. (alm. d. /Darstellungsfunktion/; Məs.: Azərb. d. /Bir neçə gün öncə Berlindən dəvət almışam//; c) ekspressiv, məlumatın hiss, həyacanla verilməsi (alm. d. Ausdrucksfunktion). Məs.: /Sənə güvəndiyim dağlar, sənə də qar yağarmış//.

Sonralar R.Yakobson bunları aşağıdakı kimi şərh edir:

1. Danışana məxsus funksiya, ekspressiv və ya emotiv funksiyadır. Başqa sözlə, danışan söhbətin mövzusu və dinləyən barədə öz mövqeyini, hissini, həyacanını, təəccübünü, ironiyasını və s. dilə gətirir. Burada intonasiya və ekstralinqvistik vasitələr işə düşür. Məs.: ?anaaaar, sən hələ də yazırsan!?

2. Dinləyiciyə yönəlmiş müraciət funksiyası. Bunu biz əmr, göstəriş və siyasi təbliğatda aydın hiss edirik. Məs.: /joldaʃlar/, /ötənilki uğurlarımız sevindiricidir//; /jo̲l'daʃlar!/ biz hələ çox iş görməliyik// və /joldaʃ'lar, qardaʃ'lar, bac'ılar, /sizi and verirəm/ və s.

3. Əşya, hadisə və gerçəkliyə yönəlikli kommunikativ və ya referentiv funksiya, onların şərhi və izahı ilə bağlı məlumat. Məs.: /Kəndimizdə bir klub var/qapısı həmişə bağlı olur//.

4. Fatik funksiya. Dil və paralinqvistik vasitələrlə ünsiyyət şirniklərdirir. Burada mimika, jestlə yanaşı, /hə/, /bəli/ və digər qüvvətləndirici ədatlarla, habelə intonasiya ilə ünsiyyət qızışdırılır. Məs.: /hə, nə oldu, bəs deyirdin sevir!? Hanı bəs o sevgi// və s.

5. Poetik və ya estetik funksiya. Danışıqda və ya poeziyada xüsusi ifadələr seçilir. Məs.: /gözümün ikisi birdən aydın//.

6. Metadil funksiyası, yəni dildəki müəyyən ifadə, formul və simvollarla dilin özü haqqında fikir yürüdülür. Məs.: /¿bu nə sualdır belə, verirsən?/, /¿bu nə deməkdir axı?/ və s.
F.Veysəlli. SDƏ, II. s. 167, 175, 212-213.

ФУНКЦИЯ ОБЩЕНИЯ - alm. Kommunikationsfunktion (f), ing. commutication function /kəˌmju:nɪˈkeɪʃən ˈfʌŋkʃən/, fr. fonction de relations, azərb. ünsüyyət funksiyası. - Dilin əsas funksiyalarından biri. Dil kollektivinin qarşılıqlı fikir mübadiləsini həyata keçirmək funksiyası.
Bax: Функция языка ←.

ФУНКЦИЯ СООБЩЕНИЯ - alm. Kundgebungsfunktion (f), ing. information function /ˌɪnfəˈmeɪʃən ˈfʌŋkʃən/, fr. fonction de communication, azərb. məlumtlandırma funksiyası. - Ünsiyyətin tərkib hissəsi kimi məlumatın ötürülməsi funksiyası.
Bax: Функция языка ←.

ФУНКЦИЯ ВОЛЮНТАТИВНАЯ - alm. Willensfunktion (f), ing. function of desire /ˈfʌŋkʃən əv dɪˈzaɪə/, fr. fonction volontatif,-ve, azərb. iradənin ifadəsi funksiyası. - Danışanın iradəsinin ifadəsi. Məs.: Azərb. d. /Mən sən deyənlərdən deyiləm// və ya /Heç bir təzyiq məni yolumdan döndərə bilməz// və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 567.

ФУНКЦИЯ ЭМОТИВНАЯ - alm. emotionelle (emotive) Funktion (f), Ausdrucksfunktion (f), ing. emotive function /ɪˈməʊtɪv ˈfʌŋkʃən/, fr. fonction émotive, azərb. emotiv funksiya. - Danışanın öz hiss və həyacanlarını ifadə etmə funksiyası.
Bax: Функция языка ←.

ФУНКЦИЯ <ЯЗЫКА> АПЕЛЛЯТИВНАЯ - alm. Appellfunktion (f), appellative Sprachfunktion (f), ing. appellative function /əˈpelətɪv ˈfʌŋkʃən/, fr. fonction appellative, azərb. müraciət funksiyası. - Dilin əsas funksiyalarından biri, dinləyiciyə yönəlmiş funksiya.
Bax: Функция языка ←.

ФУНКЦИЯ ЯЗЫКА ИНТЕЛЛЕКТУАЛЬНО-КОММУНИКАТИВНАЯ - alm. intellektuell-kommunikative Sprachfunktion (f), Darstellungsfunktion (f), ing. intellectual-communicative function /ˌɪntɪˈlektjʊəl/ ɪntɪˈlɛktʃʊəl kəˈmju:nɪkətɪv ˈfʌŋkʃən/, fr. fonction intellectuelle-communicatif,-ve, de la langue, azərb. dilin intellektual-ünsiyyət funksiyası. - Dilin əsas funksiyası, məlumatın mübadilə funksiyası.
Bax: Функция языка ←.

ФУНКЦИИ СЛОВА - alm. Funktionen des Wortes (Pl), ing. functions of the words /ˈfʌŋkʃəns əv ðɪ: wɜ:dz/, fr. fonctions du mot, azərb. sözün

funksiyaları. - Danışıq prosesində leksik vahidlərin işlədilməsinin məqsəd və vəzifələri. Leksik vahidlərin aktuallaşmasının, danışıq prosesində işlədilməsinin məqsəd və vəzifələri. Sözün başlıca funksiyaları bunlardır: sözün deyktik funksiyası (sözün işarətmə, göstərmə funksiyası); sözün estetik funksiyası (sözün bədii ifadə vasitəsi olması funksiyası); sözün kommunikativ funksiyası (sözün bir müstəqil ünsiyyət vasitəsi, habelə informasiya vasitəsi olması); sözün kumulyativ funksiyası (sözün obyektiv aləm haqqında insan biliyini özündə cəmləşdirməsi, mühafizə edib saxlaması funksiyası). Nəsillərin əldə etdiyi bütün biliklər söz vasitəsilə yaddaşlara həkk olunur.

ФУНКЦИЯ <ЯЗЫКА> КОНТАКТОУСТАНАВЛИВАЮЩАЯ - alm. phatische Funktion (f), ing. phatic function /'fatık 'fʌŋkʃən/, fr. fonction langue établissant des contacts, azərb. dilin əlaqələndirmə funksiyası. - Dilin kommunikativ funksiyasından fərqli olaraq yalnız müəyyən şəraitdə təzahür edir, danışan dinləyiciyə müəyyən məlumatı həmin andaca çatdırmağa çalışır, dinləyəni informasiyanı qəbul etməyə hazırlayır, onun diqqətini özünə cəlb edir. Dildəki xitablar buna bariz nümunədir. Məs.: Azərb. d. /Əzizim, siz hələ çox çalışmalısınız//.

О.С.Ахманова. Göstərilən əsəri, s. 567.

– X –

ХАЗАРСКИЙ ЯЗЫК – alm. Chasarisch (n), ing. Khazar(s), Chazar(s) language /kə'za: /tʃəza: 'læŋgwɪʤ/, fr. langue khazar, azərb. xəzər dili. – Hunların cənub çöllərinə yürüşü zamanı köçəri və yarımköçəri tayfaların ittifaqı əsasında yaranmış və Xəzər dövlətində (II-VII əsrlər) yayılmış dil (hal-hazırda ölü dil hesab olunur). Əldə olan tarixi mənbələr xəzər dilinin türk dillərinə mənsub olduğunu deməyə imkan verir.

М.И.Артаманов. История хазар. Л., 1962.

ХАКАССКИЙ ЯЗЫК – alm. Chakassisch (n), ing. Khakas(s) language /'ka:kæs 'læŋgwɪʤ/, fr. langue khakas, azərb. xakas dili. – Türk dillərindən biridir. Əsasən Xakasiyada və ona qonşu olan Krasnoyarsk və Tuva vilayətlərində yayılmışdır. Xakas dilində 60 min nəfər əhali danışır. Saqay və beltir əsas dialektləri hesab olunur. Müasir xakas dili saqay və kaçin dialektləri əsasında formalaşmışdır.

В.Г.Карпов. Хакасский язык. «Языки народов СССР», т. 2, М., 1966.

ХАЛАДЖСКИЙ ЯЗЫК – alm., Chaladsh-Sprache (f) ing. Khalaj language /'kæləʤ 'læŋgwɪʤ/, fr. langue khaladje, azərb. xalac dili. – Türk dillərindən birdir. Əsasən Tehranın cənub-qərbində yayılmışdır. 40 min nəfər əhali xalac dilində danışır. Xalac dili yazısız dildir və məişət səviyyəsində istifadə olunur.

V.Minorskiy. The turkish dialect of the Khalaj. BSOS, 1940.

ХАМИТО-СЕМИТСКИЕ ЯЗЫКИ - alm. Hamito-semitische Sprachen (Pl.), ing. Hamito-Semitic languages /ˌhə'mɪto-sɪ'mɪtɪk/ ˌhamɪtəʊ sə'mɪtɪk 'læŋgwɪʤɪz/, fr. langues hammes-sémitiques, azərb. hamit-semit dilləri.

Bax: Афразийские языки ←.

ХАМИТСКИЕ ЯЗЫКИ - alm. hamitische Sprachen (Pl.), ing. Hamitic languages /hə'mɪtɪk 'læŋgwɪʤɪz/, fr. langues hammets, azərb. xamit dilləri. - Afrikada yayılmış dillər qrupu. Məs.: bərbər qrupu (Liviya numi dili, tuare qrupu və b.), kuşit qrupu (Somali dili və b.), Misir qrupu (əski misir və kopıt dilləri).

И.М.Дьяконов. Семито-хамитские языки. М., 1965.


ХАНТЫЙСКИЙ ЯЗЫК – alm. Chantisch (n), ing. Khanty language /'kantɪ 'læŋgwɪʤ/, fr. langue khanty, azərb. xantı dili. - Fin-uqor dillərinə aid dildir. Əsasən Xanta-mansı vilayətində, Tümen vilayətinin Yamal-nenes rayonunda və Tomsk vilayətinin Aleksandrovsk və Qarqasok rayonlarında yayılmışdır. Ədəbi dili kazım və şurışkar dialektləri əsasında formalaşmışdır.

Н.И.Тенешкин. Очерки диалектов хантыйского языка. М., Л., 1961.

ХАРАКТЕР <ГЛАСНЫХ> - alm. Charakter des Vokals (m), ing. character vowel, vocali /'kærıktə, 'karəktə 'vaʊəl, vəʊ'kælık/, fr. caractère des «voyelles», azərb. saitin xarakteri. - Bəzən saitlərin tələffüzü zamanı onların daxilində baş verən keyfiyyət dəyişmələri. Məs.: Azərb. d. «dovşan» sözü /dovʃan/, «dovğa» sözü /dovğa/ və s. kimi tələffüz olunur, bununla da birinci hecadakı /a/ saiti diftonqa bənzər keyfiyyət kəsb edir.
F. Veysəlli. SDƏ, s. 129-141.

ХАРАКТЕРИСТИКА - alm. Merkmal (n), ing. characteristic /ˌkærıktə'rıstık/, fr. caractéristique, azərb. səciyyə, məziyyət. - Müəyyən kateqoriyal əlamətin əyani və konkret ifadəsi. Məs.: rus d. yumşaq samitlərin hamısı dil kürəyinin orta hissəsinin sərt damağa doğru qalxması ilə düzəlir. Bütün dillərdə dodaq saitləri və samitləri dodaqların fəal iştirakı ilə tələffüz olunur.
F.Veysəlli. SDƏ.

ХАРАКТЕРИСТИКА ГЛАСНОГО <АКУСТИЧЕСКАЯ> - alm. akustische Eigenschaft des Vokals (f), ing. acoustic(al) characteristic of vowel /ə'ku:stık(əl) ˌkærıktə'rıstık əv 'vaʊəl/, fr. caractéristique «acoustique» de la voyelle, azərb. saitin akustik səciyyəsi. – Danışıq səslərinin, o cümlədən, saitlərin spesifik fiziki xassələri vardır. Akustik baxımdan saitləri səs tellərinin periodik titrəməsinin nəticəsi olaraq tonlu və saf sədalı səslər kimi səciyyələndirmək olar. Müasir akustik tədqiqatlara görə, saitlərdə formant strukturu çox aydın olur, onlarda küy olmur. Bu xassəsinə görə, saitlər bir tərəfdən sonantlardan (tonla küyün qarşığı), digər tərəfdən isə cingiltililərdən (tonun küyə üstün gəlməsilə səciyyələnən) və küylü samitlərdən fərqlənirlər.



Alman dilində /i., ɪ, y:, ʏ/ saitlərinin rentgenoqramları və palatoqramları

Alman dilində /e., ɛ, ø , œ/ saitlərinin rentgenoqramları və dodaq mənzərələrinin şəkilləri

Alman dilində arxa sıra samitlərinin /k, g, x, ŋ/ və /R/ samitinin rentgenoqramları və palatoqramları

F.Vejsälli. Einführung in die Phonologie. Baku, 2004, s. 32.

ХАРАКТЕРИСТИКА ПЕРСОНАЖЕЙ РЕЧЕВАЯ - alm. Sprecheigenschaft des Sprechenden (f), der Person (f), ing. a speech characteristic of characters /spi:tʃ ˌkærıktə'rıstık əv 'kærıktəs/, fr. caractéristique langagière des personnages, azərb. obrazların nitqinin səciyyəsi (xarakteristikası). - Bədii əsərlərdə iştirak edən şəxsləri (personajları, surətləri) səciyyələndirməkdən ötrü dil vasitələrindən (tələffüz, vurğu, intonasiya, söz seçimi və s.) istifadə edilməsi. Məs.: bədii əsərdə obrazın dilində ləhcə, şivə, yad dillərə məxsus söz və ya ifadələr işlənə bilər. Məs.:

Azərbaycanın cənub bölgəsində ¿/gəldıı:n/ʖ, şimal bölgəsində /¿gəldi:nʖ/, şirvan bölgəsində ¿gəldü:nʖ, qərb bölgəsində ¿gəldınmiʖ və s. işlənir.
F. Yadigar (Veysəlli). Dilimiz, qeyrətimiz, qayğılarımız. Bakı, 1993.

ХАРАКТЕРОЛОГИЯ ЛИНГВИСТИЧЕСКАЯ - alm. linguistische Charakterologie (f), ing. linguistic characterology /lıŋ'gwıstık kærəktə'rɒlədʒı/, fr. caractérologie linguistique, azərb. linqvistik səciyyələndirmə. – Ümumi dilçilik əsasında müəyyən dilin əsas xüsusiyyətlərinin bir zaman kəsiyində (sinxron planda) araşdırılması və müəyyənləşdirilməsi. Məs.: Çağdaş Azərbaycan dilinin fonetik, morfoloji, leksik və sintaktik xüsusiyyətlərinin sistemləşdirilməsi buna bariz nümunədir.
A.Axundov. Azərbaycan dilinin fonemlər sistemi. Bakı, 1973; Y.Seyidov. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 1996; M.Hüseynzadə. Müasir Azərbaycan dili. Bakı, 1973.

ХАРАРИ – alm. Harari (n), ing. Harare /hə'ra:ri, reı/hɑ:rɑ:ri, hə-eı/, fr. langue harari, azərb. xarari. – Semit dillərindən biridir. Həbəşistan ərazisində yayılmışdır. 40 min nəfər daşıyıcısı vardır.
E.Cerulli. Studi etiopici. La lingua e la storia dissertasiya Harar, Roma, 1936.

ХАУСА – alm. Hausa (n), ing. Hausa /'hausə, zə-s-z/, fr. khausa, azərb. xausa. – Çad dillərindən biridir. Nigeriyanın şimalında və Kamerun, Qana, Benin, Toqo və b. dövlətlərin Nigeriya ilə həmsərhəd ərazilərində yayılmışdır. Xausa dilində danışanların təqribi sayı 40 milyona yaxındır. Ərəb (XİX əsr ingilislərin işğalına qədər) və ingilis dilindən keçmə sözlər üstünlük təşkil edir. XVIII əsrə qədər ərəb, XIX əsrdən isə latın qrafikasından istifadə edilir.
Н.В.Юшманов. Строй языка хауса. М., 1937.

ХАУСА-КОТОКО ЯЗЫКИ – alm. Hausa-Kotoko Sprachen (Pl.), ing. Hausa-Cotoco languages /'hauˌsə:zə-s-z kɔ:təkɔ 'læŋgwıʤız/, fr. langues khausas-kotokos, azərb. xausa-kotoko dilləri.
Bax: Чадские языки →.

ХВАРШИНСКИЙ ЯЗЫК – alm. Chwarsch(š)isch (n), ing. Khwarshin languages /kwærʃın 'læŋgwıʤ/, fr. langue khvarchine, azərb. xvarşin

dili. – Tsez dillərindən biridir. Dağıstanın Sumadin rayonunda yayılmışdır. 1000 nəfərə qədər daşıyıcısı məlumdur. Yazısız dildir.
Е.А.Бокарев. Göstərilən əsəri.

ХЕТТО-ЛУВИЙСКИЕ ЯЗЫКИ (АНАТОЛИЙСКИЕ) – alm. Hethitisch-Luwische Sprachen (Pl.), ing. Hetto-Luvian languages /hetɔ ˈluvɪən ˈlæŋgwɪʤɪz/, Also Luwian /ˈluːɪən/, fr. langues hitto-louvainnes (anatoliennes), azərb. hett-luvi dilləri. – Hind-Avropa dillərinə aid olan ölü dillər qrupu. Hett-luvi dilləri b. e. q. II-I minilliklərdə müasir Türkiyə və Suriyanın şimal ərazilərində yayıldığı göstərilir. Bu dil qrupu əsasən iki qrupa bölünür: hett-lidi və luvi-liki.
В.В. Иванов. Хеттский язык. М., 1963.

ХЕТТСКИЙ ЯЗЫК – alm. Hethitisch (n), ing. Hittite language /hɪtɪːtɪ ˈlæŋgwɪʤ/, fr. langue hitite, azərb. hett dili. – Hett-luvi dilləri qrupuna aid olan ölü dil. Əsasən qədim Anadoluda yayılmış dillərdən hesab olunur. Hett dilində mixi yazıdan istifadə olunmuşdur.
В.В. Иванов. Хеттский язык. М., 1963.

ХИАЗМ - alm. Chiasmus (m), ing. chiasmus /kaɪˈæzməs/, fr. chiasme, azərb. xiazm. – Nitq fiquru, bu zaman tabeli budaq cümlədə və ya cümlədə əks qaydada elementlərin düzümü. Məs.: fr. d. /une robe blanche et deux blanches mains// (bir ağ paltar və iki ağ əl); ing. d. /If I see her I am a fool// (Mən qızı görsəm dəli olaram) (şərt budaq cümləsi+baş cümlə)→/I am a worse fool if I don't// (baş cümlə+şərt budaq cümləsi), (Mən olmadığım qədər pis dəli oluram). /Gəncədə böyük barlar və kiçik muzeylər, Bakıda isə böyük muzeylər və kiçik barlar var//.
P.H.Matthews, Göstərilən əsəri, s. 52; R.Conrad. Göstərilən əsəri, s. 57.
Bax: Антитеза ←.

ХИАТУС - alm. Hiatus (n), ing. hiatus /haɪˈeɪtəs/, fr. hiatuse, azərb. hiatus. - Bir-birinin ardınca gələn iki və daha çox müxtəlif hecalarda saitlərin tələffüzü zamanı ağzın açıq qalması. Azərbaycan şərində buna dodaqdəyməz deyirlər. Müq. et: Azərb. d. /səadət/, /sənətkar/; alm. d. /Joh/, /drei Eier/ və s.
R.Conrad. Göstərilən əsəri, s. 106.

ХИНАЛУГСКИЙ ЯЗЫК – alm. Hinalugisch (n), ing. Khinalig language /kınalıg ˈlæŋgwɪʤ/, fr. langues khynalyq, azərb. xınalıq dili. – Ləzgi dillərindən biridir. Azərbaycan Respublikasının Quba rayonun Xınalıq kəndində yayılmış xınalıq dilində 3 minə yaxın əhali danışır. Yazısız dildir.
Ю.Д.Дешериев. Грамматика хыналугского языка. «Языки народов СССР». т. 4, М., 1967.

ХИНДИ - alm. Hindi (n), ing. Hindi /ˈhındiː/, fr. hindi, hindoustani, azərb. hindu dili. – Hind dillərindən biri. Hindistan və Pakistanda yayılmış üç ən çox yayılmış (hindu, urdu və benqal) dillərdən biridir. Hindu

dilində 135.933 min əhali danışır. Hindu dili əsasən Hindistanın Uttar-Pradeş, Madhiyyə-Pradeş, Haryana, Bihar, Racastan və digər ştatlarında yayılmışdır. İki dialektə bölünür: qərb (khari boli, xariani, brac, kanauci və s.), şərq (avadhi, baqheli, bundeli və s.). Müasir ədəbi hindu dili khari boli dialektinə əsaslanır. Hindu dilində yazıda devənəgəri yazısından istifadə olunur.

T.E.Катенина. Язык хинди. M., 1960.

ХОКАЛЬТЕКСКИЕ ЯЗЫКИ - alm. Chokaltisch (n), ing. Coahuiltec(an) languages /kouhju:l'tekən 'læŋgwıʤız/, fr. langues honalteks, azərb. xokaltek dilləri. – Xokaltek dilləri E.Sepirin təsnifatına görə kado, irokez, sui və half dilləri ilə birlikdə xoka-siu dilləri ailəsinə daxildir. Xokaltek dilləri coğrafi baxımdan Kaliforniya, qismən Ariizona və Meksikanın həmsərhəd ərazilərində yayılmışdır. Xokaltek dillərinin böyük əksəriyyəti yer üzündən silinmişdir. Tlapanek (40 min) və tekistlatek (10 min) xokaltek dillərinə daxil olan ən böyük dillərindəndir.

A.C.Wares. A comporative study of Yuman consonantizm. The-Hague – Paris, 1968.

ХОРЕЗИМСКИЙ ЯЗЫК - alm. Choresmisch (n), ing. Khwarezmian language / kaurezmiən 'læŋgwıʤ/, fr. langue khwarizmi, azərb. xorəzim dili. – Ölü İran dillərindən biridir. Amu Dərya düzənliyində mövcud olmuş Xorəzm dövlətinin (eramızdan əvvəl I əsrdən eramızın VIII əsrinə qədər) rəsmi dili olmuşdur.

Д.Д.Фрейман. Хорезмийский язык. M.,-Л., 1951

ХРОМАТИЧЕСКОЕ УДАРЕНИЕ - alm. chromatischer Akzent (m), ing. chromatic accent /krə'mætık 'æksənt/, fr. accent chromatique, azərb. xromatik vurğu.

Bax: Музыкальное ударение ←.

ХРОНА - alm. Chronos (m), ing. chrono /'krɒnəu/'krɒnı/, fr. chrone, azərb. xron, uzunluq ölçüsü. – İngilis alimi D.Counzun işlətdiyi bu termin fonoloji vahidi bildirmək üçündür. Uzun və qısa xronomlar ingilis dili saitlərinin fərqləndirici əlaməti hesab edilir. Eynilə xron uzunluğun fonetik fərqini bildirir.

D.Jones. The Phoneme, İts Nature and Use. Cambridge, 1949, s. 124-134.

ХРОНЕМА - alm. Chronem (n), ing. chronema /'krɒnımə/, fr. chronème, azərb. xronem. - Dilin ifadə planının semioloji cəhətdən relevant ünsürü kimi səsin uzunluq vahidi.

Bax: Хрона ←.

ХРОНОЛОГИЯ ОТНОСИТЕЛЬНАЯ - alm. relative Chronologie (f), ing. relative chronology /'relətıv krə'nɒləʤı/, fr. chronologie relatif,-ve, azərb. nisbi xronologiya. – Tarixi-müqayisəli dilçilikdə hər hansı bir dil hadisəsinin qədimliyinin başqa dillərlə müqayisədə müəyyən edilməsi.

O.C.Ахманова. Göstərilən əsəri, s. 30.

ХРОНОРАЗЛИЧАЮЩИЙ ЯЗЫК - alm. chronounterscheidende Sprache (f), ing. chrone difference language /ˈkrɒnəʊ ˈdɪfərəns ˈlæŋgwɪʤ/, fr. langue chrono distingtive, azərb. uzunluq fərqləndirici dil. – Səsin uzunluq keyfiyyətindən fonoloji vasitə kimi istifadə edən dil. **Məs.**: alman və ingilis dili və s.

D.Jones. The Phoneme, İts Nature and Use. Cambridge, 1949, s. 124-134.

– Ц –

ЦАХУРСКИЙ ЯЗЫК – alm. Cachurisch (n) , ing. tsakhur language /ˈtsɑkur-x ˈlæŋgwɪʤ/, fr. tsakhur, azərb. saxur dili. – Dağıstan dillərinin avar-andi dilləri yarımqrupuna daxil olan dildir. Saxur dili əsasən Azərbaycanın Qax və Zaqatala rayonlarında yayılmışdır. Ümumilikdə saxur dilində 15 minə yaxın əhali danışır. Fonem inventarı zəngin saitlər (15) və nisbətən zəif inkişaf etmiş samitlər yarımsistemindən ibarətdir. Üç dialektə bölünür: saxur, qelmes və sapunçin. İsmin kəmiyyət və hal kateqoriyası (18 hal) mövcuddur. Saxur dilində fel kəmiyyətə görə dəyişir, 7 şəkli və mürəkkəb zaman forması vardır. Yazısız dildir.

Г.К.Ибрагимов. Фонетика цахурского языка. Махачкала, 1968.

ЦЕЗСКИЕ ЯЗЫКИ – alm. Cezische Sprachen (Pl.), ing. tsez languages /ˈtsɛz ˈlæŋgwɪʤɪz/. fr. langues tsez, azərb. tsez dilləri. – Dağıstan dillərinin avar-andi-tsez dilləri yarımqrupuna daxil olan dillərdən biridir. Tsez dilində danışan əhali əsasən Dağıstanın cənub-qərdində və Sulak çayının sahillərində yayılmışdır. 10 mindən yuxarı daşıyıcısı vardır. Tsez, bejtin, hunzib, xvarşin və qinux dilləri tsez dilləri yarımqrupuna aiddirlər. Yazısız dillərdir.

Е.А.Бокарев. Цезские (дидойские) языки Дагестана. М., 1959.

ЦЕЗСКИЙ ЯЗЫК – alm. Cezisch (n), ing. tzes language /ˈtzɛs ˈlæŋgwɪʤ/. fr. le tsez, azərb. tsez dili. – Tsez dillərindən biridir. Dağıstanın Suntin və Sumadin rayonlarında yayılmışdır. 7 minə yaxın əhali bu dildə danışır. Tsez dili genetik mənsubiyyətinə görə qinux dilinə çox yaxındır və bu dillə birlikdə tsez dilləri yarımqrupunda ayrıca bir qol əmələ gətirir.

Е.А.Бокарев. Göstərilən əsəri.

ЦЕКАНЬЕ - alm. tseartige Aussprache (f), ing. tsekanje /ˈtsɛkənʒɪ/, fr. tsécanjé, azərb. ts-e-yə bənzər tələffyz - Əsasən belarus və bəzi rus dialektlərində tələffüz zamanı yumşaq /t/ əvəzinə yumşaq /ʦ/ affrikatının işlədilməsi. Müq. et: belarus dilində /aɥˈeɥ/, /ɥˈomka/ və s.

О.С.Ахманова. Göstərilən əsəri, s. 509.

ЦЕЛЕВОЕ ПРЕДЛОЖЕНИЕ - alm. Zwecksatz (m), ing. purpose of sentənce /pɜ:pəs əv sentəns/, fr. phrase de destinative, azərb. məqsəd cümləsi. - Baş cümlədə ifadə olunan hal və hərəkətin məqsədini bildirən və baş cümlədə ifadə olunan fikrin nə məqsədlə? nə üçün? nədən ötrü? niyə? sualına cavab verən budaq cümlə. Azərbaycan dilində budaq cümlənin korrelyatı kimi baş cümlədə /ona görə/, /ondan ötrü/, /onun üçün/,

/o məqsədlə/, /o səbəbə/ vahidlərindən biri işlədilir. Müq. et: Azərb. d. /Onun üçün ağlayıram ki, inandığım dost da məni darda qoyub qaçdı//. Budaq cümlə baş cümləyə /ona görə ki/, /ondan ötrü ki/ və s. bağlayıcı birləşmələrilə bağlanır. Alman dilində bu əsasən /damit/ və /das/ bağlayıcıları ilə həyata keçir. Müq. et: /Er setzt alles ein, damit der Plan in Erfüllung geht//; (O hər şeyi edir ki, plan həyata keçsin); rus d. /Дверь на балкон была закрыта, чтобы из улицы не несло шумом//.

R.Conrad, Göstərilən əsəri, s. 82; O.C.Ахманова. Göstərilən əsəri, s. 354; M.İ.Adilov və b. Göstərilən əsəri, s. 36.

ЦЕЛЕВОЙ ПАДЕЖ - alm. Zielkasus (m), ing. case of purpose /keıs əv 'pɜ:pəs/, fr. cas destinatif, azərb. məqsəd halı. - Bask dilində müəyyən obyektə yönəldilmiş hərəkətin mənasını bildirən kateqoriyal hal forması. O.C.Ахманова. Göstərilən əsəri, s. 129.

ЦЕЛЕВЫЕ СОЮЗЫ - alm. Zielkonjunktionen (pl), ing. purpose conjunctions /'pɜ:pəs kən'dʒʌŋkʃəns/, fr. conjonction destinatif, azərb. məqsəd bağlayıcıları. – Söz, cümlə və digər sintaktik bütövləri tabelilik əlaqəsi üzrə birləşdirən bağlayıcılar. Məs.: Azərb. d. nə məqsədlə? nə üçün? nədən ötrü? niyə? /ona görə ki/, /ondan ötrü ki/ və s.

Bax: Целовое предложение ←.

ЦЕЛИ ДАТЕЛЬНЫЙ - alm. Dativ des Zwecks (m), ing. dative purpose /'deıtıv 'pɜ:pəs/, fr. objet datif, azərb. məqsəd yönlük halı. - İşin müəyyən şəxs və ya predmet naminə icra edildiyini əks etdirmək üçün yönlük haldan istifadə edilməsi. Məs.: Azərb. d. /O, evi valideyinlərinə tikdirmişdi//; rus d. /Он построил дачу своим старикам/.

O.C.Ахманова. Göstərilən əsəri, s. 509.

ЦЕЛОЕ РЕЧЕВОЕ - alm. Sprechganz (n), ing. structured segment of speech /'strʌktʃəd 'segmənt əv spi:tʃ/, fr. discours composé, azərb. nitq bütövü. - Daxili bütövlüyə malik olan, struktur-semantik bütövlüyü ilə təmsil olunan danışıq parçası.

Bax: речевой ←.

ЦЕЛОЕ СЛОЖНОЕ - alm. zusammengesetzter Satz (m), ing. compound sentence /'kɒmpaʊnd 'sentəns/, fr. proposition composée, azərb. mürəkkəb bütöv. - Formaca iki və daha artıq cümlənin birləşməsindən ibarət olan, mənasına, quruluşuna və intonasiyasına görə bir vəhdət təşkil edən. Əsas əlamətləri aşağıdakılardır: intonasiya, bağlayıcılar və bağlayıcı sözlər, leksik tərkib, komponentlərin sintaktik quruluşu və sırası. Məs.: forma ilə məzmunun qarşılıqlı vəhdəti dili «erqon» kimi öyrənən qrammatikanın obyektini təşkil edirsə, funksiya ilə fəaliyyət baxım bucağı isə dili «energiya» kimi götürür.

Bax: Сложное предложение ←.

ЦЕЛОГО РОДИТЕЛЬНЫЙ - alm. Genitiv des Ganzen (m), ing. part-whole genitive /pɑ:t-həʊl 'ʤenɪtɪv/, fr. datif complet, azərb. tam yiyəlik. - Müəyyən predmetin digər predmetə münasibətdə tamlığını, digərinin isə onun hissəsi olduğunu göstərmək üçün yiyəlik halının işlədilməsi. Məs.: Azərb. d. /binanın tavanı/, /şəhərin kənarı/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 509.

ЦЕЛОСТНЫЙ МЕТОД - alm. Methode des Ganzen (f) , ing. (linguistic) integral method /lɪŋ'gwɪstɪk/'ɪntɪgrəl 'meθəd/, fr. méthode intégrale, azərb. inteqral metod. - Dilin ayrı-ayrı hadisələrini və faktlarını vahid sistem şəklində bir-birilə əlaqəli tərzdə öyrənən və müşahidə metoduna (dil faktlarını bir-birinə təcrid olunmuş tərzdə araşdıran) qarşı qoyulan linqvistik metod.
Bax: Лингвистический метод ←.

ЦЕЛЬНООФОРМЛЕННОСТЬ - alm. Vollständigkeit (f), ing. non-separability /nɒn-ˌsepərə'biliti/, continuity /ˌkɒntɪ'nju:ɪtɪ/, fr. non-séparabilité, azərb. tam təşkil olunmuş. – Bölünməyən, tərkib hissələrinə ayrılmayan, tərkibinə digər elementlərin daxil edilə bilməməsi, tam formalaşma. Bu nəzəriyyəni ilk dəfə A.İ.Smirnitski (1903-1954) irəli sürmüşdür. Danışıqda söz, ümumiyyətlə, özünə xas, müəyyən mənada tamamlanmasını səciyyələndirən spesifik formalaşma ilə ayrılırsa (söz onda birləşən komponentlərin müvafiq formalaşması və tamlaşması sayəsində ayrılıb götürülə bilərsə) söz birləşməsindən fərqli olaraq o tam formalaşmış kimi dəyərləndirilir. A.İ. Smirnitski bu deyilənləri konkret misallarla belə izah edir. Məs.: ing. d. /shipwreck/ (gəmibatma) və /the wreck of (a) ship/ (gəminin batması) ifadələri eyni mənaları bildirsələr də, eyni obyektiv gerçəklik hadisələrini ifadə etsələr də, qrammatik quruluşlarına görə fərqlənirlər. Birincidə söz kimi tam formalaşma, ikincidə isə hər iki komponentin müstəqil qrammatik forması var.
А.И.Смиринцкий. Лексикология английского языка. M., 1956, s. 33-34.

ЦЕЛЬНОСТЬ - alm. Ganzheit (f), ing. integrity /ɪn'tegrɪtɪ/, fr. intégrité, azərb. bölünməzlik, bütövlük. – Bölünməyən, tərkib hissələrinin arasına digər elementlərin yerləşməsinin qeyri-mümkünlüyü.
Bax: Цельнооформленность ←.

ЦЕННОСТЬ - alm. Wert (m), ing. value /'vælju:/, fr. valeur, azərb. dəyər. - Bu termin dilçiliyə ilk dəfə F. de Sössür tərəfindən gətirilmişdir. Məlumdur ki, bu termin iqtisadiyyatdan götürülüb və dildə müəyyən funksiyası, çəkisi və mənası olan vahidlərə şamil edilir. İşarənin dil sistemində fərqlənməsi, başqa formalara münasibəti, mənası və səslənməsilə müəyyənləşən əlaməti. Məs.: Azərb. d. /düşünmək/ feli /demək/ və /inanmaq/ fellərindən, habelə /düşünür/, /düşündü/ feli formalarından seçilir,

təfəkkür fəaliyyətini bildirir və /d+ü+ş+ü+n+m+ə+k/ fonem ardıcıllığı kimi səslənir.
F.Veysəlli. Dilçilik terminləri və Azərbaycan türkcəsi. «Dil cəmiyyət və siyasət». Bakı, 2004, s. 71-76; R.Conrad. Göstərilən əsəri, s. 296.

ЦЕННОСТЬ ПОТЕНЦИАЛЬНАЯ - alm. potentieller Wert (m), ing. virtual, potential value /'və:tjʊəl/pəʊ'tenʃəl 'vælju:/, fr. valeur potentielle, azərb. potensial dəyər. - Dil işarələri sistemilə şərtlənən və danışıqda təzahür (aktuallaşma) edə bilmək xüsusiyyəti. Məs.: alm. və ing. dillərində uzunluq fonoloji əlamət kimi sistemdə mövcuddur və bir sıra saitlərdə reallaşır.
N.S.Trubeskoy.Göstərilən əsəri.

ЦЕННОСТЬ СИМВОЛИЧЕСКАЯ - alm. symbolischer Wert (m), ing. symbolic(al) value /sım'bɒlık(əl) 'vælju:/, inner form /'ınə fɔ:m/, bridge meaning /brıdʒ 'mi:nıŋ/, fr. valeur symbolique, azərb. rəmzi (simvolik) dəyər. - Sözün semantik quruluşuna aidiyyatı olan elə bir morfonoloji xüsusiyyətdir ki, o hər hansı bir səslənməni müəyyən məna, yaxud müəyyən üslubi konnotasiyalarla (əlavə məna çalarlarla) əlaqəsini rəmzləşdirir.
Bax: Внутренная форма слова ←.

ЦЕНТР - alm. Zentrum (n), ing. center /'sentə/, fr. centre, azərb. mərkəz (nüvə). - 1) Cümlədə, mürəkkəb sözdə və frazeoloji vahiddə qrammatik, leksik məzmunun əsas ifadəçisi; 2) Linqvistik xəritədə əsas məntəqə keyfiyyətində qəbul edilmiş yer; 3) İntonasiya konturunun özək hissəsi.
O.C.Ахманова. Göstərilən əsəri, s. 510; F.Veysəlli. SDƏ, I, s. 299-314.

ЦЕНТРАЛЬНЫЙ ГЛАСНЫЙ - alm. Zentralvokal (m), ing. central vowel /'sentrəl 'vaʊəl/, fr. voyelle centralle, azərb. orta sait. – Orta, yaxud qarışıq sıra saiti. Məs.: Azərb. d. /ı/ saiti buna misal ola bilər.
Bax: Нейтральный гласный ←.

ЦЕНТРАЛЬНЫЙ СОГЛАСНЫЙ - alm. Zentralkonsonant (m), ing. central consonant /'sentrəl 'kɒnsənənt/, fr. consonne centralle, azərb. orta sait. - Hava axınının ağzın mərkəz hissəsindən keçməsilə tələffüz edilən samit. Məs.: Azərb. d. /n/ samiti buna misal ola bilər. Adətən dil yanı samiti /l/-ya qarşı qoyulur.
O.C.Ахманова. Göstərilən əsəri, s. 510.

ЦЕНТРИРУЮЩИЙ ДИФТОНГ - alm. Zentraldiphthong (m), ing. centering diphthong /'sentərıŋ 'dıfθɒŋ/, fr. diphtongue dexenant décroissante, azərb. mərkəzləşən (enən) diftonq. - İkinci (heca düzəltməyən) elementi neytral saitdən ibarət olan, enən diftonq. Məs.: ing. d. /uə/, /ɛə/; alm. d. /ao̯/, /ae̯/, /ɔø̯/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 510.

ЦЕПЬ ЗВУКОВАЯ - alm. Lautkette (f), ing. sound chain /'saʊnd ʧeɪn/, fr. chaîne phonétique, azərb. səs zənciri. - Danışıq axınının zəncirvari səslənməsi və onun ritmik taktlara, sözlərə parçalanması. Məs.: Azərb. d. /bĭrĭ vârdĭ/ bĭrĭ yoxdu// və s. Bu əsasən heca vəznində özünü büruzə verir.
M.M.Adilov və b. Göstərilən əsəri.
ЦЕПЬ РЕЧЕВАЯ - alm. Sprechkette (f), ing. speech chain /spi:ʧ ʧeɪn/, fr. chaîne parlée, azərb. danışıq axını. - Danışıq aktı fonem birləşmələri, ritmik qruplar, sintaqm ardıcıllığıdır ki, onlar eşidən (qəbul edən) tərəfindən üzvlərə bölünür və semantik cəhətdən mütəşəkkil təşkil olunmuş semantik vahidlər kimi dərk olunur. Azərbaycan dilində ahəngdarlığı sait və samitlərin növbəlşməsi, həmahənglik, açıq hecaların çoxluğu və ikizirvəlilik danışıq axarını nizamlayan vasitələrdir.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 189; Ф.Вейсалли. О просодике в азербайджанском языке. «BSU-nun elmi əsərləri». Bakı, 2005, №1/2, s. 3-9.
ЦЕРЕБРАЛЬНЫЙ - alm. zerebral, ing. cerebral /'serɪbrəl/, fr. cérébral,-le, azərb. dilucu. - Dilin yuxarıya qatlanmış ucunun sərt damağa yaxınlaşması zamanı əmələ gələn partlayışlı samit. Məs.: Azərb. d. /d/, /t/, /n/, /l/ samitləri.
Bax: Какуминальный ←.
ЦЕССАТИВ - alm. Terminativ (m), ing. terminative /'tɜ:mɪnətɪv/, fr. terminatif,-ve, azərb. terminativ. - İş və prosesin daxili hüdudunu göstərən bitmiş tərz. Bitmiş tərzin tamamlanmış yarımtərzini bildirir. Məs.: rus d. /отзвонить/, /спеть/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 510.
ЦЕРКОВНОСЛАВЯНИЗМ - alm. Kirchenslavismus (m), ing. the Church Slavonic language /ðɪ ʧɜ:ʧ slə'vɔnɪk 'læŋgwɪʤ/, fr. slavisme, azərb. kilsə slavyanizmi. - Qədim rus dilində köhnə slavyan sözləri, yaxud onun modelləri əsasında yaranmış düzəltmə söz. Məs.: rus d. /кокошкин/ qədim rus d. /кокошь/ (toyuq).
A.A.Реформатский. Göstərilən əsəri, s. 136.
ЦИТАТА - alm. Zitat (n), ing. quotation /kwəʊ'teɪʃən/, fr. citation, azərb. sitat, iqtibas. - Müəyyən mətndən və şəxsin çıxışından olduğu kimi alınıb işlədilən dil ifadələri, iqtibas. Məs.: «Dil işarələr sistemidir» F. de Sössür.
M.Adilov və b. Göstərilən əsəri.
ЦИТАТНАЯ РЕЧЬ – alm. zitierende Rede (f), ing. quotational speech /kwəʊ'teɪʃənəl spi:ʧ/, fr. discours cité, azərb. sitatlı danışıq. – Başqasının danışığında (əsasən bədii əsərlərdə və natiqlərin danışığında) işlədilmiş ifadələri eynilə işlətməklə səciyyələnən danışıq. Məs.: Azərb. d. Peyğəmbərimiz demişdir: «Dörd şey var ki, dörd şeydən doymaz: göz baxmaqdan, yer yağışdan, qadın kişidən, alim bilikdən».
O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər; həyatı və kəlamları. Bakı, 1990, s. 156.

ЦИТИРОВАНИЕ ПРЯМОЕ - alm. direkte Rede (f), ing. direct quotation /dɪ'rekt kwəʊ'teɪʃən/ fr. citation directe, azərb. vasitəsiz sitat. – Başqasına aid olan nitqin olduğu kimi verilməsi. Məs.: F. Veysəlli yazır: «...fonoloji fərqlərin olması mütləq akustik fərqlərin olmasını tələb edir, ancaq hər bir akustik fərq heç də həmişə fonoloji fərqlərə gətirib çıxartmır».
F.Veysəlli. SDƏ, I, s. 197 .

ЦИРКУМФЛЕКС - alm. Zirkumflex (m), steigend - fallender Akzent, ing. circumflex /'sɜ:kəmfleks/, fr. circonflexe, azərb. sirkumfleks. – Yunan dilində qalxıb-enən tonik vurğu, slavyan dillərində isə enən (enib-qalxan) tonik vurğu.
O.C.Ахманова. Göstərilən əsəri, s. 510.

ЦИРКУМФЛЕКСОВЫЙ - alm. Zirkumflex (m), ing. circumflexible /'sɜ:kəmfleksɪbl/, fr. circonflexe, azərb. sirkumfleksə aid olan. - Köhnə akutun (slavyan dillərində yüksələn ton) yerində işlədilən enən ton.
O.C.Ахманова. Göstərilən əsəri, s. 511.

ЦИРКУМФЛЕКС СТАРЫЙ - alm. alter Zirkumflex (m), ing. the old circumflex /ðə əʊld 'sɜ:kəmfleks/, fr. vieux circonflexe, azərb. köhnə sirkumfleks. - Qədim slavyan dillərində hecalarda qısa hecadüzəldən elementin diftonqunda enən ton.
O.C.Ахманова. Göstərilən əsəri, s. 511.

ЦИРКУМФЛЕКСНЫЙ СЛОГ - alm. Zirkumflexsilbe (f), ing. circumflex syllable /'sɜ:kəmfleks 'sɪləbl/, fr. syllabe aiguisé, azərb. sirkumfleks heca. - Tələffüz prosesində iki fasilə arasında yerləşən səsliliyin yüksəlməsi ilə müşayət olunan və danışıq aktının seqmentləşməsində təbii vahid kimi çıxış edən nitq parçası. Heca danışıq prosesində hər dəfə nəfəsalmada tələffüz edildiyi üçün onun əzələ gərginliyini «qövsü» formada təsəvvür etmək olar.
O.C.Ахманова. Göstərilən əsəri, s. 511.

ЦОКАНЬЕ - alm. z-artige Aussprache (f), Schnalzen (n), ing. clatter /'klætə/, tsokanje /tsɔkənʒɪ/, fr. claguement de la langue, azərb. tşlaşma. – Rus dilinin bəzi dialektlərində, şivələrində (əsasən, şimal) /tʃ/ və /ʦ/ fonemlərinin fərqləndirilməməsi nəticəsində onların bir fonemdə /ʦ/-də üst-üstə düşməsi, eyniləşməsi.
O.C.Ахманова. Göstərilən əsəri, s. 511.

ЦОКАЮЩИЙ ГОВОР - alm. Z-Dialekt (m), ing. clatter (tsokanje) dialect /'klætə ˌdaɪə'lekt/, fr. parler claguant, azərb. tsılaşma ləhcə. – Məs., azərb. dilində /tʃ/- /ʦ/ kimi tələffüz olunur.
O.C.Ахманова. Göstərilən əsəri, s. 511.

ЦЫГАНСКИЙ ЯЗЫК – alm. Zigeunerisch (Pl.), ing. Gipsy /ˈʤɪpsɪ/, the Gipsy language /ðiˈʤɪpsɪˈlæŋgwɪʤ/, Romany /ˈrɔmənɪ/, Tzigane /tsɪˈgɑːn/, fr. langue tsigane, azərb. qaraçı dili. – Hind-Avropa dilləri ailəsinə mənsub olan dil. Qaraçı dilinin daşıyıcıları Hindistan ərazisini erkən dövrlərdə (eramızın I minilliyində) tərk etmişlər və dünyanın əksər ölkələrinə səpələnmişlər (Ön Asiya, Avropa, Şimali və Cənubi Amerika, Avstraliya, Yeni Zelandiya və s.). Qaraçı dilində danışanların dəqiq sayı məlum deyildir (adətən 1-5 milyon civarında olduğu qeyd olunur). Qaraçı dili yazısız dillər sırasına daxildir.

Т.В.Вентцель. Цыганский язык. М., 1964.

– Ч –

ЧАГАТАЙСКИЙ ЯЗЫК – alm. Tschaghataisch (Čagataisch) (n), ing. Chagatai language /ʧɑgə'tʌɪ 'læŋgwɪʤ/, fr. langue tchaghataï, (Jaghatai), azərb. cığatay dili. – Cığatay dili qarluq-Xorəzm yarımqrupuna daxildir. XV-XVI əsrlərdə Orta Asiyada əvvəlki dövrlərin (qaraxani-uyğur X-XII əsrlər), (Qızıl Orda XIII-XIV əsrlər) güclü təsiri altında formalaşmış ədəbi-yazılı dil. Qarluq, oğuz və qıpçaq yarımqruplarının intensiv əlaqələri nəticəsində cığatay dili fövqəldialekt (dialektlərdən üstdə duran dil) dilə çevrilmişdi. Məhz bu səbəbdən çaqatay dili Bosfordan Altaya, həmçinin Hindistana qədər uzanan ərazidə məskunlaşmış türkdilli xalqlar arasında yayılmışdı.

А.Н.Самойлович. К истории литературы средне-азиатско-турецкого языка. Л., 1928.

ЧАДСКИЕ ЯЗЫКИ - alm. tschadische Sprachen (Pl.), ing. Chadic languages /'ʧadık 'læŋgwɪʤɪz/, fr. langues tchadiennes, azərb. çad dilləri. – Afrasiya dillərinin qolu. Əsasən Mərkəzi və Qərbi Sudanda, Şimali Nigeriyada, Şimali Kamerunda, Çad və s. dövlətlərində yayılmışdır. Çad dilləri qərbi çad (xausa, qvandara, anqas, sura, çip, bokkos, nqamo, varci, bauçi, qeci və s.), mərkəzi çad (tera, cara, bura, çibak, xiqi, bana, hidkala, mandara və s.), şərqi çad (kera, kvanq, nançere, lay, saba, danqla, miqama, mokulu, mubi, birgit, cequ və s.) dialektlərinə bölünür. Çad dillərinin hamısı tonlu dillərdir. Xausa dili (yeganə yazısı olan dil) çad dilləri arasında ən çox tədqiq olunmuşdur.

И.М.Дьяконов. Семитохамитские языки. М., 1965.

ЧАМАЛИНСКИЙ ЯЗЫК - alm. Tschamalisch (Čamalisch) (n), ing. Chamalin language /ʧə'mɑ:lin 'læŋgwɪʤ/, fr. langue tchamaline, azərb. çamalin dili. – Avar-andi-tsez dilləri yarımqrupuna aid dil. Dağıstanın Sumadin rayonunda yayılmışdır və 4 min daşıyıcısı vardır. Yazısız dildir.

А.А.Бокарев. Очерки грамматики чамалинского языка. М.,-Л., 1949.

ЧАСТИ РЕЧИ - alm. Redeteile (Pl.), Wortart (f), Wortklasse (f), ing. parts of speech /pɑ:ts əv 'spɪ:ʧ/, fr. parties du discours, azərb. nitq hissələri. - Dilin lüğət tərkibini təşkil edən sözlərin məna, forma və funksiyası əsasında və ya sözlərin semantik, morfoloji və sintaktik əlamətlərinə görə qruplaşması. Müasir dilçilikdə sözlərin nitq hissələrinə bölgüsü belə təsvir olunur: a) əsas (avtosemantik) nitq hissələri; b) köməkçi (sinsemantik) nitq hissələri. Yunan alimi Aristotelin nitq hissələrinin bölgüsünə dair irəli sürdüyü prinsip sonralar bütün dillərdə nitq hissələrinin böl-

güsündə əsas sxem kimi götürülürdü. Yalnız son dövrlərdə bir sıra yeni bölgü prinsipləri irəli sürülür.
Nitq hissələri haqqında təlimin tarixi çox qədimdir. Eramızdan əvvəl hind alimləri adları və felləri fərqləndirirdilər. Onların ifadə etdiyi mənalara, sintaktik funksiyasına və morfoloji əlamətlərinə görə dildən dilə müxtəlif ola bilər. Məs.: bir çox dildə artikl yoxdur. Alman və ya buna yaxın dillərdə nitq hissələrinin sayı 10-a qədərdir. Onlardan 4-ü (isim, fel, sifət və zərf) avtosemantik söz qrupları kimi səciyyələnir. Bunlara sözönü, bağlayıcı, ədat və artikl kimi sinsemantik sözləri də əlavə etmək olar. Əvəzlik və say isə morfoloji cəhətdən müxtəlif cür səciyyələnir. Nidalar, modal sözlər, ara sözlər və predikativlər də mübahisə doğuran sözlər hesab edilirlər. Azərbaycan dilində müstəqil (isim, sifət, say, əvəzlik, fel, zərf), yamsılamalar (təqlidi sözlər), nida və köməkçi nitq hissələri (qoşma, bağlayıcı və ədat) olmaqla cəmi 11 nitq hissəsi fərqləndirilir. Eyni zamanda modal sözlər də xüsusi olaraq qeyd edilir.
R. Conrad. Göstərilən əsəri, s. 298; M.I. Adilov və b. Göstərilən əsəri, s. 194-201; M. Hüseynzadə. Göstərilən əsəri, s. 17-19.

ЧАСТИЦЫ - alm. Partikeln (Pl.), ing. particles /'pɑ:tɪkəls/, fr. particules, azərb. ədatlar. - Müstəqil mənaya malik olmayan, dil vahidlərinə (söz, söz birləşməsi, cümlə) əlavə edilməklə onlara müxtəlif məna çalarlığı verən və ya onların mənasını gücləndirən, bəzən də predikativliyini təmin edən leksik-qrammatik kateqoriya. Dilçilikdə funksiyasına görə ədatları aşağıdakı kimi qruplaşdırırlar; a) həm predikativlik, həm də əlavə məna çaları bildirən ədatlar: idi (dı, di, du, dü) şahidlik bildirir, imiş (mış, miş, muş, müş) başqasına əsaslanmaqla xəbər vermə bildirir; b) modallıq bildirən ədatlar: qoy, qoyun, qoysunlar, görsün(lər), gör, görün, görüm, görək, gəl, gəlin; c) emosionallıq və əlavə məna çaları bildirən ədatlar: di, ha, hə, kaş (ki), təki, barı, budur, bəli, yox, hətta, belə (əmr ədatları), hə, bəli, yox, heç, xeyir, yaxşı, niyə (təsdiq və inkar ədatları), ki, ha, lap, ən, hətta, belə, artıq, nə, daha; ça/çə, heç, hey, daha da (məna gücləndirici, şiddətləndirici ədatlar); ancaq, yalnız, bir, bircə, tək, təkcə (məhdudlaşdırıcı ədatlar); elə, məhz, əsl, düz (dəqiqləşdirici ədatlar), bəs, məgər ki, bəyəm, hə, yəni (sual ədatları) və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 104.

ЧАСТИЧНАЯ АССИМИЛЯЦИЯ - alm. partielle Assimilation (f), ing. partial assimilation /'pɑ:ʃəl əsɪmɪ'leɪʃən/, fr. assimilation partielle, azərb. qismən assimliyasiya. – Klassik fonetikada danışıq aktında səslərin qarşılıqlı tərzdə bir-birinə təsirirlə qismən uyğunlaşması. Məs.: Azərb. d. /qızlar – qızdar/, /quşlar – quşdar/, /atlar – atdar// və s.
A.A.Реформатский. Göstərilən əsəri, s. 520.

ЧАСТИЧНАЯ КОМПЛЕМЕНТАЦИЯ - alm. komplementäre Distribution (f), ing. complementary distribution /ˌkɒmplɪ'mentərɪ ˌdɪstrɪ'bjʊ:ʃən/, fr. commplémentation partielle, azərb. əlavə distribusiya. - Bir dil vahi-

dinin (fonem, morfem) variantlarının eyni bir fonetik mövqedə (şəraitdə) gələ bilməməsi, başqa sözlə bir-birini istisna edən mövqelərdə gələn elementlər eyni fonemin variantlarıdır. Deskriptiv dilçilikdə buna əlavə distribusiya prinsipi deyilir. Məs.: Azərb. d. /gγl/, /gal/, /gil/ sözləri komplementar distribusiya qanununa görə eyni /g/ samitinin variantlarıdır.
R. Conrad. Göstərilən əsəri, s. 66.

ЧАСТИЧНОЕ СОГЛАСОВАНИЕ - alm. partielle Kongruenz (f), ing. (incomplete) partial agreement /ɪnkəm'pli:t/'pɑ:ʃəl ə'gri:mənt/, fr. accord partiel, azərb. qismən uzlaşma. - Tabe sözün tabeedici sözlə morfoloji cəhətdən tam uzlaşmaması. Məs.: rus. d. /он (a) играет/ söyləmində kəmiyyətə və şəxsə görə uzlaşma var, /она играла/-da isə uzlaşma şəxsə və cinsə görədir. Birincidə cinsə görə, ikincidə isə şəxsə görə uzlaşma yoxdur. Ona görə də burada tam yox, qismən uzlaşmadan söhbət gedir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 328.

ЧАСТИЧНОЕ СОКРАЩЕНИЕ - alm. partielle Abkürzung (f), ing. partial abbreviation /'pɑ:ʃəl əˌbrɪvɪ'eɪʃən/, incomplete contraction /ɪnkəm'pli:t kən'trækʃən/, partial clipping /'pɑ:ʃəl 'klɪpɪŋ/, fr. abréviation partielle, azərb. yarımçıq ixtisar. - Tərkib elementlərindən birincisi ixtisar olunan, ikinci elementinin əsası olduğu kimi saxlanılan söz. Məs.: Azərb. d. /Azneft/, /Azdrama/ və s.
Bax: Сокращение ←.

ЧАСТИЧНЫЕ ОМОНИМЫ - alm. partielle Homonyme (Pl.), ing. partial homonyms /'pɑ:ʃəl 'hɒmənɪms/, fr. homonymes partielles, azərb. yarımçıq (qismən) omonimlər. - Mövcud məna fərqliliyi zəminində səsləmə sinə görə tərkib ünsürlərinin hamısı üst-üstə düşməyən omonimlər. Məs.: ing. d. /likes/ və /dislikes/ sözlərində /likes/ eynidir.
O.C.Ахманова. Göstərilən əsəri, s. 288.

ЧАСТИЧНЫЕ СЛОВА - alm. partielle Wörter (Pl.), ing. partial, syntactic words /'pɑ:ʃəl sɪn'tæktɪk wɜ:dz/, fr. mots partiels, azərb. köməkçi sözlər. - Ayrılıqda avtosemantik mənası olmayan, müstəqil cümlə üzvü funksiyasında çıxış edə bilməyən, cümlədə əsas sözlər arasında müəyyən sintaktik-semantik əlaqə yaratmağa xidmət edən, onlar arasındakı müvafiq sintaktik əlaqəni əks etdirən köməkçi sözlər. Məs.: qoşmalar, ədatlar, bağlayıcılar.
Bax: Вспомогательные слова ←.

ЧАСТИЧНЫЙ АРТИКЛЬ - alm. partitiver Artikel (m), ing. partitive article /'pɑ:tɪtɪv 'ɑ:tɪkl/, fr. article partitif, azərb. hissə bildirən artikl. – Aid olduğu isim əşyanı tam deyil, yalnız onun müəyyən bir hissəsinin təsəvvür olunduğunu göstərən artikl. Məs.: fr. d. /C'est le pain/ (bu çörəkdir); /Donnez-moi du pain// (Mənə çörək verin).
O.C.Ахманова. Göstərilən əsəri, s. 54.

ЧАСТИЧНЫЙ ВОПРОС - alm. Bestimmungsfrage (f), Teilfrage (f), Gliedfrage (f), ing. detail (partial) question /'di:teıl /pɑ:ʃəl kwestʃən/, x-question /eks 'kwestʃən/, fr. interrogation partielle, azərb. natamam (yarımçıq) sual. – Sual sözlü sual, hər hansı bir hadisə və ya konkret şey haqqında cavab almaq üçün verilən sual. Ancaq cümlə üzvlərindən birinə aid olan sual. C.Axundov bunları əvəzlikli sual cümlələri adlandırır. Məs.: Azərb. d. /Uşaqlar, bu binanı kim tikib?; alm. d. ¿wo wohnst duƆ-/in Baku/ (Sən harada yaşayırsan? Bakıda).
C.Axundov. Göstərilən əsəri, s. 59-67.

ЧАСТИЧНОЕ СОПОДЧИНЕНИЕ - alm. partielle Unterordnung (f), ing. particular collateral subordination /pə'tıkjulə kɔ'lætərəl sə,bɔ:dı'neıʃən/, fr. subordination partielle, azərb. yarımçıq (qismən) tabelilik. – Tərkibindəki budaq cümlələri baş cümlənin üzvlərindən birinə aid olur, lakin həmcins olurlar. Məs.: /Səhər açılırdı ki, mən atları qovurdum, çünki qatar biz çatana qədər gedə bilərdi//.
C.Axundov. Göstərilən əsəri, s. 442.

ЧАСТНООТРИЦАТЕЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. speziell-negativer Satz (m), ing. specifically-negative sentence /spı'sıfikəlı 'negətıv 'sentəns/, fr. proposition négative spéciale, azərb. xüsusi inkarlı cümlə. – Xəbərin təsdiq formasında işlənən, lakin inkarlıq ədatı digər üzvlər qarşısında olan (işlənən) cümlə. Məs. Azərb. d. /Şagirdlər məktəbə gedirlər, ancaq Cəmil getmədi//
O.C.Ахманова. Göstərilən əsəri, s.513.

ЧАСТОТНОСТЬ - alm. Frequenz (f), ing. frequency /'fri:kwənsı/, fr. fréquence, azərb. tezlik. – Dil vahidinin danışıqda işlənmə tezliyi. Riyazi dilçiliyin köməyilə hər hansı bir dil vahidinin işlənməsi tezliyini müəyyənləşdirmək mümkündür. Son zamanlar tezlikli lüğətlər çap olunur, bu və ya digər (yazıçının) dilində sözlərin işlənmə tezliyi hesablanır. Qeyd edək ki, fonetika sahəsində hesablamalarla hər bir dil vahidinin funksional yükünün prinsipcə mümkünlüyünü hələ E. və K.Tsvirnerlər xüsusi qeyd etmişdilər. Sonralar Praqa dilçilik məktəbi dil vahidlərinin- statistik hesablamalarına xüsusi diqqət verirdi. Bunun təsdiqini biz N.S. Trubeskoyun tədqiqatlarında da görə bilərik. O, fonemlərin işlənmə tezliyini və funksional yükünü konkret tədqiqatları ilə müəyyənləşdirə bilMişdi.

Ancaq Amerika alimi G.K.Tsipf öz tədqiqatlarında dil vahidlərinin işlənmə tezliyi ilə sözün uzunluğu və ya əmələ gəlməsi arasında bir nisbət mövcudluğunu xüsusi qeyd edir. Daha az enerji sərf etməklə düzələn dil vahidləri daha yüksək işlənmə tezliyinə malikdir. Və ya daha qısa sözlər daha yüksək işlənmə tezliyinə malikdirlər. Digər tərəfdən, az enerji ilə tələffüz edilən səslər daha çox işlənmə tezliyinə malikdirlər.

Tədqiqatlar göstərir ki, 50 minlik lüğətdə sözləri tezlik siyahısında düzsək, görərik ki, 15 ən çox işlənən söz onun 60 %-ni və 1000 ən çox işlənən söz 85%-ni, 4000 söz isə istənilən mətnin 97,5 %- ni təşkil edir. Bu hesablamalar xarici dilin tədrisini yenidən qurmaq, bu məqsədlə yazılan dərsliklərdə məhz daha çox işlənən sözlərdən istifadə olunmalıdır.

Statistik hesablamalar birmənalı şəkildə sübut etmişdir ki, yüksək işlənmə tezliyini ən qısa, daha qədim, morfoloji cəhətdən daha sadə və daha çox məna tutumu olan sözlər təşkil edir.

Statistik hesablamalar ayrı-ayrı müəlliflərin üslubunu müəyyənləşdirməkdə böyük rol oynayır. Hətta tarixi dilçilikdə də (elmi ədəbiyyatda buna «qlottoxronologiya» deyirlər) kəmiyyət kriteriyalarından istifadə olunur.

Ancaq hesablamalara başlamazdan əvvəl tədqiqatçı öz məqsədini müəyyənləşdirməlidir. Məs.: söz formaları ayrı-ayrı sözlər kimi nəzərdən keçirilməlidir. Aydındır ki, məqsəddən asılı olaraq aparılan tədqiqat fərqli nəticələr verəcəkdir. Bütün bunları elmi ədəbiyyatdan tapıb öyrənmək olar.

Məlumdur ki, sözün məlumat tutumu onun işlənməsi tezliyinə tərs mütənasibdir. Gözlənilmədən işlənən sözün məna tutumu daha böyükdür. Azərb. d. /qatar/ sözündə /r/ fonemi heç bir informasiya daşımır, çünkü bu sözdə /r/ samitindən başqa heç bir samit işlənə bilməz. Ancaq /qar/ sözündəki /r/ müəyyən informasiya daşıyır, çünki bu mövqeydə /l, n, z, t/ və s-dən hər biri gələ bilər. Deməli, dil vahidinin seçilmə ehtimalı böyük olduqca, onun informativliyi də böyük olur. Odur ki, /qar/ sözündəki /r/ daha informativdir, çünki onun bu sözdə gəlmə ehtimalı dörddə birə bərabərdir. Başqa sözlə desək, /qatar/ sözündə axırıncı samit tələffüz olunmasa belə, bu ünsiyyətə xələl gətirməz. Beləliklə, dildə müəyyən ünsiyyət məqamında hər hansı bir vahid deyilməsə də, məna pozulmur, sözü bərpa etmək olur. Bu informasiya nəzəriyyəsində redundant adlanır. Məs.: /qata+r/. Dil vahidi buraxıldığı halda ünsiyyətin pozulması müşahidə olunarsa, buna relevant deyilir (məs.: /qa+r/). Kibernetikanın ən çox işlətdiyi məfhum entropiyadır. Entropiya fizikadan əxz edilib və hadisələrin qeyri-müəyyənliyini ölçmək üçün tətbiq edilən üsuldur. Məs.: alm. d. /p/ samitindən sonra /z/ fonemi /r/- ya nisbətən daha az ehtimal olunandır, çünki /pr/ fonem birləşməsi mümkündür, ancaq /pz/ birləşməsi mümkün deyil. Beləliklə, redunantlığı hesablamaq olar və küyün statistik əlamətlərini tədqiq etmək mümkündür. Amma bir şey xüsüsi qeyd edilməlidir ki, redundant nəsə artıq bir şey kimi başa düşülməlidir. Bəzən ünsiyyətdə redundant deyiləni başa düşmək üçün mühüm əhəmiyyət kəsb edir. Məs.: səsli-küylü danışıqda deyiləni başa düşməkdə bu əlamət son dərəcə əhəmiyyətlidir.

Statistik tədqiqatlarda ehtimal nəzəriyyəsi mühüm rol oynayır. Bu yolla hər bir dil vahidinin işlənməsi ehtimalını müəyyənləşdirmək və proqnozlaşdırmaq mümkündür. Bu da maşınla tərcümədə vacib rol oynayır.

F. Yadigar (Veysəlli). GDG. s. 67-69.

ЧАСТОТНЫЙ СЛОВАРЬ - alm. Frequenzwörterbuch (n), ing. frequency vocabulary /'fri:kwənsı vəʊ'kæbjʊlərı/, fr. dictionnaire des fréquences, azərb. tezliklər lüğəti. - Müəyyən dildəki sözlərin işlənmə tezliyinə görə yerləşdirilməsi prinsipi üzrə tərtib edilən lüğət.

Bax: Частотность ←.

ЧАСТЬ СЛОВА ВЕЩЕСТВЕННАЯ - alm. gegenständlicher Wortteil (m), ing. subword /'sʌbwə:d/, partial word material /pɑ:ʃəl wə:d mə'tıərıəl/, fr. partie matérielle du mots, azərb. sözün əşyavilik bildirən hissəsi. – Sözün leksik mənasını özündə əks etdirən hissəsi. Adətən söz kökləri və düzəltmə sözlər sözün mənalı hissəsini təşkil edir. Məs.: Azərb. d. /dəmir/, /dəmir-çi/, /dəmir-dən/, /dəmir-dən-dir/, sözlərində /dəmir/ əşyavi məna daşıyan hissəsidir.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 249-254.

ЧАСТЬ СЛОВА ФОРМАЛЬНАЯ - alm. formaler Wortteil (m), ing. form-words of element /fɔ:m wə:dz əv 'elımənt/, fr. partie formelle du mots, azərb. sözün formal hissəsi. - 1) Sözün formal elementlərinin ifadə etdiyi məna. Aqlütinativ dillərdə, bir qayda olaraq, qrammatik məna sözün leksik məna daşıyan hissəsinə əlavə edilir. Qrammatik məna eyni tipli sözlərin müəyyən əlamətin əşyavi məzmunu əsasında mücərddləşmiş olur. Qrammatik məna leksik mənaya əlavə olunan, bu mənanı müşaiyət edən mənadır. Qrammatik məna leksik mənanı müşayiət etməsinə baxmayaraq sözdə zəruri mənadır. Məs.: Azərb. d. /qapı+çı/, /qapı+çı+n+ın (cəsarəti)/ və s.; 2) Birləşmədə iştirak edən sözlərin leksik məzmunu nəzərə alınmadan söz birləşməsi və cümlələrin qurluşunda təzahür edən məna. Leksik məna tək-tək sözlərə məxsus olduğu halda, qrammatik məna bir neçə söz və ya söz qrupu üçün səciyyəvidir. Məs.: Azərb. d. mənsubiyyət şəkilçisi bütün üçüncü növ söz birləşmələrinə aiddir. Müq. et: Azərb. d. /ətin dadı/, /adamın adı/ və s.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 256-257.

ЧЕРЕДОВАНИЕ - alm. Lautwechsel (m), ing. gradation /ˌgrə'deıʃən/, fr. alternance, azərb. əvəzləmə, əvəzlənmə. - Müxtəlif danışıq məqamında eyni bir morfem qabığında fonemlərin bir-birini əvəz etməsi. Eyni morfem daxilində fonemlərin dəyişikliyə uğraması, həmin morfemdə fonemlərdən birinin və ya bir neçəsinin tamam başqa fonemlərlə əvəz olunması ilk dəfə olaraq İ.A.Boduen de Kurtene tərəfindən nəzəri cəhətdən işlənib hazırlanmaşdır. Bu nəzəriyyə sonralar Şerba fonoloji məktəbinin əsas ideyalarından birinə çevrilmişdir. Həmin məktəbin liderlərindən hesab olunan L.R.Zinder fonem əvəzlənməsinə belə tərif vermişdir: «Fonemlərin bu və ya digər səbəbdən eyni morfem daxilində bir-birini əvəz etmək qabiliyyətinə onların əvəzlənməsi deyilir».

Dildə iki cür fonem əvəzlənməsi fərqləndirilir: tarixi əvəzlənmə və fonetik əvəzlənmə. Bunlardan birincisinin səbəbini müasir dil materialından, sırf fonetik-sinxron zəmindən çıxış edərək izah etmək mümkün deyil. Məs.: alm. d. /sitzen/ (oturmaq)-/za:s/ (oturdu) və s. Birincidən fərqli olaraq «fonetik əvəzlənmə fonemlərin danışıq zəncirində qarşılıqlı təsirindən və ya fonemlərin işlənmə mövqeyindən asılıdır. Ona görə də bu əvəzlənməyə canlı fonetik əvəzlənmə deyilir». Məs.: alm. d. /Lant/ (Ölkə)-/lɛndəʀ/ (ölkələr) və s.

Л.Р.Зиндер, Т.В.Строева. Современный немецкий язык. М., 1957, s. 36; F. Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı. 1980, s. 118-127.

ЧЕРЕДОВАНИЕ АВТОМАТИЧЕСКОЕ - automatischer Wechsel (m), ing. automatic gradation /ˌɔ:tə'mætık ˌgrə'deıʃən/, fr. alternance automatique, azərb. avtomatik əvəzlənmə. - Müəyyən fonetik əhatə ilə şərtlənən fonomorfoloji əvəzlənmə. Məs.: rus d. qadın cinsli isim yiyəlik halın təkində /ı/ və /i/ şəkilçilərini qəbul etməsi əsasın kök saitinin keyfiyyətindən asılıdır. Müq. et: rus d. /земли/, /воды/.

А.А.Реформатский. Göstərilən əsəri, s. 283-284.

ЧЕРЕДОВАНИЕ АКЦЕНТНОЕ - alm. Akzentwechsel (m), ing. accentual gradation /æ'ksentjʊəl grə'deıʃən/, fr. alternance accentuelle, azərb. vurğu (aksent) əvəzlənməsi. – Söz forması dəyişərkən onun vurğusu da yerini dəyişir. Məs.: rus d. /рука'/-/ру́ки/; alm. d. /la·'bo:ʀ/-/la·bo·'rant/ və s.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s. 137.

ЧЕРЕДОВАНИЕ ГРАММАТИЧЕСКОЕ - alm. grammatischer Wechsel (m), ing. grammatical gradation /grə'mætıkəl grə'deıʃən/, fr. alternance grammaticale, azərb. qrammatik əvəzlənmə. - Fonetik mövqedən asılı olmayan və müxtəlif cür qrammatik formalara xidmət edən əvəzlənmə. Məs.: alm. d. /'fa:təʀ/-/'fe:təʀ/ (ata, atalar), /tɔxtəʀ/-/tœçtər/ (qız-qızlar) və s.

А.А.Реформатский. Göstərilən əsəri, s. 223-224.


ЧЕРЕДОВАНИЕ ЖИВОЕ - alm. (phonetischer) lebendiger Wechsel (m), ing. (living) real gradation /'lıvıŋ rıəl grə'deıʃən/, fr. alternance vivante, azərb. canlı əvəzlənmə. - Fonetik əvəzlənmə iki cür olur: 1) Mövqe ilə bağlı olan əvəzlənmə. Məs.: alm. d. /ve:k/→/ve:gə/ (yol, yollar); 2) Kombinator əvəzlənmə. Məs.: alm. d. kar samitdən əvvəl tingiltili samitin karla əvəzlənməsi. Müq. et: alm. d. /za:gən/→/za:kt/ və s.

F.Veysəlov (Veysəlli). Alman dilinin fonetikası. Bakı, 1980, s.124

ЧЕРЕДОВАНИЕ МОРФОЛОГИЧЕСКОЕ - alm. morphologischer Wechsel (m), ing. morphologic(al) gradation /ˌmɔ:'fə'lɔʤık(əl) grə'deıʃən/, fr. alternance morphologique, azərb. morfoloji əvəzlənmə. – Fonetik şəraitlə bağlı olmayan, müəyyən dilin müasir fonetik sistemi baxımından

izah oluna bilməyən, yalnız dilin inkişafının hər hansı bir mərhələsi ilə izah oluna bilən əvəzlənmə. Məs.: alm. d. /'mʊtəʀ/→/'mʏtəʀ/ (ana, analar).
Bax: Чередование грамматическое ←.

ЧЕРЕДОВАНИЕ НЕПАРАЛЛЕЛЬНОЕ - alm. unparalleler Wechsel (m), ing. non-parallel gradation /nɒn-'pærələl grə'deɪʃən/, fr. alternance non-paralèlle, azərb. kəsişən, çarpazlaşan əvəzlənmə. – Moskva fonoloji məktəbinə görə bir və ya bir neçə güclü fonemin ekvivalenti hesab olunan, güclü fonemin zəif fonemlə əvəzlənməsi. Məs.: rus d. /под/ və /рот/ sözlərindəki (axırıncı) fonemlər bir fonemdə /t/ eyniləşir və aşağıdakı şəkildə təsvir olunur.



А.А.Реформатский. Göstərilən əsəri, s. 277-279.

ЧЕРЕДОВАНИЕ ПАРАЛЛЕЛЬНОЕ - alm. paralleler Wechsel (m), ing. parallel gradation /'pærələl grə'deɪʃən/, fr. alternance paralèlle, azərb. kəsişməyən, paralel əvəzlənmə. – Moskva məktəbinə görə ümumi üzvü olmayan, paralel və ya bütün vəziyyətlərdə sıraları bir-birilə kəsişməyən mövqe əvəzlənmələri. Məs.: rus d. /r/ - смот[р] – (смот[р°]у – смотр°, смотру), /l/ - смыс[л] - смыс[л°]у (смысл, смыслу) parallel əvəzlənən cərgələr əmələ gətirir. Şerba məktəbi isə bunları eyni fonemlərin kombinator və ya mütləq variantları adlandırır, çünki /r/ və /l/ fonemləri söz sonunda qismən karlaşır, ancaq /u/ saiti qarşısında dodaqlanır.
А.А.Реформатский. Göstərilən əsəri, s. 276-287; Ю.С.Маслов. Göstərilən əsəri, s. 69-73.


ЧЕРЕДОВАНИЕ ПОЗИЦИОННОЕ - alm. positioneller Wechsel (m), ing. positional gradation /pə'zɪʃənəl grə'deɪʃən/, fr. alternance de position, azərb. mövqe əvəzlənməsi. - Bütövlükdə fonetik şəraitdən asılı olan əvəzlənmə. Məs.: rus d. /pʌgoda/ və /pʌgo'dû/ sözlərində /d/-və /d°/ eyni fonem variantlarının mövqe ilə bağlı əvəzlənmələrdir. Və ya rus d. /хлеп/ (хлеб), /рот/ (род), /хот/ (ход).
Ю.С.Маслов. Введение в языкознание. 4-ое изд., С.-Петербург, 2005, s. 69.

ЧЕРЕДОВАНИЕ ФОНЕТИЧЕСКОЕ - alm. phonetischer Wechsel (m), ing. (automatic) phonetic gradation /ˌɔ:tə'mætɪk/fəʊ'netɪk grə'deɪʃən/, fr. alternance phonétique, azərb. fonetik əvəzlənmə. - Dilin inkişafının çağdaş mərhələsində fəaliyyət göstərən fonetik qanunauyğunluqlarla şərtlənən, meydana gəlməsi səbəbi izah oluna bilən əvəzlənmə.
Bax: Живое чередование ←.

ЧЕРТОЧКА - alm. Bindestrich (m), ing. hyphen /'haɪfən/, fr. petit trait, azərb. tire. - Bəzi söz və söz birləşmələrində, habelə sətirdən-sətirə keç-

mədə istifadə olunan üfüqi xətt, qısa xətti qrafik işarə (–). Məs.: /dədə-baba/, /uşaq-muşaq/ və s.
Ə.Dəmirçizadə. Göstərilən əsəri, s. 281.

ЧЕТЫРЕХУГОЛЬНИК ГЛАСНЫХ - alm. Vokalviereck (n), ing. vowel-quadrangle /'vaʊəl-'kwɒˌdræŋgəl/, fr. voyelles quadriangulaire, azərb. sait dördbucağı. – Dilin saitlər sistemi dördbucaqlı həndəsi fiqur şəklində verilir. Bu cür dördbucaqlı şəkillər əksər hallarda yəni dilin vəziyyətinə və dodaqların iştirakına əsaslanır. İlk dəfə /i/ /u/ və /a/ saitlərinin üçbucağı şəklində K.F.Helvaq (1754-1835) tərəfindən irəli sürülən bu sxem sonrada arxa sıra /a/ saitinin əlavə edilməsilə saitlər dördbucağı və ya saitlər trapezi kimi inkişaf etdirilmişdir. Bu sxem 3 əlamətə əsaslanır: a) dilin şaquli istiqamətdə hərəkətinə, və ya çənənin açılması dərəcəsinə (yüksək, orta aşağı); b) dilin üfüqi istiqamətdə hərəkətinə (ön, orta (neytral, mərkəz), arxa) və c) dodaqların iştirakına (dodaq, qeyri-dodaq). Bu sait dördbucağı Beynəlxalq Fonetika Cəmiyyəti tərəfindən bütün dillər üçün məqbul sxem kimi tövsiyə olunur.



F.Veysəlli. SDƏ. Bakı, 2005, s. 329.

ЧЕЧЕНСКИЙ ЯЗЫК – alm. Tschetschenisch (Čečenisch) (n), ing. Chechen /'ʧeʧən/, the Chechen language /ðɪ 'ʧeʧən 'læŋgwɪʤ/, fr. langue tchetchene, azərb. çeçen dili. – Nax dillərindən biridir. Əsasən Çeçen-İnquş Respublikasında, həmçinin Dağıstan ərazisində yayılmışdır. Çeçen dilində 500 minə qədər əhali danışır. Fonoloji sistemi mürəkkəb saitlər (monoftonq, diftonqlar, triftonqlar, uzun və qısa saitlər və s.) və samitlər yarımsistemi̇nə (sadə, geminant, abruptiv, farinqal və s.) malikdir. Morfoloji sistemi morfoloji-flektivdir. Yazısı kiril əlifbasına əsaslanır. Н.Ф.Яковлев. Синтаксис чеченского языка. М.,-Л., 1940.

ЧЕШСКИЙ ЯЗЫК – alm. Tschechisch (n), ing. Czech /tʃek/, the Czech language /ðiˌ tʃek ˈlæŋgwɪdʒ/, fr. langue tchèque, azərb. çex dili. – Qərbi-slavyan dillərindən biridir. Əsasən Çex və Slovak Respublikalarında, ABŞ, Kanada və Avstriyada yayılmışdır. Ümumilikdə çex dilində 11 milyon əhali danışır. Ədəbi dili orta çex dialekti əsasında formalaşmışdır. Yazıda latın əlifbasından istifadə olunur.

А.Г.Широкова. Чешский язык. М., 1961.

ЧЖУАНСКИЙ ЯЗЫК – alm. Dshuanisch (n), ing. Chjuan language /tʃʒu:ɑn ˈlæŋgwɪdʒ/, fr. langue tchoune, azərb. çjuan dili. – Çin Xalq Respublikasının Quansi-Çjuan bölgəsində yaşayan əhalinin dili. Bu dildə 13 milyon əhali danışır. Çjuan dili kök dillərdən hesab olunur. Çoxtonlu dildir (6 tonem fərqləndirir). Hecalanma morfoloji məziyyətlidir. Sözlər arasındakı münasibətlər köməkçi sözlər və söz sırası vasitəsilə müəyyənləşdirilir.

Г.П.Сердюченко. Чжуанский язык. М., 1961.

ЧЖУРЧЖЭНЬСКИЙ ЯЗЫК – alm. Dshursheuisch (n), ing. Chjurchjen language /tʃʒu:rˈtʃʒenɪən ˈlæŋgwɪdʒ/, fr. langue tchourtchonjéne, azərb. çjurçjen dili. – Tunqus-mancur dillərinə aid ölü dil. Əsasən Sunqari çayının sahilində yayıldığı göstərilir.

М.В.Воробьев. Чжурчжэни и государство Цзинь. М., 1975.

ЧИБЧАНСКИЕ ЯЗЫКИ – alm., ing. Chibchan language /ˈtʃɪbtʃən ˈlæŋgwɪdʒ/, fr. langue chibcha, azərb. çibçan dili. – Hindi dilləri qrupu. Mərkəzi və Cənubi Amerikada yayılmışdır. 600 mindən yuxarı daşıyıcısı vardır. Çibçan dilləri təqribən 20 yarımqrupa bölünür. Rama, malçora, quatuzo, talaman, çibça, oromino, koiba, çiripo, pokosi, andaki, Timana, yalkon, viseyta, aruak və s. çibçan dillərinə aiddir. Bu dil qrupuna daxil olan dillərin əksəriyyəti ölü dillərdir.

E.S.Alphonse. Guaymi grammar and dictionary. Washington, 1956.

ЧИСЛИТЕЛЬНОЕ - alm. Tschibtschanisch (n) Zahlwort (n), Numerale (n), ing. numeral /ˈnju:mərəl/, fr. adjectif, numéral, azərb. say. – Ayrılqda heç bir mənası olmayan, lakin düzülüşdən asılı olaraq müəyyən məna kəsb edən, mücərrəd rəqəmləri, canlı və cansızların miqdarını və sırasını bildirən, sintaktik cəhətdən əsasən təyin kimi çıxış edən, xüsusi morfoloji göstəricisi olmayan nitq hissəsi. Saylar əşyanın miqdarını (üç kitab, iki qələm), sırasını (dördüncü, üçüncü), bölgüsünü (bir-bir, iki-iki, tək-tək), bütövün hissəsini (beşdə bir, onda iki), təxminliyini (az, yüzlərcə, minlərcə) və s. bildirir.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 229.

ЧИСЛИТЕЛЬНОЕ АДДИТИВНОЕ - alm. Additionszahlwort (n), Additivnumerale (n), ing. additive numeral /ˈædɪtɪv ˈnju:mərəl/, fr. adjectif numéral aditif, azərb. tərkibi (additiv) saylar. - Sadə sayların

birləşməsindən yaranan tərkibi saylar. Məs.: Azərb. d. /on bir/, /on beş/, /iyirmi üç/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 229.

ЧИСЛИТЕЛЬНОЕ ДРОБНОЕ - alm. Bruchzahlwort (n), ing. fraction numeral /ˈfrækʃən ˈnju:mərəl/, fr. nom de fraction, azərb. kəsr sayı. – Vahidin tam deyil, hissələrdən ibarət miqdarını bildirən say. Azərbaycan dilində kəsr sayı düzəltmək üçün tamı bildirən rəqəm yerlik halda, hissəni bildirən rəqəm isə adlıq halda olur. Müq. et: Azərb. d. /Dördə üç/, /üçdə bir/ və s. Alm. d. bu /-tel/ şəkilçisi, rus d. isə tamı bildirən say /-ых/, /их/ şəkilçilərini qəbul edir. Müq. et: /zehntel/ (onda bir) /одно пятых/ /два десятых/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 229; О.С.Ахманова. Göstərilən əsəri, s. 515.

ЧИСЛИТЕЛЬНОЕ КОЛИЧЕСТВЕННОЕ - alm. Grundzahlwort (n), ing. cardinal numeral /ˈkɑ:dənəl ˈnju:mərəl/, fr. nom de nombres, adjectif numéral cardinal, azərb. miqdar sayları. – Əşyanın və canlıların müəyyən kəmiyyətini, dəqiq və ya konkret miqdarını bildirən say. Miqdar saylarının heç bir formal və ya xüsusi şəkilçiləri yoxdur. Məs.: Azərb. d. /beş/, /on beş/, /iyirmi/; ing. d. /twenty two/ (iyirmi iki); alm. d. /zweiundzwanzig/ (iyirmi iki)və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 229; О.С.Ахманова. Göstərilən əsəri, s. 515.

ЧИСЛИТЕЛЬНОЕ МУЛЬТИПЛИКАТИВНОЕ - alm. Multiplikativnumerale (n), ing. multiplicative numeral /ˌmʌltɪplɪˈkətɪv ˈnju:mərəl/, fr. adjectif numeral multiplicatif, azərb. multiplikativ say. - Ümumi mənası tərkiblərinin bir-birinə vurulmasından düzələn say. Məs.: Azərb. d. /iki vur yüz/, /iki yüz vur beş/; rus d. /дважды два/, /пять умноженный на два/; alm. d. /zwei mal zwei/ (2x2), /Zweihundert/; ing. d. /two hundred/ (iki yüz) və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 229; О.С.Ахманова. Göstərilən əsəri, s. 515.

ЧИСЛИТЕЛЬНОЕ НЕОПРЕДЕЛЁННО-КОЛИЧЕСТВЕННОЕ - alm. unbestimmte Grundzahl (f), ing. indefinite cardinal numeral /ɪnˈdefɪnɪt ˈkɑ:dənəl ˈnju:mərəl/, fr. nom de nombre infinitif, adjectif numeral cardinal infinitif, azərb. qeyri-müəyyən miqdar sayı. - Əşyanın dəqiq miqdarını deyil, ümumi, təxmini kəmiyyətini, miqdarını bildirən say. Məs.: Azərb. d. /çox/, /az/, /xeyli/; alm. d. /viel/, (çox) /wenig/, (az); rus d. /много/, /сколько/, /столько/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 229; О.С.Ахманова. Göstərilən əsəri, s. 515.

ЧИСЛИТЕЛЬНОЕ ОПРЕДЕЛЁННО - КОЛИЧЕСТВЕННОЕ - alm. Kardinalzahlen (Pl.), Grundzahlen (Pl.), ing. definite numeral /'definıt 'nju:mərəl/, fr. nom de nombre défini, adjectif numeral cardinal attributif, azərb. müəyyən miqdar sayı. - Dəqiq miqdarı bildirən say. Məs.: Azərb. d. /beş/, /on/; rus d. /сто/; alm. d. /Tausend/ (1000); ing. d. /hundred/ (100).
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 229; O.C.Ахманова. Göstərilən əsəri, s. 515.

ЧИСЛИТЕЛЬНОЕ ПОРЯДКОВОЕ - alm. Ordnungszahl (f), ing. ordinal numeral /'ɔ:dın(ə)l 'nju:mərəl/, fr. adjectif numeral ordinal, azərb. sıra sayı. - Əşya, şəxs və s-nin müəyyən ardıcıllığını özündə əks etdirən saylar. Rus və alman dillərində 1-ci, ingilis dilində 1-ci və 2-ci başqa köklərdən əmələ gəlir. Müq. et: rus d. /перв+ый/, alm. d. /das erste/; ing. d. /the first/, /the second/ və s. Sıra sayları xüsusi şəkilçilər artırmaqla miqdar saylarından düzəlir. Məs.: Azərb. d. /birinci/, /ikinci/, /üçüncü/; alm. d. /das zenn+te/ (10-cu); ing. d. /the first/ (1-ci); rus d. /пятый/; /десят+ый/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 229; O.C.Ахманова. Göstərilən əsəri, s. 515.

ЧИСЛИТЕЛЬНОЕ ПРОСТОЕ - alm. einfaches Numerale (n), ing. simple numerals /'sımpl 'nju:mərəls/, fr. adjectif numéral simple, azərb. sadə saylar. - Bir əsaslı saylar. Məs.: Azərb. d. /bir/, /iki/, /üç/, /dörd/, /beş/, /yüz/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 229.

ЧИСЛИТЕЛЬНОЕ СОБИРАТЕЛЬНОЕ - alm. Sammlungsnumerale (n), ing. collective numerale /kə'lektıv 'nju:mərəl/, fr. adjectif numéral collectif, azərb. toplu sayı. - Əşyaların miqdarını toplum, bir bütöv halda göstərən say. Məs.: Azərb. d. /beşi/, /altısı/; rus d. /dvoe/, /troe/, /oba/; alm. d. /beide/ (hər ikisi) və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 515.

ЧИСЛИТЕЛЬНОЕ-МЕСТОИМЕНИЕ - alm. Numeralpronomen (n), ing. numeral pronoun /'nju:mərəl prəʊ'naʊn/, fr. adjectif numéral pronominе, azərb. say-əvəzlik. - Dəqiq differensial miqdarı deyil, ümumi miqdar məfhumu bildirən say. Məs.: rus d. /много/, /немного/, /несколько/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 515.

ЧИСЛИТЕЛЬНОЕ- ПРИЛАГАТЕЛЬНОЕ - alm. numerales Adjektiv (n), ing. adjective numeral /'ædʒıktıv 'nju:mərəl/, fr. adjectif numéral, azərb. say-sifət. - Sayma zamanı əşyaların ardıcıllıq sırasını göstərən say. Məs.: Azərb. d. /birinci/, /onuncu/.
Bax: Числительное порядковое ←.

ЧИСЛИТЕЛЬНОЕ-СУЩЕСТИВИТЕЛЬНОЕ - alm. numerales Substantiv (n), ing. noun, substantive numeral /naʊn/'sʌbstəntıv 'nju:mərəl/,

fr. substantif numéral, azərb. ismi say. - Sözdəyişmə (hallanma) formalarına görə isimlə üst-üstə düşən saylar. Məs.: Azərb. d. /bir/, /birin/, /birdə/; rus d. /пять/, /пяти/, /пятью/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 516.

ЧИСЛИТЕЛЬНЫЙ АРТИКЛЬ - alm. Numeralartikel (m), ing. numerical article /nju:'merıkəl 'ɑ:tıkl/, fr. article numéral, azərb. say artiklı. - Mənasına görə «bir» sayına uyğun gələn, qeyri-müəyyənlik bildirən artikl. Məs.: fr. d. /un/, /une/, alm. d. /ein/, /eine/, /ein/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 516.

ЧИСЛО - alm. Numerus (m), Zahl (f), ing. number /'nʌmbə/, fr. nombre, azərb. rəqəm, say. - 1) Bölünən çoxluğun təkinə əşyaların qarşılaşma yolu ilə kəmiyyətin göstərilməsi. Məs.: Azərb. d. /iki/, /üç/, /üçdən çox/ və s.; 2) Predmetlərin fərqlə kəmiyyətini göstərən isim forması. Məs.: Azərb. d. /otaq/-/otaqlar/ və s; 3) Sifətin ismə olan münasibətini göstərən forması. Məs.: rus d. /хорошие ребята/; alm. d. /die guten Kinder/, /ein gutes Kind// ancaq /хороший мальчик/; 4) Təkdə və ya cəmdə olan mübtədaya münasibətdə felin müvafiq forması. Məs.: Azərb. d. /o çimir//, ancaq /onlar çimir+lər// və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 516.

ЧИСЛО ДВОЙСТВЕННОЕ - alm. Dualis, Zweizahl (f), ing. dual number /'dju:əl 'nʌmbə/, fr. duel, azərb. ikilik. - Həm tək-tək əşyalara, həm də əşyalar çoxluğuna qarşı cüt (qoşa) əşyaları fərqləndirən kəmiyyət forması. Məs.: Azərb. d. /hər ikisi/; rus d. /оба/ (обе); alm. d. /beide/; ing. d. /both/ və s.
Bax: Двойственное число ←.

ЧИСЛО ЕДИНСТВЕННОЕ - alm. Singular (m), Einzahl (f), ing. singular number /'sıŋjulə 'nʌmbə/, fr. singulier, azərb. tək hal. - Əşyanın təkliyini, yaxud müəyyən prosesin vahid subyektə aid olduğunu göstərən kateqoriyal kəmiyyət forması. Məs.: Azərb. d. /kitab/; rus d. /книга/; alm. d. /Buch/; ing. d. /book/; fr. d. /livre/ və s. bunlar sayılan əşyalar olduğundan cəmdə işlənə bilirlər. Amma sayıla bilməyən mücərrəd isimlər isə ancaq təkdə işlənirlər
Məs.: Azərb. d. /süd/ (ərzaq adı), /sədaqət/ (mücərrəd isim), /yarpaq/ (topluluq bildirən isim). Bunlar növləri, keyfiyyətləri bildirəndə cəmdə işlənə bilirlər. Məs.: /südlər/ (inək südü, qoyun südü, at südü və s.). Bunlardan fərqli olaraq, dildə yalnız təkdə olan əşya və hadisələr də var ki, onlara singulariatantum ← deyilir. Məs.: alm. d. /Mond/ (ay), /Sonne/ (günəş) və s.
R.Conrad. Göstərilən əsəri, s. 237.

ЧИСЛО МНОЖЕСТВЕННОЕ - alm. Plural (m), Mehrzahl (f), ing. plural number /'plʊərəl 'nʌmbə /, fr. pluriel, azərb. cəm hal. - İsimlərdə

ayrı-ayrı əşyaların çoxluğunu, fellərdə isə prosesin **çoxlu** subyektə aid olduğunu göstərən kəmiyyətin kateqoriyal forması. **Məs.**: Azərb. d. /tələbələr kitabları kitabxanaya təhvil verdilər//. Tək **halından** fərqli olaraq cəm halının xüsusi şəkilçiləri var. Məs.: Azərb. d. /-**lar**/-lər/; alm. d. /-(II)er, -en, -(II)e, -(II), -s/; ing. d. /-s, -iz, -z/; rus d. /-u/ы,-**а, -я,** -ера/ и т.д. Bəzi isimlər tək/cəm korrelyasiyasında iştirak etmir, **onlar** yalnız cəmdə işlənir ki, bunlara pluraliatantum ←deyilir. Məs.: alm. **d. /**Weihnachten/ (xristosun dirilməsi günü), /Masern/ (qızılca), /Windpocken/ (çiçək). Bununla yanaşı hörmət və rəsmi saray müraciətlərində **(bunlara** pluralis modestial və pluralis majestatis deyirlər) cəmdə xüsusi **müraciət** forması işlənir. Məs.: alm. d. /Wir, Friedrich III, Kurfürst von **Brandenburg**/ (Biz, 3-cü Fridrich, Brandenburgun kurfürstü...) və /Biz öz **əsərimizdə** və s./
R. Conrad. Göstərilən əsəri, s. 203.

ЧИСЛО ОГРАНИЧЕННОЕ - alm. Beschränkungsnumerus (m), ing. limited number /ˈlɪmɪtɪd ˈnʌmbə/, fr. nombre limité, **azərb.** məhdud say. - Rus dilində 2-dən 4-ə qədər olan say qarşısında **işlədilən** isimlərin xüsusi kəmiyyət forması. Məs.: rus d. /четыре стола/, /**две** книги/ və s.
О. С. Ахманова. Göstərilən əsəri, s. 516.

ЧИСЛОВОЙ – Bax: Число ←.

ЧИСТАЯ ОСНОВА - alm. Reinstamm (m), ing. pure **stem** /pjʊə stem/, fr. thème pur, azərb. təmiz əsas. - Kök və suffiksdən **ibarət** olan əsas.
Bax: Основа ←.

ЧИСТАЯ СВЯЗКА - alm. reine Konjunktion (f), ing. **pure** copula /pjʊə ˈkɒpjʊlə/, fr. copule propre, azərb. təmiz, sırf bağlayıcı.
Bax: Связка ←.


ЧИСТЫЕ ГЛАСНЫЕ - alm. reine Vokale (Pl.), ing. **pure** vowels /pjʊə ˈvaʊəls/, fr. voyelles pures, azərb. təmiz (sırf) saitlər. - Ağızda tələffüz olunan saitlər.
Fransız dilində /ɛ̃/, /ɑ̃:/, /œ̃:/, /ɔ̃/ saitlərindən başqa **yerdə** qalan saitlərin hamısı ağız saitləridir: /i, y, e, ø, ɛ, œ, ɛ, a, u, o:, ɔ, a:/.
Л.В. Щерба. Фонетика французского языка. М., 1963, **s. 51.**

ЧИСТЫЙ ВОПРОС - alm. reine Frage (f), ing. **pure** question /pjʊə ˈkwestʃən/, fr. question pure, azərb. əsl sual. - Sual **forması** olan, adi məlumata yaxın olan, cavab almaq məqsədilə verilən **sual.**
Bax: Вопрос ←.

ЧИСТЫЙ ЯЗЫК - alm. reine Sprache (f), ing. **pure** language /pjʊə ˈlæŋgwɪʤ/, fr. langue pure, azərb. əsl dil. - Başqa **dillərlə** qarışmaya məruz qalmamış, öz ilkin vəziyyətinin təbii inkişafı **kimi mövcud** olan dil. Əslində belə dil tapmaq olmaz, çünki hər bir dildə **kifayət** qədər alınma söz vardır. Təmiz dil müəyyən mənada fonoloji, **morfoloji** və sintaktik

səviyyələrdə qorunub saxlanılır. Ancaq bəzən bu səviyyələrdə də başqa dilin təsirini görmək mümkündür. Məs.: Azərbaycan dilinə rus dilindən keçmiş sonu yumşaq /l'/ samitilə bitən sözlər rus təhsilli azərbaycanlıların danışığında elə bu cür, yəni yumşaq /l'/ ilə tələffüz olunur. Müq. et: /rol'/, /rol'ları/ və s. Halbuki, Azərbaycan dilinin fonem sistemində sərt və yumşaq samitlərin fonoloji qarşılaşması yoxdur.
F.Veysəlli. SDƏ.

ЧЛЕН - alm. Giled (n), ing. member /'membə/, fr. membre, azərb. üzv. – 1) Roman-german dillərində isimlərin qarşısında gələrək onların müəyyən və qeyri-müəyyənliyini bildirən söz. Məs.: alm. d. /der Mann/ - /aen Mann/; ing. d. /the man/ - /a man/ (ktşt – hər hansı bir kişi) və s; 2) Cümlənin ənənəvi qrammatik üzvlənməsində baş və ya ikinici dərəcəli üzv. Məs.: Azərb. d. /Axşamlar mən maraqlı kitabları həvəslə oxuyardım//.
ЧЛЕН ВТОРИЧНЫЙ - alm. zweites Glied (n), ing. secondary member /'sekəndəri 'membə/, fr. membre second, azərb. ikinci üzv. - Sintaktik hiyerarxiyada sintaktik müstəqilliyinə görə birinci üzvdən sonra gələn üzv. Fransız dilçisi L.Tenyerin sintaktik təlimində (verbosentrik) cümlə 3 üzvdən ibarətdir. Cümlənin mərkəzini (dominantını) fel (xəbər) təşkil edir. Sonra aktantlar gəlir. Aktantlar bilavasitə dominanta tabe olurlar. Üçüncü üzv kimi sirkonstantlar (zərfliklər) və, nəhayət, atributlar gəlir. Müq. et: alm. d. /Der Bruder gibt heute das interessante Buch seiner Schwester// (Qardaş bu gün öz bacısına maraqlı kitab verdi).



F. Yadigar (Veysəlli). GDG, s. 336-344.
ЧЛЕН ДОПОЛНИТЕЛЬНЫЙ - alm. zusätzliches Glied (n), ing. additional member /ə'dıʃənəl 'membə/, fr. terme (membre) complétif, azərb. əlavə üzv. - 1) Fonetik təsvirdə əsas tələffüz məxrəcinə əlavə edilən. Məs.: rus d. samitlərin tələffüzü zamanı dilin orta hissəsinin sərt damağa yaxınlaşması ilə yaranan yumşaq samitlər. Müq. et: /t́/ # /t'/, /d́/ # /d'/ və s; 2) Müəyyən vahidin əsas semantik xarakteristikasını dəyişən və müşayiət edən. Məs.: Azərb. d. /hava haqqında məlumat/ → /bugünkü hava haqqında məlumat//; 3) Sintaktik quruluşda hər hansı bir cümlə üzvünün məzmununu dəqiqləşdirən və məhdudlaşdıran asılı üzv. Məs.: Azərb. d. /Burada bina tikilir// → /Burada (hündür, yaraşıqlı, ikimərtəbəli) bir bina tikilir//.
R.Conrad. Göstərilən əsəri, s. 43.

ЧЛЕН ОПРЕДЕЛЯЕМЫЙ – Grundwort (n), ing. determinate member /dɪ'tə: mınət 'membə/, fr. terme (membre) complété, azərb. təyin olunan üzv. - Təyini söz birləşmələrində təyinedilən üzv, əsas üzv. Məs.: Azərb. d. /yaxşı oğlan//; alm. d. /der gute Knabe//; rus d. /хороший мальчик//; ing. d. /a young man//. Göründüyü kimi, Azərbaycan və ingilis dillərində təyin edilən təyin olunana təsir göstərə bilmir. Ancaq rus və alman dillərində təyin edən söz təyin olunan sözü cinsə, kəmiyyətə və hala görə özünə tabe edir.
R.Conrad. Göstərilən əsəri, s. 43.

ЧЛЕН ОПРЕДЕЛЯЮЩИЙ - alm. bestimmendes Glied (n), ing. determining member /dɪ'tə:mın:ıŋ 'membə/, determinative member /dɪ'tə:mınətıv 'membə/, fr. terme (membre) déterminant, azərb. təyin edən üzv. - Təyini söz birləşməsinin tabe üzvü, atributiv (təyini) sintaqmın asılı üzvü.
Bax: Член определяемый ←.

ЧЛЕН ПЕРВИЧНЫЙ - alm. erstes Glied (n), ing. primary member /'praıməri 'membə/, fr. terme (membre) primaire, azərb. əsas üzv, birinci dərəcəli üzv. - Sintaktik hierarxiyada nisbətən müstəqil, asılı olmayan üzv. Məs.: Azərb. d. /yaxşı oğlan/.
Bax: Член первичный ←.

ЧЛЕН ПОСЛЕДУЮЩИЙ - alm. nachfolgendes Glied (n), ing. next member /nɛkst 'membə/, consequent member /'kɒnsıkwənt 'membə/, fr. terme conséquent (suivant), azərb. sonrakı üzv. - Tabeedici üzvdən sonra gələn asılı üzv. Məs.: alm. d. /Sein Plan, endlich eine Entscheidung herbeizuführen, scheiterte// (Onun, nəhayət, qərar qəbul etmək fikri baş tutmadı). Alman dilində /məsdər+24/ birləşməsilə verilən əlavə təyin Azərbaycan dilində üçüncü üzv təyini söz birləşməsinin tərəfləri arasında gələn məsdər tərkibi kimi tərcümə olunmuşdur.
R.Conrad. Göstərilən əsəri, s. 44.

ЧЛЕН ПРЕДЫДУЩИЙ - alm. vorangehendes Glied (n), ing. preceding, previous member /prı'si:dıŋ pri:vjəs 'membə/, fr. terme antréieur, azərb. əvvəlki üzv. - Özündən sonrakı üzvün izah etdiyi, işarə etdiyi üzv.
Bax: Анафора və ya антеседент ←.

ЧЛЕН ПРОТИВОПОСТАВЛЕНИЯ ВНЕШНИЙ - alm. äußeres Gegenüberstellungsglied (n), ing. (extreme) external member of opposition /ıks'tri:m eks'tə:nəl 'membə əv ˌɒpə'zıʃən/, fr. opposition terme extrême, azərb. qarşılaşmanın kənar üzvü. - Qarşılaşmanın (oppozisiyanın) kənar üzvü. Məs.: /u-o-ö-e/, /u-ü-ö-e/, /u-ü-i-e/ və /u-a-o-e/ korrelyasiyalarında /u-e/ kənar üzvlərdir, onların qarşılaşması təkmeyarlı qarşılaşmaların bir neçə həlqəsindən keçir.
F.Veysəlli. SDƏ. s. 24.

ЧЛЕН ПРОТИВОПОСТАВЛЕНИЯ СРЕДНИЙ - alm. mittleres Gegenüberstellungsglied (n), ing. middle member of opposition /'mɪdl 'membə əv ˌɒpə'zɪʃən/, medium term /'mi:djəm tɜ:m/, fr. membre moyen du terme, azərb. qarşılaşmanın orta üzvü. - Oppozisiyanın axırıncı üzvlərinin ortasında gələn üzv. Məs.: /u-o-ō-e/, /u-ü-ö-e/, /u-ü-i-e/ və /u-a-o-e/ korrelyasiyalarında /o-ö/, /ü-ö/, /ü-i/, /a-o/ orta üzvlərdir.

Bax: Член противопоставления внешний ←.

ЧЛЕН СЛОВОСОЧЕТАНИЯ ГЛАВНЫЙ - alm. Hauptwortverbindungsglied (n), ing. principal (head) word of a word-combination /prɪnsəpəl/hed/wɜ:d əv ə wɜ:d ˌkɒmbɪ'neɪʃən/, fr. terme principal qrup de mots, azərb. söz birləşməsinin əsas üzvü. - Sintaktik cəhətdən müstəqil mövqe tutan, müəyyən söz birləşməsində başqa sözləri özünə tabe edən üzv. Məs.: alm. d. /Tischlampe/ mürəkkəb sözündə və ya /das Buch meines Bruders/ söz birləşməsində ikinci komponent əsas üzvdür. Alman dilində buna «Grundwort» (əsas söz) deyirlər.

D.Clement. Linguistisches Grundwissen. Eine Einführung für zukünftige Deutschlehrer. Opladen, 1996.

ЧЛЕН ФОНЕМНЫХ РЯДОВ ОБЩИЙ - alm. allgemeines Glied der Phonemreihe (n), ing. common member of several phonemic series /'kɒmən 'membə əv 'sevərəl fəʊ'ni:mɪk 'sɪəri:z/, fr. terme général des rangs de phonéme, azərb. fonem cərgəsinin ümumi üzvü. – Moskva və Praqa məktəblərində iki və daha artıq güclü fonemin əvəzləyicisi kimi çıxış edən zəif fonem. Məs.: rus d. /a/ və /o/ fonem cərgələrində /ʌ/ onların əvəzləyicisi kimi çıxış edir. Müq. et: /vʌda'/-/võdı/ sözlərində [ʌ] həm /a/-nın, həm də /o/-nun əvəzləyicisi kimi çıxış edir. Şerba məktəbi isə burada sadəcə olaraq fonem əvəzlənməsindən danışır.

Bax: Архифонема ← гиперфонема ← фонемный ряд ←.

ЧЛЕНЕНИЕ ФОНЕТИЧЕСКОЕ - alm. phonetische Gliederung (f), ing. phonetic articulation /fəʊ'netɪk ɑ:ˌtɪkjʊ'leɪʃən/, fr. articulation phonétique, azərb. fonetik üzvlənmə. - Danışıq aktının üzvlənməsini ilk dəfə İ.A.Boduen de Kurtene irəli sürmüşdür: 1) fonetik və tələffüz-eşitmə elementlərinə və 2) semasioloji-morfoloji elementlərə bölgü. Səs, heca, söyləm fonetik üzvlənmə vahidləridir, morfem, leksem, cümlə isə semasioloji-morfoloji üzvlənmə vahidləridir.

А.А.Гасанов, Ф.Я.Вейсалов. Еще раз о минимальной единице членения речевого потока.–«Ученые записки» АПИЯ им. М.Ф.Ахундова, 1974, серия XII, №1, s. 9-17.

ЧЛЕНЕНИЕ ФОНОЛОГИЧЕСКОЕ - alm. phonologische Segmentation (f), ing. phonological segmentation /fəʊnə'lɒʤkəl 'segməntеɪʃən/, fr. articulation phonologique, azərb. fonoloji üzvlənmə. - Danışıq zənciri-

nin fonoloji üzvlənməsi. Fonoloji üzvlənmə və ya fonemlərin danışıq aktından ayrılıb götürülməsi prinsiplərini Şerba məktəbi qrammatik məna kriteriyaları əsasında işləyib hazırlamışdır. Bu kriteriyalara əsasən fonemlərin danışıq aktından ayrılıb götürülməsi səsin qrammatik məna ilə ən azı potensiyada bağlı olması sayəsində mümkün hesab edirlir. Məs.: Azərb. d. /dolab/ sözünün kökü /dolamaq/ felindəndir. /b/ isə /dolab/-da sözdüzəldici şəkilçi kimi çıxış edir, yəni /b/ /dola/ əsasından morfoloji sərhəd vasitəsilə ayrılır. Bunula da /b/ avtonomluq qazanır və /bud/, /baş/ və s. sözlərdə onun morfoloji sərhədlə ayrılması mümkün olmadığı halda öz müstəqilliyini, yəni fonemliyini qoruyub saxlaya bilir. Dilin bütün fonemlərinin bu cür ayrılıb götürülməsi Şerba məktəbini digər fonoloji məktəblərindən fərqləndirən cəhətdir.
F.Veysəlli. SDƏ, s. 103-121.

ЧЛЕНЕНИЕ ФРАЗЫ АКЦЕНТНОЕ - alm. Akzentgliederung der Phrase (f), ing. accentual segmentation of phrase /ək'sɛntjʊəl 'segmənteɪʃən əv freɪs/, fr. articulation accentuelle de la, azərb. söyləmin aksent üzvlənməsi. - Söyləmin aksent qruplarına, dövrlərə və ya sintaqmlara bölünməsi. Məs.: Azərb. d. /Qoca/ atlı cavana''' yaxınlaşdı//, /qoca '''atlı/ cavan''a yaxınlaşdı//; rus d. /Казнить/ нельзя помиловать//; /Казнить нельзя/, помиловать//. Göründüyü kimi, aksentdən asılı olaraq cümlənin üzvlənməsi tamam fərqli olur.
Bax: Синтагма ←.

ЧЛЕНИМОСТЬ МОРФОЛОГИЧЕСКАЯ - alm. morphologische Gliederung (f), ing. morphologic(al) segmentation (divisibility) /ˌmɔ:fə'lɔʤɪk(əl) 'segmənteɪʃən /dɪˌvɪzɪ'bɪlɪtɪ/, fr. (articulation) démembrement morphologique, azərb. morfoloji üzvlənmə. – Sözün morfem tərkibinə (kök, əsas və affikslərə, şəkilçilərə) parçalana bilmək qabiliyyəti. Məs.: Azərb. d. /inam/ sız-lıq-dan/ /bezmişik// cümləsində birinci söz /inam/ avtosemanntik və /sız/-/lıq/ və /dan/ sinsemantik morfemlərə bölünür.
F.Veysəlli. SDƏ. s. 271.

ЧЛЕНОРАЗДЕЛЬНЫЙ - alm. artikuliert, ing. articulate /ɑ:'tɪkjʊlɪt/, fr. articulé, azərb. üzvlənə bilən. - 1) Ayrıla bilən, ayrıca tələffüz oluna bilən. Məs.: Azərb. d. /a+t+a/; 2) Sözlərin və ya söz birləşmələrinin ayrılıb götürülə bilən. Məs.: Azərb. d. /ata+lar+söz+ü//; 3) Mürəkkəb bütövün tərkib hissələrinə parçalanması. Məs.: Azərb. d. /Nə tökərsən aşına/ o da çıxar qaşığına// və s.
А.А.Гасанов, Ф.Я.Вейсалов. Еще раз о минимальной единице членения речевого потока. «Ученые записки» АПИЯ им. М.Ф.Ахундова, 1974, серия XII, №1, s. 9-17.

ЧЛЕНЫ ПОЗИЦИОННЫЕ - alm. Stellungsglieder (Pl.), ing. positional members /pə'zɪʃənəl 'membəz/, fr. membres positionneles, azərb. pozision üzvlər. – Cümlənin ikinci dərəcəli üzvləri.

Bax: Второстепенные члены предложения ←.

ЧЛЕНЫ ПРЕДЛОЖЕНИЯ - alm. Satzglieder (Pl.), ing. parts of the sentence /pɑ:ts əv ðə 'sentəns/, terms /tɜ:ms/, fr. membres de la proposition, azərb. cümlə üzvləri. – Ənənəvi qrammatikada baş (mübtəda, xəbər) və ikinci dərəcəli üzvlər (tamamlıq, təyin, zərflik) cümlənin əsas struktur elementləridir. Bunlar müxtəlif dillərdə sayca və funksiyaca müxtəlif ola bilər. Onların müəyyənləşməsi və bölgüsü nəzəri yanaşmadan asılıdır. Cümlə üzvü kimi bir söz (heute), söz qrupu (vor zei Tagen), budaq cümlə (dedi ki, iki gündən sonra gələ bilər) və s. çıxış edə bilər.

H. Bußmann. Göstərilən əsəri, s. 662.

ЧОКАНЬЕ - alm. artige Aussprache (f), ing. Tchokanje /tʃɒkənʒi/, fr. claquement, azərb. «Ç»-laşma. – Bəzi dialektlərdə /ʦ/ foneminin /ʧ/ kimi tələffüzü. Məs.: /ʦirk/ əvəzinə /ʧirk/ tələffüz olunur.

M.A.Şirəliyev. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1962.

ЧРЕЗМЕРНАЯ СТЕПЕНЬ – alm., ing. excessive degree /ɪk'sesɪv dɪ'gri:/, fr. degré superlatif (excessif), azərb. çoxaltma dərəcəsi. – Müəyyən əlamət və keyfiyyətin adi dərəcəyə nisbətən çoxluğunu bildirən sifətin çoxaltma dərəcəsi. Məs.: Azərb. d. /ən yaxşı/, /çox gözəl/, /yamyaşıl/, /gömgöy/ və s.

O.C.Ахманова. Göstərilən əsəri, s. 519.

ЧТЕНИЕ ОШИБОЧНОЕ - alm. Verlesen, Fehlerlesen (n), ing. misreading /'mɪs'ri:dɪ:ŋ/, fr. mélecture, azərb. səhv oxuma. - Oxu zamanı mətnin düzgün səsləndirilməməsi. Bu təkcə mətnin səhv başa düşülməsilə deyil, bəzi hallarda, xüsusən əlyazmalarda (kitab nəşrinə qədərki dövrlərdə) sözlərin dəyişməsinə, yaxud parçalanma yolu ilə yeni sözlərin yaranmasına gətirib çıxarır.

O.C.Ахманова. Göstərilən əsəri, s. 519.

ЧУВАНСКИЙ ЯЗЫК – alm. Tschuwanisch (Jukagirisch) (n), ing. Chuvan language /ʧu:vɑn 'læŋgwɪʤ/, fr. langue tchouvane, azərb. çuvan dili. – Yukagir dilinin ölü dialekti. Bəzi tədqiqtçıların qənaətinə görə, bu dialekt əvvəllər müstəqil dil olmuşdur. Əsasən Anadır çayı hövzəsində yayılmışdır.

E.A.Крейнович. Юкагирский язык. M.,-Л., 1958.

ЧУВАШСКИЙ ЯЗЫК – alm. Tschuwaschisch (n), ing. Chuvash language /'ʧu:vɑ:ʃ 'læŋgwɪʤ/, fr. langue tchouvache, azərb. çuvaş dili. – Türk dillərinin bulqar yarımqrupuna daxil olan dillərdən biri. Əsasən Çuvaş, qismən də Tatarıstan və Başqırdıstan Respublikalarında yayılmışdır. Çuvaş dilində 1 milyon 694 min nəfər əhali danışır.

И.А.Андреев. Чувашский язык. «Языки народов СССР», т. 2, M., 1966.

ЧУЖАЯ РЕЧЬ - alm. indirekte (fremde) Rede (f), ing. (foreign) indirect speech /'fɔrın/ ındı'rekt spi:tʃ/, fr. discour étranger, azərb. başqasının nitqi (vasitəsiz nitq).
Bax: Косвенная речь ←.
ЧУЖОЕ СЛОВО - alm. Fremdwort (n), ing. partially loan /'pɑ:ʃəlı ləun/, alien word /'eılјən wɜ:d/, alienism /'eılјənızəm/, fr. mot étranger, azərb. yad, əcnəbi söz. - Tam mənimsənilməmiş alınma söz. Aydın şəkildə alınma olduğu bilinən söz. Məs.: Azərb. d. /ştrı+/, /şlang/ və s. sözlərin əvvəlində dilimizə yad olan /ştr/ və /şl/ samitlərinin birləşməsi gəldiyindən onların alınma söz olduğu asanlıqla müəyyən edilir.
F.Veysəlli. Dilimiz, qeyrətimiz, qayğılarımız. Bakı, 1993; F.Yadigar (Veysəlli). GDG.
ЧУКОТСКИЙ ЯЗЫК – alm. Tschukotisch (Čukčisch) (n), ing. Chukchi /'tʃuktʃı/, the Chukchi language /ði 'tʃuktʃı 'læŋgwıdʒ/, fr. langue tchoukot, azərb. çukot dili. – Çukot-Kamçatka dillərinin çukot-koryak qoluna daxil dil. Əsasən Çukot və Koryak vilayətlərində yayılmışdır. Çukot dilində 11 min nəfər əhali danışır. Yazısı kiril əlifbası əsasındadır.
П.Я.Скорик. Грамматика чукотского языка. ч. 1, М.,-Л., 1961; ч. 2, Л., 1977.
ЧУКОТСКО - КАМЧАТСКИЕ ЯЗЫКИ – alm. Tschukotisch – Kamtschatka-Sprachen (Pl.), ing. Chukot(ski) Chuckchee Kamchatka languages /tʃukɔt(skı) 'tʃuktʃı kəm'tʃætkə 'læŋgwıdʒız/, fr. langue tchoukoto-kamchatka, azərb. çukot-kamçatka dilləri. – Çukotka və Kamçatka yarımadalarının yerli əhalisinin ana dili. Bu dillərdə ümumilikdə 20 min əhali danışır. Çukot-Kamçatka dilləri iki qrupa bölünür: çukot-koryak və itelmen.
В.Г.Богораз. Чукчи (перевод с английского языка), т. 1-2, Л., 1934-39.
ЧУЛЫМСКО-ТЮРКСКИЕ ЯЗЫКИ – alm. Tschulumtürkische Sprachen (Pl.), ing. Chulm-Turkic languages / tʃulm 'tə:kık 'læŋgwıdʒız/, fr. langues tchoulym-turques, azərb. çulım-türk dilləri. – Türk dillərindən biri. Ob çayının sol qolu Çulım çayının sahillərində yayılmış türk dili. Çulım dilində 600 nəfər əhali danışır. Yazısız dildir.
Р.М.Бирюкович. Звуковой строй чулымско-татарского языка. М., 1979.
ЧУТЬЁ ЯЗЫКОВОЕ - alm. Sprachgefühl (n), ing. linguistic feeling /lıŋ'gwıstık 'fi:lıŋ/, sense or feeling for language /sens ɔ: 'fi:lıŋ fɔ: 'læŋgwıdʒ/, fr. sentiment de la langue, azərb. dil duyğusu, dil həssaslığı. - Dil daşıyıcısının öz doğma dilində düzgünluk meyarı kimi dəyərləndirdiyi qaydalar məcmusu. Bu duyğu əsasında hər bir dil daşıyıcısı öz dilində düzgün cümlələri səhv cümlələrdən asanlıqla fərqləndirə bilir. İ.A.Boduen de Kurtene dilin təhlilində dil duyğusunu xüsusi qeyd edirdi. N.Xomski isə bunu dil səriştəsi+dil tətbiqi adlandırır.
F.Yadigar (Veysəlli). GDG. s. 73.

– III –

ШАБЛОН - alm. Clishee (n), ing. cliche /'kli:ʃeı/, stereotyped construction /'stıərıətaıpt kən'strʌktʃən/, fr. patron, calibre, vérificateur, azərb. basmaqəlib, şablon. - Danışıqda mexaniki olaraq təkrarlanan, qəti şəkildə müəyyənləşdirilmiş sintaktik ülgü (model,) Buraya stereotiplər, kəlamlar (Schlagwörter), dəbdə olan sözlər, şüarlar, açar sözlər və s. daxildir. Onlar düşünmə və dərketmə prosesini sadələşdirməklə hissi və qavrayışı sürətləndirir. Məs.: alm. d. /Meine Damen und Herren/ (xanımlar və bəylər); Azərb. d. (Siz bilirsiz ki, Vətən dardardır) və s.
P.H.Matthews. Göstərilən əsəri, s. 56.

ШАНСКИЙ ЯЗЫК – alm. Schan (n), ing. shan language /ʃɑ:n 'læŋgwıʤ/, fr. langue chane, azərb. şan dili. – Tay dillərindən biridir. Əsasən Mıyanma (keçmiş Birma) yüksəkliyində, Çin, Tailand, Laos və s. ölkələrdə yayılmışdır. Şan dilində 3 milyondan yuxarı əhali danışır. Üç əsas dialektə: taylonq, tay-le və tay-mau bölünür.
Л.Н.Морев. Шанский язык. М., 1983.

ШАРИ-НИЛЬСКИЕ ЯЗЫКИ – alm. Schari-Sprachen (pl), ing. Shari Nilotic languages /ʃa:rı_naı'lɔtık 'læŋgwıʤız/, fr. langues charis-niliennes, azərb. şari-nil dilləri. – Nil-saxar dilləri ailəsi. Əsasən Nil çayının hövzəsində, Viktoriya gölünün sahilində, Sudan, Keniya, Uqanda və Həbəşistan dövlətlərinin ərazisində yayılmışdır. Şari-Nil dilləri ailəsi dörd əsas qrupa bölünür: şərqi-Sudan (nubi, maxas-fadica, birked, murle, masonqo, tama, sunqor, nandi, suk və s.); mərkəzi-Sudan (bonqo, sara, kara, bagirmi, moru, madi, loqo, asua və s); kunama (kunama) və berta (berta).
J.Greenberg. The lnguages of Africa. Bloomington-The Hague, 1963.

ШВЕДСКИЙ ЯЗЫК – alm. Schwedisch (n), ing. Swedish /'swi:dıʃ/, the Swedish language /ði: 'swi:dıʃ 'læŋgwıʤ/, fr. le suédois, langue suédoise, azərb. isveç dili. – Skandinaviya dilərindən biridir. Əsasən İsveç, Finlandiya, Amerika və Kanada dövlətlərinin ərazilərində yayılmışdır. 10 milyon daşıyıcısı vardır. İsveç Krallığının və həmçinin Finlandiyanın ikinci rəsmi dilidir. 6 dialekti məlumdur. Uzun və qısa sait və samitlərin, habelə vurğunun musiqili olmasının əsas fonetik xüsusiyyətləridir. İki cinsi (ümumi və orta) fərqləndirilir. Sifətlər cinsə və kəmiyyətə görə dəyişir. Felin 4 təsriflənən forması vardır. Yazısı latın əlifbası əsasında hazırlanmışdır.
С.С.Маслова-Лашанская. Шведский язык. Л., 1953.

ШЕПЕЛЯВОСТЬ - alm. Lispeln (n), ing. lisping /lɪspɪŋ/, fr. blésement, susseyement, zézaiement, clichement, azərb. fısıltılıq. - /z/ və /s/ samitlərinə fısıltılı çalarlıq verilməsi.
O.C.Ахманова. Göstərilən əsəri, s. 519.

ШЕПЕЛЯВЫЕ СОГЛАСНЫЕ - alm. lispelnde Konsonanten (Pl.), ing. lisping consonants /lɪspɪŋ 'kɒnsənəntz/, fr. consonnes blésement, azərb. fışıltılı samitlər. - Tələffüzü zamanı dilin ön hissəsi ilə sərt damaq arasında dar nov yaranır, yumşaq damaq pərdəsi yuxarı qalxaraq burun boşluğunu tutur, hava axınının dilin ön hissəsinin əmələ gətirdiyi yastı novdan keçməsilə əmələ gələn samit səslər. Məs.: Azərb. d. /z/ və /s/ fışıltılı samitlərdir.
F.Veysəlli. SDƏ. s. 127-129.

ШЁПОТ - alm. Flüstern (n), ing. whisper /'wɪspə/, fr. chuchotement, azərb. pıçıltı. - Gizlincə nəyisə demək istəyəndə seçilən danışıq üslubu. Fizioloji baxımdan bu səs cığırının bağlanması, ancaq vəzlər arası keçidin açıq olması vəziyyətində yaranır. Müq. et. /ʌ/.
A.A.Реформатский. Göstərilən əsəri, s. 165-166.

ШЁПОТНЫЙ ЯЗЫК - alm.Flüstersprache (f), ing. whispered sound /'wɪspəd 'saʊnd/, fr. langue de chuchotante, azərb. pıçıltılı danışıq. – İctimai yerlərdə, teatrda və ya hər hansı bir təntənəli iclasda əyilib yanında oturana nəsə demək istəyəndə bu cür danışıqdan istifadə edirik.
A.A.Реформатский. Göstərilən əsəri, s. 165-166.

ШЁПОТНЫЙ ГЛАСНЫЙ - alm. Flüstervokal (m), ing. whishpered vowel /'wɪspəd 'vaʊəl/, fr. voyelles chuchotante, azərb. pıçıltılı sait. – 1) Saitlərin tələffüzü zamanı təmiz səsin hava axınının vəzlərarası cığırın divarlarına sürtünərək əmələ gələn küylə əvəz olunması. 2) Qonşu kar samitlərlərin təsiri nəticəsində vurğusuz saitlərin əmələ gələn mövqe variantı. Məs.:, rus d. /«топот»/ və /«шопот»/ sözlərində ikinci saitlər qonşu kar samitlərin əhatəsində zəifləyir, sait ani bir pıçıltı səs kimi eşidilir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 165-166.

ШИЛЛУК – alm. Schilluk (n), ing. Shilluk language /ʃɪ'lu:k 'læŋgwɪdʒ/, fr. langue shillouque, azərb. şilluk dili. – Nilot dillərindəndir. Cənubi Sudanda yayılmış dillərdən biridir. 370 min daşıyıcısı məlumdur. Yazısız dildir. Əsasən məişət səviyyəsində istifadə olunur.
D.Westermann. The Shilluk people, their language and folklore. Philadelfia, 1912.

ШИПЯЩИЕ СОГЛАСНЫЕ - alm. Zischlaute (Pl.), ing. hushing sounds /ˌhʌʃɪŋ 'saʊndz/, fr. consonnes chuintantes, azərb. fışıltılı samitlər. – Tələffüzü zamanı əvvəlcə tam maneə, sonra isə yarımçıq maneə yaranması nəticəsində əmələ gələn samitlər. Çağdaş Azərbaycan dilində


novlu dilönü və kipləşən-novlu affrikat /ʒ/, /ʃ/, /ʤ/, /ʧ/ buna misal ola bilərlər. Müq. et: /ʧæmæm/, /ʤælal/, /ʃamil/ və s.
A.A. Реформатский. Göstərilən əsəri, s. 485.

ШИРОКАЯ ТРАНСКРИПЦИЯ - alm. breite Transkription (f), ing. broad transcription /brɔ:d træns'krıpʃən/, fr. transcription large, azərb. geniş transkripsiya.
Bax: Фонетическая транскрипция ←.

ШИРОКИЕ ГЛАСНЫЕ - alm. Breitvokale (Pl.), ing. broad vowel /brɔ:d 'vaʊəl/, fr. voyelles larges, azərb. açıq saitlər. - Tələffüzü zamanı dilin ucu yuxarı qalxmır, alt çənə isə aşağı düşür, yəni dil ağız boşluğunda neytral vəziyətdə uzanıb qalır. Müasir Azərbaycan dilində açıq saitlər bunlardır: /a/, /o/, /ə/, /e/. Onlardan ikisi qalın /a/, /o/, ikisi isə incədir /ə/, /e/. Azərb. d. /a/ saiti maksimum açıq sait hesab olunur.
F. Veysəlli. SDƏ. s. 143-149.

ШКОЛА ЖЕНЕВСКАЯ - alm. Genfer Schule (f), ing. Geneva school /ʤı'ni:və sku:l/, fr. école de Genève, azərb. Cenevrə məktəbi. - Dilçilikdə sosioloji cərəyana yaxın olan Cenevrə məktəbi F. de Sössürün ideyaları əsasında yaranmışdır. Bu dilçilik məktəbinin baniləri A.Seşe və Ş.Balli hesab olunurlar. A.Seşe elmi fəaliyyətini sintaksisin nəzəri problemlərinə həsr etmişdir. Onun əsas fikir və mülahizələri «Ümumi dilçiliyin Cenevrə məktəbi» məqaləsində öz əksini tapmışdır. Ş.Ballinin tədqiqatları əsasən fransız dilinin üslubiyyatına həsr olunmuşdur.
P.H.Matthews. Göstərilən əsəri, s. 145.

ШКОЛА КОПЕНГАГЕНСКАЯ - alm. Kopenhagener Schule (Glossematik) (f), ing. Copenhagen (glossematic) structuralism /ˌkoupn'heıg(ə)n, -'kəup(ə)n/glɒsə'matık/'strʌktʃərəlızm/, fr. école de Copenhague, azərb. Kopenhagen məktəbi. - Bunu əksəriyyət qlossematika məktəbi adlandırır. Avropada struktur dilcilik ənənələrini inkişaf etdirən ikinci böyuk məktəb Kopenhagendə yaranmışdır. Bu məktəbin ən böyük nəzəriyyəçisi L. Hyelmslev idi. L. Hyelmslev Bröndalla birlikdə 1934-cü ildən «Bulletin du Cercle Linguistique de Korenhagae» məcmuəsini çap etdirir. Bu məcmuənin səhifələrində dil haqqında maraqlı məqalələr çap olunur. L. Hyelmslev «Prolegomena to a Theorie of Language» (1953) adlı nəzəri əsərində dilin ifadə tərəfi ilə bərabər məna tərəfinə də ciddi fikir verir. L.Hyelmslev hər iki aspektin forma və substansiyasını qabarıq şəkildə göstərməyə çalışır. Dildəki vahidlərin həm məna, həm də ifadə səviyyəsində maddi varlığı onların formalarına qarşı qoyulur. Hər iki səviyyənin formasını dilçiliyə daxil edir, maddi varlıqları isə dilçilikdən kənara çıxardır.



İstər ifadənin, istərsə də məzmunun varlığı bütün dillər üçün eynidir. Məzmunun maddi varlığı isə ətraf aləmdəki şeylərin əksidir, bunun əksinə olaraq ifadənin maddi varlığı fonetik səciyyə daşıyır. Məzmun və ifadənin formaları bir-biri ilə sıx əlaqədardır və kommutasiya qanunları ilə idarə olunur. İfadədəki formanın dəyişməsi məzmunun formasının dəyişməsinə gətirib çıxarır və ya əksinə. L. Hyelmslev yuxarıda adı çəkilən əsərində yazır ki, qlossematika konvensial dilçilikdən fərqli olaraq elə elm sahəsidir ki, o, ifadə haqqındakı elmi fonetika adlandırmır. Eyni zamanda məna haqqında elmi semantika adlandırmır. Mənanın forması ilə substansiyası arasındakı əlaqəni o desiqnasiya, substansiyanın özünü isə desiqnatum (şeylər və fikirlər) adlandırır. Forma sırf dildaxili, substansiya isə dilxarici aspekti bildirir. Öz baxışlarını başqalarından fərqləndirmək üçün L. Hyelmslev dilə belə tərif verir: O «qeyri-linqvistik...fonemlərin konqlemeratı olmayıb, müstəqil, bütöv, sui generis strukturdur». «Dil təmiz əlaqələr strukturudur...praktik reallaşmadan asılı olmayan formadır və ya sxemdir».
F. Yadigar (Veysəlli.) Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 28.

ШКОЛА МЛАДОГРАММАТИЧЕСКАЯ - alm. jungrammatische Schule (f), ing. young (neo-) grammarians a school /jʌŋ/ˌni:ou /grəˈmeərɪən ə sku:l/, fr. école des néogrammairiens, azərb. Gənc qrammatiklər məktəbi. - XX əsrin 70-ci illərindən başlayaraq 90-cı illərdə ən yüksək inkişaf mərhələsinə qədəm qoymuş gənc qrammatiklər cərəyanı dilçilikdə yeni mərhələ idi. Onların təsəvvüründə dil fərdi psixofiziki hadisədir. Dildəki dəyişikliklər fərdin adicə danışıq fəaliyyətilə bağlı olduğundan onlar dil qanunlarını öyrənmək üçün canlı dillərə müraciət edirlər, hind-Avropa dillərinin ulu formasının bərpası fikirinə etinasızlıq göstərirdilər.

Gənc qrammatiklər dilə daim dəyişməkdə olan bir hadisə kimi yanaşdıqlarından onlarda tarixçilik çox güclü şəkildə özünü büruzə verirdi. Onlardan bəzisi dil tarixinə ciddi əhəmiyyət verir və ayrı-ayrı dillərin ulu formasını bərpa etməklə məşğul olurdu (H.Paul). Dildə yaranan yeni elementləri onlar anologiya assosasiyasına və fonetik qanunları fizoloji amillərə əsaslanaraq şərh edirdilər. Bunları kəşf etməklə gənc grammatiklər dilin daxili mexanizmini açmağa can atırdılar.

Gənc qrammatiklər fonetik qanunları zaman və məkan məhdudiyyətləri analogiyasının fəaliyyəti, sonradan gələn alınmalar və müəyyən fonetik şəraitlə izah edirdilər. Onlarda əsas yeri fonetika tuturdu, onlar morfologiyaya az diqqət yetirirdilər, ancaq sintaksisi heç yaxına qoymurdular. Gənc qrammatiklər eyni zamanda mənanı kənar edir, formanı, xüsusilə səsləri ön plana çəkirdilər.

«Dilin tarixilikdən başqa elmi tədqiqini söyləmək səhvə yol vermək deməkdir. Dilin qeyri-tarixilik baxımından şərhini elmi şey kimi qəbul etmək əslində tamamilə tarixilikdən uzaq düşmək və ya tədqiqatçının, ya da müşahidə obyektinin tamamilə səhv olmasından başqa bir şey deyildir. Ayrı- ayrı şeylərin adicə izahından kənara çıxmaqla biz eyni zamanda əlaqəni şərh etmiş oluruq və bu özümüzə aydın olmasa da tarixilik mövqeyində durmaq deməkdir». Г. Пауль. Принципы истории языка. M., 1960, s. 19.

Əslində gənc grammatiklərin tarixiliyi ayrı-ayrı səsləri və onların formalarını öz sistem və funksiya əlaqələrindən ayıraraq onların tarixinə aparıb çıxaran bir metoddur. Bu da dilçilik tarixində atomizm kimi müəyyən edilmişdir –

F. Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 18-19.

ШКОЛА НЕОЛИНГВИСТИЧЕСКАЯ - alm. neolinguistische (idealistische) Schule (f), ing. a school of neolinguistics /ə sku:l əv ˈni:olɪŋˈgwɪstɪks/, fr. école néolinguistique, azərb. neolinqvistik məktəb. - Gənq qrammatiklərlə mübarizədə yetişən dilçilik məktəblərindən biri kimi neolinqvistika və yaxud idealist dilçilik məktəbi romanistlər K.Fossler (1872-1949) və B.Krose (1866-1952) tərəfindən irəli sürülmüş

proqram əsasında formalaşmışdır. Gənc qrammatiklərdən fərqli olaraq, neolinqvistlər dilə estetik ifadələrin məcmusu kimi baxırdılar. Neolinqvistlər üçün dil dildir, yəni estetik ifadələrin məcmusudur. Neolinqvistlər dilçilik coğrafiyası ideyasını irəli sürürdülər. Onlar dilçiliyə fəlsəfə, mədəniyyət və dil tarixini cəlb etməklə bədii dili fərdi yaradıcılıq kimi başa düşürdülər.

K. Vossler. Positivismus und Idealismus in der Sprachwissenschaft. Heildelberg, 1904; H. Bußmann. Göstərilən əsəri, s. 319.

ПРАЖСКАЯ ШКОЛА - alm. Prager Schule (f), ing. the Prague school /ðə prɑ:g sku:l/, fr. École de Prague, azərb. Praqa məktəbi. – Dilcilikdə Praqa məktəbi struktur-funksional istiqamət kimi tanınır. Struktur dilçiliyin ən güclu qollarından biri Praqa məktəbidir. Bu məktəb 1929-cu ildən başlayaraq «Travaux du Cercle Linguistique de Pragu» adlı dərgi çap etdirir. Həmin dərginin 8 sayı çapdan çıxır və İkinci Dünya müharibəsinin başlanması dərginin çapını dayandırır.

Praqalıların dilə baxımında struktur və funksional istiqamət yanaşı gedirdi. Hər bir strukturda bütövün funksiyası açılıb göstərilirdi. Ona görə də bu məktəbi dilçilik tarixində funksional dilçilik kimi də tanıyırlar. Praqa məktəbi F. de Sössürün dilə dair baxışlarını dərinləşdirir, eyni zamanda böyük ustadın dil və danışıq, dil və dilxarici reallıq, diaxroniya və sinxroniya qarşılaşmalarını xüsusi bir vurğu ilə bir-birindən ayırırdı. Funksiya dedikdə onlar dil vahidinin yerinə yetirdiyi yüku, vəzifəni başa düşürdülər.

Praqa dilçilik məktəbinin ən parlaq nümayəndəsi N.S. Trubeskoy dilin fonetik layını çox dərindən tədqiq edərək qarşılaşmalar (oppozisiyalar) nəzəriyyəsini işləyib hazırladı, fonologiyanı fonetikadan ayırmağa səy göstərdi, birincini humanitar, ikincini isə təbiətşünaslıq elmi kimi əsaslandırmağa çalışırdı.

Praqalılarda üstün istiqamətlərdən biri də cümlənin kommunikativ səpgidə öyrənilməsi idi. Onlar hər bir cumlədə iki cəhəti xüsusi olaraq ayırırdılar:

Tema-rema münasibətlərini. Bu, cümlənin aktual üzvülənməsində yeni fikirin məluma qarşı qoyulmasıdır, bu da cumləyə funksional yanaşmanın nəticəsi idi.

F.Yadigar (Veysəlli). Fonetka və fonologiya məsələləri. Bakı, 1993, s. 26-27.

ШКОЛА «СЛОВ И ВЕЩЕЙ» - alm. Wörter- und Sachenrichtung (f), ing. words and things school /wɜ:dz ænd θɪŋs sku:l/, fr. école, «des mots et des objets», azərb. «Sözlər və əşyalar» məktəbi. - «Sözlər və əşyalar» məktəbinin banisi Avstriya dilçisi H. Şuxartdır (1842-1927). Bu məktəb 1909-cu ildə nəşr olunmağa başlayan «Sözlər və əşyalar» («Wörter und Sachen») jurnalının adından götürülmüşdür. «Sözlər və əşyalar» məktəbinin əsas müddəaları bunlardır:

1. H. Şuxardt gənc qrammatiklərin fonetik qanunlar barəsindəki iddiasını qəbul etmirdi. «Fonetik qanunların pozulmazlığı təlimi səbəbiyyət elmi qanunu ilə əlaqədar olaraq, elmin gələcəkdə inkişafı üçün əngəl yaradır»;
2. Gənc qrammatiklər etimologiya ilə sözlərin səs cildinin dəyişməsi tarixini bir tutur və bunu istisna bilməyən səs qanunları əsasında izah edirlər. H. Şuxardt isə etimologiyanın, eyni zamanda sözlərin ifadə etdikləri şeylər, ümumiyyətlə, mədəniyyət tarixinin konkret halda lazım olan bütün məlumatlarını əsas götürürdü;
3. H. Şuxardt dili danışan fərdin məhsulu saydığından, fərdin xarakterini, mədəniyyətini, yaşını, yaşayış tərzini və s. dilə təsir edən əsas amillərdən hesab edirdi;
4. Gənc qrammatiklərdən fərqli olaraq, onlar dil dəyişmələrini fizoloji fonetikada deyil, çarpazlaşma və əcnəbi ünsürlərin təsirində görürlər. «Elə bir dil yoxdur ki, o, çarpazlaşmadan və əcnəbi ünsürlərdən azad olsun».
5. Gənc qrammatiklərin dillərin qohumluğu prinsiplərinə qarşı H. Şuxardt özünün «dillərin coğrafi tarazlaşması ideyasını irəli sürürdü»
A.Axundov. Ümumi dilcilik. Bakı, 1988, s. 44- 45.

ШКОЛА СОЦИОЛОГИЧЕСКАЯ - alm. soziologische Schule (Sprachwissenschaft) (f), ing. sociological school /səʊsɪ'ɔlədʒɪkəl,-səʊʃɪ,-skul/, fr. école sociologique, azərb. sosioloji dilçilik. - Sosioloji dilçilik və yaxud psixoloji sosiologizm özünə qədər olan dilçilik məktəblərindən kəskin surətdə fərqlənir. Dilçilik tarixində eyni zamanda fransız dilçilik məktəbi kimi də tanınan psixoloji sosiologizmin banisi və məşhur nümayəndəsi bizim yüzilliyin görkəmli dilçilik simalarından olan İsveçrə alimi Ferdinand de Sössür hesab edilir.

F. de Sössürün dil haqqındakı təlimində əsas yeri dil və danışığın fərqləndirməsi tutur. Necə deyərlər, dili o, üç tərkibdə başa düşür: nitq fəaliyyəti (langage), danışıq (parole) və dil (langue). Sonuncular nitq fəaliyyəti daxilində mövcuddur. F.de Sössürə görə, dil «danışıqdan» təcrid edilmiş nitq fəaliyyətinə bərabər ictimai hadisədir. F. de Sössürün danışıq və dil haqqındakı qeydlərindən aydın olur ki, o, dil ilə danışığı tamamilə bir-birindən fərqləndirir. Onun fikrinə görə, danışıq ayrı-ayrı fərdlərə mənsubdursa, dil həmin fərdlərin hamısına mənsubdur; danışıqda kollektivlik yoxdursa, dil bütünlüklə kollektivin malıdır.

F. de Sössur yazır: «Biz ölü dillərdə danışmırıq, lakin biz onların orqanizminə çox yaxşı yiyələnə bilərik». Onun fikrincə, dil və danışıq bir-birilə möhkəm əlaqədədir və qarşılıqlı surətdə bir-birini şərtləndirir. Danışığın aydın olması və özünün bütün təsirini göstərməsi üçün dil vacibdir, danışıq öz növbəsində, dilin bərqərar olması üçün vacibdir; tarixən danışığın mövcudluğu həmişə dildən əvvəl olur.

F. de Sössrün danışıq və dili bir-birindən fərqləndirməsi onun dil haqqındakı təlimində, təbii olaraq, bir sıra əlavə məsələlərin də özünə yer

tapmasına səbəb olmuşdur. Həmin məsələlərdən biri, bəlkə də, birincisi onun dil haqqındakı elmi iki yerə ayırmasıdır: sinxronik və diaxronik dilçilik. Sinxronik dilçilik dillə məşğul olan statik, daxili dilçilik sahəsi, diaxronik dilçilik isə danışıq aktı ilə məşğul olan dinamik, xarici dilçilik sahəsidir. F. de Sössürün təbirincə, sinxronik dilçiliklə yanaşı mövcud olan və sistem əmələ gətirən ünsürləri bağlayan məntiqi və psixoloji əlaqələri yeni bir kollektiv şüurun dərk etdiyi kimi öyrənərək məşğul olacaqdır.

Buradan tamamilə aydın olur ki, F. de Sössür müəyyən bir sistem təşkil edən dili sinxronik, danışığı isə diaxronik dilçiliyin obyekti kimi götürür. Göründüyü kimi, alim özünün dil haqqındakı təlimini məntiqi ardıcıllıqla quraraq, dil ilə danışığı bir-birindən fərqləndirdiyi kimi, dilçiliyin özünü də onların tədqiq obyektlərindən asılı olaraq iki yerə ayırmışdır. Başqa məsələlərdə olduğu kimi, burada da, F. de Sössür öz fikrini misallarla əsaslandırır. Bu baxımdan onun alman dilindən gətirdiyi misal maraqlıdır. Məlum olduğu kimi, alman dilindəki /Ich war/ («mən idim») forması əvvəllər /Ich was/ şəkilində işlənmişdir.

Deməli, /Ich was/ forması tarixən /Ich war/ formasına çevirilMişdir. Həmin dəyişikliyin səbəbini F. de Sössür belə izah edir: məlum olduğu kimi, alman dilində birinci şəxsin təkindən fərqli olaraq onun cəmində /Wir waren/ («biz idik») forması işlənir. Bununla əlaqədar olaraq, ayrı-ayrı adamlar /waren/ formasına uyğun olaraq, /was/ formasını da /war/ şəkilində işlətmişlər ki, bu da öz növbəsində, dil deyil, danışıq faktı olmuşdur. Lakin həmin forma tez-tez təkrar edilərək kollektiv tərəfindən qəbul olunmuş və, beləliklə, dil faktına çevirilmişdir. Onun fikrincə, iki nöqteyi-nəzərin (sinxronik və diaxronik) qarşı-qarşıya qoyulması mütləqdir və heç bir güzəştə dözmür.

F.de Sössür sinxronik dilçiliyi daha mühüm və vacib hesab edir, onun fikrinə görə, danışan kütlə üçün yalnız o, əsl və yeganə reallıqdır.

Qeyd edildiyi kimi, sinxronik dilçiliyin obyekti dildir. F. de Sössürə görə, dil «ideyalar ifadə edən işarələr sistemidir». Dil işarəsi haqqında isə İsveçrə dilçisinin fikri belədir: «Dil işarəsi əşya və adı deyil, anlayış və akustik obrazı əlaqələndirir. Həmin bu sonuncu maddi səs, təmiz fiziki bir şey deyil, səsin psixi izidir, duyğu üzvlərimizlə aldığımız təsəvvürüdür; o, hissi obrazdır və əgər biz onu «maddi» adlandırırıqsa, bu o zaman olur ki, yalnız biz onu assosiasiyanın ikinci momentinə – ümümiyyətlə, daha mücərrəd olan anlayışa qarşı qoyuruq». F. de Sössür dil işarəsinin mühüm əlamətlərini göstərmişdir. Alimə görə, dil işarəsinin ən mühüm əlaməti onun ixtiyariliyidir. Belə mülahizə ilk baxışda ziddiyyətli görünür: əgər dil işarələri ixtiyaridirsə, nə üçün dildə gözlənilməz, qəfil dəyişikliklər baş vermir? F. de Sössür bu suala cavab olaraq, dörd əsas göstərir:

Birincisi, dildə gözlənilməz, qəfil dəyişikliklərin baş verməməsinin səbəblərindən ən mühümü məhz dil işarəsinin ixtiyariliyidir. Madam ki, dil işarələri ixtiyari xarakterlidir, deməli, onun dəyişdirilməsinə heç bir ehtiyac yoxdur. Digər tərəfdən, dil işarələrinin sayca çox olması da dildə

gözlənilməz dəyişikliklərin baş verməsinə ciddi müqavimət göstərir. Üçüncüsü, dildə ona görə qəfil dəyişikliklər baş vermir ki, dil sistemi olduqca mürəkkəbdir. Nəhayət, dördüncüsü, dil kollektivin malıdır. Dildən hamının istifadə etməsi də dildə gözlənilməz, qəfil dəyişikliklərin yaranmasına mane olur.

A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 49-53.

ШКОЛА ФОРМАЛЬНАЯ - alm. formale Schule (f), ing. formal school /'fɔ:məl sku:l/, fr. école formelle, azərb. formal dilçilik məktəbi. - F. Fortunatovun (1848-1914) nəzəri dilçilik görüşlərinin əsasında gənc qrammatiklərin dilçilik baxışları durur. Lakin onu gənc qrammatiklərdən kəskin surətdə fərqləndirən cəhətləri də vardır. Bunlardan başlıcası F.Fortunatovun qrammatik formalizmi idi. Məlumdur ki, «qrammatik formalizmin əsasında qrammatik forma anlayışı durur. Qrammatik forma kimi, F.F.Fortunatov yalnız sözün morfoloji formasını nəzərdə tutur. Onun ənənəvi nitq hissələri əvəzinə irəli sürdüyü sözlərin qrammatik sinifləri ideyası da məhz buna əsaslanır. F. Fortunatov yazır: «Ayrı-ayrı sözlərdə formanın olması ayrı-ayrı bütöv sözlərin formal, yaxud qrammatik siniflərini əmələ gətirir». Onun fikrincə, «ayrı-ayrı sözlərin qrammatik sinifləri çox ümumi və az ümumi...ola bilər. O, daha çox ümumi qrammatik siniflərin iki növünü göstərmişdir: 1) sözdəyişmə formaları olan sözlər və sözdəyişmə formaları olmayan sözlər. Bunlardan birincilər, öz növbəsində, üç yerə ayrılır: a) təsriflənən sözlər, b) hallanan sözlər; c) sifətlər - hallanan sözlər (cinsə görə uzlaşma ilə). Hallanan sözlər isə iki cürdür: «1) şəxs isimləri, necə deyərlər, şəxs əvəzlikləri...; 2) qeyri şəxsi isimlər. Sonuncular da iki cür olur: «a) isim adlar (yəni ad sözlər) və b) isim - qeyri-şəxsi əvəzlik əsaslı əvəzliklər.

Sözdəyişmə formaları olmayan sözlərə F. Fortunatov infinitif, feli bağlama və /depo/, /palto/ tipli sözləri və zərfləri daxil edir. Onun fikrincə, sifət - hallanan sözlər (cinsə görə uzlaşma ilə) sinfi feli sifətlərdən, yiyəlik əvəzliklərindən və sıra saylarından ibarətdir. Nəhayət, sadalanan sözlər sinifi isimləri, qeyri-şəxs əvəzliklərini, miqdar saylarını əhatə edir.

F.Fortunatov dilləri morfoloji cəhətdən təsnif edərkən də özünün bu qrammatik formal konsepsiyasına əsaslanmış və dillərin beş növünü göstərmişdir: 1) aqlütinativ dillər (Ural-Altay dilləri); 2) flektiv- aqlütinativ dillər (sami dillər); 3) flektiv dillər (hind-Avropa dilləri); 4) kök dillər (Çin, siam və s. dillər); 5) polisintetik dillər (Amerika hindilərinin dilləri). Ümumiyyətlə, sintaksis sahəsində də onun dilçilik baxışları, ilk növbədə, formalizmə əsaslanır. Hazırda F. Fortunatovun qrammatik formalizm konsepsiyasına münasibət müxtəlifdir. Müasir strukturalizmin əsas məktəblərindən olan qlossematiklər F. Fortunatovun qrammatik formalizmini onun ən böyük xidmətlərindən hesab edirlər. Bəzi dilçilik tarixi mütəxəssislərinə (J.V.Loya) görə isə qrammatik formalizm F.Fortunatov məktəbinin əsas nöqsanıdır.

A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 40-41.

ШКОЛА ЭСТЕТИЧЕСКОГО ИДЕАЛИЗМА - alm. Schule ästhetischen Idealismus (f), ing. school of esthetic idealism /sku:l əv i:sθetık,-esθ aı'dıəlızəm/, fr. école de l'idéalisme esthétique, azərb. estetik idealizm məktəbi. - XX əsrin gənc qrammatiklərinə qarşı çıxan dilçilik məktəbi ikincisi, dilçilikdə estetik idealizm və yaxud linqvistik idealizm məktəbidir. Dilçilikdə estetik idealizm məktəbinin banisi alman dilçisi və ədəbiyyatşünası K.Fosslerdir. (1872- 1949).

K.Fosslerin dilçilik görüşlərini belə xülasə etmək olar: K. Fossler dili fərdi mənəvi yaradıcılıq aktı hesab edirdi. K.Fossler dilçiliyi əslində üslubiyyata bərabər tuturdu. Bu münasibətlə o yazırdı: «Dili qanun və qaydalar baxımından qiymətləndirmək ona qeyri-elmi yanaşmaq deməkdir».

K.Fossler ünsiyyət vastəsi kimi dili yox, dil zəkasının ümumiliyini əsas hesab edirdi. K.Fosslerə görə, dilə iki cəhətdən yanaşmaq olar. Bu barədə onun fikri belədir: «Biz iki müxtəlif moment tapmışıq ki, onlara uyğun olaraq, dili müşahidə etmək və müəyyənləşdirmək lazımdır».
A.Axundov. Ümumi dilçilik. Bakı, 1988, s. 45-47.

ШКОЛЬНАЯ ГРАММАТИКА - alm. Schulgrammatik (f), ing. school grammar /sku:l 'græmə/, fr. grammaire d'école, azərb. məktəb qrammatikası. - Orta məktəblərdə tədris olunan və daha çox ənənəvi dilçiliyə əsaslanan qrammatika. Buna bəzən pedoqoji qrammatika da deyirlər.
W. Meuzel. Die deutsche Schulgrammatik. Paderborn, 1975.

ШКОЛЬНЫЙ СЛОВАРЬ - alm. Schulwörterbuch (n), ing. school dictionary /sku:l 'dıkʃənərı/, fr. vocabulaire d'école, azərb. məktəb lüğəti. - Məzmunu və forması orta məktəbin ehtiyaclarına uyğunlaşdırılmış lüğət.
Bax: Словарь ←.

ШОВ МОРФОЛОГИЧЕСКИЙ - alm. morphologische Grenze (f), ing. morphological suture in compounds /mɔ:'fələʤıkəl 'sju:tʃə ('su:tʃə) ın'kɒmpaʊndz/, fr. couture morphologique, azərb. morfoloji sərhəd. – Söz və ya söz birləşməsi daxilində morfemlər arasındakı sərhəd. Morfem sərhədindən dilçilikdə fonem birləşmələrinin mono (-) və ya bifonemliyini təyin etmək üçün istifadə edilir. Məs.: rus d. /знай/, /дуй/, /пригрей/ sözlərində /j/ fonemi ayrıca morfemin eksponentidir. Müq. et: /зна-ть/, /ду-ть/, /пригре-ть/.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 70.

ШОВ СЛОЖЕНИЯ - alm. Zusammensetzungsgrenze (f), ing. morphological suture in compounds /ˌmɔ:fə'ləʤıkəl sju:tʃə/'su:tʃə/ın kɒmpaʊndz/, fr. couture de constitution, azərb. bitişmə sərhədi. – Mürəkkəb sözlərdə morfem sərhədi. Məs.: Azərb. d. /qara-ğat/, /kəklik-otu/, /dəvə-dabanı/ və s.
Ю.С.Маслов. Göstərilən əsəri, M., 1987, s. 70.

ШОНА – alm. Schona (n), ing. Shona /ʃɔna:/, fr. langue chona, azərb. şona dili. – Bantu dillərindən biridir. Əsasən Zimbabve Respublikasın-

da, qismən də Mozambik, Botsvana və CAR-da yayılmışdır. Şona dilində 8 milyona yaxın əhali danışır. Ədəbi dili XX əsrin əvvəllərindən formalaşmağa başlamışdır. Yazısı latın əlifbası əsasında hazırlanmışdır.
J.A.O'Neil. Shona grammar. London - New York, 1948.

ШОРСКИЙ ЯЗЫК – alm. Schorisch (Šorisch) (n), ing. Shorian (shoran) language /ʃɔ:rɑn, 'ʃɒrɑn 'læŋgwɪʤ/, fr. langue chorelle, azərb. şor dili. – Türk dillərindən biridir. Coğrafi baxımdan RF-nin Kemerova vilayətində yayılmışdır. 10 minə yaxın daşıyıcısının olduğu göstərilir. İki dialektə bölünür: mras və kondom. Ədəbi dilinin əsasında mras dialekti durur. Hal-hazırda yazısı kiril əlifbasına əsaslanır.
Н.П.Дыренкова. Грамматика шорского языка. М., - Л., 1941.

ШОШОНСКИЙ ЯЗЫК – alm. Schoschonisch (n), ing. Shoshone /ʃə(ʊ)'ʃəʊni: 'læŋgwɪʤ/, fr. langue chochone, azərb. şoşon dili. – Yuto-atsek dilləri ailəsinə daxil olan numi yarımailəsinə mənsub hindu dillərindən biridir. Amerikanın Kaliforniya, Vayominq, Nevada, Aydaxo, Oreqon və Yuta ştatlarında yayılmışdır. Şoşon dilində 2 minə yaxın insan danışır.
D.Shimkin. Shoshone, IJAL, 1949.

ШУГНАНО-РУШАНСКАЯ ГРУППА - alm. Schugnani-Ruschani-Gruppe (f), ing. Shugnan-Rushan group /'ʃu:ngɑn 'rʌʃən gru:p/, fr. groupe chougano-Rouchanes, azərb. şuqnan-ruşan qrupu. – Pamir dillərinə daxil olan İran dillərinin cənub qrupu. Qərbi Pamirin dağ vadilərində və Çin Xalq Respublikasının Sarıqol aşırımında yayılmışdır. Bu dil qrupunda təqribən 100 minə qədər əhali danışır.
Д.Кармшоев. Баджувский диалект шугнанского языка. Душенбе, 1963.

ШУМ - alm. Geräusch (n), ing. noise /nɔɪz/, fr. bruit, azərb. küy. – Danışıq cihazında tələffüzü zamanı hava axını qarşısına cıxan maneəni aradan qaldıraraq partlayış və ya novdan süzülərək dışarı çıxmasından yaranan samitlərə küylü samitlər deyilir. Azərb. d. küylü samitlər bunlardır: /b, p, v, f, t, g, d, k, z, s, j, ʒ, f, ʤ, ş, ğ, x/, və s.
F.Veysəlli. SDƏ.

ШУМЕРСКИЙ ЯЗЫК - alm. Sumerisch (n), ing. shumer language /ʃu:mer 'læŋgwɪʤ/, fr. sumérien, azərb. şumer dili. – İndiki İraq ərazisində məskunlaşmış şumerlərin dili. Şumer dilinin genetik mənsubiyyəti tam dəqiqləşdirilməmişdir. Şumer dilindəki abidələr üç mərhələyə bölünür: köhnə (klassik) şumer, yeni şumer, sonrakı şumer.
И.М.Дьяконов. Языки древней Передней Азии. М., 1967.

ШУМНЫЙ - alm. Geräuschlaut (m), ing. noise (breath) consonant /nɔɪz breθ'kɒnsənənt/, fr. consonnes bruyantes, azərb. küylü səs. - Küylü səslərə xarakterik olan səs.
F. Veysəlli. SDƏ.

– Щ –

ЩЕЛЕВЫЕ СОГЛАСНЫЕ - alm. Engelaute (Pl.), ing. fricatives /'frıkətıvs/, fr. consonnes fricatives azərb. novlu samitlər. – Tələffüz zamanı fəal üzvün qeyri-fəal üzvə yaxınlaşması nəticəsində əmələ gələn novdan çıxan hava axını küylü samitlər yaradır. Novlu samitlər novun formasına görə dairəvi novlu /s/ və yastınovlu /ʃ/ olurlar. Azərb. d. /f/, /v/, /s/, /z/, /ʃ/, /ʒ/, /j/, / ç/, / x/, / h/ samitləri novlu samitlərdir.
F.Veysəlli. SDƏ.

ЩЕЛЕВОЙ ФАРИНГАЛЬНЫЙ - alm. Pharyngalengelaut (m), ing. glottal fricative /'glɒtal 'frıkətıv/, fr. fricatif guttural, azərb. novlu udlaq samiti. - Tələffüzü zamanı udlaqda yaranan novdan hava axınının cıxması nəticəsində əmələ gələn samit səs. Azərb., alm. və ing. d. belə səs var: /h/. Müq. et: alm. d. /ha·bən/ (malik olmaq), ing. d. /haʊs/ (ev), Azərb. d. /həyat/.
F.Veysəlli. SDƏ.

ЩЕЛИННЫЙ - alm. frikativ, ing. fricative /'frıkətıv/, fr. fricatif, azərb. novlu. - Ağız boşluğunda yaranan novda əmələ gələn samit səslər. Məs.: /f/, /s/, /ç/, /ʃ/, /x/, /ʒ/, /j/, /r/, /h/, /v/.
F.Veysəlli. SDƏ.

ЩЕЛКАЮЩИЕ СОГЛАСНЫЕ - alm. inspiratorische (gehauchte) Konsonanten (Pl.), ing. click /klık/, fr. consonne claquantes (claquement), azərb. şaqqıltılı samitlər. – Adətən sorma nəticəsində yaranan ikifokuslu samitlərdir. Belə samitlərin əmələ gəlməsinin başlanğıcında kipləşmə durur. Kipləşmə nəticəsində ağız boşluğu udlaq boşluğundan təcrid edilir, əvvəlcə udlaq boşluğunda kipləşmə yaranır, ikinci kipləşmə isə ağız boşluğunda yaranır. Məs.: gurcü. dilindəki. /pᶜ/, /tᶜ/, /kᶜ/. samitləri.
F.Veysəlli. SDƏ.

- Э -

ЭВЕ – alm. Ewe-Sprache (f), ing. Ewe /ˈeɪweɪ/, fr. langue ève, azərb. eve dili. – Kva dillərindən biridir. Qana, Toqo və Benin respublikalarında yayılmışdır. Bu dildə təqribən 5,7 milyon əhali danışır. Eve dili avun, uati, adya, yun, fon və maxi dialektlərindən ibarətdir. Ən böyük dialektləri fon və uati dialektləri hesab olunur. Yazılı forması XIX əsrin sonuna təsadüf edir. Yazıda latın qrafikasından istifadə olunur.
G.Ansre. The tonal structure of Ewe. Hartford, 1961.

ЭВЕНКИЙСКИЙ ЯЗЫК – alm. Evenkisch (n), ing. Evenk /ˈi:vənk/, the Evenk language /ðiː ˈi:vənk ˈlæŋgwɪʤ/, fr. langue évenque, azərb. evenk dili. – Tunqus-mancur dillərindən biridir. Əsasən Sibir tayqasından və Yenisey çayının sol sahillərindən Saxalin adasına qədər geniş bir coğrafi ərazidə yayılmışdır. Evenklərin az bir hissəsi Monqolustan və Çin ərazilərində səpələnmişdir. Bu dildə təqribən 60 minə qədər əhali danışır. Dialektləri arasında kəskin fərqlər yoxdur. Ədəbi dili nep dialekti əsasında formalaşmışdır. Yazısı 1931-ci ilə qədər latın, 1936-cı ildən isə kirilə əsaslanır.
А.Н.Константинова. Эвенкийский язык. М.,-Л., 1964.

ЭВЕНСКИЙ ЯЗЫК – alm. Evenisch (n), ing. the Even language /ðiː ˈi:vən ˈlæŋgwɪʤ/, fr. langue éven, azərb. even dili. - Tunqus-mancur dillərinə aid dillərdəndir. Əsasən Oxot dənizinin sahillərində, Maqadan vilayətində və Yakutiya ərazisində yayılmışdır. Təqribən 15 minə qədər daşıyıcısı vardır. Yazısı 1931-ci ilə qədər latın, 1936-cı ildən isə kiril əlifbası əsasındadır.
В.И.Цинциус. Очерки грамматики эвенского языка. Л., 1947.

ЭВОЛЮЦИОННАЯ ЛИНГВИСТИКА - alm. Evolutionslinguistik (f), ing. evolution(ary) linguistics /ˌi:vəˈlu:ʃən(ərɪ) lɪŋgwɪstɪks/, fr. linguistique évolutionniste, azərb. təkamül dilçiliyi. - Dili yalnız onun konkret tarixi inkişafı ilə əlaqədar öyrənməyi tələb edən dilçilik cərəyanı. Tarixi dilçilik dilin qayda və qanunlarını, quruluşunu tarixi baxımdan, yəni tarixi inkişaf prosesində öyrənir. Burada müxtəlif qrammatik kateqoriyaların tarixən inkişafı, dəyişməsi konkret dil faktları əsasında öyrənilir. Gənc qrammatiklər dilə daim dəyişməkdə olan hadisə kimi yanaşdıqlarından onlarda tarixilik özünü çox güclü şəkildə büruzə verirdi. Onlardan bəzisi dil tarixinə ciddi əhəmiyyət verir və ayrı - ayrı dillərin ulu formasını bərpa etməklə məşğul olurdu. Tarixilik gənc qrammatiklərin əsas kredosu olmuşdur. Dilçilik elminin dil tarixindən başqa

bir şey olmadığını sübut etməyə çalışan H.Paul mənsub olduğu cərəyanın konsepsiyasını aşağıdakı kimi açıqlayır: "Dilin tarixilikdən başqa elmi tədqiqini söyləmək səhvə yol verməkdir. Dilin qeyri - tarixilik baxımından şərhini elmi şey kimi qəbul etmək əslində tamamilə tarixilikdən uzaq düşmək və ya tədqiqatçının, ya da müşahidə obyektinin tamamilə səhv olmasından başqa bir şey deyildir. Ayrı-ayrı şeylərin adicə izahından kənara çıxmaqla biz eyni zamanda əlaqəni şərh etmiş oluruq və bu özümüzə aydın olmasa da tarixilik mövqeyində durmaq deməkdir.
F.Veysəlov (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s.19.

ЭВОЛЮЦИЯ ЯЗЫКА - alm. Sprachwandel (m), Sprachentwicklung (f), ing. evolution of language /ˌi:vəˈlu:ʃən əv ˈlæŋgwɪʤ/, fr. langue d'évolution, azərb. dilin təkamülü. - Dildaxili qanunauyğunluqların və ekstralinqivistik amillərin təsiri ilə dilin dəyişməsi, inkişafı. Dilin inkişafının sonrakı mərhələlərində bir-birinə daban-dabana zidd olan iki proses müşayiət olunur: divegensiya, bir dilin iki və daha artıq dillərə parçalanması və konvergensiya, bir neçə dilin yaxınlaşması, hətta onların bir dillə əvəzlənməsi.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 186-213.

ЭВФЕМИЗМ - alm. Euphemismus (m), ing. euphemism /ˈju:fəˌmɪzəm/ ˈju:fɪmɪz(ə)m/, fr. euphémisme, azərb. evfemizm. – Ünsiyyətdə ədəb və mərifət qaydalarına müvafiq surətdə hər hansı bir əşya və hadisəni dolayısıyla, gizli, incələşdirilmiş, yüngülləşdirilmiş tərzdə işlədilən ifadələr, məcazlarla dilə gətirmək. Bu və ya digər ifadələrin işlədilməsindəki qadağalar onların digərlərilə əvəzlənməsinə, evfemizmlərin, «yumşaq ifadələrin» yaranmasına səbəb olur. Kökləri tarixin dərin qatlarına işləyən evfemizmlərin yaranmasında hamı tərəfindən qəbul olunmuş etiket, ədəb və nəzakət məfhumlarına riayət edilməsi əsas amillərdəndir. Məs.: Azərb. d. /dilişirin/ (pəltək əvəzinə), isti su (hamam əvəzinə) və s. Pislikdə ad çıxarmış adamların adı əvəzinə «adıbatmış» ifadəsinin işlədilməsi. Rus d. /Он стар/ əvəzinə /Он в почетном возрасте/
Ю.С.Маслов. Göstərilən əsəri, s. 198.

ЭВФОНИЧЕСКИЙ - alm. euphonisch, ing. euphonic /ju:ˈfɒnɪk/, fr. euphonique, azərb. evfonik. - 1. Bir səsdən digərinə keçməni yüngülləşdirən; 2. Kakofoniyanın (ahəngsizliyin, səsin qulağa xoş gəlməməsinin) əksi.
О.С.Ахманова. Göstərilən əsəri, s. 521.

ЭВФОНИЯ - alm. Euphonie (f), ing. euphony /ˈju:fənɪ/, euphonia /ju:ˈfəʊnɪə/, fr. euphonie, azərb. evfoniya, xoş səslənmə. - Müxtəlif fonetik üsulların (səs təkrarı, alliterasiya, anafora, epifora, danışığın ritmikliyi) və s. tətbiqi nəticəsində danışığın ahəngdar (yatımlı) səslənməsinə nail olmaq. Məs.: Azərb. d. /Əldən qalan əlli il qalar/, /İgid odur hər əzaba qatlana//, /İgid odur atdan düşə atlana//.
О.С.Ахманова. Göstərilən əsəri, s. 521.

ЭВФУИЗМ - alm. Euphuismus (m), ing. euphuism /'ju:fjʊˌɪzəm/, fr. euphuisme, azərb. evfuizm. - Həddən artıq dəbdəbəli, təmtəraqlı üsul. Bu üsuldan əsasən bədii əsərlərdə daha çox istifadə olunur. Məs.: Azərb. d. /gözümün nuru/, /evimizin yaraşığı/, /qəlbimin hakimi/, /dərdlərimin dərmanı/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 521.
ЭЙЕКЦИЯ - alm. Ausstoßung (f), ing. ejection /ɪ'dʒekʃən/, fr. ejection, azərb. eyeksiya, yumulmuş. – Kipləşmiş səs tellərinin açıldığı anda hava axınının dışarı (çölə) itələnməsindən ibarət tələffüz prosesi.
O.C.Ахманова. Göstərilən əsəri, s. 521.
ЭЗОПОВ ЯЗЫК – alm. Esop-Sprache (f), ing. Aesopian language /i:'səʊpɪən 'læŋgwɪdʒ/, fr. langue d'Esope, azərb. ezop dili. – Rəsmi siyasətə, ideologiyaya birbaşa, bilavasitə zidd olan ideyaların ifadəsini senzuradan gizlətmək, senzuranın diqqətindən yayındırmaq məqsədilə istifadə olunan xüsusi ifadə üslubu. Antidemokratik dövlət quruluşlarında inqilabi, mütərəqqi ideyaların ifadə üsulu. Məs.: «Molla Nəsrəddin» jurnalı dövlət məmurlarının özbaşınalığını, rüşvətxorluğunu və s. açıq-aşkar əks etdirən yazı və karikaturaların senzuradan keçməyəcəklərini nəzərə alaraq jurnalda müəyyən səhifəni boş qoyub altından yazırdılar. «Senzura və rəsmi təpkilər olmasaydı biz bu səhifədə dövlət məmurlarının özbaşınalığından, rüşvətxorluğundan, ruhanilərin fırıldaqçılığından və s. bəhs edəcəkdik».
O.C.Ахманова. Göstərilən əsəri, s. 521.

ЭКВИВАЛЕНТ - alm. Äquivalent (n), ing. equivalent /ɪ'kwɪvələnt/, fr. équivalent, azərb. ekvivalent. - Funksiyasına görə digəri ilə üs-üstə düşən, eyni bir funksiyanı icra etməyə qabil olan dil vahidi. Bir dil vahidinin yerinə yetirə bildiyi funksiyanı icra etməyə qabil olan digər dil vahidi. Məs.: Azərb. d. /əldən düşmək/ – /yorulmaq/, /qulaq ardına vurmaq/ – /saymamaq/, /qulaq asmaq/ – /dinləmək/, /yola salmaq/ - /ötürmək/ və s.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 94.
ЭКВИВАЛЕНТ ПРЕДЛОЖЕНИЯ - alm. Äquivalent des Satzes (n), ing. equivalent sentences /ɪ'kwɪvələnt 'sentəns/, fr. propositions équivalent, azərb. cümlənin ekvivalenti. - Bir çox dilçilərin fikrinə rəğmən, sözcümlələr, qiymətləndirici cümlələr, vokativ cümlələr və s. cümlə deyil, cümlənin ekvivalentləridir.
Müasir Azərbaycan dili. III cild. Bakı, 1981, s. 258-296.
ЭКВИВАЛЕНТЫ СЛОВ - alm. Äquivalente der Wörter (Pl.), ing. equivalent words /ɪ'kwɪvələnt wɜ:dz/, fr. mots équivalents, azərb. sözlərin ekvivalenti. - Funksiya baxımından sözə məxsus sintaktik vəzifədə çıxış edən söz birləşməsi. Məs.: Azərb. d. /dava etmək/ – /dalaşmaq/, /başa salmaq/ - /anlatmaq/.
O.C.Ахманова. Göstərilən əsəri, s. 522.

ЭКВИВАЛЕНТЫ СИНТАКСИЧЕСКИЕ - alm. syntaktische Äquivalente (Pl.), ing. syntactic(al) equivalents /sɪn'tæktɪk(əl) ɪ'kwɪvələnts/, fr. équivalents syntaxiques, azərb. sintaktik ekvivalentlər. – Mənaca və funksiyaca uyğun gəlib, sintaktik quruluşunda cüzi fərqlər olan sintaktik vahidlər. Məs.: Azərb. d. /Nə dilərsən məndən// - /Məndən nə dilərsən//, /Sən istəsən o imtina etməz// - /O imtina etməz sən istəsən//.
O.C.Ахманова. Göstərilən əsəri, s. 522.

ЭКВИВАЛЕНТ ФОНЕМЫ - alm. Phonemäquivalent (n), ing. phonems equivalent /'fəʊni:ms ɪ'kwɪvələnt/, fr. phonèmes équivalents, azərb. fonemin ekvivalenti. - Dilin səs sistemində və müəyyən mövqe şəraitində fonemin əsas variantına fonetik cəhətdən daha yaxın olan səs. Fonemin nümayəndəsindən (təmsilçisindən) fərqli olaraq, fonemin ekvivalenti müəyyən bir dilin fonetik qanunlarına müvafiq surətdə elə bir mövqedə gəlir ki, bu mövqedə həmin fonem, ümumiyyətlə özünün bütün fərqləndirici əlamətlərində ehtiva oluna bilmir.
N.S.Trubeskoy. Göstərilən əsəri. Almancadan tərcüməsi, «Ön söz» və «Qeydlər» prof. F.Yadigarındır (Veysəlli). Bakı, 2001, s.38, 109.

ЭКЗЕМПЛИФИКАЦИЯ - alm. Exemplifikation (f), ing. exemplification /ɪgˌzemplɪfɪ'keɪʃən/, fr. exemplification, azərb. nüsxələnmə, nümunə göstərmə. - Nümunələrə istinadən şərh etmə, nəyisə nümunələrə əsasən izah etmə.
O.C.Ахманова. Göstərilən əsəri, s. 522.

ЭКЗИСТЕНЦИАЛЬНОЕ ПРЕДЛОЖЕНИЕ - alm. existentialistischer Satz (m), ing. existential sentence /ˌegzɪ'stenʃəl 'sentəns/, sentence of being /'sentəns əv 'bi:ɪŋ/, fr. proposition existentielle, azərb. ekzistensial (yaxud məişət tipli) cümlə. – Müəyyən bir hadisə və yaxud predmetin adından ibarət olan və mübtəda əsasında formalaşan təktərkibli cümlə. Belə cümlələrdən bədii əsərlərdə və danışıqda təsvir məqsədilə daha geniş istifadə olunur. Məs.: Azərb. d. /Payız//, /Zülmət qaranlıq//, /Yağışlı hava//, /Küləк//, /Yad ölkə//, /Boz çöllər//.
A.A.Реформатский. Göstərilən əsəri, s. 338.

ЭКЗОЛИНГВИСТИКА - alm. Exolinguistik (f), ing. exolinguistics /ekˈsɒlɪˈŋgwɪstɪks, 'ɛksə/, fr. exolinguistique, azərb. ekzolinqivistika. - Dil vahidlərinin təbiətinin və onların funksional qanunauyğunluqlarının xüsusiyyətlərinin öyrənilməsində dil daşıyıcılarının (kollektivinin) ictimai həyatını və təfəkkür tərzini əsas götürən dilçilik sahəsi. Məs.: dilin mənimsənilməsi, ikidillilik, uşaqların nitqinin inkişafı.
O.C.Ахманова. Göstərilən əsəri, s. 230.

ЭКЗОТИЧЕСКАЯ ЛЕКСИКА (ЭКЗОТИЗМЫ) - alm. exotische Lexik (f), ing. exotic vocabulary /eg'zɒtɪk vəʊ'kæbjʊlərɪ/, fr. lexique exotique, azərb. ekzotik leksika (ekzotizmlər). - Bədii əsərlərə, habelə

danışığa xüsusi yerli rəng (kolorit), çalar vermək üçün əcnəbi (əsasən az yayılmış) mənşəli söz və ya ifadələrin işlədilməsi. **Yad** gerçəkliyin təzahürlərini əks etdirən tarixizmlərin bir növü. **Məs.**: Azərb. d. /gavur/, /çadra/, /çayxana/ və s.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 248.

ЭКЗОФАЗИЯ - alm. Exsophasie (f), ing. exophasia /ˌeksəʊ'feɪzɪə/, fr. exophasia, azərb. ekzofaziya. – Xarici, səsli nitq. **Dilçilikdə** endofaziya-ya qarşı qoyulur.
О.С.Ахманова. Göstərilən əsəri, s. 521.

ЭКЗОЦЕНТРИЧЕСКИЙ - alm. exozentrisch, ing. exocentric /'eksɔ'sentrɪk,-'ɛksəʊ/, fr. exocentrique, azərb. ekzosentrik. - Leksik-qrammatik xüsusiyyətlərinə və funksiyasına görə öz əsas elementinə müvafiq gəlməyən konstruksiyalar (mürəkkəb sözlər). **Məs.**: Azərb. d. /dilə tutmaq/, /topa tutmaq/, /göz-qulaq olmaq/ (yaxşı baxmaq mənasında), /dəmir iradə/, /can alan gözlər/, /əldən-ayaqdan getmək/.
О.С.Ахманова. Göstərilən əsəri, s. 522.

ЭКОЛАЛИЯ - alm. Ökolalie (f), ing. ecolalia /ɪklælɪə/, fr. écolalie, azərb. ekolaliya. - Nitq qüsurlarından əzab çəkən uşaqlara və şəxslərə məxsus əlaqəsiz (rabitəsiz) danışıq.
Р.О.Якобсон.Göstərilən əsəri.

ЭКОНОМИЯ ЛИНГВИСТИЧЕСКАЯ - alm. linguistische Ökonomie (f), ing. linguistic economy /lɪŋ'gwɪstɪk ɪ'kɒnəmɪ/, fr. économie linguistique, azərb. linqvistik qənaət. - Dildə baş verən dəyişmələrə təsir edən amillərdən biri kimi səciyyələndirilən qüvvəyə qənaət qanunu (az qüvvə sərf etmək), mahiyyət etibarilə danışanın öz danışığına az qüvvə (enerji) sərf etməklə fikrini ifadə etmyə nail olması. Qənaət qanunu dilin bütün səviyyələrində (yarus) özünü büruzə verir. Ən az qüvvə sərf etmək prinsipinə əsaslanan qənaət qanunu sözlərin müxtəlif yerlərində səslərin, səs birləşmələrinin, hecaların düşməsi və s. şəkildə təzahür edir: Məs.: Azərb. d. /sora < sonra/, /Tarverdi <Tanrıverdi/, /tabeli < tabelilik/ və s. Sözdüzəltmə səviyyəsində müxtəlif ixtisarlar və abbreviaturalar, söz birləşməsi əsasında düzələn mürəkkəb sözlər və s. qənaətlə bağlı vahidlər və hadisələrdir.
А.Мартине. Принципы экономии в фонетических изменениях. М., 1960.

ЭКСКЛЮЗИВНЫЙ - alm. exklusiv, ing. exclusive /ɪks'klu:sɪv/, fr. exclusif, azərb. ekskluziv (dar mənа). - Dar (məhdud) mənaya malik olan, daha az əşyaları (predmetləri) əhatə edən.
О.С.Ахманова. Göstərilən əsəri, s. 523.

ЭКСКУРСИЯ - alm. Anglitt (m), Exkursion (f), ing. excursion /ɪks'kɜ:ʃən/, on glide /ɒn glaɪd/, fr. tension, excursion, azərb. ekskursiya. – Müəyyən səsin tələffüzü üçün danışıq orqanlarının ilkin vəziyyət alması,

səsin tələffüzünün ilkin mərhələsi, başlanğıcı. Məs.: Azərb. d. /kipləşən - partlayışlı samitlərin tələffüzü zamanı (/b/, /p/, /d/, /t/ və s. dodaqların bir-birinə yaxınlaşaraq kipləşməsi.
F.Veysəlli. SDƏ. s. 127-128.

ЭКСПЕРИМЕНТАЛЬНАЯ ФОНЕТИКА - alm. experimentelle Phonetik (f), ing. experimental phonetics /eksˌperɪˈmentl/ɪkˌsperɪˈmɛnt(ə)l fəʊˈnetɪks/, fr. phonètique expérimentale, azərb. eksperimental fonetika. - Dilin səs tərəfini xüsusi cihazlarla öyrənən fonetika bölməsi. Eksperimental fonetika dil hadisələrinin öyrənilməsinə xidmət edən metodlar məcmusudur. Dil vahidlərinin səs tərəfinin dəqiq təhlini verən eksperimental fonetika, fonetik qanunauyğunluqların öyrənilməsində mühüm yer tutur. Qeyd edək ki, dilçiliyin indiki mərhələsində toplanmış zəngin dil materialı eksperimentin süzgəcindən keçirilir və heç bir şübhə doğurmayan faktlar əsasında obyektiv nəticə çıxarılır. Ümumiyyətlə, müasir dilçilikdə əldə edilən nəticələrin böyük əksəriyyəti eksperimental fonetikaya əsaslanır.
F.Veysəlov və b. Eksperimental fonetika. Bakı, 1980, I hissə, s. 79.

ЭКСПЕРИМЕНТАЛЬНО-ФОНЕТИЧЕСКИЙ МЕТОД - alm. experimentell-phonetische Methode (f), ing. the experimental phonetic method /ðiː eksˌperɪˈmentl /ɪkˌsperɪˈmentəl fəʊˈnetɪk ˈmeθəd/, fr. méthode expérimentale phonètique, azərb. eksperimental – fonetik metod. – Fonetikada səslərin öyrənilməsində müxtəlif metodlardan istifadə olunması. Onlardan bəziləri (məsələn, müşahidə və b.) bu gün də öz əhəmiyyətini qoruyub saxlamaqdadır, digərləri isə öz dəyərlərini itirərək linqvistik irsin arxivinə gömülmüşlər. Fonetikanın öyrənilməsində bir sıra instrumental metodlardan istifadə olunur. İlk öncə səsli nitq səsyazan cihazların köməyilə maqnitofon lentinə yazılır və bundan sonra həmin material üzərində akustik cihazların vasitəsilə spektroqrafik, osilloqrafik və s. təhlillər aparılır. Eksperimental metodların köməyilə artikulyator aspekt də tədqiq olunur. Rentgen vasitəsilə təcrid olunmuş səslərin tələffüzü zamanı danışıq üzvlərinin profillərini (yan kəsiyini) almaq olur. Danışıq axınının tədqiqində kinorentgendən istifadə olunur. Son dövrlərdə kompüter texnologiyasının inkişafı sayəsində fonetikanın eksperimental yöndə öyrənilməsinə geniş imkanlar yaranmışdır. Məsələn, məqsəddən asılı olaraq dil materialı kompüterə verilir, kompüter isə müəyyən proqram əsasında səs siqnallarını təhlil edir.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 166-185.

ЭКСПИРАТОРНЫЙ - alm. expiratorisch, ing. expiratory /ɪkˈspɪrət(ə)ri/ ɪksˈpaɪərətərɪ/, fr. expiratoire, azərb. ekspirator, nəfəsvermə ilə bağlı. - Ekspirasiya ilə əlaqədar, nəfəsvermə nəticəsində əmələ gələn.
О.С.Ахманова. Göstərilən əsəri, s. 523.

ЭКСПИРАЦИЯ - alm. Expiration (f), ing. expiration /ık'spreʃən,ek-z-s/,ekspı'reıʃən/, fr. expiration, azərb. nəfəsvermə (**ekspirasiya**). – Bu və ya digər səsin tələffüzündə nəfəsvermə prosesi. Lakin qeyd etmək lazımdır ki, nəfəsvermənin gücü müxtəlif səslərin tələffüzündə eyni deyildir. Məs.: kar samitlərin tələffüzündə nəfəsvermə güclüdür (buna görə də onları «fortis» (güclü) adlandırırlar), cingiltili samitlərin tələffüzündə nəfəsvermə nisbətən zəif (cingiltili samitləri «lenis» (zəif) adlandırırlar), sonorlarda nəfəsvermə zəif, saitlərdə isə son dərəcə zəif olur.
A.A.Реформатский. Göstərilən əsəri, s. 168.

ЭКСПИРАТОРНАЯ ТЕОРИЯ СЛОГА - alm. Expirationstheorie der Silbe (f), ing. expiratory theory of syllable-formation /ık'spırətərı ıks'paıərətərı 'θıərı əv 'sıləbl fɔ:'meıʃən/, fr. théorie syllabique expirateur, azərb. ekspirator heca nəzəriyyəsi. - Tələffüzü zamanı güclü hava axınının təsiri nəticəsində heca düzəldən elementin fərqləndiyini göstərən nəzəriyyə. Bu nəzəriyyə hecanı bir nəfəsvermə zamanı tələffüz edilən səs birləşməsi hesab edir. Amerika alimi Stetsona görə, heca nəfəsvermədə yaranır. O, bir nəfəsvermələ tələffüz edilən fonem və ya fonem qrupunu heca adlandırır. Məsələnin belə həlli ilə razılaşmaq olmaz, çünki bir nəfəsvermədə bir neçə heca, söz, hətta sintaqm tələffüz etmək olar: /mən çox razıyam/ tərkibində bir neçə heca vardır. Hecanın saitlə başlaması və ya bitməsi məsələnin ikinci tərəfidir.
Ю.С.Маслов. Göstərilən əsəri, 66-71.

ЭКСПЛЕТИВНЫЙ - alm. expletiv, ing. expletive /ıks'pli:tıv/, fr. explétif, azərb. ekspletiv. - Söyləmə (ifadəyə) ənənəyə uyğun olaraq, ya da xüsusi çalarlıq ekspressivlik vermək məqsədi ilə pərçimləndirilmiş izafi ünsür. Məs.: Azərb. d. /Bakıda, küləklərin at oynatdığı bu şəhərdə, bu gun hava tərslikdən olduqca bürkü idi//.
О.С.Ахманова. Göstərilən əsəri, 89.

ЭКСПЛИЦИТНЫЙ - alm. explizit, ing. explicit /ıks'plısıt,-ek'/, fr. explicite, azərb. eksplisit. - Səslənən danışıqda açıq şəkildə ifadə edilən, danışıqda öz ifadəsini açıq şəkildə tapmış dil vahidi. Adətən «impilisit» termini ilə qarşılaşdırılır.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 95.

ЭКСПЛИЦИТНЫЙ АКТУАЛИЗАТОР - alm. expliziter Aktualisator (m), ing. explicit mean of actualizator /ıks'plısıt,-ek mi:n əv ,æktʃuəlaı'zeıtə'/, fr. actualisateur explicite, azərb. eksplisit aktuallizator. - Dil işarəsinin elə aktuallaşdırma vasitəsidir ki, formal şəkildə ifadə olunur. Məs.: müəyyən təsirlik halında və ya müəyyən yiyəlik halında hal şəkilçiləri real olaraq işlədilir.
О.С.Ахманова. Göstərilən əsəri, s. 523.

ЭКСПЛИЦИТНАЯ АКТУАЛИЗАЦИЯ - alm. explizite Aktualisierung (f), ing. explicit actualization /ɪksˈplɪsɪt ˈæktʃʊəlaɪzeɪʃən/, fr. actualisation explicite, azərb. eksplisit aktuallaşdırma. - Eksplisit aktualizator vasitəsilə virtual (təsəvvür edilə bilən) dil ünsürlərinin real məna və funksiyasını müəyyənləşdirmə.
O.C.Ахманова. Göstərilən əsəri, s. 523.

ЭКСПЛОЗИЯ - alm. Explosion (f), ing. explosion /ɪkˈspləʊʒ(ə)n/, fr. explosion, azərb. eksploziya. – Kipləşən partlayan samitlərin tələffüz məxrəcinin üçüncü mərhələsi (rekursiya). Məs: Azərb. d. /b/, /p/, /t/, /k/ samitlərinin tələffüzünün üçüncü, son mərhələsi.
F.Veysəlli. SDƏ, s. 127-128.

ЭКСПЛОЗИВНЫЙ - alm. explosiv, ing. explosive /ɪksˈpləʊsɪv,-ɛk/, fr. explosif, azərb. eksploziv. - Partlayışla bitən, yəni hər üç fazaya malik olan samitlər eksploziv samitlər hesab olunur. Məs.: /p/, /b/, /t/, /d/, /k/, /q/ samitləri. Adətən, imploziv samitlərə qarşı qoyulur. Çünki, imploziv samitlərdə bəzi fonetik mövqelərdə, məsələn, söz sonunda fasilədən əvvəl üçüncü fazaya malik deyildirlər. Məs.: Azərb. d. addım - /adım/, /ipək/, /tʃæpər/ və s.
F.Veysəlli. SDƏ, s. 127-128.

ЭКСПРЕССИВНАЯ ЛЕКСИКА - alm. expressive Lexik (f), ing. expressive vocabulary /ɪksˈpresɪv vəʊˈkæbjʊlərɪ/, expressive lexicon /ɪkˈspresɪv,-ɛk- ˈleksɪkən/, fr. lexique expressif, azərb. ekspressiv leksika. – Nəvaziş, zarafat, istehza, rişxənd, bəyənməmə, xoşlamama, laqeyidlik, etinasızlıq və s. ifadə edən sözlər. Məs.: Azərb. d. /şirindil/, /boşboğaz/, /gopçu/, /gözüac/; rus d. /душка/, /дурак/, /косой черт/, /пес его знает/ və s.
A.A.Реформатский. Göstərilən əsəri, 144.

ЭКСПРЕССИВНОСТЬ - alm. Expressivität (f), ing. expressivity /ɪksˈpresɪvɪtɪ/ expressiveness /ɪksˈprsɪvnɪs/, fr. expressivité, azərb. ekspressivlik. - İfadənin obrazlılıq, emossionallıq bildirmə keyfiyyəti. Xüsusi nəvaziş-əzizləmə, kiçiltmə bildirən şəkilçilər, məcazlar və ritorik fiqurlar ekspressivlik vasitələri hesab olunurlar. Məs.: Azərb. d. /qızcığaz acından öldü/, /can bala/.
A.A.Реформатский. Göstərilən əsəri, s. 30.

ЭКСПРЕССИВНАЯ ФУНКЦИЯ – alm. expressive Funktion (f), ing. expressive function /ɪksˈpresɪv,-ɛk ˈfʌŋkʃən/, fr. fonction expressif, azərb. ekspressiv funksiya. - Dilin danışanın emosionallığını, iradəsini, arzularını ifadə etmək xüsusiyyəti. Ekspressivlik dilin müxtəlif vahidləri vasitəsilə ifadə oluna bilər: nidalarla (Ox! Eh! Uf! Pəh!); nəvaziş, rişxənd, bəyənməmə, əzizləmə bildirən sözlərlə. Məs., (dostcığaz, gülməşəkər, çərənçi) və s.
A.A.Реформатский. Göstərilən əsəri, s. 30.

ЭКСПРЕССИВНЫЙ - alm. expressiv, ing. expressive /ɪks'presɪv,-ɛk/, fr. expressif, azərb. ekspressiv. - Ekspressivliyin olması. Ekspressivliyin mövcudluğu, ekspresiya bildirən, ekspressiyaya malik olan.
Bax. Экспрессивность ←.

ЭКСПРЕССИЯ - alm. Expression (f), ing. expression /ɪks'preʃən,-ɛk/, fr. expression, azərb. ekspressiya. - Danışığı adi (neytral) üslubdan fərqləndirən, ona ifadəlilik və emosional çalarlıqlar verən ifadəli təsvir keyfiyyəti. Məs.: Azərb. d. /Gözəllər sultanı, ay mələkzada// (A.Ələsgər); /Tərpənməyən dağ gövdəsi baxanlara gəlir şir// (S.Vurğun).
Bax. Экспрессивность ←.

ЭКСТЕНСИОНАЛ - alm. extensional, ing. extensional /ɪk'stenʃənəl/, fr. extensionalle, azərb. ektensional. - Dil vahidinin nominativ (adlandırma) cəhəti. Kontekstdə fərdi əşyalara müvafiq gəlib-gəlməməsi baxımdan nəzərdən keçirilən dil vahidi. Adətən, «intensional» məfhumu ilə qarşılaşdırılır.
A.A.Реформатский. Göstərilən əsəri, s. 30.

ЭКСТРАЛИНГВИСТИКА - alm. Extralinguistik (f), ing. extralinguistics /'ekstrə lɪŋ'gwɪstɪks/, fr. extralinguistique, azərb. ekstralinqvistika. - Etnik, ictimai, tarixi, sosial, coğrafi və s. amilləri dilin inkişafı və işlənməsi ilə sıx əlaqədar amillər kimi öyrənən dilçilik sahəsi.
Ф. де Соссюр. Труды по языкознанию. M., 1977.

ЭКСТРАЛИНГВИСТИЧЕСКИЙ - alm. extralinguistisch, außersprachlich, ing. extralinguistic /'ekstrəlɪŋ'gwɪstɪk/, fr. extralinguistique, azərb. ekstralinqivistik, dilxarici. - Dilin inkişafının və fəaliyyət göstərdiyi şəraitlə, real gercəkliklə sıx bağlı olan, dildənkənar.
Bax. Экстралингвистика ←.

ЭКСЦЕССИВ - alm. Excessivus (m), ing. excessive /ɪk'sesɪv/, fr. excessif, azərb. çoxaltma dərəcəsi (eksessiv). - Sifətdə əlamət və keyfiyyətin adi dərəcəyə nisbətən çox dəyişməsini göstərən çoxaltma dərəcəsi. Azərbaycan dilində sifətin çoxaltma dərəcəsi morfoloji və sintaktik üsullarla yaranır. Birinci halda sözün ilk hecasına və ya birinci hissəsinə /p/, /r/, /m/, /s/ elementləri artırılır. Məs.: Azərb. d. /sapsarı/, /yamyaşıl/, /qapqara/ və s. Sifətlərdən sintaktik yolla çoxaltma dərəcəsini düzəltmək üçün əsasən ədatlardan istifadə olunur. Məs.: Azərb. d. /ən yaxşı/, /ən pis/, /daha dolğun/, /daha təmiz/, /daha böyük/, /lap qırmızı/, /lap ağ/ və s.
Müasir Azərbaycan dili. II cild. Bakı, 1980, s. 124.

ЭЛАМСКИЙ ЯЗЫК – alm. Elamisch (n), ing. Elam language /'i:ləm 'læŋgwɪʤ/, fr. langue élam, azərb. elam dili. - Eramızdan əvvəl III-I minilliklərdə İran yaylasında yayılmış ölü dil. Dravid dillərilə qohumluğu fərz edilir. Tipoloji baxımdan aqlütinativ dillərdən hesab olunur.
И.М.Дьяконов. Языки Древней Передней Азии. M., 1967.

ЭЛАТИВ - alm. Elativus (m), ing. elative /ɪ'leɪtɪvə/, fr. elatif, azərb. elativ (üstünlük dərəcəsi). - Sifətin çoxaltma dərəcəsinin yaranmasında istifadə olunan üsullardan biri də eyni bir sifətin təkrarı ilə sifət müvafiq əşya ilə müqayisə olunur, əşyanın əvvəlki əlamət və keyfiyyətə nisbətən üstün olduğu göstərilir. Sifətlərdə (əsasən onların ekspressiv işlədildikləri zaman) müəyyən bir əlamətin hədsiz dərəcədə çox olduğunu göstərən üstünlük dərəcəsi. Elativlər adətən kitab və danışıq dilində sabit söz birləşmələri kimi iştirak edirlər. Məs.: Azərb. d. /ucalardan uca/, /gözəllər gözəli/, /dahilərin dahisi/, /ağ yalan/, /geniş imkanlar/.
Müasir Azərbaycan dili. II cild. Bakı, 1980, s. 124.

ЭЛЕКТРОАКУСТИЧЕСКИЕ МЕТОДЫ - alm. elektroakustische Methoden (Pl.), ing. elektro-acoustic(al) methods /ɪ'lektrəʊ ə'ku:stɪk(əl) 'meθədz/, fr. méthodes électros-acoustiques, azərb. elektro - akustik metodlar. - Müasir dövrdə dilin səs quruluşunun laboratoriya şəraitində, daha doğrusu, cihazlarla öyrənilməsində elektro-akustik üsulların tətbiqi geniş vüsət almışdır. V.A.Artyomov özünün «Eksperimental fonetika» əsərində təcrübi fonetikanın tərkib hissəsi olan eksperimental fonetika labaratoriyasında hərtərəfli elmi araşdırmalar aparmaqdan ötrü yüzə yaxın cihaz və ləvazimatların zəruriliyini göstərir. Bu üsulların köməyi sayəsində müəyyən nitq hadisəsinin rəqs tezliklərinin sayını, onların intensivliyini (amplitudlarını), obertonlarını və səslərə sərf olunan zamanı müəyyənləşdirmək olur. Elektro-akustik metodların üç əsas növü mövcuddur: elektro-dinamik, ossiloqrafik və spektroqrafik. Elektro-akustik üsullar səsin maqnitofon lentinə yazılması, dilin səs tərkibinin ossiloqrafda yazılması və təhlili, dilin fonem tərkibinin spektroqrafik təhlili kimi prosedurları əhatə edir.
В.А.Артемов. Экспериментальная фонетика. М., 1956, s. 206-209.

ЭЛИЗИЯ - alm. Elision (f), Vokalausstoßung (f), ing. elision /ɪ'lɪʒən/, fr. elision, azərb. eliziya (səsdüşümü). - Dildə saitlə bitən vahiddən sonra saitlə başlanan digər vahid gəldikdə əvvəlincidə son saitin ixtisara düşməsi. Eliziya ilk baxışdan anakopa hadisəsinə bənzəsə də, onlar bir-birindən yetərincə fərqlənirlər. Belə ki, anakopa hadisəsi zamanı samit səslər düşür. Məs.: Azərb. d. /Əli+ Əsgər/ = /Ələsgər/. /Əli+Ağa/ = /Əlağa/; /bir vaxt/ – /bivaxt/, /gəl götür/ – /gə götür/ və s.
N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1980, s. 78-79.

ЭЛЛИПСИС - alm. Ellipse (f), ing. ellipsis /ɪ'lɪpsɪs/, fr. ellipse, azərb. ellipsis. - İfadənin hər hansı bir elementinin ixtisarı (atılması). İxtisar olunmuş ünsür mətndən, kontekstdən asılı olaraq asanlıqla bərpa edilə bilər. Söz və söz formalarında sait və samit səslərin düşməsi hadisəsi. kodlaşdırılmış ədəbi dildən fərqli olaraq danışıq dilində geniş vüsət almış linqvistik hadisədir. Məs.: rus d-nin. materialları əsasında aparılan tədqiqatlara görə, danışıq prosesində həmin dildəki saitlərin 2%-i, samit-

lərinsə 5%-i düşür. Ellipsisə (səsdüşmə) dilin digər səviyyələrində də rast gəlmək olar. Məs.: Azərb. d. /Bu dünya yarandığı gündən bir torpaq var, bir də dəniz//.
A.A.Реформатский. Göstərilən əsəri, s. 108.

ЭМА - alm. emisch, ing. eme /'emə/, fr. éma, azərb. ema. - Dilin struktur vahidi, struktur vahid mənasına uyğun gələn şəkilçi olub, fonem, morfem, semem, semantem və s. kimi terminlərin tərkibində işlənir. Allo ünsürü ilə qarşılaşdırılır və ondan fərqləndirilir. Allo ünsür şəkilçi olub, dilin yox, normanın struktur vahidi kimi çıxış edir (allofon, allomorf, allosem) və s.
F.Veysəlli. SDƏ. s. 255-256.

ЭМОТИВНЫЙ – alm. emotiv, ing. emotive /ɪ'məʊtɪv/, fr. émotif, azərb. emotiv. – Emotivlik müəllifin subyektiv emosional münasibətini bildirməyə xidmət edir ki, bu da danışanın ünsiyyətdə gözlədiyinə uyğun gəlib-gəlməməsini ifadə edir. Məs.: ing. d. qeyri-emotiv fellər /to forget, to know/ (unutmaq, bilmək) və s. /very-well/-lə birləşik işlənirlər, emotiv fellər isə /to bother, to regret/ və s. (very) much elementləri ilə əlaqəyə girə bilir.
F.Yadigar (Veysəlli). GDG, s. 335.

ЭМОЦИОНАЛЬНЫЙ - alm. emotionell, ing. emotional /ɪ'məʊʃənəl/, fr. émotionnel, azərb. emosional. - Subyektiv münasibət, əhval-ruhiyyə, hissiyyat bildirən.
Bax. Эмоциональная лексика →.

ЭМОЦИОНАЛЬНАЯ ЛЕКСИКА - alm. emotionale Lexik (f), ing. emotional vocabulary /ɪ'məʊʃənəl vəʊ'kæbjʊlərɪ/, emotional lexicon /ɪ'məʊʃənəl 'leksɪkən/ fr. lexique émotionnelle, azərb. emosional leksika. - Sabit emosional rəngarəngliyə malik söz və ifadələr. Azərb. d. kiçiltmə və əzizləmə anlayışı bildirən şəkilçiləri qəbul etmiş vahidlər. Məs.: Azərb. d. /anacığaz/, /körpəciyəz/, /aman allah, ilahi/ sözlər emosional leksikaya daxildir.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 92.

ЭМФАЗА - alm. Emphase (f), ing. emphasis /'emfəsɪs/, fr. emphase, azərb. emfaza. - Deyilmiş (ifadənin) hər hansı bir elementin intonasiya, təkrarlama, sintaksis mövqeyin köməyi ilə fərqləndirərək nəzərə çarpdırmaq. Məs.: fr. d. /İls sont venus tonus/ .
O.C.Ахманова. Göstərilən əsəri, s. 525.

ЭМФАТИЧЕСКОЕ УДАРЕНИЕ - alm. emphatische Betonung (f), ing. emphatic stress /ɪm'fætɪk stres/, fr. accent emphatique, azərb. emfatik vurğu. – Emfatik vurğu müxtəlif amillərlə bağlı konkret vəziyyətdə danışanın hiss-həyəcanını (emosiyalarını), onun affekt durumunu ifadə edir. Emfatik vurğu dilin sintaktik quruluşu ilə deyil, söyləmdə ifadə

olunan mənadan, yəni semantik amillərdən asılıdır. Məs.: Azərb. d. /yoldaşlar/; rus d. /Какой у вас чудéсный вид/, /Он такòй хороший/.
М.И.Матусевич. Современный русский язык. Фонетика. М., 1976, s. 238-239.

ЭНАЛЛАГА - alm. Enallage (f), ing. enallage /ɪn'lɑ:dʒ,-ɛn-/, fr. enallage, azərb. enallaqa. - Danışıqda söz formaları arasında məna əlaqəsi, məna uyğunluğu olduğu halda, formal-qrammatik uyğunluğun pozulması, uzlaşmanın pozulması.

Məs.:

Sizdən ayrılanda, dağlar, cavandım:
İndi hüzuruna qoca gəlmişəm!

Burada sizdən və dağlar kimi cəmlik bildirən söz formaları mənaca əlaqəli olduğu halda, /hüzuruna/ tək halda işlənmişdir.
M.İ.Adilov və b. Göstərilən əsəri, s. 96.

ЭНАНТИОСЕМИЯ - alm. Enantiosemie (f), ing. enantiosemy /ɪ'nantɪəʊ'semɪ-ɛ/, fr. enantiosemie, azərb. enantiosemiya. - Eyni sözün, ifadənin, morfemin antonim mənalar bildirmə xüsusiyyəti. Dilçilikdə antonimiyanın son həddi kimi hesab olunur. Müq. et: Azərb. d. /O sadəcə igiddir/, /O necə igiddir!/. Söz formalarının üst-üstə düşməsinə baxmayaraq, onlar əks mənalar ifadə edirlər. Əlbəttə, burada intonasiya amili nəzərdən yayınmamalıdır. Digər bir misala da nəzər salaq: Məs.: /Borclu borclunun sağlığını istər/ ifadəsindəki eyni borclu sözlərindən biri /borc alan/, ikincisi /borc verən/ mənasında işlənir.
2. Sözün əks mənada işlədilməsindən yaranan ifadə (İntonasiya ilə sözün əks mənada işlədilməsi). /Ay zalım! Gözəl danışır!/
O.C.Ахманова. Göstərilən əsəri, s. 526.

ЭНДИАДИОЙН - alm. Hendiadyoin (f), ing. hendiadyoin /hɛn'dʌɪədɪəɪn/, hendiadys /hɛn'dʌɪədɪs/, fr. hendiadyin, azərb. hendiadiz. - İki həmcins üzvdən ibarət olub bir mürəkkəb söz düzəldən tərkibdir ki, bu tərkibə daxil olan üzvlər şəraitin (əhatənin) tələbi ilə bir-birindən qoparaq müstəqil işlənə bilir. Məs.: Azərb. d. /boy-buxun/, /əmi- dayı/, /xala-bibi/, /can-baş/, /dağ-dərə/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 526.

ЭНДОЦЕНТРИЧЕСКИЙ - alm. endozentrisch, ing. endocentric /ˌɛndəʊsɛntrik/, fr. éndocentrique, azərb. endosentirik. - Leksik-qrammatik xüsusiyyətlərinə və funksiyasına görə öz əsas elementinə (ünsürə) uyğun gələn.
O.C.Ахманова. Göstərilən əsəri, s. 526.

ЭНЕРГИЯ - alm. Energie (f), ing. energy /'enədʒɪ/, fr. énergie, azərb. energiya. - Danışıq ilə sıx şəkildə əlaqədar olan dil, yalnız danışıqda və danışıq vasitəsilə mövcud olan, hərəkət və dəyişmə prossesindən götürül-

müş dil. Bu termini irəli sürən V. fon Humboldt bunu «dil fəaliyyətidir» kimi səciyyələndirmişdir.
F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 16-17.

ЭНКЛИЗА - alm. Enklise (f), Tonanschluß (m), ing. enclisis /ɪn'klɪsɪs/, fr. enclise, azərb. enkliz. - Vurğusuz hecanın və ya vurğusuz sözün ondan əvvəldə gələn vurğulu sözə yanaşaraq tələffüzcə onunla fonetik bütöv əmələ gətirməsi. Məs.: Azərb. d. /kimin üçün/, /sənin ilə/; rus d. /кто'это/, /что'он/, /на'дом/, /ви'дел ли/, /чита'л бы/ və s.
A.A.Реформатский. Göstərilən əsəri, s.189.

ЭНКЛИТИКА - alm. Enklitik (f), ing. enclitic /ɪn'klɪtɪk/, fr. enclitique, azərb. enklitika. - Vurğulu sözdən sonra gələn vurğusuz sözə enklitika (ayrılıqda vurğusu olmayan söz) deyilir. Enklitik proklitikə qarşı qoyulur. Məs.: Azərb. d. /kimdən götrü/, /səndən savayı/; rus d. /кто'это/, /что'он/, /на'дом/, /ви'дел ли/, /чита'л бы/ və s.
A.A.Реформатский. Göstərilən əsəri, s.189.

ЭНЦИКЛОПЕДИЧЕСКИЙ СЛОВАРЬ - alm. Enzyklopädie (f), ing. encyclop(a)edia /ɪnˌsaɪklə'pi:dɪə/, encyclop(a)edic vocabulary /ɪnˌsaɪklə'pi:dɪk vəu'kæbjʊlərɪ/, fr. dictionnaire encyclopédique, azərb. ensiklopedik lüğət. – Dilin sözlərini özündə əks etdirən lüğətlər ümumi səciyyəsinə görə iki böyük qrupa ayrılır: ensiklopedik və filioloji. Ensiklopedik lüğətlərdə insan cəmiyyətində müəyyən rol oynamış insanlar, elmi nailiyyətlər, əşyalar və məfhumlar barəsində elmi məlumat verilir və şərh edilir. Ensiklopediya lüğətlərinin özləri də məqsədlərindən asılı olaraq müxtəlif olur. Məs.: «Böyük Sovet Ensiklopediyası», «Kiçik Sovet Ensiklopediyası», «Pedaqoji Ensiklopediya», Şəmsəddin Saminin tarix və coğrafiyaya aid sözləri əhatə edən türk dilində hazırlanmış «Qamusi-əlam» və s.
Ə.Cəfərov. Müasir Azərbaycan dili. Bakı, 1970, s. 128.

ЭПЕНТЕЗА - alm. Epenthese (f), ing. epenthesis /ˌepen'θesɪs/, fr. épenthèse, azərb. səs artımı (epenteza). - Sözdə müəyyən morfonoloji və ya fonetik şəraitin təsiri nəticəsində həmin sözün ilkin formasına xas olmayan əlavə səslərin yaranması. Azərbaycan dili sait və samitlərinin və ya əksinə düzülüşündə müvazilik gözləyən dil olduğundan bu dildə eyni heca daxilində iki sait və ya samit yanaşı gələ bilmir. Məhz bu səbəbdən də dilimizdə ərəb, fars, rus və s. kimi yad mənşəli sözlərdə analoji hallar ortaya çıxdıqda (iki sait və ya iki samitin yanaşı işlənməsi nəzərdə tutulur) istər tələffüzdə, istərsə də yazıda onların arasına ya sait, ya da samit əlavə edilir. Məs.: Azərb. d. /heyf-heyif/, /nəsl-nəsil/, /aid- ayid/, /ailə- āyilə/ və s.
A.A.Реформатский. Göstərilən əsəri, s. 192.

ЭПИГЛОТТАЛЬНЫЙ - alm. epiglottal, ing. epiglottal /ˌepɪ'glɒtəl/, fr. épiglottale, azərb. epiqlottal. - Hava axınının səs cığırına yaxınlaşması

ilə gərginləşmiş, qırtlaqüstünə sürtünməsindən yaranan novlu sürtünən (frikativ) samit. Məs.: ərəb dilindəki /ʢ/, /ɛ/ samitləri.
A.A.Реформатский. Göstərilən əsəri, s. 174.

ЭПИДЕЙКТИЧЕСКИЙ - alm. epideiktisch, ing. epideictic /epɪ'dʌktɪk/, fr. épideictique, azərb. epideyktik. - Danışan şəxsə bu və ya digər münasibətdə olan əşya və şəxslərin aralarındakı əlaqə vasitəsilə göstərilməsi, nişan verilməsi, fərqləndirilməsi (differensasiyası).
O.C.Ахманова. Göstərilən əsəri, s. 527.

ЭПИМОНА - alm. Epimon (n), ing. epimone /ˌepɪ'mɒnə/, fr. épimone, azərb. epimon. - Eyni söz və ya söz birləşməsinin qismən dəyişilmiş şəkildə təkrar edilməsindən ibarət üslubi fiqur. Adətən bədii əsərlərdə, xüsusən poeziyada geniş istifadə olunur.

Edəməm tərki, Füzuli, səri-kuyin yarın,
Vətənimdir, vətənimdir, vətənim. (M.Füzuli.)

O.C.Ахманова. Göstərilən əsəri, s. 527.

ЭПИСЕМЕМА - alm. Episemem (n), ing. episememe /ɪpɪ'semi:m/ ɛpɪ'si:mi:m/, fr. épisemem, azərb. episemem. - Sintaktik məzmunun ən kiçik struktur vahidi, taqmemin məzmun cəhəti.
F.Veysəlli. SDƏ. s. 254-276.

ЭПИСТОЛЯРНОЕ ВРЕМЯ - alm. epistolare Zeitform (f), ing. epistolary tense /ɪ'pɪstələrɪ tenz/, fr. épistolaire époque (temps), azərb. epistolyar zaman. - Hind-Avropa dillərində keçmişdə baş vermiş hərəkətin aniliyini, daha doğrusu, onun inkişafını və ya tam bitkinliyini göstərmək məqsədilə işlədilən felin tərzi - zaman kateqoriyası.
O.C.Аманова. Göstərilən əsəri, s. 527.

ЭПИСТОЛЯРНЫЙ - alm. epistolarisch, ing. epistolary /ɪ'pɪstələrɪ/, fr. Épistolaire, azərb. epistolyar. - Məktub, nəsihətnamə, öyüdnamə, müraciətnamə tərzində yazılan bədii ədəbiyyata məxsus janr. Epistolyar ədəbiyyat. Epistolyar üslub.
O.C.Аманова. Göstərilən əsəri, s. 527.

ЭПИТЕЗА - alm. Epithese (f), ing. epithesis /'epɪθi:sɪs/, fr. épithèse, azərb. epitez. - Dilçilikdə müəyyən fonetik və morfoloji şəraitlə əlaqədar olaraq söz sonuna artırılan səsə epitez deyilir. Azərb. d. saitlə bitən sözə saitlə başlayan şəkilçi artırıldıqda, onların arasına /y/, /n/ və /s/ samitlərindən biri artırılır. Məs.: /alma– alma+y+a, alma+n+ı, alma+s+ı/. Burada /alma/ sözünün sonuna şəkilçidən əvvəl /y/, /n/, /s/ samitlərinin artırılması epitez hadisəsinə misal ola bilər.
N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1980, s. 80.

ЭПИТЕТ - alm. Epitheton (n), Attribut (n), ing. adherent /əd'hıərənt/, epithet /'epıθet/, fr. épithète, azərb. epitet. - Adi təyindən ekspressivliyi, məcaziliyi ilə fərqlənən obrazlı, bədii təyin (təyin **növü**). Bu təyinlər adətən məcazi mənada işlədilir. Məs.: Azərb. d. /qoca təbiət/, /xan çinar/, /başsız küləklər/ və s.
M.İ.Adilov və b. Göçstərilən əsəri, s. 94.

ЭПИТЕТ ПОСТОЯННЫЙ - alm. konstantes Epitheton (n), ing. (conventional) constant epithet /kən'venʃənəl/'kɒnstənt 'epıθet/, permanent epithet /pɜ:mənənt 'epıθet/, fr. épithète constant, azərb. sabit epitet. – Dildə sabit şəkil almış, təyin edilən sözlə birləşməsi, ədəbi ifadə səciyyəsi daşıyan epitet. Məs.: Azərb. d. /şirin söz/, /lalə yanaq/, /qönçə dəhan/, /zülfü pərişan/, /qızıl payız/, /acı dil/, /ana vətən/, /şad gün/ və s.
Bax. Эпитет ←.

ЭПИФОРА - alm. Epiphora (f), ing. epiphora /'epıfɒrə/, fr. épiphore, azərb. epifora. - Poetik nitqə xüsusi qüvvətləndirici ifadə vermək üçün sözlərin, söz birləşmələrinin (eyni elementlərin) şer, strofa və cümlə sonluğunda təkrarlanmasından alınan üslubi fiqur. Adətən anafora ilə qarşılaşdırılır. Məs.: Azərb. d.

Anadır dünyanın qoca bağbanı,
Anadır həyatın ilk çırağbanı.
Günəşsiz açılan bir gül, bir çiçək,
Bağbansız göyərən gülüstan hanı?

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 97.

ЭПИЦЕН - alm. Epicoinon (n), ing. epicene /'epısi:n/, fr. épicène, azərb. episen. - Hər iki cinsə məxsus olan. Heyvanların cinsi ayrılığını göstərməyən isimlər. Azərbaycan dili üçün cins kateqoriyası aktual hesab edilmir. Bu, rus dili üçün daha səciyyəvidir. Məs.: rus d. /лошадь/, /мышь/, /крыса/, /самец/ - /самка/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 528.

ЭПОНИМ - alm. Eponym (n), ing. eponym /'epənım/, fr. éponyme, azərb. eponim. - Dilin leksik qatında başqa omonimin yaranmasına xidmət edən şəxs adı. Məs.: Azərb. d. /xalq qəhramanı Babək - Babək rayonu/, /Mirzə - soyadı Mirzəyev/, /Cəlil - Cəlilabad rayonu/ və s.
O.C.Ахманова. Göstərilən əsəri, s. 528.

ЭРГАТИВ - alm. Ergativ (m), ing. ergative /ə:gætıv/, ergativity /ə:gætıvıtı/ fr. ergatif, azərb. erqativ. - Müəyyən dillərdə (Qafqaz) təsirsiz fellər önündə hərəkətin mənbəyini göstərən kateqorial hal forması. Erqativ dillərdə nominativ dillərdən fərqli olaraq (nominativ dillərdə subyekt və obyektin semantik qarşılaşması əsas götürülür), aqent (işin,

hərəkətin icracısı) və faktitivin (hərəkətin daşıyıcısı) semantik qarşılaşması əsas götürülür.

Bax: Эргативный строй предложения →.

ЭРГАТИВНЫЙ СТРОЙ ПРЕДЛОЖЕНИЯ - alm. ergativer Satzbau (m), ing. ergative structure sentence /əːgætɪv ˈstrʌktʃə sentəns/, fr. structure proposition ergatif, azərb. erqativ cümlə qurluşu. - Xəbəri təsirli və təsirsiz fellərdən ibarət olduqda mübtədanın müxtəlif hallarda işləndiyini əks etdirən cümlə qurluşu. Qafqaz, İran, Ön Asiya və Amerikada bir sıra dillərdə erqativ quruluşa malik cümlələrdən istifadə edilir. Belə dillərdə ismin təsirlik halı yoxdur. Erqativ hal Azərbaycan dilində hər hansı bir hala uyğun gələ bilər.

M.İ.Adilov və b. Göstərilən əsəri, s. 98.

ЭРГОН - alm. Ergon (n), ing. ergon /ˈəːgɒn/əːgəʊˈn/, fr. ergon, azərb. erqon. - Tam bitkin bir vahid kimi formalaşmış dil, danışıq prosesindən asılı olmayan, fəaliyyətin donuq nəticəsi olan dil. «Dil erqondur» ifadəsi o deməkdir ki, dil fəaliyyət deyil, fəaliyyətin donuq nəticəsidir. Adətən «enerqeia»-ya qarşı qoyulur. V.fon Humboldtun təbirincə desək, dil «erqon» deyil, «enerqeia» -dır.

F.Yadigar (Veysəlli). Fonetika və fonologiya məsələləri. Bakı, 1993, s. 16-17.

ЭРЗЯНСКИЙ ЯЗЫК - alm. Ersjanisch (n), ing. erzon language /ɜːzən ˈlæŋgwɪdʒ/, fr. erzon langue, azərb. erzyan dili. – Mordov dillərindən biri. Əsasən Mordoviya Respublikasında, Samara, Penza, Saratov, Çelyabinsk vilayətlərində, habelə qismən də Tatarıstan, Başqırdstan və Çuvaş respublikalarında yayılmışdır. Üç dialektə bölünür. Ədəbi variantı Oktyabr çevrilişindən sonra formalaşmışdır. Ədəbi dilin əsasında Mordov Respublikasındakı kozlovka-ataşev dialekti durur.

Д.В.Бубрих. Историческая грамматика эрзянского языка. Саранск, 1953.

ЭРОТЕМА - alm. Erothema (n), ing. Erothema /ˈɪrɒθiːmə/, fr. Érotema, azərb. erotema. - Emossionallıq yaratmaq və ya diqqəti cəlb etmək məqsədilə təsdiq və inkara sual forması verməkdən ibarət ritorik fiqur.

Kim bilir, başına nələr gələcək?
Bəxti ağlayacaq, yoxsa güləcək.

S.Vurğun.

М.И.Матусевич. Современный русский язык. Фонетика. М., 1976, s. 266-268.

ЭСКИМОССКИЙ ЯЗЫК – alm. Eskimoisch (n), ing. The Eskimo language /ðiː ˈeskɪməʊ ˈlæŋgwɪdʒ/, fr. langue esquimau, azərb. eskimos dili. – Eskimos-aleut dillərindən biri. Əsasən Çukot yarımadasında, Alyaska yarımadasında, habelə Kanada və Qrenlandiyanın arktik ərazilərində

yayılmışdır. Bu dildə təqribən 120 minə qədər əhali danışır. İki dialekti var: yuit və inuit.

Г.А.Меновщиков. Грамматика языка азиатских эскимосов. М., - Л., 1962-67.

ЭСПЕРАНТО - alm. Esperanto (n), ing. Esperanto /ˌespəˌræntəʊ/ ɛspə'rantəʊ/, fr. espéranto, azərb. esperanto. - «Esperanto» - «inanan», «ümüd edən» mənası daşıyır. «Esperanto» 1887-ci ildə polşalı göz həkimi Lüdovik Lazar Zamenhof tərəfindən yaradılmışdır. Sonralar «esperanto» sözünü göz həkimi özünə ləqəb götürmüşdür. Bu dili yaratmaqda məqsəd dil müxtəlifliyini aradan qaldırmaq, bütün xalqların bir-birilə maneəsiz olaraq ünsiyyətə girmək imkanını təmin etmək idi. Buradakı «süni» sözü nisbi mənada başa düşülməlidir. Çünki əslində bu dil söz köklərinin 70%-ni roman, 20%-ni german və 10%-ni isə başqa dillərdən götürmüş və iltisaqi (türk) dillərin sözdüzəltmə prinsiplərinə əsaslanaraq külli miqdarda yeni sözlər yaratmaq imkanına malikdir. İlk dəfə çapdan çıxmış 40 səhifəlik «Unio libro» (Birinci kitab) əsərində L.Zamenhof cəmisi 2600 söz işlətmişdir. Hazırda isə esperanto dilində 180000-ə qədər söz vardır. İndi esperantoçular bütün dünyada geniş yayılmış cəmiyyətlər yaratmışlar. Esperanto dilinin lüğət tərkibinin əsasını nisbətən geniş yayılmış Avropa dillərinin sözləri, qrammatikasının əsasında isə aqlütinasiya durur. Bu dilin qrammatik quruluşu 16 qaydadan ibarətdir. Hər nitq hissəsinin bir şəkilçisi var. Bu gün Ümumdünya Esperanto Cəmiyyəti 14 beynəlxalq, 34 milli və 1100 yerli təşkilatı özündə cəmləşdirir.

F.Yadigar (Veysəlli). Dilimiz, qeyrətimiz və qayğılarımız. Bakı, 1997, s. 76-77.

ЭССИВ - alm. Essivus (m), ing. essive /essɪv/, fr. essif, azərb. essiv (təsviri hal). – Fin-uqor dillərində vəziyyətin sabitliyini və ya davamlıq mənasını bildirən kateqorial hal forması.

O.C.Ахманова. Göstərilən əsəri, s. 528.

ЭСТОНСКИЙ ЯЗЫК - alm. Estonisch (n), ing. Estonian /ɪ'stəʊnɪən,-ɛ/, the Estonian language /ðiː es'tənjən/ɪ'stəʊnɪən,-ɛ 'læŋgwɪʤ/, fr. l'estonien, langue estonienne, azərb. eston dili. – Baltikyanı dillərindən biridir. Əsasən Estoniyada, habelə İsveç, Kanada və Amerikada yayılmışdır. Ümumilikdə bu dildə 1,2 milyondan yuxarı əhali danışır. Eston dilində vurğu adətən ilk hecaya düşür. Birinci hecada bütün saitlər, diftonqlar işlənir. İsmin 14 halı mövcuddur. Felin dörd forması (tərz) məlumdur. Yazısı latın əlifbası əsasındadır.

A.Каск. Эстонский язык. «Основы финно-угорского языкознания». М., 1975.

ЭТИМОЛОГИЧЕСКИЙ - alm. etymologisch, ing. etymological /ˌetɪmə'lɒʤɪkəl/, fr. étymologique, azərb. etimoloji. - Dil vahidlərinin mənşəyilə, etimologiyası ilə məşğul olan.

В.И.Кодухов. Общее языкознание. М., 1970. s. 262.

ЭТИМОЛОГИЧЕСКИЙ АНАЛИЗ - alm. etymologische Analyse (f), ing. etymological analysis /ˌetɪmə'lɒʤɪkəl ə'næləsɪs/, fr. analyse étymologique, azərb. etimoloji təhlil. - Sözün əvvəllər hansı quruluşa malik olduğunu, onun qədim, sözdüzəltmə əlaqələrini, nə zaman və hansı mənbədən təşəkkül edib yayıldığını, hansı vahidlərdən düzəldiyini araşdırmaq məqsədi güdən təhlil. V.İ.Koduxovun nöqteyi-nəzərincə, etimoloji təhlil zamanı üç mühüm qaydaya: fonetik əsaslandırmaya, sözdüzəltmənin motivləşdirilməsinə və semantik ehtimala əməl olunmalıdır. O, bu qaydaları izah edərək yazır: «Bu və ya digər sözün etimologiyasınının fonetik əsaslandırılması bundan ibarətdir ki, müqayisə edilən sözlərin mənşəcə eyniliyi müəyyənləşdirilir, uyğunluqların qanunauyğunluğu qəbul edilir, bütün fonetik dəyişmələr isə faktlar və analogiyalar vasitəsilə izah edilir». V.İ.Koduxovun fikrincə, sözdüzəltmənin motivləşməsi təhlilə cəlb edilən sözün real surətdə mövcud olan sözdüzəltmə sırasına daxil edilməsindən və sözdüzəltmə gedişlərinin ardıcıllığının müəyyənləşdirilməsindən ibarətdir. Semantik ehtimal qaydasına gəldikdə isə o göstərir ki, sözlərin semantik yaxınlaşmaları onların semantik inkişafının Qanunauyğunluqları əsasında baş tutur.

В.И.Кодухов. Общее языкознание. M., 1970, s. 262.

ЭТИМОЛОГИЧЕСКОЕ ЗНАЧЕНИЕ - alm. etymologische Bedeutung (f), ing. etymological meaning /ˌetɪmə'lɒʤɪkəl 'mi:nɪŋ/, fr. sinification étymologique, azərb. etimoloji məna - Sözün əşyavi hissəsinin ən qədim, ibtidai mənası, sözün etimonu.

В.И.Кодухов. Общее языкознание. M., 1970, s. 262.

ЭТИМОЛОГИЧЕСКИЕ ОМОНИМЫ - alm. etymologische Homonyme (Pl.), ing. etymological homonyms /ˌetɪmə'lɒʤɪkəl 'hɒmənɪms/, fr. homonymes étymologiques azərb. etimoloji omonimlər. - Dilin səs sisteminin inkişafı prossesində baş verən səs dəyişmələri nəticəsində meydana çıxan omonim. Məs.: Azərb. d. /düm/ (dümqara) və /düm/ (dümdüz); rus d. /лук/ (rastenie), /лук/ (silah növü).

А.А.Реформатский. Göstərilən əsəri, s. 84-91.

ЭТИМОЛОГИЧЕСКИЙ СЛОВАРЬ - alm. etymologisches Wörterbuch (n), ing. etymological vocabulary /ˌetɪmə'lɒʤɪkəl və'kæbjʊlərɪ/, fr. dictionnaire (vocabulaire) étymologique, azərb. etimoloji lüğət. - Sözlüyünə daxil olan sözlərin mənşəyi barədə məlumat verən lüğət. Bu lüğətlərdə verilmiş sözün qəhum-dillərdə uyğunluqları və alimlərin onun etimologiyası ilə bağlı olan müxtəlif fərziyyələri verilir. Rusiyada inqiLabaqədərki dövrlərdə nəşr edilən ən məşhur etimoloji lüğət A.Q.Preobrajenskinin 1910-1916-cı illərdə II cilddə nəşr etdirdiyi «Этимологический словарь русского языка» «Rus dilinin etimoloji lüğəti»-dir. Təxminən yarım əsr sonra, yəni 1961-ci ildə S. Q.Barxudarovun redaksiyası altında N.M.Şanski,

V.V.İvanov və T.V.Şanskinin «Rus dilinin qısa etimoloji lüğəti» («Краткий этимологический словарь русского языка») nəşr edildi.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 122.

ЭТИМОЛОГИЧЕСКАЯ ФИГУРА - alm. etymologische Figur (f), ing. etymological figure /ˌetɪmə'lɒʤɪkəl 'fɪgə/, fr. figure étymologique, azərb. etimoloji fiqur. – Dilin lüğət tərkibində söz birləşməsi və cümlə tərkibində eyni köklü vahidlərin birləşməsindən əmələ gələn ritorik fiqur. Məs.: Azərb. d. /gülüb güldürmək/, /ölən öldü/, /qalan qaldı/, /say saymaq/, /məktubla məktublaşmaq/ və s.
А.А.Реформатский. Göstərilən əsəri, s. 101-107.

ЭТИМОЛОГИЯ - alm. Etymologie (f), ing. etymology /ˌetɪ'mɒləʤɪ/, fr. étymologie, azərb. etimologiya. – «Etymoloqos» – yunan sözü olub, «etymon» - həqiqi, «loqos» – elm deməkdir. Müasir dilçilikdə etimologiya sözü əsasən iki mənada işlədilir. Əvvəla, o, söz və ya morfemin mənşəyi və tarixi mənasında, ikincisi, söz və morfemin tarixini öyrənən elm mənasında işlədilir. Etimoloji araşdırmaların tarixi olduqca qədimdir və bu sahədə primat yunan alimlərinə məxsusdur. Eramızdan əvvəl IV əsrdə Platon sözlərin etimoloji yöndə araşdırılması ilə ciddi məşğul olmuşdur. Bu sahəyə həsr olunmuş araşdırmalarına görə o, etimologiyanın banisi hesab edilir. Etimoloji araşdırmalar eramızdan əvvəl II-III minilliklərdə stoiklərin yaradıcılığında əsas yer tutur. Sələfləri kimi stoiklər də etimoloji araşdırmaların qarşısında duran əsas məqsədin sözün əsl (ilkin) mənasının tapılmasından və həmin mənа əsasında sözün mahiyyətini açmaqdan ibarət olduğunu qeyd edirdilər. Onların fikrincə, etimologiya nəinki söz və məfhumun eyniyyətini sübut etməlidir, habelə sözü ilkin yaradanların o sözə verdikləri əsl mənanı açmalıdır. Etimoloji tədqiqatda müqayisəli-tarixi metod əsas yer tutur. Etimologiyada sözün forma cəhətilə yanaşı, məna cəhətinin də mənşəyi araşdırılır.
А.А.Реформатский. Göstərilən əsəri, s. 101-107.

ЭТИМОЛОГИЯ ЛОЖНАЯ - alm. falsche Etymologie (f), ing. false etymology /fɔ:ls ˌetɪ'mɒləʤɪ/, fr. faux (fausse) étymologie, azərb. yalançı etimologiya. - Əcnəbi dillərdən alınma sözlərin və ya ana dilinə məxsus sözün etimoloji tərkibi barəsində ciddi elmi tədqiqatlara söykənməyən səhv, yanlış mülahizə və təsəvvürlər. Məs.: Azərb. d. Şanapipik və İshak-Musaq quşları ilə bağlı rəvayətlər. Digər bir misal. N.Y.Marr rus dilindəki «сумерки» sözünün şumer tayfasının adından törədiyini izah etməyə cəhd göstərmişdir. Rus dilindəki «сумер» (şumer) və «–ки» hissələrinə parçalanması, şübhəsiz, gerçəkliyi əks etdirmir. «Сумерки» sözü morfoloji cəhətdən önşəkilçiyə (су-), kökə (мерк) (müq. et: меркнуть) və şəkilçiyə (-и) bölünür. N.Y.Marr tərəfindən sözdə (-ки) hissəsinin qeyd olunması mənasız, tarixi baxımdan mümkünsüzdür, çünki «к» kökə

aiddir, rus dilində «с» «ш»-dan törəməmişdir. Digər tərəfdən, şumerlərin slavyan xalqları ilə heç vaxt heç bir əlaqələri olmamışdır.
А.А.Реформатский. Göstərilən əsəri, s. 101-107.

ЭТИМОЛОГИЯ НАРОДНАЯ - alm. Volksetymologie (f), ing. folk (popular) etymology /fouk'pɒpjulə,etı'mɒlədʒı/, fr. étymologie populaire, azərb. xalq etimologiyası. - Sözlərin mənşəyini elmi şəkildə tədqiq etmək əvəzinə, onların daxili formasının və ya əsl mahiyyətinin tam sərbəst, ixtiyari şəkildə təsvir edilməsi. Adətən xalq arasında xüsusi elmi hazırlığı olmayan şəxslərin dilin leksik qatındakı sözlərin mənşəyinə dair səthi fikir və ya yanlış mülahizələri. Dilimizin leksik qatındakı coğrafi adların (dağ, çay, şəhər, kənd və s.) mənşəyi xalq arasında müxtəlif cür yozulur. Məs.: Azərb. d. (Ceyranbatan, Lökbatan, Ordubad, Qız qalası) kimi yer və qala adlarının etimologiyasıyla bağlı xalq arasında bir-birini inkar edən rəvayətlərə rast gəlmək olur.
Ю.С.Маслов. Göstərilən əsəri, s. 116; А.А.Реформатский. Göstərilən əsəri, s. 105.

ЭТИМОН - alm. Etimon (n), ing. etymon /'etımɒn/, fr. étymon, azərb. etimon. - Sözün ilkin forması və ya şəkli. Müasir dildə mövcud olan sözlərin ilkin forması (əsli). Adətən etimon axtarışı ulu dilə gedib çıxır, bəzən də başqa dillərlə qarşılıqlı tarixi əlaqənin aşkar olunmasını tələb edir. Məs.: alm. d. «deutsch» sözü ilk dəfə VIII əsrdə «diutesc» kimi işlənib, özü də xalq demək idi. Sonralar öz ilkin şəklini və mənasını dəyişərək indiki «deutsch» kimi formalaşmışdır.
F.Yadigar (Veysəlli). GDG, s. 108.

ЭТИЧЕСКИЙ - alm. ethisch, ing. ethic(al) /'eθık(əl)/, fr. étique, azərb. etik. - «Etik» olmayan, semioloji cəhətdən relevant olmayan, dil materialının yalnız fiziki cəhətlərinə xas olan. Dilçilikdə «emik» anlayışına qarşı qoyulur.
F.Veysəlli. SDƏ, s. 255-256.

ЭТНОЛИНГВИСТИКА - alm. Ethnolinguistik (f), ing. ethnolinguistics /ˌeθnə'lıŋ'gwıstıks/, fr. ethnolinguistique, azərb. etnolinqvistika. – Dilin mədəniyyətlə, xalq adət və ənənələri ilə, ümumiyyətlə xalqla əlaqəsinə həsr olunmuş xüsusi dilçilik məktəbi də vardır. Etnolinqvistika dil və xalq arasında olan əlaqələri, dilin fəaliyyətində və inkişafında linqvistik və etnik amillərin qarşılıqlı təsirini öyrənir. Etnolinqvistika məktəbinin baniləri hesab edilən E.Sepir və B. Uorfun fikrincə, dil insan təfəkküründə və onun dünyagörüşünü formalaşdıran əsas amildir. Təfəkkür və mədəniyyətin inkişafı bilavasitə dillə bağlıdır.
A.Axundov. Ümumi dilçilik. Bakı, 1980, s. 120.

ЭТНОЛИНГВИСТИЧЕСКАЯ КАРТА - alm. ethnolinguistische Karte (f), ing. ethnolinguistic map /ˌeθnə'lıŋ'gwıstıks mæp/, fr. carte

ethnolinguistique, azərb. etnolinqivistik xəritə. - Dillərin yayıldığı coğrafi ərazini və dil daşıyıcılarının etnik müxtəlifliyini özündə ehtiva edən xəritə.
O.C.Ахманова. Göstərilən əsəri, 529.

ЭТНОНИМИКА - alm. Etnonymik (f), ing. ethnonymics /ˌɛθnɒnɪmɪks/, fr. ethynonymie, azərb. etnonimika. - Xalqların, millətlərin adlarını araşdıran, öyrənən onomastika şöbəsi. Etnonimlər dildə tarixi leksikanın müəyyən layını təşkil edirlər. Bura xalqların millətlərin, tayfaların, tayfa ittifaqlarının və etnik qrupların adları daxildir. Dilçilikdə etnonimləri iki yerə bölürlər: makroetnonimlər – böyük xalqların adları (məs.: çin, ərəb, slavyan, türk); mikroetnonimlər – kiçik etnik qrupların, tayfaların adları (məs.: tat, udin, ingiloy) və s.
O.C.Ахманова. Göstərilən əsəri, 529.

ЭТРУССКИЙ ЯЗЫК – alm. Etruskisch (n), ing. Etruscan language /ɪˈtrʌskən ˈlæŋgwɪʤ/, the Etruscan language /ðiːˈtrʌskən ˈlæŋgwɪʤ/, fr. l'étrusque, langue étrusque azərb. etrusk dili. – Romayaqədərki İtaliya əhalisinin, etruskların dili. Geneoloji mənsubiyyəti haqqında səhih məlumatlar yoxdur. İlk yazılı mənbələri bizim eradan əvəl VII-I minilliklərə aiddir. Bu yazılı abidələrin bəzilərinə mumiyalar (Zaqreb mummiyaları) və gil lövhələri (Kapui ərazisində) və s. aiddir. Fonoloji sistemi 20 fonemdən ibarətdir: onlardan 4-ü sait, 16-sı samitdir. Sintaktik quruluşuna görə latın dilinə çox yaxındır.
A.И.Харсекин. Этруски. Воронеж, 1969.

ЭФЕЛЬЦИСТИЧЕСКИЙ - alm. Ephelsystisch, ing. ephelcistic /ɪˈfiːlkɪstɪk/, fr. éphelcystique, azərb. efelsistik. – 1) Evfoniya ilə eyniləşdirilir. (Müxtəlif fonetik üsulların tətbiqi nəticəsində nitqin ahəngdar səslənməsinə nail olmaq); 2) Sözün sonunda saitdən sonra şəkilçini yekunlaşdırmaq (bitirmək) və ya qovuşuğu aradan qaldırmaq üçün yunan dilində simvoldan istifadə edilməsi.
O.C.Ахманова. Göstərilən əsəri, 529.

ЭФИОПСКИЙ ЯЗЫК – alm. Äthiopisch (n), ing. Ethiopian language /ˌiːθɪˈəʊpjənˌɪː :θɪˈəʊpɪən ˈlæŋgwɪʤ/, fr. langue éthiopien, éthiopique, azərb. həbəş dili. – Həbəş-semit dillərindən biri. Həbəşistanda xristian ədəbiyyatının və epiqrafikanın ölü dili.
B.П.Старинин. Эфиопский язык. М., 1967.

ЭФИОПСКОЕ ПИСЬМО - alm. äthiopische Schrift (f), ing. Ethiopian letter /ˌiːθɪˈəʊpɪən letə/, fr. lettre éthiopien, éthiopique, azərb. həbəş yazısı. – Ərəb konsonant (samit) əlifbası əsasında yaranmış hecalı yazı növü. Həbəş əlifbasında cənubi ərəb əlifbasındakı 29 işarədən 24-ü qoru-

nub saxlanılmışdır. Bundan başqa həbəş əlifbasında dilarxası samitlərin dodoqlanmaya məruz qaldığını göstərən 4 liqatur da mövcuddur.


ЭФИОСЕМИТСКИЕ ЯЗЫКИ - alm. äthiosemitische Sprachen (Pl.), ing. Ethio Semitic languages /ˌiːθɪˈəʊsɪˈmɪtɪk ˈlæŋgwɪʤɪz/, fr. éthio sémitiques langue, azərb. həbəş-semit dilləri. – Semit dillərinin cənub qrupu. Həbəşistan və ona qonşu Sudan ərazisində yayılmışdır. Ümumilikdə bu dillərdə 23 milyona qədər əhali danışır. Bu dil qrupu iki yarımqrupa bölünür: şimal (gez, tiqray, tigre) və cənub (həbəş dili).

И.Ю.Крачковский. Введение в эфиопскую филологию. Л., 1955.

ЭФФЕКТИВНЫЙ - alm. effektiv, ing. effective /ɪˈfektɪv/, fr. efficace, effectif, azərb. təsirli, nəticəli. - Hərəkətin hüdudlarını və ya nəticəsini bildirən.

О.С.Ахманова. Göstərilən əsəri, 529.

Həbəş yazısının işarələr cədvəli



– Ю –

ЮЖНОСЛАВЯНСКИЕ ЯЗЫКИ – alm. südslawische Sprachen (Pl.), ing. SouthSlavic /sauθ'slævık, 'slɑ:vık/, Southern Slavonic languages /'sʌðən slə'vɔnık 'læŋgwıʤız/, fr. langues slaves méridionales, azərb. cənubi slavyan dilləri. – Bolqar, serb, xorvat, makedon, slavyan dillərini özündə birləşdirən slavyan dilləri qrupu. Əsasən Balkan yarımadasında, Bolqarıstanda, Yuqoslaviyada, habelə həmsərhəd dövlətlərdə (Yunanıstan, Albaniya, Avstriya, Macarıstan, Rumıniya və s.) yayılmışdır. Cənubi slavyan dillərində ümumilikdə 30 milyondan yuxarı əhali danışır.

İki yarımqrupa bölünür: şərq (bolqar, makedon) və qərb (serb, xorvat, sloven). Cənubi slavyan dilləri mənşəyinə görə ulu slavyan (praslavyan) dilinə mənsubdur. Bu dillərin leksik qatında qonşu xalqların dillərinə (türk, rus, yunan, roman dilləri, alman və macar) mənsub külli miqdarda söz vardır.

С.Б.Бернштейн. Очерки сравнительной грамматики славянских языков. (Введение. Фонетика). М., 1961.

ЮЖНОСУЛАВЕСИЙСКИЕ ЯЗЫКИ – alm. Süd-Sulawesi-Sprachen (Pl.), ing. South Sulawesi, /sauθ ˌsu:lə'weısı,-læ-/, Southern Sulawes languages /'sʌðən ˌsu:lə'weısı,-læ- 'læŋgwıʤız/, fr. langues soulaveys méridionales, azərb. cənubi sulaves dilləri. – Avstronez dilləri ailəsinə daxil olan dil qruplarından biri. Cənubi sulaves dilləri əsasən İndoneziyanın Sulaves adasında yayılmışdır. Bu dil qrupuna buqi, makasar, saddan, duri, maiva, endekan, mandar, seko və b. dillər daxildir. Ümumilikdə bu dillərdə 8 milyona yaxın əhali danışır. Cənubi sulaves dillərinin fonem inventarı 5 sait və 14-18 samit fonemdən təşkil olunmuşdur. Bu dillərin əksəriyyəti tədqiq olunmamışdır.

Ю.Х.Сирк. Южносулавесийская группа как единица классификации языков. «Генетические и ареальные связи языков Азии и Африки». М., 1974.

ЮКАГИРО-ЧУВАНСКИЕ ЯЗЫКИ – alm. Jukagirisch-tschuwanische Sprachen (Pl.), ing. Yukaghir-chuvan languages /ju:kəgıə, ju:kə'gıə-ʧu:vɑn 'læŋgwıʤız/, fr. langues youkaguiro-tchouvanes, azərb. yukagir-çuvan dilləri. – Şimal-şərqi Asiyada məskunlaşmış tayfaların danışdığı (hal-hazırda bu dillərin əksəriyyəti ölü dillərdir, belə ki, onlardan bəziləri Çukçaların dili tərəfindən assimilyasiya olunmuş, digərləri isə rus dilinin təsiri nəticəsində «ruslaşmışdır») qohum dillər ailəsi. Bu dillər ailəsinin yeganə canlı təmsilçisi yukagir dilidir.

Е.А.Крейнович. Юкагирский язык. М.,-Л., 1958.

ЮКАГИРСКИЙ ЯЗЫК – alm. Jukagirisch (n), ing. Yukaghir language /ju:kəgɪə/ ju:kə'gɪə 'læŋgwɪʤ/, fr. langue youkagurie, azərb. yukagir dili. – Yukagir-çuvan dilləri ailəsinin yeganə çanlı təmsilçisi. Əsasən Kolıma və Alazey çaylarının sahillərində, qismən də Maqadan vilayətində yayılmışdır. Yukagir dilində təqribən 300 nəfər əhali danışır. Yukagir dilinin fonoloji sistemi 13 sait (7 qısa, 6 uzun) və 20 samit fonemdən ibarətdir. Yukagir dili morfoloji cəhətdən aqlütinativ dil hesab olunur.

Е.А.Крейнович. Юкагирский язык. М.,-Л., 1958.

ЮТО-АЦТЕКСКИЕ ЯЗЫКИ – alm. Juto-aztekische Sprachen (Pl.), ing. Uto-Actecan languages /ju:təʊ 'aztɛk(ə)n 'læŋgwɪʤɪz/, fr. langues youto-accètes, azərb. yuto-astek dilləri. – Yuto-astek dilləri Meksika və Amerikada yayılmış hind dilləri ailəsi. Bü dillərdə təqribən 1,5 milyona yaxın əhali danışır. Yuto-astek dilləri 8 yarımqrupa bölünür: numi, hopi, tübatülabal, şoşon, astek, pimi, tarakait və koraçol və s. Yazısız dillərdir.

C.F.Voegelin, F.M.Voegelin, K.Hale. Typological and comparative grammar of Uto-Actecan. V.1, Baltimore, 1962.


– Я –

ЯВАНСКИЙ ЯЗЫК - alm. Javanisch (n), ing. Javanese /ˌʤɑ:vəˈni:z/, Javan language /ˈʤɑ:vən ˈlæŋgwɪʤ/, fr. le javanais, azərb. yava dili. - Avstronez dillərindən biridir. Yava adasının mərkəzi və şərq hissələrində yayılmışdır. Yava dilində təqribən 70 milyondan yuxarı əhali danışır. Bu dilin fonem tərkibi 6 sait və 20 samit fonemdən ibarətdir. Yava dilində vurğu kəmiyyət (kvantativ) mahiyyətlidir. Morfem quruluşu sadədir. Yava dilində cins, şəxs, hal və zaman kateqoriyaları yoxdur. Cümlə üzvləri arasındakı sintaktik əlaqələr söz sırası və köməkçi sözlər vasitəsilə həyata keçirilir. Lüğət tərkibində ingilis, ərəb və s. dillərdən keçmə sözlərə rast gəlinir. Yazısı ərəb əlifbasına əsaslanır.


A.C.Теселкин. Яванский язык. M., 1961.

ЯВАНСКОЕ ПИСЬМО - alm. javanische Schrift (f), ing. Javanese writing /ˌʤɑ:vəˈni:z ˈraɪtɪŋ/, Javan writing /ˈʤɑ:vən ˈraɪtɪŋ/, fr. écriture javanaise, azərb. yava yazısı. - XIII-XIV əsrlərdə Yava adasında islam dininin yayılmasından sonra ərəb əlifbası (həmin dövrdə çarakan əlifbasından istifadə olunurmuş) yayılmağa başlamışdır.

Sait səsləri göstərən işarələr



Samit səsləri göstərən işarələr



ЯВЛЕНИЯ ОТМИРАЮЩИЕ - alm. aussterbende Erscheinungen (Pl.), ing. disappearaning phenomena /ˌdɪsəˈpɪərənɪŋ fɪˈnɒmɪnə/, moribund phenomena /ˈmɒrɪbʌnd /mɔ:rɪbənd/ fɪˈnɒmɪnə/, fr. évènements en disparition, azərb. ölməkdə olan hadisələr.

Bax: Отмирающие явления ←.

ЯВЛЕНИЯ РАЗВИВАЮЩИЕСЯ - alm. entwicklende Erscheinungen (Pl.), ing. speeding phenomena /spi:dıŋ fı'nɒmınə/, fr. évènements en développement, azərb. inkişafda olan hadisələr.
Bax: Развивающиеся явления ←.
ЯГНОБСКИЙ ЯЗЫК - alm. Jagnobisch (n), ing. Yaghnobi language /jɑ:g'nəʊbi 'læŋgwıdʒ/, fr. langue jagnobaise, azərb. yaqnob dili. - İran dillərindən biridir. Tacikistanın Yaqnob çayı vadisində yayılmışdır. Yaqnob dilində 2,5 minə yaxın əhali danışır. Yazısız dildir.
А.Л.Хромов. Ягнобский язык. М., 1972.
ЯДЕРНЫЕ СТРУКТУРЫ - alm. Kernstrukturen (Pl.), ing. nuclear structures /'nju:klıə 'strʌktʃəz/, fr. structure nucléaire, azərb. nüvə strukturları.
Bax: Структура ←.
ЯДРО ВЫСКАЗЫВАНИЯ (РЕМА) - Aussagekern (m), Nuklei (f), ing. nucleus of expressions /'nju:klıəs əv ıks'preʃənz/, nucleus utterance /'nju:klıəs 'ʌtərəns/, fr. rhème, azərb. söyləmin nüvəsi.
Bax: Рема ←.
ЯДРО ДИФТОНГА - alm. Nuklei des Diphthongs (f), silbenbildendes Element des Diphthongs (n), ing. diphtong nucleus /'dıfθɒŋ 'nju:klıəs/, diphtong rheme /'dıfθɒŋ ri:m/, diftong core /'dıfθɒŋ kɔ:/, fr. rhème du diphtongue, azərb. diftonqun nüvəsi, heca düzəldən elementi. Məs.: alm. d. /a◡e/, /ɔ◡e/ və /a◡o/ diftonqlarının birinci komponenti heca nüvəsi əmələ gətirir.
ЯДРО СЛОГОВОЕ - alm. Silbennuklei (f), Silbenträger (m), ing. syllabic peak (crest) /sı'læbık pi:k /krest/, fr. centre (sommet) syllabique, azərb. heca zirvəsi.
Bax: Вершина ←.
ЯЗГУЛЯМСКИЙ ЯЗЫК - alm. Jasgulamisch (n), ing. Yazgulyam language /jazguljəm 'læŋgwıdʒ/, fr. langue razgoulame, azərb. yazgülam dili. – Pamir dillərindən biridir. Əsasən Qərbi Pamirin (Dağlıq Bədaxşan vilayətində) Yazgül vadisində yayılmışdır. 3 minə qədər daşıyıcısı vardır. Adətən, məişətdə işlənən dildir.
Д.И.Эдельман. Язгулямский язык. М., 1966.

ЯЗЫК - alm. Sprache (f), ing. language /'læŋgwıdʒ/, fr. langue, azərb. dil. - Dil işarələr sistemi olmaqla insanlar arasında ən mühüm ünsiyyət vasitəsidir. O, eyni bir dil kollektivi içərisində məlumatın hifz olunması, nəsildən-nəslə ötürülməsi, fikrin və tarixi-mədəni dəyərlərin ifadəsi vasitəsidir. Dil koqnitiv prosesə söykənir, ictimai xarakterlidir. O, fikir, təsəvvür, bilgi və məlumatların ifadəsi və mübadiləsinə xidmət edən vasitə


kimi tarixi dəyişikliyə məruz qalır, idrak prosesinin formalaşması, təcrübənin hifz olunması və ənənəyə çevrilməsi vasitəsidir. İnsanlara xas olan dil digər mümkün „dillərdən" (heyvan dilləri, süni dillər və s.) əsasən yaradıcılığı (kreativliyi), məfhumi abstraksiya ilə ifadə bacarığı, metadil əlamətlərilə fərqlənir. Bu mənada dil fəlsəfəsi, dil nəzəriyyəsi, dilin yaranması və mahiyyəti haqqında fərziyyələrin öyrənilməsi artıq bir neçə minillikdir ki, cəmiyyətin aktual problemlərindəndir. Dilçilik dili bir neçə baxımdan araşdırır: dil sistem kimi, danışıq aktı, danışıq qabiliyyəti, sözlü və sözsüz ünsiyyət, fərdi dil və s. Bütün bunlar tətbiq olunan nəzəriyyədən, dərketmə marağından, mücərrədləşmədən və terminoloji hüdudlandırmadan asılı olaraq müxtəlif cür öyrənilir, dəqiqləşdirilir və fərqləndirilir: 1. a) ilk öncə sərbəst yaradılan, lakin ixtiyari ötürülən işarələr və onların birləşmə qaydaları fərdi dil sistemini ehtiva edir. Q. fon der Qabelents, İ.A.Boduen de Kurtene, F. de Sössür, L.V.Şerba və E.Koseriu müxtəlif dəqiqləşmələrlə dəyərləndirdikləri bu anlayışlardan istifadə edərək dili sistem kimi götürmüş (langue), onu struktur tədqiqatların obyektinə çevirə bilmişlər. Törəmə dilçilik isə dil daşıyıcılarının əsasını təşkil edən dil bilgilərini, onların yaradıcı fəaliyyətini və bu sistemə uyğun öz kommunikativ tələbatlarını təmin etmək üçün sonsuzluğa qədər (potensial) ondan istifadəni tədqiq edir. Transformativ qrammatika məhz dilin belə bir dinamik anlamından istifadə edir; b) fərdi fəaliyyət, yəni konkret danışıq prosesi yuxarıda (a) göstərilən konseptual zəmində həyata keçir. „Parole", „Rede", „Sprechen" və ya „Performance" (N.Xomski) adlandırılan bu anlam dilimizə nitq kimi tərcümə edilib. Biz isə bunu „danışıq" və ya „danışıq aktı" kimi verməyi üstün tutmuşuq; c) bunlar isə ikisi birgə dil fəaliyyətində cəmləşir (faculte langage);

2. İnsanın koqnitiv və kommunikativ prosesləri neyrofizioloji, psixoloji, linqvistik və semiotik yolla idarə etməsi məsələlərini (dilöyrənmə və dil pozuntularını) yalnız bir sıra elm sahələrinin qovuşuğunda öyrənmək mümkündür. Odur ki, son zamanlar yeni-yeni elm sahələri – psixodilçilik, neyrodilçilik və s. kimi sahələr yaranır;

3. Dil həm də ayrı-ayrı millətlərin dilidir. Alman, ingilis, Azərbaycan və s. dilləri;

4. Nəhayət, semiotika və informasiya nəzəriyyəsi baxımından dil işarələr, kodlar sistemi kimi götürülür və bu təkcə təbii deyil, həm də süni dilləri, məntiqi-riyazi formal dili, bayraq siqnallarını və heyvan dillərini öyrənməyi bir vəzifə kimi qarşıya qoyur.

„Dünyada neçə dil var?" sualına cavab müxtəlifdir. Bəzi mənbələr dünya dillərini 5.000-6.000 qədər verir, bəzilərində isə bu rəqəm 3.000-10.000 qədər göstərilir. „Etymologue" (Grimes, 1992) məcmuəsinə görə dünyada 6,528 dil vardır. Bu dillərin planetimizdə necə səpələnməsi aşağıdakı kimi göstərilir:



Dünyanın ən çox yayılmış və çox danışılan dilləri:

1. Mandarin – Çin dili – 726 mil.
2. İngilis dili – 427
3. İspan dili – 266
4. Hindi dili – 282
(urdu ilə birlikdə) – 223
5. Ərəb dili – 181
6. Partugiz dili – 165
7. Benqali dili – 162
8. Rus dili – 158
9. Yapon dili 124
10. Alman dili – 121
11. Fransız dili – 116
12. Yava dili – 75
13. Koreya dili – 66
14. İtalyan dili – 65
(ədəbi italyan dilində – 40)
15. Pəncabi dili – 60
16. Marati dili – 58
17. Vyetnam dili – 57
18. Telugu dili – 55
19. Türk dili – 53
20. Tamil dili – 49
21. Azərbaycan dili – 45
22. Ukrayna dili – 45
23. Polyak dili – 42

24. Bhojpuri dili – 41
25. Qujarati dili – 36
26. Malayalam dili – 30
27. Kannada dili – 26
28. Sunda dili – 26
29. Hauca dili – 24
30. Mat dili – 24
31. Oriya dili – 23
32. Burmez dili – 22
33. Fars dili – 22
34. Thai dili – 21
35. Daç dili – 21
36. Avadhi dili – 20
37. Yoruba dili – 20
38. Malay dili – 19
39. Nepali dili – 18
40. Özbək dili – 17

D.Crystal. The Cambridge Encyclopedia of Language. 2. Ed. 2000, s. 289; F.Veysəlli. Dil. Bakı, 2007.

ЯЗЫКИ АГГЛЮТИНИРУЮЩИЕ (ЯЗЫКИ АГГЛЮТИНАТИВНЫЕ) - alm. agglutinierende Sprachen (Pl.), ing. agglutinating (agglutinative) languages /ə'glu:tıneıtıŋ/ ə'glu:tınətıv/ 'læŋgwıdʒız/, fr. langues agglutinantes, azərb. iltisaqi dillər. - V. fon Humboldtun morfoloji bölgüsündə sözdüzəltmədə aqlütinasiyadan istifadə edən dillər. İltisaqilik hər bir morfemin konkret məna ifadə etməsi və morfemlərin bir-birinin ardınca düzülməsi deməkdir. Buraya türk dilləri, yapon və fin dilləri aiddir. Məs.: Azərb. dilində /ev/+/lər/+/im/+/in/. Bu dillər analitik və flektiv dillərə qarşı qoyulur.

H.Buβmann. Göstərilən əsəri, s. 56.

ЯЗЫКИ АМОРФНЫЕ (ЯЗЫКИ АМОРФНО-СИНТЕТИЧЕСКИЕ, ЯЗЫКИ БЕСФОРМЕННЫЕ) - alm. amorphe Sprachen (Pl.), ing. amorphous languages /ə'mɔ:fəs 'læŋgwıdʒız/, fr. langues amorphe, langue synthetique, azərb. amorf dillər (aqlütinativ dillər). - V. fon Humboldt və A.V.Şlegel (1767-1845) tərəfindən irəli sürülən morfoloji təsnifata görə cümlədə sintaktik əlaqələr morfoloji vasitələrlə deyil, köməkçi sözlər və söz sırası ilə ifadə olunur. Məs.: ing. d. /John takes his book// (Con öz kitabını götürür); ancaq /John took his book// (Con öz kitabını götürdü). Və ya /John loves Marie// (Con Mariyanı sevir), ancaq /Marie loves John// (Mariya Conu sevir). Birinci iki cümlədə qrammatik məna-nı (indiki və keçmiş zamanı) feldəki sait əvəzlənməsi, sonuncu iki cümlədə isə subyekt tamamlıq münasibətlərini söz sırası ifadə edir.

H.Buβmann. Göstərilən əsəri, s. 356.

ЯЗЫКИ АНАЛИТИЧЕСКИЕ - alm. analytische Sprachen (Pl.), ing. analytic languages /ˌænəˈlɪtɪk ˈlæŋgwɪʤɪz/, fr. langues analytiques, azərb. analitik dillər. - Hər hansı bir qrammatik mənanın köməkçi söz və ya söz sırası ilə verilməsi əlamətləri olan dillərə deyilir. Alman, ingilis və rus dilləri analitik dillər hesab olunur. Müq. et: /Ich werde lesen//, /I shall read//, /Я буду читать// (Mən oxuyacağam). Ancaq bu dillərdə daxili fleksiya da var. Elə buna görə də, mütəxəssislərin fikrincə, sırf analitik dil yoxdur. Eynilə sırf sintetik dilə də rast gəlmək mümkün deyildir.
А.А.Реформатский. Göstərilən əsəri, s. 448-456.

ЯЗЫКИ АНАЛОГИЧЕСКИЕ - alm. analogische Sprachen (Pl.), ing. analogical languages /ænəˈlɒʤɪkəl ˈlæŋgwɪʤɪz/, fr. langues analogiques, azərb. analoji dillər. - „Məntiqi" və ya „sabit" söz sırası ilə səciyyələnən dillər. Belə fərz edilir ki, bu cür söz sırası olan dil fikrin məntiqi düzümünü adekvat əks etdirir. Məs.: fr. d. /Le pēre aime le fils// və /Le fils aime le pére//. Ancaq lat. d. /Pater amat filium// və /Filium pater amat// və ya rus d. /Отец любит сына// və /Сына любит отец// və s.
О.С.Ахманова. Göstərilən əsəri, s. 530.

ЯЗЫКИ АФФИКСИРУЮЩИЕ - alm. affigierende Sprachen (Pl.), ing. affixing languages /ˈæfɪksɪŋ ˈlæŋgwɪʤɪz/, fr. langues affixales, azərb. affiksli dillər. - Söz formalarını önşəkilçi və şəkilçi ilə əmələ gətirən dillər. Hind-Avropa dilləri bu dillərdəndir. Məs.: alm. d. /lesen/ (oxumaq), /vorlesen/ (bərkdən oxumaq), rus d. /резать/ (kəsmək), /нарезать/ (qıça-qıça doğramaq) və s.
А.А.Реформатский. Göstərilən əsəri, s. 444-445.

ЯЗЫК ГЛАГОЛЬНЫЙ - alm. verbale Sprache (f), ing. verb language /vɜːb ˈlæŋgwɪʤ/, fr. langue verbale, azərb. sözlü dil. - İnsanların əsas ünsiyyət vasitəsi kimi istifadə etdikləri dil. Sözsüz (nonverbal – jest, mimika, qaş-göz və bədən hərəkəti və s.) dilə qarşı qoyulur.
H.Buβmann. Göstərilən əsəri, s. 830.

ЯЗЫК ЕСТЕСТВЕННЫЙ - alm. natürliche Sprache (f), ing. natural language /ˈnætʃərəl ˈlæŋgwɪʤ/, fr. langue naturelle, azərb. təbii dil. – Tarixən formalaşmış, dialekt və bölgə qruplarına bölünən, süni dillərdən öz canlılığı ilə fərqlənən dil. Məs., alman, ingilis, fransız və s. dilləri. Təbii dillər leksik və qrammatik quruluşun müxtəlifliyi, ifadələrinin çoxşaxəliliyi və gözlənilməzliyi, həm də tarixi dəyişkənliyilə səciyyələnir.
H.Buβmann. Göstərilən əsəri, s. 516.

ЯЗЫК ЖЕСТОВ - alm. Gebärdensprache (f), ing. gestures language /ˈʤestʃəz ˈlæŋgwɪʤ/, fr. langue des gestes, azərb. mimika və bədən üzvlərinin hərəkətilə ünsiyyətə girmə dili. a) Buraya geniş mənada bədən

hissələrinin instinktiv, şüurlu və (və ya) şərti ifadələri (jestlər, mimikalar, göz-qaş və digər bədən üzvlərinin hərəkəti və s.) aiddir. Bu vahidləri öyrənən elmə paralinqvistika deyilir. b) Dar mənada buraya lal və karların işarələrlə ünsiyyəti və s. aiddir. Səsli ünsiyyətdən fərqli olaraq bu cür ünsiyyətdə görmə əsas kanal kimi çıxış edir. Burada redundantlıq olmur. Bir dil cəmiyyəti daxilində sosial qrup və dialekt kimi vahid şəkildə formalaşma yoxdur. Jest dili səsli dildən leksik-semantik cəhətdən fərqlənmir, ancaq bu dildə hər bir anlayışa bir işarə uyğun gəlir, həm də ünsiyyət konkret danışıq məqamı ilə bağlı olur. Dünyada geniş yayılmış jest dili Amerika işarə dilidir (qısa şəkildə: ASL).
D.Crystal. The Cambridge Encyclopedia of Language. 2000, s. 226-227.

ЯЗЫК ЖИВОЙ - alm. lebendige Sprache (f), ing. living language /ˈlɪvɪŋ ˈlæŋgwɪʤ/, fr. langue vivante, azərb. canlı dil.
Bax: Язык ←.

ЯЗЫК ЗВУКОВОЙ (ЯЗЫК СЛУХОВОЙ) - alm. Gehörsprache (f), ing. auditory language /ˈɔːdɪtərɪ ˈlæŋgwɪʤ/, fr. langue phonique, azərb. səsli dil.
Bax: Звуковой язык ←.

ЯЗЫК ИНДИВИДУАЛЬНЫЙ - alm. individuelle [-vi-] Sprache (f), Individualsprache (f), ing. individual language /ˌɪndɪˈvɪdjʊəl ˈlæŋgwɪʤ/, fr. langue individuelle, azərb. individual (fərdi) dil. - Hər bir dil daşıyıcısının özünəməxsus, başqalarından fərqli dil fəaliyyəti. Fərdin dili dil sisteminin konkret məqamda reallaşma formasıdır.
F.Veysəlli. GDG, s. 71-79.

ЯЗЫКИ ИНДОЕВРОПЕЙСКИЕ - alm. Indo-europäische Sprachen (Pl.), ing. İndo-European languages /ˌɪndəʊˈjʊərəpiːən ˈlæŋgwɪʤɪz/, fr. langues indo-européennes, azərb. hind-Avropa dilləri. - Alman mənbələrində bunlara hind-german dilləri deyilir, çünki bu dil ailəsinin bir qolunu sanskrit (Hindistanda), digər qolunu isə german dilləri təşkil edir.

Hind-Avropa dilləri ailəsində ulu dil kimi proto-hind-Avropa dili götürülür. Bu dildə miladdan 3000 il əvvəl danışıldığı güman edilir. Bu dildən parçalanmalar eradan əvvəl 2000-1000-ci illər arasında baş vermişdir. Bunlar da yunan, Anadolu və hind-İran dilləridir. Arxeoloji qazıntılar göstərir ki, Rusiyanın cənub bölgələrində eradan əvvəl 4000-ci illərdə kurqanlarda yaşayan insanlar bu dillərdə danışmışlar. İngilis şərqşünası və hüquqşünası ser V.Cons (1746-1794) 1786-cı ildə Benqalidə Asiya tədqiqatları cəmiyyətində sanskrit dilinin strukturunun morfoloji və qrammatik cəhətdən yunan və latın dillərindən də təkmil olduğunu, onlarla qohumluq təşkil etdiyini xüsusi olaraq nəzərə çarpdırırdı. Alman F.Bopp 1816-cı ildə «Sanskrit dilində felin təsrif olunması sisteminin yunan, latın, fars və german dillərilə müqayisəsi»nə həsr edilmiş əsər yazdı. Lakin hələ 1814-cü ildə danimarkalı R.Rask german dillərinin latın, yunan, slavyan və baltik dillərinə olan qohumluğu barədə əsər

yazmışdı, ancaq onu yalnız 1818-ci ildə çap etdirdi. Sonra Y.Qrimm (1785-1863), A.Şlayxer və başqaları filoloji araşdırmaları ilə bu ideyaları genişləndirdilər. Ancan F.Bopp özünün iri həcmli əsərini 1833-cü ildə çap etdirməyə başladı: Vergleichende Grammatik des Sanskrit, Zend, Griechischen, Lateinischen, Litauischen, Altslavischen, Gotischen und Deutschen. Kitabın başa çatmasına 19 il lazım gəldi və 3-cü nəşrində artıq o dillərin sırasına kelt və alban dilləri də əlavə edilmişdi. Daha sonra K.Bruqmann «Hind-Avropa dilləri qrammatikasının müqayisəsinə dair oçerk" kitabını ərsəyə gətirdi (1897-1916). Nəhayət, 1968-ci ildə Polşa alimi Y.Kuriloviç hind-Avropa dillərinin yeni qrammatikasını yazıb çap etdirdi. Y.Qrimm hind-Avropa dillərində müəyyən fonem qanunauyğunluqlarını kəşf etmişdi. Məs.: latin dilində söz başında /p/ german dillərində /f/-ya uyğun gəlir. Müq. et:

lat.	german dillərində
pater (ata)	father / Vater (ata)

Yunan dilində söz başında /t/ ingilis dilində /θ/-ya uyğun gəlir. Müq. et:

yunanca	ingiliscə
tries (üç)	three (üç)

Bu fonem əvəzlənmələrindəki qanunauyğunluqlar dilçilik tarixinə Qrimm qanunu kimi daxil olub. Hind-Avropa ulu dilində samitlər sistemi belə idi:

Fəal üzvə görə / Əmələ gəlmə üsuluna görə		dodaq	dilönü	dilarxası	dodaq-damaq
kipləşənlər	kar	p	t	k	k^w
	cing.	b	d	g	g^w
	cing. nəfəsli	bh	dh	g^h	g^{wh}
novlular			s (z)		
burun		m	n		
süzülənlər			l r		
yarımsamitlər		w			

Ulu hind-Avropa dilində isə saitlər sistemi belə idi:

(i)	ə	(a)
e/e:	a/a:	o/o:

D. Crystal. The Cambridge Encyclopedia of Language. 2. ed., 2000, s. 298-301.

ЯЗЫКИ ИНКОРПОРИРУЮЩИЕ - alm. Einverleibende (inkorporierende) Srpachen (Pl.), ing. incorporating languages /ɪn'kɔ:pəreɪtɪŋ 'læŋgwɪdʒɪz/, fr. langues incorporantes, azərb. inkorporlaşan dillər. – Məlumdur ki, V. fon Humboldt dil tiplərinin müəyyənləşməsində əsas və yardımçı kriteriyalardan istifadə edirdi. Əsas kriteriya deyəndə o, səs və ideya formalarının bir-birilə qarşılıqlı çulğalaşması haqqında tezisi nəzərdə tuturdu. Yardımçı kriteriya dedikdə isə o, 3 əsas meyarı nəzərdə tuturdu: 1) dildə əlaqələrin ifadəsi (relyasion mənaların verilməsi); 2) cümlənin əmələ gəlməsi vasitələri (buraya inkorporlaşan dilləri aid edirdi); 3) səs forması. Elə bu kriteriyalardan çıxış edərək V. fon Humboldt Şlegel (A.Şlegel 1767-1845) qardaşlarının qeyd etdiyi 3 tipdən əlavə (flektiv, iltisaqi və amorf) 4-cü tipi də ayırmağı tövsiyyə edirdi ki, bunu da inkorporlaşan və ya polisintetik adlandırırdı. İnkorporlaşan dillərin (Amerikada hindilərin dili, paleoasiya dilləri) əsas əlaməti ondan ibarətdir ki, cümlə söz kimi düzəlir, yəni formasız söz kökləri bütöv şəkildə birləşərək həm söz olur, həm də cümlə. Onun tərkibinə daxil olan elementlər söz parçaları və cümlə üzvləri olurlar. Məs.: tivi dilində /ngirruunthingapukani// (Mən yeməkdə davam edirdim).

/ngi	- rru	- unthing	- apu	- kani/
mən	keçmiş zaman şəkilçisi	müəyyən vaxt üçün	yemək	davam edirəm

və ya meksikan dilində / ninakakwa /

/ni	- naka	- kwa/	- (Mən yeyirəm ət)
mən	yemək	ət	

D.Crystal. Göstərilən əsəri, s. 294-295; А.А.Реформатский. Göstərilən əsəri, s. 446-447; N.Məmmədov, A.Axundov. Ümumi dilçilik. Bakı, 1980, s. 188.

ЯЗЫК ИНФОРМАЦИОННЫЙ - alm. Informationssprache (f), ing. informative language /ɪn'fɔ:mətɪv 'læŋgwɪdʒ/, fr. langue d'information, azərb. informasiya dili. - Məlumatın kodlaşdığı dil. Məs.: maşında iş zamanı tətbiq olunan proqramların açılması və istifadə olunması üçün xüsusi komandalardan ibarət dil sistemi.

H.Bußmann. Göstərilən əsəri, s. 337-338.

ЯЗЫК ИСКУССТВЕННЫЙ - alm. künstliche Srpache (f), Kunstsprache (f), ing. artificial (synthetic) language /ˌɑ:tɪ'fɪʃəl /sɪn'θetɪk/ 'læŋgwɪdʒ/, fr. langue artificielle, azərb. süni dil. – 1) Təbii dillərdən fərqli olaraq müəyyən şərti işarələrdən tərtib olunmuş anlaşılma vasitəsi (məs., riyaziyyatda və kimyada formullarla ifadə olunan anlayış və kateqoriyalar). Bu birmənalı şəkildə, məcaza yol verməyən formal və ya köməkçi dildir (esperanto və s.).

2) Köməkçi, süni dil (artificial). Müxtəlif millətlərdən olan insanlar öz aralarında daha rahat və maneəsiz ünsiyyətə girmək üçün süni dildən istifadə etmək qərarına gəlirlər. Artıq XVII əsrdə latın dili təbii universal dil kimi öz funksiyasını yerinə yetirə bilmirdi. F.Bekon (1561-1626) ilk olaraq mövcud yazılı və səsli dillərdən fərqli bir ünsiyyət vasitəsinin vacibliyini qeyd etmişdi. Bu cür xüsusi simvollar sistemindən musiqidə və müxtəlif yazı nümunələrində istifadə olunur.

XIX əsrin axırlarında, daha doğrusu, 1880-ci ildə J.M.Şlager volapük dilini (World Language) ixtira etdi. Bu dildə 8 sait və 20 samit var, özü də ingilis və alman dillərinin qrammatikasına əsaslanır. 7 il sonra, yəni 1887-ci ildə polşalı göz həkimi L.L.Zamenhof (1859-1917) esperanto dilini icad edir və 1888-ci ildə onu rusca „Международный язык" adı ilə çap etdirir. Bu dildə 5 sait, 23 samit var və əsasən Qərbi Avropa leksikonuna malikdir. V.K.Rozenber 1902-ci ildə «İdiom» adlı neytral dil yaratdı, bu, volapükün təkmilləşmiş forması olub roman dillərinə əsaslanırdı. C.Peanonun bir il sonra yaratdığı latino interlingua dili səkilçisiz idi və latın dilinə söykənirdi, əsas sözləri də latın sözləri idi. 1907-ci ildə esperantonun fərqli versiyası əsasında ido dili yaradıldı. E. fon Val qərbə yönəlikli və roman dillərinə söykənən oksidental dilini 1922-ci ildə tərtib etdi. 1924-cü ildə N.Yorkda Beynəlxalq Köməkçi Dil Assosiasiyası (BKDA) yaradıldı. Artıq O.Yespersen 1928-ci ildə novial dilini yaratdı, bu dil ido leksikonuna və oksidental qrammatikasına əsaslanır və Yeni Beynəlxalq köməkçi dil adlanırdı (New+International Auxiliary Language). 1943-cü ildə L.Hogben interglossa adlı dil yaratdı. Layihə kimi cap olunub. Yuxarıda adını çəkdiyimiz BKDA 1954-cü ildə roman dillərinin qrammatikasına və Qərbi Avropa dillərinin standartlaşmış leksikonuna söykənən interlingua adlı dil yaratdı. Nəhayət, V.Eşbi və R.Klark 1981-ci ildə interglossa-ya əsaslanan latın və yunan dillərində düzəldilmiş 1000 sözlü qlossa dilini icad etdilər. Bütün bu dillərin yaradılmasında məqsəd vahid ünsiyyət vasitəsi yaratmaq olub. Ancaq onlardan ən çox yayılanı esperanto dilidir.

İlk La Esperanto jurnalı 1889-cu ildə, Birinci Esperanto Universal Konqresi 1905-ci ildə çağrılıb. Orada 20 ölkədən 700-ə qədər adam iştirak edib.

Bu gün bu dildə xeyli çap məhsulu çıxır. Bu dilə çoxlu tərcümələr edilib, o cümlədən „İncil" və „Quran" tərcümə olunub. Bəzi ölkələrdə

bu dildə radio verilişləri yayımlanır. 1970-ci ildə dünyada 700 məktəb və 31 universitetdə esperanto öyrədilirdi. Təxminən 1 və 1,5 milyon adam bu dildə danışır. 1972-ci ildən 60 ölkədə milli cəmiyyət, 1250-də yerli cəmiyyət fəaliyyət göstərir. 1979-cu ildən Dünya Esperanto Assosiasiyasında 31.000 üzv vardı (Şərqi Avropada Bolqarıstan, Polşa, Çexiya, Slovakiya və Macarıstan). Ən çox isə Yaponiyada bu dildə danışırlar. 1966-cı ildə BMT-yə 74 ölkədən 1 milyona yaxın adam esperantonu beynəlxalq dil kimi qəbul etməyə müraciət etsə də, bu keçmədi.

Esperanto aşağıdakı 16 qrammatik qaydaya söykənir:

1) La yeganə artikldir; 2) Bütün adlar /-o/ ilə bitir. Cəm şəkli /-j/-dır. İki halı var: nominativ və obyektiv. Sonluq /-n/-dir. Digər mənalar sözönülərlə ifadə olunur; 3) bütün sifətlər /-a/ ilə bitir və adla uzlaşır; 4) saylar formasını dəyişmir; 5) əvəzliklər bunlardır: mi, vi, li /š/ ği, ni, viv ə ili (mən, sən, o (kişi), qadın, orta cins, biz, siz, onlar və hörmət mənasında); 6) fellər bütün zamanlarda eyni sonluğa malikdir. İndiki, keçmiş, gələcək zamanlar, əmr, məsdər, arzu və 5 partisip forması var; 7) zərflər sonda /-e/ qəbul edirlər; 8) sözönüləri adlıq halını tələb edirlər; 9) kar samitlər üçün işarə yoxdur; 10) vurğu sondan əvvəlki heca üzərinə düşür; 11) mürəkkəb söz köklərin birləşməsilə yarana bilir; 12) yalnız bir inkar olur; 13) obyektiv hal isimlər təkrar haraya? sualı olanda işlənir; 14) qeyri-müəyyən sözönü başqaları seçiləndə aydın olmadıqda işlənir; 15) alınma sözlər orfoqrafiya sisteminə tabe olur; 16) artikldə /a/ və isimlərin sonunda /o/ düşə bilər. Bu dildə təxminən 15.000 kök söz var, ancaq yeni sözlər də düzələ bilər, suffiks və prefikslə.

Süni dilin üstünlüyü:

– öyrənmək asandır, qrammatikası requlyardır, sadədir. Sözlərin mənası aydın prinsiplərə əsaslanır. Yazısı fonetik prinsipə əsaslanır, çətin səslər yoxdur. Ana dilinə və ana dilindən tərcümə asandır, strukturu dəyişkəndir, söz köklərinin işlənməsi beynəlxalq ənənəyə əsaslanır. Gündəlik danışmaq və yazmaq üçün yararlıdır, elm, din, ticarət, idman və siyasətin ehtiyacını ödəyir. Beynəlxalq ünsiyyət vasitəsi kimi standartdır, neytraldır, bütün ölkələrdə qəbul edilir.

Ancaq onun tərəfdarları Beynəlxalq səviyyədə tanınmaq üçün sosial, siyasi və linqvistik xarakterli problemləri dəf etmək üçün uzun gərgin mübarizə aparmalı oldular, onun kütləvi şəkildə öyrənilməsini təşkil etmək çox çətindir, çünki onun üçün həvəsləndirici amil yoxdur. Dilin aparıcı funksiyalarından olan eynilik bildirməsi süni dildə yoxdur, o, birləşdirməkdən çox uzaqdır.

Ümumi və sadə dili inkişaf etdirmək çətindir. Süni dillərin əksəriyyəti hind-Avropa dillərinə söykənir ki, bu da onları öyrənənlər üçün baryerdir. Semantik fərqlər də çətinlik yaradan amillərdəndir. Ötən əsrin

30-cu illərində esperantoçular Almaniyada və SSRİ-də təqiblərə məruz qaldılar.

Esperanto dilində bir nümunə	İngilis dilində
Char el la kom unaj posedáj hoj de la homarǫ, neniu estas tiel vere ghenerala kaj internacia kiel la Scienco.	For of the things that mankind possesses in common nothing is so truly universal and international as science.

Azərbaycan dilində

Bəşəriyyət üçün ümumi
olan şeylərdən elə birisi
yoxdur ki, o, elm kimi həqiqətən
universal və beynəlxalq olsun.

D.Crystal. Göstərilən əsəri, s. 356-357; F.Veysəlli. Dil. Bakı, 2007.

ЯЗЫК КОНТАКТНЫЙ - alm. Kontaktsprache (f), ing. contact language /'kɒntækt 'læŋgwɪdʒ/, fr. langue contactuelle, azərb. kontakt (əlaqəli) dil. - Xarici dili öyrənəndə o, ana dililə kontakta girir. Ya ana dili öyrənilən dilə, ya da öyrənilən dil ana dilinə təsir edir. Bu üçüncü bir dil də ola bilər.

O.C.Ахманова. Göstərilən əsəri, s. 531.

ЯЗЫКИ КОРНЕИЗОЛИРУЮЩИЕ - alm. wurzelisolierende Sprachen (Pl.), ing. root-isolated languages /ru:t 'aɪsəleɪtɪd 'læŋgwɪdʒɪz/, fr. langues racines, azərb. kök dillər. - „Kök dillərə amorf, monosillabik (təkhecalı), təcrid edilən və s. dillər də deyilir. Adından göründüyü kimi, dillərin bu qrupu, şəkilçisi olmayan, qrammatik vahidi yalnız leksik vahidlərdən, yəni köklərdən ibarət olan dilləri nəzərdə tutur. Deməli, bu dillərdə morfemin yalnız bir növü – kök morfemlər mövcuddur, şəkilçi morfemlər isə yoxdur. Kök dillərdə bütün qrammatik əlaqələr daha çox fonetik və sintaktik vasitələrlə həyata keçirilir. Kök dillərdə morfemlərin olmadığından həmin dillərdə derivasiya və relyasiya əlaqələri yaradan morfemlər də yoxdur. Həmin dillərdə özünü göstərən əsas qrammatik vasitələr söz sırası və intonasiyadan ibarətdir. Qrammatik dillərin ifadəsindəki məhdudluq bu dillərin fonetik quruluşunda bir sıra xüsusiyyətlərin yaranmasına səbəb olur. Görkəmli alman dilçisi A.Şlayxer kök dilləri kristallara bənzədib, onları yalnız mənaya əsaslanan dillər adlandırmışdır. Belə dillərə nümunə kimi Çin dilini göstərmək olar".

N.Məmmədov, A.Axundov. Dilçiliyə giriş. Bakı, 1980, s. 183; A.A.Реформатский. Göstərilən əsəri, s. 449.

ЯЗЫК КУЛЬТУРНЫЙ - alm. Kultursprache (f), ing. cultural language /'kʌltʃərəl 'læŋgwɪdʒ/, fr. langue de culture (de civilisation), azərb.

mədəni dil. - Sivilizasiyanın yüksək mərhələsinə çatmış xalqın dili, dövlət dili əhəmiyyəti qazanmış dil. Mədəni dil məktəbdə tədris sisteminin əsasını təşkil edir, nisbi sabitliyi, bütün ərazidə yayılması, habelə dialekt və şivə mənşəli sözləri öz içərisində əritmə qabiliyyəti ilə səciyyələnir. Sırf ünsiyyət tələbatının ödənilməsi baxımından dilin mədəni və qeyri-mədəni növləri ola bilməz.
R.Conrad. Göstərilən əsəri, s. 155.

ЯЗЫК ЛИТЕРАТУРНЫЙ (ЯЗЫК СТАНДАРТНЫЙ) - alm. Hochsprache (f), Literatursprache (f), ing. literary language /ˈlɪtərərɪ ˈlæŋgwɪʤ/, Standard English /ˈstændəd ˈɪŋglɪʃ/, fr. langue littéraire (langue standarde), azərb. ədəbi dil. - Ədəbi dil seçmə və əvəzetmə əməliyyatı aparmaqla normaya salınmış dildir. Ədəbi dil bütün xalqın qəbul etdiyi dildir. O, ümumxalq dilinin lüğət tərkibi, qrammatik qaydaları və tələffüz normaları əsasında fəaliyyət göstərir, radio, televiziya və mətbuatda, habelə bədii və elmi yaradıcılıqda aparıcı ünsiyyət vasitəsidir. Dialekt və şivə mənşəli, habelə, alınmaların ədəbi dilə daxil edilməsində müəyyən qanunauyğunluqlar və məhdudiyyətlər mövcuddur. Dialekt və şivələrdən, habelə əcnəbi dillərdən alınmalar onlara olan ehtiyac və zərurətdən doğur. Ədəbi dil yazılı və şifahi formalarda mövcud olur. Onların bir qismi isə ədəbi dildə sinonim kimi işlədilir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 161.

ЯЗЫК МЕЖДУНАРОДНЫЙ - alm. internationale Sprache (f), ing. international language /ˌɪntəˈnæʃənəl ˈlæŋgwɪʤ/, interlanguage /ˈɪntəˈlægwɪʤ/, fr. langue internationale, azərb. beynəlxalq dil. 1) canlı dil kimi ingilis dili. - Artıq 200 ilə yaxındır ki, ingilis dili beynəlxalq dilə çevrilməkdədir. Hesablamalara görə dünyada 400 milyon insan ingilis dilindən ana dili (birinci dil) kimi istifadə edir. 350 milyon adam onu ikinci, 100 milyona yaxın adam isə xarici dil kimi istifadə edir. İngilis dili dünyanın 60 ölkəsində müxtəlif təşkilatlarda rəsmi və ya yarım rəsmi dil kimi işlənir. Digər iyirmi ölkədə bu proses gedir. O, dünyada kitab, qəzet, aeroport, hava yollarında, beynəlxalq biznesdə, akademik konfrans, elmi yığıncaq, texnologiya, təbabət, diplomatiya, idman, beynəlxalq sərişdə, musiqi və reklam dilidir. Dünya alimlərinin ⅔-i ingiliscə yazır. Məktublaşmaların ¾-ü bu dildə olur. Dünya elektronika sistemində informasiyaların 80 %-i ingilis dilindədir. İnternet əsasən ingiliscədir. İngilis dilində radio verilişlərini dünyanın 120 ölkəsində 150 milyon adam dinləyir. 50 milyon uşaq ibtidai məktəbdə onu əlavə dil kimi öyrənir, orta məktəbdə isə 50 milyon onu öyrənir. Hər il Britaniya konsulluğu 250 min adama ingilis dilini öyrədir. Hazırda mütəxəssislər ingilis dilinin işlənməsində iki cəhəti xüsusi qeyd edirlər. „Əsas" (nüvə – nuclear) ingilis dili və „ədəbi" (full) ingilis dili. Birinciyə misal olaraq göstərilir:

¿ Isn't it ? (Düzdür?) və ya ¿ Aren't they ? (Onlar düzdür?) və s.

Ədəbi ingilis dilində ¿ Isn't that right ʖ (Elə deyilmi?)

/I gave the man a book // (Mən kişiyə kitab verdim) → / I gave a book to the man // (Mən kitabı kişiyə verdim)

D.Crystal. Göstərilən əsəri, s. 360-361.

ЯЗЫК МЁРТВЫЙ - alm. tote Sprache (f), ing. dead language /ded ˈlæŋgwɪʤ/, fr. langue morte, azərb. ölü dil, canlı danışıqda işlədilməyən, yalnız yazılı abidələrdə rast gəlinən dil. - Dialekt rəngarəngliyi olmayan, yalnız bir üslubda işlənən canlı dil kimi götürülə bilməz. Bütün səviyyələrdə yalnız bircə üslub işlənirsə, deməli, bu, ölü dildir, çünki o, artıq başqa dilə keçir. Latın dili orta əsrlərdən bəri Avropada həmin rolu oynayırdı. Hind-Avropa dillərindən het (kiçik Asiyada e.ə. 2000-717-ci illərdə işlənib) və toxar (Şərqi Türkistanda eramızın 6-cı və 7-ci əsrlərində, 1920-ci illərdə sovetlər birliyində yazılarda qalıb) ölü dillərdir.

R.Conrad. Göstərilən əsəri, s. 113; F.Yadigar. GDG, s. 78.

ЯЗЫК МЛАДОПИСЬМЕННЫЙ - alm. jungschriftliche Sprache (f), ing. language recently put into writing /ˈlæŋgwɪʤ ˈriːsəntlɪ put ˈɪntu /ɪntə/ ˈraɪtɪŋ/, language with a recent system of writing /ˈlæŋgwɪʤ wɪð ə ˈriːsənt ˈsɪstɪm əv ˈraɪtɪŋ/, fr. langue à la nouvelle écriture, azərb. təzə yazılı dil. - Yazısı yaxın zamanlarda tərtib olunan dil. 1920-ci illərdə sovetlər birliyində yazısı olmayan dillər üçün latın qrafikası əsasında yazı islahatı keçirilirdi. Lakin 1930-cu illərdə bu 70-ə qədər dildə kiril əlifbasına dönüşlə nəticələndi. Sovetlər birliyi dağılandan sonra onlardan bir neçəsi yenidən latın qrafikalı yazıya qayıtdı.

H.Haarmann. Geschichte der Schrift. München, 2002, s. 111.

ЯЗЫК МОНОТОНИЧЕСКИЙ - alm. monotonische Sprache (f), ing. monotonic language /mɒnə(ʊ)ˈtɒnɪk ˈlæŋgwɪʤ/, fr. langue monotonique, azərb. monotonik dil. - Fonoloji sistemdə melodik korrelyasiyanın olmaması, yəni söz və morfemlərin fərqləndirilməsində tonik vurğudan istifadə olunmaması. Məs.: Azərbaycan, ingilis, rus, yunan, latın, fransız və s. dilləri. Adətən, politonik dillərə qarşı qoyulur. Məs.: Çin, Vyetnam, litov, serb, bəzi Afrika dilləri.

R.Conrad. Göstərilən əsəri, s. 248.

ЯЗЫК МОРОСЧИТАЮЩИЙ - alm. morozählende Sprache (f), ing. language counting moras /ˈlæŋgwɪʤ ˈkaʊntɪŋ mɒˈrəs/, fr. langue à more (-s), azərb. morlu dil. - Qısa sait və bir samitdən ibarət olan qısa hecanı bildirən fonoloji əlamət. İkimorlu o hecalardır ki, onlar bir uzun, müvafiq olaraq, bir qısa, iki və üç samitdən ibarət olur. Başqa tərifə görə bir qısa samitlə bitən yüngül heca birmorlu, yerdə qalan bütün hecalar isə ikimorludur.

H.Bußmann. Göstərilən əsəri, s. 501.

ЯЗЫК НАЦИОНАЛЬНЫЙ - alm. nationale Sprache (f), ing. national language /'næʃənəl/ /'neɪʃnəl/ 'læŋgwɪdʒ/, fr. langue nationale, azərb. milli dil. - Milli dil bütün bölgə, sosial və funksional baxımdan işlənmə və yazısı olan variantların məcmusu olub, dil kollektivinin siyasi və tarixi baxımdan formalaşmış dilidir. Bəzi hallarda milli dil dövlət dililə üst-üstə düşmür. Məs.: Rusiiya, İsveçrə, ABŞ və s.
H.Bußmann. Göstərilən əsəri, s. 513.

ЯЗЫК ОБЩИЙ - alm. Gemeinsprache (f), ing. common language /kɒmən 'læŋgwɪdʒ/, fr. langue commune, azərb. ümumi dil. - 1) yüksək dərəcədə inkişaf etmiş yazılı və şifahi formada mövcud olan milli dil; 2) bir xalqın işlətdiyi dil; 3) bir neçə dialekti, şivə və ləhcələri birləşdirən, böyük bir ərazidə vahid ünsiyyət vasitəsi kimi çıxış edən dil.
R.Conrad. Göstərilən əsəri, s. 90.

ЯЗЫКИ ОСНОВОИЗОЛИРУЮЩИЕ - alm. stammisolierende Sprachen (Pl.), ing. base-isolated languages /beɪs 'aɪsəleɪtɪd 'læŋgwɪdʒɪz/, fr. langues aux racines isolées, azərb. söz əsasına söykənən dillər. - Söz kökünün dəyişməzliyinə aid olan dillərdən fərqli olaraq (məs., Çin dili), söz əsasının dəyişməzliyinə söykənən dillər (məs., malay dilləri). Bu dillərdə sözün əsası həmişə dəyişməz qalır.
A.A.Реформатский. Göstərilən əsəri, s. 449.

ЯЗЫК ПЕРИФЕРИЙНЫЙ - alm. periphere Sprache (f), ing. peripheral language /pə'rɪfərəl 'læŋgwɪdʒ/, fr. langue régionale (excentrique), langue périphérique, azərb. periferik dil. - Cəmiyyətdə sərhəd bölgələrində işlənən yardımçı dil. Məs.: Azərbaycanın şimal bölgələrində lak, avar, ləzgi, saxur, kırız dilləri.
R.Conrad. Göstərilən əsəri, s. 196.

ЯЗЫК ПИСЬМЕННЫЙ - alm. schriftliche Sprache (f), ing. written language /'rɪtn/'raɪtn/ 'læŋgwɪdʒ/, fr. langue écrite, azərb. yazılı dil. - Ən çox inkişaf etmiş, kifayət qədər orfoqrafik qaydalara əsaslanan yazılı dil. Savadlı adamların riayət etdikləri normativ dil. Məs.: ingilis, rus, alman, Azərbaycan və s. dilləri.
R.Conrad. Göstərilən əsəri, s. 231.

ЯЗЫКИ ПОЛИСИНТЕТИЧЕСКИЕ (ЯЗЫКИ ИНКОРПОРИРУЮЩИЕ) - alm. polysynthetische Sprachen (Pl.), ing. polysynthetic languages /ˌpɒlɪsɪn'θetɪk 'læŋgwɪdʒɪz/, fr. langues polysynthétique, azərb. polisintetik dillər. - Bu dillərdə başqa sözlər, xüsusilə əvəzliklər birbaşa söz formalarına qoşulur. Məs.: eskimos dilində bu belədir. Bu dillər sintetik və analitik dillərə qarşı qoyulur.
R.Conrad. Göstərilən əsəri, s. 248.

ЯЗЫК ПОЛИТОНИЧЕСКИЙ - alm. polytonische Sprache (f), ing. polytonic language /pɒlɪ'tɒnɪk 'læŋgwɪʤ/, fr. langue polytonique, azərb. politonik dil. - Fonetik cəhətdən politonik dillər o dillərdir ki, bunlarda sözün fərqlənməsi tonun hərəkətilə həyata keçirilir. Məs.: Çin, litov, serb və bir sıra Afrika dilləri buna misal ola bilər. Məs.: /ˋsœŋ/ (ağrı, zədə), /'sœŋ/ (fotoqraf), /¯sœŋ/ (baş nazir), /ˏsœŋ/ (trusı) qadın, /ˊsœŋ/ (coşmaq), /_sœŋ/ (üzərində).
D.Jones. The Phoneme, İt's Nature and Use. Cambridge, 1949, s. 16.

ЯЗЫК ПОСРЕДСТВУЮЩИЙ - alm. Vermittlungssprache (f), ing. communicated languages /kə'mju:nɪkeɪtɪd 'læŋgwɪʤɪz/, fr. langue intermédiaire, azərb. vasitəçi dil. - İki kontakta girən dillərdən əlavə ortaq dil. Məs.: azərbaycanlılar fransız dilini öyrənərkən onların müəllimi rus olur. O, da Azərbaycan dilini bilmir, ancaq rus dilini bilir. Tələbələr isə hələlik fransızca danışa bilmirlər. Bu zaman rus dili vasitəçi (ötürücü) dil kimi çıxış edir.
F.Veysəlli. SDƏ, I, s. 284-299.

ЯЗЫКИ ПРЕФИГИРУЮЩИЕ - alm. präfigierende Sprachen (Pl.), ing. with a prefix languages /wɪð ə 'pri:fɪks 'læŋgwɪʤɪz/, prefixal languages /'pri:fɪksəl 'læŋgwɪʤɪz/, fr. langues juxtaposantes, azərb. önşəkilçili dillər. - Məs.: alm. d. /Suchen-besuchen/ (axtarmaq – baş çəkmək), ing. d. /realy-unrealy/ (real–qeyri-real), rus d. /сказать-рассказать/ və s. Azərbaycan dilində önşəkilçi ancaq alınma sözlərdədir. Müq. et: /əməl-biəməl/, /dürüst-nadürüst/ və s. Alm. d. 1) ayrılan; 2) ayrılmayan; 3) həm ayrılan, həm ayrılmayan önşəkilçilər vardır. Müq. et: 1) /an, in, auf, vor, aus, bei/ və s.; 2) /be, ge, er, ver, zer, ent, emp, miss/; 3) /über, wieder, hinter, unter, um/ və s.
G.Helbig, J.Buscha. Deutsches Handbuch für Grammatik. Ein Lehrbuch für den Ausländerunterricht. Leipzig, 1998, s. 401-445.

ЯЗЫК ПРОФЕССИОНАЛЬНЫЙ - alm. Berufs=, professionelle Sprache (f), Sondersprache (f), ing. professional language /prə'feʃənəl 'læŋgwɪʤ/, fr. langue professionnelle, azərb. sənət, peşə dili. - Məs.: Müəyyən bir peşə, sənət və iş qrupuna xas olan danışıq dili. Məs.: Almaniyada kitab çapçıları /Leiche/ (düşmüş söz), /Zwiebelfisch/ (səhv hərf) və s. sözlərdən istifadə edirlər.
R.Conrad. Göstərilən əsəri, s. 52.

ЯЗЫК РОДНОЙ - alm. Muttersprache (f), ing. mother tongue /'mʌðə tʌŋ/, fr. langue maternelle, azərb. ana dili. - Uşaqlıqdan mənimsədiyimiz dil, amerikanlar buna /the first language/, yəni birinci dil deyirlər. Azərbaycan türklərinin ana dili Azərbaycan dilidir.
F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004.

ЯЗЫКИ РОДСТВЕННЫЕ - alm. verwandte Sprachen (Pl.), ing. cognate (related) languages /'kɒgneɪt//rɪ'leɪtɪd/ 'læŋgwɪʤɪz/, fr. langues parentes, azərb. qohum dillər. - Genetik cəhətdən qohum olan dillər. Məs.: türk dilləri bu baxımdan qohum dillərdir. Hələ 1538-ci ildə Q.Postellus (1510-1581) „De affinitatae linguarum" („Dillərin qohumluğu haqqında") əsərini çap etdirir. Bundan sonra J.Y.Skaliger (1540-1609) intibah dövrünün tanınmış filoloqu Y.Sezar, Skaligerin oğlu (1484-1558), dilləri qohumluq baxımdan qruplara bölməyə çalışırdı.

Fransada 1610-cu ildə çap etdirdiyi „Diatriba de europeorum linguis" („Avropa dilləri haqqında düşüncə") adlı kitabında Skaliger ona məlum olan Avropa dillərini 11 ana dili şəklində qruplaşdırır: 4-ü böyük dil (yunan, latın (roman dillərilə birgə), tevton (german dilləri) və slavyan dilləri, 7-si isə kiçik dil kimi göstərilir: epirot (alban), irland, kimr (britt) bretonla birgə, tatar, fin lopar dililə birgə, macar və bask. „Allah" sözünün müqayisəsi (yunanca deus, latınca theos) bu dillərdə qohumluğu aydın göstərsə də, müəllif yunan dililə latın dilinin qohumluq dərəcəsini müəyyən edə bilməmişdi. Ancaq o, german dillərində qohumluğu duymuş və samit irəliçəkilməsini əsas götürərək onların bölgüsünü verməyə nail olmuşdur. Məs.: su aşağı alman dialektində /Water/, yuxarı alman dialektində isə /Wasser/ kimi tələffüz olunur.

Sonralar bu samit irəliçəkilməsi ideyasını R.Rask və Y.Qrimm inkişaf etdirdilər.

Amma onlardan xeyli əvvəl məşhur riyaziyyatçı və filoloq Q.V.Laybnis (1646-1716) dil ailəsi anlayışını əsaslandırdı və ona bəlli olan dilləri 2 böyük qrupda ümumiləşdirdi. Özü də ikinci qrupu təzədən 2 yerə böldü:

I. Aramey dilləri (yəni semit dilləri); II. Yafetik dillər: a) skif, fin, türk, monqol, slavyan dilləri; b) kelt dilləri (başqa Avropa dilləri). İsveç F.J.Stralenberq (1676-1750) Sibir dillərini öyrənir, Simali Avropa, Sibir, Şimali Qafqaz dillərinin, o cümlədən türk dillərinin genealoji bölgüsünü 1730-cu ildə çap etdirdiyi müqayisəli cədvəldə ümumiləşdirir.

1786-1787-ci illərdə „Bütün dillərin və şivələrin müqayisəli lüğətləri" adlı rus dilində çap olunan əsər Avropa və Asiyanın 200-ə qədər dilinə tərcümə edilir. Bu „Dillər katoloqu" 1791-ci ildən ikinci dəfə nəşr olunur, Amerika və Afrikanın da dillərinin əlavə edilməsilə 272 dili əhatə edir. Bu lüğəti Rusiya Akademiyası çap etdirdiyindən o, dövlət səviyyəsində hazırlanmış kataloq hesab edilir.

İkinci belə bir lüğəti ispan missionerləri Z.Ervas və Panduro 1784-cü ildə italyan dilində „Catalogo delle lingue conosciute notizia della loro affunita e diversità" adı ilə hazırlayırlar, 1800-1805-ci illərdə isə onu ispan dilində çap etdirirlər. Bu lüğətdə 400 dil əhatə olunur.

1806-1817-ci illərdə almanlar J.X.Adelunq və S.S.Fater „Mithridates oder allgemeine Sprachkunde" („Mitridat və ya ümumi dilçilik") dünyanın 500 dilini əhatə edən „Vətənimiz" adlı ibadətin mətnini çap

etdirirlər. Maraqlıdır ki, bu kitabda V. fon Humboldtun bask dili haqqında qeydləri özünə yer almışdır.

İtaliyalı səyyah F.Sasseti hindusların dililə latın dilinin qohum olmasını „Hindistandan məktublar"da xüsusi qeyd edir, ancaq bunlardan düzgün nəticə çıxarılmır. Ancaq Benqaliyədə 1786-cı ilin fevralında Asiya cəmiyyətindəki məruzəsində ser Vilyam Couns (1746-1794) sanskritin yunan və latın dillərinə qohum olmasını qətiyyətlə bildirir. O yazır: „Sanskrit nə qədər qədim olsa da, onun çox möcüzəli quruluşu var. O, yunan dilindən daha təkmildir, latından çox zəngindir və hər ikisini seçmə incəliyilə üstələyir; bununla yanaşı sanskrit fel köklərində və qrammatik formalarında latın və yunan dillərinə çox oxşayır. Bu oxşarlıq o qədər böyükdür ki, onların bir ümumi qaynaqdan törədiyinə heç bir filoloq inanmaz və bu səbəbdən də bu dillərdəki oxşarlıqları tədqiq edə bilməzdi".

Hind-Avropa dillərinin qohumluğu məsələsi XIX əsrin əvvəllərində tarixi-müqayisəli metodun genişlənməsilə daha intensiv şəkildə gündəmə gəlirdi. F.Bopp (1791-1867) həmin metodla sanskrit, yunan, latın və qot dillərində əsas fellərin təsrifini müqayisə edərək onların kökünü və sonluqlarını qarşılaşdırır. Bu cür müqayisə fleksiyalar yarımsistemində uyğunluqları üzə çıxartmağa imkan verir. O, 1833-cü ildə „Hind-german (Avropa) dillərinin müqayisəli qrammatika"sını yazır.

R.Rask (1787-1832) dillərin qohumluğunu sübut etmək üçün leksik uyğunluqlar deyil, qrammatik uyğunluqların vacibliyini vurğulayırdı. İsland dilinin tədqiqindən işə başlayan R.Rask öz tədqiqat dairəsini tədricən genişləndirir, onu Norveç, İsveç, Danimarka və digər german dillərilə müqayisə edir, sonda isə yunan, latın, slavyan və baltik dillərini də müqayisəyə cəlb edir.

Slavyan dillərinin müqayisəsi sahəsində A.X.Vostokovun (1781-1864) xidmətləri böyük olmuşdur. O, ölü dilləri də tədqiqata cəlb etməyi zəruri hesab edirdi.

A.F.Polt (1802-1887) hind-Avropa dillərinin müqayisəli-etimoloji cədvəllərini müəyyənləşdirirdi.

Sonralar F.Dits (1794-1876) roman, Y.Qrimm (1785-1868) german, A.Şlayxer (1821-1868) baltik dilləri üzrə geniş tədqiqatlar apararaq onların qohumluğunu danılmaz faktlarla sübut etdilər.

A.Şlayxer naturalist və darvinist dünyagörüşünü dilçiliyə gətirir və dili bütün canlı orqanizmlərlə müqayisə edərək belə nəticəyə gəlir ki, dillər boy atır, bu zaman onlar təbiətin qanunlarına tabe olur. O, şəcərə nəzəriyyəsini işləyib hazırlayır, onun gövdəsi və hər bir budağı tən yarı bölünür, hər bir dili ulu dilə bağlayır, ulu dildə tarazlıq, ardıcıllıq hökm sürür. A.Şlayxer hətta hind-Avropa ulu dilində təmsil yaradır. Bu da dil strukturlarının rekonstruksiyası nəticəsində mümkün olmuşdur. O, 1861-62-ci illərdə „Hind-Avropa dillərinin müqayisəli qrammatikasının kompendiumu" (qısa şərhi) adlı kitabında öz tədqiqatlarını ümumiləşdirir.

Məlum oldu ki, A.Şlayxerin „səs tərkibinin və formaların sadəliyi" sonrakı dövrlərin məhsuludur, sanskritdə vokalizm, yunan dilində isə zəngin konsonantizm sadələşir, yəni yunan zəngin konsonantizmi və sanskrit vokalizmi hind-Avropa ulu dilinin bərpası üçün yeganə düzgün yoldur. Sonrakı tədqiqatlar göstərdi ki, qədim dillər onların ulu dillərindən daha zəngin və rəngarəngdir. Gənc qrammatiklər naturalist baxışdan imtina etdilər, romantizmdən və naturalizmdən üz döndərərək pozitivizmə və qeştalt-psixologiyaya üz tutdular.

A.Meye (1866-1936) yazırdı: „... iki dil o zaman qohum sayılır ki, onların hər ikisi əvvəllər istifadədə olmuş eyni bir dilin iki müxtəlif təkamülünün nəticəsi kimi götürülsün. Qohum dillərin məcmusu dil ailəsini təşkil edir". (A.Мейе. Введение в сравнительное изучение индоевропейских языков. M., 1938, s. 73).

Aşağıdakı misal hind-Avropa dillərinin qohumluğunu sübut edir:

rus.	litovca.	sanskrit.	fars d.	ing.	alm.
мать	motẽ	mātá	madər	mother	Mutter

Türk, manqol və tunqus-mancur dilləri şərti olaraq Altay dilləri adı altında aşağıdakı kimi qruplaşdırılır:

I Türk dilləri

1) Türkiyə türkcəsinin 1929-cu ildən latın, əvvəllər isə ərəb qrafikası əsasında yazısı olub; 2) Azərbaycan türkcəsinin əvvəllər ərəb, 1929-39-cu illərdə latın, 1939-1992-ci ilədək kiril, 1992-ci ildən bu yana isə latın qrafikalı yazısı vardır; 3) Digər türk dilləri isə bunlardır: türkmən, qaqauz, Krım-tatar, karaçay-bolkar, kumik, noqay, karaim, tatar, başqırt, altay (oyrot), şor (soqay, beltir, kuçin, koybal, qızıl, şor dialektlərilə), tura, yakut, dolqan, kazax, qırğız, özbək, qarakalpak, uyğur, çuvaş, ölü dillər: orxon, peçeneq, kıpçaq (kuman), qədim uyğur, çığatay, bulqar, xəzər.

II Monqol dilləri

monqol, buryat, kalmık (daqur, dunsyan, monqor)

III Tunquso-mancur dilləri

evenk (tunqus, neqıdal və solon), lamut, mancur, curcas, nanay, udey.

A.A.Реформатский. Göstərilən əsəri, s. 386-428.

ЯЗЫКИ СИНТЕТИЧЕСКИЕ - alm. synthetische Sprachen (Pl.), ing. synthetic languages /sın'θetık 'læŋgwıʤız/, fr. langues synthétiques, azərb. sintetik dillər. - Qrammatik əlaqənin söz daxilində dəyişiklik və əvəzlənməsilə ifadə olunan dillərə sintetik dillər deyilir. Buraya əsasən

yunan, latın, sanskrit, rus, alman və s. dilləri daxildir. Məs.: alm. d. /Vater/ (ata - təkdə) - /Väter/ (atalar - cəmdə) və s.
R.Conrad. Göstərilən əsəri, s. 248.

ЯЗЫК СМЕШАННЫЙ (ЯЗЫК ГИБРИДНЫЙ) - alm. Mischsprache (f), ing. mixed language /mɪkst 'læŋgwɪʤ/, fr. langue mixte (langue hybride), azərb. qarışıq (hibrid) dil. Məs.: kreol dil, picin və s. dillər.
Вах: Пиджин или креол язык ←.

ЯЗЫК СТАРОПИСЬМЕННЫЙ - alm. altschriftliche Sprache (f), ing. language with an old established system of writing /'læŋgwɪʤ wɪð æn ould ɪs'tæblɪʃt 'sɪstɪm əv 'raɪtɪŋ/, fr. langue à l'écriture ancienne, azərb. əskiyazılı dil. - IX əsrin birinci yarısından yunan dilindən kilsə yazılarının tərcüməsində olan, əski slavyan dili əsasında qədim bolqar dialekt əlamətləri olduğundan bunu erkən bulqar dili də adlandırırlar. Liturgiyada işlənsə də, rus ədəbi dilinin ilkin abidələri hesab olunur.
R.Conrad. Göstərilən əsəri, s. 31.

ЯЗЫКИ ТАЙНЫЕ - alm. geheime Sprachen (Pl.), ing. secret (mysterious, strange) languages /'si:krɪt//mɪ'stɪərɪəs/ streɪnʤ/ 'læŋgwɪʤɪz/, fr. langues secrètes (langues dissimulées), azərb. məxfi dillər. - Bəzən qarğa dili deyilən bir dil. Onu insanlar düşünüb tapırlar ki, öz aralarındakı sirri qoruyub saxlaya bilsinlər.
F.Yadigar (Veysəlli). Dilimiz, qeyrətimiz və qayğılarımız. Bakı, 1993.

ЯЗЫК ТОНОВЫЙ - alm. Tonsprache (f), ing. tone language /toʊn /təʊn/ 'læŋgwɪʤ/, fr. langue tonique, azərb. tonlu dil. - Fonoloji sistemində ton korrelyasiyası fərqləndirici əlamət olan dil.
Вах: Языки политонические ←.

ЯЗЫК УСТНЫЙ - alm. mündliche Sprache (f), ing. oral language /'ɔ:rəl 'læŋgwɪʤ/, fr. langue orale, azərb. şifahi dil. - Yazısı olmayan, yalnız şifahi formada mövcud olan dil. Məs.: Azərbaycanda kız və ya xınalıq dilləri.
Лингвистический энциклопедический словарь. М., 2000, с. 540.

ЯЗЫКИ ФЛЕКТИВНЫЕ - alm. flektierende Sprachen (Pl.), ing. inflexional languages /ɪn'flekʃənəl 'læŋgwɪʤɪz/, fr. langues flexionnelles, azərb. flektiv dillər. - Yeni formanın əmələ gəlməsi baxımdan dillər təcrid edilmiş (amorf), iltisaqi (aqlütinativ), flektiv və ya fuziyon olurlar. Flektiv dillərdə qrammatik əlaqələr kökdən asılı olan və bir neçə məna ifadə edən formalardan ibarətdir. Məs.: rus d. /-a/ sözün sonuna əlavə edilir, təki, adlıq halını və qadın cinsini bildirir.
R.Conrad. Göstərilən əsəri, s. 248.

ЯЗЫК ХРОНОРАЗЛИЧАЮЩИЙ - alm. chronounterscheidende Sprache (f), ing. chrone distinguishing language /krɒ'nəʊ /krɒnɪ/ dɪs'tɪŋgwɪʃɪŋ 'læŋgwɪdʒ/, fr. langue à différence chronologique, azərb. xron fərqləndirici dil.
Bax: Хронема ←.

ЯЗЫК ЧИСТЫЙ - alm. reine Sprache (f), ing. pure language /ˌpjʊə 'læŋgwɪdʒ/, fr. langue pure, azərb. təmiz, saf dil. - Əslində sözün həqiqi mənasında təmiz dil yoxdur. Dildə həmişə alınmalar olur. Ən təmiz söz klassı fellərdir.
A.A.Реформатский. Göstərilən əsəri, s. 139-146.

ЯЗЫКОВ АССОЦИАЦИЯ - alm. Assoziation der Sprachen (f), ing. association of languages /əˌsəʊsɪ'eɪʃən əv 'læŋgwɪdʒɪz/, fr. association des langues, azərb. dillərin assosiasiyası. - XVII-XVIII əsrlərdən İtaliya „Academia della Crusca" (1582) timsalında Almaniyada knyazların, imtiyazlıların və şairlərin alman dilinin təmizliyini qorumaq və xarici təsirlərinə müqavimət göstərmək üçün, habelə onun poetik ifadəliyini yüksəltmək üçün müxtəlif birlikləri və cəmiyyətləri yarandı. Onlardan ən nüfuzlusu 1617-ci ildə Vaymarda yaradılmış „Məhsul gətirən cəmiyyət" („Fruchtbringende Gesellschaft") idi. Onun əsas xidməti tərcüməyə qayğı, tərcümə sənətinin inkişafı, qrammatika və orfoqrafiya üzrə lüğətlərin hazırlanması idi. 1885-ci ildə yaradılmış „Alman dil birliyi" bu səyləri davam etdirdi. Bu birlik 1925-ci ildən „Muttersprache" jurnalını çap etdirir. Bu jurnalı 1949-cu ildən isə „Alman dili Cəmiyyəti" („Gesellschaft für deutsche Sprache") çap etdirir. Digər bir nüfuzlu dilçilik cəmiyyəti 1886-cı ildə yaradılmış Paris Dilçilik Cəmiyyətidir. O, daha çox „Linqvistik Cəmiyyət" kimi tanınır. Onun illik bülleteni 1869-cu ildən çap olunur. 1924-cü ildə isə Amerika Dilçilik Cəmiyyəti təsis edilib. 1925-ci ildə bu cəmiyyət rüblük „Language" jurnalını çap etdirir. 1950-ci illərin sonunda Böyük Britaniya Dilçilik Assosiasiyası yaranıb. Bu cəmiyyət 1965-ci ildən başlayaraq „Journal of Linguistics"-i çap etdirir.
H.Bußmann. Göstərilən əsəri, s. 708; P.H.Matthews. Göstərilən əsəri, s. 210, 345.

ЯЗЫКА ВЫСШАЯ ЕДИНИЦА - alm. höhere Einheit der Sprache (f), ing. highest unit of the language /haɪest 'ju:nɪts əv ðə 'læŋgwɪdʒ/, fr. unité supérieure de la langue, azərb. dilin yüksək vahidi. - Struktur dilçilikdə ən aşağı səviyyənin vahidi merizm (fərqləndirici əlamət), ən yüksək səviyyənin vahidi isə mətndir /diskursdur.
Bax: Дискурс (текст) ←.

ЯЗЫК ВЫСШЕГО УРОВНЯ - alm. höchstes Niveau [-vo:] der Sprache (f), ing. highest level of the language /haɪest 'levəl əv ðə 'læŋgwɪdʒ/,

fr. niveau supérieur de la langue, azərb. dilin yüksək səviyyəsi. - Buraya sintaktik və ya mətn səviyyəsi daxildir.
Bax: Уровни языка ←.

ЯЗЫКОВ ГЕНЕТИЧЕСКАЯ СВЯЗЬ - alm. genetischer Zusammenhang (Verbindung) der Sprachen (m), ing. genetic connection (relation) of the languages /dʒə'netik kə'nekʃən /rɪ'leɪʃən/ əv ðə 'læŋgwɪdʒɪz/, fr. liaison des langues génétigues, azərb. dillərin genetik əlaqəsi. - Azərbaycan, Türkiyə, Türkmənistan və Qaqauz türkcələri genetik baxımdan ən yaxın əlaqədə olan dillərdir.
Bax: Генетическое родство языков ←.

ЯЗЫКА ГРАММАТИЧЕСКАЯ СИСТЕМА - alm. grammatikalisches System der Sprache (n), ing. grammatical system of language /grə'mætɪkəl 'sɪstɪm əv 'læŋgwɪdʒ/, fr. système grammatical de la langue, azərb. dilin qrammatik sistemi. - Qrammatika səviyyəsində bütün qarşılaşmaların məcmusu.
Bax: Грамматическая система ←.

ЯЗЫКА ДОИСТОРИЧЕСКОЕ РАЗВИТИЕ - alm. prähistorischer (vorgeschichtlicher) Entwicklungsgang der Sprache (m), ing. prehistoric development of language /ˌpri:hɪ'stɔ:rɪk dɪ'veləpment əv 'læŋgwɪdʒ/, fr. développement préhistorique de la langue, azərb. dilin tarixəqədərki inkişafı. - Dilin ilkin dövrlərdəki vəziyyəti, dilin yazılı abidələrdə əks edilməsindən əvvəlki dövrü.
Б.М.Алпатов. История лингвистических учений. М., 2001, s. 9-18.

ЯЗЫКА ДУХ - alm. Geist der Sprache (m), ing. spirit of language /'spɪrɪt əv 'læŋgwɪdʒ/, fr. esprit de la langue, azərb. dilin ruhu. - V. fon Humboldtun fikrincə, dil xalqın ruhudur. V. fon Humboldt yazır ki, ümumiyyətlə, dil qırılmaz surətdə „insanın ruhi qüvvəti" ilə bağlı olduğu kimi, hər bir konkret dil də „xalqın ruhu" ilə bağlıdır.
W. von Humboldt. Über die Verschiedenheit des menschlichen Sprachbaues über die Sprache. Wiesbaden, 2003, s. 15-279.

ЯЗЫКА КАРКАС РЕЛЯЦИОННЫЙ - alm. Relationsgestalt der Sprache (f), ing. carcass frame of language /kɑ:'kəs freɪm əv 'læŋgwɪdʒ/, fr. carcasse relationnelle de la langue, azərb. dilin relyasion əsası (çərçivəsi), (dilin münasibətlər və ya əlaqələr şəbəkəsi).
W. von Humboldt. Göstərilən əsəri.

ЯЗЫКА КВАНТИТАТИВНЫЙ АНАЛИЗ - alm. quantitative Sprachanalyse (f), ing. quantitative analysis of language /kwɒntɪtətɪv ə'næləsɪs əv 'læŋgwɪdʒ/, fr. analyse quantitative de la langue, azərb. dilin kvantitativ təhlili. - Amerikan alimi G.Tsipf (1902-1950) öz tədqiqatlarında dil vahidlərinin işlənmə tezliyilə onların uzunluğu və ya əmələ gəlməsi arasında bir nisbət mövcudluğunu xüsusi qeyd edirdi. O yazırdı ki, „da-

ha az enerji sərf etməklə düzələn dil vahidləri daha yüksək işlənmə tezliyinə malikdir. ... daha qısa sözlər daha yüksək işlənmə tezliyinə malikdirlər."
F.Yadigar (Veysəlli). GDG, s. 67.

ЯЗЫКА ЛИНЕЙНОСТЬ - alm. Linearität der Sprache (f), ing. linearity of language /'lınıərıtı əv 'læŋgwıdʒ/, fr. langue linéaire, linéairité, azərb. dilin xəttiliyi. - F. de Sössürdən sonra bu xəttilik dil işarələrinin əsas əlaməti kimi götürülür. Bu təlimə görə dil işarələri düz xətt boyunca bir-birinin dalınca düzülür. Riyazi formullarda olduğu kimi, dildə də eyni vaxtda və eyni yerdə iki müxtəlif dil vahidi gələ bilmir. Məs.: Azərb. d. /a/x/ş/a/m/.
F.Yadigar (Veysəlli). GDG, s. 58.

ЯЗЫКА НОМИНАТИВНЫЕ СРЕДСТВА - alm. Nominativmittel der Sprachen (n), ing. nominative means of language /'nɒmınətıv mi:nz əv 'læŋgwıdʒ/, fr. moyen nominatif de la langue, procédé nominativ de la langue, azərb. dilin nominativ vasitələri. - Məs.: Azərb. d. /İsim, sifət, fel və zərf adlıq halında işlənmiş sözlərdir// və ya /Axşam/, /İşıqlı otaq/ nominativ cümlələrdir..
R.Conrad. Göstərilən əsəri, s. 182.

ЯЗЫКОВ ОБОСОБЛЕНИЕ - alm. Absonderung (f), Isolierung (f), Sonderung (f) der Sprache (f), ing. isolation of languages /ˌaısə'leıʃən əv 'læŋgwıdʒız/, fr. isolation des langues, azərb. dillərin xüsusiləşməsi, ayrılması. - Hər hansı bir dil müəyyən əlamətə görə başqalarından ayrılır. Məs.: ingilis dili digər german dillərindən təyinin özündən sonra gələn sözlə uzlaşmaması ilə fərqlənir.
F.Veysəlli. GDG, s. 121-127.

ЯЗЫКА ПСИХОЛОГИЯ - alm. Psychologie der Sprache (f), ing. psychology of language /saı'kɒlədʒı əv 'læŋgwıdʒ/, fr. psychologie de la langue, azərb. dilin psixologiyası. - Dilin psixoloji özəlliklərinin öyrənilməsi.
Bax: Психолингвистика ←.

ЯЗЫКА РАЗНОВИДНОСТЬ - alm. Abart, Variante [va-] der Sprache (f), ing. variety of language /və'raıətı əv 'læŋgwıdʒ/, fr. variété de la langue, azərb. dilin müxtəlifliyi. - Dilin dialekt, bölgə və milli çalarlıqları. Dialekt və bölgə çalarlıqları bir dil daxilində diatopik bölgüdür. Milli çalarlıq isə bütün dil səviyyələrində hiss olunacaq fərqlərlə səciyyələnir. Məs.: Cənubi Azərbaycandakı dil fonetik, leksik və az da olsa, qrammatik səviyyələrdə Şimali Azərbaycandakı türkcədən fərqlənir. Eləcə də Azərbaycandakı alman dili Almaniyadakı alman dilindən fərqlənir.
F.Veysəlli. Dil, cəmiyyət və siyasət. Bakı, 2004.

ЯЗЫКА РАСПАДЕНИЕ - alm. Sprachspaltung (f), ing. divergence of language /daı'vɜ:dʒəns əv 'læŋgwıdʒ/, fr. chute de la langue, démenbre-

ment de la langue, azərb. dilin parçalanması. - Ulu german dilləri hazırkı german dillərinə parçalanıb. Mütəxəssislərin fikrincə, ulu german dili min il yaşayıb, sonra isə german tayfaları üç qrupa bölünüblər: quzey, doğu və batı germanları. Həmin batı german tayfalarının dilindən sonralar ingilis, friz, alman və daç dilləri meydana gəlmişdir».
F.Yadigar (Veysəlli). GDG, s. 110.

ЯЗЫКОВ СБЛИЖЕНИЕ - alm. Annäherung der Sprachen (f), ing. rapprochement of languages /ræ'prɔʃmɑ:ŋ əv 'læŋgwɪʤɪz/, resemblance of languages /rɪ'zembləns əv 'læŋgwɪʤɪz/, fr. rapprochement des langues, azərb. dillərin yaxınlaşması. - Tarixi, ictimai, siyasi, iqtisadi və ticari əlaqələr və şərtlər çərçivəsində dillərin bir-birinə yaxınlaşması baş verir. Məs.: Azərbaycan müstəqillik qazandıqdan sonra Azərbaycan və Türkiyə türkcələri xeyli yaxınlaşmışlar.

F.Veysəlli. Türkoloji qurultay – 80. „525-ci qəzet", 2006.

ЯЗЫКОВ СЕМЕЙСТВО - alm. Sprachenfamilie (f), ing. family of languages /'fæmılı əv 'læŋgwɪʤɪz/, fr. famille des langues, azərb. dillər ailəsi. - Genetik qohumluğu olan, yəni qrammatik quruluşunda, tələffüz qaydalarında və leksik layında qohumluq əlaqələrinin sübut olunduğu dillər qrupu. Bu dillərin eyni bir ulu dildən törədiyi göstərilir. Qohumluq əlaqələri o deməkdir ki, eyni bir dil ailəsi içərisində ayrı-ayrı dil qolları da ola bilər. Bu gün yer üzündə bütün dillərin qohumluq dərəcəsi tam öyrənilməsə də, mütəxəssislər ümumi şəkildə 30-100 dil ailəsi fərqləndirirlər. Onların içərisində ən dərin tədqiq olunanı hind-Avropa, hamit-semit, fin-uqor, türk dilləri, sino-tibet və s. dil ailələri hesab olunur.
R.Conrad. Göstərilən əsəri, s. 242.

ЯЗЫКОВ СЕМЬЯ - alm. Sprachenfamilie (f), ing. family of languages /'fæmılı əv 'læŋgwɪʤɪz/, fr. famille de langues, azərb. dillər ailəsi.
Bax: Языков семейство ←.

ЯЗЫКОВ СКРЕЩЕНИЕ - alm. Sprachkreuzung (f), ing. crossing of languages /'krɒsıŋ /'krɔ:sıŋ/ əv 'læŋgwɪʤɪz/, fr. croisement des langues, azərb. dillərin çarpazlaşması.
Bax: Языков скрещивание →.

ЯЗЫКОВ СКРЕЩИВАНИЕ - alm. Sprachenkreuzung (f), ing. crossing of languages /'krɒsıŋ əv 'læŋgwɪʤɪz/, fr. accouplement des langues, azərb. dillərin çarpazlaşması. - Dillərin çarpazlaşması hərbi-siyasi toqquşmalar zamanı baş verir. Məs.: franklar (germanlar) latın-qalliya əyalətlərini zəbt etdikdə öz dillərini itirdilər, məğlub xalqa bir neçə ad verdilər, o cümlədən ölkənin adı Fransanı, özləri isə dillərini itirdilər. Eynilə Şimali Fransanı zəbt edən skandinaviyalılar-normanlar fransız dilini və adətlərini qəbul etdilər, ancaq fransızlar-normanlar XI əsrdə Britaniya adalarını zəbt etdikdə İngiltərənin yuxarı zümrəsini təşkil etsə-

lər də, öz dillərini itirdilər, qalib gələn anqlo-sakson dili oldu, hərçənd ki, fransız dilindən külli miqdarda söz də götürdülər. Çarpazlaşmada adətən iki məfhum fərqləndirilir: substrat və superstrat. Hər ikisi qalib dildə məğlub dilin elementləridir. Ancaq məğlub dildə qalib dilin də elementləri özünə yer tapanda, bu olur substrat, məğlub dilin elementləri qalib dildə özünə yer taparsa, bu olur superstrat. Latın-qall çarpazlaşmasında fransız dilində qall elementləri substrat, bolqar-slavyan çarpazlaşmalarında isə bolqar elementləri superstratdır.
A.A.Реформатский. Göstərilən əsəri, s. 468-469.

ЯЗЫКОВ СЛИЯНИЕ - alm. Zusammenfließen der Sprachen (n), ing. confluence (junction) of languages /'kɒnfluəns/ /'dʒʌŋkʃən/ əv 'læŋgwɪdʒɪz/, fr. union des langues, azərb. dillərin qarışması, birləşməsi. - Həqiqi mənada dillərin birləşməsi mümkün deyildir. Belə bir vəziyyəti biz kreol və picin dillərində görə bilərik.
Bax: Креоелский язык ←.

ЯЗЫКОВ СМЕШЕНИЕ - alm. Sprachenverwirrung (f), ing. confusion of languages /kənfju:ʒən əv 'læŋgwɪdʒɪz/, fr. confusion des langues, azərb. dillərin qarışdırılması. - Dilin bütün səviyyələrində birtərəfli və ya qarşılıqlı təsirdən yaranan qarışıq dil. Bu zaman geniş şəkildə interferensiya yaranır.
Bax: Интерференция ←.

ЯЗЫКА СОСТОЯНИЕ - alm. Zustand der Sprache (m), ing. condition (state) ōf language /kən'dɪʃən//steɪt/ əv 'læŋgwɪdʒ/, fr. position de la langue, azərb. dilin vəziyyəti. - Dilin müəyyən zaman kəsiyindəki vəziyyəti, sistemi.
Bax: Система языка ←.

ЯЗЫКОВ СОЮЗ - alm. Sprachbund (m), Sprachverband (m), ing. alliance of languages /ə'laɪəns əv 'læŋgwɪdʒɪz/, union of languages /ju:njən əv 'læŋgwɪdʒɪz/, fr. union des langues, azərb. dillərin birliyi, ittifaqı. - Coğrafi cəhətdən qonşu, genetik cəhətdən qohum olmayan, ya da marginal qohumluğu olan, təsirlər (adstrat←, dil əlaqəsi←) nəticəsində razılaşmalar, konvergensiya hadisələrinin təsadüf etdiyi, bu konvengensiya hadisələri onları digər qonşu və (və ya) genetik cəhətdən qohum olan dillərdən fərqləndirir. Dillər ittifaqı uzun illər yanbayan yaşayıb, tarixi əlaqədə olan dillərin birliyidir. Buna bariz nümunə kimi balkan dillərini (alban, rumın, yeni yunan, bolqar, makedon və serb-xorvat) göstərmək olar. Bunlar heç də hamısında eyni dərəcədə mövcud olmayan ümumi cəhətlərə malikdir. Məs.: alban, bolqar, makedon və yeni yunan dilində infinitiv yoxdur, alban, bolqar, makedon və rumın dillərində artikl postpozitivdir.
H.Buβmann. Göstərilən əsəri, s. 698; R.Conrad. Göstərilən əsəri, s. 241.

ЯЗЫКОВ СРАВНЕНИЕ - alm. Vergleich der (von) Sprachen (m), ing. comparison of languages /kəm'pærısən əv 'læŋgwıʤız/, fr. comparaison des langues, azərb. dillərin müqayisəsi.

Bax: Языки родственные ←.

ЯЗЫКА СТИЛЬ - alm. Stil der Sprache (m), ing. style of language /'staıl əv 'læŋgwıʤ/, fr. style de la langue, azərb. dilin üslubu. - „Dil sisteminə məxsus yarımsistemlərdən biri kimi götürülən üslub. Belə yarımsistemin realizə olunması nitq üslubu hesab edilir. Bütün funksional və ekspressiv prinsip əsasında qruplaşdırılan üslub dil üslubu hesab olunur".

M.I.Adilov və b. Göstərilən əsəri, s. 298.

ЯЗЫКА ТИП - alm. Typ (m), Art der Sprache (f), ing. type of language /'taıp əv 'læŋgwıʤ/, fr. type de la langue, azərb. dilin tipi. - Tarixi qohumluq əlaqələrindən asılı olmayaraq morfoloji, fonetik və sintaktik oxşarlıqları, ümumi cəhətlərilə səciyyələnən dil sinifləri. Dilçilik elmi bu dil tiplərini fərqləndirir: a) qrammatik morfemlərin olmasına görə: formalı dillər (hind-Avropa, semit, fin-uqor); formasız dillər (amorf, kök dillər), yəni yalnız leksik morfemlərdən ibarət olan dil. Təmiz amorf dil yoxdur, ancaq güclü şəkildə amorf olan dilə Çin dili misal ola bilər; b) forma düzəltməyin növünə görə: təcrid edilmiş (izolə) dillər, forma düzəltməyən amorf dillər; iltisaqi (aqlütinativ – hər bir qrammatik məna ayrıca morfemlə ifadə olunur, qrammatik morfemlər bu dillərdə bir-birinin ardınca düzülür (türk dilləri), flektiv və ya fuzional dillər (qrammatik münasibətlər sonluqla: xarici fleksiya ya da daxili fleksiya ilə ifadə olunur: bir morfem bir neçə məna ifadə edə bilər. Məs.: rus d. /-a/ qadın cinsi, adlıq halı və təki bildirir); c) formanın düzəlməsində sintezin dərəcəsinə görə: analitik (qrammatik münasibətlər köməkçi ünsürlə ifadə olunur), məs., fr. d. /le père - du père - an père - le père/- („ata" sözü dörd halda); sintetik. Bu dillərdə münasibətlər söz forması daxilində, köməkçi ünsürlərsiz ifadə olunur. Məs.: yunan, latın, sanskrit, rus, alman dilləri; polisintetik və ya inkorporlaşan dillər. Məs.: eskimos dilində əvəzlik söz formasına daxil olur. Bu əlamətlər bir dildə özünü büruzə verə bilər. Məs.: alm. d. formalı, flektiv və sintetik dildir. Ancaq bu dildə analitizm də var. Müq. et: /Ich werde kommen// (Mən gələcəyəm); ç) ton korrelyasiyasına görə: monoton dillər. Çin, latın, rus, alman; politon dillər: Çin, litov, serb, bəzi Afrika dilləri.

R.Conrad. Göstərilən əsəri, s. 248.

ЯЗЫКА УНИФИКАЦИЯ - alm. Unifikation der Sprache (f), ing. unification of language /ˌju:nıfı'keıʃən əv 'læŋgwıʤ/, fr. unification de la langue, azərb. dilin unifikasiyası (vahid şəklə salınması). - Məs.: ing. d. /these/ işarə əvəzliyidir, özü də cəmdədir. /These books/ birləşməsində hər iki söz cəmdədir, onlar birgə əlamətə – cəm şəkilçisinə malikdirlər.

Unifikasiya alman dilinin tarixində xüsusi əhəmiyyət kəsb edən hadisədir. Vurğunun kök saiti üzərinə keçməsilə son hecalar unifikasiyaya uğrayaraq neytral [ə] şəklini aldılar. Rus dilində analogiya sayəsində unifikasiya baş verib. Məs.: (косе - стене - норе - пиле) və s.
P.H.Matthews. Cöstərilən əsəri, s. 390; A.A.Реформатский. Cöstərilən əsəri, 279.

ЯЗЫКА УСТОЙЧИВОСТЬ - alm. Stabilität der Sprache (f), ing. stability of language /stə'bılıtı əv 'læŋgwıʤ/, fr. stabilité de la langue, azərb. dilin sabitliyi. - Dilxarici təsirlərə məruz qalmamaq.
Bax: Устойчивость языка ←.

